**M.H. HÜMBƏTOV**

# CİNAYƏT CƏZALARI, ONLARIN İCRASI, PROBLEMLƏRİ VƏ HƏLLİ YOLLARI

**B A K I – 2026**

**M.H. Hümbətov. Cinayət cəzaları, onların icrası, problemləri və həlli yolları.** Bakı, PrintAz, 2026, 640 s.

© Hümbətov M.H., 2026

# ÖN SÖZ

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə ölkədə demokratik, hüquqi dövlət quruculuğu, o cümlədən, müstəqil ədalət mühakiməsi sisteminin yaradılması sahəsində mühüm işlər görülmüşdür. Müasir məhkəmə-hüquq islahatları konsepsiyasının icrası nəticəsində Sovetlər İttifaqından miras qalmış hüquq sisteminin fəlsəfəsi kökündən dəyişmiş, mütərəqqi qanunvericilik bazası yaradılmışdır. Ölkəmizdə həyata keçirilən hüquq islahatları cəza sistemində əhəmiyyətli yeniliklərə, dəyişikliklərə, cəza-icra sistemində nəzərəçarpacaq dəyişikliklərə səbəb olmuş, beynəlxalq təcrübə əsas götürülərək, cəzaçəkmə müəssisələri Daxili İşlər Nazirliyindən alınaraq Ədliyyə Nazirliyinin tabeliyinə verilmişdir. İslahatlar dövründə cəza-icra sistemi, xüsusilə penitensiar sistem daim diqqət mərkəzində saxlanılmış, onun normativ bazası beynəlxalq standartlara uyğunlaşdırılmış, bu sahədə mühüm dövlət proqramları qəbul edilmişdir.

2006-cı ildə ölkə başçısı İlham Əliyev tərəfindən imzalanan "Ədliyyə orqanlarının inkişafı haqqında" Fərman Azərbaycan ədliyyəsinin inkişafında yeni mərhələ olmaqla, Penitensiar Xidmət qarşısında yeni vəzifələr qoymuş, regionlarda beynəlxalq standartlara cavab verən, müasir penitensiar müəssisələrin inşa edilməsi gündəmə gətirilmişdir. Həmçinin, Azərbaycan Respublikası Prezidentinin "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 10 fevral 2017-ci il tarixli Sərəncamı öz əhəmiyyəti və müəyyən etdiyi vəzifələrin miqyası baxımından ölkənin cinayət və cəza-icra hüquq sahələri üçün perspektiv inkişaf istiqamətlərini müəyyən edən həm əsas hüquqi, həm də əsas konseptual sənəd kimi çıxış edir.

Uzun illərdir ki, cinayətlərə görə tətbiq edilən cəzalar və onların icrası sahəsindəki mövcud problemlər ilə bağlı kifayət qədər

konseptual elmi araşdırlmaların olmaması həmin məsələlərə həsr edilmiş dərslik və dərs vəsaitlərinin hazırlanmasına zəmin yaratmışdır. Müsbət haldır ki, uzun müddət ədliyyə orqanlarında çalışmış M.H. Hümbətovun 2021-ci ildə “Cinayət cəzaları, onların icrası və problemləri” adlı əsəri, habelə təqdim olunan sözügedən dərgiyə istinadən yeni hazırlanmış “Cinayət cəzaları, onların icrası, problemləri və həlli yolları” məcmuəsi bu sahədə mövcud çətinliklərin həlli ilə bağlı elmi araşdırmaların dərinləşməsinə və ölkədə aparılan ardıcıl məhkəmə-hüquq islahatlarının mahiyyətinin dürüst dərk edilməsinə xidmət edir, qüvvədə olan sahəvi qanunvericiliyin dövlət başçısının humanizm, insan haqlarının üstünlüyü və hüquqi məsuliyyət tədbirlərinin səmərəliliyi kimi ideyalara əsaslanan mütərəqqi cinayət-hüquq və cəza-icra siyasətlərinə uyğun bir şəkildə tətbiq edilməsi üçün zəngin nəzəri zəmin yaradır.

M.H. Hümbətov tərəfindən geniş hüquq ictimaiyyətinə təqdim edilən yenilənmiş məqalələr toplusu milli cinayət, cəza-icra hüquq sahələrinin müasir və aktual problemlərə həsr edilmiş bitkin bir elmi əsər olmaqla, maraq doğuran, özünəməxsus elmi və təcrübi əhəmiyyətə malikdir.

Fikrimizcə, bu yeni məcmuə ilk növbədə, cəza təyini ilə məşğul olan hakimlər, eləcə də, cəzaların icrası fəaliyyətini həyata keçirən vəzifəli şəxslər, həmçinin, cinayət hüququ və cəza-icra hüququ sahələri ilə məşğul olan elmi-tədqiqatçılar, o cümlədən, bu hüquq sahələrinin tədrisi prosesinin iştirakçıları – ali təhsil müəssisələrinin professor-müəllim və tələbə heyəti üçün gərəkli vəsait kimi çıxış etmək potensialına malikdir.

***Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin***
***Ədliyyə Akademiyasının prorektoru,***
***h.ü.f.d., dosent, baş ədliyyə müşaviri***
***E.A. Xələfov***

***Mənə həyat bəxş etmiş, daim dayağım olmuş valideynlərimin əziz xatirəsinə itfah edirəm.***

# G İ R İ Ş

Çox qədim tarixə malik olan cinayət cəzası, cinayətkarlıqla mübarizə işində zəruri vasitə, cinayətin məntiqi sonluğu, ictimai təhlükəli hesab olunan əməllərə dövlətin təsirli cavabı, mahiyyətcə cinayət-hüquqi xarakterli məcburiyyət tədbiri kimi çıxış edir. Özündə maddi, mənəvi, psixoloji, habelə fiziki məhrumiyyətləri cəmləşdirən bu fenomen, onun məzmunu, məqsədləri, vəzifələri uzun illər boyu filosofları, mütəfəkkirləri, dövlət xadimlərini, hüquqşünasları, ümumilikdə insanları düşündürmüş, daim müzakirələrə, müxtəlif mübahisələrə, habelə qızğın polemikalara səbəb olmuşdur. Hər bir cəmiyyətdə cinayət cəzası dövlət adından tənbeh edilən şəxsə dairəsi qanunla dəqiq müəyyən olunmuş məhrumiyyətlər tətbiq etməklə, məhkum edilən üçün xüsusi əhəmiyyətli olan hüquq və azadlıqlara müdaxilə edir, onları məhdudlaşdırır, ancaq özünə xas olan spesifik yolla qarşısına qoyulan pozitiv məqsədlərə nail olmağa çalışır. Cəza cinayətkara mənəvi və maddi ziyan yetirməklə yanaşı, ona cəmiyyətin digər üzvləri, xüsusilə yaxınları tərəfindən də hiss edilən "zərbə" vurur və həmin şəxs üçün bir sıra mənfi nəticələr yaradır. Digər tərəfdən, cinayət cəzası cəmiyyətin maraqlarına xidmət göstərir, dövlət tərəfindən ən qiymətli hesab edilən dəyərləri, xüsusilə insan hüquq və azadlıqlarını özünə məxsus qaydada, yəni digər müdafiə vasitələrindən fərqlənməklə daha ciddi şəkildə qorumağa çalışır. Sosial mənşəli cəza təzahürü, onun anlayışı, mahiyyəti, məzmunu, xüsusiyyətləri, məqsədləri, faydalılığı, fəsadları, inkişaf tarixi, zaman keçdikcə dəyişən növləri, gələcək taleyi, inkişaf perspektivləri ilə bağlı müxtəlif zamanlarda və ölkələrdə çoxsaylı fikirlər söylənilmiş, elmi araşdırmalar, tədqiqatlar aparılmış, bu gün də əhəmiyyətini itirməmiş əsərlər işıq üzü görmüşdür. İlk növbədə cəzaya, onun

fəlsəfəsinə aydınlıq gətiməyə çalışan Ş.Monteskyönu, F.Volteri, J.P.Maratı, İ.Kantı, F.Hegeli və A.Feyerbaxı qeyd etmək lazımdır. Sonradan cəza anlayışı və onun mahiyyəti ilə Ç.Bekkariya, İ.Bentam, E.Ferri, C.Horvard və digərləri yaxından məşgul olmuşlar. Cəza ilə bağlı elmin inkişafında A.Boqdanovskinin, S.Poznışevin, S.Mokrinskinin, A.Kistyakovskinin, N.Sergiyevskinin, İ.Foynitskinin, N.Taqantsevin, F.Listin, M.Qernetin, A.Jijilenkonun, sovetlər dövründə A.Genserzonun, M.Şarqorodskinin, A.Trayninin, İ.Karpetsin, L.Baqriy-Şaxmatovun, İ.Noyun, V.Kudryavtsevin, N.Kuznetsovanın, N.Belyayevin, N.Kristinin, İ.Qalperinin, A.Mixlinin, A.Yakovlevin, N.Zubkovanın və digər tanınmış alimlərin böyük xidmətləri olmuşdur.

İstər sabiq SSRİ dönəmində, istərsə müstəqillik illərində Azərbaycanda da cəza ilə bağlı problemlər gündəmdə olmuş, alimlərimiz bu sahəyə öz töhfələrini vermişlər. Cinayət hüququ sahəsində tanınmış alimlərimizdən Vahid Qəhrəmanov, Firudin Səməndərov xüsusilə qeyd edilməlidir. Bu alimlərin cəza ilə bağlı elmi araşdırmaları və sanballı əsərləri hələ uzun müddət öz aktuallığını itirməyəcəkdir[1].

Qeyd edilməlidir ki, cəza hal-hazırda da diqqət mərkəzindədir. Ona həsr olunmuş ayrıca elm sahəsinin, yəni "Penologiya"nın yaranması və inkişafı cəzanın vacibiyinin, eyni zamanda mühümlüyünün göstəricisi kimi qəbul edilməlidir. Azərbaycan Respublikasında 1999-cu ilin 30 dekabrında qəbul edilmiş yeni Cinayət Məcəlləsi beynəlxalq təcrübə nəzərə alınmaqla, cəza institutuna yeniliklər gətirmiş, onun sistemini əhəmiyyətli dərəcədə dəyişdirərək müasirləşdirmişdir.

Cəza ilə bağlı elmi araşdırmalar hazırda bütün dünyada, o cümlədən Azərbaycanda da fəal davam edir. Son illərdə bu sahədə yeni tədqiqatlar aparılmış, elmi əsərlər yazılmış və onların nə-

---

[1] Bax: Qəhrəmanov V.P. Sovet cinayət hüququnda cəza anlayışı. Bakı, 1955; Sovet cinayət hüququnda cəza sistemi. Bakı, 1957; F.Y. Səməndərov. Cinayət hüququnda cəzanın sosial-psixoloji problemləri. Bakı, 1999; Cinayət hüququnda cəza problemi: tarix və müasirlik. Bakı, 2009.

ticələri hüquq ictimaiyyətinə təqdim edilmişdir. Belə ki, 2012–2024-cü illərdə həmyerlimiz, tanınmış alim, ölkənin əməkdar hüquqşünası, hüquq elmləri doktoru, professor İlham Rəhimovun cəzanın tarixinə, onun fəlsəfəsinə, əxlaqiliyinə, cəmiyyətdəki yerinə, məqsədlərinə, səmərəliyinə, gələcəyinə, mövcud problemlərinə, ölüm cəzasına, habelə, cəzanın bəraətinə həsr olunmuş ardıcıl işıq üzü görmüş, bir-biri ilə sıx bağlı olan yeddi fundamental elmi əsəri bir daha cinayət cəzasının hələ də aktual qaldığını sübut etmiş, onun müxtəlif aspektlərdən tədqiqinin davam etdirilməsinin vacibliyini və əhəmiyyətini göstərmişdir[1]. Müxtəlif elm sahələrinə istinad etməklə İ.Rəhimovun apardığı təhlillərin nəticəsində cəzaya "insanları cinayət əməlindən çəkindirən xüsusi vasitə, mahiyyətinin qisas, məzmununun cəzalandırmaq, xüsusiyyətinin xəbərdarlıq və təhdid"[2] olması ilə bağlı verdiyi fəlsəfi tərif, habelə cəzanın səmərəliliyinə yalniz sistemli yanaşma ilə nail olunmasının mümkünluyü[3] barədə fikirləri, cəza ilə bağlı mövcud nəzəriyyələrin, konsepsiyaların, bilgilərin, yanaşmaların bir daha ətraflı nəzərdən keçirilməsinin gündəmdə qaldığına işarədir.

Əsrlər böyu cəzanın məzmunu, növləri dəyişsə də, onun əhəmiyyətinin azalması və ya itirməsi ilə bağlı fikirlər irəli sürülsə də, bu fenomen əsas mahiyyətini qoruyub saxlamış və hazırda öz pozitiv sosial funksiyasını uğurla yerinə yetirməkdə davam edir. Əminik ki, cəza hələ uzun illər boyu belə də qalacaqdır. Fikrimizcə, zaman ötdükcə, habelə cəmiyyət, iqtisadiyyat, elm, texnika inkişaf etdikcə, cəza cəmiyyətin maraqlarını ödəmək, dünyada müşahidə edilən yeni çağırışlara layiqli cavab vermək məqsədilə

---

[1] Bax: İ.M. Rəhimov. Cinayət və cəzanın fəlsəfəsi. Bakı, 2014. 320 s.; Cinayətkarlıq və cəza. Bakı, 2015. 320 s.; Cəzanın əxlaqiliyi haqqında. Bakı, 2016. 216 s.; Ölməz ölüm cəzası. Bakı, 2018. 184 s.; Din və cəza. Bakı, 2021. 240 s.; Dünya dinlərində cinayət və cəza. 2024. 304 s.; И.М. Рагимов. Оправдание наказания. Исторические, религиозные, философские, социалогические аспекты. Санкт-Петербург, 2024, 230 с.

[2] Bax : İ.M. Rəhimov. Cinayət və cəzanın fəlsəfəsi. Bakı, 2014, səh.217.

[3] Bax: И.М. Рагимов. Оправдание наказания. Исторические, религиозные, философские, социалогические аспекты. Санкт-Петербург, 2024, С. 227.

müxtəlif dəyişikliklərə uğrayacaq, yeni məhrumiyyətlər və məhdudiyyətlər müəyyən edəcək, onun yeni növləri həyata vəsiqə alacaqdır. Məhz bu baxımdan onun mahiyyətinin daha dərindən dərk edilməsi, cinayət əməlləri törətmiş şəxslərə təsirinin öyrənilməsı, yaşanılan dövrun tələb və ehtiyaclarına cavab verməsi, gələcək taleyi kimi suallara cavabların axtarılması daim cinayət hüquq elmini maraqlandıran aktual məsələlərdən biri olacaqdır.

Eyni zamanda, tarix boyu cəzanın növbəti mərhələsi, onun məntiqi davamı hesab edilən cəzanın icrası da diqqət mərkəzində olmuşdur. Dövlət adından qəbul edilən hökmlərin mərkəzində özünə yer alan cəzanın cinayət qanunvericiliyində nəzərdə tutulmuş məqsədlərinə, yəni sosial ədalətin bərpasına, məhkumun islahına, istər məhkum, istərsə digər şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısının alınmasına yalnız onun səmərəli icrası ilə nail olunması hamılıqla qəbul edilir. Cəzanın icrası fəaliyyəti də özünə məxsus qədim keçmişə malikdir. Əsrlər bir-birini əvəz etdikcə, cəzaların icrası qaydası da hakim qüvvələrin marağı, cəmiyyətin inkişafı və tələbatı baxımından dəyişmiş, uzun illər pis rəftar, qəddarlıq, işgəncə, kifayət qədər sərt davranış və şərtlərlə müşayiət olunan bu mürəkkəb proses, sonradan insan hüquqlarına hörmət, onların xüsusi dəyərləndirilməsi və müdafiəsinin təmini ilə əlaqədar humanistləşmə yolunu tutmuşdur. Dövlətimizdə bu sahədə də elmi araşdırmalar aparılmış, müxtəlif əsərlər işıq üzü görmüşdür. Müasir dövrdə də cəzaların icrasının təkmilləşdirilməsi və səmərəliyinin artırılması, cəzanın qarışına qoyulan məqsədlərə onun icrası prosesində nail olunması ilə əlaqədar daha effektiv yolların müəyyən edilməsi mühüm məsələ kimi qalmaqdadır.

Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra cəzaların icrası fəaliyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə Ümummilli lider Heydər Əliyevin, habelə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində ölkədə köklü yeniləşmələr aparılmış, müvafiq qanunvericilik təkmil-

ləşdirilmişdir[1]. 2000-ci ilin 01 sentyabrından qüvvəyə minmiş, məhbuslarla davranışa həsr olunmuş beynəlxalq standartlara cavab verən yeni Cəzaların İcrası Məcəlləsi dövlətimizin cəza-icra fəaliyyətinin hüquqi bazasını nəzərəçarpacaq dərəcədə müasirləşdirmiş, bu əhəmiyyətli hüquq sahəsində islahatların yeni mərhələsinə start vermişdir. Eyni zamanda, həmin fəaliyyət sahəsinin inkişafına dövlət tərəfindən xüsusi önəm verilməklə müxtəlif yönümlü tədbirləri özündə ehtiva edən dövlət proqramları qəbul edilərək icra olunmuş, onun maliyyələşdirilməsi ilbəil nəzərəçarpacaq dərəcədə artırılmışdır. Nəticədə, cəzaların icrasını, habelə penitensiar sistemin fəaliyyətini tənzimləyən və beynəlxalq normalara cavab verən mütərəqqi qanunvericilik bazası formalaşmış, cəzanı icra edən müəssisə və orqanların maddi-texniki təminatı, infrastrukturu xeyli yaxşılaşdırılmış, həbs olunmuş şəxslərin və məhkumların daim genişləndirilən hüquq və azadlıqları, qanuni mənafeləri etibarlı şəkildə təmin edilmiş, işçi heyətinin sosial müdafiəsi kifayət qədər gücləndirilmişdir. Görülmüş işlər nəticəsində ölkədə beynəlxalq standartlara uyğun müasir cəza-icra sistemi formalaşmış, onun gələcək inkişafı ilə bağlı uzun müddətli perspektivlər müəyyən olunmuşdur. Həyata keçirilmiş genişmiqyaslı tədbirlər sayəsində baş vermiş pozitiv dəyişikliklər, yəni respublikanın regionlarında yeni penitensiar komplekslərin isifadəyə verilməsi, həbs edilmiş şəxslərin və məhkumların saxlanma şəraitinin yaxşılaşdırılması, onlara göstərilən tibbi xidmətin keyfiyyətinin xeyli artırılması, cəzaların icrası prosesinə ictimaiyyətin geniş şəkildə cəlb edilməsi, bu sahədə şəffaflığın təmin olunması islahatların daha çox nəzərəçarpan, habelə hüquq ictimaiyyəti və vətəndaşlar, eləcə də nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən bəyənilən və təqdir edilən nəticələrindəndir.

---

[1] Гумбатов М.Г. Гейдар Алиев и уголовно-исполнительная система Азербайджанской Республики // Praha, Czech Republic. Sciens of Europe. 2023. № 120, pp. 27–31; Humbatov M. Continued reform of the penıtentiary system of the Republic of Azerbaijan in 2016–2022, prospects of its development // Praha, Czech Republic. Scientific–discussion. 2023. № 77, pp. 35–42.

Eyni zamanda, cəzaların təyini və icrası sahəsində islahatların müasir dövrün tələblərinə, habelə qabaqcıl beynəlxalq təcrübəyə uyğun davam etdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2017-ci il 10 fevral tarixli "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncam imzalamışdır. Uzun müddətə hesablanmış, hüquqmühafizə, o cümlədən cəzanı icra edən müəssisə və orqanlar üçün strateji hədəfləri müəyyənləşdirən və özünəməxsus "yol xəritəsi" rolunu oynayan bu vacib sənəddə bir daha cəzaların icrası ilə bağlı fəaliyyətin müasir dövrün tələblərinə uyğun qurulması və bu sahədə idarəetmənin daha səmərəli təşkilinin zəruriliyi vurğulanmışdır. Həmin Sərəncamın qəbulundan sonra ötən müddət ərzində ölkədə qanunvericilik, təşkilatı, maddi-texniki, sosial-müdafiə, habelə digər yönümlü tədbirlər görülmüş, onlar bu gün də fəal davam etdirilməkdədir. Bu sahədə yenilik kimi ölkədə Ədliyyə Nazirliyinin Probasiya Xidməti yaradılmış, qətimkan tədbirlərinin, habelə cəzaların icrası prosesində elektron nəzarət vasitələrindən istifadəyə başlanılmış və məhkumun cəmiyyətdən təcrid edilməsi bağlı olmayan cəzaların icrası qaydası təkmilləşdirilmişdir. Eyni zamanda, məhkəmələr tərəfindən həbs qətimkan tədbirindən və azadlıqdan məhrum etmədən daha qənaətlə istifadə olunmasına üstünlük verilmiş, bununla əlaqədar alternativlərin, xüsusilə elektron nəzarət vasitələrinin tətbiqi ilə müsayiət olunan azadlığın məhdudlaşdırılması növündə yeni cəzanın tətbiqi kifayət qədər artmış, nəticədə həbs yerlərində, cəzaçəkmə müəssisələrində saxlanılan şəxslərin və məhkumların sayının, fasilələrlə olsa da, azalması tendensiyası müşahidə edilməyə başlanmışdır. Göstərilənlərlə yanaşı, 2018-ci ilin 18 dekabrında Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmiş "Azərbaycan ədliyyəsinin inkişafına dair 2019–2023-cü illər üçün Dövlət Proqramı"nda da cəzaların icrası sisteminin təkmilləşdirilməsi, islah işinin səmərəliliyinin artırılması bu sahədə

əsas fəaliyyət istiqamətlərdən biri kimi müəyyən edilmişdir. Qeyd olunanlar ölkədə cəzalara və onların icrası fəaliyyətinə marağın artmasına səbəb olmuş, bu sahədə yeni elmi araşdırma və tədqiqatların aparılmasını şərtləndirmişdir.

Əmək fəaliyyətinə cəzanın icrası sahəsində başlayaraq, sonradan həmin fəaliyyətlə əlaqəli olan xüsusi ali təhsil almış və taleyini həmişəlik bu sənətə bağlamış müəllif də bir-biri ilə qırılmaz vəhdət təşkil edən cinayət cəzaları və onların icrası məsələlərinə daim maraq göstərmiş, respublikanın daxili işlər, sonradan ədliyyə orqanlarında işlədiyi uzun illər ərzində təhlillərlə və elmi araşdırmalarla məşğul olmuşdur. Araşdırmaların bir hissəsinin yekunları 1996–2025-ci illərdə, habelə 2026-cı ilin əvvəlində bir sıra monoqrafiyalarda, dərsliklərdə, dərs vəsaitlərində öz əksini tapmış, respublikamızda və onun hüdudlarından kənarda müxtəlif beynəlxalq tədbirlərdə iştirakçıların nəzərinə çatdırılmış, habelə xarici dövlətlərin elmi-praktiki jurnallarında, xüsusilə müəllifin təhsil aldığı Rusiya Federasiyasının Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyasının elmi jurnal, toplu və məcmuələrində tezislər, habelə kiçik həcmli məqalələr qismində dərc olunmuşdur. Müəllif apardığı araşdırmalar zamanı Azərbaycan Respublikasının cinayət və cəza-icra qanunvericiliklərinə, onların tarixlərinə, müxtəlif institutlarına, xüsusilə ayrı-ayrı cəzalara, habelə onların icrasına həsr olunmuş çoxsaylı mənbələri, elmi əsərləri və beynəlxalq sənədləri nəzərdən keçirmişdir. Bu zaman təcrübədə rast gəlinən problemlərə diqqət yetirilmiş, arxiv sənədləri öyrənilmiş və beynəlxalq təcrübə nəzərə alınmaqla, onların mümkün həlli yolları araşdırılmışdır. Eyni zamanda, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Daxili İşlər Nazirliyi tərəfindən cinayətkarlıqla mübarizə və cəza tətbiqi ilə bağlı dərc edilən rəsmi statistik rəqəmlərə istinad edilərək, dövlətimizdə sözügedən hər iki sahədə əldə olunmuş müsbət nəticələrin, yeniliklərin, innovasiyaların, uğurların, elmi nailiyyətlərin istər ölkə daxilində, istərsə də onun hüdudlarından kənarda hüquq ictimaiyyətinə təqdim edilməsinə cəhd göstərilmişdir. Təsadüfü

deyildir ki, dövlətimizi, onun sözügedən sahədəki uğurlarını, elmi nailiyyətlərini müvafiq auditoriyaya təqdim etmək baxımından müxtəlif ölkələrdəki nəşrlərdə dərc olunmuş məqalələrın, tezislərin, şərhlərin başlığında bir qayda olaraq Azərbaycan Respublikasının adı öz əksini tapmışdır. Qeyd olunmalıdır ki, istinad olunan yazılarda, xüsusilə çoxsaylı məqalələrdə cəzaların və onların icrasının təkmilləşdirilməsi ilə bağlı verilmiş bir sıra təkliflər sonradan ölkənin qanunverici orqanı tərəfindən qəbul edilmiş, digərləri isə öz vaxtını və növbəsini gözləməkdədir.

Müxtəlif illərdə dərc olunmuş bir sıra monoqrafiyalardan çıxarış və məqalələrin toplusu olan, 2021-ci ildə dərc olunmuş "Cinayət cəzaları, onların icrası, problemləri" məcmuəsi bazasında hazırlanan bu kitab yuxarıda göstərilən, bu gün də aktuallığını itirməmiş, habelə artıq tarix olmuş bir sıra cinayət cəzalarına, onların icrasına həsr edilmiş araşdırmalara istinadən yazılmışdır. Yeni kitaba əvvəlki illərdən əlavə, 2021–2025-ci illərdə, habelə 2026-ci ilin əvvəlində müəllifin imza atdığı dərsliklərdə, müxtəlif ölkələrin elmi jurnallarında dərc edilmiş, Azərbaycan Respubikasında cəzalara, onların icrasına, bu sahələrdə aktual olan məsələlərə həsr edilmiş iyirmidən çox yeni çıxarış və məqalə daxil edilmişdir. Müəllifin bu yeni dərgini hazırlamaqda məqsədi müvafiq dövrlərdə, xüsusilə Azərbaycanın 1922, 1927, 1960 və 1999-cu illərin Cinayət məcəllələrində, habelə 1925, 1970, 2000-ci il tarixli İslah-Əmək və Cəzaların İcrası məcəllələrində yer almış bir sıra institutlar, habelə cinayət cəzaları və onların icrası ilə bağlı apardığı təhlillərin qısa nəticələrini, öz fikir və düşüncələrini, habelə onların təkmilləşdirilməsi ilə əlaqədar irəli sürdüyü təklifləri oxucularla bölüşməkdir. Kitaba daxil edilmiş materiallar məntiqi ardıcıllıqla verilməklə, ilkin olaraq cəzanın anlayışı, əvvəllər tətbiq olunmuş, habelə Azərbaycan Respublikasının sonuncu Cinayət Məcəlləsindəki sıralamaya uyğun olaraq yüngüldən sərtə dəyişən mövcud cəza növlərinə diqqət ayrılmışdır. Eyni zamanda, topluda azadlıqdan məhrum etməyə məhkum edilmiş şəxslərin təsnifatı, cəzaçəkmə müəssisələrinin növləri, cəzadan azad etmə institutları,

cəzaların icrası və həbs yerlərində saxlanılma ilə bağlı qanunvericilik, məhkumların sosial adaptasiyası, cəzaların icrası sahəsində beynəlxalq əməkdaşlıq, müstəqilik illərində cəza-icra sistemində aparılmış islahatlar, onların nəticələri və gələcək perspektivləri barədə məlumatlar, habelə fikrimizcə, aktuallıq kəsb edən bir sıra digər məsələlər öz əksini tapmışdır. Təqdim olunan bu nəşr müvafiq sahələr üzrə hər hansı bir dərslik və ya dərs vəsaiti kimi qəbul edilmək iddiasında deyildir. Burada cəzalar, onların icrası ilə bağlı mövzular, habelə mövcud problemlərin hamısı nəzərdən keçirilməmiş, yalnız müəllifin özünun daha çox maraqlandığı, uzunmüddətli fəaliyyəti dövründə rastlaşdığı bir sıra məsələlərə cavabların axtarılması ilə əlaqədar apardığı araşdırmaların və tədqiqatların nəticələri öz əksini tapmışdır. Eyni zamanda, təqdim edilmiş materiallar müvafiq sahələr üzrə bir sıra tarixi, nəzəri, təcrübi, statistik məlumatları özündə əks etdirdiyindən onlar müəllimlər, tələbələr, tədqiqatçılar və digər oxucular üçün faydalı ola bilər. Kitabda verilmiş monoqrafiyalardan çıxarışlardan, məqalələrdən sonra sonluqda onların dərc edildiyi mənbələr göstərilmişdir ki, bu öz növbəsində oxuculara araşdırmaların, təhlillərin hansı dövrdə aparılması, onların işiq üzü gördüyü dərgilərlə bağlı məlumatın təqdim edilməsi məqsədi daşıyır. Əlbəttə, bu məcmuəyə daxil edilmiş məqalələr, fikirlər və nəticələr hamı tərəfindən birmənalı qəbul edilməyəcəkdir. Müəllif onları, habelə fərqli, o cümlədən tənqidi yanaşmaların olmasını da təbii qəbul edir. Məhz ziddiyyətlərin mövcudluğu, fikir ayrılığı və onların toqquşması, polemikalar, obyektiv həqiqətin axtarılması cəhdləri hər bir elm sahəsində inkşafa dəstək və yeni impuls verir.

Yekunda əmin olmaq istərdim ki, bu yeni dərgi müəyyən maraq doğuracaq, müvafiq ixtisaslar üzrə təhsil alan tələbələri, hüquqşunasları, həyatını aidiyyəti hüquq sahələri ilə bağlamaq istəyən istedadlı gənclərimizi daimiyaşar cəza, onun mahiyyəti, tarixi, növləri, habelə cəzaların icrası ilə bağlı məsələlərlə, təcrübədə rastlaşılan problemlərlə daha yaxından tanış olmağa, onlara müxtəlif, habelə müəllifin təqdim etdiyi müstəvidən də baxmağa, dü-

şünməyə və bu sahədə, xüsusilə sürətlə dəyişən cəmiyyətin maraqlarına xidmət edilməsi baxımından ətraflı elmi araşdırmalar aparmağa sövq edəcəkdir.

***Musa Hümbətov***

# I HİSSƏ
# CİNAYƏT CƏZASI, ONUN NÖVLƏRİ, CƏZADAN AZAD ETMƏ İNSTİTUTLARI, CƏZAÇƏKMƏ MÜƏSSİSƏLƏRİNİN NÖVLƏRİ, CƏZALARIN İCRASI QAYDALARI

## Cəza: anlayışı, məqsədləri və növləri[1]

Cəza və onun məqsədləri hələ çox qədim dövrlərdən insanları maraqlandıran vacib məsələlərdən olmuşdur. Tariximizin müxtəlif inkişaf mərhələlərində tanınmış hüquqşünaslar, mütəfəkkirlər, filosoflar, maarifçilər, dövlət xadimləri bu məsələlərə öz münasibətlərini bildirmişlər. Onlar, ümumən cəzanı və onun məqsədlərini hakim qüvvələrin öz hakimiyyətlərinin möhkəmləndirilməsi və qorunması üsulu kimi qiymətləndirmişlər.

Problemə xüsusi diqqət XVIII əsrdə daha qabarıq nəzərə çarpır. Bu dövrdə yaşamış və yaratmış fransız maarifçiləri və alimləri Ş.L. Monteskyö, F.M. Volter və J.P. Maratın, klassik alman fəlsəfəsinin baniləri İ.Kant, F.Hegel və A.Feyerbaxın əsərlərində cəza mövzusu özündə daha geniş yer tapmış, bir problem kimi qoyulmuşdur. Bu dövrdə yaşamış italyan maarifçisi və humanisti Ç.Bekkariya xüsusilə seçilir. Onun hələ 1764-cü ildə ərsəyə gətirdiyi “Cinayətlər və cəzalar haqqında” kitabı demək olar ki, bütövlükdə cinayət və cəza problemlərinə həsr olunmuşdur. Ç.Bekkariya qeyd olunan kitabda yazırdı: “Cəzanın məqsədi insana əzab və işgəncə vermək, həmçinin artıq törədilmiş cinayətin mövcudluğunu inkar etmək deyil. Cəzanın məqsədi təqsirkarın cəmiyyətə yenidən zərər vurmasına mane olmaq və digərlərini bundan çəkindirməkdir. Buna görə də, elə cəza tətbiq etmək lazımdır ki, bu cinayətə uyğun olmaqla, insanların qəlbinə güclü təsir göstərsin və

---

[1] Məcmuədə yer almış məqalə, dərslik və monoqrafiyaların hazırlanması prosesində istifadə edilmiş ədəbiyyat barədə ətraflı məlumatı onların dərc olunduğu jurnallardakı mətnlərlə və aidiyyəti kitablarla tanış olmaqla əldə etmək olar.

cinayətkarın bədəni üçün ən az əzab olsun”. Marksizm təliminin banisi K.Marks cəzanı “...cəmiyyətin, onun yaşaması üçün zəruri olan şəraitə qarşı yönəldilən qəsdlərdən özünü müdafiə vasitəsi” hesab edirdi. Bütün bu fikirlər sonrakı dövrlərdə cinayət hüququ elminin inkişafına böyük təsir göstərmişdir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində cəza anlayışı verilməmişdir. Ümumiyyətlə, cəza məfhumu sabiq SSRİ-nin cinayət qanunvericiliyində öz əksini tapmamışdı. Əksəriyyət xarici ölkələrin (ABŞ, Böyük Britaniya, Fransa, Almaniya, Yaponiya, İtaliya, İspaniya və s.) hal-hazırda qüvvədə olan cinayət qanunvericiliyində də cəza anlayışı tam müəyyənləşdirilməmişdir. Lakin MDB-yə daxil olan respublikalarda son illərdə qəbul edilən yeni cinayət məcəllələrində cəza anlayışı öz əksini tapmaqdadır. Belə ki, 1997-ci il yanvarın 1-dən qüvvəyə minmiş Rusiya Federasiyasının Cinayət Məcəlləsinin 43-cü maddəsinin birinci hissəsinə əsasən, cəza məhkəmənin hökmü ilə təyin olunan dövlət məcburiyyət tədbiri hesab olunur.

Cəza anlayışı qanunvericilikdə öz əksini tapmadığına görə bu məfhum cinayət-hüquq nəzəriyyəsi tərəfindən işlənib hazırlanmışdır. Ümumiyyətlə, cəza törədilmiş cinayətdən doğan məntiqi nəticə olmaqla, dövlətin cinayəti törədən şəxsin əməlinə verdiyi hüquqi qiymətdir. Cinayət cəzasının tətbiqi ilə hər bir halda mənəvi və hüquqi baxımdan təqsirkara və onun əməlinə dövlət tərəfindən mənfi qiymət verilir və bu pislənir.

Cinayət cəzası ictimai təhlükəli əməli törətməkdə təqsirli olan şəxsləri islah edib yenidən cəmiyyətə qaytarmaq, habelə məhkumları və başqalarını cinayət etməkdən çəkindirmək məqsədilə məhkəmə tərəfindən, dövlət adından qanuna əsasən tətbiq edilən və məhkumluq yaradan xüsusi dövlət məcburiyyət tədbiridir. Cəza cinayətin hüquqi nəticəsi olmaqla, ancaq təqsirkara qarşı yönəldilir. Belə ki, Azərbaycan Respublikasının Ali Məhkəməsinin Plenumunun “Məhkəmələr tərəfindən cəza təyin etmənin ümumi prinsiplərinin tətbiq olunması təcrübəsi haqqında” 30 dekabr 1997-ci il tarixli 3 saylı qərarında “Qanuni, əsaslandırılmış və

ədalətli cəzanın təyin edilməsi cinayətkarlıqla mübarizə aparılması və hüquq qaydalarının möhkəmləndirilməsi üçün vacib vasitə olmaqla, lazımi cəzalandırma təsirini təmin edir, məhkumun islah olunması və yenidən tərbiyə edilməsinə köməklik göstərir, onun, həm də sair şəxslər tərəfindən yeni cinayət edilməsinin qarşısını alır...” müddəası ilə cəzanın əhəmiyyətinə qiymət verilmişdir.

Cəza törədilmiş cinayətə dövlətin reaksiyasıdır. Cinayətkarın özü üçün isə, cəza-onun törətdiyi cinayətin hüquqi nəticəsidir. Cəza məfhumunu daha yaxşı dərk etmək üçün ona xas olan əlamətləri nəzərdən keçirmək lazımdır. Cəzanın əlamətləri aşağıdakılardır:

- xüsusi dövlət məcburiyyət tədbiridir:

a) məhkəmənin hökmü ilə dövlətin adından təyin edilir;

b) xüsusi hüquqi nəticəni-məhkumluğu doğurur;

c) cinayət törətmiş şəxsin hüquq və azadlıqlarının məhdudlaşdırılması ilə bağlıdır.

- ciddi fərdi xarakter daşıyır;

- cinayət törətmiş şəxsin hüquq və azadlıqlarının məhdudlaşdırılması ulə bağlıdır.

Qeyd olunan əlamətlər sırasına cəzanın doğurduğu məhrumiyyətlər və məhdudiyyətlərin əlavə olunması, cəza anlayışının daha dolğun və düzgün anlanmasına şərait yaradır. Beləliklə, bütün qeyd olunanları ümumiləşdirərək, belə qənaətə gəlmək olar ki, **cəza-cinayət törətmiş şəxsə məhkəmənin hökmü ilə tətbiq olunan, özündə müxtəlif məzmunlu məhdudiyyət və məhrumiyyətlər cəmləşdirən dövlət məcburiyyət tədbiridir.** Tarix göstərir ki, cinayətkarlığa qarşı mübarizədə cəza başlıca vasitə deyildir. Bu istiqamətdə əsas vasitələr dövlətin həyata keçirdiyi iqtisadi, siyasi, tərbiyəvi və təşkilati tədbirlərdir. Buna baxmayaraq, cəza cinayətkarlığa qarşı mübarizə işində mühüm, həm də zəruri vasitədir.

Cəzanın məqsədləri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 20-ci maddəsində öz əksini tapmışdır. Belə ki, bu maddəyə əsasən, cəza törədilmiş cinayət üçün yalnız sitəm olmayıb, ey-

ni zamanda məhkumları islah etmə və onları əməyə vicdanla yanaşma, qanunlara dürüst əməl etmə ruhunda tərbiyələndirmə, habelə həm məhkumlar tərəfindən, həm də sair şəxslər tərəfindən yeni cinayət edilməsinin qarşısını almaq məqsədi daşıyır. Beləliklə, bu anlayışdan görünür ki, cəza sitəm, yəni əzab olsa da, onun məqsədi dövlətin nail olmağa çalışdığı arzu və təqdir edilən ictimai nəticədir. Qanunda cəzanın aşağıdakı məqsədləri göstərilmişdir:

- məhkumu islah etmək və yenidən tərbiyələndirmək;
- məhkum tərəfindən yeni cinayət törədilməsinin qarşısını almaq;
- başqa şəxslər tərəfindən cinayət törədilməsinin qarşısını almaq.

İslah etmə və yenidən tərbiyələndirmə məfhumları qanunvericilikdə müəyyən olunmadığına görə, onların anlayışının islah-əmək hüququ nəzəriyyəsi işləyib hazırlamışdır. Lakin, 1997-ci il iyulun 1-dən qüvvəyə minmiş Rusiya Federasiyası Cinayət-İcra Məcəlləsinin 43-cü maddəsində islah etmə anlayışı məhkumlarda insanlara, cəmiyyətə, əməyə, birgəyaşayış normalarına, qaydalarına və ənənələrinə hörmətlə yanaşmanı formalaşdırmaq, onları hüquqa uyğun davranışa həvəsləndirmək kimi verilmişdir. Bu anlayış Müstəqil Dövlətlər Birliylinin iştirakçı dövlətlərinin Parlamentlərarası Assambleyasında Azərbaycan Respublikasının nümayəndə heyətinin də iştirakı ilə hazırlanmış və bu təşkilatın 1996-cı il 2 noyabr tarixli səkkizinci plenar iclasında qəbul olunmuş Cinayət-İcra Məcəlləsinin modelində verilmiş anlayışla eynilik təşkil edir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq belə qənaətə gəlmək olar ki:

- islah etmə - cinayətkarların qanuna tabe olan insana çevrilməsini, məhkumu yeni cinayət törətməyə sövq edə bilən zərərli sosial-psixoloji meyllərdən, kriminogen xüsusiyyətlərdən azad etməyi nəzərdə tutur. İslah prosesi məhkumun ictimai-faydalı fəaliyyətə qayıtması, ümumi yaşayış qaydalarına hörmətlə yanaşma-

sı, normal cəmiyyətə tamamilə uyğunlaşması məqsədlərini güdür;

- yenidən tərbiyə etmə - məhkumun şəxsiyyətinin daha dərindən, əsaslı surətdə dəyişdirilməsinə nail olmağı, onda cəmiyyət tərəfindən bəyənilən, fərd və cəmiyyət üçün faydalı olan yeni baxışların və prinsiplərin püxtələşməsini müəyyən edir. Qeyd etmək lazımdır ki, yenidən tərbiyə etmə anlayışı hal-hazırda alimlər tərəfindən sosializm qalığı, onun ideologiyasının məhsulu sayılmaqla, əldə oluna bilinməyən, utopik nəticə hesab edilir. Artıq bu anlayış sabiq SSRİ-yə daxil olmuş indiki müstəqil dövlətlərin qanunvericiliyindən çıxarılmışdır. Buna Rusiya Federasiyasının yeni Cinayət və Cinayət-İcra məcəllələrini misal gətirmək olar. Fikrimizcə, yenidən tərbiyə etmə islahın tərkib hissəsi, onun nail olmağa çalışdığı nəticələrdən biri kimi qəbul edilməlidir.

Cəzanın digər məqsədi yeni cinayətlərin törədilməsinin qarşısını ümumən almaqdır. Hüquq nəzəriyyəsində yeni cinayətlərin qarşısının alınması və xəbərdar edilməsi iki növə bölünür:

- xüsusi (fərdi);
- ümumi.

Xüsusi (fərdi) xəbərdarlıq cinayət törətdiyinə görə cəzalandırılan şəxs tərəfindən yenidən cinayət edilməsinin qarşısını almağa, ümumi xəbərdarlıq isə, tətbiq olunan cəza vasitəsi ilə digər şəxslərə təsir göstərməklə, onları cinayət əməllərindən çəkindirməyə yönəldilir.

Qeyd olunanlardan əlavə, bir çox alimlər cəzanın sosial ədalətin bərpası məqsədini də yerinə yetirdiyini iddia edirlər. Qeyd etmək lazımdır ki, bu fikir Rusiya Federasiyası Cinayət Məcəlləsinin 43-cü maddəsinin birinci hissəsində də öz əksini tapmışdır. Qanunverici bu anlayışla hesab edir ki, törədilmiş cinayət qanunla qorunan ictimai münasibətlərə qəsd edir və təyin olunmuş cəza, onları bərpa etməklə, sosial ədalətin bərqərar edilməsi vəzifəsini bilavasitə həyata keçirir. Bu müddəa Azərbaycan alimləri F.Y. Səməndərov, H.S. Qurbanov tərəfindən də müdafiə edilir. Bizcə, bu fikir təqdirəlayiqdir və cəzanın daha düzgün anlaşılmasına xidmət edir.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 21-ci maddəsinə əsasən, cinayət törətmiş şəxslərə məhkəmələr tərəfindən aşağıdakı cəzalar tətbiq edilir:

1. Azadlıqdan məhrum etmə:

a) ömürlük azadlıqdan məhrum etmə;

b) müəyyən müddətə azadlıqdan məhrum etmə;

2. Azadlıqdan məhrum etmədən islah işləri;

3. Müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə;

4. Vəzifədən çıxartma;

5. Cərimə;

6. İctimai məzəmmət;

7. Müddətli xidmətdə olan hərbi qulluqçuları intizam batalyonuna göndərmə;

8. Tərbiyə-əmək profilaktoriyasına göndərmə;

9. Əmlak müsadirəsi;

10. Rütbə və ya fəxri adlardan, habelə dövlət mükafatlarından məhrum etmə;

11. Valideynlik hüquqlarından məhrum etmə.

Məhkumu əməyə mütləq cəlb etməklə azadlıqdan məhrum olunmağa şərti məhkum etmə Cinayət Məcəlləsinin 21-ci maddəsi ilə müəyyən olunmuş cəza növləri sırasına daxil edilməsə də, o, müstəqil cəza növü kimi məhkəmələr tərəfindən tez-tez tətbiq olunur. Əvvəllər Azərbaycan Respublikasının cəza sisteminə daxil olan sürgün və köçürmə cəzaları 1992-ci il 27 oktyabr tarixli qanunla Cinayət Məcəlləsindən çıxarılmışdır. Müstəsna cəza tədbiri-ölüm cəzası isə, 1998-ci il 10 fevral tarixli qanunla ləğv edilərək Cinayət Məcəlləsindən çıxarılmış və ömürlük azadlıqdan məhrum etmə cəzası ilə əvəz olunmuşdur.

Qanunvericiliyə əsasən azadlıqdan məhrum etmə (müddətli və ömürlük), əməyə mütləq cəlb etməklə azadlıqdan məhrum olunmağa şərti məhkum etmə, azadlıqdan məhrum etmədən islah işləri, ictimai məzəmmət, intizam batalyonuna göndərmə, Tərbiyə-əmək profilaktoriyasına göndərmə növündə cəzalar əsas cəzalar

kimi tətbiq edilir. Əsas cəzalar yalnız müstəqil tətbiq olunan və digər cəzalara əlavə kimi qoşula bilməyən cəzalardır. Müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, vəzifədən çıxartma və cərimə həm əsas, həm də əlavə cəza kimi tətbiq edilə bilər. Əmlak müsadirəsi, rütbə və ya fəxri adlardan, habelə dövlət mükafatlarından məhrum etmə və valideynlik hüquqlarından məhrum etmə cəzaları yalnız əlavə cəzalar kimi tətbiq edilə bilər. Yəni, bu cəza növləri müstəqil tətbiq oluna bilməyən cəzalardır.

Qüvvədə olan cəzaların icrasını tənzimləyən qanunvericiliklə cəzalar islah-əmək təsiri ilə bağlı və bağlı olmayan növlərə bölünür. İslah-əmək təsiri ilə bağlı cəzalar aşağıdakılardır:

- azadlıqdan məhrum etmə;
- əməyə mütləq cəlb etməklə azadlıqdan məhrum olunmağa şərti məhkum etmə;
- azadlıqdan məhrum etmədən islah işləri;
- Tərbiyə-əmək profilaktoriyasına göndərmə;
- hərbi qulluqçuları intizam batalyonuna göndərmə.

Digər cəza növləri islah-əmək təsirilə bağlı olmayan cəzalar hesab olunur.

***İstinad edilmiş mənbə:***

***Cəza və onun icrası. Bakı, "Hüquq ədəbiyyatı" nəşriyyatı, 1999. Səh. 4–12.***

## Tərbiyə-əmək profilaktoriyasına göndərmə növündə cəza, onun icrası və gələcək perspektivləri

Tərbiyə-əmək profilaktoriyasına göndərmə 1960-cı il 8 dekabr tarixli qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə sonradan əlavə edilmiş cəza növlərindən biridir. Azərbaycan Respublikası Ali Sovetinin Rəyasət Heyətinin 1982-ci ilin 4 noyabr tarixli Fərmanı ilə Tərbiyə-əmək profilaktoriyasına göndərmə yeni cəza növü kimi Cinayət Məcəlləsinin 21-ci maddəsinə əlavə olunmuşdur. Bundan başqa qeyd olunan Fərmanla Cinayət Məcəlləsinə əlavə olunmuş 31-1-ci maddədə cəzanın tətbiqi şərtləri təsbit olunmuşdur. Bu maddəyə əsasən, avaralığa və ya dilənçiliyə, yaxud başqa tüfeyli həyat sürməyə görə bir ildən iki ilədək müddətə azadlıqdan məhrum etmə cəzası, aliment verməkdən və ya uşaqlarını saxlamaqdan qəsdən boyun qaçırmağa görə bir ilədək müddətə azadlıqdan məhrum etmə cəzası təyin edərkən, məhkəmə işin hallarını və müttəhimin şəxsiyyətini nəzərə alaraq, azadlıqdan məhrum etmə cəzası əvəzinə eyni müddətə Tərbiyə-əmək profilaktoriyasına göndərmə növündə cəza tətbiq edə bilər. Maddənin məzmunundan göründüyü kimi, Tərbiyə-əmək profilaktoriyasına göndərmə növündə cəza bir ildən iki ilədək müddətə tətbiq oluna bilər.

Cinayət hüququ nəzəriyyəsi hesab edir ki, Tərbiyə-əmək profilaktoriyasına göndərmə cəzasının əsas vəzifəsi məhkumun islah edilməsi və yenidən tərbiyələndirilməsindən başqa, ailə ilə, əmək kollektivi ilə bu və ya başqa səbəb üzündən sosial faydalı əlaqələri itirmiş, normal əmək həyatından uzaqlşamış, lakin hələlik ağır cinayət törətməmiş şəxsləri ictimai faydalı əməyə birləşdirməkdən ibarətdir. Lakin fikrimizcə, Tərbiyə-əmək profilaktoriyasına göndərmə cəzasının digər cəzalar kimi əsas vəzifəsi, Cinayət Məcəlləsinin 20-ci maddəsində göstərildiyi kimi məhkumları islah etmək, onları əməyə vicdanla yanaşma, qanunlara dürüst əməl et-

mə ruhunda tərbiyələndirmə, habelə həm məhkumlar tərəfindən, həm də digər şəxslər tərəfindən yeni cinayət edilməsinin qarşısını almaq məqsədi daşıyır.

Mövcud qanunvericiliyə əsasən Tərbiyə-əmək profilaktoriyasına göndərmə növündə cəza xüsusi təhlükəli residivistlərə, xüsusi təhlükəli dövləti cinayətlərə (Cinayət Məcələsinin 57-59, 61-64-cü maddələri), banditizmə (70-ci maddə), qanunvericilikdə nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların yaradılmasına (70-2-ci maddə), qəsdən adam öldürməyə (94-95-ci maddələr və 235-ci maddənin "b" bəndi), qəsdən bədənə ağır xəsarət yetirməyə (102-ci maddə), bir qrup şəxs tərəfindən zorlamağa və ya yetkinlik yaşına çatmayanı zorlmağa, xüsusilə ağır nəticələrə səbəb olan zorlamağa, habelə azyaşlını zorlamağa (109-cu maddənin üçüncü və dördüncü hissələri), xüsusilə qərəzli xuliqanlığa (207-ci maddənin üçüncü hissəsi), terrorçuluğa (212-3-cü maddə), avaralığa, dilənçiliyə və ya başqa tüfeyli həyat sürməyə (215-1-ci maddə) görə əvvəllər məhkum edilmiş şəxslərə, o cümlədən əcnəbi vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə tətbiq olunmur.

Cinayət Məcəlləsinə bu cəza daxil edildikdən sonra onun icrası qaydasını tənzimləmək məqsədi ilə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1 mart 1983-cü il tarixli Fərmanı ilə "Tərbiyə-əmək profilaktoriyası haqqında" Əsasnamə təsdiq olunmuşdur. Bundan başqa, cəzanın icra mexanizmini daha da dəqiqləşdirmək üçün cəzanın icrasını həyata keçirən keçmiş SSRİ Daxili İşlər Nazirliyinin 1983-cü ildə iki əmri verilmişdir. Bu əmrlərlə Tərbiyə-əmək profilaktoriyasının Daxili İntizam Qaydaları təsdiq edilmiş və Əsasnamənin bir çox müddəalarına aydınlıq gətirilmişdir.

Tərbiyə-əmək profilaktoriyası haqqında Əsasnaməyə əsasən bu tipli müəssisəyə əmək qabiliyyətli məhkumlar göndərilirlər. Məhkumlar ciddi təcrid olunmuş şəraitdə və mühafizə altında saxlanılmalıdırlar. Məhkumlara mülki paltar geyinməyə, özlərində pul, qiymətli kağızlar və istifadə olunması qadağan edilmiş əşya və predmetlər saxlamağa icazə verilmir. Cəza çəkənlərin yazışmaları senzuradan, bağlama, sovqat və banderolları isə yoxlamadan keçi-

rilir. Məhkumlar Tərbiyə-əmək profilaktoriyasının gündəlik qaydalarına ciddi riayət etməli, müdiriyyətin tələb və göstərişlərini yerinə yetirməli, əməyə vicdanla yanaşmalı, orta təhsil və ya texniki peşə məktəbində təhsil almalıdırlar. Cəza çəkənlər Tərbiyə-əmək profilaktoriyasında keçirilən siyasi-tərbiyə tədbirlərində və həmçinin müəssisənin abadlaşdırılması, məhkumların məişət şəraitinin yaxşılaşdırılması işlərində iştirak etməyə borcludurlar.

Tərbiyə-əmək profilaktoriyasında cəza çəkən məhkumlar:

- adi yaşayış binalarında saxlanılırlar;
- il ərzində qısa müddətli altı görüş və uzunmüddətli dörd görüş almaq hüququna malikdirlər;
- yeyinti və ən zəruri mallar əldə etmək üçün profilaktoriyada qazandıqları puldan on manat (hal-hazırda İslah-Əmək Məcəlləsinə edilmiş dəyişikliklərlə əlaqədar bu məbləğ minimum əmək haqqı məbləğinin bir mislinə bərabər tutulmuşdur) miqdarını xərcləyə bilərlər;
- məhdudiyyət qoyulmadan məktub və teleqram göndərmək, pul baratları almaq və göndərmək hüququna malikdirlər.

Tərbiyə-əmək profilaktoriyasında saxlanılan məhkumların müstəsna şəxsi vəziyyətləri ilə, yəni yaxın qohumunun ölümü və ya həyatını təhlükə altına atan ağır xəstəlik, məhkumlara və ya onun ailəsinə xeyli maddi zərər vurmuş təbii fəlakətlə əlaqədar onlara bu müəssisənin hüdudlarından kənara ən çoxu on sutka müddətinə qısa müddətli səfərə getmələrinə icazə verilə bilər.

Tərbiyə-əmək profilaktoriyasında saxlanılan şəxslərə tətbiq olunan həvəsləndirmə və tənbeh tədbirləri islah-əmək koloniyalarında cəza çəkən məhkumlara tətbiq edilən tədbirlərlə demək olar ki, eynidir. Lakin qanunvericilkdə Tərbiyə-əmək profilaktoriyasında saxlanılan şəxslərin kamera tipli otaqlara keçirilməsi nəzərdə tutulmamış, cərimə təcridxanasında saxlanma müddəti isə, daha az, on sutkayadək müəyyən olunmuşdur.

Tərbiyə-əmək profilaktoriyasında məhkumların faydalı əməyə cəlb olunması və onların iş şəraiti, həmçinin bu şəxslərlə siyasi-tərbiyə işinin aparılması, cəza çəkənlərin orta və ya texniki peşə

təhsilinə cəlb edilməsi, cəza çəkməkdən azad olunmanın əsasları və digər məsələlər azadlıqdan məhrum edilmiş şəxslər üçün müəyyən olunmuş qaydalardan demək olar ki, fərqlənmir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 31-1-ci maddəsinin beşinci hissəsinə əsasən Tərbiyə-əmək profilaktoriyasında cəza çəkən məhkum işdən boyun qaçırdıqda, intizamı, yaxud müəyyən edilmiş davranış qaydalarını qəsdən və ya müntəzəm pozduqda, müdiriyyətin təqdimatına əsasən məhkəmə öz qəradadı ilə Tərbiyə-əmək profilaktoriyasında saxlanmanın çəkilməmiş müddətini eyni müddətə azadlıqdan məhrum etmə növündə cəza ilə əvəz edə bilər.

Məhkum olunmuş şəxs, Tərbiyə-əmək profilaktoriyasında olduğu müddət ərzində cinayət törədərsə, məhkəmə ona Cinayət Məcəlləsinin 39-cu maddəsində nəzərdə tutulmuş qaydalar üzrə, yəni hökmlərin məcmuyu üzrə cəza təyin edir.

Məhkumun Tərbiyə-əmək profilaktoriyasından, eləcə də profilaktoriyaya gedərkən yoldan qaçması qüvvədə olan qanunvericiliklə cinayət hesab edilir və Cinayət Məcəlləsinin 184-cü maddəsində nəzərdə tutulmuş məsuliyyəti yaradır.

Bununla belə, SSRİ Ali Məhkəməsinin Plenumunun “Tərbiyə-əmək profilaktoriyasından qaçmağa görə məsuliyyət müəyyən edən qanunvericiliyin tətbiqi haqqında” 1989-cu ilin 30 noyabr tarixli 14 saylı qərarına əsasən, məhkumun mühafizə altında olmayan istehsalat obyektindən və ya sair obyektlərdən icazəsiz getməsi, eləcə də məzuniyyətdən, yaxud da qısa müddətli icazəli gəzintidən müəyyən edilmiş müddətdə qayıtmaması, Tərbiyə-əmək profilaktoriyasından qaçma kimi qiymətləndirilə bilməz.

Azadlıqdan məhrum etmə cəzası ilə müəyyən oxşarlığı olan, tətbiq dairəsi qanunla qəti müəyyənləşdirilən bu cəza növünün Cinayət Məcəlləsinə daxil edilməsinə, onun icrası qayda və şərtləri haqqında müvafiq Əsasnamə təsdiq olunmasına, Azərbaycan Respublikasının Ali Məhkəmənin Plenumunun 1984-cü il 15 dekabr tarixli SSRİ Ali Məhkəməsi Plenumunun “Pasport qaydalarının pozulması, müntəzəm surətdə avaraçılıqla və ya dilənçiliklə məş-

ğul olma, habelə uzun müddət başqa tufeyli həyat sürmə işləri üzrə məhkəmə tərcübəsi haqqında" 1972-ci il 23 iyun tarixli 10 №-li qərarının yerinə yetirilməsinin gedişi haqqında 8 №-li qərarı ilə avaraçılıqla və ya dilənçiliklə məşğul olma, habelə uzun müddət tüfeyli həyat sürməyə görə məhkum edilən şəxsə bir ildən iki ilə qədər müddətə azadlıqdan məhrum etmə növündə cəza təyin edərkən, işin hallarını və təqsirkarın şəxsiyyətini nəzərə alaraq azadlıqdan məhrum etmə əvəzinə həmin müddətə Tərbiyə-əmək profilaktoriyasına göndərmə növündə cəza tətbiq edilməsi tövsiyə edilsə də, bu cəza respublikamızda təşəkkül tapmamış və məhkəmələr tərəfindən tətbiq olunmamışdır. Məhz buna görə də, belə tipli cəzaçəkmə müəssisələrinə ehtiyac olmadığından respublikada Tərbiyə-əmək profilaktoriyası yaradılmamış və hal-hazırda da yoxdur.

Cəzanın Azərbaycan Respublikasında məhkəmələr tərəfindən tətbiq olunmaması onun yaxın gələcəkdə qəbul edilməsi nəzərdə tutulmuş yeni Cinayət Məcəlləsində saxlanılmayacağına müəyyən əsaslar yaradır. Məlumat üçün bildirilir ki, sosializm sisteminin məhsulu sayılan və bir çox alimlər tərəfindən insan hüquqlarının pozulması kimi qəbul edilən bu cəza növü, keçmiş SSRİ-nin respublikalarının çoxunda artıq ləğv olunmuş və yeni qəbul edilən cinayət məcəllələrinə daxil edilməmişdir. Fikrimizcə, Azərbaycan Respublikasında bu cəza növünün taleyi də sabiq SSRİ-nin digər respublikalarında qəbul olunmuş qərara uyğun həll edilməlidir.

***İstinad edilmiş mənbələr:***

***1. "Qanunçuluq" jurnalı. Bakı, 1999, № 5, Səh. 7–10.***

***2. Cəza və onun icrası. Bakı, "Hüquq ədəbiyyatı" nəşriyyatı, 1999, № 5, Səh. 144–148.***

## Məhkumu əməyə mütləq cəlb etməklə azadlıqdan şərti məhrum etmə, əməyə mütləq cəlb olunmaqla azadlıqdan məhrum etmə yerlərindən şərti azad etmə, onların icra qayda və şərtləri

Məhkumu əməyə mütləq cəlb etməklə azadlıqdan məhrum olunmağa şərti məhkum etmə institutu SSRİ Ali Soveti Rəyasət Heyətinin 12 iyun 1970-ci il tarixli Fərmanı ilə müəyyən edilmişdir. Həmin fərman bir müddət, Cinayət Məcəlləsinə daxil edilmədən müstəqil tətbiq edilmişdir. Müəyyən vaxt keçdikdən sonra bu institut təkmilləşdirilərək, tətbiq dairəsi genişləndirilmiş və SSRİ Ali Soveti Rəyasət Heyətinin 8 fevral 1977-ci il tarixli Fərmanı ilə cinayət qanunvericiliyi sisteminə daxil edilmişdir. Bu fərmana əsasən, Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin 28 mart 1977-ci il tarixli Fərmanı ilə Cinayət Məcəlləsinə "Məhkumu əməyə mütləq cəlb etməklə azadlıqdan məhrum olunmağa şərti məhrum etmə" adı altında 23-1-ci maddə əlavə edilmişdir. Bundan sonra bu yeni cəza növü məhkəmələr tərəfindən, o cümlədən Azərbaycanda da geniş tətbiq olunmağa başlanmışdır. Qeyd edilən institut haqqında cinayət hüququ nəzəriyyəsində müxtəlif fikirlər olmasına baxmayaraq, bizcə, məhkumu mütləq əməyə cəlb etməklə azadlıqdan şərti məhrum etmə müstəqil cəza növüdür və təsadüfi deyildir ki, o, Cinayət Məcəlləsinin cəza bölməsində öz əksini tapmışdır. Bundan əlavə, məhkumu əməyə mütləq cəlb etməklə azadlıqdan məhrum olunmağa şərti məhkum etmə digər cəzalara məxsus xüsusiyyətləri özündə cəmləşdirmişdir. Bu cəza növünün tətbiqinə dair keçmiş SSRİ Ali Məhkəməsinin Plenumunun 11 aprel 1972-ci il tarixli Qərarında da o, müstəqil cəza növü kimi qeyd olunmuşdur.

Azərbaycan SSR-nin Cinayət Məcəlləsinin 23-1-ci maddəsinə əsasən, qəsdən törədilmiş cinayətə görə ilk dəfə üç ilədək müddətə, ehtiyatsızlıqdan törədilmiş cinayətə görə isə, beş ilədək müddətə azadlıqdan məhrum etməyə məhkum olunan yetkinlik yaşına çatan əmək qabiliyyətli şəxsə cəza təyin edərkən, məhkəmə cina-

yətin xarakterini və ictimai təhlükəlilik dərəcəsini, təqsirkarın şəxsiyyətini və işin digər hallarını, habelə onu cəmiyyətdən təcrid etmədən, lakin ona nəzarət etmək şərti ilə islah edilməyin və yenidən tərbiyə olunmağın mümkün olduğunu nəzərə alaraq, həmin şəxsi cəzanın təyin olunduğu müddətdə hökmün icrasına baxan orqanlar tərəfindən müəyyən olunmuş yerlərdə əməyə mütləq cəlb etməkdə azadlıqdan məhrum olunmağa şərti məhkum etmə haqqında qərar çıxara bilər. Maddənin məzmunundan göründüyü kimi, şərti məhrum etmə bütün məhkumlara tətbiq olunmur. Bu cəza növü tətbiq edilə bilməyən məhkumların dairəsi də Cinayət Məcəlləsinin 23-1-ci maddəsi ilə tam müəyyənləşdirilmişdir.

Azərbaycan Respublikasında 1990-1998-ci illər üçün məhkəmə təcrübəsi haqqında statistik məlumatların təhlili göstərdi ki, məhkumu əməyə mütləq cəlb etməklə azadlıqdan məhrum olunmağa şərti məhkum etmə cəzasının bütün məhkum olunmuş şəxslərin sayı ilə nisbətdə tətbiqi aşağıdakı kimi olmuşdur:

1990 – 9,8 %;
1991 – 9,9 %;
1993 – 13,0 %;
1994 – 12,2%;
1995 – 12,4 %;
1996 – 10,9 %;
1997 – 11,0 %;
1998 – 5,3 %.

Qeyd olunan illər üçün bu növ cəzanın tətbiqi orta hesabla təxminən 10,8 % təşkil edir, yəni Azərbaycan Respublikasında hər yüz məhkum olunan şəxsin təxminən on bir nəfərinə məhkumu əməyə mütləq cəlb etməklə azadlıqdan məhrum olunmağa şərti məhkum etmə cəzası təyin olunmuşdur.

Məhkumu azadlıqdan məhrum etmə yerlərindən əməyə mütləq cəlb etməklə şərti azad etmə ilkin olaraq, SSRİ Ali Soveti Rəyasət Heyətinin 20 mart 1964-cü il tarixli Fərmanı ilə, cinayət qanunvericiliyinə daxil edilmədən müstəqil tətbiq edilmişdir. Sonradan bu institut inkişaf etdirilərək, SSRİ Ali Soveti Rəyasət Heyətinin 8

fevral 1977-ci il tarixli Fərmanı ilə cinayət qanunvericiliyinə daxil edilmişdir. Həmin fərmanla əlaqədar, Azərbaycan SSR-nin Ali Soveti Rəyasət Heyətinin 28 mart 1977-ci il tarixli Fərmanı ilə, respublikanın Cinayət Məcəlləsinə "Məhkumu azadlıqdan məhrum etmə yerlərindən məcburi əməyə cəlb etməklə şərti azad etmə" adı altında 50-2-ci maddə əlavə edilmiş və bu maddədə şərti azad etmənin tətbiq şərtləri öz əksini tapmışdır.

Azərbaycan SSR-nin Cinayət Məcəlləsinin 50-2-ci maddəsinə əsasən, müəyyən məhdudiyyətlər qoyulmaqla, həmçinin koloniya-məntəqələrdə cəza çəkən məhkumlar istisna olmaqla, azadlıqdan məhrum etmə yerlərində cəza çəkən yetkinlik yaşına çatan əmək qabiliyətli şəxsləri cəmiyyətdən təcrid etmədən, lakin onlar üzərində nəzarət qoymaq şərti ilə gələcəkdə islah etmək və yenidən tərbiyə etmək mümkündürsə, belə şəxslərə hökmün icrasına baxan orqanlar tərəfindən müəyyən edilən yerlərdə əməyə mütləq cəlb olunmaqla azadlıqdan məhrum etmə yerlərindən şərti azad etmə tətbiq oluna bilər.

Məhkumu əməyə mütləq cəlb etməklə azadlıqdan məhrum olunmağa şərti məhkum etmə cəzasının icra qaydası və şərtləri İslah-Əmək Məcəlləsinin 81-2–82-5-ci maddələri ilə nizama salınmışdır. Lakin bu maddələrlə həmçinin, azadlıqdan məhrum etmə yerlərindən azad etmənin bir növü sayılan, məhkumu əməyə mütləq cəlb etməklə azadlıqdan məhrum etmə yerlərindən şərti azad etmənin icra qaydası və şərtləri də tənzimlənmişdir. Belə tənzimlənmə qeyd olunan hər iki institutun mahiyyət etibarı ilə bir-birinə oxşarlığından irəli gəlir. Çünki, istər məhkumu əməyə mütləq cəlb etməklə azadlıqdan məhrum olunmağa şərti məhkum etmənin (bundan sonra şərti məhkum etmə), istərsə də məhkumu əməyə mütləq cəlb etməklə azadlıqdan məhrum etmə yerlərindən şərti azad etmənin (bundan sonra şərti azad etmə) əsas məzmununu məhkumun əməyə mütləq cəlb olunması təşkil edir. Bundan əlavə, hər iki kateqoriyadan olan məhkumların cəzalarının icrası bir orqan – xüsusi komendantlıq tərəfindən həyata keçirilir. Lakin oxşarlığa baxmayaraq, bu iki institut bir-birindən aşağıdakılara

görə fərqlənir:

1. Sərti azad etmə azadlıqdan məhrum etmə yerlərində cəza çəkən məhkumlara həvəsləndirmə tədbiri kimi tətbiq edildiyi halda, şərti məhkum etmə bilavasitə cinayət törətməkdə məhkəmə tərəfindən təqsirkar bilinmiş şəxsə cəza kimi tətbiq edilir;

2. Şərti azad etmə əvvəllər azadlıqdan məhrum etməyə məhkum edilmiş şəxslərə tətbiq edildiyi halda, şərti məhkum etmə yalnız ilk dəfə azadlıqdan məhrum etməyə məhkum edilən şəxslərə tətbiq edilir;

3. Cinayət Məcəlləsinin Xüsusi Hissəsinin maddələri nəzərə alınmaqla, şərti azad etmənin tətbiq dairəsi şərti məhkum etmənin tətbiq olunma dairəsindən xeyli kiçikdir. Yəni, Cinayət Məcəlləsinin bir sıra maddələri ilə azadlıqdan məhrum etmə yerlərindən şərti azad etmə qanunvericiliklə qadağan edilsə də, bu maddələrlə azadlıqdan məhrum edilən şəxslərə şərti məhkum etmənin tətbiq olunmasına məhdudiyyət qoyulmamışdır.

Əməyə mütləq cəlb olunmaqla azadlıqdan şərti məhrum edilən və hökm qanuni qüvvəyə mindiyi vaxt azadlıqda olan şəxslər iş yerinə dövlət hesabına müstəqil gedirlər. Belə hallarda, hökmü çıxarmış məhkəmə məhkumun yaşadığı yerin ədliyyə orqanlarına hökmü icra etmək haqqında sərəncam göndərir. Ədliyyə polis orqanı iş yerinə getmək haqqında məhkuma göndəriş verir. Şərti məhkum olunmuş, həbs altında olan şəxslər istintaq təcridxanasından hökm qanuni qüvvəyə mindikdən sonra azad edilirlər. İstintaq təcridxanasının müdiriyyəti məhkuma iş yerinə getmək haqqında göndəriş verir. Məhkum göndərişi aldığı gündən etibarən üç sutkadan gec olmayaraq iş yerinə yola düşməli və yol getmək üçün lazım olan və getmək haqqında göndərişdə nəzərdə tutulan müddətdə oraya gəlməlidir. İştirakçılıqla cinayət etmiş şəxslər cəza çəkmək üçün, bir qayda olaraq, müxtəlif müəssisələrə göndərilirlər.

Məhkum cəza çəkmək yerinə getmək haqqında göndərişi almaqdan boyun qaçırdıqda, yaxud müəyyən edilmiş müddətdə getmədikdə və ya cəza çəkmə yerinə gəlmədikdə, bu hərəkətlərin sə-

bəblərini müəyyən etmək üçün prokurorun sanksiyası ilə polis orqanı tərəfindən ən çoxu 30 sutka müddətinə tutulur. Polis orqanı tutulmuş şəxsi azadlıqdan məhrum edilməyə məhkum olunmuş şəxslər üçün müəyyən edilən qaydada cəza çəkmə yerinə göndərir, yaxud hökmün icrasından boyun qaçırmaq haqqında məlumat olduqda, hökmə uyğun olaraq, məhkumu azadlıqdan məhrum etmə yerinə göndərmək məsələsini həll etmək üçün materialları onun tutulduğu yerdəki məhkəməyə verir.

Şərti azad edilmiş məhkumlar cəzanın çəkilməsi yerinə islahəmək müəssisəsinin müdiriyyəti tətəfindən müşayiət edilir və xüsusi komendantlığın rəhbərliyinə təhvil verilirlər.

Şərti məhkum edilmiş və şərti azad edilmiş şəxslər Azərbaycan Respublikasının vətəndaşları üçün qanunla müəyyən edilmiş hüquqlardan istifadə edir və vəzifələri daşıyırlar. Lakin aşağıdakı məhdudiyyətlər qoyulur:

- onlar hökmün icrasına baxan orqanlar tərəfindən göndərildikləri yerlərdə işləməyə borcludurlar;
- istehsalat üçün zəruri olan hallarda, onların razılığı olmadan başqa işə, o cümlədən başqa yerdə işləməyə keçirilə bilərlər;
- onlar üçün ayrılmış xüsusi yataqxanalarda yaşamağa borcludurlar;
- məhkumun işdən asudə vaxtlarda yataqxanadan kənarda olmasına, yalnız nəzarəti həyata keçirən xüsusi komendantlığın müdiriyyətinin icazəsi ilə yol verilir;
- onlara cəzanı icra edən orqanın xüsusi icazəsi olmadan məcburi iş müddəti ərzində işlədikləri yerin inzibati rayonun hüdudlarından kənara çıxmaq qadağan edilir;
- onlar qeyd olunmaq üçün, cəzanı icra edən orqana ayda bir dəfədən dörd dəfəyədək gəlməyə borcludurlar. Məhkumun qeydiyyatının vaxtaşırlığı cəzanı icra edən orqanın rəisinin qərarı ilə müəyyən olunur.

Şərti məhkum edilmiş və şərti azad edilmiş şəxslərin cəza çəkdikləri müəssisələrin müdiriyyəti həmin şəxslərin ixtisasını mümkün qədər nəzərə almaqla, onların ictimai-faydalı əməyə cəlb

olunmasını təmin etməyə, peşə təlimini təşkil etməyə, onlar üçün lazımi mənzil-məişət şəraiti yaratmağa borcludur.

Şərti məhkum edilmiş və şərti azad edilmiş məhkumların qeydiyyata alındıqları komendantlıqlar əvvəllər cəza çəkən şəxslərin əməyə cəlb olunmasını təmin etmək üçün müxtəlif sənaye və təsərrüfat təşkilatları ilə müqavilələr bağlayırdılar. Qeyd olunan təşkilatların böyük əksəriyyətini tikinti müəssisələri təşkil edirdi. Bu müqavilələrə əsasən, məhkumları işlə təmin etməyi öhdəsinə götürən təşkilatlar komendantlığın iş fəaliyyəti, məhkumların yaşayışı üçün xüsusi binalar təqdim edirdilər. Bir qayda olaraq, bu binalar yataqxana tipli olmaqla, komendantlıqların müqavilə bağladıqları təşkilatların, idarələrin balansındakı tikililər olurdu. Xüsusi komendantlığın əməkdaşlarının, işləyən məhkumların əmək haqlarının ödənilməsi və s. zəruri xərclər onların hesabına ödənilirdi. Cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə, başqa müəssisələrə keçirmə, cəza çəkmək üçün azadlıqdan məhrum etmə yerlərinə göndərilən, yaxud müəyyən olunmuş qaydada birinci və ya ikinci qrup əlil hesab edilmə halları istisna olmaqla, şərti məhkum olunmuş və şərti azad edilmiş şəxsləri əməyə mütləq cəlb etmə müddəti ərzində işdən azad etmək müəssisələrin müdiriyyətinə qadağan olunurdu. Həmin şəxslər müdiriyyət tərəfindən başqa yerdə işləməyə, yalnız cəzanın icrasını həyata keçirən orqanın razılığı ilə göndərilə bilərdilər.

Lakin bazar iqtisadiyyatına keçid, işsizlik, müəssisə və təşkilatların özəlləşdirilməsi, həmçinin dövlət tərəfindən aparılan tikinti işlərinin demək olar ki, dayandırılması şərti məhkum edilmiş və şərti azad edilmiş şəxslərin əməyə cəlb olunması işində ciddi problemlər yaratmışdır. Vəziyyətdən çıxış kimi, məhkumlar cəzanı icra edən xüsusi komendantlığın müdiriyyəti, o cümlədən məhkumların özlərinin təşəbbüsü ilə müxtəlif müəssisə və təşkilatlarda işlə təmin olunurlar. Bununla bağlı xüsusi komendantlıq və məhkumun işə düzəldiyi müəssisələr arasında müvafiq müqavilələr bağlanılır. Lakin əvvəlki müqavilələrdən fərqli olaraq, müəssisələr yalnız məhkumların əmək haqqını ödəməyi öz öhdələrinə

götürürlər. Yataqxanalarda yaşayış haqqı, kommunal xərclər məhkumlar tərəfindən ödənilir. Xüsusi komendantlığın əməkdaşlarına əmək haqqı isə, artıq bir neçə ildir ki, büdcədən ayırmalar hesabına ödənilir.

Şərti məhkum edilmiş və şərti azad edilmiş şəxslər nümunəvi davrandıqda və əməyə vicdanla yanaşdıqda onların ezamiyyətə və digər üzrlü səbəblərə görə inzibati rayonun hüdudlarından kənara çıxmasına, müstəsna hallarda, məhkumun işlədiyi müəssisənin müdiriyyətinin və cəzanı icra edən orqanın birgə qərarı ilə yol verilir. Bu şəxslərin inzibati rayon hüdudlarından kənarda olduğu vaxt cəza çəkmə müddətinə hesablanır. Şərti məhkum edilmiş və şərti azad edilmiş şəxslərin müstəsna şəxsi vəziyyəti ilə əlaqədar təcili səfər haqqında ərizəsinə bir sutka ərzində baxılmalıdır. Qəbul olunmuş qərar məhkuma elan edilir.

Şərti məhkum olunmuş və şərti azad edilmiş şəxslərə cəza çəkdikləri müddətdə davranışlarından və əməyə münasibətlərindən asılı olaraq həvəsləndirmə və tənbeh tədbirləri tətbiq oluna bilər. Şərti məhkum olunmuş və şərti azad edilmiş şəxslərin yaxşı davranışına və əməyə vicdanlı münasibətinə görə, cəzanı icra edən orqanlar onlar barəsində aşağıdakı həvəsləndirmə tədbirlərini tətbiq edə bilərlər:

- təşəkkür elan etmək;
- əvvəllər verilmiş tənbehi vaxtından əvvəl götürmək;
- müəssisənin müdiriyyəti ilə birgə qəbul olunmuş qərar əsasında inzibati rayonun hüdudlarından kənara məzuniyyətə göndərmək;
- evli məhkumlara icarəyə götürdükləri mənzil sahəsində öz ailələri ilə birlikdə yaşamağa icazə vermək.

Nümunəvi davranışı və əməyə namuslu münasibəti ilə islah olunduğunu sübut edən şərti məhkum olunmuş və şərti azad edilmiş şəxslər Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 50-ci maddəsində müəyyən edilən qaydada vaxtından əvvəl şərti azad olunmaq və ya cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsi üçün təqdim edilə bilərlər.

Məhkumun əmək intizamını, yaxud ictimai asayişi pozması qüvvədə olan qanunvericiliyə uyğun olaraq intizam məsuliyyəti və ya inzibati məsuliyyət tədbirləri tətbiq edilməsinə səbəb olur. Əmək intizamını, ictimai asayişi, qeydiyyatdan keçmə qaydalarını və ya onlar üçün müəyyən edilmiş yaşayış qaydalarını pozan şərti məhkum olunmuş və şərti azad edilmiş şəxslər barəsində cəzanı icra edən orqanlar tərəfindən aşağıdakı tənbeh tədbirləri tətbiq oluna bilər:

- xəbərdarlıq;
- töhmət;
- yataqxanadan kənarda yaşamağa, müəyyən edilmiş vaxtda yataqxanadan kənara çıxmağa, habelə müəyyən yerlərdə olmağa altı ayadək müddətə qadağan qoyulması.

Cəzanı icra edən orqanın rəisinin həvəsləndirmə və tənbeh tədbirlərini tam həcmdə tətbiq etmək hüququ vardır.

İşdən boyun qaçıran, yaxud əmək intizamını, ictimai asayişi və ya onun üçün müəyyən edilmiş yaşayış qaydalarını müntəzəm və ya qəsdən pozan məhkum, hökmün icrasından boyun qaçırmağın qarşısını almaq və hökmə uyğun surətdə onun azadıqdan məhrum etmə yerlərinə göndərilməsi məsələsinin həlli üçün materialları məhkəməyə vermək məqsədilə, cəzanı icra edən orqan tərəfindən prokurorun sanksiyası üzrə ən çoxu on sutka müddətinə tutula bilər.

Məhkumun işlədiyi müəssisənin müdiriyyəti cəza çəkənin naməlum səbəblərə görə üç sutkadan artıq işə çıxmaması, yaxud belə şəxslərin müəyyən edilmiş müddətdə məzuniyyətdən və ya ezamiyyətdən iş yerinə qayıtmaması barədə cəzanı icra edən orqana dərhal məlumat verməyə borcludur.

Məhkum işlədiyi yerin inzibati rayonunun hüdudlarından özbaşına çıxıb getdikdə, belə getmənin səbəblərini müəyyən etmək üçün prokurorun sanksiyası ilə cəzanı icra edən orqan tərəfindən ən çoxu otuz sutka müddətinə tutulur. Məhkumun hökmün icrasından boyun qaçırması haqqında cəzanı icra edən orqanda məlumat olduqda, o, cəza çəkənin azadlıqdan məhrum etmə yerinə

göndərilməsi məsələsini hökmə müvafiq surətdə həll etmək üçün materialları Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 383-2-ci maddəsinə əsasən, onun tutulduğu yerin məhkəməsinə təqdim edir.

Şərti məhkum olunmuş və şərti azad edilmiş şəxslərə nəzarət etmə qaydası və bu məhkumların yaşaması üçün nəzərdə tutulmuş yataqxanalarda Daxili İntizam Qaydaları Azərbaycan Respublikası Prokurorluğu ilə razılaşdırılmaqla, Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən müəyyən edilmişdir.

Şərti məhkum olunmuş və şərti azad edilmiş şəxslərin yaşaması üçün xüsusi olaraq nəzərdə tutulan yataqxanalarda istifadə olunması Daxili İntizam Qaydaları ilə qadağan edilmiş əşyaların gətirilməsinin və qanunsuz olaraq saxlanılmasının qarşısını almaq məqsədilə cəzanı icra edən orqanların vəzifəli şəxslərinin həmin məhkumları, habelə onlara məxsus yerləri yoxlamaq və qadağan edilmiş əşyaları göstərilən Qaydalara riayət etməklə müəyyən olunmuş qaydada almaq hüququ vardır. Alınmış əşyalar onların xarakterindən və əldə edilmə şəraitindən olaraq ya saxlanmaq üçün anbara verilir, ya da müvafiq akt tətbiq etməklə məhv edilir.

Şərti məhkum edilmiş və şərti azad edilmiş şəxslərlə siyasi-tərbiyə işi aparılır. Bu işin məqsədi məhkumları əməyə vicdanlı münasibət bəsləmək, qanunları dürüst yerinə yetirmək və ictimai qaydalara hörmət etmək ruhunda tərbiyə etməkdən, onların şüurluluğunu və mədəni səviyyəsini yüksəltməkdən, faydalı təşəbbüskarlığını inkişaf etdirməkdən ibarətdir. Məhkumlarla siyasi-tərbiyə işini hökmün icrasına baxan orqan, əmək kollektivləri, ictimai təşkilatlar aparırlar.

Cəzanın çəkildiyi müddətdə xəstələnən, o cümlədən ruhi və ya digər xəstəliklərə düçar olmuş şərti məhkum edilmiş və şərti azad edilmiş şəxslər müalicə üçün müvafiq yerli xəstəxanalara göndərilirlər. Məhkumun xəstəliklə əlaqədar müalicə müəssisələrində olduğu vaxt onların cəza müddətinə hesablanır.

Şərti məhkum edilmiş və şərti azad edilmiş şəxslər cəza çəkmə müddətində tibbi-sosial ekspert komissiyası tərəfindən birinci və

ya ikinci qrup əlil hesab edildikdə, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 383-1-ci maddəsinə əsasən, cəzanı icra edən orqanın təqdimatı üzrə məhkəmənin qərardadı ilə cəza çəkməkdən vaxtından əvvəl azad edilirlər.

Şərti məhkum edilmiş və ya şərti azad edilmiş şəxs cəza müddətində yeni cinayət törədərsə, məhkəmə ona cəzanı Cinayət Məcəlləsinin 30-cu maddəsində nəzərdə tutulmuş qaydalar üzrə təyin edir. Bu halda məhkəmə azadlıqdan məhrum etmə cəzası tətbiq edərsə, xüsusi komendantlıqda saxlanmağın bir günü azadlıqdan məhrum etmənin bir günü kimi hesablanır.

Son illər mövcud iqtisadi vəziyyətlə əlaqədar Azərbaycan Respublikasında məhkumu mütləq əməyə cəlb etməklə şərti məhkum etmə və şərti azad azad etmə institutlarının ləğv olunması, yəni Cinayət Məcəlləsindən 23-1 və 50-2-ci maddələrin çıxarılması haqqında müzakirələr gedir. Belə diskussiyalara məhkumların işlə təmin olunmasındakı çətinliklərdən başqa, hər iki institutun keçmiş SSRİ respublikalarının bəzilərində ləğvi səbəb olmuşdur. Belə ki, Rusiya Federasiyasında 18 fevral 1993-cü il tarixli qanunla məhkumları mütləq əməyə cəlb etməklə şərti məhkum etmə və şərti azad etmə institutları ləğv olunmuşdur. Lakin bir müddət sonra, yəni Rusiya Federasiyasının yeni Cinayət Məcəlləsi qəbul edildikdə bu məsələyə yenidən baxılmış və 1997-ci il yanvar ayının 1-dən qüvvəyə minmiş yeni Cinayət Məcəlləsində məhkumları mütləq əməyə cəlb etməklə şərti məhkum etmə, cüzi dəyişikliklər edilməklə, azadlığın məhdudlaşdırılması adı ilə yeni cəza növü kimi cəza sisteminə daxil edilmişdir.

Fikrimizcə, məhkumu mütləq əməyə cəlb etməklə şərti məhkum etmə və şərti azad etmə institutlarının Azərbaycan Respublikasında saxlanması məqsədəuyğun olardı. Çünki, hər iki institut məhkumların azadlıqdan məhrum etmə yerlərində saxlanmasının alternativi olmaqla, islah-əmək müəssisələrində məhkumların sayının artmasının qarşısını almağa əlverişli zəmin yaradır. Bundan əlavə, məhkumu mütləq əməyə cəlb etməklə azadlıqdan məhrum etmə yerlərindən şərti azad etmə həvəsləndirmə tədbiri olmaqla,

cəza çəkənlərə müvafiq stimul yaradır, onların islah olunmasına və yenidən tərbiyə edilməsinə böyük köməklik göstərir. Son illər Azərbaycan Respublikasının mövcud cəza sistemi ATƏT, Avropa Şurası, digər beynəlxalq, hökumət və yerli-hökumət təşkilatları tərəfindən öyrənilərkən, məhkumu mütləq əməyə cəlb etməklə azadlıqdan şərti məhkum etmə və şərti azad etmə institutları müsbət qiymətləndirilmiş və onların gələcəkdə cəza tədbiri kimi saxlanılması tövsiyə olunmuşdur. Fikrimizcə, hər iki institutun məzmununda müəyyən dəyişikliklər edilməklə Azərbaycan Respublikasının yeni Cinayət Məcəlləsində saxlanması, ölkədə məhkumların sayının azaldılması istiqamətində aparılan dövlət siyasətinin uğurla həyata keçirilməsinə köməklik göstərə bilərdi.

***İstinad edilmiş mənbə:***

***Cəza və onun icrası. Bakı, "Hüquq ədəbiyyatı" nəşriyyatı, 1999, Səh. 117–128.***

## Azərbaycan Pespublikasında məhkumlara islah-əmək təsiri tədbirləri ilə bağlı olmayan cinayət cəzalarının icrasının bəzi problemləri

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin (bundan sonra AR CM) 21-ci maddəsində nəzərdə tutulmuş cəza növləri məhkuma islah-əmək təsiri tədbirləri ilə bağlı və bağlı olmayan iki qrupa bölünür. Birinci qrupa azadlıqdan məhrum etmə, Tərbiyə-əmək profilaktoriyasına göndərmə və azadlıqdan məhrum etmədən islah işləri cəzaları daxildir. Məhkumlara islah-əmək təsiri tədbirləri ilə olmayan cəzalar isə, aşağıdakılardır:

- müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə;
- vəzifədən çıxartma;
- cərimə;
- ictimai məzəmmət;
- əmlak müsadirəsi;
- rütbə və fəxri adlardan, habelə dövlət mükafatlarından məhrum etmə;
- valideyinlik hüquqlarından məhrum etmə.

Göstərilən cəzalardan ictimai məzəmmət cəzası məhkəmə hökmü ilə yalnız müstəqil tətbiq edilən və başqa cəza növlərinə qoşula bilməyən əsas cəza növüdür. Müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, vəzifədən çıxartma, cərimə yalnız əsas cəza kimi deyil, eyni zamanda əlavə cəza kimi tətbiq edilə bilər. Əmlak müsadirəsi, rütbə və fəxri adlardan, habelə dövlət mükafatlarından məhrum etmə, valideyinlik hüquqlarından məhrum etmə cəzaları yalnız əlavə cəza kimi tətbiq edilə bilər. Göstərilən cəzaların icrası Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin 1 fevral 1984-cü il tarixli Fərmanı ilə təsdiq edilmiş “Məhkumlarla islah-əmək təsiri ilə bağlı olmayan cinayət cəzalarının Azərbaycan SSR-də icrası qaydası və şərtləri haqqında Əsasnamə” (bundan sonra Əsasnamə) ilə tən-

zimlənir. Qeyd olunan cəzaların icrası üçün əsas məhkəmənin qanunu qüvvəyə minmiş hökmü hesab edilir. Əsasnamənin ikinci maddəsinə əsasən qanuni qüvvəyə minmiş hökm həmin hökmü çıxaran məhkəmə tərəfindən hökmün qanuni qüvvəyə mindiyi və ya işin kassasiya instansiyasından qayıtdığı gündən üç gündən gec olmayaraq icraya yönəldilməlidir. Məhkumlara islah-əmək təsiri tədbirləri ilə bağlı olmayan cinayət cəzalarının icrası mövcud Əsasnaməyə uyğun olaraq aşağıdakı qaydada həyata keçirilir.

Müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olmaq hüququndan məhrum etmə, vəzifədən çıxartma, rütbə və ya fəxri adlardan, habelə dövlət mükafatlarından məhrum etmə, valideyinlik hüquqlarından məhrum etmə cəzaları, bir qayda olaraq, müxtəlif müəssisələr, idarələr və təşkilatlar tərəfindən icra olunur.

Cərimənin və əmlak müsadirəsinin icrası ədliyyə orqanları tərəfindən, ictimai məzəmmət cəzası isə, hökmü çıxarmış məhkəmə tərəfindən icra edilir. Əsasnaməyə görə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olmaq hüququndan məhrum etmə, vəzifədən çıxartma cəzalarının icrasına nəzarəti ədliyyə orqanı, yəni 09 yanvar 1999-cu il tarixdə Azərbaycan Respublikası Prezidentinin 399 nömrəli Fərmanı ilə Ədliyyə Nazirliyinin nəzdində təşkil olunmuş Məhkəmə Qərarlarının İcrası Baş İdarəsinin tabeliyində olan rayon (şəhər) ədliyyə polis bölmə və qrupları həyata keçirirlər. İctimai məzəmmət cəzasının müxtəlif vasitələrlə ictimaiyyətin nəzərinə çatdırılması hökmdə nəzərdə tutularsa, buna nəzarəti yuxarıda göstərilən ədliyyə orqanı həyata keçirir.

Valideyinlik hüququndan məhrum etmə cəzası uşağı məcburi surətdə almaq və onu digər şəxslərə verilməsini nəzərdə tutulmaqla tətbiq edilərsə, bu halda hökmün icrası ədliyyə orqanı tərəfindən həyata keçirilir. İndi isə yuxarıda göstərilən cəza növlərinin icrası və şərtləri qaydalarını ayrı-ayrılqda nəzərdən keçirək.

**Müəyyən vəzifə tutmaq və ya müəyyən fəaliyyətlə məşğul olmaq hüququndan məhrum etmə.** Bu cəza bir ildən beş ilə kimi təyin edilə bilər. Əsasnamənin 5-ci maddəsinə uyğun olaraq, müəyyən vəzifə tutmaq və ya müəyyən fəaliyyətlə məşğul olmaq

hüququndan məhrum etmə əsas cəza kimi, yaxud azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzaya əlavə kimi təyin edildikdə, habelə şərti məhkum olunmuş, yaxud hökmün icrası təxirə salınmaqla məhkum olunmuş şəxs barəsində təyin edildikdə, əgər bu halda əlavə cəzanın icrası təxirə salınmamışdırsa, məhkəmə qanuni qüvvəyə minmiş hökmün surətini icra edilmək üçün məhkumun işlədiyi müəssisənin, idarənin, təşkilatın müdiriyyətinə, habelə Əsasnamənin 8-ci maddəsinə uyğun olaraq göstərilən cəza tədbirinin icrasına nəzarət edilməsi üçün məhkumun yaşadığı yerin ədliyyə orqanına göndərir. Müəyyən vəzifə tutmaq və ya müəyyən fəaliyyətlə məşğul olmaq hüququndan məhrum etmə azadlıqdan məhrum olunmağa əlavə cəza kimi təyin edildikdə, islah-əmək müəssisəsinin müdiriyyəti əsas cəza müddəti qurtardıqdan sonra, yaxud məhkumun CM-nin 50-ci maddəsinə uyğun cəzadan şərti olaraq vaxtından əvvəl azad edildiyi və ya cəzanın daha yüngül cəza ilə əvəz edildiyi hallarda hökmün surətini məhkumun yaşadığı yerin ədliyyə orqanına göndərir. Əgər müəyyən vəzifə tutmaq və ya müəyyən fəaliyyət ilə məşğul olmaq hüququndan məhrum etmə əməyə mütləq cəlb edilməklə azadlıqdan şərti məhrum edilmiş və ya əməyə mütləq cəlb edilməklə azadlıqdan məhrum etmə yerlərindən şərti azad edilmiş şəxsə əlavə cəza kimi təyin edilmişsə, hökmün icrasına baxan orqan əməyə mütləq cəlb etmə müddəti qurtardıqdan sonra, göstərilən cəza icra edilməmişdirsə, hökmün surətini məhkumun yaşadığı yerin ədliyyə orqanına göndərir.

Məhkumun işlədiyi müəssisənin, idarənin, təşkilatın müdiriyyəti hökmün surətinin alındığı gündən sonra bir gündən gec olmayaraq, işlədiyi vəzifəni tutmaq və ya həmin fəaliyyətlə məşğul olmaq hüququndan məhrum edilmiş məhkumla əmək müqaviləsinə əmək qanunvericiliyində nəzərdə tutulmuş qaydada xitam verir və məhkəmənin hökmünə tam uyğun olaraq məhkumun əmək kitabçasına onun hansı əsasla, hansı müddətə və hansı vəzifəni tutmaq hüququndan məhrum edilməsi və ya hansı fəaliyyət növü ilə məşğul olmaq hüququndan məhrum edilməsi barədə qeyd edir. Bundan sonra müdiriyyət hökmü çıxarmış məhkəməyə və göstərilən

cəza tədbirinin icrasına nəzarət edən ədliyyə orqanına bu barədə dərhal məlumat verir.

Məhkum olunmuş şəxsin işlədiyi müəssisənin müdiriyyəti hökmə zidd olmadıqda, məhkumun razılığı ilə ona həmin müəssisədə, idarədə, təşkilatda başqa vəzifə və ya əmək fəaliyyəti ilə məşğul olmaq imkanı vermək hüququna malikdir.

Müəyyən vəzifə tutmaq və ya müəyyən fəaliyyətlə məşğul olmaq hüququndan məhrum edilməyə məhkum olunmuş şəxs işə girərkən, onun əmək kitabçasında müvafiq qeyd olmadıqda müəssisənin, idarənin, təşkilatın müdiriyyəti bu cəza tədbirinin icrasına nəzarət edən ədliyyə orqanının təqdimatı ilə məhkəmənin hökmünə tam uyğun olaraq həmin şəxsin əmək kitabçasında onun hansı əsasla, hansı müddətə və hansı vəzifəni tutmaq hüququndan məhrum edilməsi və ya hansı fəaliyyət növü ilə məşğul olmaq hüququndan məhrum edilməsi barədə qeyd edir. Müəyyən vəzifə tutmaq və ya müəyyən fəaliyyətlə məşğul olmaq hüququndan məhrum etmə növündə cəza çəkmiş, yaxud qanunla müəyyən edilmiş qaydada bu cəzadan azad edilmiş şəxsə onun xahişi ilə əmək kitabçası əvəzinə bu kitabçanın cəza haqqında qeydlər edilmiş dublikatı verilir.

Azadlıqdan məhrum edilməklə yanaşı, müəyyən vəzifə tutmaq və ya müəyyən fəaliyyətlə məşğul olmaq hüququndan məhrum etmə növündə əlavə cəzaya məhkum olunmuş şəxslər azadlıqdan məhrum etmə cəzasını çəkərkən, islah-əmək müəssisələrinin müdiriyyəti onlardan hökmdə görülməsi qadağan edilmiş işlərdə istifadə edə bilməz.

Əməyə mütləq cəlb edilməklə azadlıqdan məhrum edilməyə şərti məhkum olunmuş, habelə əməyə mütləq cəlb edilməklə azadlıqdan məhrum etmə yerlərindən şərti azad edilmiş şəxslər barəsində müəyyən vəzifə tutmaq və ya müəyyən fəaliyyətlə məşğul olmaq hüququndan məhrum etmə növündə əlavə cəzanın icrası məhkumun əməyə məcburi cəlb edildiyi yerin ədliyyə orqanlarına, yəni xüsusi komendantlıqlarına həvalə edilir. Məhkumun yaşadığı yerin ədliyyə orqanı:

- məhkumun müəyyən vəzifə tutmaq və ya müəyyən fəaliyyət-

lə məşğul olmaq sahəsində məhkəmənin hökmündə nəzərdə tutulan qadağaya riayət etməsinə nəzarət edir;

- məhkumun müəyyən vəzifə tutmaq və ya müəyyən fəaliyyətlə məşğul olmaq hüququndan məhrum edilməsi haqqında məhkəmənin hökmündə nəzərdə tutulan tələblərin müəssisə, idarə və təşkilatların müdiriyyəti tərəfindən yerinə yetirilməsini yoxlayır.

Müəyyən vəzifə tutmaq və ya müəyyən fəaliyyətlə məşğul olmaq hüququndan məhrum etmə azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzaya əlavə kimi təyin edildikdə, habelə şərti məhkum edilmə, yaxud azadlıqdan məhrum edilməyə məhkum olunmuş şəxs üçün hökmün icrası təxirə salındıqda, əgər bu halda əlavə cəzanın icrası təxirə salınmamışdırsa, icra müddəti hökmün qanunu qüvvəyə mindiyi vaxtdan hesablanır.

Müəyyən vəzifə tutmaq və ya müəyyən fəaliyyətlə məşğul olmaq hüququndan məhrum etmə azadlıqdan məhrum olunmağa əlavə cəza kimi təyin edildikdə, bu cəza məhkumun azadlıqdan məhrum etmə yerlərində olduğu bütün müddətə və bundan əlavə, hökmdə müəyyən olunmuş müddətə şamil edilir.

Əməyə mütləq cəlb etməklə azadlıqdan məhrum etmə yerlərindən şərti azad edilmiş şəxs barəsində müəyyən vəzifə tutmaq və ya müəyyən fəaliyyətlə məşğul olmaq hüququndan məhrum etmə növündə əlavə cəzanın müddəti istehsalat müəssisələrində məcburi iş müddətinin başlandığı vaxtdan hesablanır.

Azadlıqdan məhrum edilməyə məhkum olunmuş və vaxtından əvvəl şərti azad edilmiş, yaxud cəzası daha yüngül cəza ilə əvəz edilmiş şəxs barəsində müəyyən vəzifə tutmaq və ya müəyyən fəaliyyətlə məşğul olmaq hüququndan məhrum etmə növündə əlavə cəzanın müddəti onun azadlıqdan məhrum etmə yerlərindən azad olunduğu vaxtdan hesablanır.

Müəyyən vəzifə tutmaq və ya müəyyən fəaliyyətlə məşğul olmaq hüququndan məhrum edilməyə məhkum olunmuş şəxs görülməsi hökmdə ona qadağan edilmiş işə girərsə, bu halda müəssisənin, idarənin və ya təşkilatın müdiriyyəti öz təşəbbüsü ilə, yaxud ədliyyə orqanının və ya prokurorun təqdimatına əsasən Azərbaycan Respub-

likasının Əmək Qanunları Məcəlləsinin 38-2-ci maddəsinin (c) bəndinə uyğun olaraq (01 iyul 1999-cu il tarixdən qüvvəyə minən Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 74-cü maddəsinin (c) bəndinə əsasən) məhkumla əmək müqaviləsinə xitam verilir.

Müəyyən fəaliyyətlə məşğul olmaq hüququndan məhrum edilməyə məhkum olunmuş şəxs belə fəaliyyətlə məşğul olduqda, ədliyyə orqanı müvafiq müəssisə, idarə və ya təşkilata təqdimat verərək təklif edir ki, məhkumun hökmdə qadağan edilmiş əmək fəaliyyətinə xitam vermək üçün üç gün müddətində tədbir görülsün və xəbərdarlıq edir ki, hökmün icra edilməməsi cinayət məsuliyyətinə səbəb ola bilər.

Müəyyən vəzifə tutmaq və ya müəyyən fəaliyyətlə məşğul olmaq hüququndan məhrum edilməyə məhkum olunmuş şəxs, habelə müəyyən vəzifə tutmaq və ya müəyyən fəaliyyətlə məşğul olmaq hüququndan məhrum etmə haqqında məhkəmə hökmünün icra edilməsində təqsirli olan vəzifəli şəxs Azərbaycan Respublikasının CM-in 188-ci maddəsinə əsasən məsuliyyət daşıyır.

**Vəzifədən çıxartma.** Vəzifədən çıxartma əsas cəza kimi, yaxud azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzaya əlavə kimi, habelə əlavə cəzanın icrası təxirə salınmamışsa, şərti məhkum edilmiş, yaxud hökmün icrası təxirə salınmaqla məhkum edilmiş şəxs barəsində təyin edilərkən, məhkəmə qanunu qüvvəyə minmiş hökmün surətini məhkumun işlədiyi müəssisəsinin, idarənin, təşkilatın müdiriyyətinə göndərir.

Vəzifədən çıxartma haqqında hökmün icrasına məhkumun işlədiyi yerin rayon (şəhər) ədliyyə orqanı nəzarət edir. Vəzifədən çıxarılmağa məhkum olunanın işlədiyi müəssisə, idarə, təşkilatın müdiriyyəti hökmün surətini aldığı günün ertəsi günündən gec olmayaraq, Azərbaycan Respublikasının Əmək Qanunları Məcəlləsinin 38-2-ci maddəsinin "c" bəndinə əsasən (01 iyul 1999-cu il tarixdən qüvvəyə minən Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 74-cü maddəsinin "c" bəndinə əsasən) məhkumla əmək müqaviləsinə xitam verir. Bu barədə hökmü çıxarmış məhkəməyə dərhal məlumat verilməlidir.

Məhkəmənin hökmü ilə vəzifədən çıxarılmış şəxs məhkumluğu ödəlinənədək və ya məhkəmə qaydasında, habelə amnistiya aktına əsasən götürülənədək həmin vəzifəyə bərpa edilə bilməz. Məhkumun razılığı ilə müdiriyyətin həmin müəssisdə, idarədə, təşkilatda ona başqa işə götürmək hüququ vardır.

**Cərimə cəzası.** Bu cəza məhkumdan dövlətin xeyrinə məcburi tutulan pul məbləği olmaqla, Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən olunmuş minimum əmək haqqı məbləğinin otuz mislindən min iki yüz mislinədək miqdarda  müəyyən edilir. Hökmü icra edən ədliyyə orqanı məhkuma təklif edir ki, cərimənin məbləğini bir ay müddətində könüllü surətdə dövlət əmanət kassasına və ya müvafiq bank hesabına köçürməklə ödəsin, bununla yanaşı ona xəbərdarlıq edilir ki, əgər cərimə könüllü surətdə ödənilməsə, hökmdə göstərilən məbləğ məcburi qaydada tutulacaqdır.

Cərimənin məhkum tərəfindən dərhal ödənilməsi üzürlü səbəbdən üçün mümkün olmadıqda, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 382-ci maddəsinə uyğun olaraq, onun ödənilməsinə məhkəmə tərəfindən, üç aydan çox olmayaraq bir dəfə möhlət verilə bilər. Məhkum cəriməni müəyyən edilmiş müddətdə ödəmədikdə, həmin cəzanın icrası Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilən qaydada və müddətdə, hökmü çıxarmış məhkəmə tərəfindən verilən icra vərəqəsi əsasında məcburi yolla həyata keçirilir. Bu halda cərimənin tutulması məhkumun şəxsi əmlakına, habelə ümumi mülkiyyətdə olan payına yönəldilir.

Əgər tutulacaq məbləğ aylıq əmək haqqının, yaxud digər qazancının, pensiyanın, yaxud təqaüdün qanuna əsasən tutula bilən hissəsindən çox deyildirsə, onda məhkumun əmlakından cərimə tutulmur. Cərimənin tutulması əmlaka yönəldilməklə həyata keçirilərkən, məhkəmənin hökmü ilə müsadirə edilməməli olan və Azərbaycan Respublikası Cinayət Məcəlləsinə əlavə olunmuş Siyahıda göstərilən əmlak cərimənin ödənilməsi üçün alına bilməz. Burada Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 12

yanvar 1999-cu il tarixli müvafiq Qərarı əsas tutulmalıdır.

Əsas cəza kimi və ya şərti məhkum etmə zamanı əlavə cəza kimi cərimə növündə cəzanın icrası məhkumun yaşadığı yerin və ya işlədiyi yerin, yaxud onun əmlakının olduğu yerin rayon (şəhər) ədliyyə orqanı tərəfindən icra edilir. Azadlıqdan məhrum edilməyə, habelə əməyə mütləq cəlb etməklə azadlıqdan məhrum edilməyə şərti məhkum olunan zaman cərimə növündə verilən cəzanın icrası məhkumun yaşadığı və ya işlədiyi yerin, yaxud onun əmək haqqının olduğu yerin, ya da məhkumun əsas cəzanı çəkdiyi yerin rayon (şəhər) ədliyyə orqanı tərəfindən həyata keçirilir.

Cəriməyə məhkum edilmiş şəxs hökmün qanunu qüvvəyə mindiyi vaxtdan üç ay müddətində hökmün icrasından boyun qaçırarsa, məhkəmə CM-nin 29-cu maddəsinin tələblərinə uyğun olaraq əsas cəza kimi təyin edilmiş cəriməni şəxsin məhkum olduğu maddənin sanksiyasında nəzərdə tutulmuş cəza növlərindən hər hansı biri ilə əvəz edə bilər. Cərimənin tutulmasından sonra icra vərəqəsi hökmü çıxarmış məhkəməyə qaytarılır.

**İctimai məzəmmət.** İctimai məzəmmət növündə cəza, hökmü çıxarmış məhkəmə tərəfindən icra edilir və bu, hökmdə göstərilən məzəmmətin hökm elan olunarkən məhkəmə tərəfindən məhkuma açıq bildirilməsindən ibarət olur. Əgər hökmdə ictimai məzəmməti mətbuat vasitəsi ilə və ya başqa üsülla ictimaiyyətin nəzərinə çatdırmaq nəzərdə tutulmuşdursa, hökm qanuni qüvvəyə mindikdən sonra onun surəti məhkəmə tərəfindən məhkumun işlədiyi, təhsil aldığı və ya yaşadığı yerin müəssisə, idarə, təşkilatın müdiriyyətinə, ictimai təşkilatlara, yaxud mətbuat orqanına göndərilir və onlar görülmüş tədbirlər haqqında bir ay müddətində məhkəməyə məlumat verirlər. Hökm yığıncaqlarda, çoxtirajlı mətbuat və ya divar mətbuatı vasitəsilə, yaxud başqa üsulla əmək kollektivinin nəzərinə çatdırılır. Bu halda cəzanın icrasına məhkumun yaşadığı, işlədiyi və ya oxuduğu yerin rayon (şəhər) ədliyyə orqanı nəzarət edir.

**Əmlak müsadirəsi**. Əlavə cəza kimi əmlakın müsadirə olunmasını nəzərdə tutan hökmü çıxarmış məhkəmə hökm qüvvəyə mindikdən sonra icra vərəqəsini, əmlakın siyahısının surətini və

hökmün surətini icra üçün rayon (şəhər) ədliyyə orqanına göndərir və bu barədə müvafiq maliyyə orqanına məlumat verir. Əgər cinayət işində məhkumun əmlakının siyahısı olmadıqda, əmlakın siyahısının tərtib edilmədiyi barədə arayış göndərilir. Əmlak müsadirəsi növündə cəza əmlakın olduğu yerin rayon (şəhər) ədliyyə orqanı tərəfindən icra edilir. Məhkumun xüsusi mülkiyyətində olan, o cümlədən birgə mülkiyyətdə olan payına düşən əmlak, habelə məhkumun bütün əmanətləri müsadirə edilə bilər.

Məhkumun özü və onun himayəsindəki şəxslər üçün zəruri olan, məhkəmənin hökmü ilə müsadirəsinə yol verilməyən və AR CM-ə əlavə olunmuş Siyahıda göstərilən əmlak müsadirə oluna bilməz. Məhkəmənin hökmü ilə müsadirə edilməli olan əmlakın kimə mənsub olması haqqında mübahisələr mülki mühakimə icraatı qaydasında həll edilir. Ədliyyə orqanı icra vərəqəsini alan kimi dərhal siyahıda göstərilən əmlakın olmasını yoxlayır, müsadirə edilməli başqa əmlakı üzə çıxarır və bu əmlakın siyahısını tərtib edir. Əmlakın siyahıya alınmadığı barədə arayış olduqda ədliyyə orqanı məhkumun müsadirə edilməli olan əmlakını üzə çıxarmaq üçün tədbirlər görür və bu əmlakı aşkara çıxardıqda onun siyahısını tərtib edir.

Siyahıda hər bir əşyanın tam, dəqiq adı və onun fərqləndirici əlamətləri (o cümlədən çəkisi, rəngi, ölçüsü, aşınma dərəcəsi) göstərilir. Siyahıya alınan əşyalar plomblanır, yaxud möhürlənir və bu barədə siyahıda müvafiq qeyd edilir. Ədliyyə orqanının tərtib etdiyi əmlak siyahısı hakim tərəfindən təsdiq olunmalıdır. Ədliyyə orqanı müsadirə edilməli olan və siyahıya alınmış əmlakın normal və istifadəyə yararlı saxlanması üçün tədbirlər görür. Ümumi mülkiyyətdə məhkumun payı ədliyyə orqanının təqdimatı ilə onun tərkibinə daxil olduğu rayon (şəhər) məhkəməsi tərəfindən, mülki mühakimə icraatı qaydasında müəyyən edilir.

Məhkumun müsadirə olunmuş əmlakı ona verilən bütün tələblər qanunvericilikdə müəyyən edilmiş qaydada təmin edildikdən sonra maliyyə orqanlarına verilir.

Müsadirə olunmuş əmlakın maliyyə orqanlarına verilməsi qay-

dası Nazirlər Kabineti tərəfindən müəyyən edilmişdir. Müsadirə edilməli olan əmlak hansı müəssisədə, idarədə, təşkilatda və vətəndaşlarda olarsa, onlar bu barədə məhkəməyə və ya müvafiq maliyyə orqanına məlumat verməlidirlər.

Göstərilən əmlakın gizlədilməsində və ya mənimsənilməsində təqsirkar olanlar Azərbaycan Respublikası CM-nin 183-cü maddəsinə uyğun məsuliyyətə cəlb edilirlər.

Hökmün bütün əmlakın müsadirəsinə aid hissəsi icra edildikdən sonra, lakin ittiham hökmünün qanunla müəyyən edilmiş icra müddəti keçənədək məhkumun hökm çıxarılmazdan əvvəl, yaxud hökm çıxarıldıqdan sonra, lakin müsadirə olunmalı vəsaitlə əldə edilən müsadirə olunmamış əmlakı üzə çıxarsa və bu əmlak qanunla müsadirə edilə bilərsə, hökm çıxarmış məhkəmə və ya hökmün icra yerindəki məhkəmə üzə çıxarılmış əmlakın müsadirə edilməsi haqqında prokurorun təqdimatına əsasən qərar çıxarır.

Əgər hökmdə əmlakın müsadirəsindən əlavə cinayətlə vurulmuş ziyanın ödənilməsi nəzərdə tutularsa, onda müsadirə olunan əmlak ilk növbədə ziyanın ödənilməsinə yönəldilir və bundan sonra dövlətin nəfinə keçirilir.

Müsadirə olunmuş əmlak maliyyə orqanlarına verildikdən sonra əmlakın müsadirəsi haqqında hökmün icrası barəsində qeyd olan icra vərəqəsi hökmü çıxarmış məhkəməyə qaytarılır. Maliyyə orqanları hökmün əmlakın müsadirəsinə aid hissəsinin icrasını təsdiq edən məlumatı hökmü çıxaran məhkəməyə göndərir.

Məhkumun xüsusi mülkiyyətində olan əmlakının hamısının məcburi qaydada, əvəzsiz olaraq dövlət mülkiyyətinə alınması 1999-cu ilin fevralın 1-nə kimi məhkəmələr tərəfindən tətbiq olunurdu. Lakin Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 12 yanvar 1999-cu il tarixli Qərarına əsasən Azərbaycan Respublikası CM-nin 32-ci maddəsində və həmin məcəllənin xüsusi hissəsindəki maddələrin sanksiyalarında əlavə cəza növü kimi nəzərdə tutulan əmlak müsadirəsi yalnız cinayət törədilərkən isitifadə edilmiş alət və vasitələr, habelə cinayət yolu ilə əldə edilmiş əmlak barəsində tətbiq edilə bilər. Konstitusiya Məhkəməsinin bu

qərarı ilə 1 fevral 1999-cu il tarixdən qüvvəyə minmişdir. Müəyyən olunmuş qaydaya əsasən qeyd olunan tarixdən məhkəmələr cinayət işləri üzrə ittiham hökmü çıxararkən, əgər məhkumun əmlakının müsadirəsini zəruri hesab etsələr, onda onlar mütləq Konstitusiya Məhkəməsinin Qərarına uyğun hökm çıxarmalıdırlar.

**Rütbə və ya fəxri adlardan, habelə dövlət mükafatlarından məhrum etmə.** Ağır cinayət törətmiş şəxsin rütbə və ya fəxri addan, habelə dövlət mükafatlarından məhrum edilməsi haqqında təqdimat verilməsini hökmdə qərara alan məhkəmə hökmünün qanuni qüvvəyə minməsindən sonra beş gün ərzində həmin təqdimatı, hökmün surətini, habelə təltifləri və onlara aid sənədləri rütbəni və ya fəxri adı, habelə dövlət mükafatlarını vermiş orqana və ya həmin orqanın varisinə göndərir. Göstərilən orqan təqdimatla əlaqədar qəbul etdiyi qərarı barədə hökmü çıxarmış məhkəməyə məlumat verir.

Rütbə və fəxri adlardan, habelə dövlət mükafatlarından məhrum etmə icra qaydası onların hansı orqan və ya vəzifəli şəxs tərəfindən verilməsindən asılıdır. Dövlət təltifləri ilə təltif etmək, ali hərbi və ali xüsusi rütbələrin verilməsi Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23 və 24-cü bəndlərinə əsasən, habelə, 22 may 1998-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının fəxri adları haqqında" Fərmanına görə fəxri adların, dövlətin ən yüksək fərqlənmə dərəcəsi – "Azərbaycan Milli Qəhrəmanı" adının verilməsi Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinə aid edilmişdir. Buna görə də dövlət tərəfindən, həmçinin ali hərbi və ali xüsusi rütbələrdən, habelə fəxri adlardan məhrum edilmə haqqında hökm müvafiq təqdimatla məhkəmə tərəfindən Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına göndərilir. Bundan sonra məhkum olunmuş şəxsin dövlət təltifindən, ali hərbi və xüsusi rütbələrdən və ya fəxri adlardan məhrum edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti müvafiq fərman imzalayır. Digər hərbi və xüsusi rütbələrdən məhrum etmə məhkəmənin hökm əsasında bu rütbələri vermiş orqanın rəhbəri tərəfindən müvafiq əmr verilməklə icra edilir. Ehtiyatda olan

şəxslərin rütbədən məhrum edilməsi haqqında hökm icra üçün məhkumun uçotda olduğu hərbi komissarlığa göndərilir.

**Valideynlik hüququndan məhrum etmə.** Bu növdə cəza məhkəmə tərəfindən öz valideyinlik hüququndan qəsdən sui-istifadə edən şəxslər haqqında bir ildən üç ilədək tətbiq edilə bilər. Valideynlik hüquqlarından məhrum etmə haqqında hökm qüvvəyə mindikdən sonra məhkəmə onu müvafiq yerin qəyyumluq və himayəçilik orqanına və akt kitablarında qeyd etmək üçün uşağın doğulmasının qeydə alındığı vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı orqanına göndərir.

Valideynlik hüquqlarından məhrum edilmiş şəxsə uşaqlar üçün təyin olunmuş pensiyaların, müavinətin və digər tədiyələrin, habelə onun xeyrinə tutulan alimentlərin ödənilməsi dayandırılır. Valideynlik hüquqlarından məhrum etmə haqqında hökm çıxarmış məhkəmə hökm qanuni qüvvəyə mindikdən sonra həmin ödəncləri uşaq müəssisəsinin və ya uşağın tərbiyə üçün verildiyi şəxsin xeyrinə köçürmək haqqında məsələni müzakirə etmək üçün hökmün surətini göstərilən ödəncləri ödəyən müvafiq orqana və ya ödənclər haqqında qərarın çıxarıldığı yerin məhkəməsinə göndərir. Uşağı məcburi surətdə almaq və onu başqa şəxslərə vermək lazım gəldikdə, qərarı çıxarmış məhkəmə hökm qüvvəyə mindikdən sonra icra vərəqəsini və hökmün surətini icra edilmək üçün rayon (şəhər) ədliyyə orqanına göndərilir. Rayon (şəhər) ədliyyə orqanı uşağın alınması və onun başqa şəxslərə verilməsi ilə əlaqədar olan icra hərəkətlərini qəyyumluq və himayəçilik orqanı nümayəndəsinin məcburi iştirakı ilə yerinə yetirir.

Qəyyumluq və himayəçilik orqanı valideyinlik hüquqlarından məhrum etmə haqqında qərarın surətini aldıqdan sonra, lazım gəldikdə yetkinlik yaşına çatmamış şəxs üzərində qəyyumluq və himayəçilik təyin edir, bu barədə məhkəməyə məlumat verir.

Ümumiyyətlə, yuxarıda icra mexanizmləri göstərilən cəzaların son bir neçə ildə məhkəmlər tərəfindən tətbiqi təcrübəsinin təhlili göstərir ki, əsasən müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətdə məşğul olma hüququndan məhrum etmə, cərimə və əmlak

müsadirəsi ilə bağlı hökmlərə daha çox rast gəlinir. Belə ki, 1990-1998-ci illər ərzində ittiham hökmü çıxarılmış işlər üzrə bu cəzaların tətbiqi faiz nisbəti ilə aşağıda göstərilən kimi olmuşdur.

| **İllər** | **Cərimə** | **Əmlak müsadirəsi** | **Müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşgul olma hüququndan məhrum etmə** |
|---|---|---|---|
| 1990 | 14,7 | 14,8 | 0,2 |
| 1991 | 14,2 | 14,8 | 0,2 |
| 1992 | 5,5 | 24,9 | 0,03 |
| 1993 | 6,7 | 20,4 | 0,2 |
| 1994 | 6,6 | 17,4 | 0,1 |
| 1995 | 8,0 | 20,1 | 0,1 |
| 1996 | 3.5 | 20,8 | 0,1 |
| 1997 | 3,3 | 18,3 | 0,1 |
| 1998 | 2,1 | 10,9 | 0,1 |
| 1990-1998-ci illər üzrə orta hesabla | 7,2 | 19,0 | 0,1 |

Rütbədən və fəxri adlardan, habelə dövlət mükafatlarından məhrum etməyə də məhkəmə təcrübəsində rast gəlinir. Belə vəziyyət bizə bu cəzaların müasir dövrdə hələ öz aktuallığını itirmədiyi haqqında fikri müdafiə etməyə müəyyən zəmin yaradır. Lakin, ictimai məzəmmət, vəzifədən çıxartma və valideyinlik hüququndan məhrum etmə cəzalarının tətbiqinə məhkəmə təcrübəsində çox nadir hallarda rast gəlinir. 1990-1998-ci illər ərzində respublikada bütün məhkum olunmuşlara ictimai məzəmmətin tətbiqi cəmi 0,3% olmuşdur. Valideyinlik hüququndan məhrum etmə, vəzifədən çıxartma cəzaları isə, bu dövrdə çox nadir hallarda tətbiq olunmuşdur.

Yuxarıda göstərilənlər belə nəticəyə gəlməyə əsas verir ki, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüqqundan məhrum etmə, cərimə, əmlak müsadirəsi, rütbə və fəxri adlardan, habelə dövlət mükafatlarından məhrum etmə cəzalarının hal-hazırda respublikada hazırlanması nəzərdə tutulan yeni Cinayət Məcəlləsinin cəza sisteminə daxil ediləcəyi yəqin ki, böyük

diskussiya yaratmayacaqdır. Biz bu cəzaların mövcud icra mexanizmlərinin müasir dövrün tələblərinə uyğunlaşdırılmaqla, yeni Cinayət Məcəlləsində qarşıya qoyulmuş vəzifəni yerinə yetirməyə ümumən yararlı hesab edirik. Əksinə, ictimai məzəmmət, valideyinlik hüququndan məhrum etmə, vəzifədən çıxartma cəzalarının isə, qanunverici tərəfindən yeni Cinayət Məcəlləsinə daxil edilməməsi üçün müvafiq əsaslar olacağı böyük şübhə doğurmur.

Məhkumlara islah-əmək təsiri ilə bağlı olmayan cəzalarının hansının yeni Cinayət Məcəlləsinə daxil edilməsindən asılı olmayaraq, fikrimizcə, bu cəzaların icrasının hal-hazırkı vəziyyətdən fərqli olaraq, qanunla tənzimlənməsi daha düzgün olardı. Bu həmçinin Azərbaycan Respublikasının Konstitusiyasının 94-cü maddəsinin birinci hissəsinin 6-cı bəndinin tələbidir. Bundan başqa, Cinayət Məcəlləsində əksini tapmış bütün cəzaların bir qanun və ya məcəllə ilə tənzimlənməsi daha məqbul qəbul edilərdi. Çünki, bir çox ölkələrdə, o cümlədən sabiq SSRİ-nin tərkibində olmuş dövlətlərdə belə təcrübəyə rast gəlinir. Misal üçün, 01 iyul 1997-ci il tarixdən qüvvəyə minmiş Rusiya Federasiyasının Cinayət-İcra Məcəlləsi bu ölkənin Cinayət Məcəlləsində nəzərdə tutulmuş bütün cəza növlərinin icrasını tənzimləyir.

Azərbaycan Respublikasında cinayət cəzalarının bir qanunverici akt ilə tənzimlənməsi müxtəlif cəza növlərinin icrası prosesində bu hüquq sahəsinin prinsip və ümumi müddəalarının, məhkumların hüquq və qanuni maraqlarının gözlənilməsinin vəhdətini təmin edəcəkdir. Əlavə olaraq, belə vahid qanun və ya məcəllə müxtəlif institutların və normaların bir neçə normativ-hüquqi aktlarda təkrarlanmasına və rəqabətinə son qoyar, habelə mahiyyətcə eyni, lakin formaca müxtəlif anlayışların düzgün, birmənalı dərk olunmasına və şərhinə əlverişli zəmin yaradar.

***İstinad edilmiş mənbələr:***

***1. Cəza və onun icrası. Bakı, "Hüquq ədəbiyyatı" nəşriyyatı, 1999, Səh. 160–176.***

***2. "Qanun" jurnalı. Bakı, 1999, № 5-6, Səh. 56–61.***

## Azərbaycan Respublikasında azadlıqdan məhrum etməyə alternativlər

Son otuz il ərzində Avropada həbsxanada olan əhalinin sayının, ilk növbədə cinayət törətmiş şəxslərə azadlıqdan məhrum etməyə geniş spektrli alternativlərin tətbiqi vasitəsilə azaldılması ilə əlaqədar proses fəal davam etməkdədir. Bu siyasət ilkin olaraq beynəlxalq aktla - BMT-nin 14 dekabr 1990-ci il tarixli "Həbslə bağlı olmayan tədbirlərlə əlaqədar minimal standart Qaydaları (Tokio qaydaları)" ilə təşviq edilir. Avropa Şurası da öz növbəsində qeyd olunanlarla bağlı bir sıra sənədlər: "Azadlıqdan məhrum etməyə alternativ cəzalar və tədbirlər" R(76)10 nömrəli, "İctimai sanksiya və tədbirlərlə bağlı Avropa Qaydaları" R(92)16 nömrəli, "Həbsxanaların dolması və məhkumların sayının artması" R(99)22 və "İctimai sanksiya və tədbirlərlə bağlı Avropa qaydalarının təkmilləşdirilməsi haqqında" R(2000)22 nömrəli Tövsiyələr qəbul etmişdir. Azadlıqdan məhrum etməyə alternativlərin inkişaf imkanları, onların geniş tətbiqi hal-hazırda da Avropa Şurasında müzakirə edilən əsas mövzulardan biridir. İşgəncələrə qarşı Avropa Komitəsi (CPT) də özünün müxtəlif illərdəki ümumi hesabatlarında azadlıqdan məhrum etmə cəzasının tətbiqinin azaldılmasını və ona alternativlərin genişləndirilməsini tövsiyə etmişdir.

Göstərilən və tövsiyə olunan siyasət Azərbaycan Respublikasında da fəal dəstəklənir. Belə ki, Azərbaycan Respublikasının Ali Məhkəməsinin Plenumu 27 dekabr 1996-cı il tarixli "Məhkəmə hökmü haqqında", 23 iyun 2003-cü il tarixli "Məhkəmələr tərəfindən cinayət cəzalarının təyin edilməsi təcrübəsi haqqında" qərarlarında məhkəmələrə azadlıqdan məhrum etmə cəzasını təyin etməkdən əvvəl daha yüngül cəzaların tətbiq olunması imkanlarının mütləq qaydada nəzərdən keçirilməsini tövsiyə etmişdir.

Eyni zamanda, yeni qəbul edilmiş Azərbaycan Respublikasının Cinayət Məcəlləsində cinayət törətməkdə təsirli bilənən şəxslərə cəza təyini zamanı azadlıqdan məhrum etməyə alternativlərin tətbiqi imkanları genişləndirilmişdir. Qeyd olunan alternativlərin tət-

biqinin bir sıra üstünlükləri vardır və onlar aşağıdakılardır:

- məhkum cəmiyyətdən təcrid edilmir, əksəriyyət hallarda hərəkət azadlığı, yaşayış yeri, ailə və digər sosial faydalı əlaqələri saxlanılır, ona göstərilən islah və tərbiyəvi təsir tədbirləri daimi xarakter daşımır;

- azadlıqdan məhrum etmə ilə müqayisədə müvafiq cəzaların icrası daha az maddi məsrəflidir, dövlətdən böyük maliyyə vəsaiti tələb etmir;

- təcrid edilmədən qaçmaqla, məhkum digər məhkumların mənfi təsirlərinə məruz qalmır, onun cəzanı çəkdikdən sonra sosial adaptasiyasına ehtiyac duyulmur;

- məhkum cəmiyyətdəki sosial rolunu oynamaqda və vəzifələrini yerinə yetirməkdə davam edir, işləyir və ya ictimai faydalı əməklə məşgul olmaq üçün real imkanlara malik olur, cinayət törətdiyinə görə və bununla bağlı məhkum olunsa da, azadlıqda qalması ilə əlaqədar cəmiyyətin ona qarşı münasibəti tam dəyişmir;

- onlar azadlıqdan məhrum etmə yerlərində məhkumların sayının azaldılmasına zəmin yaradır.

30 dekabr 1999-cu ildə qəbul edilmiş Azərbaycan Respublikasının Cinayət Məcəlləsi azadlıqdan məhrum etməyə kifayət qədər alternativləri nəzərdə tutmuşdur. Onlar aşagıdakılardır:

- **cərimə** - Cinayət Məcəlləsinin 44-cü maddəsində nəzərdə tutulmuş bu cəza növü pul tənbehi olmaqla, Xüsusi Hissənin 612 maddəsinin (qeyd. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin maddələrinin hissələri də maddə sayılir) 195 maddəsinin sanksiyasında nəzərdə tutulmuşdur. Cərimənin maksimal məbləği 10 min manat müəyyən edilmişdir. Yetkinlik yaşına çatmayanlar məhkumlar üçün bu məbləğ 600 manat təşkli edir və bu şəxslərə cərimə cəza yalnız onların müstəqil əmək haqqı və ya bu cəzanın icrasına yönəldilə bilən əmlakı olduğu halda təyin edilir.

- **müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə** - Cinayət Məcəlləsinin 46-ci maddəsində nəzərdə tutulmuş bu cəza növü Xüsusi Hissənin 97 maddəsinin sanksiyasına daxil edilmişdir. O əsas cəza kimi bir il-

dən beş ilədək müddətə, əlavə cəza kimi isə bir ildən üç ilədək müddətə təyin edilir, məhkuma dövlət orqanlarında, yerli özünüidarə orqanlarında konkret vəzifə tutmağın və ya konkret peşə və ya digər fəaliyyətlə məşğul olmağın qadağan edilməsindən ibarətdir.

- **ictimai işlər** - Cinayət Məcəlləsinin 47-ci maddəsində nəzərdə tutulmuş bu əsas cəza növü saatlarla təyin edilməklə, məhkumun əsas işindən və ya təhsilindən asudə vaxtlarında haqqı ödənilmədən cəmiyyətin xeyrinə ictimai faydalı işlər yerinə yetirməsindən ibarətdir və Xüsusi Hissənin 50 maddəsinin sanksiyasında nəzərdə tutulmuşdur. Bu cəza altmış saatdan iki yüz qırx saatadək, yetkinlik yaşına çatmayan məhkumlar üçün isə qırx saatdan yüz altmış saatadək müddətə müəyyən edilir və gün ərzində dörd saatdan çox olmamaqla yerinə yetirilir.

- **islah işləri** - Cinayət Məcəlləsinin 49-cu maddəsində nəzərdə tutulmuş bu cəza növü Xüsusi Hissənin 164 maddəsinin sanksiyasına daxil edilmiş və məhkumun qazancından dövlət nəfinə beş faizdən iyirmi faizədək məbləğdə pul tutulmasından ibarətdir. Bu cəza iki aydan iki ilədək, yetkinlik yaşına çatmayanlara isə iki aydan bir ilədək müddətə təyin edilir.

- **azadlığın məhdudlaşdırılması** - Cinayət Məcəlləsinin 53-cu maddəsində nəzərdə tutulmuş bu cəza növü Xüsusi Hissənin 78 maddəsinin sanksiyasında nəzərdə tutulmuşdur. Məhkumluğu olmayan və qəsdən cinayət törətməyə görə məhkum edilən şəxslərə bir ildən üç ilədək müddətə, ehtiyatsızlıqdan cinayət törətməyə görə məhkum edilən şəxslərə isə bir ildən beş ilədək müddətə təyin edilir. İctimai işlər və ya islah işləri azadlığın məhdudlaşdırılması ilə əvəz edildiyi təqdirdə, həmin cəza bir ildən az müddətə də təyin edilə bilər. Cəzanın mahiyyəti ittiham hökmü çıxarılanadək on səkkiz yaşı tamam olmuş məhkumun cəmiyyətdən təcrid olunmadan, lakin nəzarət altında xüsusi müəssisələrdə saxlanılmasından ibarətdir.

Azərbaycan Respublkasının yeni Cinayət Məcəlləsi qüvvəyə mindikdən sonra ölkə məhkəmələri ilkin olaraq azadlıqdan məh-

rum etməyə alternativlər olan cəzaların tətbiqinə ehtiyatla yanaşdılar. Belə ki, 2001-ci ildə məhkəmələrin ümümi cəza tətbiqi təcrübəsində alternativlər cəmi 31% təşkil etmişdir. Lakin sonrakı illərdə alternativlərin təyininin artması müşahidə edilməyə başlandı. Belə ki, 2002-ci ildə həmin cəzalar bütün məhkum edilmiş şəxslərin 39,4%, 2003-cü ildə 34,6%, 2004-cü ildə 42,5% və 2005-ci ildə isə 58,7%-nə tətbiq edilmişdir. Azadlıqdan məhrum etməyə əsas alternativ cəzalar qismində cərimə, islah işləri və azadlığın məhdudlaşdırılması olmuşdur. Müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə cəzası göstərilən illərdə çox nadir hallarda təyin edilirdi. Məhkəmələr tərəfindən alternativlərlə yanaşı şərti məhkum etmə institutu da fəal tətbiq edilmişdir. 2001-2005-ci illərdə şərti məhkum etmənin göstəriciləri müxtəlif olmuş, yəni 2001-ci ildə-16,8 %, 2002-ci ildə - 17,1 %, 2003-cü ildə-12,1 %, 2004-cü ildə-16,1 %, 2005-ci ildə isə -10,8 % təşkil etmişdir.

2006-2008-ci illərdə azadlıqdan məhrum etməyə alternativlərin və şərti məhkum etmə institutunun tətbiqi əhəmiyyətli dərəcədə dəyişməmişdir. Həmin illərdə onların orta hesabla tətbiqi: cərimə cəzası üzrə 20,5 %, islah işləri üzrə 12,2 %, azadlığın məhdudlaşdırılması üzrə 6,3 %, ictimai işlər üzrə 5,1 %, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə cəzası üzrə 0,1 % olmuş, şərti məhkum etmə isə 10,5 % təşkil etmişdir.

Aparılmış təhlillər, o cümlədən Azərbaycan Respublikasında cinayət cəzalarının təyini və onların icrası təcrübəsi ilə bağlı araşdırmalar göstərir ki, azadlıqdan məhrum etmə ilə müqayisədə alternativ cəzaların effektivliyi və təsirliyi daha yüksəkdir. Alternativlərə məhkum edilmiş şəxslərin cəzanın çəkilməsi qaydalarının pozulması ilə əlaqədar onların cəzalarının daha ağır, o cümlədən azadlıqdan məhrum etmə ilə əvəz edilməsi, habelə cinayətin residivi hallarının, yəni həmin şəxslər tərəfindən cəzanın icrası prosesində yeni cinayətlərin törətdilməsi faizi aşağıdır.

Eyni zamanda, araşdırmalar alternativlərin, xüsusilə cərimə, is-

lah işləri, azadlığın məhdudlaşdırılması növündə cəzalarının effektivliyinin təmin olunmasında və onların icrasında müəyyən problemlərin olduğunu göstərir. Cərimə cəzasının səmərəliyinin artırılması məqsədilə onun məbləğinin dəqiq təyin edilməsi əvəzinə, ona differensial, yəni müxtəlif əsaslar nəzərə almaqla fərqləndirilmiş qaydada yanaşılması daha məqsədəuyğun olardı. Müvafiq məbləğı zəruri hallarda Almaniyadakı təcrübəyə uyğun olaraq gündəlik əmək haqqı dərəcəsinə və ya tariflərə uyğun, yaxud Fransada olduğu kimi cərimə günləri ilə, yəni bir neçə günlük, yaxud bir aylıq qazanca bərabər olan məbləğdə müəyyən edilməsini təklif edirik.

Cərimənin digər cəzalarla, xüsusilə azadlığın məhdudlaşdırılması və ya azadlıqdan məhrum etmə ilə əvəz edilməsi zamanı müddətin hesablanması qaydası ilə təcrübədə rast gəlinən məsələni də həll etmək vacibdir. Fikrimizcə, cərimənin azadlıqdan məhrum etmə ilə əvəz edilməsi zamanı müvafiq maksimal müddət İngiltərədəki təcrübə nəzərə alınmaqla, bir ildən, azadlığın məhdudlaşdırılması ilə əvəz edildikdə isə, iki ildən çox olmamalıdır. Cərimənin ictimai işlərlə və ya islah işləri ilə əvəz edilməsi zamanı, müvafiq müddətlər həmin cəzalar üçün Azərbaycan Respublikasının Cinayət Məcəlləsi ilə müəyyən olunmuş müddətlərdən çox olmamalıdır.

İslah işləri növündə cəzanın Cinayət Məcəlləsində nəzərdə tutulduğu kimi təkcə məhkumun iş yeri üzrə yox, habelə məhkəmə icraçılarının təyin etdikləri yerlərdə çəkilməsi məqsədəuyun olardı.

Fikrimizcə, azadlığın məhdudlaşdırılması növündə cəzanın icrası prosesində təcrübədə rastlaşılan etibarlı nəzarətin təmin edilməsi, ictimai faydalı əməyə cəlb edilmə, qidalanma kimi çətinliklərin həlli və həmin cəzanın səmərəliyinin artırılması məqsədilə onun məzmununu, tərkibinə daxil olan məhdudiyyətləri azaltmaq yolu ilə dəyişdirmək yaxşı olardı. Bu cəzanı məhkumun yaşayış yeri üzrə icra etmək, bu zaman məhkuma müəyyən vəzifələrin icrasının, misal üçün, icazə olmadan inzibati ərazi vahidinin hüdud-

larını tərk etməmək, yaşadığı evi və ya mənzili gecə vaxtı tərk etməmək, elektron nəzarətə məruz qalmaq, vurulan ziyanı ödəmək kimi vəzifələrin həvalə edilməsini daha məqsədəuyğun hesab edirik.

Alternativ cəzaların icrasının səmərəliyinin artırılması məqsədilə məhkəmə icraçılarını mülki və digər məhkəmə qərarlarının icrası vəzifəsindən azad etməklə, onlara yalnız azadlıqdan məhrum etməyə allternativlərin icrasını həvalə etmək daha məqsədəuyğun olardı. Mülki və digər məhkəmə qərarlarının icrasının təmin edilməsi məqsədilə Rusiya Federasiyasında fəaliyyət göstərən məhkəmə pristavları institutuna oxşar ayrıca bir strukturun yaradılması səmərəli olardı. Tərəfimizdən verilən təkliflərin icrası məqsədilə müvafiq qanunvericiliyə, o cümlədən Azərbaycan Respublikasının Cinayət və Cəzaların İcrası məcəllələrinə dəyişikliklər edilməsi zərurəti yaranacaqdır.

***İstinad edilmiş mənbə:***

***"Rusiya Federasiyasında cəzaların icrasının islahatları prosesinin təmin edilməsi" Beynəlxalq elmi-praktiki konfransın materiallarının toplusu (rus dilində). Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası, Ryazan, 2010. Səh. 36–38.***

## Azərbaycan Respublikasında cərimə növündə cəza

Cərimə bir cəza növü kimi qədim keçmişə malikdir. Ötən uzun müddət ərzində baş vermiş müxtəlif dəyişikliklərə baxmayaraq, o, öz əhəmiyyətini itirməmiş və vacibiyini saxlamışdır. Cərimə cəzasının əsas mahiyyətini hər zaman dövlət nəfinə pulun alınması təşkil etmiş və hazırda da belə qalmaqdadır. Cərimədən həm əsas, həm də əlavə cəza növü kimi istifadə olunmuşdur. Bu cəza məhkumun və onun ailəsinin maddi vəziyyətinə toxunur və onları maddi çətinlikləri çəkməyə məcbur edir. Cərimə qanun çərçivəsində məhkumun maraqlarını pozaraq, ona həmçinin kifayət qədər ciddi psixoloji təsir göstərir, cəzanın maddi nəticələri isə, yeni cinayətlərin törədilməsini əlverişsiz edir. Cərimənin, o cümlədən Azərbaycan Respublikasında bir cəza növü kimi kifayət qədər öyrənilməsinə baxmayaraq, o hazırda da öz aktuallığını itirməmişdir.

Rusiya imperiyasının tərkibinə daxil olmaqdan əvvəl Azərbaycanda cəzaların, o cümlədən cərimənin təyini və icrası məsələləri müsəlman hüququnun müxtəlif mənbələrinə daxil olan dini aktlarla, yəni şəriət normaları ilə tənzimlənirdi. XIX əsrin birinci yarısından etibarən, yəni Rusiya və İran arasında 1813-cü və 1828-ci illərdə Azərbaycanı iki hissəyə bölmüş Türkmənçay və Gülüstan müqavilələrinin imzalanmasından sonra cərimədən bir cəza növü kimi, Rusiya dövlətinin müxtəlif qanunvericilik aktlarında nəzərdə tutulan sivil hüquq normalarına uyğun olaraq istifadə edilməyə başlandı.

İlk müstəqillik illərində, 1918-ci ilin may ayından 1920-ci ilin aprel ayınadək, yəni Azərbaycan Demokratik Respublikasının hakimiyyəti dövründə yeni cinayət qanunvericiliyinin və xüsusilə cəzalarla bağlı normativ-hüquqi aktlar qəbul edilməməsi ilə əlaqədar, ölkədə ədalət mühakiməsi bolşevik inqilabına qədər cüzi və böyük əhəmiyyət kəsb etməyən dəyişikliklərlə köhnə qanunvericilik əsasında həyata keçirilmişdir.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra digər respublikalarda olduğu kimi bir sıra normativ aktlar, sonradan isə Ci-

nayət Məcəlləsi qəbul olundu. Həmin aktlar demək olar ki, bir-birinə oxşar idi və vurğulamaq lazımdır ki, Rusiya cinayət qanunvericiliyi və onun əsas müddəaları, o cümlədən cəza sisteminin müəyyən edilməsinə aid olan müddəaları həmin aktlara öz təsirini göstərmişdir.

Yuxarıda göstərilənlərlə əlaqədar, Azərbaycanda cərimə institutunun tədqiqi üçün ölkədə mövcud olmuş 1920-2016-ci illərdəki cinayət qanunvericiliyi əsas götürülmüşdür. Sözügedən dövrün əvvəllərində Azərbaycan cinayət qanunvericiliyinin mənbəyini əks edən ilk əsas hüquqi sənəd - 1920-ci il 20 may tarixli Dekretlə təsdiq edilmiş Azərbaycan SSR-nin Ali İnqilabi Tribunalı haqqında Əsasnamə olmuşdur. Həmin Əsasnamədə cərimə digər beş cəza növü ilə yanaşı müvafiq məhkəmələr tərəfindən tətbiq üçün müəyyən edilmiş və həmin siyahıda sıraca ikinci yeri tutmuşdur. Lakin cərimənin məbləği Dekretin özündə göstərilməmiş və həmin məbləğ hər bir cinayət işinə məhkəmə tərəfindən baxılarkən hakim tərəfindən konkret olaraq müəyyən edilməli idi.

Bir qədər sonra, 09 iyul 1920-ci il tarixdə qəbul edilmiş Azərbaycan SSR-nin cinayət qanunvericiliyinin əsas müddəaları ilə müəyyən olunmuş on beş müxtəlif cəza növündən ibarət cəza sisteminə cərimə ümumiyyətlə daxil edilməmişdir. Lakin həmin akt yuxarıda göstərilən Dekretin müddəalarını ləğv etmədiyindən və həmin müddəalar məhkəmələr tərəfindən ayrı-ayrılıqda tətbiq edilirdi.

Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi (daha sonra Azərbaycan MİK) digər sovet respublikalarından nümunə götürərək özünün 09 dekabr 1922-ci il tarixli ikinci sessiyasında Azərbaycan SSR-nin ilk Cinayət Məcəlləsini qəbul etdi və bu qanun 1923-ci il fevralın 1-dən qanuni qüvvəyə mindi. Cinayət Məcəlləsinin 32-ci maddəsində göstərilən on bir cəza növündən ibarət olan cəza sistemində cərimə altıncı pillədə yerləşmişdi. Cinayət Məcəlləsinin 39-cu maddəsinə uyğun olaraq, cərimə həmin Məcəllənin Xüsusi Hissəsinin ayrı-ayrı maddələrində müəyyən edilmiş hüdudlarda və məhkumun maddi vəziyyəti nəzərə alınmaqla, məhkəmə tərəfindən təyin edilən pul tənbehi hesab olunurdu. Həmin

Məcəllədə cəzalar əsas və əlavə növlərə bölünməsə də, cərimə istər əsas, istərsə əlavə cəza kimi təyin olunurdu. Cinayət Məcəlləsinin 36-cı maddəsinin 2-ci hissəsinə uyğun olaraq şərti məhkum etməyə cərimə əlavə kimi cəza təyin edildiyi halda, o ümumi müddəalara əsasən icra edilməli idi. Həmin dövrdə cinayət qanununa uyğun olaraq, məhkəmə tərəfindən cərimənin məbləği qızıl rublla müəyyən edilirdi. Cinayət Məcəlləsinin 39-ci maddəsinin şərhinə (yəni, əlavəsinə) əsasən cərimənin hesablanması məhkəmənin təyin etdiyi qızıl rubl məbləğinin cərimənin ödənilməsi gününə olan kursu üzrə sovet pul nişanlarına çevrilməsi yolu ilə həyata keçirilirdi. Daha sonra, Azərbaycan SSR MİK-i özünün 17 iyul 1926-ci il tarixli qərarı ilə Cinayət Məcəlləsinin 39-cü maddəsinə dəyişiklik etdikdən sonra, cərimənin məbləği yalnız sovet rublu ilə müəyyən olunmağa başlandı. Azərbaycanın Cinayət Məcəlləsinə uyğun olaraq, məhkum cərimənin ödənilməsindən boyun qaçırdığı halda, məhkəmə cəriməni azadlıqdan məhrum etmədən islah işləri ilə əvəz edə bilərdi. Cərimənin azadlıqdan məhrumetmə cəza növünə əvəz olunmasına icazə verilmirdi. Cinayət Məcəlləsinin ilk redaksiyasında cərimə 36 maddədə, onlardan 7 maddədə əlavə cəza kimi nəzərdə tutulmuşdusa, həmin məcələnin sonuncu redaksiyasında cərimə artıq 62 maddəyə daxil edilmişdi.

Azərbaycan SSR-nin ikinci Cinayət Məcəlləsi Azərbaycan SSR-nin MİK-nın və Xalq Komissarları Sovetinin 03 dekabr 1927-ci il tarixli birgə qərarı ilə qəbul edilərək və 15 yanvar 1928-ci il tarixdən qüvvəyə minmişdir. Bu Məcəllənin 22-ci maddəsində göstərilmiş on iki sosial müdafiə tədbirindən ibarət sistemdə (yəni, cəza tədbirləri sistemində) cərimə on ikinci yerdə yerləşdirilmişdi. Cərimə həm əsas, həm də əlavə cəza kimi təyin edilirdi. Azərbaycan SSR-nin Cinayət Məcəlləsinin 47-ci maddəsinə uyğun olaraq cərimə həmin Məcəllənin Xüsusi Hissəsinin ayrı-ayrı maddələrində müəyyən edilmiş hüdudlarda (yəni məbləğlərdə) məhkəmə tərəfindən təyin edilən pul tənbehi sayılırdı. Cərimə cəzası əlavə tədbir kimi təyin edildikdə isə, həmin hüdudlar məhkəmənin mülahizəsinə görə müəyyən olunurdu. Cərimənin

konkret məbləği Cinayət Məcəlləsi ilə müəyyən edilmirdi. Lakin buna baxmayaraq, cərimənin məbləğı cinayət qanununa uyğun olaraq məhkumun əmlak və maddi vəziyyətinə əsasən təyin olunurdu. Cərimənin ödənilmədiyi təqdirdə, məhkəmə onu azadlıqdan məhrum etmədən islah işləri növündə cəza ilə əvəz etmək ilə əlaqədar qərar qəbul edə bilərdi və islah işlərinin bir ayı üç manat sovet rublu məbləğinə bərabər kimi götürülürdü. Bu zaman cərimənin məbləğından asılı olmayaraq islah işləri cəzasının müddəti bir ildən çox ola bilməzdi. Cinayət qanununa əsasən, cərimənin azadlıqdan məhrum etmə ilə əvəz olunmasına yol verilmirdi, müsadirə edilməsi mümkün olmayan əşyalar isə, cərimənin əvəzinə götürülə bilməzdi. 1927-ci il tarixli Cinayət Məcəlləsinin ilk redaksiyasında cərimə 79 maddədə (onlardan 4 maddədə əlavə cəza kimi) nəzərdə tutulmuşdusa, sonuncu redaksiyada cərimə artıq 112 maddəyə daxil edilmişdi.

Azərbaycan SSR-nin üçüncü Cinayət Məcəlləsi 08 dekabr 1960-ci ildə qəbul olunmuş və 1961-ci il martın 01-də qüvvəyə minmişdir. Bu məcəllədə cərimə yeddi cəza növündən ibarət sistemdə altıncı pillədə yerləşmişdi. Cinayət Məcəlləsinin 29-ci maddəsinə əsasən, cərimə həmin Məcəllə ilə müəyyən olunmuş hallarda məhkəmə tərəfindən təyin edilən və təqsirkar şəxsdən dövlətin xeyrinə tutulan pul məbləği idi. Cərimənin məbləği əvvəlcə konkret şəkildə müəyyən olunmamışdı, o törədilən cinayətin ağırlığından və təqsirləndirilən şəxsin maddi vəziyyətindən asılı idi. Qanunla müəyyən edilmiş müddət daxilində cərimənin ödənilmədiyi halda, həmin cərimə məcburi qaydada tutula bilərdi.

Cərimənin ödənilməsi mümkün olmadıqda, məhkəmə həmin cəzanı müddəti bir ildən çox olmamaq şərti ilə azadlıqdan məhrum etmədən islah işləri ilə əvəz edə bilərdi. Bu halda islah işlərinin bir ayı otuz manat cəriməyə bərabər götürülürdü. Cərimənin azadlıqdan məhrumetmə ilə əvəz edilməsi qanunda nəzərdə tutulmamışdı.

1982-1995-ci illərdə Azərbaycan SSR-nin Ali Sovetinin Rəyasət Heyətinin fərmanları və müstəqil Azərbaycan Respublikasının qanunları ilə CM-nin 29-cü maddəsinə çoxsaylı dəyişikliklər edil-

mişdir. Azərbaycan SSR-nin Ali Sovetinin Rəyasət Heyətinin 1982-ci il 22 dekabr tarixli Fərmanı ilə Cinayət Məcəlləsinin 29-ci maddəsi yeni redaksiyada verilmişdir. Birincisi, cərimənin konkret məbləği əlli manatdan üç yüz manatadək, tamah məqsədilə törədilən cinayətlərə görə isə bir min manatadək məbləğdə müəyyən edilmişdi. İkincisi, SSR İttifaqı qanunvericiliyi ilə nəzərdə tutulmuş müstəsna hallarda, ayrı-ayrı cinayətlərə görə cərimənin daha yüksək məbləği təyin edilə bilərdi. Üçüncüsü, şəxsin əsas cəza kimi təyin edilmiş cərimənin ödənilməsindən boyun qaçırması zamanı cərimə müddəti iki ildən çox olmamaq şərti ilə azadlıqdan məhrum etmədən islah işləri növündə cəza ilə əvəz oluna bilərdi. Bu zaman islah işlərinin bir ayı iyirmi manat cərimə məbləğinə bərabər götürülürdü. Dördüncüsü, cərimənin ödənilməsi mümkün olmadıqda, məhkəmə öz qərarı ilə onu ictimai məzəmmətlə əvəz edə bilərdi. Beşincisi, müsadirə edilməsi mümkün olmayan əşyalar, cərimənin alınması zamanı müsadirə oluna bilməzdi.

25 iyun 1987-ci il, 23 avqust 1988-ci il, 25 iyun 1987-ci il və 23 avqust 1988-ci il tarixli Azərbaycan SSR-nin Ali Sovetinin Rəyasət Heyətinin fərmanları ilə əvvəlcə, cərimələrin yuxarı həddi tamah məqsədilə törədilən cinayətlər istisna olmaqla, beş yüz manata qədər artırılmış, daha sonra isə müstəsna hallarda Cinayət Məcəlləsi ilə nəzərdə tutulan bəzi cinayətlərə görə daha yüksək cərimə məbləği təyin edilməsi müəyyən edilmişdir.

18 avqust 1992-ci il tarixli qanunla cərimənin məbləği Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş minimum əmək haqqının bir mislindən on mislinədək miqdarda təyin edilmiş, eyni zamanda ayrı-ayrı cinayətlərə görə isə, daha yüksək cərimə məbləğlərinin müəyyən edilməsi nəzərdə tutulmuşdu. Ölkə qanunvericiliyinə uyğun olaraq, 01 iyul 1992-ci il tarixinə minimum əmək haqqının məbləği 700 manata bərabər olmuş, həmin il dekabrın 01-dən isə artıq həmin məbləğ 2500 manat təşkil etmişdir.

21 oktyabr 1994-ci il tarixli qanunla CM-in 29-cü maddəsinin birinci hissəsinin redaksiyası dəyişdirilmiş və cəriməyə yeni ifadə verilmişdir. Belə ki, bu dəyişikliyə əsasən cərimə Cinayət Məcəl-

ləsində nəzərdə tutulmuş hallarda məhkəmə tərəfindən təqsirləndirilən şəxsə təyin edilən və məcburi qaydada dövlətin nəfinə tutulan pul tənbehi hesab edilmişdir. 12 sentyabr 1995-ci il tarixli qanuna əsasən, CM-nin 29-cü maddəsinə yenidən dəyişikliklər edilmiş, cərimənin anlayışında "təqsirləndirilən" sözü "məhkum" sözü ilə əvəz olunmuşdur. Cərimə törədilmiş cinayətin ağırlığından asılı olaraq məhkumun əmlak vəziyyəti nəzərə alınmaqla, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş minimum əmək haqqının otuz mislindən bir min iki yüz mislinədək miqdarda təyin edilə bilərdi. Qeyd edilməlidir ki, 01 sentyabr 1995-ci ildən başlayaraq minimum əmək haqqının məbləği artıq 5500 manat təşkil etmişdir. Hökmün qanuni qüvvəyə mindiyi tarixdən etibarən məhkum üç ay ərzində onun icrasından boyun qaçırdığı hallarda, məhkəmə əsas cəza kimi təyin olunan cəriməni məhkumun cəzalandırmasına əsas vermiş maddənin sanksiyası ilə nəzərdə tutulmuş hər hansı digər cəza növü əvəz edə bilərdi. Bununla belə, müsadirə edilməsi mümkün olmayan əmlak və əşyalar, cərimənin alınması zamanı müsadirə oluna, yəni ona yönəldilə bilməzdi.

1960-ci il tarixli Cinayət Məcəlləsinin Xüsusi Hissəsinin ilk redaksiyasında cərimə ümumən 207 maddənin 56-da, 380 cinayət tərkibindən 63-də nəzərdə tutulmuşdu. Cinayət Məcəllənin son redaksiyada isə, cərimə mövcud 288 maddədən 117 maddəyə daxil edilmiş, bu zaman 537 cinayət tərkibinin 142-də öz əksini tapmışdır.

Hazırda qüvvədə olan Azərbaycan Respublikasının sonuncu Cinayət Məcəlləsi 1999-ci il dekabrın 30-da qəbul edilmiş və 2000-ci il sentyabrın 01-də qanuni qüvvəyə minmişdir. Yeni Məcəllənin cəza sistemində cərimə on üç cəza növü arasında birinci yerə qalxmış, yəni bu cəza ən yüngül cəza növü hesab olunur. Həmin Məcəllənin 44-cü maddəsinə əsasən cərimə, Cinayət Məcəlləsi ilə müəyyən edilmiş hallarda və məbləğdə məhkəmə tərəfindən təyin edilən pul tənbehidir. Cərimə törədilmiş cinayətin ağırlığı və məhkumun əmlak vəziyyəti nəzərə alınmaqla həm əsas, həm də əlavə cəza kimi təyin edilir. Əsas cəza kimi cərimə aşağıdakı hallarda təyin oluna bilər:

- Cinayət Məcəlləsinin Xüsusi Hissəsinin müvafiq maddəsinin sanksiyasında mövcud olduqda;

- cinayətə görə müəyyən edilmiş cəzadan daha yüngül cəza təyin edildiyi halda (CM-nin 62-ci maddəsi);

- cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz edilməsi zamanı (CM-nin 77-ci maddəsi).

Qanuna uyğun olaraq cərimə əlavə cəza növü qismində yalnız məhkəmələr tərəfindən Cinayət Məcəlləsinin Xüsusi Hissəsinin müvafiq maddələrində nəzərdə tutulmuş hallarda təyin edilə bilər.

Cinayət Məcəlləsinin 1999-cu il tarixli ilkin redaksiyasında cərimənin məbləği törədilmiş cinayətin ağırlığından və məhkumun əmlak vəziyyətindən asılı olaraq, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş şərti maliyyə vahidinin yüz mislindən beş min mislinədək müəyyən edilmişdi (2000-ci il dekabr ayının sonundan bir şərti maliyyə vahidi 5500 manata bərabər olmuş, 2005-ci ilin oktyabrında ölkədə pul nominalları denominasiya olunduqdan sonra isə - 1 manat 10 qəpik təşkil etmişdir).

2007-ci il 06 noyabr tarixli qanunla Cinayət Məcəlləsinə edilmiş dəyişikliklərə cərimənin məbləği Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş şərti maliyyə vahidinin beş min mislindən on min mislinədək artırılmışdır. Daha sonra 2008-ci il 16 may tarixli Azərbaycan Respublikasının qanunu ilə cərimənin məbləği on min manatadək müəyyən edilmişdir. Lakin bununla belə, cərimənin aşağı, yəni minimal məbləği qanunla müəyyən edilməmişdir.

2011-ci il 31 may tarixli Azərbaycan Respublikasının qanunu ilə Cinayət Məcəlləsinə edilmiş dəyişikliyə uyğun olaraq cərimə artıq on min manat məbləğində, habelə cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) bir mislindən on mislinədək miqdarda müəyyən olunmuşdur. Cinayət Məcəlləsi ilə yetkinlik yaşına çatmayanlarla bağlı cərimə ilkin olaraq şərti maliyyə vahidinin otuz mislindən üç yüz mislinədək miqdarda müəyyən edilmiş, daha sonra isə altı yüz manata qədər artırılmışdır.

Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinə əsa-

sən, hökm qanuni qüvvəyə mindikdən sonra cərimə bir ay müddətində ödənilməlidir. Cərimənin həmin vaxtda ödənilmədiyi halda icra məmuru məhkumu cərimənin məcburi tutulması barədə xəbərdar edir. Məhkum cərimənin ödəməkdən boyun qaçırdığı zaman, məhkəmənin qərarı ilə cərimənin tutulması onun xüsusi əmlakına yönəldilməklə həyata keçirilir. Əmlak olmadıqda, yaxud onun məbləğı cərimənin ödənilməsini təmin etmədikdə, cərimə məhkumun əmək haqqına yaxud digər gəlirinə yönldilməklə icra edilir. Əsas cəza kimi təyin edilmiş cərimənin ödənilməsindən qəsdən boyun qaçırma zamanı məhkəmə icra məmurunun təqdimatı ilə cəriməni ictimai işlər, islah işləri yaxud azadlıqdan məhrum etmə ilə əvəz edə bilər.

Azərbaycan Respublikasının 07 mart 2012-ci il tarixli Qanunu ilə Cinayət Məcəlləsinə edilən dəyişikliklərlə əlaqədar hüquqi şəxslərə də cərimənin cinayət-hüquqi tədbir qismində tətbiqi nəzərdə tutulmuşdur. Qeyd etmək lazımdır ki, qanunla hüquqi şəxslərə tətbiq edilən cinayət-hüquqi tədbirlərin, o cümlədən cərimənin dövlət orqanlarına, bələdiyyələrə və həmçinin beynəlxalq təşkilatlara qarşı tətbiqinə qadağa qoyulmuşdur. Cinayət Məcəlləsinin 99-6-cı maddəsinə əsasən, hüquqi şəxslərə tətbiq edilən cinayət-hüquqi tədbir qismində cərimə həmin Məcəllə ilə müəyyən edilmiş hallarda və məbləğdə məhkəmə tərəfindən təyin edilən və dövlət nəfinə keçirilən məcburi pul tutulmasından ibarətdir.

Hüquqi şəxslərə cinayət-hüquqi tədbir kimi cərimə Cinayət Məcəlləsinin Xüsusi Hissəsində nəzərdə tutulmuş müxtəlif növlü 53 cinayət əməlinə görə tətbiq oluna bilər. Yeni normaya əsasən, hüquqi şəxsin maliyyə-iqtisadi vəziyyəti nəzərə alınmaqla, ona tətbiq edilən cərimənin miqdarı əlli min manatdan iki yüz min manatadək miqdarda, yaxud cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) bir mislindən beş mislinədək miqdarda müəyyən olunur. Yeni qanun törədilmiş cinayətin ağırlığından asılı olaraq cərimənin müxtəlif məbləğlərini də müəyyən etmişdir. Belə ki, böyük ictimai təhlükə törətməyən cinayətlərə görə cərimənin məbləği əlli min manatdan yetmiş beş min manatadək, ya-

xud cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) bir mislindən iki mislinədək miqdarını təşkil edirsə, az ağır cinayətlərə görə həmin məbləğ yetmiş beş min manatdan yüz min manatadək, yaxud cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) iki mislindən üç mislinədək miqdara bərabərdir. Ağır cinayətlərə görə cərimənin məbləği yüz min manatdan yüz iyirmi beş min manatadək, yaxud cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) üç mislindən dörd mislinədək miqdarda, xüsusilə ağır cinayətlərə görə isə, yüz iyirmi beş min manatdan yüz əlli min manatadək miqdarda, yaxud cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) dörd mislindən beş mislinədək miqdarda müəyyən edilmişdir. Cinayət Məcəlləsinin 99-6.4-cü maddəsinə əsasən hüquqi şəxsə tətbiq edilən cərimə onun əmlakının dəyərinin yarıdan çox hissəsini təşkil edə bilməz.

Qeyd etmək lazımdır ki, yuxarıda adı çəkilən qanunun müddəalarına uyğun olaraq, bu dəyişikliklərin bir hissəsi, yəni hüquqi şəxslərə qarşı tətbiq edilən cinayət-hüquqi tədbirlər, o cümlədən cərimə cəzası, onların tətbiqi qaydasını müəyyənləşdirən Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə və Cəzaların İcrası Məcəlləsinə dəyişikliklərdən edildikdən sonra qüvvəyə minəcəkdir. Qeyd etmək lazımdır ki, həmin dəyişikliklər bu günədək qəbul edilməmişdir.

Azərbaycan Respublikası 1999-cu il tarixli Cinayət Məcəlləsinin ilk redaksiyasında cərimə növündə cəza 253 maddədən 123 maddədə nəzərdə tutulmuşdu. Onlardan 118 maddəyə cərimə əsas cəza növü, 5 maddəyə isə, əlavə cəza növü qismində daxil edilmişdi. 2006-ci ilin sonuna cərimə cəzası artıq 182 maddəyə daxil edilmiş, onlardan 177 maddədə əsas cəza növü, 5 maddədə isə əlavə cəza növü kimi öz əksini tapmışdı.

2016-cı il 01 sentyabr tarixinə cərimə artıq Cinayət Məcəlləsinin 309 maddəsinin 163 maddəsinə daxil edilmişdi (cərimə cəzası ümumi mövcud olan 679 sanksiyadan 260 sanksiyada nəzərdə tutulmuşdu). Təhlillə müəyyən olunmuşdur ki, cərimə şəxsilyyət əleyhinə olan cinayətlərə görə 69 maddədən 42-də, iqtisadi sahə-

dəki cinayətlərə görə 51 maddədən 42-də, ictimai təhlükəsizliyə və ictimai asayiş əleyhinə olan cinayətlərə görə 76 maddədən 39-da, dövlət hakimiyyəti əleyhinə olan cinayətlərə görə 66 maddədən 37-də və hərbi xidmət əleyhinə olan cinayətlərə görə 26 maddədən 3-də nəzərdə tutulmuşdur. Cərimə cəzası yalnız sülh və bəşəriyyət əleyhinə olan cinayətlərə görə nəzərdə tululmamışdır. Cinayət Məcəlləsinin 84 maddəsində cərimə cəzası böyük ictimai təhlükə törətməyən cinayətlərə görə, 76 maddəsində az ağır cinayətlərə görə və 3 maddədə isə, ağır cinayətlərə görə nəzərdə tutulmuşdur. Cinayət Məcəlləsinin müvafiq maddələrinin sanksiyalarında göstərilən cərimənin minimal məbləği 200 manat, maksimal məbləği isə 10 min manat olmuşdur.

Azərbaycan SSR-nin məhkəmələri tərəfindən ötən əsrin 60-80-cı illərində cəzaların tətbiq edilməsi təcrübəsinin öyrənilməsi göstərdi ki, təyin edilmiş cinayət cəzalarının strukturunda cərimə cəzasının payı hər il təxminən 4%-dən 9%-dək təşkil etmişdir. 1982-ci ilin noyabrında Cinayət Məcəlləsinə edilmiş dəyişikliklərdən sonra cərimə cəzasını nəzərdə tutan sanksiyaların sayının artması ilə bağlı, həmçinin 80-ci illərin ortalarından azadlıqdan məhrum etmə cəzasının təyin edilməsi hallarının kəskin azalması ilə əlaqədar müvafiq göstərici tədricən artmağa başlamış və bu artım 1983-1989-cu illərdə 8,5%-dən 15,3%-dək təşkil etmişdir. Cərimə cəzasının tətbiqi üzrə ən böyük göstəricisi 1987-1988-ci illərdə qeydə alınmışdır.

Ötən əsrin doxsanıncı illərində cərimə cəzası məhkəmələr tərəfindən fərqli qaydada tətbiq edilmişdir. Belə ki, əgər müstəqilliyin elan olunmasından iki il əvvəl, yəni 1990-1991-ci illərdə cərimə cəzası tətbiq olunmuşlar ümumi məhkum edilmiş şəxslərin sayının müvafiq olaraq 14,7 % və 14,2 %-ni təşkil edirdisə, müstəqilliyin ilk ilində, yəni 1992-ci ildə cərimə məhkum olunmuş şəxslərin cəmi 5,5%-ni əhatə etmişdir. Məhkəmə statistikasına görə 1993-2000-ci illərdə əvvəlki illərdən fərqli olaraq cərimə cəzası çox az sayda tətbiq edilirdi. Belə ki, göstərilən müddət ərzində həmin cəza orta hesabla hər il 4,64 % məhkuma təyin olunmuşdur. Lakin 2001-ci ildən etibarən, yəni son on beş il ərzində - 2001-

2015-ci illərdə, cərimə cəzasının tətbiqi dörd dəfədən də çox artmış və il ərzində respublika məhkəmələri tərəfindən bu cəzaya məhkum edilmişlərin orta hesabla sayı 20,4 % təşkil etmişdir.

2016-cı ilin birinci yarısında respublikanın məhkəmələri tərəfindən məhkum edilmiş bütün şəxslərdən 18,9 %-nə cərimə cəzası tətbiq edilmişdir. Bunun nəticəsi olaraq, son illərdə qeydiyyatda olan cərimə növündə cəzaya məhkum edilmiş şəxslərin sayı hər il artmışdır. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin rəsmi məlumatına görə 01 yanvar 2016-cı il tarixə qeydiyyatda olan məhkumların ümumi sayının 25,2 %-i cərimə cəzasına məhkum edilmiş şəxslər təşkil edirdi. Bu, 2015-ci ilin müvafiq dövrünə nisbətən 23,2 % çoxdur.

Müxtəlif dövrlərdə məhkəmələr tərəfindən cərimə cəzasının təyin edilməsinə fərqli yanaşmalarla bağlı qeyd etmək lazımdır ki, bu cəza heç də həmişə ön mövqelərdə olmamış, habelə məhkumlara təyin edilən cəzalar arasında ilk üçlükdə özünə yer almamışdır. Fikrimizcə, belə münasibət SSRİ dövründə cərimənin digər cəzalarla müqayisədə ciddi bir cəza kimi qəbul edilməməsi ilə əlaqədardır. Lakin sonradan, yəni ötən əsrin 80-ci illərin sonlarında baş vermiş dəyişikliklərdən və 1999-ci ildə yeni Cinayət Məcəlləsinin qəbulundan sonra cərimə cəzasına münasibət xeyli dəyişmişdir. Azərbaycan Respublikasının məhkəmələri həmin cəza növünü artıq daha ciddi cinayət-hüquqi xarakterli tədbir hesab edərək, ona xüsusi diqqət ayırmış, daha məsuliyyətli yanaşma nümayiş etməyə başlamışlar.

2000-ci ildən etibarən cərimə cəzasının ölkədə ciddiliyinin və əhəmiyyətinin artması amnistiya aktları və əfv sərəncamları ilə təsdiq olunur. Belə ki, müstəqillik bərpa edildikdən sonra, yəni 1991-2017-ci illər ərzində, Azərbaycan Respublikasında qəbul olunmuş 12 amnistiya aktında digər cəza növləri ilə yanaşı, cərimə cəzasından azad etmə imkanı da nəzərdə tutulmuşdur. Qeyd etmək lazımdır ki, amnistiya aktları əsasında, xüsusilə 2003-cü il tarixli amnistiyadan başlayaraq cərimə növündə cəzadan azad edilmiş şəxslərin sayı əhəmiyyətli dərəcədə çox olmuşdur. Digər

sözlə, həmin amnistiya aktı əsasında bağışlanmış şəxslər arasında cərimə cəzasına məhkum edilmiş şəxslərin sayı 23,5 % təşkil etmişdir. 2007-ci il tarixli amnistiyanın icrası zamanı cərimə cəzasına məhkum edilmiş şəxslərin sayı artıq 42,8 %-ə çatmış, 2009-cu ildə amnistiya əsasında cəzadan azad edilmiş şəxslərin ümumi sayının 19,4 %-ni, 2013-cü ildə isə 24,4 %-ni təşkli etmişdir. 20 may 2016-ci il tarixli amnistiya aktı cərimə cəzasına məhkum edilmiş 2562 şəxsə tətbiq edilmişdir ki, bu da amnistiya tətbiq edilmiş şəxslərin ümumi sayının 23,5 %-i deməkdir.

2006-cı ildən başlayaraq ölkə başçısının əfv sərəncamlarına azadlıqdan məhrum etmə və islah işləri cəzalarına məhkum edilmiş şəxslərdən başqa cərimə cəzasına məhkum olunmuş şəxslər də daxil edilmişdir. Belə ki, Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2006-2016-ci illərdə imzalanmış 22 əfv sərəncamı ilə 111 cərimə cəzasına məhkum edilmiş şəxs cəzadan azad edilmişdir ki, bu da öz növbəsində həmin müddət ərzində bütün əfv olunmuş şəxslərin 5 %-ni təşkil edir. Cərimə cəzasının çəkilməsindən azad olmuş məhkumlar say göstəricisinə görə azadlıqdan məhrum etmə cəzasından azad olmuş məhkumlardan sonra ikinci yeri tutmuşlar.

Yuxarıda göstərilənləri nəzərə alaraq, biz aşağıdakı nəticələrə gələ bilərik. Tədqiq edilən dövr ərzində cərimə cəzası Azərbaycan Respublikasında cinayət-hüquqi xarakterli dövlət məcburiyyət tədbirinin bir növü kimi:

- öz vacibliyini və aktuallığını saxlamış, onun Cinayət Məcəlləsinin Xüsisi Hissəsinin maddələrinin sanksiyalarındakı sayı daim artmışdır;

- tətbiq edilmə dairəsinə görə onun daim genişlənməsi müşahidə olunmuşdur. Cərimə cəzası, ilkin olaraq əgər əmlaka və iqtisadi sahədəki qarşı cinayətlərə görə təyin olunurdusa, sonradan o digər cinayət növlərini də əhatə etmişdir;

- təyin edilə bilən məbləğə görə daim artmağa doğru dəyişmişdir;

- azadlıqdan məhrum etmə yerlərdə məhkumların sayının artmasının qarşını alan azadlıqdan məhrum etməyə əsas və real al-

ternativlərdən birinə çevrilmiş və hazırda da qalmaqdadır;

- dövlətin cəzaların icrasının həyata keçirilməsi və cəza-icra sisteminin təminatı ilə bağlı xərclərinin azaldılmasına kömək etməkdədir;

- təkmilləşdirilmə və yeni növlərinin müəyyən olunması baxımından imkanları hələ tükənməmişdir.

Azərbaycan Respublikasında cərimə institutunun və onun tətbiq edilməsinin təkmilləşdirilməsi üçün təklif edirik:

1. Qanunvericilikdə baş verən dəyişiklikləri nəzərə almaqla, cərimənin mahiyyətini tam əks etdirmək üçün ona aşağıdakı qanunverici anlayışı vermək məqsədəuyğun olardı:

«Cərimə - Cinayət Məcəlləsi ilə nəzərdə tutulmuş hallarda və məbləğlərdə fiziki və hüquqi şəxslərə tətbiq edilən, dövlətin nəfinə könüllü şəkildə ödənilən və yaxud məcburi qaydada tutulan pul tənbehidir».

2. Azadlıqdan məhrum etmənin azaldılması məqsədilə cərimənin məhkəmələr tərəfindən geniş tətbiq edilməsi və onun icrasının səmərəliyinin artırılması məqsədilə təklif edirik:

- Cinayət Məcəlləsinin Xüsusi Hissəsindəki maddələrdə bu cəza növünü nəzərdə tutan sanksiyaların sayını artırmaq;

- Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 44-cü maddəsinə cəzanın tətbiqi ilə əlaqədar digər hallarla yanaşı məhkumun ailəsinin maddi vəziyyətinin nəzərə alınmasını da əlavə etmək;

- cərimə cəzasının təyini zamanı xarici ölkələrdə, o cümlədən Rusiya Federasiyasında mövcud təcrübəyə əsaslanmaqla hər bir məhkuma fərdi yanaşmanı tətbiq etmək;

- cəzanın icrası prosesində məhkumla bağlı yaranmış müstəsna halları nəzərə almaqla, cərimənin ödəmə vaxtının təxirə salınması müddətini altı aydan beş ilədək artırmaq;

- cərimənin məbləğindən asılı olaraq, məhkuma cəriməni hissə-hissə və ya ona münasib olan bölgü əsasında iki yaxud üç il ərzində ödəmək imkanı vermək;

- Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 85.2-ci

maddəsinə dəyişiklik etməklə, yetkinlik yaşına çatmamış şəxsə tətbiq olunmuş cərimənin məhkumun razılığı ilə onun valideynləri yaxud qanuni nümayəndələri tərəfindən ödənilməsi imkanı yaratmaq;

- cərimə cəzasının azadlıqdan məhrum etmə cəzası ilə əvəz edilməsi müddəasını aradan qaldırmaq;

- cərimə cəzasının ictimai işlər və islah işləri kimi digər alternativ cəza növləri ilə əvəz edilməsi ilə əlaqədar müvafiq mexanizmi müəyyənləşdirmək;

- cərimə cəzasına məhkum edilmiş şəxslərə xüsusi şərtlərlə şərti məhkum etmə institutunun tətbiqini müəyyən etmək;

- cərimə cəzasına məhkum edilmiş şəxslərə müstəsna hallarda (o cümlədən ağır xəstəlik, əlillik, ağır ailə vəziyyəti və s.), habelə həmin şəxslər məhkəmə tərəfindən təyin edilmiş cərimə məbləğinin yarısından yaxud üçdə birdən az olmayan hissəsini könüllü şəkildə ödədiyi zaman, onlara cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə instututnun tətbiqini nəzərdə tutmaq.

Qeyd etmək lazımdır ki, yüxarıda göstərilən təkliflərdən bəziləri, xüsusilə son illərdə, bu yaxud digər formada Rusiya Federasiyasının almləri V.A. Utkin, O.N. Bajenov və Y.V. Morozovanın elmi işlərində öz əksini tapmışdır .

Sonda qeyd etmək istərdik ki, irəli sürülən təkliflərin həyata keçirilməsi təqdirində Azərbaycan Respublikasının Cinayət və Cinayət-Prosessual məcəllələrinə, habelə Cəzaların İcrası Məcəlləsinə dəyişikliklər edilməsi zərurəri yaranacaqdır.

***İstinad edilmiş mənbə:***

***"Cəza-icra siyasəti və cinayət cəzalarının icrası məsələləri" mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materiallarının toplusu (plenar iclasın materialları (rus dilində). Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası, Ryazan, 2016. Tom I, Səh. 139–149.***

## Azərbaycan Respublikasında nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə növündə cəza və onun icrası

Hazırda bəşəriyyəti narahat edən problemlərdən biri yol hərəkəti təhlükəsizliyinin təmin edilməsidir. Təəssüflə qeyd olunmalıdır ki, kompleks qanunvericilik, təşkilati, texniki, profilaktuk və digər tədbirlərin görülməsinə, habelə müxtəlif layihə və proqramların həyata keçirilməsinə baxmayaraq, nəqliyyatla əlaqəli baş vermiş yol hadisələrinin sayı azalmır. Hər il dünya yollarında on minlərlə insan xəsarət alır və ya həlak olur.

Son illərdə Azərbaycan Respublikasında nəqliyyat hadisələrinin sayının azalmasına baxmayaraq, qeyd olunan problem hələ də aktual olaraq qalmaqdadır. Belə ki, Dövlət Statistika Komitəsinin məlumatına əsasən 2018-ci ildə ölkədə 1817 yol-nəqliyyat hadisəsi qeydə alınmışdır ki, bu da qeydiyyata alınmış ümumi cinayətlərin sayının 6,9 % təşkil edir. Həmin hadisələr nəticəsində 722 nəfər həlak olmuş, 1711 şəxs isə, müxtlif növlü xəsarət almışdır.

Azərbaycan Respublikasının müvafiq dövlət orqanları dünyada ümumi qəbul edilmiş tədbirlər tətbiq etməklə qeyd olunan problemlə ardıcıl mübarizə aparırlar. Məlum olduğu kimi belə tədbirlərdən biri də inzibati tənbeh və ya cinayət cəzası kimi tətbiq edilən nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmədir. Hər iki növ tədbir, o cümlədən nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə cəzası uzun müddətdir ki, tətbiq edilir.

Yol hərəkəti hadisələri törətmiş şəxslərin nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum edilməsini beynəlxalq aktlar da dəstəkləyir. Belə ki, hələ 1971-ci ildə Avropa Şurasının Nazirlər Komitəsi tərəfindən avtonəqliyyat vasitələrini idarəetmə hüququndan məhrum etməyə həsr olunmuş (71)28 nömrəli Qətnamə, bir müddət sonra, yəni 03 iyun 1976-cı il tarixli "Avtonəqliyyat vasitələrinin idarəetmə hüququndan məhrum etmənin beynəlxalq nəticələri haqqında" 88 ETS nömrəli Avropa Konvensiyası qəbul edilmişdir. Sonuncu sənəddə qeyd olunur ki, yol hərəkəti təhlükə-

sizliyinin təmin edilməsi işində yollardakı hüquq pozuntuları ilə adekvat tədbirlərlə mübarizə aparmaq əhəmiyyət kəsb edir, həmin məqsədə nail olmağın səmərəli üsullarlarından biri də avtonəqliyyat vasitələrini idarəetmə hüququndan məhrum etmədir.

Azərbaycan Respublikasının 1999-cu il tarixli Cinayət Məcəlləsinə uyğun olaraq nəqliyyat vasitəsini idarərəetmə hüququndan məhrum etmə əlavə cəza növüdür. Bir sıra Avropa ölkələrində, o cümlədən Almaniyada, İspaniyada və Polşada göstərilən cinayət-hüquqi xarakterli tədbir müstəqil cəza kimi tətbiq edilir. Əvvəllər ölkəmizdə bu cəza müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olmadan məhrum etmə cəzasının tərkibinə daxil idi.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 45-ci maddəsinə əsasən nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə növündə cəza həmin Məcəllənin Xüsusi Hissəsinin müvafiq maddəsi ilə nəzərdə tutulmuş hallarda, cinayətin xarakteri, təqsirkar şəxsin şəxsiyyəti və cinayətin digər halları nəzərə alınmaqla, bir ildən beş ilədək müddətə təyin edilə bilər. Hazırda nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə cəzası hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismari qaydalari əleyhinə olan cinayətlərə görə təyin edilir. Azərbaycan Respublikasının yeni Cinayət Məcəlləsinin Xüsusi Hissəsinin ilkin redaksiyasına daxil edilmiş müvafiq cinayətləri nəzərdə tutan 3 maddə və 7 cinayət tərkibinə görə məhkəmə nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə cəzası təyin edə bilərdi. Sonradan respublikanın Cinayət Məcəlləsində hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismari qaydalari əleyhinə olan cinayətlərə görə məsuliyyəti nəzərdə tutan sanksiyaların sayının artması nəticəsində 01.09.2019-cu il tarixinə nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə cəzası 4 maddəyə və 13 tərkibə daxil edilmişdir. Bu cəza növü bir qayda olaraq azadlıqdan məhrum etməyə əlavə kimi təyin edilir, lakin məhkəmələr onu məhkumun cəmiyyətdən təcrid edilməsi ilə əlaqadar olmayan cəzalarla birlikdə də tətbiq edirlər.

Qanunvericilik nəqliyyat vasitələrinə avtomibilləri, tramvayı və digər mexaniki nəqliyyat vasitələrini aid edir. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin yol hərəkəti və nəqliyyat vasi-

tələrinin istismarı qaydalarını pozmaya görə məsuliyyəti nəzərdə tutan 263-cü maddəsindəki qeydə əsasən digər “mexaniki nəqliyyat vasitələri” dedikdə trolleybuslar, traktorlar, motosikllər, habelə başqa özüyeriyən maşın və mexanizmlər nəzərdə tutulur.

Cinayət Məcəlləsinə əsasən nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə cəza növünün intizam xarakterli hərbi hissədə saxlama və ya azadlıqdan məhrum etmə cəzalarına əlavə olaraq təyin edildiyi hallarda, əlavə cəza əsas cəzanın çəkildiyi bütün müddətə və bundan əlavə, hökmdə bu cəza növü üçün müəyyən edilmiş müddətə şamil olunur. Həmin cəza növü digər əsas cəzalara əlavə olaraq təyin edildiyi hallarda, habelə şərti məhkum etmə zamanı əlavə cəzanın müddəti hökmün qanuni qüvvəyə mindiyi andan hesablanır.

Göstərilən cəzanın icrasını real təmin etmək məqsədilə məhkumun sürücülük vəsiqəsinin alınması vacibdir, qeyd olunan bu hala Azərbaycan Respublikasının Ali Məhkəməsi də diqqət yönəltmişdir. Belə ki, Ali Məhkəmənin Plenumunun 15 noyabr 2013-cü il tarixli “Yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulmasına dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında” 5 nömrəli Qərarının 22-ci bəndində məhkəmələrə tövsiyə edilmişdir ki, nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə növündə əlavə cəzanın səmərəli şəkildə icra olunmasının təmin edilməsi məqsədilə müvafiq qərar əsasında təqsirləndirilən şəxsin sürücülük vəsiqəsinin əsli götürülməli, cinayət işinə əlavə edilməli və ittiham hökmü qanuni qüvvəyə minənədək iş materiallarında saxlanılmalı, hökm qanuni qüvvəyə mindikdən sonra isə icra sənədləri ilə birlikdə müvafiq icra hakimiyyəti orqanına göndərilməlidir.

Nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə növündə cəzanın icrası qaydası Cəzaların İcrası Məcəlləsi ilə tənzimlənmişdir. Həmin Məcəllənin 15.4-cü maddəsinə əsasən nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə növündə cəzanı müvafiq nəqliyyat vasitəsini idarəetmə hüququnu verən orqan icra edir, həmin cəzanın icrasına nəzarəti Probasiya xidmətinin icra məmuru həyata keçirir. Nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə barədə hökm qanuni qüvvəyə mindik-

dən sonra məhkəmə və ya Cəzaların İcrası Məcəlləsində nəzərdə tutulmuş hallarda icra məmuru, onun surətini və nəqliyyat vasitəsini idarəetmə hüququ verən sənədi məhkuma bu hüququ verən orqana göndərir. Müvafiq orqan qanunvericiliklə müəyyən edilmiş qaydada məhkumun nəqliyyat vasitəsini idarəetmə hüququndan hökmlə müəyyən olunmuş müddətə məhrum edilməsi ilə əlaqədar nəqliyyat vasitəsini idarəetmə hüququnu verən sənədin saxlanılması və yaxud götürülməsi üçün tədbirlər görür. Nəqliyyat vasitəsinin növündən asılı olaraq belə orqanlar, əlbəttə, ilk növbədə ölkənin Daxili İşlər Nazirliyidir.

Nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə növündə cəza azadlığın məhdudlaşdırılması, intizam xarakterli hərbi hissədə saxlama və ya müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzalara əlavə olaraq təyin edildikdə, cəzanı icra edən müəssisə və ya orqan əsas cəza müddəti qurtardıqdan sonra, yaxud məhkum şərti olaraq vaxtından əvvəl, habelə əfv, amnistiya aktlarına əsasən azad edilərsə və ya cəzasının çəkilməmiş hissəsi daha yüngül cəza ilə əvəz edilərsə, hökmün surətini və nəqliyyat vasitəsini idarəetmə hüququ verən sənədi məhkumun yaşadığı yerin Probasiya xidmətinin icra məmuruna göndərir. İcra məmuru məhkumu qeydiyyata götürür, onun tərəfindən məhkəmənin hökmündə göstərilən tələblərə riayət olunmasına nəzarət edir, məhkumun işəgötürəninin məhkəmə hökmünün tələblərinin yerinə yetirilməsini yoxlayır.

Qanunvericiliyə uyğun olaraq nəqliyyat vasitəsini idarə etmə hüququndan məhrum etmə barədə məhkəmə hökmünün tələblərinin yerinə yetirilməsi həm məhkumun, həm də işəgötürənin vəzifələridır. Belə ki, işəgötürən məhkəmə hökmünün surətini aldıqdan sonra məhkumla nəqliyyat vasitəsini idarə etməklə bağlı əmək müqaviləsinə əmək qanunvericiliyinə uyğun olaraq xitam verməli və bu barədə Probasiya xidmətinin icra məmuruna yazılı məlumat göndərməlidir. Eyni zamanda, azadlığın məhdudlaşdırılması, intizam xarakterli hərbi hissədə saxlama və ya müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaları icra edən müəssisə və ya orqan nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etməyə məhkum olunmuş şəxsləri nəqliyyat vasitəsini

idarəetmə ilə əlaqədar işlərdə istifadə edə bilməz. Nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxs məhkəmənin hökmü ilə qadağan edilmiş nəqliyyat vasitəsini idarəetmə ilə əlaqədar işə girdikdə, icra məmuru işəgötürənə bu barədə məlumat verərək, məhkumla əmək müqaviləsinə üç gün müddətinə xitam verilməsini təklif edir və onu hökmün icra edilməməsinin məsuliyyətə səbəb olması barədə xəbərdar edir. Cəzaların İcrası Məcəlləsinin 158.3-cü maddəsinə uyğun olaraq nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə barədə məhkəmə hökmünü qərəzli olaraq icra etməyən məhkum və ya vəzifəli şəxs, yəni işəgötürən Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş məsuliyyəti daşıyırlar.

Əgər nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə əcnəbi və ya vətəndaşlığı olmayan şəxs barəsində tətbiq edilmişdirsə, cəzanı icra edən müəssisə və ya orqan Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq məhkəmənin qanuni qüvvəyə minmiş hökmünün surətini və nəqliyyat vasitəsini idarəetmə hüququ verən sənədi zəruri qərarlar qəbul ediməsi məqsədilə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi vasitəsilə məhkumun mənsub olduğu və ya daimi yaşadığı dövlətin Azərbaycan Respublikasındakı diplomatik və konsulluq nümayəndəliklərinə və ya həmin dövlətə göndərir.

Qeyd etmək lazımdır ki, son illərdə ölkədə nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə növündə cəzaya məhkum edilmiş şəxslərin sayı artım tendensiyasına malikdir. Belə ki, 01.01.2019-cu il tarixdə Probasiya Xidmətinin qeydiyyatında belə 867 məhkum olmuşdur. Həmin ilin 01 sentyabr tarixinə nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə növündə cəzaya məhkum edilmiş şəxslərin sayı 17,3 % artmış və 1029 nəfər təşkil etmişdir.

Yuxarıda göstərilənlərə baxmayaraq, Azərbaycan Respublikasının Cinayət və Cəzaların İcrası məcəllərində öz əksini tapmış nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə növündə cəzanın, onun icrasını tənzimləyən normaların təkmilləşdirilməsinə ehtiyac duyulur. Belə ki, dəmiryolu, su və hava ilə nəqliyyat vasitələrinin hərəkət təhlükəsizliyi və istismari qaydalari əleyhinə olan ci-

nayətlərə görə qanunvericlikdə nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə növündə cəza nəzərdə tutulmamışdır. Qeyd olunan nəqliyyat vasitələrində hərəkət təhlükəsizliyi və istismari qaydalarinın, habelə uçuş və ya uçuşa hazırlıq qaydalarının pozulmasına görə məsuliyyəti nəzərdə tutan Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 262, 352, 353-cü maddələrinin sanksiyalarına nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə növündə cəza daxil edilməmişdir. Göstərilən hərəkət vasitələrinin nəqliyyatın növlərinə aid olduğu, onlardan hər gün çoxsaylı insanların istfadə etdiyi, habelə dəmiryolu, su və hava nəqliyyatında hərəkət təhlükəsizliyi və istismar qaydalarının pozulmasının ağır nəticələrlə gətirib çıxardığını nəzərə almaqla, qanunvericinin mövcud yanaşmasını məqbul hesab etmirik. Buna görə də Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 262-ci (Dəmir yolu, su və ya hava nəqliyyatının hərəkət təhlükəsizliyi və istismarı qaydalarını pozma), 352-ci (Uçuş və ya uçuşa hazırlıq qaydalarını pozma), 353-cü (Hərbi gəmiləri idarəetmə qaydalarını pozma) maddələrinin sanksiyalarına nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə növündə cəzanın daxil edilməsi məqsədəuyğun olardı.

Yuxarıda gösrtərildiyi kimi nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə barədə məhkəmə hökmünü qərəzli olaraq icra etməyən məhkum və ya vəzifəli şəxs qanunvericiliklə müəyyən edilmiş məsuliyyəti daşıyır. Lakin bu norma Cinayət Məcəlləsinə yox, Cəzaların İcrası Məcəlləsinə daxil edilmişdir. Bununla bağlı təklif edirik ki, həmin norma Cinayət Məcəlləsinin 45-ci maddəsinə də daxil edilsin. Eyni zamanda, həmin maddəyə nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə barədə məhkəmə hökmünü qərəzli olaraq icra etməyən məhkumun həmin əmələ görə mühakimə edilməsi zamanı ona əsas cəza ilə yanaşı nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə növündə cəzanın təyin olunması ilə əlaqədar müddəanın da daxil edilməsi təklif olunur. Belə yanaşma məhkumun yenidən məhkum edildikdən sonra nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmədən yayınmasının qarşısını alardı.

Düşünürük ki, Cəzaların İcrası Məcəlləsində nəqliyyat vasitə-

sini idarəetmə hüququndan məhrum etmə barədə məhkəmə hökmünün tələblərinin istər məhkum, istərsə işəgötürən tərəfindən qərəzli icra edilməməsinin anlayışı verilməlidir. Eyni zamanda, nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə cəzasını çəkən məhkumun vəzifələrinin qanunvericiliklə müəyyən edilməsini, habelə işəgötürənin həmin cəzanın icrası ilə bağlı vəzifələrinə əlavələr olunmasını təklif edirik.

Ölkənin Əmək Məcəlləsinin 49-cu maddəsinə əmək müqaviləsinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi ilə bağlı elektron informasiya sisteminə bildirişin məcburi qaydada göndərilməsilə əlaqədar dəyişikliklər edilməsini nəzərə alaraq, Azərbaycan Respublikasının Əmək və Əhalinin Müdafiəsi Nazirliyinə nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə cəzası tətbiq edilmiş müvafiq məhkum və həmin cəzanın müddəti barədə məlumatın göstərilən informasya sisteminə əlavə edilməsini məqsədə müvafiq saymaqla, həmin məlumatın göndərilməsini bir vəzifə kimi Probasiya xidmətinin icra məmurunun üzərinə qoyulmasını da təklif edlrik. Bu da öz növbəsində işəgötürənə əmək müqaviləsinin bağlanması zamanı iş üçün müraciət etmiş şəxsin nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum edilib-edilməməsi ilə bağlı məlumat almaq imkanı verəcəkdir.

Yuxarıda göstərilənlərin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 45-ci, Cəzaların İcrası Məcəlləsinin 155, 156 və 158-ci maddələrinə müvafiq dəyişikliklər edilməsi, habelə həmin Məcəllənin nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə növündə cəzasının icrası qaydasını tənzimləyən XXXIII fəslinə yeni normaların daxil edilməsi təkilf edilir.

***İstinad edilmiş mənbə:***

***"Cinayət, cəza, islah" IV Beynəlxalq Penitensiar Forum. Plenar iclas iştirakşılarının çıxış və məruzələrinin tezislərinin toplusu (rus dilində). Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası, Ryazan, 2019. Tom 1, Səh. 52–57.***

## Azərbaycan Respublikasında müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cəza, hüquqi şəxsi müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cinayət-hüquqi tədbir və onların icrası

Müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cəza Azərbaycanda uzun müddətdir tətbiq edilir. Belə ki, bu cəza növü respublikanın 1922, 1927, 1960-ci illərin Cinayət Məcəllələrinə daxil edilmiş, həmin cinayət-hüquqi xarakterli tədbir həm əsas, həm də əlavə cəza kimi tətbiq edilə bilərdi. Qeyd etmək lazımdır ki, bu cəza, xüsusilə müstəqilliyin bərpasından sonrakı ilk illərdə nadir hallarda tətbiq edilmişdir. Belə ki, ötən əsrin 90-cü illərində müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə Azərbaycan Respublikasının məhkəmələri tərəfindən məhkum edilmiş şəxslərin cəmi 0,2 %-nə təyin edilmişdir.

Qeyd olunmalıdır ki, məhbuslarla rəftara həsr edilmiş beynəlxalq aktlar azadlıqdan məhrum etməyə digər alternativlərlə yanaşı, müxtəlif sahələrdə hüquqlardan məhrum edilməni də təşviq edirlər. Belə ki, BMT-nin 14 dekabr 1990-ci il tarixli "Həbslə bağlı olmayan tədbirlərlə əlaqədar minimal standart Qaydaları"nın (Tokio qaydaları) 8.2-ci maddəsi "vətəndaş hüquqlarının itirilməsi ilə" bağlı olan sanksiyaları dəstəkləyir.

Azərbaycan Respublikasının qüvvədə olan 30 dekabr 1999-cu il tarixli sonuncu Cinayət Məcəlləsinə də müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmənin daxil edilməsinə baxmayaraq, müəyyən dəyişiklik baş vermişdir. Belə ki, onun tərkibindən nəqliyyat vasitəsini idarə etmə hüququndan məhrum etmə çıxarılmış, onun müstəqil əlavə cəza növü kimi tətbiqi nəzərdə tutulmuşdur.

Məlumdur ki, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə qarışıq cəza növü olmaqla, istər dövlət orqanlarında, istərsə yerli özünüidarə orqanla-

rında konkret vəzifə tutmağın və yaxud konkret peşə və ya digər fəaliyyətlə məşğul olmağın qadağan edilməsindən ibarətdir. Bu cəza növü Azərbaycan Respublıikasında əsas cəza kimi bir ildən beş ilədək müddətə, əlavə cəza kimi isə bir ildən üç ilədək müddətə təyin edilir. Müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə cəzası Cinayət Məcəllənin Xüsusi Hissəsinin müvafiq maddəsində nəzərdə tutulmayan hallarda da, yəni törədilmiş cinayətin xarakteri və ictimai təhlükəliliyi, təqsirkar şəxsin şəxsiyyəti nəzərə alınmaqla, habelə məhkəmənin həmin şəxsin müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququnun saxlanılmasını qeyri-mümkün olması qənaətinə gəldiyi zaman əlavə cəza kimi təyin edilə bilər. Müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə cərimməyə, ictimai işlərə, islah işlərinə, hərbi xidmət üzrə məhdudlaşdırmaya, azadlığın məhdudlaşdırılmasına əlavə cəza kimi təyin edildiyi hallarda, habelə şərti məhkum etmə zamanı əlavə cəzanın müddəti hökmün qanuni qüvvəyə mindiyi andan hesablanır. Bu cəza növünün intizam xarakterli hərbi hissədə saxlama və ya azadlıqdan məhrum etmə cəzalarına əlavə olaraq təyin edildiyi hallarda, o, əsas cəzanın çəkildiyi bütün müddətə və bundan əlavə, hökmdə bu cəza növü üçün müəyyən edilmiş müddətə şamil olunur.

Azərbaycan Respublikasının 1999-cu il tarixli Cinayət Məcəlləsinin Xüsusi Hissəsinin ilkin redaksiyasında məhkəmənin müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə təyin edə biləcəyi cəmi 66 maddə var idi. Onlardan 10 halda, bu cəza əsas cəza, 56 halda isə, əlavə cəza kimi təyin edilə bilərdi. 28 halda bu cəzanın təyini məcburi, 38 halda isə, fakultətiv kimi nəzərdə tutulmuşdu. Sonradan Azərbaycan Respublikasının Cinayət Məcəlləsində baş vermiş dəyişikliklərlə əlaqədar müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, əsas etibarı ilə əlavə cəzanın təyin edilməsini nəzərdə tutan sanksiyalar artmağa başladı. Belə ki, 01.01.2009-cu il tarixinə müəyyən vəzifə tutma və ya

müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə 86 maddəyə daxil edilmiş və onlardan 10 halda əsas cəza, 38 halda bu cəza məcburi, 48 halda isə, fakultətiv kimi təyin oluna bilərdi. 01.01.2020-ci il tarixinə isə, həmin cəza artıq 93 maddənin 156 tərkibində var idi. Onlardan 15 maddədə bu cəza əsas cəza kimi, 48 halda cəza məcburi, 108 halda isə fakultativ kimi təyin edilə bilərdi.

Azərbaycan Respublikasında məhkəmə təcrübəsinin təhlili ilə müəyyən edilmişdir ki, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə əsasən əlavə cəza kimi tətbiq edilir. Belə ki, 2017-ci ildə bu cəza 303 məhkuma, onlardan 298 halda əlavə cəza kimi təyin edilmişdir. 2018-ci ildə həmin cəza 244 məhkuma, onlardan 298 halda əlavə cəza kimi təyin edilmişdir. 2019-cu ildə isə, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə 356 məhkuma, onlardan 363-nə əlavə cəza qismində təyin edilmişdir.

Qeyd etmək istərdik ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə 07 mart 2012-ci il tarixli Qanun ilə hüquqi şəxslər barədə cinayət məsuliyəti müəyyən olunması ilə əlaqadar dəyişiklik edilməsi ilə bağlı müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə sözügedən şəxslərə cinayət-hüquqi tədbir kimi də tətbiq edilə bilər. Cinayət Məcəlləsinin 99-7-ci maddəsinə əsasən hüquqi şəxsin müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməsi sahibkarlıq fəaliyyətinin müəyyən növünü həyata keçirməyə icazə verən xüsusi razılığın (lisenziyanın) və ya xüsusi icazənin ləğv edilməsindən, müəyyən əqdlərin bağlanılmasının, səhm və ya digər qiymətli kağızların buraxılmasının, dövlətdən subsidiyaların və ya başqa güzəştlərin əldə olunmasının və ya digər fəaliyyətlə məşğul olmanın qadağan edilməsindən ibarətdir. Hüquqi şəxsin müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməsi müvafiq hallarda, yəni həmin hüquqi şəxsin həmin fəaliyyətlə məşgul olması məqsədəuyğun hesab edilmədiyi halda tətbiq edilir. Hüquqi şəxsin müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməsi aşagıdakı müddətlərdə tətbiq

edilə bilər:

- böyük ictimai təhlükə törətməyən cinayətlərə görə - bir ildən iki ilədək;
- az ağır cinayətlərə görə - iki ildən üç ilədək;
- ağır cinayətlərə görə - üç ildən dörd ilədək;
- xüsusilə ağır cinayətlərə görə - dörd ildən beş ilədək.

Cinayət Məcəlləsinin 99-4.6-cı maddəsinə əsasən hüquqi şəxsin müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməsi imkanları həmin məcəllənin şəxsiyyətin azadlığı və ləyaqəti, insan və vətəndaşın konstitusiya hüquq və azadlıqları, yetkinlik yaşina çatmayanlar və ailə münasibətləri, iqtisadi fəaliyyət, ictimai təhlükəsizlik, ictimai mənəviyyat əleyhinə, eləcə də ekoloji cinayətlərə, habelə kibercinayətlər, dövlətin konstitusiya quruluşunun əsaslari və təhlükəsizliyi əleyhinə, ədalət mühakiməsi və idarəetmə əleyhinə cinayətlərə görə məsuliyyəti müəyyən edən ümumən 58 maddəsində nəzərdə tutulmuşdur. Qeyd olunmalıdır ki, məhkəmələr tərəfindən hüquqi şəxslərə cinayət-hüquqi tədbirlərin, o cümlədən müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmənin tətbiqi mümkünluyu bir müddət sonra, yəni 19 oktyabr 2018-ci il tarixdən Azərbaycan Respublikasının Cinayət-Prossesual və Cəzaların İcrası məcəllələrinə onların tətbiqi və icrası xüsusiyyətləri ilə bağlı edilmiş dəyişikliklərin qüvvəyə minməsindən sonra mümkün olmuşdur.

Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin 15.3-cü maddəsinə uyğun olaraq müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cəzanı məhkumun yaşayış yeri üzrə Probasiya Xidmətinin icra məmurları icra edirlər. Həmin məcələnin 189-cu maddəsinə uyğun olaraq müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cinayət-hüquqi tədbiri hüquqi şəxsin yerləşdiyi yerin Probasiya Xidmətinin icra məmuru icra edir. Müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cəzanı, habelə hüquqi şəxsi müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cinayət-

hüquqi tədbiri nəzərdə tutan məhkəmə hökmünün tələblərini Cəzaların İcrası Məcəlləsi ilə müəyyən edilmiş müddətlərdə bilavasitə məhkumun işəgötürəni və lisenziya (icazə) verən orqan və yaxud hüquqi şəxslərin dövlət reyestrini aparan müvafiq icra hakimiyyəti orqanları icra edirlər.

Müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cəza azadlıqdan məhrum etmə cəzasına əlavə olaraq təyin edildiyi hallarda, cəzaçəkmə müəssisəsinin müdiriyyəti əsas cəzanın müddəti başa çatdıqdan, yaxud məhkumun cəzadan şərti olaraq vaxtından əvvəl, yaxud amnistiya və ya əfv aktına görə azad edildiyi, habelə cəzanın daha yüngül cəza növü ilə əvəz edildiyi təqdirdə hökmün surətini cəzanın icrası üçün məhkumun yaşayış yeri üzrə Probasiya Xidmətinin icra məmuruna göndərir.

Cəzaların İcrası Məcəlləsinin tələbinə uyğun olaraq cəzanı icra edən müəssisə və orqanlar məhkumu hökmlə qadağan edilmiş işlərə cəlb edə bilməzlər. İcra məmuru müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə barədə məhkəmənin hökmündə nəzərdə tutulan tələblərə məhkum tərəfindən riayət etməsinə nəzarət edir və işəgötürən tərəfindən onların yerinə yetirilməsini yoxlayır. Müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməyə məhkum olunmuş şəxs hökmdə görülməsi ona qadağan edilmiş işə girdikdə, yaxud hökmlə ona qadağan edilmiş fəaliyyətlə məşğul olduqda Probasiya Xidmətinin icra məmuru işəgötürənə bu barədə məlumat verməklə, məhkumun hökmlə qadağan edilmiş fəaliyyətinə xitam verilməsi üçün üç gün müddətində tədbir görülməsini təklif edir və hökmün icra edilməməsinin məsuliyyətə səbəb olması barədə onu xəbərdar edir.

Müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilmiş məhkum cəzanın çəkilməsindən qərəzli boyun qaçırdıqda, habelə vəzifəli şəxs müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cəzanı qərəzli icra etmədikdə, onlar Azərbaycan Res-

publikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

Cəzaların İcrası Məcəlləsinin 189-cu maddəsinə uyğun olaraq hüquqi şəxsi müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cinayət-hüquqi tədbirin tətbiq edilməsi barədə məhkəmənin qanuni qüvvəyə minmiş yekun qərarının surəti icra edilməsi üçün dərhal hüquqi şəxsin olduğu yerin Probasiya Xidmətinin icra məmuruna göndərilir. Hüquqi şəxs müəyyən fəaliyyət növünü lisenziya və ya icazə əsasında həyata keçirdikdə, icra məmuru məhkəmə qərarının surətini üç gün müddətində lisenziya və ya icazə vermiş orqana göndərir. Həmin orqan qərarın surətini aldığı gündən üç gün müddətində lisenziyanı və ya icazəni ləğv edir və bu barədə icra məmuruna yazılı şəkildə məlumat verir.

Hüquqi şəxs müəyyən fəaliyyət növünü lisenziya və ya icazə əsasında həyata keçirmədikdə, icra məmuru məhkəmə qərarının surətini hüquqi şəxslərin dövlət reyestrinə müvafiq fəaliyyət növü ilə məşğul olma hüququndan məhrum etmə barədə qeydin daxil edilməsi üçün müvafiq icra hakimiyyəti orqanına göndərir. Həmin orqan on gün ərzində dövlət qeydiyyatına həmin dəyişikliyi edir və bu barədə iki gün müddətində icra məmuruna məlumat verir.

Qeyd etmək lazımdır ki, son illərdə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilmiş məhkumların sayında artım müşahidə olunur. Belə ki, 01.01 2018-ci il tarixinə Probasiya Xidmətinin qeydiyyatında müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilmiş 141 məhkumdan 23 məhkum barədə əsas cəza, 118 barədə isə əlavə cəza icra olunurdu. 01.01.2019-cu il tarixə belə məhkumların sayı 78 % artaraq 251 nəfər təşkil etmişdir. Məhkəmə hökmləri ilə 226 məhkuma müəyyən fəaliyyətlə məşğul olma, 25 məhkuma isə müəyyən vəzifə tutma qadağan edilmişdir.

01.01.2020-ci il tarixinə Probasiya Xidmətinin qeydiyyatında müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilmiş 302 məhkum olmuşdur. On-

lardan 13 məhkum əsas cəzanı, 289 məhkum isə əlavə cəzanı çəkirdi. Məhkəmə tərəfindən 272 məhkuma müəyyən fəaliyyətlə məşğul olma, 30 məhkuma isə müəyyən vəzifə tutma qadağan olunmuşdur.

Azərbaycan Respublikasının Cinayət və Cəzaların İcrası məcəllələrində müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə cəzasının təyin olunmasını və icrasını müəyyənləşdirən normaların və tənzimləmə mexaninzminin olmasına baxmayaraq, onların təkmilləşdirilməsinə ehtiyac vardır. Birincisi, Cinayət Məcəlləsinin 46.3-ci maddəsində müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cəzanın intizam xarakterli hərbi hissədə saxlanma növündə cəzaya əlavə kimi təyin edilməsi nəzərdə tutulsa da, həmin cəzanın icraçıları sırasında hərbu hissənin komandiri göstərilməmişdir. Halbuki, Cəzaların İcrası Məcəlləsinin 28.4-cü maddəsində cəzanın icrası müddətində məhkumun müddətli həqiqi hərbi xidmətə çağırılması və ya hərbi xidmətə qəbul edilməsi hallarında, icra məmuru tərəfindən müvafiq hökmün surətinin cəzanın icrası üçün müvafiq ərazinin Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə və ya məhkumun xidmət yerinə göndərilməsi ilə bağlı göstəriş vardır. Yuxarıdakıları nəzərə alaraq, Cəzaların İcrası Məcəlləsinin 15.3-cü maddəsində müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə cəzasını icra edən orqanların siyahısına hərbi hissə komandirinin əlavə olunması, habelə həmin məcəllənin 28.1-ci maddəsinə həmin cəzanın intizam xarkterli hərbi hissədə saxlama cəzasına əlavə kimi təyin edildiyi hallarda, hökmün surətinin aidiyyəti üzrə göndərilməsini məhkəmənin vəzifələri sırasına daxil edilməsi təklif olunur.

Yuxarıda göstəridiyi kimi, əgər müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilmiş məhkum cəzanın çəkilməsindən qərəzli boyun qaçırdıqda, habelə vəzifəli şəxs müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cəzanı qərəzli

icra etmədikdə, onlar Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar. Lakin bu hüquq norması Cinayət Məcəlləsinə yox, Cəzaların İcrası Məcəlləsinin 33-cü maddəsinə daxil edilmişdir. Bununla əlaqədar, həmin normanın Cinayət Məcəlləsinin 46-ci maddəsinə də daxil edilməsini təklif edirik. Eyni zamanda, haqqında müvafiq lisenziyanın və razılığın ləğv edilməsinə, habelə barəsində dövlət reyestrində qeydlər aparılmasından sonra müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə ilə bağlı məhkəmə hökmünü qərəzli icra etməməyə görə hüquqi şəxsin məsuliyyətinin müəyyən edilməsi vacibdir. Bununla bağlı Cinayət Məcəlləsinin 99-7-ci və Cəzaların İcrası Məcəlləsinin 189-cu maddəsinə məsuliyyətlə bağlı müvafiq normaların əlavə olunmasını təklif edirik.

Eyni zamanda, Cinayət Məcəlləsinin 46-cı maddəsinə şəxsin müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cəzanı qərəzli icra etməməyə görə məhkum edildiyi təqdirdə, ona təyin olunan əsas cəzadan başqa müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə əlavə cəzanın tətbiq edilməsi barədə yeni normanın daxil olunmasını təklif edirik. Belə yanaşma müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilmiş şəxslərin məhkum edildikdən sonra müvafiq məhdudiyyətlərdən boyun qaçırmalarının qarşısının alınmasına imkan yaradardı.

Müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cinayət-hüquqi tədbirin səmərəli icrasının təmin edilməsi məqsədilə məhkəmə qərarının icra edilməməsinə görə hüquqi şəxs barədə məsullyyətin müəyyən edilməsini zəruri hesab edirik. Bununla əlaqədar Cinayət Məcəlləsinin 99-7-ci maddəsinə müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cinayət-hüquqi tədbir barədə məhkəmə qərarının icra edilməməsinə görə hüquqi şəxsi əvvəlcə inzibati məsuliyyətə, sonradan isə bu qərəzli olduqda, cinayət məsuliyyətə cəlb olunması ilə bağlı müddəanın əlavə olunmasını təklif edirik. Hər iki halda inzibati

tənbeh, habelə cinayət-hüquqi tədbir qismində cərimənin tətbiq edilməsi məqsədəuyğun olardı.

Eyni zamanda, fikrimizcə, Cinayət Məcəlləsində müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cəzanın daha ağır cəzalarla, yəni islah işləri və azadlığın məhdudlaşdırılması ilə əvəz edilməsi, bu zaman məhkuma müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cəzasından boyun qaçırdığı müddətin həmin cəzanın əlavə kimi təyin edilməsi ilə bağlı imkanın nəzərdə tutulmasının da tərəfdarıyıq.

Cəzaların İcrası Məcəlləsində müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etməni, habelə cinayət-hüquq tədbirini nəzərdə tutan hökmün istər məhkum və ya işəgötürən, istərsə hüquqi şəxs tərəfindən qərəzli icra edilməməsinin qanunvericilikdə anlayışının verilməsini vacib hesab edirik. Eyni zamanda, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cəza çəkən məhkumun, cinayət-hüquqi tədbir tətbiq olunmuş hüquqi şəxsin, habelə müvafiq icra hakimiyyəti orqanının rəhbərinin müvafiq tədbirin icrası ilə bağlı vəzifələrinin müəyyən olunmasını təklif olunur. Yuxarıda göstərilən təkliflərin həyata keçirilməsi üçün Cinayət Məcəlləsinin 46-cı, Cəzaların İcrası Məcəlləsinin 34, 35, 37-39, 189-cu maddələrinə, habelə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etməni, habelə cinayət-hüquq tədbirini tənzimləyən Cəzaların İcrası Məcəlləsinin V və XXVIII fəsillərinə, İnzibati Xətalar Məcəlləsinə yeni normaların əlavə edilməsi zəruri sayılır.

Ölkənin Əmək Məcəlləsinin 49-cu maddəsinə əmək müqaviləsinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi ilə bağlı elektron informasiya sisteminə bildirişin məcburi qaydada göndərilməsilə əlaqədar dəyişikliklər edilməsini nəzərə alaraq, Azərbaycan Respublikasının Əmək və Əhalinin Müdafiəsi Nazirliyinə yuxarıda göstərilən hüquqlardan məhrum edilmiş müvafiq məhkum və həmin cəzanın müddəti barədə məlumatın göstərilən

informasiya sisteminə əlavə edilməsini təklif edirik. Bunun üçün sözügedən məlumatın göndərilməsini bir vəzifə kimi Probasiya Xidmətinin icra məmurunun üzərinə qoyulması məqsədəuyğun olardı. Bu işəgötürənə əmək müqaviləsinin bağlanması zamanı iş üçün müraciət etmiş şəxsin müvafiq vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşgul olması ilə bağlı mövcud olan qadağalar barədə məlmat almaq imkanı verə bilərdi.

Sonluqda qeyd olunmalıdır ki, tərəfimizdən yuxarıda göstərilmiş təkliflərin bir hissəsi, hüquqi şəxsin cinayət-hüquq tədbiri kimi müəyyən fəaliyyətlə məşgul olmaqdan məhrum edilməsi ilə əlaqədar təkliflər istisna olmaqla, bu və ya digər şəkildə bir sıra alimlərin, o cümlədən V.A. Utkinin, B.N. Voskresovun, E.S. Krılovanın, V.M. Stepaşinin, M.T. Valeyevin, E.V. Lyadovun, K.N. Karpovun və digərlərinin işlərində öz əksini tapmışdır.

***İstinad edilmiş mənbə:***

***"Cəza-icra hüququ" elmi jurnal (rus dilində). Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası, Ryazan, 2020. Tom 15 (1–4), № 1, Səh. 68–74.***

## Azərbaycan Respublikasında xüsusi və ya hərbi rütbədən, fəxrı addan və dövlət təltıfındən məhrum etmə növündə cəza

Azərbaycan Respublikasının 30 dekabr 1999-cu il tarixli Cinayət Məcəlləsinə (bundan sonra AR CM) daxil edilmiş əlavə cəzalardan biri xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum etmədir. AR CM-in 48-ci maddəsinin ilkin redaksiyasına əsasən ağır və ya xüsusilə ağır cinayət törətmiş şəxsin məhkum olunması zamanı məhkəmə cinayətin xarakterini, təqsirkarın şəxsiyyətini və işin digər hallarını nəzərə alaraq, onun xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum edilməsinin zəruriliyi nəticəsinə gəldikdə, bu barədə xüsusi və ya hərbi rütbəni, fəxri adı və dövlət təltifini vermiş orqana müvafiq təqdimat göndərir. Qeyd edilməlidir ki, bu cəza növü məhkum üçün əlavə hüquqi nəticələr yaradır, dövlət məcburiyyət tədbirinin tənbehedici və tərbiyəvi təsirlərinin artmasına kömək edir, habelə şəxsin sosial nüfuzuna xələl gətirir, onu qanunvericilikdə nəzərdə tutulmuş müəyyən maddi dəyərlərdən, imtiyaz və üstünlüklərdən məhrum edir. Xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum etmə təqsirkar şəxsin qanunauygun sabiq xidməti və ya əmək fəaliyyətinin nəticələrinin itirilməsi və ya ondan geri alınması ilə bağlıdır. Habelə, müvafiq cəza məhkumun ona xüsusi və ya hərbi rütbə, fəxri ad və dövlət təltifi verilməsi ilə bağlı mövcud cəmiyyətdə malik olduğu hörmətinin aşağı düşməsinə səbəb olur. Bu cəzanın mahiyyətinin əsas elementini rəsmi qınaq, məhkumun əvvəlki xidmətlərinə, şərəf və ləyaqətinə ziyan vurmaq təşkil edir.

Eyni zamanda, qeyd olunmalıdır ki, xüsusi və ya hərbi rütbəyə, fəxri ada və dövlət təltifə malik olma, qanunvericilikdə nəzərdə tutulmuş imtiyaz və güzəştlərdən əlavə, məhkuma amnistiya aktının tətbiq edilməsi üçün əsas yarada bilər. Belə ki, 1996–2021-ci Azərbaycan Respublikasında illərdə qəbul edimiş on iki amnistiya

aktlarında dövlət təltifinə və fəxri adlara layiq görülmüş məhkumların cəzanı çəkməkdən azad edilməsi ilə bağlı müddəalar nəzərdə tutulmuşdur. Lakin məhkumun dövlət təltifindən və fəxri addan məhrum edilməsi, ona gələcəkdə müvafiq əsaslarla amnistiya tətbiq edilməsinə mane olur.

Xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum etmə növündə əlavə cəza Azərbaycan Respublikasında uzun müddət ərzində, lakin müxtəlif adlar altında tətbiq edilir. Azərbaycan SSR-nin 1922, 1927-ci illərin Cinayət məcəllələrində bundan sonra CM) bu cəza əvvəllər hüquqlardan məhrum etmə, sonra isə, siyasi və digər vətəndaş hüquqlarından məhrum etmənin tərkibində olaraq qanunvericilikdə nəzərdə tutulmuş xüsusi hallar nəzərə alınmaqla, tətbiq edilmişdir. Azərbaycan SSR-nin 1960-cı il tarixlı CM-də ilkin olaraq həmin cəza növü hərbi və digər rütbələrdən, habelə ordenlərdən, medallardan və fəxri adlardan məhrum etmə kimi göstərilmişdi. 21 oktyabr 1994-cü il tarixli qanunla artıq Azərbaycan Respublikasının CM-in 33-cü maddəsinə edilmiş dəyişiklikdən sonra, həmin cəza “rütbələrdən və ya fəxri adlardan, habelə dövlət təltifindən məhrum etmə” kimi adlandırılmış və yeni redaksiyada verilmişdir.

Xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum etmə ilə əlaqədar aparılmış müqayisəli təhlil göstərdi ki, sabiq SSRİ respublikaları ilə yanaşı, bir çox Avropa dövlətlərinin cinayət qanunvericiliyi, o cümlədən Albaniya, Bolqarstan, Macarıstan, Polşa, Rumıniya, Finlandiya və digərləri həmin cəza növünü nəzərdə tutmuşlar, lakin onların məzmununda fərqlər mövcuddur. Ümumən, xarici dövlətlərin cinayət qanunvericiliyi yalnız hərbi rütbədən məhrum etməni nəzərdə tutur. AR CM-in 48-ci maddəsindən fərqli olaraq Müstəqil Dövlətlər Birliyinə daxil olan olkələr, yəni Rusiya Federasiyası, Qazaxıstan, Tacikistan, habelə Ukraynanın Cinayət məcəllələri əlavə olaraq məhkumun dövlət ixtisas dərəcəsindən məhrum edilməsini də nəzərdə tutmuşlar.

Qeyd olunmalıdır ki, qüvvədə olan AR CM-də digər əlavə cəza növləri ilə müqayisədə qanunverici xüsusi və ya hərbi rütbədən,

fəxri addan və dövlət təltifindən məhrum etmənin tətbiq edilməsinin və icrasının xüsusi qaydasını müəyyən etmişdir. Sözügedən cəza AR CM-in Xüsusi hissəsinin normalarının sanksiyalarına daxil edilməmiş, o, bilavasitə məhkəmə tərəfindən təyin olunmur və digər əlavə cəzalardan fərqli olaraq hökmdə göstərilmirdi. Belə qayda əsaslı elmi diskusiyalara zəmin yaradırdı. Azərbaycanda bir qrup alimlər, xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum etmənin tətbiqinin xüsusiyyətlərinə istinadən, belə məcburiyyət tədbirini cəza hesab etmirlər. Həmin mövqeyi Azərbaycanın ümumi və ixtisaslaşdırılmış məhkəmələrin icraatına aid edilən mülki, cinayət və digər işlər üzrə ali məhkəmə orqanı da müdafiə edirdi. Bununla əlaqədar, Azərbaycan Respublikasının Ali Məhkəməsi 16 fevral 2004-cü il tarixdə müvafiq əlavə cəzanın tətbiq olunmasının faktiki olaraq məhkəmə tərəfindən deyil, digər orqan vasitəsi ilə həyata keçirilməsini əsaslandırmaqla, AR CM-in 48-ci maddəsinin həmin Məcəllənin 41, 42-ci maddələrinə və ölkənin Əsas Qanununun 63-cü maddəsinə uyğunluğunun yoxlanılmasına dair Konstitusiya Məhkəməsinə müraciət etmişdir. Ali Məhkəmənin hüquqi mövqeyinə əsasən AR CM-nin 48-ci maddəsində göstərilən qayda cəzalarının yalnız məhkəmə hökmləri ilə təyin olunmasına dair Azərbaycan Respublikası Konstitusiyasının müddəaları və cinayət hüquq normaları ilə ziddiyyət təşkil edir. Digər tərəfdən qeyd olunmuşdur ki, Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyində məhkəmənin hökmlə eyni vaxtda, yaxud hökm çıxarıldıqdan sonra məhkum haqqında sözügedən əlavə cəzanın tətbiqi məqsədi ilə hər hansı orqana təqdimat göndərilməsi ilə bağlı normalar nəzərdə tutulmamışdır.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 23 iyul 2004-cü il tarixli Plenumu Ali Məhkəmənin sorğusuna baxaraq belə qənaətə gəlmişdir ki, AR CM-in 48-ci maddəsinin müddəaları yalnız ali hərbi və ya ali xüsusi rütbəyə, fəxri ada və dövlət təltifinə şamil edildiyi halda Konstitusiyanın 63 və 125-ci maddələrinə uyğun hesab edilməlidir. Eyni zamanda, Konstitusiya Məh-

kəməsi müvafiq qərarda məhkəmə tərəfindən əlavə cəza kimi digər hərbi və ya xüsusi rütbədən məhrum etmə qaydasının AR CM-lə müəyyən olunmasını ölkənin Milli Məclisinə tövsiyə etmişdir. Beləliklə, Konstitusiya Məhkəməsi Ali Məhkəmənin hüquqi mövqeyi ilə qismən razılaşmışdır.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi bir müddət sonra, yəni 25 iyul 2013-ci il tarixli "V.Qurbanovun şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Hərbi kollegiyasının 13 sentyabr 2012-ci il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair" Plenum qərarında özünün əvvəlki mövqeyini təsdiq edərək, ölkənin Milli Məclisinə bir daha Cinayət, Cinayət-Prosessual məcəllələrinin və Cəzaların İcrası Məcəlləsinin (bundan sonra AR CİM) müddəalarını nəzərə almaqla, AR CM-in 48-ci maddəsinin məzmununun təkmilləşdirilməsini tövsiyə etmişdir. Eyni zamanda, Konstitusiya Məhkəməsi müəyyən etmişdir ki, AR CM-in 48-ci maddəsinə tövsiyə edilmiş dəyişikliklər edilənədək, əlavə cəza kimi xüsusi və ya hərbi rütbədən məhrum etmənin tətbiqi məhkəmələr tərəfindən həyata keçirilməlidir.

Azərbaycanın qanunverici orqanı ölkənin Konstitusiya Məhkəməsinin qərarının qəbulundan on üç il keçdikdən sonra, 20 oktyabr 2017-ci il tarixli Qanunla AR CM-in 48-ci maddəsinin redaksiyasını dəyişdirmişdir. Göstərilən maddənin yeni redasiyasına əsasən, məhkəmə ağır və ya xüsusilə ağır cinayət törətmiş şəxsin məhkum olunması zamanı cinayətin ictimai təhlükəliliyinin xarakterini və dərəcəsini, təqsirkarın şəxsiyyətini və işin digər hallarını nəzərə alaraq, onun xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum edilməsinin zəruriliyi nəticəsinə gəldikdə, aşağıdakı qərarlardan birini qəbul etməlidir:

- məhkumun Azərbaycan Respublikasının Prezidenti tərəfindən verilmiş ali xüsusi və ya ali hərbi rütbədən, yaxud fəxri addan və ya dövlət təltifindən məhrum edilməsi məsələsinə baxılması üçün bu barədə ona təqdimat göndərilməsi haqqında qərar;

- məhkuma digər dövlət orqanı tərəfindən verilmiş xüsusi və

ya hərbi rütbədən, yaxud təltifdən məhrum edilməsi haqqında qərar.

Oxşar dəyişikliklər Cinayət-Prosessual Məcəllənin (bundan sonra AR CPM) 507-ci və AR CİM-in 159-cu maddələrinə müvafiq olaraq Azərbaycan Respublikasının 1 dekabr 2017-ci il və 1 may 2018-ci il tarixli qanunları ilə edilmişdir. Belə ki, AR CPM-in 507.6-ci maddəsinin yeni redaksiyasına əsasən, məhkəmə məhkumun ali xüsusi və ya hərbi rütbədən, fəxri addan, yaxud dövlət təltifindən məhrum edilməsini zəruri hesab etdikdə, məsələyə mahiyyəti üzrə baxılması üçün dövlət başçısına təqdimat göndərir. Əgər məhkumun digər dövlət orqanı tərəfindən verilmiş xüsusi və ya hərbi rütbədən, yaxud təltifdən məhrum edilməsi zərurəti olduqda isə, məhkəmə bu barədə qərarını hökmdə göstərir və hökm qanuni qüvvəyə mindikdən sonra onun surətini icra olunması üçün müvafiq orqana göndərir. Eyni zamanda, AR CİM-in 159.1-ci maddəsinə əsasən məhkəmənin təqdimatını və ya hökmünü almış müvafiq orqan müəyyən edilmiş qaydada məhkumun xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum edilməsi haqqında müvafiq sənədlərə yazılı qeyd edir, habelə şəxsin xüsusi və ya hərbi rütbə, fəxri addan və dövlət təltifi ilə əlaqədar hüquq və güzəştlərdən məhrum edilməsinə dair tədbirlər görür və bir ay ərzində aidiyyəti məhkəməyə icra ilə bağlı məlumat verir. Beləliklə, qanunverici sözügeden əlavə cəzanın xüsusi və ya hərbi rütbəsi olan məhkumlara təyin olunması ilə bağlı qaydanı dəyişdirimiş, dövlət başçısı-ölkə Prezidenti tərəfindən verilən ali xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum etməninin prosedurunu isə, sabiq redaksiyada saxlamışdır.

Xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum etmə ilə bağlı rəsmi statistika olmadığından, həmin əlavə cəzanın tətbiqi ilə bağlı hərtərəfli təhlil aparmaq kifayət qədər çətindir. Lakin A.A. Cəfərov tərəfindən aparılmış elmi tədqiqatla müəyyən edilmişdir ki, Azərbaycan Respublikasının məhkəmələri xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən

məhrum etməni, AR CM-in müddəalarına uyğun olaraq barələrində həmin əlavə cəza tətbiq oluna biləcək məhkumlara çox nadir hallarda təyin edirlər.

Əlavə olaraq, seçmə usulu ilə haqqında xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum etmə növündə cəza tətbiq oluna bilən məhkumların şəxsi işlərinin öyrənilməsi bir daha göstərdi ki, hazırda sözügedən cəzanın tətbiqi çox az olaraq qalmaqdadır. Belə ki, 2024-cü il 1 yanvar tarixinə sabiq məhkəmə, hüquq-mühafizə orqanlarının, habelə bir sıra dövlət və hərbi qulluqçuları üçün nəzərdə tutulmuş Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin cəzaçəkmə müəssisəsində cəza çəkən və xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum etmə tətbiq edilə bilən şəxslərin təxminən 3 %-i barədə müvafiq qərar qəbul edilmişdir.

Müvafiq cəzanın təyin edilməsi üzrə məhkəmə təcrübəsinin seçmə üsulu ilə öyrənilməsi göstərdi ki, əksəriyyət hallarda, AR CM-in 48-ci maddəsi xüsusi və ya hərbi rütbəsi olan dövlət qulluqçuları barədə tətbiq edilir. Lakin ali xüsusi və ya hərbi rütbədən, fəxri addan, dövlət təltifindən məhrum etmə, bir qayda olaraq, ölkədə böyük ictimai rezonans doğuran cinayətlərə görə məhkum edilmiş şəxslər barədə tətbiq edilir.

Yuxarıdakılar göstərir ki, ölkə məhkəmələri xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum etmədən istər məsuliyyətin, istərsə cəzanın fərdiləşdirilməsi məqsədilə heç də ardıcıllıqla və tamlıqla istıfadə etmirlər. Məhkəmə təcrübəsində cüzi tətbiq olunmasına baxmayaq, xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum etmə növündə cəza hazırda öz əhəmiyyətini və cəlbediciliyini itirməmiş, aktual və zəruri dövlət məcburiyyət tədbiri kimi qalmaqdadır.

Fikrimizcə, təcrübədə yaranmış vəziyyət, ilk növbədə, sözügedən əlavə cəzanın tətbiqinin məhkəmələrin müstəsna səlahiyyətində olmasının nəticəsidir. Buna baxmayaraq, AR CPM-in 346-cı maddəsi məhkəmələrə hökm qəbul etməkdən əvvəl cinayət törətməkdə təqsirli bilinmiş şəxsə mütləq qaydada əlavə cəzaların, o

cümlədən xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum etmənin tətbiqi ilə məsələni də müzakirə etməyi həvalə etmişdir. Habelə, Azərbaycan Respublikasının Ali Məhkəməsinin Plenumunun 25 iyun 2003-cü il tarıxli 4 nömrəli "Məhkəmələr tərəfindən cinayət cəzalarının təyin edilməsi təcrübəsi haqqında" qərarının 23-cü bəndi, istər məhkum, istərsə digər şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısının alınmasında mühüm əhəmiyyət kəsb etməsi baxımından məhkəmələrə, əsas cəzanın təyin edilməsi ilə yanaşı müvafiq əlavə, habelə AR CM-in 48-ci maddəsində nəzərdə tutulmuş cəzanın tətbiqi məsələsinin də müzakirə edilməsini tapşırmışdır. Lakin göstərilən bəndə Azərbaycan Respublikasının Ali Məhkəməsinin Plenumunun 30 aprel 2021-cü il tarıxli qərarı ilə edilmiş dəyişikliklərdən sonra, məhkəmənin müvafiq qərarının hökmdə göstərilməsinin yeni qaydası müəyyən olunmuşdur. Belə ki, məhkəmələr təqsirkarın məhkumun xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum edilməsini hökmün təsviri-əsaslandırıcı hissəsində əsaslandırmalı və göstərməlidirlər. Bundan sonra məhkəmə məhkumun ali xüsusi və ya ali hərbi rütbədən, yaxud fəxri addan və ya dövlət təltifindən məhrum edilməsi məsələsi ilə bağlı Azərbaycan Respublikasının Prezidentinə ayrıca təqdimat göndərir. Digər orqanlar tərəfindən verilmiş xüsusi və ya hərbi rütbədən, yaxud təltifdən məhrum edilməsi ilə bağlı qərarını hökmün nəticəvi hissəsində qeyd edir və hökm qüvvəyə mindikdən sonra onu icra edilməsi məqsədilə aidiyyəti üzrə göndərir.

Yuxarıda göstərilənlərə istinad etməklə, AR CM-in 48-ci maddəsinə edilmiş dəyişikliklərə baxmayaraq, onun hazırkı redaksiyasını hələ də mükəmməl hesab etmirik. Buna görə də mövcud məsələlərin tamlıqla həlli, həmin əlavə cəzanın səmərəliyinin və effektivliyinin artırılması məqsədilə onun məzmununun, habelə təyin edilməsi qaydasının dəyişdirilməsi yolu ilə təkmilləşdirilməsi məqsədəuyğun olardı. Birincisi, xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum etmə növündə cəzanın tətbiqini, bir sıra hallarda məcburi olmaqla, onu həmin rütbəni və ya

təltifləri vermiş orqanlardan asılı olmayaq, bilavasitə hökmdə göstərilməsini vacibliyini vurğulamaq istərdik. Qeyd olunanlarla əlaqədar sözügedən əlavə cəzanın AR CM-in Xüsusi hissəsinin ictimai təhlükəsizlik, dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan, habelə korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan cinayətlərə görə məsuliyyət nəzərdə tutan müvafiq maddələrinin sanksiyalarına daxil edilməsini məqsədəuyğun hesab edirik. Xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum etməni nəzərdə tutan AR CM-in müvafiq maddələrinin konkretləşdirilməsini, sözsüz ki, qanunverici özü həll etməlidir.

İkincisi, vətəndaşların qanun qarşısında bərabərliyi prinsipindən irəli gələrək, AR CM-in 48-ci maddəsinə dəyişiklik edərək, onun redaksiyasında dövlət qulluqçularının ixtisas dərəcəsindən məhrum edilməsini də nəzərdə tutmaq məqbul olardı. Hesab edirik ki, Azərbaycan Respublikasında ixtisas dərəcəsi, dövlət qulluqçusuna xüsusi və hərbu rütbəli şəxslərlə yanaşı müvafiq güzəştlər, ilk növbədə əmək haqqına əlavə ödəniş hüququ verir və həmin əlavə ödəniş şəxsin pensiya kapitalının miqdarının formalaşmasına və sonra pensiyasının məbləqinə təsir göstərir. Hazırda ixtisas dərəcəsindən məhrum etmə Azərbaycan Respublikasının 21 iyul 2000-ci il tarixli "Dövlət qulluğu haqqında" Qanununun 17-ci maddəsinə uyğun olaraq yalnız Azərbaycan Respublikası vətəndaşlığına xitam verilmiş şəxs barədə tətbiq edilir.

Üçüncüsü, xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum etməni, qanunda nəzərdə tutulan şəxslərdən başqa, digər cinayətlər törətmişlər barədə də tətbiq etmək olar, lakin bu məsələni törədilmiş cinayətin xarakteri, ictimai təhlükəlilik dərəcəsi, təqsirkar şəxsin şəxsiyyəti və digər xüsusatlar nəzərə almaqla, məhkəmənin səlahiyyətləri sırasına daxil etmək yaxsı olardı.

Dördüncüsü, digər orqan tərəfindən verilmiş təltif istisna olmaqla, xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum etmənin etibarlıq müdddətini müəyyən etmək vacib-

dir. Fikrimizcə, sözügeden cəzanı müddətsiz təyin etmək düzgun olardı, bu da öz növbəsində onun tətbiq müddəti ilə bağlı müzakirə olunan məsələni aradan qaldırardı. Sonuncu olaraq, AR CM-in 48-ci maddəsinin adını onun məzmununa uyğynlaşdırmaq lazımdır. Onun hazırkı redaksiyasına "yaxud digər dövlət orqanı tərəfindən verilmiş təltifdən" sözlərini əlavə etmək yaxsı olardı.

Yuxarıdakılara istinadən CM-in 48-ci maddəsini aşagıdakı yeni redaksiyada verilməsini təklif edirik:

" **Maddə 48.** Xüsusi və ya hərbi rütbədən, dövlət ixtisas dərəcəsindən, fəxri addan və dövlət təltifindən, yaxud digər dövlət orqanı tərəfindən verilmiş dövlət təltifindən məhrum etmə

48.1. Bu Məcəllənin Xüsusi hissəsinin müvafiq maddələri ilə nəzərdə tutulmuş hallarda ağır və ya xüsusilə ağır cinayətlərə görə xüsusi və ya hərbi rütbədən, dövlət ixtisas dərəcəsindən, fəxri addan və dövlət təltifindən, yaxud digər dövlət orqanı tərəfindən verilmiş dövlət təltifindən məhrum etmə cəza növü təyin edilir.

48.2. Məhkəmə bu Məcəllənin Xüsusi hissəsinin müvafiq maddələri ilə nəzərdə tutulmamuş hallarda da törədilmiş cinayətin xarakterini və ictimai təhlükəlilik dərəcəsini, təqsirkar şəxsin şəxsiyyətini və işin digər hallarını nəzərə alaraq, onun xüsusi və ya hərbi rütbədən, dövlət ixtisas dərəcəsindən, fəxri addan və dövlət təltifindən məhrum edilməsinin zəruriliyi nəticəsinə gəldikdə, xüsusi və ya hərbi rütbədən, dövlət ixtisas dərəcəsindən, fəxri addan və dövlət təltifindən, yaxud digər dövlət orqanı tərəfindən verilmiş dövlət təltifindən məhrum etmə növündə əlavə cəza təyin edə bilər.

48.3. Xüsusi və ya hərbi rütbədən, dövlət ixtisas dərəcəsindən, fəxri addan və dövlət təltifindən məhrum etmə ömürlük təyin edilir".

Hesab edirik ki, təklif etdiyimiz AR CM-in 48-ci maddəsinin yeni redaksiyası, Azərbaycan Respublikasının Konstitusiyasının 7-ci maddəsinin üçüncü hissəsində təsbit edilmiş dövlət hakimiyyəti orqanlarının, o cümlədən icra hakimiyyətinin səahiyyətlərinin bölünməsi prinsipini pozmur. Bunu məhkəmələr tərəfindən qərar-

ların dövlətin adından çıxarması və həmin qərarların Əsas Qanunun 129-cu maddəsinə uyğun olaraq, hec bir istisna olmamaqla, dövlət hakimiyyətinin bütun qolları, o cümlədən icra hakimiyyəti üçün icrasının məcburi olması ilə əsaslandırırıq. Yuxarıda göstərildiyi kimi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin müzakirə olunan məsələdə digər hüquqi mövqeydədir, hesab edir ki, ümumi yurisdiksiyalı məhkəmələr Azərbaycan Respublikasının Prezidentinin aktları ilə bağlı olan məsələləri bilavasitə həll etmək səlahiyyətinə malik deyillər. Lakin, düşünürük ki, qeyd olunan mövqe olduqca mübahisələdir. Belə ki, ölkənin hər hansı bir qanunvericilik aktında ümumi yurisdiksiyalı məhkəmələrin cəza sisteminə daxil edilmiş dövlət məcburiyyət tədbirlərinin təyin olunması ilə əlaqədar səlahiyyətlərinin bilavasitə məhdudlaşdıran normalar yoxdur. Hesab edirik ki, AR CM-in 48-ci maddəsinin tərəfimizdən təklif olunan redaksiyası dövlət qulluğunun nüfuzunun yüksəlməsinə xidmət etməklə, istər əməkdasların tutduqları vəzifəyə görə məsuliyyətinin artmasına, istərsə də korrupsiya, vəzifə cinayətləri, habelə digər cinayətlərlə mübarizənin gücləndirilməsinə zəmin yarada bilərdi. Qeyd olunmalıdır ki, Rusiya Federasiyasının (40-cı maddə), Belarus Respublikasının (60-cı maddə), Moldavanın (66-cı maddə), Tacikistanın (51-ci maddə) Cinayət məcəllələrində də xüsusi və ya hərbi rütbədən, dövlət ixtisas dərəcəsindən, fəxri addan və dövlət təltifindən, yaxud digər dövlət orqanı tərəfindən verilmiş dövlət təltifindən məhrum etmə ilə bağlı təklif etdiyimiz yeni redaksiyanın bir sıra müddəalarını nəzərdə tutur. Eyni zamanda, fikirləşirik ki, AR CM-in 48-ci maddəsinin təklif edilən yeni redaksiyası, habelə ədalətli və qanuna əsaslanmaqla tətbiq edilən xüsusi və ya hərbi rütbədən, dövlət ixtisas dərəcəsindən, fəxri addan və dövlət təltifindən, yaxud digər dövlət orqanı tərəfindən verilmiş dövlət təltifindən məhrum etmə, dövlət məcburiyyət tədbiri və dövlətin törədilmiş cinayətə zəruri reaksiyası olmaqla, güclü xüsusi xəbərdaredici potensiala malik olaraq, qanunvericinin bəyan etdiyi cəzanın məqsədlərinə çatmağa əlverişli imkan verəcəkdir.

Habelə, əsas cəza növləri ilə yanaşı əlavə cəza növlərinin, habelə xüsusi və ya hərbi rütbədən, dövlət ixtisas dərəcəsindən, fəxri addan və dövlət təltifindən, yaxud digər dövlət orqanı tərəfindən verilmiş dövlət təltifindən məhrum etmənin tətbiqi ilə bağlı təhlillərin, habelə elmi tədqiqatların aparılmasının asanlaşdırılması məqsədilə onlarla bağlı rəsmi məhkəmə statistikasının aparılması və yayılması məqsədəuyğun olardı.

Yuxarıda göstərilən təkliflərin qəbulu məqsədilə qanunvericilik aktlarına, ilk növbədə Azərbaycan Respublikasının CM-in 42, 48-ci, habelə Xüsusi hissəsinin müvafiq maddələrinə, AR CPM-in 346, 507-ci maddələrinə, AR CİM-in 159-cu maddəsinə dəyişikliklər etmək lazımdır.

***İstinad edilmiş mənbə:***

***The scientific heritage journal. Hungary. 2024. № 143. pp. 43–47.***

## Azərbaycan Respublikasında ictimai işlər növündə cəza: qanunvericilikdə yeniliklər

İctimai işlər (onları bir sıra ölkələrdə ictimai faydalı və ya məcburi işlər də adlandırırlar) dünyada cəza sistemində yenidir və buna görə də kiçik tarixə malikdir. Bu cəza növü XX əsrin ikinci yarısından sonra bir çox dövlətlərdə tətbiq edilməyə başlanmışdır. İlkin olaraq ictimai işlər İsveşrənin 1971-ci il tarixli Cinayət Məcəlləsinə daxil edilmşdir. Bundan sonra ictimai işlər Böyük Britaniyanın, Almaniyanın, İtaliyanın, İspaniyanın, Danimarkanın, Kanadanın, Polşanın, Çex Respublikasının,Yaponiyanın və digər ölkələrin cinayət qanunlarına daxil edilmiş və hazırda uğurla tətbiq olunur.

Sabiq SSRİ-də ilk dəfə ictimai işlər növündə cəza 02 iyul 1991-ci il tarixli "SSRİ və respublikalar ittifaqının cinayət qanunvericiliyinin əsasları"na daxil edilmişdi, lakin sonradan məlum səbəblərə görə tətbiq olunmadı. SSRİ süqut etdikdən sonra Rusiya Federasiyası, Ukrayna, Belarus, Qazaxıstan, Moldova, Gürcüstan, Qırğızıstan ictimai işlər növündə cəzanı öz yeni Cinayət Məcəllələrinə daxil etdilər.

Qeyd edilməlidir ki, məhkumların sayının azalmasına yönəlmiş beynəlxalq aktlar, məhkumlara digər alternativlərlə yanaşı ictimai islərin tətbiqini də tövsiyə edirlər. Belə ki, BMT-nin 14 dekabr 1990-ci il tarixli "Həbslə bağlı olmayan tədbirlərlə əlaqədar minimal standart Qaydaları"nın (Tokio Qaydaları) 8.2-ci maddəsi "ictimai işlərin yerinə yetirilməsi ilə" bağlı sanksiyaların da tətbiq olunmasını təşviq edir. Öz növbəsində Avropa Şurası da müxtəlif illərdə qəbul etdiyi sənədlərdə, yəni 1976-cı il tarixli "Azadlıqdan məhrum etməyə altrenativ olan bir sıra cəza tədbirləri haqqında" R(76) 10 nömrəli, 1992-ci il tarixli "Ümumi sanksiya və tədbirlər haqqında Avropa Qaydaları" R(1992)16 nömrəli, 1999-cu il tarixli "Həbsxanaların dolması və məhkumların sayının artması" R(99) 22 nömrəli, 2000-ci il tarixli "İctimai sanksiyalar və tədbirlər barədə Avropa Qaydaları" R(2000) 22 nömrəli və bir sıra di-

gər tövsiyələrdə müxtəlif alternativlərlə yanaşı ictimai işlərin tətbiq edilməsini məsləhət görür.

Azərbaycan SSR-nin 1922, 1927 və 1960-ci il tarixli Cinayət Məcəllələrində ictimai işlər növündə cəza nəzərdə tutulmamışdır. Bu cəza növü ilk dəfə hazırda qüvvədə olan və 30 dekabr 1999-cu ildə qəbul edilmiş Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsas cəza kimi daxil edilmişdir. İctimai işlər cəza sistemində on üç cəza arasında öz ağırlığına görə cərimə, nəqliyyat vasitəsini idarə etmə hüququndan məhrum etmə, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmədən sonra dördünçü yeri tutmuşdur.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 47-ci maddəsinə əsasən ictimai işlər məhkumun əsas işindən və ya təhsilindən asudə vaxtlarında haqqı ödənilmədən cəmiyyətin xeyrinə ictimai faydalı işləri yerinə yetirməsindən ibarətdir. Həmin işlərin növləri cəzanı icra edən orqanın sorğusuna əsasən yerli şəhər, rayon icra hakimiyyətləri tərəfindən müəyyən edilirdi. Bir sıra xarici dövlətlərdə ictimai işlərin növləri və yerləri bir qayda olaraq həmin cəzanın icrasına məsul orqan, yəni Probasiya Xidməti tərəfindən müəyyən olunur. İctimai işlərin yerinə yetirilməsi xüsusi əmək hazırlığı tələb etmədiyindən onlar bir çox işləri, təmizliyin aparılması, ərazilərin səhmana salınması, təmir, yükləmə və boşaltma və digər işlərin yerinə yetirilməsini özündə ehtiva edə bilər. Beləliklə, ictimai işlərin dairəsi çox asanlıqla, habelə cəmiyyətin ehtiyacları nəzərə alınmaqla, genişləndirilə bilər. Lakin, bəzi ölkələrdə ictimai işlərin seçilməsində müəyyən qadağalar da mövcuddur. Belə ki, İsveçdə ictimai işləri yerinə yetirən məhkumlar ahıl və uşaqlarla əlaqədar olan işlərə cəlb oluna bilməzlər.

Azərbaycan Respublikasında ilkin olaraq ictimai işlərin müddəti altmış saatdan iki yüz qırx saatadək müəyyən olunmuşdu, yetkinlik yaşına çatmayanlar üçün bu müddət qırx saatdan yüz altmış saatadək təşkil edirdi. Cinayət qanunvericiliyinə əsasən ictimai işlər aşağıda göstərilən şəxslərə tətbiq edilmirdi:

- birinci və ikinci qrup əlillərə;

- hamilə qadınlara;
- himayəsində səkkiz yaşınadək uşağı olan qadınlara;
- pensiya yaşına çatmış qadın və kişilərə;
- hərbi xidmətə çağırış üzrə müddətli həqiqi hərbi xidmətdə olan hərbi qulluqçulara.

Bu cəzaya məhkum olunmuş şəxs həmin işləri yerinə yetirməkdən qərəzli boyun qaçırdıqda, məhkəmə ictimai işlərin çəkilməmiş hissəsini azadlığın məhdudlaşdırılması və ya müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza ilə əvəz edə bilər. Bu zaman məhkumun ictimai işləri yerinə yetirdiyi müddət nəzərə alınmaqla, çəkilməmiş səkkiz saat ictimai iş bir gün azadlığın məhdudlaşdırılması və ya on iki saat ictimai iş isə, bir gün müəyyən müddətə azadlıqdan məhrum etmə hesabı ilə əvəz ediliə bilərdi.

Qeyd etmək istərdik ki, Rusiya Federasiyasından fərqli olaraq Azərbaycanda ictimai işlər Cinayət Məcəlləsi qüvvəyə mindikdən dərhal sonra təyin və icra edilməyə başlanmış, lakin sonradan bir sıra dəyişikliklərə məruz qalmışdır. Belə ki, 13 iyun 2008-ci il tarixli qanunla Cinayət Məcəlləsinin 47-ci maddəsinə dəyişikliklər edilmiş, bu cəzanın təyin edilmədiyi şəxslərin dairəsi genişləndirilmiş və onların sırasına sağlamlıq imkanları məhdud olan uşaqlar da daxil edilmişdir. 31 may 2011-ci il tarixli qanunla azadlığın məhdudlaşdırılması növündə cəzanın ləğv edilməsi ilə bağlı ictimai işlərin azadlıqdan məhrum etmə ilə əvəz edilməsi qaydası dəyişdirilmiş, səkkiz saat ictimai işin bir gün azadlıqdan məhrum etməyə bərabər sayılmasına başlanmışdır. 02 iyun 2012-ci il tarixli qanunla Cinayət Məcəlləsinə dəyişikliklər edilərək, ictimai işlərin müddəti iki yüz qırx saatdan dörd yüz səksən saatadək, yetkinlik yaşına çatmayanlar üçün isə həmin müddət yüz altmış saatdan üş yüz altmış saatadək artırılmışdır.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin ilkin redaksiyasında ictimai işlər növündə cəzanı nəzərdə tutan cəmi 44 maddə var idi. 01 sentyabr 2016-ci il tarixinə ictimai işlər Cinayət Məcəlləsinin Xüsusi Hissəsindəki 309 maddənin 43 maddəsində

(679 sanksiyadan 47-də) özünə yer almışdır. Təhlil göstərdi ki, ictimai işlər növündə cəza Cinayət Məcəlləsinin şəxsiyyət əleyhinə olan cinayətlərə görə məsuliyyəti müəyyən edən 69 maddəsinin 16-da, dövlət hakimiyyəti əleyhinə olan əməllərə görə məsuliyyəti müəyyən edən 66 maddəsinin 14-də, ictimai təhlükəsizlik və ictimai qayda əleyhinə olan cinayətlərə görə məsuliyyətlə bağlı 76 maddənin 7-də, iqtisadi sahədəki cinayətləri müəyyənləşdirən 51 maddənin 6-da nəzərdə tutulmuşdur. Cinayət Məcəlləsinin sülh və insanlıq, habelə hərbi xidmət əleyhinə olan cinayətlərə görə ictimai işlər cəzası müəyyən olunmamışdır. Cinayət Məcəlləsinin 20 maddəsində ictimai işlər böyük ictimai təhlükə törətməyən, 21 maddəsində az ağır və 2 maddədə isə ağır cinayətlərə görə təyin edlilə bilər.

Təhlil göstərdi ki, 2001-2016-cı illər ərzində ictimai işlər cəzasının təyini orta hesabla hər il ölkənin məhkəmələri tərəfindən bütün məhkum edilmiş şəxslərin 3,3 %-ni təşkil etmişdir. Belə ki, 2001-2006-ci illərdə ictimai işlər cəzası ümumi cəza tətbiq edilmiş məhkumların 4,3 %-dən 7,1 %-dək təyin olunmuşdur. Bu illərdə ictimai işlər hər il say hesabı ilə 600-dən 1004 nəfərə kimi məhkuma tətbiq edilmişdir. 2007-2014-cü illərdə ictimai işlər növündə cəzanın təyini azalmağa başlamış, ümumi sayda 3,8 %-dən 0,7 % kimi aşağı düşmüşdür. Həmin illərdə ictimai işlər sayca 99-dan 553-dək məhkuma təyin edilmişdir. 2015-ci ildə ictimai işlər cəmi 121 məhkuma, 2016-cı ildə isə, 123 məhkuma təyin edilmşdir ki, bu da göstərilən həmin illərdə ümumi məhkum edilmış şəxslərin cəmi 0,9 %-ni təşkli etmişdir. Ümumiyyətlə, Azərbaycan Respublkasında 2001-2016-cı illərdə ictimai işlər növündə cəzaya 7063 şəxs məhkum edilmişdir. Göstərilənlərin nəticəsi kimi, ictimai işlər növündə cəzanı icra edən yerli icra qurumlarının qeydiyyatında duran nəhkumların sayı ilbə-il azalmışdır. 01 yanvar 2017-ci tarixinə yerli icra qurumlarının qeydiyyatında ictimai işlərə məhkum edilmiş cəmi 59 şəxs olmuşdur ki, bu da 2016-ci illə müqayisədə 6,3 % azdır.

Məhkəmələr tərəfindən ictimai işlərin tətbiqi məsələsinə to-

xunmaqla, qeyd etmək istərdik ki, bu cinayət-hüquqi xarakterli tədbir, ümumiyyətlə qabaqcıl mövqelərdə olmamış, respublikada məhkumlara tətbiq edilən cəzaların birici üçlüyində özünə yer ala bilməmişdir. Fikrimişcə, belə vəziyyət bu cəza növünün yaratdığı məhdudiyyətlər baxımından onun istər hakimlər, istərsə ictimaiyyət tərəfindən o qədər də ciddi qəbul edilməməsi ilə əlaqədardır. İctimai işlərə göstərilən münasibət amnistiya və əfv aktlarının tətbiqində də müşahidə edilir. Belə ki, 2001-2016-ci illərdə qəbul edilmiş amnistiya aktlarının hamısında digər cəzalarla yanaşı ictimai işlərdən də azad edilmə nəzərdə tutulmuşdur. Qeyd edilməlidir ki, həmin illərin amnistiya aktlarına əsasən ictimai işlər cəzasından azad edilən məhkumların sayı bir o qədər də çox olmamışdır. Bu da ictimai işlər növündə cəzanı çəkən şəxslərin sayının az olması ilə bağlı olmuşdur. Belə ki, 2001-ci ildə qəbul edilmiş amnistiya aktına əsasən 52, 2003-cü ildə 311, 2007-ci ildə 226 məhkum ictimai işlər cəzasının çəkilməsindən azad edilmişdir. Amnistiya aktları 2009-cu ildə 198, 2013-cü ildə isə, 58 ictimai işlər cəzasını çəkən məhkuma tətbiq olunmuş, 2016-cı ildə müvafiq akta əsasən 80 belə məhkum cəzadan azad edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2001-2016-cı illərdə imzalanmış 39 əfvetmə haqqında fərman və sərəncamların təhlili göstərdi ki, əfv edilmiş dörd mindən çox məhkum arasında ictimai işlər cəzasını çəkən məhkum olmamışdır.

Yuxarıda göstərilənlərə istinadən aşagıdakı nəticələrə gələ bilərik. Belə ki, tədqiq olunan illər ərzində ictimai işlər Azərbaycan Respublikasında bir cəza növü kimi:

- öz yerini cəza sistemində saxlamış, Cinayət Məcəlləsinin Xüsusi Hissəsindəki maddələrin sanksiyalarında bir qədər azalmışdır;
- ilk illərdə onun tətbiqi ardıcıl olaraq artmış, 2007-ci ildən sonra isə, azalmağa başlamışdır;
- tətbiq edilməyən şəxslərin dairəsi genişləndirilmişdir;
- təyin edilmə müddəti, yəni vaxtı (saatı) iki dəfə artırılmışdır;
- azadlıqdan məhrum etmə cəzasının və ölkənin cəzaçəkmə

müəssisələrində saxlanılan məhkumların sayının artmasının qarşısının alınması ilə bağlı alternativlərdən biri kimi çıxış etmişdir;

- cəzaların icrasının təşkili və cəza-icra sisteminin maliyyələşdirilməsinə dövlət tərəfindən ayrılan xərclərin azalmasına kömək etmişdir;
- daha geniş tətbiqi üçün yaxşı imkanlar mövcuddur.

Bu cəza növünün icrası təcrübəsinə gəldikdə, qeyd edilməlidir ki, onun Cəzaların İcrası Məcəlləsi tərəfindən tənzimlənməsinə baxmayaraq, təcrübədə nöqsan və problemlər olmaqla, icrası prosesinə səmərəli nəzarət təmin edilməmişdir.

Göstərilənlər Azərbaycan Respublikası Prezidentinin "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 10 fevral 2017-ci il tarixli Sərəncamında da qeyd olunmuşdur. Bununla bağlı, həmin cəzanın, habelə cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan digər cəzaların icrasına effektiv nəzarətin təşkil edilməsi ilə əlaqədar Ədliyyə Nazirliyinin nəzdində Probasiya Xidməti yaradılmışdlr. Eyni zamanda, ölkənin Ədliyyə Nazirliyinə, Baş Prokurorluğuna, Ali Məhkəməsinə Cinayət Məcəlləsinin Xüsusi Hissəsinin sanksiyalarında azadlıqdan məhrum etməyə alternativlərin sayının artırılması, onların tətbiqi əsaslarının genişləndirilməsi üzrə dəyişikliklər edilməsi ilə əlaqədar qanun layihələrinin hazırlanaraq təqdim edilməsi ilə bağlı tapşırıq və tövsiyələr verilmişdir. Habelə, sözügedən sərəncamla ölkənin Nazirlər Kabinetinə ictimai işlər cəzasına məhkum olunmuş şəxslərin cəlb ediləcəyi işlərin növlərinin və belə işlərin keçiriləcəyi yerlərin müəyyənləşdirilməsi qaydasının təsdiq olunması tapşırılmışdır.

Yuxarıda göstərilənlərdən bir müddət sonra göstərilən sərəncamda verilmiş tapşırıqların icrası ilə əlaqədar ilk növbədə, Cinayət, Cinayət-Prossesual məcəllələrinə 20 oktyabr 2017-ci il tarixli, Cəzaların İcrası Məcəlləsinə 01 dekabr 2017-ci il tarixli müvafiq qanunlarla ictimai işlər növündə cəzanın təyin edilməsini və

icrasını tənzimləyən qanunvericlilik təkmilləşdirilmiş, bu da öz növbəsində bir sıra nöqsanların aradan qaldırılmasına, habelə yuxarıda sadalanan mövcud problemlərin bəzilərinin həllinə əlverişli zəmin yaratmışdır.

İlkin olaraq qeyd edilməlidir ki, ictimai işlər təyin edilməyən şəxslərin dairəsi genişləndirilmişdir. Bu dairəyə üç yaşınadək uşağı təkbaşına böyüdən kişilər və hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisələrinin kursantları daxil edilmişlər. Eyni zamanda, ictimai işlərə himayəsində uşağı olan qadınların cəlb olunması imkanlarını genişləndirmək məqsədilə həmin qadınların uşaqlarının yaşı səkkizdən üç yaşadək azaldılmışdır. İctimai işlərin digər cəza növü ilə əvəz olunmasında dəyişiklik baş vermişdir. Bu cəzaya məhkum olunmuş şəxs həmin işləri yerinə yetirməkdən qərəzli boyun qaçırdıqda, məhkəmə ictimai işlərin çəkilməmiş hissəsini azadlıqdan məhrum etmə ilə yanaşı azadlığın məhdudlaşdırılması ilə də əvəz edə bilər. Bu zaman məhkumun ictimai işləri yerinə yetirdiyi müddət nəzərə alınır və çəkilməmiş dörd saat ictimai işə bir gün azadlığın məhdudlaşdırılması və ya səkkiz saat ictimai işə bir gün azadlıqdan məhrum etmə hesabı ilə hesablanır.

İctimai işlər növündə cəzanın icrası qaydası da dəyişikliyə məruz qalmışdır. Cəzaların İcrası Məcəlləsinə əlavə olunmuş yeni 34-1-ci maddəyə uyğun olaraq yerli icra hakimiyyəti orqanları müvafiq inzibati-ərazi vahidi üzrə ictimai işlərin həyata keçiriləcəyi yerlərin siyahısını və həmin işlərin həyata keçirilməsi üçün zəruri olan şəxslərin sayı barədə məlumatı növbəti ay başlayanadək müvafiq probasiya qurumuna göndərir. Həmin qurumun icra məmuru da öz növbəsində ictimai işlər növündə cəzaya məhkum olunmuş şəxsə ictimai işlərin həyata keçiriləcəyi yerlərin siyahısındakı iş yerlərindən birində işləmək üçün göndəriş verir. İctimai işlərin həyata keçiriləcəyi yerlərlə bağlı hər hansı məlumat tələb edildikdə, icra məmuru yerli icra hakimiyyətinə sorğu verir və həmin sorğuya beş gündən gec olmayaraq cavab verilməlidir.

Cəzaların İcrası Məcəlləsinin 34-cü maddəsinə əlavə edilmiş yeni norma icra məmurunun üzərinə ayda iki dəfədən az olmaya-

raq məhkumun ictimai işləri yerinə yetirməli olduğu vaxtlarda həmin işlərin görüldüyü yerlərə baş çəkmək və bu barədə protokol tərtib etmək kimi yeni vəzifə qoymuşdur. Eyni zamanda, Cəzaların İcrası Məcəlləsinə əlavə edilmiş 15-1-ci maddəyə əsasən icra məmurunun vəzifələri sırasına ictimai işlər cəzasına məhkum edilmiş şəxsin olduğu yer müəyyən edilmədikdə, bu zaman 10 günədək müddətdə onun axtarılması ilə əlaqədar ilkin tədbirləri həyata keçirmək, bu tədbirlər nəticə vermədikdə isə, məhkum barəsində axtarış elan edilməsi haqqında qərar qəbul etmək, qərarın surətini yerli polis orqanına göndərmək, həmçinin onun tutulması barədə Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada vəsatət vermək kimi yeni vəzifələr əlavə olunmuşdur.

İctimai işlərin icrası ilə bağlı işəgötürənin də vəzifələri dəyişmişdir. Cəzaların İcrası Məcəlləsinin 37-ci maddəsinə əsasən işəgötürən onun üçün nəzərdə tutulmuş vəzifələrdən əlavə, ictimai işlərin həyata keçirilməsi üçün mövcud olan yerlər barədə yerli icra hakimiyyəti orqanına düzgün və tam məlumat verməli, hər bir məhkum ictimai işlərin həyata keçiriləcəyi yerdə ictimai işə təhkim edildikdə, məhkum tərəfindən ictimai işlərin yerinə yetirilməli olduğu vaxtların cədvəlini tərtib edərək üç gündən gec olmayaraq icra məmuruna göndərməlidir. Eyni zamanda qeyd olunmalıdır ki, ölkənin Nazirlər Kabineti müvafiq Sərəncamda verilmiş tapşırığa əsasən 17 oktyabr 2017-ci il tarixli 438 nömrəli Qərarı ilə ictimai işlər cəzasına məhkum olunmuş şəxslərin cəlb ediləcəyi işlərin növlərinin və belə işlərin keçiriləcəyi yerlərin müəyyənləşdirilməsi ilə bağlı müvafiq Qayda təsdiq etmişdir. Qanunvericlikdə qeyd olunan dəyişikliklərdən əlavə, ictimai işlər növündə cəzanın və ya inzibati tənbehin icrası ilə bağlı vəzifələrin yerinə yetirilməməsinə görə məsuliyyəti nəzərdə tutan Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə 528-1-ci maddə əlavə edilmişdir. Bu yeni normaya əsasən ictimai işlərin icrasına məsul olan subyektlər, yəni yerli icra hakimiyyətinin məsul işçiləri, işəgötürən və probasiya xidmətinin icra məmuru üzrələrinə qoyul-

muş vəzifələrin yerinə yetirilməməsinə görə inzibati məsulyyətə cəlb edilə və onlar barəsində məhkəmə tərəfindən cərimə növündə inzibati tənbeh tətbiq edilə bilər. Qanunvericiliyə əsasən yerli icra hakimiyyətinin məsul işçiləri, işəgötürən barədə inzibati protokolu icra məmuru, sonuncu barədə isə, həmin protokolu müvafiq rayon (şəhər) prokurorları tərtib edirlər.

Sözügedən qanunvericiliyə edilmiş dəyişikliklər bir sıra mövcud problemləri aradan qaldırmış, ictimai işlər növündə cəzanın icrası mexanizmini təkmilləşdirmiş, bu cəzanın yaxın gələcəkdə Azərbaycan Respublikasında azadlıqdan məhrum etməyə əsas alternativlərdən biri kimi qəbul edilməsinə zəmin yaratmışdır. Eyni zamanda, ictimai işlər növündə cəzanın icrasının səmərəliyinin təmin edilməsi, habelə təcrübədə rast gəlinən problemlərin həlli məqsədilə qanunvericiliyin təkimilləşdirilməsini davam etdirmək təklif olunur.

Yuxarıdakılara əsaslnaraq, ictimai işlər növündə cəza insitutunun daha da təkmilləşdirilməsi onun məhkəmələr tərəfindən geniş tətbiqi, onun icrasının səmərəliyinin artırılması məqsədilə təklif edirik:

- Cinayət Məcəlləsinin Xüsusi Hissələrinin böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə məsuliyyəti nəzərdə tutan sanksiyalarında onun sayını artırmaq. Burada qeyd etmək istərdik ki, göstərilən cinayətlər Azərbaycan Respublikasında hər il qeydə alınan cinayətlərin 80%-dən çoxunu təşkil edir.
- qərəzli boyun qaçırma zamanı bu cəzanı yalnış cərimə, islah işləri və ya azadlığın məhdudlaşdırılması il əvəz edilməsini nəzərdə tutmaq, bu zaman onların əvəz olunma qaydasını müəyyənləşdirmək;
- qərəzli boyun qaçırma ilə bağlı cəzanın azadlıqdan məhrum etmə ilə əvəz olunmasını ləğv etmək;
- Cinayət Məcəllәsində bu cəza təyin olunmuş şəxslərə şərti məhkum etmə və cəzanın icrasının təxirə salınması institutlarının tətbiqini nəzərdə tutmaq;
- təyin edilmiş ictimai işlərin müddətinin (saatların) ən azı ya-

rısını çəkdikdən, yəni işlədikdən sonra, habelə bir sıra hallarda (ağır xəstəlik, əlilliyin alınması, müstəsna ailə vəziyyəti və digər) məhkuma cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin tətbiqini nəzərdə tutmaq.

Hüquq ədəbiyyatında ictimai işlərin icrası prosesində məcburi tibbi sığorta, pensiyaya çıxma, məhkumun əsas iş yerində əmək münasibətlərinə xitam verilməsi, habelə hamiləlik, uşağın doğulması ilə bağlı yaranan problemlərə toxunulur. Azərbaycan Respublikasında da ictimai işlərin icrası zamanı həmin problemlərə rast gəlinir. Fikrimizcə, tibbi sıqortanın təminini məhkumun üzərinə, belə imkan olmadıqda işəgötürənin üzərinə qoyulması, habelə digər sadalanan problemlərin yaranmış vəziyyətdən asılı olaraq məhkumun xeyrinə həll edilməsi məqsədəuyğun olardı.Qeyd olunan təklifləri Cinayət Məcəlləsinin 47, 69, 76-cı və Cəzaların İcrası Məcəlləsinin 34-cü maddəsinə dəyişikliklər edilməklə həyata keçirmək olar.

***İstinad edilmiş mənbələr:***


***1. "İnsan: cinayət və cəza" elmi jurnal (rus dilində). Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası, Ryazan, 2017. Tom 25 (1-4). № 1, Səh. 49–54;***

***2. "Cəza-icra hüququ". elmi jurnal(rus dilində). Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası, Ryazan, 2018. Tom 13 (1-4). № 2, Səh. 217–221.***

## Azərbaycan Respublikasında islah işləri növündə cəza

İslah işləri cəza növü kimi sovet cinayət hüququnun məhsulu olmaqla, uzun müddətdir ki, bir neçə sabiq SSRİ respublikasının, o cümlədən Azərbaycan Respublikasının cəza sistemində məhkum edilmiş şəxslər üçün ciddi məhdudiyyətlər yaratmayan cəzalardan biri kimi öz yerini qoruyub saxlamaqdadır. Azərbaycan Respublikasında uzun illər ərzində tətbiq edilməsinə və kifayət qədər elmi araşdırmalara baxmayaraq, islah işləri növündə cəza öz aktuallığını itirməmişdir. Məlumdur ki, bu cəza növü məhkumun məcburi əmək fəaliyyəti ilə bağlı olsa da, onun mövcudluğu məcburi əməyi qadağan edən beynəlxalq aktlara, xüsusilə Ümumdünya İnsan Hüqüqları Bəyannaməsinə (4, 23-cü maddələr), Milki və Siyası hüquqlar haqqında Pakta (8-ci maddə), Beynəlxalq Əmək Təşkilatının 1929-cu il tarixli Konvensiyasına zidd deyildir. İşlah işləri cəzası məhkumun əmək haqqının və ya digər qazançının bir hissəsinin (faizinin) dövlət nəfinə tutulması ilə əlaqəli olmaqla, məhkum üçün bir sıra digər hüquq məhdudiyyətləri yaradır.

Azərbaycan öz müstəqilliyini elan edənə kimi islah işləri növündə cəza ilkin olaraq oktyabr inqilabından sonra Xalq Ədliyyə Komissarlığı tərəfindən qəbul edilmiş 19 dekabr 1917-ci il tarixli "Hərbi tribunallar, onların tərkibi, baxıla biləcək işlər, təyin edilən cəzalar və iclasların aparılma qaydası"nı tənzimləyən 170 nömrəli Təlimatda xatırlanır. Bu sənəddə "azadlıqdan məhrum etmə yerlərinə yerləşdirilmədən məcburi işlər" növündə ayrıca cəzanın təyin edilməsi nəzərdə tutulmuşdur. Müstəqillik dövründə, yəni Azərbaycan Demokratik Respublikasının fəaliyyət göstərdiyi 1918-ci ilin may ayından 1920-ci ilin aprelinədək olan müddətdə ölkədə yeni cinayət qanunvericiliyi qəbul edilmədiyindən müvafiq dövrdə Rusiya imperiyasının qüvvədə olmuş qanunları tətbiq olunmuşdur.

Respublikada sovet hakimiyyəti qurulduqdan sonra qəbul edilmiş 09 iyul 1920-ci il tarixli Azərbaycan SSR-nin Cinayət hüququnun Əsaslarında islah işləri "azadlıqdan məhrum etmə yerlərinə

yerləşdirilmədən məcburi işlər” kimi cəza sisteminə daxil edilmişdir. Əsas cəza qismində tətbiqi nəzərdə tutulan həmin cəza on beş cəza növü arasında on ikinci yerdə yerləşdirilmişdir. Lakin 20 may 1920-ci il tarixdə Ali İnqilab Tribunalının Əsasnaməsində belə yerli məhkəmələr üçün müəyyən edilmiş cəza sistemində islah işləri cəzası nəzərdə tutulmamışdı. Sonralar islah işləri, müxtəlif illərdə azadlıqdan məhrum etmə yerlərinə yerləşdirilmədən məcburi işlər, azadlıqdan məhrum etməməklə islah işləri və ya sadəcə islah işləri adlandırılmışdır. Həmin cəza Azərbaycan SSR-nin 1922, 1927, 1960-ci illərdəki və Azərbaycan Respulikasının 1999-cu ildəki Cinayət məcəllərinə əsas cəza növlərindən biri kimi daxil edilmişdir.

Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin (bundan sonra MİK) 2-ci sessiyası tərəfindən 09 dekabr 1922-ci ildə qəbul edilmiş və 01 fevral 1923-cü ildən qüvvəyə minmiş birinci Cinayət Məcəlləsində həmin cəza növü Azərbaycan SSR-nin hüdudlarından müddətli və ya müddətsiz sürgün, ciddi təcridlə və ya bunsuz azadlıqdan məhrum etmədən sonra üçüncü yerdə idi. Azərbaycan SSR-nin Cinayət Məcəlləsinin 35-ci maddəsinə əsasən azadlıqdan məhrum etməməklə məcburi işlər yeddi gündən bir ilədək təyin edilə bilərdi. Məcburi işlər iki növə bölünürdü: məhkumun tarif dərəcəsinin aşağı salınması ilə iş vaxtından artıq məcburi işlərə və digər təşkilat və ya müəssisəyə, yaxud digər yerə keçirilməklə öz peşəsi üzrə işləməyə davam etdiyi ixtisas üzrə işlər, yaxud ixtisas tələb etməyən fiziki əmək işləri. Məhkəmə öz hökmundə məhkumun müvafiq növlərdən hansına və neçə müddətə məhkum edildiyini göstərməli idi. Müvafiq maddənin qeyd hissəsinə əsasən hərbi qulluqçular barədə azadlıqdan məhrum etməməklə məcburi işlər əvəzinə cərimə xarakterli hərbi hissələrdə saxlanma təyin edilirdi. Azərbaycan SSR MİK-i tərəfindən 17 noyabr 1923-ci il tarixdə qəbul edilmiş həmin məddənin yeni ikinci qeydinə əsasən, əgər hökm çıxarılana qədər müttəhimin onu işləmək qabiliyyətindən məhrum edən xəstəlikdən əziyyət çəkdiyi aşkar edilərdisə, yaxud məcburi işlər yerlərdə təşkil olunmamışdısa, yaxud müvafiq maddədə digər ictimai müdafiə tədbirləri nəzərdə tutulmamışdısa, məhkəmə cina-

yətin xüsusiyyətini və məhkumun cəmiyyətdə hansı sinifə məxsus olmasını nəzərə almaqla, məcburi işləri cərimə və ya azadlıqdan məhrum etmə, yaxud şərti azadlıqdan məhrum etmə ilə əvəz edə bilərdi. Bu zaman məcburi işlərin üç günü azadlıqdan məhrum etmənin bir günü kimi hesablanırdı. Azərbaycan SSR MİK-i tərəfindən sözügedən sessiyada Cinayət Məcəlləsinə 35 ”a” maddəsi də əlavə edilmişdir. Bu yeni maddəyə əsasən məhkum azadlıqdan məhrum etməməklə məcburi işlərdən boyun qaçırdığı hallarda məhkəmənin qərarı ilə həmin işlər azadlıqdan məhrum etmə ilə əvəz edilirdi. Bu zaman azadlıqdan məhrum etmənin bir günü məcburi işlərin bir günü kimi hesablanırdı. Əgər hökm, onu çıxarmış məhkəmənin yerləşdiyi rayondan kənarda icra edilirdisə, məcburi işlərin azadlıqdan məhrum etmə ilə əvəz edilməsi məsələsi hökmün icra olunduğu yerin məhkəməsi tərəfindən həll edilirdi.

Cinayət Məcəlləsinin 35-ci maddəsinin birinci qeydinə Azərbaycan SSR MİK-i tərəfindən 29 may 1926-ci il tarixdə edilən dəyişiklikdən sonra Fəhlə-kəndli Qızıl Ordusunun sıravi və kiçik başçı kadrlar heyətinin üzvü olan hərbi qulluqçularına azadlıqdan məhrum etməməklə məcburi işlər tətbiq edilməli olduğu hallarda, məhkəmə məcburi işləri müvafiq müddətin altıda birinə bərabər tutulmaqla, azadlıqdan məhrum etmə ilə əvəz etməli idi.

Aparılmış təhlil göstərdi ki, 1922-ci ilin Cinayət Məcəlləsinin ilkin redaksiyasında məcburi işlər Xüsusi Hissənin 72 maddəsinin sanksiyasına daxil edilmişdi. 1927-ci ilin Cinayət Məcəlləsi qəbul edilənə kimi məcburi işlər bir neçə maddədən çıxarılmış, həmin məcəlləyə daxil edilmiş 26 yeni maddədə digər cəzalarla yanaşı məcburi işlər cəzası da nəzərdə tutulmuşdur. Beləliklə, 1927-ci ilin Cinayət Məcəlləsi qüvvəyə minənədək qüvvədə olmuş Cinayət Məcəlləsinin 91 maddəsinin sanksiyasında məcburi işlər cəzası var idi.

Azərbaycan SSR-nin ikinci Cinayət Məcəlləsi MİK və Xalq Komissarları Sovetinin 03 dekabr 1927-ci il tarixli birgə qərarı ilə təsdiq edilmiş, 15 yanvar 1928-ci il tarixdən qüvvəyə minmişdir. Həmin Cinayət Məcəlləsinin 22-ci maddəsində göstərilmiş on dörd növ cəza (onlar həmçinin ictimai müdafiə tədbirləri də ad-

landırılırdı) sistemində özünə yer almış azadlıqdan məhrum etməməklə məcburi işlər, SSRİ vətəndaşlığından məhrum edilməklə və həmin ittifaq daxilindən mütləq qovulmaqla zəhmətkeşlərin düşməni elan etmək, ciddi təcridlə azadlıqdan məhrum etmək, ciddi təcridsiz azadlıqdan məhrum etməkdən sonra gəlməklə müvafiq siyahıda dördüncü yerdə idi. Azərbaycan SSR-nin Cinayət Məcəlləsinin 33-cü maddəsinə uyğun olaraq azadlıqdan məhrum etməməklə məcburi işlər bir gündən bir ilədək müddətə təyin edilə bilərdi. Həmin maddədəki qeydə əsasən Fəhlə-kəndli Qızıl Ordusunun sıravi və kiçik heyətinin hərbi qulluqçuları haqqında azadlıqdan məhrum etməməklə məcburi işlər, hökmlə təyin olunan məcburi işlərin tam altıda bir hissəsinə bərabər müddətə cərimə xarakterli hərbi hissələrdə saxlanılmaqla əvəz edilirdi. Qeyd olunan maddənin qeyd hissəsi iki dəfə, yəni 22 sentyabr 1928-ci il və 15 iyul 1930-cu ildə dəyişdirilmişdir. Sonuncu dəyişikliyə əsasən Fəhlə-kəndli Qızıl Ordusunun müddətdən artıq orta, baş, ali və kiçik əsas başçılar heyətinin hərbi qulluqçuları haqqında azadlıqdan məhrum etməməklə məcburi işlər tətbiq edilmirdi. Belə məcburi işlər əvəzinə göstərilən hərbi qulluqçular haqqında intizam həbsi keçirmək üçün müəyyən edilmiş qaydaya uyğun olaraq iki aylıq müddətə azadlıqdan məhrum etmə tətbiq edilirdi. 15 iyul 1930-cu ildəki dəyişiklikdən sonra Cinayət Məcəlləsinin 22-ci maddəsinin redaksiyası dəyişmiş, azadlıqdan məhrum etməməklə məcburi işlər azadlıqdan məhrum etmədən islah işləri adlandırılmışdır. Cinayət Məcəlləsinin 34-cü maddəsinə əsasən müttəhim, onu işləmək iqtidarından məhrum edən xəstəliyə tutulmuş olduğu, bu vəziyyət hökm çıxarılana qədər nəzərə alınmadıqda və ya müvafiq yerdə məcburi işlər təşkli edilmədikdə, yaxud müvafiq maddədə başqa cəza (ictimai müdafiə tədbiri) nəzərdə tutulmadıqda, məhkəmə məcburi işləri cərimə ilə və ya üç gün məcburi işi bir gün azadlıqdan məhrum etmək hesabı ilə əvəz edirdi. Həmin Məcəllənin 35-ci maddəsinə uyğun olaraq məhkum məcburi işlərdən boyun qaçırdıqda, hökmü çıxarmış məhkəmənin qərarı ilə məcburi işlər günə-gün hesabı ilə azadlıqdan məhrum etmə cəzası ilə əvəz edilə bilərdi. Əgər hökm onu çıxarmış məhkəmənin yerləşdiyi da-

irədən kənarda icra edilirdisə, məcburi işlərin azadlıqdan məhrum etmə ilə əvəz edilməsi məsələsi hökmün icra olunduğu yerin məhkəməsi tərəfindən həll edilirdi.

27 sentyabr 1935-ci il tarixli dəyişikliklərlə Cinayət Məcələsinin 33-cü maddəsinə yeni müddəalar əlavə edilmişdir. Birincisi, islah işlərinin, o cümlədən belə işlərin məhkumun iş yerində çəkildiyi müddət də daxil olmaqla, onun ümumi əmək stajina və ixtisası müəyyən etmək üçün tələb edilən staja, həmçinin SSR İttifaqının və Azərbaycan SSR-nin qanunvericiliyi üzrə təqaüd, digər güzəşt və üstünlüklər (xidmət iiləri üçün əmək haqqına əlavə və s.) əldə etməyə imkan verən staja hesablanmırdı. İkincisi, işlah işlərinin çəkildiyi müddət xidmət illəri üçün əmək haqqına edilən əlavələrin ödənilməsini dayandırırdı.

Aparılmış təhlil göstərdi ki, 1927-ci ilin Azərbaycan SSR-nin Cinayət Məcəlləsinin ilkin redaksiyasında azadlıqdan məhrum etməməklə məcburi işlər cəzası Xüsusi Hissənin 84 maddəsinin sanksiyalarına daxil edilmişdi. 1960-ci ilin Cinayət Məcəlləsi qəbul edilənə kimi məcburi işlər müvafiq sanksiyalarda ləğv edilməklə və ya digər cəza növü ilə əvəz olunmaqla 16 maddədən çıxarılmış, həmin məcəlləyə daxil edilmiş 37 yeni maddədə digər cəzalarla yanaşı məcburi işlər cəzası da nəzərdə tutulmuşdur. Beləliklə, 1960-ci ilin Cinayət Məcəlləsi qüvvəyə minənədək Azərbaycan SSR-nin 1927-ci ilin Cinayət Məcəlləsinin sonuncu redaksiyasının 105 maddəsinin sanksiyasında məcburi işlər cəzası var idi.

Qeyd etmək lazımdır ki, məhkumun əmək haqqından və ya digər qazancından tutulmaların miqdarı Azərbaycan Respublikasının 1922 və 1927-ci ilərin Cinayət məcəllələrinin müvafiq maddələrində göstərilməmişdi. Həmin miqdar cəzaların icrası qanunvericiliyi ilə müəyyən edilirdi. Belə ki, Azərbaycan SSR-nin 1925-ci ilin İslah-Əmək Məcəlləsinin 32-ci maddəsində tutulmalı məbləq əmək haqqının və ya digər qazancın 25%-ni təşkli edirdi. Tutulmaların məbləği qanunvericilikdə cəzanın tətbiqi illərində dəyişmişdir. Sonralar tutulmaların məbləği artıq birbaşa Cinayət Məcəlləsinin özündə göstərilmişdir.

09 dekabr 1960-ci il tarixdə qəbul edilmiş 01 mart 1961-cü il

tarixdən qüvvəyə minmiş Azərbaycan SSR-nin üçüncü Cinayət Məcəlləsində azadlıqdan məhrum etmədən işlah işləri cəza sistemində azadlıqan məhrum etmə, sürgün, köçürtmədən sonra dördüncü yerdə qərarlaşmışdır. Azərbaycan SSR-nin Cinayət Məcəlləsinin 26-cı maddəsinə əsasən azadlıqdan məhrum etmədən işlah işləri bir aydan bir ilədək təyin edilirdi və bu cəza məhkumun işlədiyi yerdə və ya islah işlərinə baxan orqanın (daxili işlər nazirliyinin islah işləri müfəttişliyi) göstərişi ilə başqa yerlərdə, lakin hökmən məhkumun yaşadığı rayonda çəkilməli idi. Məhkumun qazancından dövlət nəfinə məhkəmə qərarı ilə konkret müəyyən olunmuş 5 faizdən 20 faizədək məbləğdə pul tutulurdu. Sağlamlıq vəziyyətinə, yaşına və digər səbəblərə görə əmək qabiliyyətli hesab edilməyən şəxslərə, habelə çıxarılmış hökmdən sonra əmək qabiliyyətini itirmiş şəxslərə təyin edilmiş islah işlərini məhkəmə əlli manatadək (sovet rublu nəzərdə tutulur) cərimə və ya ictimai məzəmmətlə əvəz edə bilərdi.

Cəzasını iş yerində çəkməklə azadlıqdan məhrum etmədən işlah işlərinə məhkum olunmuş şəxs cəzanı çəkməkdən boyun qaçırdığı halda, məhkəmə cəzanı onun icrasına nəzarət edən orqanın təqdimatına əsasən həmin şəxsi cəzanı çəkmək üçün onun yaşadığı rayonun hüdudlarında islah işlərinə baxan orqanın müəyyən etdiyi digər yerlərə göndərə bilərdi. Bundan sonra məhkumun cəzanı çəkməkdən boyun qaçırdığı hallarda, islah işlərinin çəkilməmiş müddəti məhkəmənin qərarı ilə azadlıqdan məhrum etmə cəzası ilə əvəz edilirdi. Bu zaman islah işlərinin çəkilməmiş üç günü azadlıqdan məhrum etmənin bir günü ilə əvəz edilirdi. İslah işlərininin, o cümlədən məhkumun iş yeri üzrə islah işlərinin cəkilən müddəti onun əmək stajına hesablanmırdı. Lakin islah işləri cəzasının çəkildiyi müddət məhkumun vicdanlı işi və nümunəvi davranışına görə islah işləri çəkildikdən sonra ictimai təşkilatın və ya işlədiyi əmək kollektivinin vəsatətinə əsasən məhkəmə tərəfindən islah işlərinin müddəti məhkumun əmək stajına daxil edilə bilərdi.

1970-1997-ci illərdə Azərbaycan SSR Cinayət Məcəlləsinə, sonradan Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin islah işlərini nəzərdə tutan 26-ci maddəsinə bir neçə dəfə dəyişikliklər

edilmişdir. Onlardan diqqəti xüsusi cəlb edən bir neçəsinə toxunmaq istərdik. Birincisi, Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin 29 yanvar 1970-ci il tarixli Fərmanı ilə edilmiş dəyişikliklərə görə azadlıqdan məhrum etmədən islah işləri növündə cəzanın çəkilməsi qaydası SSR İttifaqı və Azərbaycan SSR-nin qanunvericiliyi ilə müəyyən edilirdi. İkincisi, Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin 22 dekabr 1982-ci il tarixli Fərmanı ilə edilmiş dəyişikliklərə görə islah işləri növündə cəzanın aşağı və yuxarı müddətləri artırılaraq iki aydan iki ilədək müəyyən edilmiş, əmək qabiliyyətini itirmiş şəxslər üçün çəkilməmiş islah işlərinin hər ayı iyirmi manatla, tamah məqsədi olmadan törədilən cinayətlərə görə həmin hesabla, lakin üç yüz manatdan çox olmayan cərimə ilə əvəz edilə bilərdi. Eyni zamanda, həmin Fərmanla məhkum cəzanı çəkməkdən boyun qaçırdığı halda, onun islah işlərinin çəkilməmiş bir günü azadlıqdan məhrum etmənin bir günü ilə əvəz olunurdu.

Azərbaycan Respublikası Prezidentinin 1993-cü ilin 09 yanvar tarixli Fərmanı ilə cəzaların icrası, o cümlədən azadlıqdan məhrum etmədən islah işləri Daxili İşlər Nazirliyindən Ədliyyə Nazirliyinə verildikdən sonra, həmin cəzanın icrasına nəzarət DİN-nin İslah işləri müfəttişliyindən alınaraq ədliyyə polisinin səlahiyyətlərinə aid edilmişdir. Bir müddət sonra, yəni Azərbaycan Respublikasının 30 sentyabr 1997-ci il tarixli qanunu ilə Cinayət Məcəlləsinə edilmiş dəyişikliyə əsasən islah işlərinin çəkilməsi müddətinin əmək stajına daxil edilməsi ilə bağlı müddəa ləğv edildi.

1960-ci ilin Cinayət Məcəlləsinin ilkin redaksiyasında azadlıqdan məhrum etməməklə islah işləri Xüsusi Hissənin 207 maddəsindən 116 maddəsindəki 132 sanksiyaya daxil edilmişdir. İslah işləri cəzası daha çox şəxsiyyət əleyhinə olan cinayətlərə görə (28 sanksiyada), ictimai təhlükəsiklik və ictimai qayda əleyhinə olan cinayətlərə görə (21 sanksiyada), idarəetmə əleyhinə olan cinayətlərə görə (17 sanksiyada) və təsərrüfat əleyhinə olan cinayətlərə görə (16 sanksiyada) nəzərdə tutulmuşdu. 1961–2000-ci illərdə, əvvəlcə Azərbaycan SSR, sonradan Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə 137 müxtəlif dəyişliklər edilmişdir ki, onla-

rın da böyük hissəsi həmin məcəllələrin Xüsusi Hissəsinə aid olmuşdur. Göstərilən dəyişikliklər islah işlərinə də toxunmuş, onun Cinayət Məcəlləsinin sanksiyalarındakı sayı artmışdır. Belə ki, 1960-cı ilin Cinayət Məcəlləsinin sonuncu redaksiyasının 187 maddəsinin 211 sanksiyasında islah işləri növündə cəza var idi.

Sonuncu və hazırda, yəni 01 sentyabr 2000-ci ildən qüvvədə olan Azərbaycan Respublikasının Cinayət Məcəlləsində sözügedən cəza artıq islah işləri adlandırılmaqla cəza sistemində altıncı yerdə bərqərar olmuşdur. O sərtliyinə görə azadlığın məhdudlaşdırılması, intizam xarakterli hərbi hissədə saxlama, müəyyən müddətə azadlıqdan məhrum etmə, ömürlük azadlıqdan məhrum etmədən yüngül sayılmaqla, onlardan qabaqda yerləşmişdir. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 49-cu maddəsinə əsasən islah işləri iki aydan iki ilədək müddətə təyin edilir və həmin cəza məhkumun iş yeri üzrə çəkilir. Həmin məcəllənin 85-ci maddəsinə əsasən yetkinlik yaşına çatmayanlara islah işləri iki aydan bir ilədək müddətə təyin edilir. İslah işlərinə məhkum olmuş şəxsin qazancından dövlət nəfinə beş faizdən iyirmi faizədək məbləğdə pul tutulur. Cinayət qanununa əsasən islah işləri növündə cəza birinci qrup əlillərə və hərbi qulluqçulara təyin edilmir.

İslah işlərinə məhkum olunmuş şəxs həmin cəzanı çəkməkdən qərəzli boyun qaçırdıqda, məhkəmə islah işlərinin çəkilməmiş hissəsini azadlığın məhdudlaşdırılması və ya müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza ilə əvəz edə bilər. Bu zaman məhkumun islah işlərini yerinə yetirdiyi müddət nəzərə alınır və çəkilməmiş iki gün islah işlərinə bir gün azadlığın məhdudlaşdırılması və ya üç gün islah işlərinə bir gün azadlıqdan məhrum etmə hesabı ilə hesablanırdı.

Azərbaycan Respublikasının 31 may 2011-ci il tarixli Qanunu ilə azadlığın məhdudlaşdırılması növündə cəzanın Cinayət Məcəlləsindən cıxarılmasından sonra artıq islah işlərinin çəkilməmiş hissəsi yalnız müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza ilə əvəz edilə bilərdi. Bu zaman məhkumun islah işlərini yerinə yetirdiyi müddət nəzərə alınır və çəkilməmiş üç gün islah işləri bir gün azadlıqdan məhrum etmə əvəz olunmaqla hesabla-

nırdı. Həmin Qanunla Cinayət Məcəlləsinin Xüsusi Hissəsinin 14 maddəsinin sanksiyasındakı azadlığın məhdudlaşdırılması cəzası islah işləri ilə əvəz edilmişdir. Qüvvədə olan cinayət qanunvericiliyinə əsasən işlah işləri növündə cəza məhkəmə tərəfindən aşagıdakı hallarda təyin edilə bilər:

- Cinayət Məcəlləsinin Xüsusi Hissəsinin maddəsinin sanksiyasında nəzərdə tutulduğu halda;
- məhkum edilən şəxsin şəxsiyyəti və müstəsna hallar nəzərə alınmaqla, Cinayət Məcəlləsinin 62-ci maddəsinə uyğun olaraq törədilmiş cinayətə görə müəyyən edilmiş cəzadan daha yüngül cəza təyin edilməsi zamanı;
- cərimənin ödənilməsindən boyun qaçırma ilə bağlı cəzanın dəyişməsilə bağlı;
– müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasının çəkilməmiş hissəsinin daha yüngül cəza ilə əvəz edilməsi zamanı;
- təyin edilmiş cəzanın amnistiya və ya əfv qaydasında əvəz olunması ilə əlaqədar.

Azərbaycan Respublikasının Ali Məhkəməsinin 25 iyun 2003-cü il tarixli "Məhkəmələr tərəfindən cinayət cəzalarının təyin edilməsi təcrübəsi haqqında" 4 nömrəli Qərarının 19-cu bəndinə əsasən bir neçə hökm üzrə islah işləri növündə cəza təyin edilərkən islah işlərinin müddətləri ancaq Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 67-ci maddəsi ilə müəyyən edilmiş qaydada toplanıla bilər. Bu zaman hökmlərin məcmusu üzrə islah işi cəzasının müddəti iki ildən artıq ola bilməz. Eyni zamanda, əmək haqqından tutulmaların miqdarı (faizlər) toplanıla bilməz.

Azərbaycan Respublikasının sonuncu Cinayət Məcəlləsinin Xususi Hissəsinin ilkin redaksiyasında 253 maddəsinin 96 maddəsinə daxil olan 141 sanksiyada islah işləri cəzası nəzərdə tutulmuşdu. 01 oktyabr 2017-ci il tarixinə islah işləri artıq Cinayət Məcəlləsinin Xususi Hissəsinin 312 maddəsinin 135 maddəsinə daxil olan 181 sanksiyaya daxil edilmişdir. İslah işləri cəzasının təyin edilməsi imkanı şəxsiyyət əleyhinə olan cinayətlərə görə 42 sanksiyada, ictimai təhlükəsizlik və ictimai asayiş əleyhinə olan cinayətlərə görə 40 sanksiyada, dövlət hakimiyyəti əleyhinə olan

cinayətlərə görə 27 sanksiyada, iqtisadi sahədəki cinayətlərə görə 26 sanksiyada nəzərdə tutulmuşdur. Yalnız sülh və bəşəriyyət əleyhinə olan cinayətlərin sanksiyalarında islah işləri növündə cəza nəzərdə tululmamışdır. Təhlil göstərdi ki, Cinayət Məcəlləsinin 64 maddəsində islah işləri böyük ictimai təhlükə törətməyən cinayətlərə, 71 maddəsində isə, az ağır cinayətlərə görə təyin edilə bilər.

01 sentyabr 2000-ci tarixdən qüvvəyə minmiş Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi (40-51-ci maddələr) islah işləri cəzasının icrası qaydalarını humanistləşdirmiş və bir sıra məhdudiyyətləri aradan qaldırmışdır. Belə ki, bu şəxslər məhkum edilməzdən əvvəl işlədikləri vəzifədə və ya işdə qalırlar. Onlar başqa vəzifəyə və ya işə yalnız əmək qanunvericiliyi ilə müəyyən olunmuş qaydada və ümumi əsaslarla keçirilə bilərlər. Onların cəzalarının icrası müddəti onların ümumi iş stajına daxil edilir, bu məhkumlar əmək qanunvericiliyi ilə nəzərdə tutulmuş məzuniyyətlərdən istifadə edə bilərlər. Eyni zamanda, məhkum əvvəlki iş yerindən getdikdə və heç yerdə işləmədikdə, cəzanı icra edən icra məmuru ona işə düzəlməkdə köməklik edir. Qanunvericiliyin tələbinə əsasən işsiz məhkum özü işə düzəlməli və ya icra məmurunun iştirakı ilə yaşadığı ərazinin məşğulluq xidməti orqanında qeydiyyata durmalıdır. Məhkum məşğulluq xidməti orqanının ona təklif etdiyi münasib işdən imtina edə bilməz.

Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində islah işlərinə məhkum edilən şəxsin cəza çəkdiyi müddətin məzuniyyət hüququ verən əmək stajına daxil edilməməsi ilə bağlı qadağa nəzərdə tutulmasa da, bunun əksinə olaraq Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 132-ci maddəsinin ikinci hissəsində əlavə məhdudiyyət kimi sözügedən şəxslərin cəza çəkdiyi müddətin məzuniyyət hüququ verən əmək stajına daxil edilməməsi göstərilmişdi. Yuxarıda göstərilən iki məcəllə arasında mövcud olan ziddiyyətin aradan qaldırılması məsələsinə Azərbaycan Respublikasının Konstitusya Məhkəməsinin 19 aprel 2001-ci il tarixli iclasında baxılmışdır. Qəbul edilmiş qərara əsasən Azərbaycan Respublikasının Əmək Məcələsinin sözügedən maddəsində göstə-

rilmiş azadlıqdan məhrum etmədən islah işlərinə məhkum edilmiş şəxslərin cəza çəkdiyi müddətin məzuniyyət hüququ verən əmək stajına daxil edilməməsinə dair müddəası Azərbaycan Respublikası Konstitusiyasının 37-ci maddəsinə uyğun olmadığına görə qüvvədən düşmüş hesab edilmişdir.

İslah işlərinin məhkəmələr tərəfindən Azərbaycan SSR-də tətbiqi təcrübəsinə toxunaraq qeyd etmək lazlmdır ki, sovetlər dövründə, o cümlədən siyasi repressiyalar zamanı SSR İttifaqının digər respublikalarında olduğu kimi təyin edilmiş ümumi cəzaların strukturunda onun payı azadlıqdan məhrum etmə cəzası ilə tərs mütənasib idi. Sabiq dövlətdə müxtəlif illərdə cinayətkarlığla mübarizənin gücləndirilməsi prosesində azadlıqdan məhrum etmə cəzasına üstünlük verilməsi, eyni zamanda digər cəzaların, o cümlədən islah işlərinin payının azalması ilə müşayiət olunurdu. Digər hallarda, müxtəlif səbəblərdən ölkədə həyata keçirilən humanistləşmə zamanı və azadlıqdan məhrum etmə cəzasının sayının planlı şəkildə azaldılması ilə əlaqədar islah işlərinin bir qədər artımı müşahidə edilirdi. Təhlil edilən dövrdə, məhkəmələr tərəfindən əvvəllər cüzi sayda tətbiq edilməsinə baxmayaraq, islah işləri öncül mövqedə yer alaraq, məhkumlara tətbiq edilən cəzaların birinci üçlüyünə daxil olmuşdur. İ.Stalinin hakimiyyət dövründən sonra vəziyyət bir qədər dəyişmişdir. 1960-ci illərdə və 70-ci illərin ortalarına kimi olan məhkəmə təcrübəsinin öyrənilməsi göstərdi ki, təyin edilmiş cəzaların arasında islah işlərinin payı hər il orta hesabla 16-18 % təşkil etmişdir. XX əsrin 70-80-ci illərində də islah işlərinin cəzasının tətbiqi yüksək olmuş, 24 %-dən çox olan səviyyədə qalmışdır. Əgər 1979-cu ildə islah işləri 29, 1% məhkuma tətbiq edilmişdisə, sonrakı yəni, 1981-1985-ci illərdə bir qədər azalaraq 24,2 %-dən 27,2 % kimi olmuşdur. Məhkəmələr tərəfindən islah işlərinin tətbiqindəki ən yüksək göstəricilər 1987-1988-ci ilərdə qeydə alınmış, müvafiq olaraq 30, 5% və 31,2 % təşkil etmişdir. Lakin qeyd edilməlidir ki, göstərilən iki ildə 1985-ci illə müqayisədə Azərbaycan SSR-də qeydiyyata alınmış cinayətlərin sayı müvafiq olaraq 32, 8% və 46 % azalmışdı.

XX əsrin 90-cı illərində islah işləri məhkəmələr tərəfindən

fərqli şəkildə tətbiq edilmişdir. Əgər müstəqilliyin elan edilməsinə qədər son iki ildə, yəni 1990-1991-cı illərdə islah işləri cəzası ümumi məhkum edilmiş şəxslərin 28, 8% və 27, 6%-nə tətbiq edilmişdirsə, müstəqiliyin birinci ilində, yəni 1992-ci ildə cəmi 19,1 % məhkuma təyin olunmuşdur. Məhkəmə statistikasına əsasən Azərbaycan Respublikasında 1993-2000-ci illərdə islah işləri orta hesabla 15,3 % məhkuma tətbiq edilmişdir. Aparılmış təhlillərlə müəyyən edilmişdir ki, əgər 1993-1997-ci illərdə islah işləri həmin illərdə orta hesabla 17-22 % məhkuma tətbiq edilmişdirsə, 1998-2000-ci illərdə müvafiq say iki dəfə azalaraq, 8 %-dən 10 %-dək təşkil etmişdir.

Yeni Cinayət Məcəlləsi qüvvəyə mindikdən sonra vəziyyət dəyişmişdir. Əgər 2001-2004-cü illərdə islah işlərinə orta hesabla 7-10 % şəxs məhkum edilirdisə, 2005-2016-ci illərdə bu say 13 %-dən 17 %-dək artmışdır. Ümumən, 2001-2016-ci illərdə islah işləri cəzasına 28079 şəxs məhkum edilmişdir ki, bu da ümumu məhkum edilmiş şəxslərin 13 %-ni təşkil etmişdir. 2017-ci ilin birinci yarısında da islah işlərinə tətbiq edilmiş şəxslərin sayı ümumi məhkum edilmişlərin 13 %-ni təşkil etmişdir.

İslah işləri növündə cəza çəkən böyük sayda məhkumların olduğu nəzərə alınaraq, bu kateqoriyalı məhkumların cəzadan azad edilməsi amnistiya və əfv aktlarında da nəzərdə tutulurdu. Amnistiya aktlarında islah işləri əsas yer tuturdu. Belə ki, Azərbaycan Respublikasında 2003-2016-ci illərdə qəbul edilmiş beş amnistiya aktlarında islah işləri növündə cəzadan azad edilən məhkumların sayı kifayət qədər çox olmuş və daim artmışdır. Belə ki, 2003-cu ildə amnistiyanın tətbiqi nəticəsində azad edilənlərin 7, 9%-ni (1083 məhkum), 2007-ci ildə isə 21,2 %-ni (2091 məhkum) islah işlərinə məhkum edilmiş şəxslər təşkil etmişdir. 2009-cu ildə amnistiya tətbiq olunanların 29, 8% (2853 məhkum), 2013-cü ildə isə 43,1 %-i islah işlərinə məhkum edilmiş şəxslər olmuşdur. 20 may 2016-ci il tarixli amnistiya aktı ilə islah işlərinə məhkum edilmiş 4453 şəxs cəzadan azad edilmişdir ki, bu da ümumi tətbiq edilmiş məhkumların 40,7 % deməkdir.

Amnistiyadan fərqli olaraq əfv aktları ilə islah işləri cəzasın-

dan azad edilən məhkumların sayı aşağı olmuşdur. Belə ki, Azərbaycan Respublikasının Prezidenti tərəfindən 1995-2017-ci illərdə imzalanmış 63 əfv aktı tətbiq edilmiş 6908 məhkumun yalnız 41 nəfəri islah işləri cəzasından azad edilmişdir ki, bu da ümumi əfv edilmş şəxslərin 0,6 %-ni təşkil etmişdir.

Beləliklə qeyd edilməlidir ki, Azərbaycan Respublikasında araşdırılan dövr ərzində islah işləri cəza növü kimi:

- cəza sistemində öz yerini saxlamışdır;
- ilkin vaxtlarda sinfi mənsubiyyət və törədilmiş cinayətin məqsədi nəzərə alınmaqla təyin edilmişdir;
- hərbi qulluqçulara təyin edilməmiş və yaxud bu zaman digər cəza ilə əvəz olunmuşdur;
- ardıcıl olaraq hüquqi məhdudiyyətlərin azalması ilə müşayiət edilmişdir;
- maksimal təyin edilmə müddəti bir ildən iki ilədək artırılmışdır;
- yaşdan asılı olaraq fərqli və fərdi qaydada tətbiq edilməyə başlamışdır;
- daha tez-tez tətbiq edilən, azadlıqdan məhrum etməyə real alternativ olan cəza kimi qalmaqdadır;
- Cinayət Məcəlləsinin Xüsusi Hissəsinin maddələrinin sanksiyalarında ardıcıl olaraq artmışdır;
- azadlıqdan məhrum edilmiş şəxslərin və penitensiar müəssisələrdə saxlanılan məhkumların sayının artmasına maneçilik törədir;
- cəzaların icrasının təşkilinə və cəza-icra siseminin saxlanmasına ayrılan dövlətin vəsaitinin azalmasına zəmin yaradır;
- məhkəmə təcrübəsində daha geniş tətbiq üçün yaxşı potensiala malikdır.

Bu cəza növünün icrası təcrübəsi ilə əlaqədar qeyd olunmalıdır ki, hazırda mövcud Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin müvafiq müddəalarına, habelə 29 dekabr 2011-ci il tarixli Ədliyyə Nazirliyinin Kollegiyası tərəfindən təsdiq edilmiş islah işlərinin icra mexanizmini müəyyən edən Qaydalara baxmayaraq, bir sıra nöqsanlar və həllini gözləyən məsələlər mövcuddur. Göstərilənlər Azərbaycan Respublikasının Prezidentinin 10 fevral 2017-ci il tarixli "Penitensiar sahədə fəaliyyətin təkmilləş-

dirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncamında da vurğulanmışdır.

Bu Sərəncamla cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan cəzaların icra edən orqanların fəaliyyətindəki nöqsanların aradan qaldırılması, bu sahəyə effektiv nəzarətin təşkili və idarəetmənin səmərəliliyinin artırılması məqsədilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin strukturunda Probasiya Xidməti yaradılmışdır. Bu yeni qurum dıgər müvafiq cəzalarla yanaşı islah işlərinin icrasını təşkil etməlidir.

Yuxarıda göstərilənləri nəzərə alaraq, islah işləri institutunun təkmilləşdirilməsi, onun məhkəmələr tərəfindən daha geniş tətbiqinin təmin edilməsi, bu cəza növünün sərtliyinin və səmərəliyinin artırılması, habelə bilavasitə onun icrası prosesində qarşıya çıxan problemlərin həlli məqsədilə aşagıda göstərilənləri təklif edirik:

- Cinayət Məcəlləsinin Xüsusi Hissəsində böyük ictimai təhlükə törətməyən, az ağır, habelə bir sıra ağır cinayətlərə görə məsuliyyəti nəzərdə tutan sanksiyalarda onun sayını artırmaq;
- islah işlərinin cəzanı icra edən orqanın müəyyən etdiyi digər yerlərdə çəkilməsini də nəzərdə tutmaq;
- bu cəzanın birinci və ikinci qrup əlilliyi olan, pensiya yaşına çatmış şəxslərə, hamilə, habelə üç yaşına qədər uşağı olan qadınlara, habelə müddətli həqiqi hərbi qulluq keçən şəxslərə tətbiqinə qadağa qoymaq;
- qazancdan tutulmaları yetkinlik yaşına çatmayanlar barədə on faizə kimi azaltmaq, digər şəxslərə münasibətdə isə otuz faizə kimi artırmaq;
- məhkumun maddi və ailə vəziyyətinin ağırlaşması ilə əlaqədar qazancdan tutulma faizinin aşağı salınması üzrə cəza çəkən şəxsin özünə və cəzanı icra edən orqana bu barədə məhkəməyə müraciət etmək hüququ vermək;
- cəzanın çəkilməsindən qəsdən boyun qaçırılması zamanı islah işlərinin azadlıqdan məhrum etmə ilə əvəz edilməsindən imtina etmək, onu digər alternativ cəza ilə dəyişdirilməsini nəzərdə tutmaq;

- məhkumun fərdi əməklə, habelə müxtəlif sahələrdə xidmət göstərilməsi ilə məşgul olduğu zaman onun qazancından tutulmaların aparılması mexanizmini müəyyən etmək;

- Cəzaların İcrası Məcəlləsində bu cəzanın icrasına nəzarəti həyata keçirən icra məmurunun hüquqlarını, ona cəzadan yayınan, yeri məlum olmayan məhkumun müvafiq olaraq məcburi gətirilməsi və ya axtarış elan edilməsi barədə müvafiq qərar qəbul etmək səahiyyətləri verməklə genişləndirmək;

- məşgulluq mərkəzi tərəfindən məhkumun islə təmin edilməsi ilə bağlı konkert müddət nəzərdə tutmaq;

- bu cəzanın əcnəbilər, habelə vətəndaşlığı olmayan şəxslər barədə, o cümlədən onların daimi ödənişli iş yeri olmadığı hallarla bağlı icrası qaydasını dəqiqləşdirmək.

Sonluqda qeyd etmək istərdik ki, təklif edilən yeniliklərin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının Cinayət, Cinayət-Prossesual, Cəzaların İcrası məcəllələrinə, habelə bir sıra dgər qanunvericilik aktlarına dəyişikliklər etmək zəruridir.

***İstinad edilmiş mənbə:***

***"Cinayət, cəza, islah" III Beynəlxalq Penitensiar Forum iştirakçılarının çıxış və məruzələrinin toplusu (rus dilində). Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası, Ryazan, 2017. Tom 1, Səh. 103–113.***

## Azərbaycan Respublikasında hərbi xidmət üzrə məhdudlaşdırma və intizam xarakterli hərbi hissədə saxlama növündə cəzalar və onların icrası

2000-ci il 01 sentyabrından qüvvəyə minmiş Azərbaycan Respublikasının yeni Cinayət Məcəlləsində digər cəzalarla yanaşı yalnız hərbi qulluqçulara tətbiq edilən iki xüsusi cəza növü də nəzərdə tutulmuşdur. Cinayət Məcəlləsinin 43-cü maddəsinə əsasən bu cəzalar, yəni hərbi xidmət üzrə məhdudlaşdırma və intizam xarakterli hərbi hissədə saxlama yalnız əsas cəzalar kimi tətbiq edilib bilər. Göstərilən cəzalar Cinayət Məcəlləsinin hərbi xidmət əleyhinə cinayətlərə görə məsuliyyəti nəzərdə tutan 26 maddəsinin 62 tərkibinin sanksiyalarına daxil edilmişdir. Ötən müddət ərzində Cinayət Məcəlləsinin digər bölmələrindən fərqli olaraq hərbi xidmət əleyhinə cinayətlərə görə bölməsində dəyişikliklər edilməmişdir.

Təhlil göstərdi ki, hərbi xidmət əleyhinə cinayətlərin payı Azərbaycan Respublikasında qeydə alınan cinayətkarlığın strukturunda cüzidir və onlar azalmağa meyillidir. Göstərilənlər məhkəmələr tərəfindən hərbi qulluqçularla əlaqədar baxılmış cinayət işlərinin sayına da aiddir. Belə ki, 2016-cı ildə 2001-ci illə müqayisədə hərbi məhkəmələr tərəfindən baxılmış aidiyyəti cinayət işlərinin sayı 3,2 dəfə, 2010-cu illə müqayisədə isə 1,8 dəfə azalmışdır. Qeyd olunan dövrlərdə məhkum edilmiş hərbi qulluqçuların sayı da müvafiq olaraq 2,8 və 1,9 dəfə azalmışdır. Qeyd olunanlar ilk növbədə Azərbaycan Respublikasının Silahlı Qüvvələrində hərbi nizam-intizamın gücləndirilməsi və hərbi xidmət keçən hərbi qulluqçular üçün normal şəraitin yaradılması ilə bağlıdır. Qeyd etmək lazımdır ki, belə vəziyyət ölkənin qanuni ərazisinin bir hissəsinin zəbt olunması ilə bağlı qonşu dövlətlə müharibə şəraitində mövcud olmuşdur.

Əgər intizam xarakterli hərbi hissədə saxlama növündə cəza bu və ya digər şəkildə Azərbaycan SSR-nin 1922, 1927 və 1960-cı illərin Cinayət məcəllələrində nəzərdə tutulmuşdursa, hərbi xidmət üzrə məhdudlaşdırma cəzası isə cinayət-hüquqi xarakterli ye-

ni tədbirdir. Cinayət Məcəlləsinin 50-ci maddəsinə əsasən hərbi xidmət üzrə məhdudlaşdırma kontrakt (bağlaşma) əsasında hərbi xidmət keçən və hərbi xidmət əleyhinə cinayət törətməyə görə məhkum olunmuş hərbi qulluqçulara həmin Məcəllənin Xüsusi Hissəsinin müvafiq maddələrində nəzərdə tutulmuş hallarda, habelə kontrakt (bağlaşma) əsasında hərbi xidmət keçən və başqa cinayət törətməyə görə məhkum olunmuş hərbi qulluqçulara həmin Məcəllənin Xüsusi Hissəsinin müvafiq maddələrində nəzərdə tutulmuş islah işləri əvəzinə iki aydan iki ilədək müddətə tətbiq edilir.

Hərbi xidmət üzrə məhdudlaşdırma cəzasına məhkum olunmuş şəxsin aylıq pul təminatından dövlət nəfinə beş faizdən iyirmi faizədək məbləğdə pul tutulur. Cinayət qanunvericiliyinə əsasən hərbi xidmət üzrə məhdudlaşdırma cəzasına məhkum olunmuş şəxs cəzasını çəkdiyi müddətdə vəzifəsində və ya rütbəsində yüksələ bilməz, cəzanın müddəti isə növbəti hərbi rütbənin verilməsi üçün xidmət illərinə hesablanmır.

Təhlillə müəyyən edilmişdir ki, hərbi xidmət üzrə məhdudlaşdırma cəzası 1999-ci tarixli Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin XII bölməsindəki 18 maddənin 19 tərkibində nəzərdə tutulmuşdur. Cinayət Məcəlləsinin Xüsusi Hissəsindəki 12 tərkibdə hərbi xidmət üzrə məhdudlaşdırma böyük ictimai təhlükə törətməyən, 7 tərkibdə isə, az ağır cinayətlərə görə tətbiq edilə bilər.

Hərbi xidmət üzrə məhdudlaşdırma növündə cəza məhkəmə təcrübəsində çox az hallarda tətbiq edilir. Belə ki, 2001-2004-cü illərdə bu cəza ümumən cəmi 79 hərbi qulluqçuya tətbiq edilmişdir. 2011-2012-ci illərdə hərbi xidmət üzrə məhdudlaşdırma yalnız iki məhkuma təyin olunmuşdur. 2005-2010-cu illərdə və 2013-cü ildən sonra bu cəza növü məhkəmələr tərəfindən, ümumiyyətlə tətbiq edilməmişdir. Beləliklə, on altı il ərzində, yəni 2000-2016-ci illərdə hərbi xidmət üzrə məhdudlaşdırma cəzası cəmi 81 nəfərə təyin edilmişdir ki, bu da qeyd olunan dövrdə respublikanın məhkəmələri tərəfindən məhkum olunmuş bütün şəxslərin cəmi 0,04 %-ni təşkil edir. Fikrimizcə, belə vəziyyət ilk növbədə həmin cəza növü-

nün hakimlər tərəfindən o qədər də ciddi qəbul edilməməsi, yəni həmin cəzanın məhkum olunmuş hərbi qulluqçular üçün əhəmiyyətli dərəcədə məhdudiyyətlər yaratmayan cinayət-hüquqi xarakterli tədbir kimi qiymətləndirilməsi ilə əlaqədardır.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 54-cü maddəsinə əsasən cinayət törətməkdə təqsirli bilinən hərbi xidmətə çağırış üzrə müddətli həqiqi hərbi xidmətdə olan hərbi qulluqçulara, habelə kontrakt (bağlaşma) əsasında sıravi və gizir vəzifələrində hərbi xidmətdə olan hərbi qulluqçulara, əgər onlar hökm çıxarılanadək qanunla müəyyən edilmiş xidmət müddətini başa vurmamışlarsa, üç aydan iki ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama növündə cəza təyin edilə bilər. Həmin cəza hərbi xidmət əleyhinə törədilmiş cinayətlərə görə Cinayət Məcəlləsinin Xüsusi Hissəsinin müvafiq maddələrində nəzərdə tutulmuş hallarda, habelə təqsirkarın şəxsiyyəti və cinayətin xarakteri iki ilədək müddətə azadlıqdan məhrum etmənin həmin müddətə intizam xarakterli hərbi hissədə saxlama ilə əvəz olunmasına imkan verdiyi hallarda tətbiq edilir. Bu zaman azadlıqdan məhrum etmə cəzası intizam xarakterli hərbi hissədə saxlama cəzası ilə əvəz edildikdə, azadlıqdan məhrum etmə cəzasının müddəti intizam xarakterli hərbi hissədə saxlama cəzasının müddətinə günə gün kimi hesablanır.

Aparılmış təhlil göstərdi ki, intizam xarakterli hərbi hissədə saxlama Cinayət Məcəlləsinin Xüsusi Hissəsinin 17 maddəsinin 19 tərkibində nəzərdə tutulmuşdur. Onlardan intizam xarakterli hərbi hissədə saxlama Cinayət Məcəlləsinin müvafiq maddələrinin 13 tərkibində böyük ictimai təhlükə törətməyən, 6 tərkibdə isə, az ağır cinayətlərə görə tətbiq oluna bilər.

Hərbi xidmət üzrə məhdudlaşdırma növündə cəzadan fərqli olaraq, intizam xarakterli hərbi hissədə saxlama 2001-2016-ci illərdə məhkəmələr tərəfindən müntəzəm olaraq tətbiq edilmiş və qeyd olunan dövrdəki illərdə orta hesabla ümumi məhkum olunanların 1,7 %-ni təşkil etmişdir. Əgər 2001-2009-cu illərdə, 2002 və 2004-cü illər istisna olmaqla, müəyyən artım olsa da, 2010-cu ildən başlayaraq burada azalma müşahidə edilməkdədir.

İntizam xarakterli hərbi hissədə cəzanın çəkildiyi müddətin hesablanmasına gəldikdə, qeyd olunmalıdır ki, Azərbaycan Respublikasının Cəzaların İcrası Məsələsinin 153-cü maddəsinə əsasən məhkumun göstərilən hərbi hissədə cəza çəkdiyi vaxt onun müddətli həqiqi hərbi xidmət müddətinə hesablanmır.

Araşdırmalar göstərdi ki, hərbi xidmət əleyhinə cinayət törətmiş hərbi qulluqçuların bir hissəsi respublika məhkəmələri tərəfindən azadlıqdan məhrum etməyə də məhkum olunmuşlar. Lakin qeyd edilməlidir ki, onların sayı çox azdır. Belə ki, 01 yanvar 2019-cu il tarixinə cəzaçəkmə müəssisələrində belə 218 məhkum saxlanılırdı. Fikirləşirik ki, belə kateqoriyalı məhkumların sayını onlara cəzanın icrasının təxirə salınması imkanı verilməklə azaltmaq olardı.

Yuxarıda göstərilənləri əsaslanaraq aşağıdakı nəticələrə gələ bilərik. Təhlil aparılan dövrdə hərbi xidmət üzrə məhdudlaşdırma və intizam xarakterli hərbi hissədə saxlama:

- üzərlərinə qoyulmuş vəzifələri uğurla yetirməklə, cinayət cəzaları sistemində öz yerlərini saxlamışlar;
- onların tətbiqi təcrübəsi ilkin olaraq ardıcıl olaraq artsa da, lakin sonradan bir sıra səbəblərə görə azalmışdır;
- hər iki cəza hərbi qulluqçular üçün azadlıqdan məhrum etməyə alternativ olmaqla, son nəticədə cəzaçəkmə müəssisələrində saxlanılan şəxslərin sayının artmasının qarşısını alır;
- geniş tətbiq üçün yaxşı potensiala malikdir.

Eyni zamanda, hər iki cəza ilə bağlı müəyyən problemlərin olduğunu da qeyd etmək istərdik. Belə ki, Cinayət Məcəlləsinin 50-ci və 54-cü maddələrində həmin cəzalardan yayınmanın nəticələri, yəni məsuliyyət məsələləri öz əksini tapmamışdır. Yuxarıda göstərilənlərə istinadən, hərbi xidmət üzrə məhdudlaşdırma və intizam xarakterli hərbi hissədə saxlama institutlarının təyini və icrasının təkmilləşdirilməsi, onların humanistləşdirilməsi, məhkəmələr tərəfindən bu cəza növlərinin tətbiqinin genişləndirilməsi və təcrübədə rastlaşılan məsələlərin həlli məqsədilə təklif edirik:

- Cinayət Məcəlləsinin hərbi xidmət əleyhinə cinayətlərə görə məsuliyyəti nəzərdə tutan XXII bölməsindəki maddələrin sanksi-

yalarında, habelə bir sıra ağır cinayətlərə görə sanksiyalarda onların sayını artırmaq;

- Cinayət Məcəlləsinin 50-ci və 54-cü maddələrinə müvafiq cəzalardan yayınmanın nəticələri, onların digər cəzalarla, habelə islah işləri və ya azadlıqdan məhrum etmə ilə əvəz edilməsi ilə bağlı müddəaları əlavə etmək;

- məhkumun cəzanın icrası zamanı nümunəvi davranışı və hərbi nizamnamələrin tələblərinə riayət etməsi nəzərə alınmaqla, hərbi hissə komandirinin təqdimatına və məhkəmənin qərarına əsasən cəzanın çəkilmə vaxtının həqiqi hərbi xidmətdə olma müddətinə hesablanması ilə bağlı Azərbaycan Respublikasının Cəzaların İcrası Məsəlləsinin 153-cü maddəsinə müvafiq dəyişiklik etmək.

Tərəfimizdən verilən təkliflər Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncamına uyğundur. Belə ki, həmin sənəddə ölkə başçısı tərəfindən Cinayət Məcəlləsinə dəyişikliklər, o cümlədən, həmin məcəllənin Xüsusi Hissəsinin maddələrinə azadlıqdan məhrum etməyə alternativlərin daxil edilməsi və onların tətbiqinin əsaslarının artırılması ilə əlaqədar Ədliyyə Nazirliyinə, Baş Prokurorluğa tapşırıqlar, Ali Məhkəməyə isə tövsiyələr verilmişdir. Bu konteksdə tərəfimizdən verilmiş təkliflərin qəbulu və bununla əlaqədar Azərbaycan Respublikasının Cinayət, Cinayət-Prossesual və Cəzaların İcrası məcəllərinə dəyişikliklər edilməsi məsələsinə baxıla bilərdi.

***İstinad edilmiş mənbə:***

***"Cəza-icra hüququ" elmi jurnal (rus dilində). Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası, Ryazan, 2017. Tom 12 (1–4), № 2, Səh. 206–209.***

## Azərbaycan Respublikasında azadlığın məhdudlaşdırılması növündə cəza

Azadlığın məhdudlaşdırılması cəza sistemində yenidir və buna görə də böyük tarixə malik deyildir. Sabiq SSRİ-də azadlığın məhdudlaşdırılması ilk dəfə həmin dövlətin Ali Soveti tərəfindən 02 iyul 1991-ci il tarixdə qəbul edilmiş "SSRİ və müttəfiq respublikaların cinayət qanunvericiliyinin Əsasları"na daxil edilmişdir. Həmin Əsasların 33-cü maddəsinə əsasən azadlığın məhdudlaşdırılması cəzanı icra edən orqan tərəfindən müəyyən olunmuş yerlərdə məhkumun məcburi əməyə cəlb edilməklə üzərində nəzarətin həyata keçirilməsindən ibarət idi. Həmin Əsaslara görə bu cəza dörd ildən çox olmayan müddətə təyin edilə bilərdi, azadlığın məhdudlaşdırılması təyin edilməyən şəxslərin dairəsi ittifaqa daxil olan respublikalarının Cinayət məcəllələri ilə müəyyən olunmalı idi.

Beynəlxalq aktlarda azadlığın məhdudlaşdırılmasının azadlqdan məhrum etməyə alternativ cəzalardan biri kimi qeyd olunmamasına baxmayaraq, həmin aktlar, xüsusilə BMT-nin 14 dekabr 1990-ci il tarixli "Həbslə bağlı olmayan tədbirlərlə əlaqədar minimal standart Qaydaları"nın (Tokio qaydaları) 8.2-ci maddəsi, cəza təyin zamanı istənilən digər sanksiyaların, yəni həbslə bağlı olmayan cinayət-hüquqi xarakterli tədbirlərin tətbiqini tövsiyə edir.

SSRİ süqut etdikdən sonra onun tərkibinə daxil olan bir neçə ölkə, yəni Ukrayna, Belarus, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan azadlığın məhdudlaşdırılmasını özlərinin yeni Cinayət məcəllələrində cəza sisteminə daxil etmişlər. Həmin cəza Rusiya Federasiyasının 1996-ci il tarixli Cinayət Məcəlləsinə, sonradan Müstəqil Dövlətlər Birliyinin Parlamentlərarası Assambleyasının qərarı ilə 17 fevral 1996-ci il tarixdə qəbul olunmuş və MDB-nin iştirakçı dövlətləri üçün nəzərdə tutulmuş Cinayət Məcəlləsinin model layihəsinə də daxil edilmişdir. Cinayət Məcəlləsinin həmin model layihəsi nəzərə alınmaqla, azadlığın məhdudlaşdırılması Azərbaycan Respublikasının 30 dekabr 1999-cu il tarixli Cinayət Məcəlləsinə də daxil edilmişdir. Azadlığın

məhdudlaşdırılması cəza sistemindəki on üç cəza sırasında onuncu yerdə olmaqla, intizam xarakterli hərbi hissədə saxlama, müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə cəzalarından əvvəldə yerləşmişdir. Beləliklə, azadlığın məhdudlaşdırılması cəza sistemindəki yerinə, habelə yaratdığı hüquq məhdudiyyətlərinə görə məhkumun cəmiyyətdən təcrid edilməsi ilə bağlı olmayan cəzalar arasında ən ciddi cəza olmuşdur.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 53-cü maddəsinə əsasən azadlığın məhdudlaşdırılması ittiham hökmü çıxarılanadək on səkkiz yaşı tamam olmuş məhkumların cəmiyyətdən təcrid olunmadan, lakin nəzarət altında xüsusi müəssisələrdə saxlanılmasından ibarət olmuşdur. Əsas cəza növü kimi azadlığın məhdudlaşdırılması məhkumluğu olmayan və qəsdən cinayət törətməyə görə məhkum edilən şəxslərə bir ildən üç ilədək müddətə, ehtiyatsızlıqdan cinayət törətməyə görə məhkum edilən şəxslərə isə, bir ildən beş ilədək müddətə təyin edilə bilərdi. Bu cəza ictimai işlər və ya islah işləri ilə əvəz edildikdə bir ildən az müddətə də təyin oluna bilərdi.

Azadlığın məhdudlaşdırılması yetkinlik yaşına çatmayan şəxslərdən əlavə, birinci və ikinci qrup əlillərə, hamilə qadınlara və ya səkkiz yaşınadək uşağı olan qadınlara, qocalığa görə pensiya yaşına çatmış qadın və kişilərə, habelə müddətli həqiqi hərbi xidmətdə olan hərbi qulluqçulara təyin oluna bilməzdi. Sonradan Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə 01 oktyabr 2007-ci il tarixli Qanunla edilmiş dəyişiklərdən sonra göstərilən siyahıya səkkiz yaşına çatmamış uşağını təkbaşına böyüdən kişilər də əlavə edilmişdir.

Məhkum cəzanın icrasından qərəzli boyun qaçırdığı halda, azadlığın məhdudlaşdırılması azadlıqdan məhrum etmə cəzası ilə əvəz oluna bilərdi. Bu zaman azadlığın məhdudlaşdırılması cəzasının müddəti azadlıqdan məhrum etmə cəzasının müddətinə günə gün hesabı ilə hesablanırdı. Qanunun bu müddəası Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin 17 mart 2011-ci il

tarixli "Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 53.4-cü maddəsinin və Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin 112.1-ci maddəsinin şərh edilməsinə dair" Plenumun Qərarının birinci bəndində də bir daha qeyd edilmişdir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin ilkin redaksiyasında azadlığın məhdudlaşdırılması Xüsusi Hissənin 253 maddəsinin 61 maddəsinin 71 tərkibində (sanksiyasında) nəzərdə tutulmuşdu. Təhlil göstərdi ki, azadlığın məhdudlaşdırılması növündə cəza Cinayət Məcəlləsində sülh və insanlıq əleyhinə olan cinayətlərə görə məsuliyyəti müəyyən edən 13 cinayətdən birində, həyat və sağlamlıq əleyhinə olan cinayətlərə görə məsuliyyəti müəyyən edən 69 maddənin 11-də, şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətlərə görə məsuliyyəti müəyyən edən 5 maddənin birində, şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə əməllərə görə məsuliyyəti müəyyən edən 5 maddənin ikisində, insan və vətəndaşın konstitusiya hüquq və azadlıqları əleyhinə olan cinayətlərə görə məsuliyyəti müəyyən edən 16 maddənin 2-də, mülkiyyət əleyhinə olan cinayətlərə görə məsuliyyəti müəyyən edən 13 maddənin ikisində, iqtisadi fəaliyyət sahədə olan cinayətlərə görə məsuliyyəti müəyyənləşdirən 24 maddədən 14-də, ictimai təhlükəsizlik və ictimai qayda əleyhinə olan cinayətlərə görə məsuliyyəti müəyyən edən 24 maddədən altısında, ekoloji cinayətlərə görə məsuliyyəti müəyyən edən 15 maddənin dördündə, hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə görə məsuliyyəti müəyyən edən 9 maddənin səkkizində nəzərdə tutulmuşdur. Azadlığın məhdudlaşdırılması cəzası Cinayət Məcəlləsinin Xüsusi Hissəsinin 48 tərkibində böyük ictimai təhlükə törətməyən, 23 tərkibdə isə az ağır cinayətlərə görə təyin edilə bilərdi. Bu cəza növü 5 cinayət əməlinə görə bir ilədək, 37 ictimai təhlükəli əmələ görə iki ilədək, 29 əmələ görə isə, üç ilədək təyin edilə bilərdi. Qeyd etmək lazımdır ki, sonrakı illərdə respublikanın Cinayət Məcəlləsinin sanksiyalarında azadlığın məhdudlaşdırılması cəzasının tədricən artımı tendensiyası müşahidə edilmişdir.

Azadlığın məhdudlaşdırılmasının məhkəmələr tərəfindən tətbiqinin təhlili göstərdi ki, yeni Cinayət Məcəlləsi qüvvəyə mindikdən sonrakı ilk dövrdə, yəni 2000-ci ilin sentyabr-dekabr aylarında bu cəza cəmi 133 məhkuma təyin edilmişdir. Sonrakı illərdə, yəni 2001-2007-ci illərdə azadlığın məhdudlaşdırılması tədricən artmağa başlamışdır. Həmin illərdə azadlığın məhdudlaşdırılması hər il 528-dən başlayraq 1097 məhkuma təyin edilmişdir ki, bu say məhkəmələr tərəfindən ümumiyyətlə məhkum edilmiş şəxslərin 3,8 %-dən 7,8 %-ni təşkil edirdi. 2008-2010-cu illərdə azadlığın məhdudlaşdırılması növündə cəzanın tətbiqi 6,4 %-dən 5,8 %-dək azalmağa başlamışdır. İlkin on il, yəni 2001-2010-cu illərdə azadlığın məhdudlaşdırılmasının tətbiqi ümumi məhkum edilmiş şəxslərin 5,9 %-ni təşkil etmişdir. 2011-ci ilin may ayının sonuna isə, yəni cəza ləğv edilənə kimi azadlığın məhdudlaşdırılması 410 məhkuma təyin olunmuşdu. Beləliklə, bu cəza növü qüvvədə olduğu 2000-2011-ci illərdə azadlığın məhdudlaşdırılması məhkəmələr tərəfindən cəmi 8865 məhkuma təyin edilmişdir.

Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin 15-ci maddəsinə əsasən azadlığın məhdudlaşdırılması növündə cəza xüsusi müəssisələr tərəfindən icra edilirdi. Bu cəzanın icrasının təşkili məqsədilə respublikanın regionlarındakı əməyə mütləq cəlb edilməklə azadlıqdan məhrum etməyə şərti məhkum edilmiş, azadlıqdan məhrum etmə yerlərindən əməyə mütləq cəlb edilməklə şərti azad edilmiş məhkumların cəzalarının icrası yeri olan sabiq xüsusi komendantlıqların bazasında 14 xüsusi müəssisə yaradılmışdır. Azadlığın məhdudlaşdırılması cəzasının icrası qaydası və şərtləri kifayət qədər sərt olmaqla, Azərbaycan Respublikasının 1960-cı il tarixli Cinayət Məcəlləsinin 23-1 və 53-1-ci maddələrində təsbit edilən və yuxarıda göstərilən institutların icrası qaydası ilə oxşarlıq təşkil edirdi. Azadlığın məhdudlaşdırılmasına məhkum edilmiş şəxslər xüsusi müəssisənin yataqxanasında yaşamaqla kommunal-məişət xərclərini ödəməli, öz hesablarına qidalanmalı və geyim əldə etməli, xüsusi müəssisənin yerləşdiyi inzibati ərazi hüdudlarında işləməli, iş vaxtından əlavə həftədə iki sa-

atdan artıq olmayaraq növbə ilə ödənişsiz qaydada həmin müəssisədə abadlaşdırma işlərində iştirak etməli idilər. Onlara müdiriyyətin razılığı olmadan xüsusi müəssisənin ərazisini tərk etməyə, Ədliyyə Nazirliyinin 05 fevral 2004-cü il tarixli əmri ilə təsdiq edilmiş Xüsusi müəssisələrin Daxili İntizam Qaydaları ilə qadağan edilmiş əşyaları, malları almağa, saxlamağa və habelə onların istifadəsinə icazə verilmirdi. Məhkumlara, onların saxlandığı yerlərə baxış keçirilə və əşyaları yoxlanıla bilərdi.

Məhkəmələr Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 77-ci maddəsinə uyğun olaraq böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə azadlıqdan məhrum edilmiş şəxslərin çəkilməmiş cəza müddətini daha yüngül cəza növü ilə əvəz etdikdə, bir qayda olaraq azadlığın məhdudlaşdırılmasını təyin edirdilər. Bununla bağlı xüsusi müəssisələrdə cəza çəkən məhkumların sayı 2003 və 2007-ci illərdəki amnistiya aktlarının tətbiqinə baxmayaraq, hər il artırdı və 2009-cu ilin 01 yanvar tarixinə bu say 1902 nəfər təşkil edirdi.

Amnistiya aktları ilə əlaqədar qeyd edilməlidir ki, burada digər cəzalarla yanaşı azadlığın məhdudlaşdırılmasına da yer verilmişdi. Belə ki, 2000-2011-ci illərdə Azərbaycan Respublikasında qəbul edilmiş dörd amnistiya aktında azadlığın məhdudlaşdırılması cəzasından azad edilmə imkanları da nəzərdə tutulmuş və onların sayı tədricən artırdı. Bu da öz növbəsində xüsusi müəssisələrin qeydiyyatında olan məhkumların sayı ilə izah edilə bilər. Əgər, 2001-ci il amnistiyasının icrası prosesində azadlığın məhdudlaşdırılması cəzasından azad edilmiş məhkumlar ümümi sayın cəmi 0,4 %-ni (29 məhkum) təşkli edirdisə, 2003-cu ildə bu rəqəm 9,9 % (776), 2007-ci ildə 15,0 % (1480), 2009-cu ildə isə 16,7 % (1594) olmuşdur.

2006-ci ildən başlayaraq əfvetmə aktlarına digər məhkumlarla yanaşı azadlığın məhdudlaşdırılmasına məhkum edilmiş şəxslər da daxil edilmişlər. Azərbaycan Respublikası Prezidentinin 2006-2010-cu və 2011-ci ilin birinci yarısında imzaladığı 10 əfv aktı ilə azadlığın məhdudlaşdırılması cəzasını çəkən 75 məhkum cəzadan

azad edilmişdir ki, bu da göstərilən müddətdə ümumi əfv edilənlərin 8,1 %-ni təşkil edir.

Yuxarıda göstərilənlərə baxmayaraq, Azərbaycan Respublikasının 31 may 2011-ci il tarixli Qanunu ilə Cinayət Məcəlləsinə dəyişikliklər edilmiş və azadlığın məhdudlaşdırılması cəza sistemindən çıxarılmışdır. Fikrmizcə, bu qərar azadlığın məhdudlaşdırılmasına məhkum edilmiş şəxslərin daimi yaşayış yerlərindən kənarda cəza çəkməsi ilə bağlı onların ictimai faydalı əməyə cəlb edilməsində müşahidə edilən, habelə onların maliyyə durumuna, habelə cəzanın icrası prosesinə mənfi təsir göstərən digər çətinliklərlə əlaqədar olmuşdur. Qeyd olunan dəyşikliklərə əsasən azadlığın məhdudlaşdırılması Cinayət Məcəlləsinin 69 maddəsinin 83 sanksiyasından çıxarılmış, cərimə, ictimai işlər, islah işləri və azadlıqdan məhrum etmə növündə cəzalarla əvəz edilmişdir. Sözügedən qanunun keçid müddəalarına uyğun olaraq həmin vaxt azadlığın məhdudlaşdırılması cəzasını çəkən 1859 məhkumun cəzası məhkəmə qərarlarına əsasən cəzanın çəkilməmiş hissəsindən asılı olaraq cərimə və islah işləri ilə əvəz edilmişdir. Azərbaycan Respublikasının 31 may 2011-ci il tarixli digər qanunu ilə Cəzaların İcrası Məcəlləsindən azadlığın məhdudlaşdırılması cəzasının icrası və çəkilməsi qaydalarını tənzimləyən VII fəsil və 52-64-cü maddələr çıxarılmışdır.

Qeyd edilməlidir ki, azadlığın məhdudlaşdırılması növündə cəza Azərbaycan Respublikasında daha tez-tez tətbiq edilən cəzaların birinci üçlüyündə yer almasa da, o azadlıqdan məhrum etmə cəzasına real alternativ olmaqla, cəzaçəkmə müəssisələrində məhkumların sayının artmamasına imkan yaradırdı. Yuxarıdakılara istinadən aşağıdakı nəticələri qeyd edə bilərik. Tədqiqat aparılan müddətdə, yəni 2000-2011-ci illərdə, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 53-cü maddəsində nəzərdə tutulmuş azadlığın məhdudlaşdırılması bir cəza növü kimi:

- Cinayət Məcəlləsinin Xüsusi Hissəsinin sanksiyalarında ardıcıl olaraq artmışdır;
- məhkəmələr tərəfindən daim tətbiq edilərək, ilk illərdə artım

müşahidə olunsa da, lakin sonradan, yəni 2007-ci ildən azalmağa başlamışdır;

- tətbiq edilməyən şəxslərin dairəsi genişləndirilmişdir;
- azadlıqdan məhrum etmə cəzasına real alternativ olmaqla cəzaçəkmə müəssisələrində məhkumların sayının artmasına manelər yaratmışdır;
- cəzaçəkmə müəssisələrinin saxlanmasına ayrılan dövlət vəsaitinə qənaət etməyə köməklik göstərmişdir.

Qeyd olunmalıdır ki, azadlığın məhdudlaşdırılmasının cəza sistemindən çıxarılmasından sonra Azərbaycan Respublikasının məhkəmələri tərəfindən təyin edilən cəzalar arasında azadlıqdan məhrum etmə növündə cəzanın sayı hər il artmağa başladı. Belə ki, əgər 2011-ci ildə azadlıqdan məhrum etmə növündə cəzasının tətbiqi ölkədə 46,2 % təşkil edirdisə, 2012-ci ildə bu rəqəm 50,5 %, 2013-cü ildə 53,4 %, 2015-ci ildə isə 58,3 % olmuşdur. 2016-2017-ci illərdə azadlıqdan məhrum etmə növündə cəzanın tətbiqi 50 % çox olan səviyyədə qalmışdır. Azadlıqdan məhrum etmə cəzasının daha tez-tez tətbiqi və illərcə artımı məhkumların sayının çoxalmasına və cəzaçəkmə müəssisələrinin yüklənməsinə gətirib çıxartmışdır.

Yaranmış vəziyyəti nəzərə almaqla, məhkəmə-hüquq sahəsində dövlət idarəçilik sisteminin müasirləşdirilməsi, dövlətin cəzaların icrası ilə bağlı fəaliyyətinin müasir dövrün tələblərinə uyğun qurulması, cəzanı icra edən orqan və müəssisələrdə mövcud olan nöqsanların aradan qaldırılması, onların fəaliyyətinin səmərəli təşkili, cinayət təqibi və cəzaların icrası sahəsində korrupsiyanı istisna edən şəraitin tam təmin olunması, müasir texnoloji vasitələrin tətbiq edilməsi, habelə cəza siyasətinin humanistləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti 10 fevral 2017-ci il tarixli “Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə” Sərəncam imzalamışdır. Eyni zamanda, cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan cəzaların icrasına effektiv nəzarətin təşkil edilməsi və bu

sahədə idarəetmənin səmərəliliyinin artırılması məqsədilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya Xidməti yaradılmışdır.

Ölkə başçısının ölkədə cəza siyasətinin humanistləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Ali Məhkəməsinə, Baş Prokurorluğuna və Ədliyyə Nazirliyinə verdiyi tövsiyə və tapşırılara əsasən bu orqanlar tərəfindən qısa müddətdə cinayətlərin sanksiyalarına azadlıqdan məhrum etməyə alternativ cəzaların əlavə olunması və mövcud alternativ cəzaların tətbiqi əsaslarının təkmilləşdirilməsi, cinayətlərin, xüsusilə iqtisadi fəaliyyət sahəsində cinayətlərin dekriminallaşdırılması ilə bağlı qanun layihələri hazırlanmışdır. Milli Məclis tərəfindən qəbul edilmiş 20 oktyabr və 01 dekabr 2017-ci il tarixli qanunlarla Azərbaycan Respublikasının Cinayət, Cinayət-Prosessual və Cəzaların İcrası məcəllələrinə çoxsaylı dəyişikliklər edilmişdir. Cinayət Məcəlləsindəki yeniliklərdən biri azadlığın məhdudlaşdırılmasının yeni məzmunda cəza sisteminə qaytarılması ilə bağlıdır. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin yeni 52-1-ci maddəsinə əsasən, azadlığın məhdudlaşdırılması cəzası, məhkumun cəmiyyətdən tam təcrid olunmadan yaşayış yeri üzrə nəzarət altında saxlanılmasından ibarətdir. Bu zaman məhkəmə azadlığın məhdudlaşdırılması cəzası təyin edilmiş məhkumun yaşayış yerini (tamamilə və ya günün müəyyən vaxtlarında) və müəyyən ərazi hüdudlarını tərk etməsinə məhdudiyyət qoyur. Cinayət Məcəlləsinə uyğun olaraq azadlığın məhdudlaşdırılması altı aydan beş ilədək, yetkinlik yaşına çatmayan şəxslərə isə iki aydan iki ilədək müddətə təyin edilə bilər. Bu cəza növü hərbi qulluqçulara, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə, habelə Azərbaycan Respublikası ərazisində daimi yaşayış yeri olmayan şəxslərə təyin edilmir.

Azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş şəxs aşağıdakı vəzifələri yerinə yetirməlidir:

- yaşayış yerini tamamilə və ya günün müəyyən vaxtlarında tərk etməmək;
- elektron nəzarət vasitəsini gəzdirmək və həmin vasitənin iş-

lək vəziyyətdə saxlanılması üçün ona xidmət etmək;

- məhkəmənin müəyyən etdiyi ərazi hüdudlarını tərk etməmək;
- müvafiq məhkəmə qərarı olmadan yaşayış yerini dəyişdirməmək, habelə cəzanın icrasına nəzarət edən orqanı iş və ya təhsil yerinin dəyişdirilməsi barədə əvvəlcədən məlumatlandırmaq.

Göstərilən vəzifələrdən əlavə, zəruri hallarda məhkəmə məhkum üzərinə aşağıdakı əlavə vəzifələri, yəni:

- kütləvi və digər tədbirlər təşkil etməmək və ya belə tədbirlərdə iştirak etməmək;
- məhkəmənin müəyyən etdiyi ərazi hüdudları daxilində müəyyən yerlərə getməmək;
- alkoqolizmdən, narkomaniyadan, toksikomaniyadan və ya zöhrəvi xəstəliklərdən müalicə kursu keçmək;
- habelə, məhkumun islah olunmasına kömək edən digər vəzifələri də qoya bilər.

Azadlığın məhdudlaşdırılması növündə cəza Cinayət Məcəlləsinin Xüsusi Hissəsində olan 313 maddədən 101 maddəyə, onların da 150 sanksiyasına daxil edilmişdir. Təhlil göstərdi ki, azadlığın məhdudlaşdırılması həyat və sağlamlıq əleyhinə olan cinayətlərə görə məsuliyyəti müəyyən edən 24 maddənin 15-də, şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətlərə görə məsuliyyəti müəyyən edən 9 maddənin 2-də, insan və vətəndaşın konstitusiya hüquq və azadlıqları əleyhinə olan cinayətlərə görə məsuliyyəti müəyyən edən 26 maddənin 12-də, mülkiyyət əleyhinə olan cinayətlərə görə görə məsuliyyəti müəyyən edən 12 maddənin 9-da, iqtisadi fəaliyyət sahədə olan cinayətlərə görə məsuliyyəti müəyyənləşdirən 39 maddədən 19-da, ictimai təhlükəsizlik və ictimai qayda əleyhinə olan cinayətlərə görə məsuliyyəti müəyyən edən 32 maddənin 8-də, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlərə görə məsuliyyəti müəyyən edən 7 maddənin 4-də, ekoloji cinayətlərə görə məsuliyyəti müəyyən edən 15 maddənin hamısında, hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə görə məsuliyyəti müəyyən edən 11 maddənin 5-də, dövlətin konstitusi-

ya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlərə görə məsuliyyəti müəyyən edən 14 maddənin birində, ədalət mühakiməsi əleyhinə olan cinayətlərə görə məsuliyyəti müəyyən edən 22 maddədən 7-də, korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlərə görə məsuliyyəti müəyyən edən 13 maddənin birində, idarəetmə qaydasi əleyhinə olan cinayətlərə görə məsuliyyəti müəyyən edən 18 maddənin 3-də nəzərdə tutulmuşdur. Azadlığın məhdudlaşdırılması cəzası Cinayət Məcəlləsinin Xüsusi Hissəsinin 95 tərkibində böyük ictimai təhlükə törətməyən, 55 tərkibdə isə az ağır cinayətlərə görə nəzərdə tutulmuşdur. Bu cəza növü 34 cinayət əməlinə görə bir ilədək, 58 ictimai təhlükəli əmələ görə iki ilədək, 41 əmələ görə üç ilədək, 1 əmələ görə dörd ilədək, 16 əmələ görə isə beş ilədək təyin edilə bilər. Qeyd etmək lazımdır ki, sonrakı illərdə respublikanın Cinayət Məcəlləsində azadlığın məhdudlaşdırılmasının tədricən artımı tendensiyası müşahidə edilir.

Qeyd olunmalıdır ki, məzmun və yaratdığı hüquqi məhdudiyyətlərə görə şərti məhkum etmə, cəzanın icrasının təxirə salınması insitutlarına müəyyən oxşarlığı olsa da, azadlığın məhdudlaşdırılması onlardan kifayət qədər fərqlidir. Birincisi, azadlığın məhdudlaşdırılması müstəqil cinayət-hüquqi xarakterli tədbir olmaqla, cəza sisteminə ayrıca cəza kimi daxil edilmişdir. İkincisi, bu cəza növünün tətbiqi zamanı məhkuma sınaq müddəti təyin edilmir, üçüncüsü, azadlığın məhdudlaşdırılması yalnız azadlıqdan məhrum etmə ilə əvəz edilə bilər. Eyni zamanda, cəzanın icrasının təxirə salınmasından fərqli olaraq azadlığın məhdudlaşdırılması daha geniş dairəli məhkumlara tətbiq edilir. Sonuncu, cinayət qanununda azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş məhkumlara şərti məhkum etmə, cəzanın icrasının təxirə salınması insitutlarının tətbiqi nəzərdə tutulmamışdır.

Cinayət Məcəlləsinə edilmiş dəyişikliklərdən sonra Cəzaların İcrası Məcəlləsinə azadlığın məhdudlaşdırılması növündə cəzanın icrası qaydasını tənzimləyən yeni VII-I fəsli və yeddi, 51-1-51-7-ci maddələr əlavə edilmişdir. Həmin maddələrlə azadlığın məh-

dudlaşdırılması cəzasını icra edən Probasiya Xidmətinin icra məmurunun vəzifələrinə, habelə məhkumun müəyyən vaxtlarda yaşayış yerini və ya məhkəmənin müəyyən etdiyi ərazi hüdüdlarının tərk edilməsi ilə əlaqədar müstəsna hallara aydınlıq gətirilmişdir. Yuxarıda göstərilən maddələrin tələblərinə əsasən azadlığın məhdudlaşdırılması növündə cəzanın icrası müddəti məhkumun cəzanı icra edən orqanda qeydiyyata alındığı vaxtdan hesablanır. Qanunvericilikdə nəzərdə tutulmuş üç gün müddətində üzrsüz səbəblərdən cəzanın icrasına nəzarət edən orqana gəlməyən məhkumlar probasiya qurumunun rəhbəri tərəfindən təsdiq olunmuş icra məmurunun qərarı ilə məcburi gətirilir. Həmin qərar yerli polis orqanı tərəfindən icra edilir.

Məhkumu qeydiyyata alındıqdan sonra, ona icra məmuru tərəfindən məhkəmə hökmünün tələbləri, cəzanın icrası qaydaları, həmin qaydaların pozulmasının hüquqi nəticələri, o cümlədən üzərində elektron nəzarət vasitəsi daşımalı olduğu, həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət qaydaları, habelə hər hansı müdaxilənin və ya cihazın üzərindən çıxarılmasının yol verilməzliyini izah edilir. Qeyd olunanlardan sonra icra məmuru elektron nəzarət vasitəsini məhkumun üzərinə bağlayır və bu barədə protokol tərtib edir.

Qanunvericiliyin tələblərinə əsasən azadlığın məhdudlaşdırılması cəzasını çəkən məhkumun yaşayış yerini dəyişməsi müstəsna hallarda, habelə yalnız Azərbaycan Respublikasının ərazisi hüdudlarında cəza çəkən şəxsin ərizəsi və icra məmurunun təqdimatı əsasında məhkəmənin qərarı ilə həyata keçirilir. Həmin müstəsna hallar aşağıdakılardır:

- məhkumun ailə vəziyyəti dəyişdikdə;
- məhkum digər yaşayış sahəsi üzərində mülkiyyət hüququ əldə etdikdə;
- şəxsin xəstəliyi ilə bağlı ona yaşayış məntəqəsinin ərazisindən kənar tibb müəssisəsində uzunmüddətli tibbi yardım göstərilməsi zərurəti yarandıqda (yaşayış yerində və ya məhkəmənin müəyyən etdiyi ərazi hüdudları daxilindəki tibb müəssisəsində tə-

ləb olunan tibbi yardımın göstərilməsi mümkün olmadıqda).

Cəzaların İcrası Məcəlləsinin 51-1.3-cü maddəsinə əsasən azadlığın məhdudlaşdırılması cəzasını çəkən şəxsin müəyyən vaxtlarda yaşayış yerini və ya məhkəmənin müəyyən etdiyi ərazi hüdudlarını (yalnız Azərbaycan Respublikasının ərazisi hüdudlarında) müvəqqəti tərk etməsinə müstəsna hallarda icra məmuru tərəfindən də icazə verilə bilər. Bu hallar aşağıdakılardır:

- yaxın qohumların ölümü və ya həyatı üçün təhlükə yaradan ağır xəstəliyi (yeddi gün müddətinə qədər);
- təbii fəlakət və digər fövqəladə hadisə ilə bağlı şəxsin yaşayış yerində müəyyən müddət qalmasının mümkün olmaması;
- yaxın qohumların nikaha daxil olması (iki gün müddətinə qədər);
- şəxsə tibbi yardım göstərilməsi zərurətinin yaranması (yaşayış yerində və ya məhkəmənin müəyyən etdiyi ərazi hüdudları daxilindəki tibb müəssisəsində tələb olunan tibbi yardımın göstərilməsi mümkün olmadıqda);
- istirahət və bayram günlərində həvəsləndirmə tədbiri qismində.

Azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum edilmiş şəxs onun üzərinə qoyulmuş vəzifələri yerinə yetirməkdən mütəmadi və ya qərəzli olaraq boyun qaçırdıqda, məhkəmə icra məmurunun təqdimatına əsasən cəzanın çəkilməmiş hissəsinin azadlıqdan məhrum etmə növündə cəza ilə əvəz edə bilər. Bu zaman cəzanın çəkilməmiş hissəsi üzrə iki gün azadlığın məhdudlaşdırılması bir gün azadlıqdan məhrum etmə hesabı ilə hesablanır.

Cəzaların İcrası Məcəlləsi azadlığın məhdudlaşdırılması növündə cəzanı çəkən məhkumun üzərinə qoyulmuş vəzifələri yerinə yetirməkdən və ya mütamadi boyun qaçırması, habelə qərəzli boyun qaçırması iə bağlı halların dəqiq siyahısını müəyyən etmişdir. Belə ki, məhkumun üzərinə qoyulmuş vəzifələri yerinə yetirməkdən boyun qaçırması aşağıdakı hallar hesab edilir:

- icra məmurunun cəzanın çəkilməsi üçün gəlib qeydiyyatdan keçməsinə dair yazılı bildirişini aldıqdan sonra 3 gün müddətində üzrlü səbəblər olmadan cəzanın icrasına nəzarət edən orqana gəlməməsi;

- üzrlü səbəb olmadan məhkəmə tərəfindən müəyyən edilmiş vəzifələri yerinə yetirməməsi;

- cəzanın çəkilməsi məsələləri ilə bağlı yazılı izahat vermək üçün icra məmurunun çağırışı ilə gəlməməsi;

- barəsində inzibati həbs növündə tənbeh tədbirinin tətbiq edilməsi.

Üzərinə qoyulmuş vəzifələri yerinə yetirməkdən boyun qaçırdığına görə töhmət almış məhkumun il ərzində daha iki dəfə yuxarıda göstərilən əməlləri törətməsi vəzifələri mütəmadi yerinə yetirməmə hesab edilir.

Azadlığın məhdudlaşdırılması növündə cəzanın icrasından qərəzli boyun qaçırma isə, aşağıdakı əməllər hesab olunur:

- məhkumun müəyyən edilmiş ərazi hüdudlarını icazəsiz tərk etməsi;

- məhkumun elektron nəzarət vasitəsini gəzdirməkdən imtina etməsi, onu zədələməsi və ya digər üsulla yararsız vəziyyətə salması, yaxud həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etməməsi;

- məhkumun yaşayış yerini müvafiq icazə olmadan on gündən artıq müddətdə tərk etməsi.

Qeyd edilməlidir ki, yuxarıda istinad edilən qanunla Cəzaların İcrası Məcəlləsinə probasiya nəzarətinin anlayışını, habelə azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş, məhkəmənin müəyyən etdiyi hallarda isə, şərti məhkum edilmiş və ya cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxslərə elektron nəzarət vasitələrinin tətbiqi xüsusiyyətlərini nəzərdə tutan iki yeni maddə də əlavə edilmişdir.

Cəzaların İcrası Məcəlləsinin 15-1 maddəsinə əsasən, məhkumun cəmiyyətdən təcrid edilməsi ilə əlaqədar olmayan cəzaların, bir sıra cinayət-hüququ xarakterli tədbirlərlə yanaşı azadlığın məhdudlaşdırılması, yəni bu cəzaya məhkum edilmiş şəxslər də icra məmuru tərəfindən həyata keçirilən probasiya nəzarətinin obyekti olmuşdur. Həmin maddəyə əsasən azadlığın məhdudlaşdırılması cəzasını çəkən və yeri məlum olmayan məhkumun axtarışı

barədə qərarı məhkəmə yox, icra məmuru qəbul edir və eyni zamanda, Cinayət-Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada məhkumun tutulması ilə bağlı prokurorluq vasitəsi ilə məhkəməyə vəsatət verir. Məhkəmə də öz növbəsində məhkumun yeddi gün müddətinə tutulması ilə bağlı qərar qəbul edir.

Yuxarıda istinad edilən 20 oktyabr 2017-ci il tarixli Qanunun azadlığın məhdudlaşdırılması növündə cəzanın təyini və icrası ilə bağlı müddəalarına əsasən müvafiq normalar 15 aprel 2018-ci il tarixdən, yəni Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 10 aprel 2018-ci il tarixli "Məhkum edilmiş və ya barəsində qətimkan tədbiri seçilmiş şəxslərə tətbiq edilən elektron nəzarət vasitələrinin siyahısının və onların tətbiqi qaydalarının təsdiq edilməsi barədə" 144 nömrəli Qərarının qüvvəyə mindiyi gündən tətbiq edilməyə başlanmışdır.

Qanunvericiliyin müddəalarının həyata keçirilmə mexanizminin müəyyən edimәsi, habelə Probasiya Xidmətinin icra məmurunun müvafiq hökmün icraya qəbulundan başlayaraq məhkumun qeydiyyatdan çıxarılmasına kimi hərəkətlərinin ardıcıllığının müəyyən olunması məqsədilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin 24 aprel 2018-ci il tarixli 6-N nömrəli Kollegiya Qərarı ilə "Azadlığın məhdudlaşdırılması növündə cəzanın icrası Qaydaları" təsdiq edilmişdir.

Qeyd edilməlidir ki, 20 oktyabr 2017-ci il tarixli Qanunun azadlığın məhdudlaşdırılması növündə cəza ilə bağlı müddəalarının qüvvəyə minməsindən sonra respublikanın məhkəmələri azadlığın məhdudlaşdırılması cəzasını tez-tez tətbiq etməyə başladılar. Belə ki, 01 oktyabr 2018-ci il tarixinə ölkənin Probasiya Xidmətinin qeydiyyatında 417 belə məhkum olmuşdur.

Lakin azadlığın məhdudlaşdırılmasının cəza sisteminə yeni daxil edilməsinə baxmayaraq, fikrimizcə, onun təkmilləşdirilməsinə, habelə icrasının sadələşdirilməsinə ehtiyac vardır. İlkin olaraq, azadlığın məhdudlaşdırılması cəzası məhkumun yaşayış yeri, əmək fəaliyyəti və təhsili ilə əlaqədar birbaşa məhdudiyyətləri nəzərdə tutmadığından, yaşayış yerinin dəyişdirilməsi ilə bağlı əsas-

lara cəza çəkən şəxsin digər yaşayış sahəsinə köçməsi, işə düzəlməsi və yaxud işini dəyişməsi, habelə təhsil müəssisələrinə qəbulu ilə bağlı halları əlavə etmək məqsədəuyğun olardı.

İkincisi, yuxarıda göstərildiyi kimi məhkumun yaşayış yerinin dəyişdirilməsi ilə bağlı qərarı məhkəmə qəbul edir. Bu da öz növbəsində müvafiq sənədlərin, o cümlədən təqdimatın hazırlanması və təqdim edilməsi, habelə məhkəmə baxışı ilə əlaqədar xeyli vaxt tələb edir. Göstərilənlərlə əlaqadar məhkumun yaşayış yerinin dəyişdirilməsi ilə əlaqədar qərarın qəbul edilməsi səlahiyyətini Probasiya Xidmətinin icra məmuruna verilməsini təklif edirik. Belə yanaşma müvafiq qərarın qəbul edilməsi müddətini qısaltmaqla, hakimlərin də iş yükünü azalda bilərdi. Eyni zamanda, belə olan halda icra məmurunun qərarından yuxarı instansiyaya və ya məhkəməyə şikayət verilə bilərdi.

Üçüncüsü, azadlığın məhdudlaşdırılması cəzasını çəkən şəxsin müəyyən vaxtlarda yaşayış yerini və ya məhkəmənin müəyyən etdiyi ərazi hüdudlarını müvəqqəti tərk etməsinə icazə verilməsi ilə bağlı mövcud dairənin təcrübədə rast gəlinən və müəyyən çətinliklər yaradan məsələlərin həllinə yönələn məhkumun sosial, mülki, ailə problemlərinin həlli, habelə təhsil və digər məsələlərlə bağlı dövlət, qeyri-dövlət qurumlarının çağırışları ilə əlaqədar hallarla da genişləndirmək məqsədəuyğun olardı.

Tərəfimizdən verilmiş təkliflərin qəbul edilməsi təqdirində Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 52-1-ci və Cəzaların İcrası Məcəlləsinin 53-3-cü maddələrinə dəyişikliklər olunması zərurəti yaranacaqdır.

***İstinad edilmiş mənbə:***

***"Rusiya Federasiyasında və xaricdə cəza-icra sisteminin nəzəri və praktiki problemləri" Beynəlxalq elmi-praktiki konfransın materiallarının toplusu (rus dilində). Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası, Ryazan, 2018. Tom I, Səh. 196–209.***

## Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma növündə cəza

30 dekabr 1999-cu ildə qəbul edilmiş Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə yeni əlavə cəza növü - Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma daxil edilmişdir. Qeyd etmək lazımdır ki, kənara məcburi çıxarma əcnəbi vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin cinayət əməllərinə görə ölkədən məcburi göndərilməsinin bir növü olmaqla, dünyanın bir çox ölkələrində, o cümlədən Fransa, İspaniya, İtaliya, Rumıniya, Türkiyə, Yunanstan, San-Marina, Kot-Divuar, habelə sabiq Yuqoslaviyanın tərkibində olmuş dövlətlər tərəfindən cəza və ya təhlükəsizlik tədbiri qismində tətbiq edilir. Sabiq SSRİ-yə daxil olmuş ölkələrdən yalnız Moldova Respublikasında məcburi çıxarma təhlükəsizlik tədbirlərindən biri kimi çıxış edir. Moldovanın Cinayət Məcəlləsinin 105-ci maddəsinə əsasən, cinayət əməllərinə görə məhkum edilmiş əcnəbi vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin ölkə ərazisində qalması qadağan edilə bilər. Ölkədən çıxarma azadlıqdan məhrum etməyə əlavə kimi təyin edildiyi hallarda, əsas cəza çəkildikdən sonra həyata keçirilir.

Ölkənin Cinayət Məcəllsinin 52.1-ci maddəsinin ilkin redaksiyasına əsasən Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma yalnız ağır və ya xüsusilə ağır cinayətlər törətmiş əcnəbi vətəndaşlar barədə tətbiq edilə bilərdi. Cinayət qanunu məhkəmələrə bu cəzanın təyini zamanı Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin cəza təyin edilməsinin ümumi əsaslarını tənzimləyən 58.3-cü maddəsinin tələblərini, yəni törədilmiş cinayətin xarakteri və ictimai təhlükəlilik dərəcəsini, təqsirkarın şəxsiyyətini, o cümlədən cəzanı yüngülləşdirən və ağırlaşdıran halları, habelə təyin olunmuş cəzanın şəxsin islah olunmasına və onun ailəsinin həyat şəraitinə təsirinin nəzərə almasını tövsiyə edirdi. Qeyd olunmalıdır ki, Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma Cinayət Məcəlləsinin Xüsusi Hissəsinin sanksiyalarına daxil edilməmişdir və əsas cəzanın çəkilməsindən sonra icra edilir.

Müvafiq maddədə Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarmanın təyin edilməsinə məhdudiyyət qoyan şərtlər də var idi. Cinayət Məcəlləsinin 52.1-ci maddəsinin ilkin redaksiyasına əsasən göstərilən cəza növü aşagıdakı hallarda təyin edilə bilməzdi:

- barəsində ittiham hökmü qanuni qüvvəyə minənədək beş il Azərbaycan Respublikasının ərazisində daimi yaşayan şəxslərə;
- barəsində ittiham hökmü qanuni qüvvəyə minənədək Azərbaycan Respublikasının vətəndaşı ilə nikahda olan şəxslərə;
- Azərbaycan Respublikasında doğulmuş şəxslərə;
- valideynlərindən biri Azərbaycan Respublikasının vətəndaşı olan şəxslərə;
- qaçqın statusuna malik olan və ya Azərbaycan Respublikası tərəfindən siyasi sığınacaq verilmiş şəxslərə;
- himayəsində yetkinlik yaşına çatmayan uşağı, habelə fəaliyyət qabiliyyəti olmayan və ya I, II qrup əlilliyi olan şəxslərə;
- məcburi çıxarıldığı zaman gedəcəyi ölkədə işgəncəyə və ya təqibə məruz qala biləcəyinə ciddi əsaslar olduğu ehtimal edilən şəxslərə.

Eyni zamanda, vurğulamaq lazımdır ki, Cinayət Məcəlləsində ölkə hüdudllarından məcburi çıxarmanı nəzərdə tutan 52-ci maddə ilə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr arasında ziddiyyət yarandığı hallarda beynəlxalq müqavilələrin tətbiq edilməsi ilə bağlı müvafiq norma də vardır.

Son illərdə qloballaşma proseslərinin nəticəsi olaraq dünyada gedən inkişaf, beynəlxalq siyası və iqtusadi münasibətlər, habelə silahlı konfliktlər fonunda vətəndaşların digər ölkələrin, o cümlədən Azərbaycan Respublikasının ərazisinə axınının intensivləşməsi müşahidə olunur. Belə ki, Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinin məlumatına əsasən 9,6 milyon əhalisi olan Azərbaycana 2014-cü ildə 2 milyon 268 min əcnəbi və vətəndaşlığı olmayan şəxsin gəlməsi qeydə alınmışdır. Onlardan, 53 mindən çox şəxsə və onların ailə üzvlərinə daimi və ya müvəqqəti yaşamaq, 12 min nəfərə isə, əmək fəaliyyəti ilə məşgul olmaq üçün icazə verilmişdir ki, bu da

2013-cü illə müqayisədə müvafiq olaraq 23,2 % və 33,3 % çoxdur.

Ölkədə miqrantların sayının artması, miqrasiya qanunvericiliyinin təkmilləşdirilməsinin vacibliyi, bu sahədə idarəetmə prossesinə zəruri dəyişikliklərin edilməsi, əcnəbi vətəndaşlar və vətəndaşlığı olmayan şəxslər tərəfindən törədilən cinayətlər, beynəlxalq aktların tələblərinin yerinə yetirilməsi, habelə məhkəmə təcrübəsində Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarmanın tətbiqində yaranan məsələlər Cinayət Məcəlləsinin 52-ci maddəsinin müddəalarının dəyişdirilməsinə zəmin yaratdı.

İlkin olaraq Azərbaycan Respublikasının 02 iyul 2001-ci il tarixli Qanunu ilə Cinayət Məcəlləsinin 52.1-ci maddəsinə əcnəbi vətəndaşlar və vətəndaşlığı olmayan şəxslər tərəfindən törədilən bütün cinayətlərə, o cümlədən böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlər görə də Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma cəzasının tətbiqini nəzərdə tutan dəyişiklik edildi.

Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin qəbulu ilə əlaqədar 03 dekabr 2013-cü il tarixli qanunla Cinayət Məcəlləsinin 52-ci maddəsinə yenidən əsaslı dəyişikliklər edilmişdir. Birincisi, Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma cəzası tətbiq edilən şəxslərin siyhısı genişləndirilmiş, əcnəbi vətəndaşlara vətəndaşlığı olmayan şəxslər də əlavə edilmişdir. Göstərilən maddənin yeni redaksiyasına əsasən məhkəmə yuxarıda göstərilən şəxsləri bir ildən artıq müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum etdikdə, onlara Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma cəzasını tətbiq etməlidir. Bir ildən az müddətə azadlıqdan məhrum etməyə və yaxud azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzalara, yəni cərimə, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyət növü ilə məşgul olma hüququndan məhrum etmə, ictimai işlər, islah işlərinə məhkum edilən şəxslərə isə, Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma cəzası Cinayət Məcəlləsinin 58.3-cü maddəsinin tələbləri nəzərə alınmaqla tətbiq edilə bilər. Bu qanunla habelə, Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxar-

ma cəzasının tətbiq edilməyən əcnəbi və vətəndaşlığı omayan şəxslərin dairəsi dəyişdirilmişdir. Cinayət Məcəlləsinin 52.2-ci maddəsində göstərilən şəxslərdən başqa müvafiq imunitet ölkədən çıxarılması milli təhlükəsizliyin təmin edilməsinin maraqlarına zidd olan məhkumlara da şamil edilmişdir. Eyni zamanda, ikinci qrup əlillər, habelə himayəsində Azərbaycan Respublikasının vətəndaşı olmayan yetkinlik yaşına çatmayan uşaqları olan şəxslər həmin cəzanın tətbiq edilməyən məhkumların dairəsindən çıxarılmışdır. Sözügedən qanunla əlavə olaraq Cinayət Məcəlləsinə 52-1-ci maddə də əlavə edilmişdir. Bu maddəyə uyğun olaraq barəsində Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma cəzası tətbiq edilmiş şəxsin Azərbaycan Respublikasına gəlmək hüququ onun məhkumluğu ödənilənədək və ya götürülənədək məhdudlaşdırılır.

Azərbaycan Respublikasında əcnəbi və vətəndaşlığı olmayan şəxslər tərəfindən törədilən cinayətlərlə bağlı rəsmi statistika aparılmasa da, belə kateqoriyalı məhkumların azadlıqdan məhrum etmə yerlərində sayı kifayət qədər çox olmuşdur. Belə ki, 2007-2014-cü illərdə yuxarıda göstərilən məhkmların orta sayı 493 nəfər təşkil etmişdir. 01 iyul 2015-ci il tarixində Azərbaycan Respublikasının cəzaçəkmə müəssisələrində 491 belə şəxs cəza çəkiridi. Həmin məhkumlardan 144 nəfərinə azadlıqdan məhrum etmə cəzası ilə yanaşı ölkədən məcburi çıxarma növündə cəza da təyin edilmişdir ki, bu da onların ümumi sayının 29,3 %-ni təşkil edir.

Digər ölkələrdə olduğu kimi Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinə uyğun olaraq əcnəbi və vətəndaşlığı olmayan məhkumların cəzalarının icrası zamanı onların digər məhkumlardan ayrılıqda saxlanması nəzərdə tutulmamışdır. Qeyd edilən müvafiq dövrdə azadlıqdan məhrum etmə növündə cəzanı çəkən şəxslərdən əlavə ölkənin istintaq təcridxanalarında 129 əcnəbi həbs edilmiş şəxs və hökmün qanuni qüvvəyə minməsini gözləyən məhkum saxlanılırdı. Haqqında azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzalar icra olunan əcnəbi və vətəndaşlığı olmayan şəxslərin ayrıca qeydiyyatı aparılmasa da, tərəfimizdən seçmə üsulu ilə

icra məmurları arasında aparılmış sorğu nəticəsində məlum olmuşdur ki, belə şəxslərin sayı az deyildir.

Yuxarıda göstərilənlərlə əlaqədar son illərdə respublikanın alimləri arasında cinayətin törədilməsindən və ya məhkum edildikdən dərhal sonra cinayətkarların və məhkumların ölkədən çıxarılması və ya deportasiyası ilə bağlı məsələ müzakirə edilir. Azərbaycandakı ictimai rəy, yuxarıda göstərilən təklifləri dəstəkləyir, cinayət törətmiş əcnəbi və vətəndaşlığı olmayan şəxslərin məhkum edildikdən, o cümlədən cəzanın cəkilməsinə qədər ölkədən çıxarılmasına müsbət yanaşır. Son illərdə bir sıra Avropa ölkələrində (Almaniya, İsveç, İsveçrə, Finlandiya və digərləri) qanunvericiliyə dəyişiklik edilməklə əcnəbi və vətəndaşlığı olmayan şəxslərə əsas cəza və ya əsas cəza əvəzi olaraq ölkə hüdudlarından çıxarmanın fəal tətbiqinə başlanmışdır.

Oxşar cəzanın, yəni əcnəbi və vətəndaşlığı olmayan şəxslərin "Rusiya Federasiyasının hüdudlarından qovma və müddətsiz, yaxud on il ərzində ölkəyə girişə qadağa qoyulması"nın xüsusi cəzanın bir növü kimi Rusiya Federasiyasının Cinayət Məcəlləsinə əlavə edilməsini həmin ölkənin ailmi K.A. Sıç da təklif etmişdir.

Qeyd olunmalıdır ki, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 50 və 55-ci maddələrində bir sıra istisnalar nəzərə alınmaqla, əcnəbi və vətəndaşlığı olmayan məhkumların, xüsusilə ağır və ya xüsusilə ağır cinayətlər törədilməsinə görə məhkum edilmişlərin əsas cəzanı çəkdikdən sonra faktiki olaraq ölkədə müvəqqəti və ya daimi yaşamasının arzuolunmaz hesab olunması ilə bağlı qərarın qəbul edilməsi təsbit edilmiş, beləliklə də, qeyd olunan şəxslər avtomatik olaraq inzibati qaydada ölkə hüdudlarından kənara çıxarılmalıdırlar.

Yuxarıda göstərilənləri, habelə cəzaçəkmə müəssisələrində əcnəbi və vətəndaşlığı olmayan məhkumların sayının artmasını, həmin, o cümlədən azadlıqdan məhrum etmə ilə bağlı olmayan məhkumların cəzalarının icrası prosesində yaranan problemlərini nəzərə alınmaqla, belə şəxslərə Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarmanın əsas cəza əvəzinə tətbiq edilmə-

sini təklif edirik.

Dünyada hazırki reallıqları, milli təhlükəsizliyə qarşı artan təhlükə və çağırışları nəzərə alaraq, cinayət qanunu ilə Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarmaya qoyulmuş qadağalarla bağlı şərtlərə yenidən baxılmasını və belə şəxslərin dairəsinin azaldılmasını da məqsədəuyğun hesab edirik. Habelə, cinayət törətməyə görə Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarılmış əcnəbi və vətəndaşlığı olmayan şəxslərin yenidən ölkəyə giriş şərtlərinə yenidən baxılması və onların sərtləşdirilməsi məqbul olardı.

Göstərilənlərlə bağlı Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə aşağıdakı dəyişikliklərin olunmasını təklif edirik:

1. Cinayət Məcəlləsinə aşağıdakı məzmunda yeni 43.2-1-ci maddəsi əlavə edilsin:

“43.2-1. Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma əsas cəzalar əvəzinə, habelə əlavə cəza kimi tətbiq edilir. ”

2. 43.3-cü maddənin mətnindən “və Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma” sözləri çıxarılsın və “nəqliyyat” sözunun əvvəlinə “və” sözü əlavə edilsin.

3. Cinayət Məcəlləsinin 52-ci maddəsi aşagıdakı yeni redaksiyada verilsin:

«52.1. Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslərə əsas cəzalar əvəzinə, habelə əlavə cəza kimi təyin edilir.

52.2. Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma əsas cəzalar əvəzinə şəxs böyük ictimai töhlükə törətməyən və ya az ağır cinayətlərə görə məhkum edildikdə təyin edilə bilər. Cinayət Məcəlləsinin 58.3-cü maddəsində göstərilmiş hallar nəzərə alınmaqla və məhkumun Azərbaycan Respublikasının ərazisində olması məqsədəuyğun hesab edilmədikdə, Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma ağır cinayətlərə görə də tətbiq edilə bilər.

52.3. Azərbaycan Respublikasının hüdudlarından kənara məc-

buri çıxarma əlavə cəza kimi şəxs ağır və xüsusilə ağır cinayətlərə görə məhkum edildikdə təyin edilir. Əlavə cəza kimi təyin olunmuş Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma əsas cəza növünü çəkildikdən sonra icra edilir.

52.4. Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma cəza növü aşağıdakı şəxslərə təyin edilmir:

52.4.1. barəsində ittiham hökmü qanuni qüvvəyə minənədək Azərbaycan Respublikasının vətəndaşı ilə nikahda olan şəxslərə (arvadın (ərin) məhkuma həmin cəzanın təyin edilməməsi ilə bağlı yazılı razılığına əsasən);

52.4.2. valideynlərindən biri Azərbaycan Respublikasının vətəndaşı olan şəxslərə;

52.4.3. himayəsində Azərbaycan Respublikasının vətəndaşı olan yetkinlik yaşına çatmayan uşağı, fəaliyyət qabiliyyəti olmayan, habelə I və ya II qrup əlilliyi olan şəxslərə;

52.4.4. məcburi çıxarıldığı zaman gedəcəyi ölkədə işgəncəyə və ya təqibə məruz qala biləcəyinə ciddi əsaslar olduğu ehtimal edilən şəxslərə;

52.4.5. məcburi çıxarılması milli təhlükəsizliyin təmin edilməsi mənafeyinə zidd olan şəxslərə.

52.5. Barəsində Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma tətbiq edilmiş şəxslərin Azərbaycan Respublikasına gəlmək hüququ ictimai töhlükə törətməyən və ya az ağır cinayətlərə görə on il müddətinə, ağır cinayətlərə görə məhkumların iyirmi il müddətinə, xüsusilə ağır cinayətlərə görə isə müddətsiz olaraq məhdudlaşdırılır”.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 15-ci maddəsinə uyğun olaraq böyük ictimai təhlükə törətməyən, az ağır, ağır və xüsusilə ağır cinayətlər, maksimal olaraq iki, yeddi, on iki və daha artıq müddətə azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulan əməllər hesab olunur.

Hesab edirik ki, tərəfimizdən verilmiş təkliflərin qanunverici orqan tərəfindən qəbul edilməsi:

- milli təhlükəsizliyin daha etibarlı təmin olunmasına zəmin ya-

radacaq, əvvəllər Azərbaycan Respublikasının məhkəmələri tərəfindən məhkum edilmiş əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən yeni cinayətlərin törədiməsinin qarşısının alınmasına;

- əcnəbilər və ya vətəndaşlığı olmayan məhkumların, o cümlədən cəzaçəkmə müəssisəsində cəza çəkən şəxslərin ümumi sayının azalmasına;

- cəzaçəkmə müəssisələrində məhkumların saxlanması xərclərinə qənaət edilməsinə;

- belə şəxslərin, o cümlədən azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzalarının icrası və çəkilməsi prosesində yaranan, yəni məhkumlara islah vasitələrinin tətbiqi, onların ehtiyaclarının ödənilməsi, milli və mədəni ənənələrinin nəzərə alınması, vicdan və dini etiqad azadlığının təmini, dil, əməyə cəlb edilmə və digər məsələlərlə bağlı problemlərin aradan qaldırılmasına;

- belə məhkumların cəzalarını çəkmək üçün mənsub olduqları ölkələrə verilməsi ilə bağlı kifayət qədər mürəkkəb prosedurdan qaçmağa köməklik göstərəcəkdir.

***İstinad edilmiş mənbə:***

***"Cinayət, cəza, islah" II Beynəlxalq Penitensiar Forum iştirakçılarının çıxış və məruzələrinin tezislərinin toplusu (rus dilində). Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası, Ryazan, 2015. Tom 4, Səh. 250–255.***

## Azərbaycan Respublikasında probasiya və onun inkişaf perspektivləri

Azərbaycan Respublikası Prezidentinin "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 10 fevral 2017-ci il tarixli Sərəncamı ilə Ədliyyə Nazirliyinin strukturunda Probasiya Xidməti yaradılmış və bu yeni təsisat həmin ilin 01 dekabrından rəsmi fəaliyyətə başlamışdır. Ölkə başçısının bu Sərəncamında dövlət idarəçilik sisteminin müasirləşdirilməsi və məhkəmə-hüquq islahatları sahəsində həyata keçirilən tədbirlərin davam etdirilməsi, cəzaların icrası ilə bağlı fəaliyyətin müasir dövrün tələblərinə uyğun qurulması, cəzanı icra edən orqan və müəssisələrdə mövcud olan nöqsanların aradan qaldırılması, korrupsiyanı istisna edən şəraitin tam təmin olunması, cinayət təqibi və cəzaların icrası sahəsində müasir texnoloji vasitələrin tətbiq edilməsi, cəza siyasətinin humanistləşdirilməsi ilə yanaşı, cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan cəzaların icrasına effektiv nəzarətin təşkil edilməsi vəzifəsi də qoyulmuşdur. Azərbaycan Respublikası Prezidentinin 07 noyabr 2017-ci il tarixli Fərmanına əsasən Ədliyyə Nazirliyinin Əsasnaməsinə dəyişiklik edilmiş, Probasiya Xidməti baş idarə statusunda müəyyən olunmuş və nazirliyin Kollegiyasının 22 dekabr 2017-ci il tarixli Qərarı ilə onun Əsasnaməsi təsdiq edilmişdir.

Azərbaycan Respublikasının 01 dekabr 2017-ci il tarixli Qanunu ilə Cəzaların İcrası Məcəlləsinə dəyişikliklər edilməklə ona iki yeni 15-1, 15-2-ci maddələr əlavə edilmişdir. Bu normalarda probasiya nəzarətinin anlayışı verilmiş, onun tətbiq dairəsi, Probasiya Xidmətinin icra məmurlarının əlavə vəzifələri, habelə azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzaların icrası prosesində elektron nəzarət vasitələrinin tətbiqi xüsusiyyətləri müəyyən olunmuşdur.

Qanunvericiliklə Probasiya Xidmətinə azadlıqdan məhrum et-

mə ilə bağlı olmayan cəzaların icrasının təşkili, cərimə, nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, ictimai işlər, islah işləri, azadlığın məhdudlaşdırılması növündə cəzalara məhkum edilmiş şəxslər üzərində probasiya nəzarətinin həyata keçirilməsi həvalə edilmişdir. Eyni zamanda, xidmətə şərti məhkum edilmiş, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş və ya cəzasının çəkilməsi təxirə salınmış, habelə alkoqolizm və ya narkomaniyadan müalicə məqsədi ilə barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş şəxslər tərəfindən onlar üzərinə qanunvericiliklə və ya məhkəmə tərəfindən qoyulmuş vəzifələrin icrasına nəzarətin aparılması tapşırılmışdır.

Cəzaların İcrası Məcəlləsinə edilmiş dəyişiklliklərə əsasən Probasiya Xidmətinə probasiya nəzarəti tətbiq edilən məhkumların islahı, sosial adaptasiyası və reabilitasiyası ilə bağll tədbirlərin görülməsi, əlavə olaraq inzibati tənbeh qismində tətbiq edilmiş ictimai işlərin icrası da həvalə olunmuşdur.

Yeni xidmət sahəsinin fəaliyətinin təşkili məqsədilə Azərbaycan Respublikası Ədliyyə nazirinin 01 dekabr 2017-ci il tarixli əmri ilə onun strukturu və ştat çədvəli təsdiq edilmiş, respublikanın inzibati ərazi vahidlərindəki icra şöbələri, icra və probasiya şöbələri kimi müəyyən olunmuşdur. Pilot layihə çərşivəsində ölkənin iki böyük şəhərində, yəni Gəncə və Sumqayıtda müstəqil probasiya şöbələri yaradılmışdır.

Probasiya Xidmətinin fəaliyyətinin qanunvericilikdə baş vermiş dəyişikliklərə uyğun qurulması məqsədilə Azərbaycan Respublikası Ədliyyə nazirinin sərəncamı ilə İşçi qrupu yaradlımış, ona beynəlxalq təcrübə nəzərə alınmaqla, qanunvericilik aktlarının təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlanması tapşırılmışdır. İşçi qrup tərəfindən hazırlanmış müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, islah işləri, azadlığın məhdudlaşdırılması növündə cəzalarının, habelə, ictimai işlər növündə cəzanın və inzubati təhbehin icrası, şərti məhkum edilmiş, cəzadan şərti olaraq vaxtından əvvəl azad

edilmiş və cəzasının çəkilməsi təxirə salınmış şəxslər üzərində probasiya nəzarətinin həyata keçirilməsi mexanizmlərini tənzimləyən beş qayda (normativ akt) ölkənin Ədliyyə Nazirliyinin Kolegiyası tərəfindən təsdiq edilmişdir. Eyni zamanda, beynəlxalq normalar nəzərə alınmaqla, Probasiya Xidmətinin yeni statistik hesabat formaları hazırlanmış və təsdiq olunmuşdur.

Yuxarıda göstərilən sərəncamda məhkumun cəmiyyətdən təcrid edilməsi ilə əlaqədar olmayan cəzaların icrası zamanı elektron nəzarət vasitələrindən istifadə olunması ilə bağlı göstərişə əsasən yeni müasir Elektron Monitorinq Mərkəzi istifadəyə verilmişdir. 2018-ci ilin yanvar ayından Azərbaycan istehsalı olan yeni elektron qolbaqların sınaqdan keçirilməsinə başlanmış, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 aprel tarixli 2018-ci il tarixli "Məhkum edilmiş və ya barəsində qətimkan tədbiri seçilmiş şəxslərə tətbiq edilən elektron nəzarət vasitələrinin siyahısının və onların tətbiqi qaydalarının təsdiq edilməsi haqqında" 144 nömrəli Qərarı qüvvəyə mindikdən sonra, yəni həmin ilin 15 aprelindən azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum edilmiş, həmçinin məhkəmənin müəyyən etdiyi hallarda şərti məhkum edilmiş və ya cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxslərə həmin qurğuların tətbiqinə və bu şəxslər üzərində elektron nəzarətin həyata keçirilməsinə başlanmışdır.

Qeyd etmək istərdik ki, ölkə məhkəmələri azadlığın məhdudlaşdırılması cəzasını azadlıqdan məhrum etməyə real alternativ kimi qəbul etməklə, onu intensiv şəkildə tətbiq etməyə başladılar. Eyni zamanda, şərti məhkum edilmiş və ya cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxslərə də elektron qurğuların tətbiqi ilə bağlı məhkəmə qərarları da qəbul edildi. Göstərilənlərə əlaqədar ötən müddət ərzində nəzarət vasitələri tətbiq edilmiş məhkumların sayı 1900-dən çox olmuşdur.

Probasiya Xidməti üçün kadrların hazırlanmasına xüsusi diqqət verilməklə, onlar üçün, o cümlədən beynəlxalq ekspertlərin iştirakı ilə təlim və treninqlər keçirilmişdir. Maarifləndirmə və ictimaiyyətin məlumatlandırılması məqsədilə Probasiya Xidmətinin,

elektron nəzarət vasitələrinin təqdimatı ilə bağlı tədbirlər, rayon (şəhər), eləcə də Apellyasiya məhkəmələrinin sədrləri və hakimləri ilə, habelə Bakı Dövlət Universitetinin hüquq fakultəsinin müəllim və tələbələri ilə görüşlər keçirilmişdir. Probasiya Xidməti və onun fəaliyyəti ilə əlaqədar xüsusi sənədli film hazırlanmış və ictimaiyyətə təqdim edilmişdir.

Qeyd olunmalıdır ki, Azərbaycan Respublikası Prezidentinin yuxarıda göstərilən, uzunmüddətə hesablanmış, proqram xarakteri daşıyan və özünəməxsus "yol xəritəsi" rolunu oynayan sərəncamında dövlət orqanları, o cümlədən Ədliyyə Nazirliyinin Probasiya Xidməti qarşısında qoyulmuş vəzifələr uğurla həyata keçirilməkdədir, qısa müddət ərzində bir sıra müsbət nəticələr əldə olunmuşdur. Belə ki, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatına əsasən 2016-ci illə müqayisədə 2017-ci ildə məhkəmələr tərəfindən azadlıqdan məhrum etmə növündə cəzaya məhkum edilmiş şəxslərin sayı 5,3 %, 2018-ci ildə isə 8,4 % azalmışdır. Bu tendensiya 2019-cu ilin birinci yarısında da davam etmiş, 2017-2018-ci illərin həmin dövrləri ilə müqayisədə azalma müvafiq olraq 5 % və 6,7 % təşkli etmişdir. Eyni zamanda, 2017-ci illə müqayisədə 2018-ci ildə penitensiar müəssisələrdə və istintaq təcridxanalarında saxlanılan şəxslərin sayı təxminən 6 %, 2019-cu ilin ilk doqquz ayında 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə daha 3 % azalmışdır. Nəticədə, 2018-ci ildə 2017-ci illə müqayisədə Probasiya Xidmətinin qeydiyyatına götürülmüş şəxslərin sayı 24,3 % artmışdır. 2019-cu ilin ilk doqquz ayında artım tendensiyası davam etmiş, 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 8 %-dən çox məhkum Probasiya Xidmətində qeydiyyata alınmışdır.

Aparılmış təhlil göstərdi ki, əgər 2018-ci ilin birinci yarısında ölkə əhalisinin 100 min nəfərinə probasiya qeydiyyatında duran 159,7 nəfər düşürdüsə, 2019-cu ilin müvafiq dövründə bu göstərici artaraq 170,2 nəfər təşkil etmişdir.

Hesab edirik ki, yuxarıda göstərilən cəza təyini təcrübəsindəki dəyişikliklər, alternativ cəzalarla bağlı hökmlərin, habelə Probasi-

ya Xidmətinin qeydiyyatında olan məhkumların sayının artması ölkə başçısının dövlətin cinayət-hüquq siyasətinin humanistləşməsinə yönəlmiş təşəbbüslərinin icrasının nəticəsi olmaqla yanaşı, hakimlərin yeni strukrura, yəni məhkumun cəmiyyətdən təcrid edilməsi ilə bağlı olmayan, cəzaları səmərəli icrasını təmin edən müvafiq təsisata inamının göstəricisidir.

Qanunvericilikdə baş vermiş dəyişikliklər və Azərbaycan Respublikası Prezidentinin tapşırıqlarının yerinə yetirilməsi ictimai işlər növündə cəzanın və inzibati tənbehin icrasına nəzarətin yaxşılaşdırılmasını təmin etmiş, 2017-ci illə müqayisədə cərimə cəzası üzrə ödənişlərin və islah işlərini çəkən məhkumların qazancından tutulmaların məbləği əhəmiyyətli dərəcədə artmışdır.

Hal-hazırda beynəlxalq təşkilatların müəyyən etdiyi meyarlar nəzərə alınmaqla hazırlanan “Cəza çəkən məhkumlar və həbs edilmiş şəxslər” yeni informasiya sisteminin təşkili ilə bağlı aparılan işlər yekunlaşma mərhələsindədir. Bu sistem cəzaları icra edən orqan və müəssisələr arasında real vaxt rejimində qarşılıqlı məlumat mübadiləsini həyata keçirməyə, yazışmaları, habelə məhkumların şəxsi işlərini elektron formatda aparmağa imkan verməklə, Probasiya Xidmətinin əməkdaşlarının xidmət yükünün əhəmiyyətli dərəcədə azalmasına və onların fəaliyyətinin daha səmərəli təşkilinə zəmin yaradacaqdır. Eyni zamanda, bu sistemin digər dövlət məlumat sistemləri ilə inteqrasiyası və süni intelektin tətbiqi də nəzərdə tutulur.

2019-cu ilin sonuna kimi ictimai işlərə məhkum olunmuş məhkumlara nəzarətin yeni elektron vasitədən istifadə edilməklə həyata keçirilməsi ilə bağlı sınaqlara başlanacaqdır. Belə ki, barəsində ictimai iş tətbiq olunan şəxs onun üçün təyin olunmuş əraziyə daxil olaraq işə başlamazdan əvvəl əl-barmaq izi vasitəsi ilə həmin cihazı aktivləşdircək, bundan sonra onun coğrafi koordinatları onlayn qaydada Probasiya Xidmətinin Monitorinq mərkəzinə ötürüləcəkdir. Şəxs təyin olunmuş ictimai işləri yekunlaşdırdıqdan sonra əl-barmaq izi vasitəsi ilə cihazı söndürdükdə, bu barədə məlumat elektron nəzarət sistemində əks olunaraq qeydə alına-

caqdır. Elektron nəzarət vasitələrinin tətbiqi nəticəsində ictimai işlər təyin edilmiş şəxslərin iş saatları elektron qaydada hesablanmaqla, onların həmin işlərin keçirildiyi yerlərə vaxtında gəlib-getmələrinə nəzarət güclənəcəkdir. Göstərilənlərlə əlaqədar Azərbaycan Respublikasının Cinayət, Cəzaların İcrası və İnzibati Xətalar məcəllələrinə dəyişikliklər edilməsi barədə hazırlanmış qanun layihələri aidiyyəti üzrə təqdim edilmişdir.

Həyata keçirilmiş tədbirlər və Probasiya Xidmətinin ötən müddət ərzindəki fəaliyyətinin nəticələrinin təhlili ölkə başçısı tərəfindən müvafiq strukturun yaradılması barədə qərarın vaxtında qəbul edilməsini göstərməklə, gələcəyə nikbinliklə baxmağa imkan verir və onun inkişafı ilə bağlı tədbirlərin davam etdirilməsini tələb edir.

Fikrimizcə, Probasiya Xidmətinin yaxın gələcəkdəki inkişafı aşagıdakı üç əsas istiqamətdə davam etməlidir:

- xidmətin fəalyyətini tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsi;
- fəaliyyətin, idarəetmənin təşkilinin, nəzarətin yaxşılaşdırlıması məqsədilə xidmətin strukturunun təkmilləşdirilməsi;
- kadrların hazırlanması sisteminin təkmilləşdirilməsi, əməkdaşların səmərəli fəaliyyət göstərmələri və onların lazımı sosial müdafiəsinin təmin edilməsi məqsədilə zəruri şəraitin yaradılması.

Birinci istiqamət üzrə, ilk növbədə Probasiya Xidmətinin hüquqi statusunu, barəsində probasiya nəzarəti həyata keçirilən şəxslərin hüquq və azadlıqlarının təminatını, belə məhkumlara tətbiq edilən reabilitasiya və adaptasiya tədbirlərinin siyahısını müəyyənləşdirən, habelə xidmətin fəaliyyəti ilə bağlı digər məsələləri, onun dövlət və digər orqanlarla qarşılıqlı münasibətini tənzimləyən "Probasiya haqqında" Qanunun qəbulu vacibdir.

İkincisi, azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaların icrası qaydasının tənzimlənməsi ilə əlaqədar Cinayət, Cinayət-Prossesual və Cəzaların İcrası məcəllələrinə bir sıra dəyişikliklər edilməsi zərurəti vardır. Belə ki, Azərbaycan Respublikasının Cə-

zaların İcrası Məcəlləsinin qəbulundan keçən dövr ərzində müvafiq Probasiya Xidmətinə həvalə edilmiş, xüsuslə məhkumun əmək fəaliyyəti ilə bağlı cəzaların icrasına toxunan və onların dəyişdirilməsini tələb edən bir sıra digər qanunvericilik aktları qəbul edilmişdir. Belə ki, 2017-ci ilin iyun ayında "İşsizlikdən sığorta haqqında" Qanun qəbul edilmiş, 2018-ci ilin sentyabr ayında "Məşgulluq haqqında" yeni Qanun qüvvəyə minmişdir. Hər iki qanun işsiz şəxslərin işlə təmin edilməsi qaydasını, habelə bununla bağlı əmək münasibətlərinin tənzimlənməsini əsaslı şəkildə dəyişdirmişdir. Eyni zamanda, sahibkarlıq fəaliyyəti, vergilərlə bağlı qanunvericilik də təkmilləşdirilmişdir. Qeyd olunanlar öz növbəsində müvafiq cəzaların, xüsusilə islah işləri növündə cəzanın icrası mexanizminin yenidən nəzərdən keçirilməsini şərtləndirir.

Qeyd etmək istərdik ki, qanunvericiliyin təkmilləşdirilməsi zamanı qabaqcıl dövlətlərin müsbət təcrübəsinin və beynəlxalq aktlarda, xüsusilə 20 yanvar 2010-cu il tarixli "Avropa Probasiya Qaydaları"nda və 22 mart 2017-ci ildə Avropa Şurasının Nazirlər Komitəsinin qəbul etdiyi "İctimai sayksiya və tədbirlər haqqında Avropa Qaydaları"nda göstərilmiş standartların nəzərə alınması məqsədəuyğundur.

Probasiya Xidmətinin ötən müddət ərzindəki fəaliyyətinin təhlili, habelə bir sıra dövlətlərin təcrübəsinin öyrənilməsi göstərir ki, fəaliyyətin təşkilinin, onun effektiv idarə edilməsinin, habelə səmərəli nəzarətin təmin olunması xidmətin strukturunun təkmilləşdirilməsini zəruri edir. Bununla əlaqədar digər dövlətlərin probasiya xidmətlərinin təcrübəsində rast gəlinən iki və ya üç pilləli idarəetmə strukturunun təşkilini məqsədəuyğun hesab edirik. Bu təklif rayonlarda (şəhərlərdə) müstəqil probasiya şöbələrinin, gələcəkdə isə, regional probasiya strukturlarının yaradılması ilə reallaşa bilər.

Məhkumların sayının, bununla əlaqədar Probasiya Xidməti əməkdaşlarının iş yükünün artması nəzərə alınmaqla, kadrların hazırlanması, onların səmərəli fəaliyyəti üçün şəraitin yaradılması, sosial müdafiəsinin gücləndirilməsi əhəmiyyətli vəzifələrdən

biridir və bununla bağlı aşağıda sadalanan tədbirlərin həyata keçirilməsini təklif edirik. Birincisi, Probasiya Xidməti üçün kadrların hazırlanması sistemini təkmilləşdirmək vacibdir, bunun üçün ilkin və peşə hazırlığı, habelə ixtisasın artırılması üzrə proqramlar yenidən nəzərdən keçirilməlidir. İxtisaslı kadrların hazırlanması məqsədilə ölkədə mövcud olan ali təhsil müəssisələrinin birinin hüquq fakultəsində, yaxud Ədliyyə Akademiyasında probasiya fəaliyyəti ixtisası üzrə qrup və ya kursun təşkil edilməsi məqsədəuyğun hesab olunur.

İkincisi, beynəlxalq təcrübə nəzərə alınmaqla, Probasiya Xidməti əməkdaşlarının məqbul iş yükünün normasını müəyyənləşdirmək vacibdir, bu da öz növbəsində həvalə edilmiş vəzifələrin icrası üzrə fəaliyyətin optimallaşdırılmasına və onun daha səmərəli təşkilinə kömək edə bilərdi.

Üçüncüsü, xidmətin qarşısında duran vəzifələrin icrasının xeyli asanlaşdırılmasını və əməkdaşların işinin səmərəliyinin daha artmasını təmin edə biləcək müasir texniki və elektron vasitələrdən istifadənin genişləndirilməsi ilə bağlı tədbirlər görülməlidir.

Dördüncüsü, xidmətə marağın artırılması məqsədilə əməkdaşların əmək haqqlarına yeni əlavələrin müəyyən olunması, onlar üçün nəzərdə tutulmuş güzəştlərin dairəsinin genişləndirilməsi, Probasiya Xidməti əməkdaşlarının statusunun ölkənin Penitensiar Xidmətinin əməkdaşlarının statusuna bərabərləşdirilməsi məsələsinə baxılması məqsədəuyğun olardı.

Yuxarıda göstərilən təkliflərin icrası sözsüz ki, maliyyə vəsaitinin artmasını şərtləndirəcək, onların bir hissəsini cəzaçəkmə müəssisələrində məhkumlarının sayının azalması nəticəsində əldə edilən qənaət hesabına ödəmək olardı.

Qeyd etmək istərdik ki, Probasiya Xidmətinin gələcək inkişaf istiqamətləri üzrə tədbirlər ümumi şəkildə Azərbaycan Respublikası Prezidentinin 18 dekabr 2018-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan ədliyyəsinin inkişafına dair 2019–2023-cü illər üçün Dövlət Proqramı"nda öz əksini tapmışdır. Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 03 aprel 2019-cu il ta-

rixli “Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” Fərmanında məhkəmə qərarlarının icrasının sürətləndirilməsi və effektivliyinin artırılması, bu sahədə süründürməçilik və sui-istifadə hallarına yol verilməsinin qarşısının alınması ilə bağlı verilmiş tapşırıqları da nəzərə almaq zəruridir.

Fikirləşirik ki, yuxarıda göstərilən və digər zəruri tədbirlərin həyata keçirilməsi, Azərbaycan Respublikasında Probasiya Xidmətinin ardıcıl inkişafını təmin etməklə yanaşı, bu yeni strukturun səmərəli fəaliyyəti üçün zəruri və əlverişli şərait yaradacaq və onun beynəlxalq aktlar səviyyəsində qurulmasına köməklik edəcəkdir.

***İstinad edilmiş mənbələr:***

***1. “Cəza-icra hüququ” elmi jurnal (rus dilində). Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası, Ryazan, 2019. Tom 14 (1–4), № 2. Səh. 170–174.***

***2. “Beynəlxalq penitensiar jurnal” (https:// ipj.editorum.ru) (rus dilində). Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası, Ryazan, 2020. Tom 2 (1–3), № 1, Səh. 46–52.***

## Azərbaycan Respublikasında cəzaların icrası prosesində elektron nəzarət vasitələrindən istifadə edilməsi

XX əsrin sonunda azadlıqdan məhrum etmə yerlərində məhkumların sayının artması, həbsxanalarda sıxlıqla ilə əlaqədar yaranmış çətinliklər həmin vacib problemin həlli ilə bağlı yeni yolların axtarılması, yəni əlavə alternativ cəza növləri, onların icrasının səmərəliyinin artırılması daxil olmaqla, dünya dövlətləri qarşısında vəzifə qoymuşdur. Bu prosesə beynəlxalq təşkilatlar da fəal şəkildə qoşulmuşlar. Birləşmiş Millətlər Təşkilatı və Avropa Şurası problemin həllinə yönəlmiş tövsiyələri özündə ehtiva edən sənədlər qəbul etmişlər. Həmin sənədlər arasında BMT-nin Baş Assambieyası tərəfindən 14 dekabr 1990-ci il tarixli 45/110 "Həbslə bağlı olmayan tədbirlərlə əlaqədar minimal stanrart Qaydalar (Tokio qaydaları)", Avropa Şurası tərəfindən 30 sentyabr 1999-cu il tarixli "Həbsxanaların dolması və məhkumların sayının azaldılması" ilə bağlı R(99)22 nömrəli, 29 noyabr 2000-ci il tarixli "İctimai sanksiya və tədbirlərlə bağlı Avropa Qaydalarının təkmilləşdirilməsi haqqında" R(2000)22, 20 yanvar 2010-cu il tarixli "Avropa probasiya qaydaları" ilə bağlı R(2010)1 saylı tövsiyələr qəbul edilmişdir. Göstərilən sənədlərdə digər tədbirlərlə yanaşı, müstəqil cəza növü qismində və yaxud azadlıqdan məhrum etməyə alternativlərin daha səmərəli icrasına zəmin yaradan elektron nəzarət vasitələrinin (bundan sonra ENV) tətbiqi tövsiyə edilir. Məhkumlara ENV-lərin tətbiqinə hələ ötən əsrin 60-ci illərində Amerika Birləşmiş Ştatlarında start verilmiş, lakin onların geniş istifadəsinə yalnız 1990-ci illərin sonundan başlanılmışdır. Avropa dövlətləri tərəfindən ENV-lərin geniş tətbiqini nəzərə alaraq, Avropa Şurası 19 fevral 2014-cü il tarixli "Elektron nəzarət haqqında" R (2014)4 nömrəli xüsusi Tövsiyə də qəbul etmişdir. Bu sənəddə elektron cihazların tətbiq olunduğu şəxslərin hüquqlarına tam riayət olunmaqla, cinayət icraatı prosesində elektron nəzarət vasitələrinin müxtəlif formalarından ədalətli, mütənasib və səmə-

rəli istifadəni təmin edən etik və peşəkar standartları nəzərə alan fundamental prinsiplər müəyyən edilmişdir.

Təhlil göstərir ki, ENV-dən istifadə imkanları, ilk növbədə, məhkəmələr tərəfindən məhkumun cəmiyyətdən təcrid olunması ilə bağlı cəzaların təyin edilməsinin məhdudlaşdırılmasına, cəzaçəkmə müəssisələrində cəza çəkənlərin sayının, habelə cəza-icra sisteminin saxlanmasına dövlət büdcəsindən ayrılan vəsaitinin azalmasına kömək edir; ikincisi, nəzarət subyektlərinin daimi monitorinqini təmin edir, onların yeni hüquq pozuntularına yol verməsi imkanlarının əhəmiyyətli dərəcədə azalmasına töhfə verir, habelə, nəzarət edilən şəxslərin öz vəzifələrini yerinə yetirməsinə nəzarəti həyata keçirən əməkdaşların iş yükünü xeyli azaldır.

Azərbaycan Respublikasının Prezidentinin 10 fevral 2017-ci il tarixli "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncamında cəzaların icrası prosesində ENV-lərdən istifadə edilməsi ilə əlaqədar aidiyyəti orqanlara tapşırıq öz əksini tapmışdır. Bununla əlaqədar qanunvericiliyə dəyişikliklər edilmiş, qısa müddət ərzində ENV-lərdən istifadə, onların növləri, proqram təminatı və istehsal imkanları ilə bağlı mövcud dünya təcrübəsi öyrənilmişdir. Nəticədə, ENV-lərin Azərbaycanda istehsal edilməsi ilə bağlı qərar qəbul edilmiş, 2018-ci ilin yanvarından onların sınaqlarına başlanmışdır. Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinə (bundan sonra AR CİM) əlavə edilmiş yeni 15-2-ci maddəyə uyğun olaraq ENV-lər ilk növbədə, azadlığın məhdudlaşdırılması növündə cəza tətbiq edilmiş məhkumlara tətbiq olunur. Onlar həmçinin, məhkəmə qərarına əsasən şərti məhkum edilmiş və ya cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxslərə də tətbiq edilə bilər.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin elektron nəzarət vasitələrinin siyahısının və onların tətbiqi qaydalarının təsdiq edilməsi ilə bağlı 10 aprel 2018-ci il tarixli Qərarı qüvvəyə

mindikdən sonra məhkəmə qərarlarına uyğun olaraq ölkədə ENV-lərin rəsmi tətbiqinə başlanılmışdır. Ölkə məhkəmələri qanunvericilikdəki yeniliyə, habelə məhkumlar üzərində elektron nəzarətin həyata keçirilməsi imkanlarına maraqla yanaşmışlar. Göstərilənlərlə əlaqədar, ENV-lərin tətbiqi ilə bağlı cəzaların, xüsusilə azadlığın məhdudlaşdırılmasının tətbiqi sürətlə artmışdır. Belə ki, 15 aprel 2018-ci ildən 15 sentyabr 2020-ci ilə kimi müddətdə ölkənin Probasiya xidmətinin qeydiyyatında olan beş mindən artıq məhkuma ENV-i tətbiq edilmişdir. Nəticədə, qısa müddət ərzində Azərbaycan Respublikası ENV-lərin tətbiqi ilə bağlı Avropada qabaqcıl mövqeyə çıxmışdır. Belə ki, Avropa Şurasının tapşırığına uyğun olaraq Lozanna universiteti tərəfindən hazırlanan cinayət statistikası üzrə SPACE II məruzəsinə əsasən Avropa Surasına üzv ölkələr arasında 2019-cu il uzrə Azərbaycan Respublikası Serbiya və Norveçdən sonra 8,5 % göstərici ilə üçünçü yerdə yerləşmişdir. Həmin dövrdən ötən müddət ərzində Azərbaycan Respublikasında həmin göstərici 2,6 dəfə artmış və 2020-ci ilin 1 sentyabrına 22,4 % olmuşdur. ENV tətbiq edilmış məhkumların 95 %-dən çoxunu azadlığın məhdudlaşdırılması cəzasını çəkən şəxslər təşkil edirdi. 2020-ci ilin sentyabr ayının əvvəlinə üç mindən artıq məhkum üzərində, onlardan 113 qadın, 23 yetkinlik yaşına çatmayanlar olmaqla, elektron nəzarət həyata keçirilirdi. İstinad olunan müddətdə ENV-lərin daşınma müddəti müxtəlif olmuşdur: 21,5 % məhkuma nəzarət vasitəsi birilədək, 53,1 %-ə iki ilədək, 23 %-ə üç ilədək və 2,3 %-ə isə beş ilədək tətbiq edilmişdir. Statistikaya uyğun olaraq ENV tətbiq edilmiş məhkumların 35,7 %-ni oğurluq, 32,8 %-ni satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri xeyli miqdarda əldə etmə, saxlama, hazırlama, emal etmə, daşıma, 5,7 %-ni dələduzluq, 4,7 %-ni xuliqanlıq, 3,9 %-ni isə, məhkəmənin hökmünü, qərarını, yaxud digər aktını icra etməmə cinayətlərinə görə məhkum edilmiş şəxslər təşkil etmişlər. Məhkumlara tətbiq edimiş ENV-lərin tətbiqi ilə əlaqədar müşahidə olunan profilaktik səmərəni və müsbət nəticələri qeyd etmək lazımdır. Ötən dövr ər-

zində ENV-lərin tətbiqi təcrübəsinin təhlili göstərir ki, müvafiq məhkumların sayının ardıcıl olaraq artmasına baxmayaraq, cəmiyyətdən təcrid edilmə ilə əlaqadar olmayan digər cəzaları çəkən şəxslərlə müqayisədə, onlar tərəfindən təkrar cinayətlərin törədilməsi halları daha aşağı olmuş və azalma tendensiyası müşahidə edilir. Belə ki, 2019-cu ildə ENV-i tətbiq edilmiş məhkumların yalniz 2,9 %-i yeni cinayətlər törətmişlər, 2020-ci ilin ilk səkkiz ayında həmin göstərici 1,2 %-dən az olmuşdur.

Azərbaycan Respublikasının Prezidentinin 18 dekabr 2018-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş ”Azərbaycan ədliyyəsinin inkişafına dair 2019–2023-cü illər üçün Dövlət Proqramı”nda əks olunmuş vəzifənin icrası ilə əlaqədar ENV-lərin digər kateqoriyalı məhkumlara tətbiqinin mümkünlüyü ilə bağlı araşdırmalar aparılmışdır. Azərbaycan Respublikasının Prezidentinin 10 fevral 2017-ci il tarixli Sərəncamındakı ictimai işlər cəzasının formal icrası təcrübəsinin qarşısının alınması və həmin cəzanın icrasına effektiv nəzarətin təmin edilməsi ilə bağlı verilmiş tapşırığa uyğun olaraq sözügedən məhkumlara ENV-lərin tətbiqi imkanları hərtərəfli öyrənilmişdir. Qeyd olunmalıdır kı, Azərbaycan Respublikasında hələ 2017–2018-ci illərdə ictimai işlər növündə cəzanın icrası ilə bağlı mövcud nöqsanların aradan qaldırılması və bu sahədə işin səmərəliyinin artırılması ilə əlaqədar kompleks tədbirlər görülmuş və onların nəticələri diqqəti cəlb edir. Göstərilən arasdırmanın nəticələrinə əsasən Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə (bundan sonra AR CM) və AR CİM-ə dəyişikliklər edilməsi ilə bağlı təkliflər hazırlanmış, onlar 20 iyun 2020-ci il tarixdə ölkənin parlamenti tərəfindən qəbul edilmişdir. AR CM-in 47-ci maddəsinə edilmiş dəyişikliklərə uyğun olaraq, məhkəmə tərəfindən ictimai işlər növündə cəzaya məhkum edilmiş şəxslərin üzərinə ictimai işlərin yerinə yetirildiyi yerlərdə elektron nəzarət vasitəsini gəzdirmək və həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etmək vəzifələri qoyulmuşdur. İctimai işlər növündə inzibati təhbehin icrası qaydalarının oxşar olduğu nəzərə alınmaqla, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə də

eyni dəyişikliklər edilmişdir. Qanunvericiliyə uyğun olaraq ictimai işlər növündə cəza çəkən və ya ictimai işlər növündə inzibati tənbeh tətbiq olunmuş şəxslərə (bundan sonra məhkumlar) ENV-i icra məmuru (probasiya üzrə) onları qeydiyyata alarkən təqdim edir. Məhkumlara tətbiq edilən yeni ENV-lər digər məhkumlara tətbiq olunan vasitələrdən öz görünüşünə, ölçüsünə, daşınma qaydasına və yerinə yetirdiyi funksiyalara görə fərqlidir. Birincisi, onlar yüngül və daşınma üçün çox rahatdır. Yeni ENV-lər görünüşünə və ölçüsünə görə peycerlərə oxşayır, barmaq izi skaneri və vibrasiya xəbərdarlıq siqnalı ilə təchiz edilmişdir. İstifadə üçün təqdim olunan həmin elektron nəzarət vasitəsi müvafiq şəxslərin müəyyən edilmiş vaxt ərzində ictimai işlərin yerinə yetirilməsi yerlərində olmasını avtomatlaşdırılmış rejimdə izlənilməsini təmin edən və məlumatı Elektron Monitorinq mərkəzinə (bundan sonra Mərkəz) ötürən elektron cihazdır.

Məhkumlar ictimai işlərin keçirildiyi yerlərə daxil olarkən əlbarmaq izi vasitəsilə Mərkəzə məlumat ötürməklə, ENV-ini aktivləşdirir və bu zaman Mərkəzə müvafiq siqnal daxil olur. Mərkəz məhkumlara nəzarəti həyata keçirməklə yanaşı, sonuncular tərəfindən yerinə yetirilmiş ictimai işlərin elektron uçotunu aparır, bu da öz növbəsində istər məhkum, istərsə işəgötürən tərəfindən suiistifadələrə yol verilməsinin qarşısını alır.

Pozuntular barədə, yəni ictimai işlərin yerinə yetirildiyi yerlərin vaxtından əvvəl tərk olunduğu barədə, habelə izləmə ilə bağlı siqnal daxil olmadıqda, Mərkəzdən məhkuma vibrasiya siqnalından istifadə edilməklə, xəbərdarlıq göndərilir. Siqnalı alan məhkum dərhal, lakin on beş dəqiqədən çox olmayan müddətdə Mərkəzin dispetçeri ilə telefon əlaqəsi yaratmalı və yaranmış vəziyyətə aydınlıq gətirməlidir. Məlumat daxil olmadığı və pozuntu halları müəyyən edildikdə, onlar Mərkəz tərəfindən qeydiyyata alınır, müvafiq sənəd araşdırılması və qanunvericilikdə nəzərdə tutulmuş tədbirlər görülməsi məqsədilə ərazi üzrə icra məmuruna (probasiya üzrə) göndərilir. Məhkumun ENV-ni digər şəxslərə verməklə ictimai işlərin yerinə yetirildiyi ərazini tərk etməsinin

qarşısının alınması məqsədilə Mərkəzdən məhkumun həmin yerdə olmasını müəyyənləşdirmək məqsədilə əl-barmaq izinin təkrar təsdiqlənməsi ilə bağlı ona sorğu göndərilir. Elektron nəzarət vasitəsinin nəzarət subyektinin üzərində olmasını yoxlamaq məqsədilə şəxslərdən əl-barmaq izinin təsdiqlənməsi ilə əlaqədar daxil olmuş məlumat yanlış olduqda və yaxud ictimai işlər təyin edildiyi yerdə olması təsdiq edilmədikdə, Mərkəzin dispetçeri nəzarət subyekti ilə əlaqə yaratmağa cəhd edir və bu barədə icra məmuruna (probasiya üzrə) məlumat verir. Əl-barmaq izinin təsdiqlənməsi ilə əlaqədar daxil olmuş məlumat yanlış olduqda, məhkumun yerinin və ENV-ni digər şəxsə verilməsinin səbələrinin müəyyənləşdirilməsi ilə bağlı tədbirlər görülür.

Yeni ENV-lər Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya Xidmətində fəaliyyət göstərən Mərkəzin izləmə sisteminə inteqrasiya olunmuşdur. Mərkəzin dispeçerləri elektron qolbaqlar tətbiq edilmiş digər məhkumlarla yanaşı, ictimai işləri yerinə yetirən məhkumlara da müvafiq ENV-lər vasitəsi ilə nəzarəti həyata keçirirlər. Eyni zamanda, müvafiq ərazilər üzrə icra məmurları (probasiya üzrə) yerli probasiya qurumunda quraşdırılmış işçi stansiyalar vasitəsilə real vaxt rejimində vizual nəzarəti həyata keçirə bilərlər, habelə ictimai işlərin yerinə yetirilməsi prosesində yol verilmiş pozuntular barədə məlumatı Mərkəzdən ala bilərlər.

Qeyd olunmalıdır ki, qanunvericiliyə uyğun olaraq, ENV-ni gəzdirməkdən imtina etmə, onu zədələmə və ya digər üsulla yararsız vəziyyətə salma, yaxud həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün üzrsüz səbəbdən ona xidmət etməmə, cəzanın çəkilməsindən qərəzli boyun qaçırma hesab edilir və AR CİM-in 38-ci maddəsinə uyğun olaraq ictimai işlərin digər daha ağır cəza ilə əvəz edilməsi məqsədilə məhkəməyə təqdimat verilməsi üçün əsas yaradır.

Qanunvericiliyə edilmiş müvafiq dəyişikliklərin qüvvəyə minməsinə kimi yeni ENV-nin tətbiqi ilə əlaqədar aparılmış sınaq yoxlamaları, habelə onların ictimai işlər növündə cəza və ya inzi-

bati tənbeh tətbiq edilmiş şəxslər tərəfindən faktiki istifadəsi ilə bağlı ilkin nəticələr onların səmərəliyini və cəzanın icrası qaydalarının pozulması hallarının azalmasını göstərir.

Yuxarıda göstərilənləri nəzərə alaraq, qeyd etmək istərdik ki, ENV-lərin tətbiq oluna biləcəyi məhkumların siyahısının genişləndirilməsi ilə əlaqədar imkanlar az deyildir. İlk növbədə, onları məntəqə tipli cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumlara tətbiq edilməsini təklif edirik. Belə tədbir məntəqə tipli cəzaçəkmə müəssisəsinin hüdudlarından kənarda olan, o cümlədən təhsil və ya işlə əlaqəli məhkumlara məsafədən elektron nəzarəti həyata keçirməyə imkan yarada bilər. Qeyd olunan məhkumlara ENV-nin tətbiqi müvafiq cəzaçəkmə müəssisəsinin fəaliyyətinin daha səmərəli təşkilinə, məhkumlar tərəfindən cəzanın icrası qaydalarının yerinə yetirilməsinə dəstək verməklə, ölkə başçısının yuxarıda istinad edilən sərəncamında göstərilən məntəqə tipli cəzaçəkmə müəssisəsinin əməkdaşları tərəfindən yol verilə bilən korrupsiya və digər neqativ halları istisna edən şəraitin təmin olunmasına imkan yarada bilərdi. Elektron izlənmənin tətbiqi, habelə AR CİM-in 119-cu maddəsində nəzərdə tutulmuş məhkumların təhsil və ya iş yerlərində yoxlanmasını da aradan qaldırmaqla, əməkdaşların xidmət yükünün xeyli azalmasına kömək edə bilərdi. Qeyd olunmalıdır ki, müvafiq təkilf əvvəllər Şvırev B.A. tərəfindən də nəzərdən keçirilmişdir.

ENV-nin AR CİM-in 89-cu maddəsinə uyğun olaraq cəzaçəkmə müəssisələrinin hüdudlarından kənara qısa müddətli səfərlərə icazə verilmiş məhkumlara da tətbiqini məqsədəuyğun hesab edirik. Belə tətbiq, səfərə icazə verilmiş məhkumun onun üçün müəyyən edilmiş marşruta riayət edilməsini, habelə azadlıqda olduğu müddətdə yerdəyişmələrini izləməyə imkan yarada bilərdi.

Sözsüz ki, ENV-lər ədalət mühakiməsinin digər vəzifələrinin də yerinə yetirilməsi məqsədilə istifadə oluna bilər. Belə ki, AR CM-in 88-ci maddəsinə uyğun olaraq, ilk dəfə böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətmiş, lakin tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq edilməklə, cinayət məsuliyyətin-

dən azad olunmuş, barəsində asudə vaxtın məhdudlaşdırılması və davranışına xüsusi tələblər müəyyən edilmiş yetkinlik yaşına çatmayanlara müvafiq nəzarətin daha səmərəli həyata keçirilməsi məqsədilə onlara ENV-in tətbiqini təklif edirik.

ENV-lərin tətbiqinin genişləndirilməsi ilə əlaqədar verilmiş təklifləri həyata keçirilməsi məqsədilə, AR CM-in 56, 87-ci maddələrinə və AR CİM-in 15-2, 89, 119-cu maddələrinə dəyişikliklər edilməsi zərurəti yaranacaqdır.

***İstfadə edilmiş mənbə:***

***"Cəza-icra sistemi müasir dövrdə və onun inkişaf perspektivləri" mövzusunda Beynəlxalq konfrans iştirakşılarının çıxışlarının və məruzələrinin tezislərinin toplusu (rus dilində). Ryazan, Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası, 2020. Tom 1, Səh. 69–74.***

## Azərbaycan Respublikasında müəyyən müddətə azadlıqdan məhrum etmə cəzası

Azərbaycan Respublikasının cinayət qanunvericilyinə əsasən müəyyən müddətə azadlıqdan məhrum etmə cəzası cinayət törətməkdə təqsirli bilinmiş şəxslərə təyin olunan əsas cəza növlərindən biridir. Azadlıqdan məhrum etmə cəzası digər cinayət cəzalarından öz məzmununa və icra qaydasına görə kifayət qədər və kəskin şəkildə fərqlənir. Belə ki, azadlıqdan məhrum etmə:

- Azərbaycan Respublikasının Cinayət Məcəlləsində ictimai təhlükəlilik dərəcəsindən və xarakterindən asılı olaraq nəzərdə tutulmuş dörd kateqoriyaya bölünən bütün, yəni böyük ictimai təhlükə törətməyən, az ağır, ağır və xüsusilə ağır cinayətlərə görə təyin edilir;
- məhkumun cəzaçəkmə müəssisəsinə yerləşdirilməsi yolu ilə cəmiyyətdən təcrid edilməsində ifadə olunur;
- yüksək represivliyə malikdir;
- digər cəzalarla müqayisədə məhkum üçün daha geniş məhdudiyyətlər yaradır və onun şəxsi həyatına əhəmiyyətli dərəcədə siyarət edir;
- digər cəzalara nisbətdə müddəti daha uzundur;
- mənfi sosial nəticələrə gətirib çıxarır (ailənin dağılması, maddi vəziyyətə mənfi təsir, cinayət davranışlı təcrübənin əldə olunması və digər);
- cəzaçəkmə müəssisələrində saxlanılan şəxslərin sayının artmasına zəmin yaradır;
- icrası dövlət tərəfindən ayrılan böyük maliyyə vəsaitləri ilə bağlıdır.

Azərbaycan Respublikasında azadlıqdan məhrum etmə digər cəzalara nisbətən daha tez-tez tətbiq olunur. Məhkəmə statistikasına əsasən 01 sentyabr 2000-ci il tarixdən yeni Cinayət Məcəlləsi qüvvəyə mindikdən sonrakı on dörd il, yəni 2001-2014-cü illərdə Azərbaycan Respublikasında azadlıqdan məhrum etmənin tətbiqi faizi 37-53 % arasında dəyişmiş, həmin illərdə orta hesabla bu cə-

za məhkum edilmiş şəxslərin 44,5 %-nə təyin edilmişdir.

Qeyd etmək lazımdır ki, azadlıqdan məhrum etmə XX əsrin ikinci yarısında da Azərbaycanda hakim mövqedə olmuşdur. Belə ki, əgər 60-cı illərdə azadlıqdan məhrum edilmiş məhkumların orta sayı 28-32 % arası təşkil edirdisə,1970-ci ildən başlayaraq bu göstərici sürətlə artmağa başlamış və 1983-cü ildə artıq 55 % olmuşdur.

Məhkəmələrin cəza tətbiqetmə təcrübəsinin təhlili göstərir ki, bu cəza növünə SSRİ süqut edənə kimi məhkum edilmiş belə şəxslərin faiz nisbəti 35-55 % arası dəyişmişdir. Belə ki, 1971-1991-ci illərdə həmi göstərici 41-45 % olsa da, 1980-1997-ci illərdəki dövrdə 50-54 % kimi artım baş vermişdir. Belə vəziyyət ilk növbədə Cinayət Məcəlləsinin Xüsusi Hissəsindəki maddələrinin sanksiyaları ilə əlaqədardır. Belə ki, 1960-ci il tarixli Cinayət Məcəlləsinin 01 sentyabr 2000-ci il tarixindəki sonuncu redaksiyasında mövcud 277 maddəsinin 256-nın sanksiyalarında azadlıqdan məhrum etmə nəzərdə tutulmuşdur ki, bu da onların ümumi sayının 92,4 % təşkil edirdi. Onlardan 103 maddədə azadlıqdan məhrum etmə yeganə, 153 maddədə isə alternativ cəza kimi olmuşdur. Cinayət Məcəlləsinin Xüsusi Hissəsinin cəmi 21 maddəsində azadlıqdan məhrum etmə cəzası yox idi.

Azərbaycan Respublikasının yeni Cinayət Məcəlləsinin Xüsusi Hissəsinin 536 maddəsinin (müvafiq maddələrin hissələri də maddə kimi nəzərə alınmaqla) 491-də azadlıqdan məhrum etmə alternativ və ya yeganə cəza kimi nəzərdə tutulmuşdur ki, bu da ümumi sayın 92,6 % təşkil edirdi. Yeni Cinayət Məcəlləsinin ilkin redaksiyasında yalnız 45 maddənin sanksiyasına azadlıqdan məhrum etmə daxil edilməmişdi. Ötən on beş il ərzində Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə yeni ictimai təhlükəli əməllərə görə, o cümlədən şəxsin azadlığı və ləyaqəti, ictimai təhlükəsizlik və ictimai qayda, idarəetmə əleyhinə olan cinayətlərə görə məsuliyyətin sərtləşdirilməsi ilə əlaqədar edilmiş ümumən 99 dəyişikliklərlə bağlı müxtəlif sanksiyalara, bir qayda olaraq azadlıqdan məhrum etmə daxil edilmişdir. Müqayisə üçün qeyd olunma-

lıdır ki, Azərbaycanın 1960-cı ilin Cinayət Məcəlləsinə ötən qırx il ərzində cəmi 137 dəyişiklik edilmişdir. Azərbaycan Respublikasının 31 may 2011-ci il tarixli Qanunu ilə azadlığın məhdudlaşdırılması növündə cəzanın Cinayət Məcəlləsindən çıxarılmasından sonra azadlıqdan məhrum etmə öz mövqeyini daha da möhkəmləndirmişdir. 01 avqust 2015-ci il tarixinə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin Xüsusi Hissəsindəki 665 maddənin 615-nin sanksiyasında azadlıqdan məhrum etmə nəzərdə tutulmuşdur, bu da ümumi sayın 92,5 % təşkil edirdi. 346 maddədə azadlıqdan məhrum etmə yeganə, 269 maddədə isə alternativ kimi təyin oluna bilən cəza qismində çıxış edirdi, bu da faiz nisbəti ilə müvafiq olaraq 52 % və 40,5% təşkil edirdi. Cinayət Məcəlləsinin yalnız 50 maddəsinə azadlıqdan məhrum etmə cəzası daxil edilməmişdir.

Azadlıqdan məhrum etmənin müddətinə toxunaraq qeyd olunmalıdır ki, Azərbaycan Respublikasının 1960-ci ilin Cinayət Məcəlləsində bu cəza üç aydan on ilə kimi, ağır, o cümlədən ağır nəticələri olan cinayətlərə, xüsusi təhlükəli residivistlərə, habelə cinayətlərin və hökmlərin məcmusuna görə isə on beş ildən çox olmayan müddətə təyin edilə bilərdi. Ölüm cəzasının, habelə onun ləğvindən sonra ömürlük azadlıqdan məhrum etmənin əvəz edilməsi zamanı azadlıqdan məhrum etmənin maksimal müddəti 20 ilədək müəyyən olunmuşdur.

Azərbaycan Respublikasının 1999-cu il tarixli yeni Cinayət Məcəlləsinin 55-ci maddəsinə əsasən azadlıqdan məhrum etmənin müddəti ilkin olaraq üç aydan on beş ilə, hökmlərin məcmusuna gorə isə iyirmi ilə kimi idi. Cinayət Məcəlləsinin 82.3-cü maddəsinə əsasən ömürlük azadlıqdan məhrum etmə cəzası əfv qaydasında müddətli azadlıqdan məhrum etmə cəzası ilə əvəz edildikdə, bu müddət artıq iyirmi beş il də ola bilər. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə 30 may 2014-cü il tarixli Qanunla edilmiş dəyişikliklərə əsasən bəşəriyyət və insanlıq, hərbi xidmət, ictimai təhlükəsizlik, dövlət hakimiyyəti, şəxsiyyət (qəsdən adam öldürməyə) əleyhinə olan və xüsusilə ağır cinayətləri nəzərdə tu-

tan 21 maddədə azadlıqdan məhrum etmənin maksimal müddəti beş il artırılaraq artıq 20 il təşkil etmişdir. Eyni zamanda, həmin qanunla cinayətlərin və hökmlərin məcmusuna görə təyin edilən azadlıqdan məhrum etmə cəzasının müddəti də beş il artırılmış, müvafiq olaqaq iyirmi və iyirmi beş il təşkil etmişdir.

Azadlıqdan məhrum etmə cəzasının artmasına zəmin yaradan ikinci vacib amil məhkəmələrin cəza təyin etməyə yanaşmasıdır. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində azadlıqdan məhrum etmədən yayınmaq, yəni onu tətbiq etməmək üçün kifayət qədər imkanlar, yəni səmimi peşmançılq və ya zərərçəkmiş şəxslə barışmaqla cinayət məsuliyyətindən azad etmə, daha yüngül cəza təyin etmə və ya şərti məhkum etmə bağlı mövcud normalara, habelə Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 25 iyun 2003-cü il tarixli "Məhkəmələr tərəfindən cinayət cəzalarının təyin edilməsi təcrübəsi haqqında" 4 nömrəli Qərarındakı göstərilmiş tövsiyələrə baxmayraq, birinci instansiya məhkəmələri göstərilən imkanlardan nadir hallarda istifadə edirlər. Eyni zamanda, qeyd olunmalıdır ki, Apellyasiya Məhkəmələri də azadlıqdan məhrum etmə cəzasının təyin olunmasında birinci instansiya məhkəmələrinin mövqeyini əksər hallarda müdafiə edirlər.

Yuxarıda göstərilənləri nəzərə almaqla, belə nəticəyə cəlmək olar ki, Cinayət Məcəlləsinin Xüsusi Hissəsinin normaları, habelə təşəkkül tapmış mövcud məhkəmə təcrübəsi azadlıqdan məhrum etmə növündə cəzanın geniş tətbiqinə əlverişli şərait yaradır. Təsadüfi deyildir ki, Avropa Şurası tərəfindən hər il cinayət cəzalarının statistikası ilə bağlı aparılan təhlillər və onların əsasında dərc olunan SPASE I hesabatlarına əsasən Azərbaycan Respublikasında son bir neçə ildə hər yüz min nəfər əhaliyə düşən azadlıqdan məhrum edilmiş şəxslərin sayı 200-dən çox olmuşdur (2010-cu il -243, 2011-226, 2012-228, 2013-217). Bu göstəricilər bir sıra Avropa, habelə sabiq SSRİ-nin respublikalarından yaxşı olsa da, Avropa Şurasına daxil olan bir çox ölkələrdən və tövsiyə edilən məqbul "beynəlxalq normadan", yəni hər yüz min nəfər əhaliyə 80-100 məhkum göstəricisindən təxminən iki dəfə çoxdur.

Yuxarıda gəstərilənləri, habelə azadlıqdan məhrum edilmiş şəxslərin sayının azalması ilə əlaqədar hüquqpozucuları ilə rəftara həsr olunmuş beynəlxalq aktların tövsiyələri nəzərə alınmaqla, məhkəmə təcrübəsində azadlıqdan məhrum etmənin payının aşağı salınması barədə düşünmək vaxtı artıq çatmışdır. Bu məqsədlə hər hansı yenilik axtarmaq lazım deyil, ilk növbədə dünya, o cümlədən qonşu Rusiya Federasiyasının təcrübəsinə diqqətlə baxmaq yaxşı olardı. Göstərilən ölkədə son illərdə azadlıqdan məhrum etmənin sayının azaldılması məqsədilə Cinayət Məcəlləsinin humanistləşdirilməsinə yönəlmiş addımlar atılmış və onlar hazırda davam etməkdədir.

Azərbaycanda Cinayət Məcəlləsinin humanistləşdirilməsi, azadlıqdan məhrum edilmiş məhkumların sayının azaldılması məsələləri rəsmi dövlət olqanlarının, habelə ictimaiyyətiin daim diqqət mərkəzində qalmaqdadır. Yaxın gələcəkdə beynəlxalq təcrübə nəzərə alınmaqla, alimlərin və praktiki işçilərin iştirakı ilə mövcud vəziyyətin ciddi təhlil olunması və qanunvericilik orqanına baxılması üçün aşagıdakı təkliflərin təqdim edilməsi məqsədəuyğun olardı:

- Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlər üzrə bir sıra maddələrinin dekriminalaşması və sanksiyaların yüngülləşdirilməsi barədə;
- bir sıra böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlər üzrə maddələrin sanksiyalarından azadlıqdan məhrum etmə növündə cəzanın çıxarılması barədə;
- sanksiyası yalnız azadlıqdan məhrum etmə növündə cəza nəzərdə tutan maddələrin sayının azaldılması barədə;
- cinayət məsuliyyətindən və cəzadan azad etməni nəzərdə tutan, ilk növbədə bir sıra, o cümlədən iqtisadi fəaliyyət sahəsində törədilmiş cinayətlərlə bağlı vurulan maddi zərərin ödənilməsi ilə əlaqədar, həvəsləndirici normaların sayının artırılması barədə;
- səmimi peşmançılğa görə cinayət məsuliyyətindən azad etmə institutunun tətbiqi çərçivəsinin genişləndirilməsi barədə;

- barışıq institutunun (mediyasiyanın) tətbiq edilməsi barədə;

- məhkəməyəqədər probasiya daxil olmaqla, probasiya institutunun yaradılması barədə.

Hesab edirik ki, tərəfimizdən yuxarıda göstərilən təkliflər istər qüvvədə olan cinayət qanunvericiliyi çərçivəsində, istərsə yeni Cinayət Məcəlləsi, habelə digər qanunvericilik aktlar qəbul edilməklə həyata keçirilə bilər.

***İstinad edilmiş mənbə:***

***"Cinayət, cəza, islah" II Beynəlxalq Penitensiar Forum iştirakşılarının çıxış və məruzələrinin tezislərinin toplusu (rus dilində). Rusiya Federasiyası Cəzaların İcrası Fedaral Xidmətinin Hüquq və İdarəetmə Akademiyası, Ryazan, 2014. Tom 4, Səh. 250–255 (V.İ. Rzayevlə birlikdə).***

## Azadlıqdan məhrum edilmiş şəxslərin təsnifatı və onun təkmilləşdirilməsi

Azadlıqdan məhrum edilmiş şəxslərin cəzanı çəkməli olduqları cəzaçəkmə müəssisəsinin növünün müəyyənləşdirilməsi, yəni bu kateqoriyalı məhkumların təsnifatı, cəzanın qarşısına qoyulmuş məqsədlərə nail olunması, cəzanın icrasının səmərəli təşkili baxımından böyük əhəmiyyət kəsb edir. İnsan hüquq və azadlıqlarının müdafiəsinə həsr olunmuş beynəlxalq aktlar, ilk növbədə Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 10-cu maddəsi ümumi qaydada, məhbuslarla rəftara həsr olunmuş aktlar, yəni BMT-nin Məhbuslarla minimal standart davranış qaydaları, Avropa Penitensiar Qaydaları isə daha ətraflı şəkildə məhkumların yaşından, cinsindən, hüquqi statusundan asılı olaraq təsnifatının aparılmasını, yəni ayrı-ayrılıqda saxlanmasını tövsiyə edir və belə saxlanmanın məqsədlərini göstərir. Məhbuslarla minimal standart davranış qaydalarının 8-ci maddəsi təsnifatın məqsədini məhbusları cinayətkar keçmişləri, yaxud xarakterlərinin mənfi cəhətləri ilə onlara pis təsir göstərmək təhlükəsi doğuranlardan ayırmaq və onları azad cəmiyyətə qaytarmaq üçün aparılan işi asanlaşdıran kateqoriyalara bölməkdə görür. Avropa Penitensiar Qaydalarının 18-ci maddəsi öz növbəsində təsnifatın digər bir məqsədini, yəni idarəetmə və təhlükəsizlik tədbirləri nəzərə alınmaqla, məhkumları onlara göstərilən islah təsirinin və sosial uyğunlaşmanın asanlaşması baxımından yerləşdirilməsinin vacibliyini vurğulayır.

Məhkumların təsnifatının, yəni onların cəzanı çəkməli olduqları cəzaçəkmə müəssisəsinin növünün düzgün müəyyənləşdirilməsinin zəruriliyi Azərbaycan Respublikasının Ali Məhkəməsi tərəfindən müxtəlif cinayət işləri üzrə qərarlarında qeyd edilmiş, azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxslər üçün cəzaçəkmə müəssisəsinin növünün məhkəmələr tərəfindən təyin edilməsi təcrübəsi 28 iyun 2002-ci il tarixli Plenumda isə, müvafiq məsələ ətraflı müzakirə obyekti olmuşdur. Məsələ ilə bağlı sözügedən tarixdə qəbul edilmiş 2 nömrəli qərarda təsnifata

daima xüsusi diqqət yetirilməsinin vacibliyi bir daha məhkəmələrin diqqətinə çatdırılmışdır.

Məhkumların təsnifatının düzgün dərk edilməsi üçün, beynəlxalq aktlar nəzərə alınmaqla, habelə hüquq ədəbiyyatında mövcud olan müxtəlif yanaşmalara istinadən onun anlayışının müəyyən edilməsi əhəmiyyət kəsb edir. İlk öncə qeyd olunmalıdır ki, hüquq ədəbiyyatında azadlıqdan məhrum edilmiş məhkumların təsnifatı daim diqqəti cəlb edən problemlər sırasında olmuş və buna görə də müxtəlif yanaşmalar və fikirlər mövcuddur. M.D. Şarqorodskiy təsnifatın əsasında ilk növbədə fizioloji (cins, yaş, səhhət) və sosial (cinayəti ilk dəfə törədənlər, residivstlər) amillərin durduğunu və bundan sonra digər meyarların, yəni törədilmiş cinayətin xarakteri, onun məqsədi, motivi, əməlin törədilmə üsulu və vasitəsinin nəzərə alınmasını vacib hesab edirdi. N.İ. Zaqorodnikov təsnifatın həyata keçirilməsi zamanı bu əsaslarla yanaşı törədilmiş cinayətin yönəldiyi əsas obyekti, Y.B. Utevski məhkumların əməyə münasibətinin nəzərə alınmasını vacib hesab edirdilər. N.A. Belyayev, İ.İ. Karpets də bu fikirlərlə razılaşmaqla yanaşı, azadlıqdan məhrum edilmişlərin təsnifatının müəyyənləşdirilməsi zamanı bir sıra digər əsasların da nəzərə alınmasını təklif etmişlər. Fikrimizcə, təsnifatın əsasını ilk növbədə böyük əksəriyyət tərəfindən qəbul edilən və birinci dərəcəli əsaslar kimi sayılan məhkumların sosial-demoqrafik (cins və yaş) və cinayət-hüquqi xarakteristikasından (cinayətin kateqoriyası, təqsirin növü, azadlıqdan məhrum etmənin müddəti və məhkumluq) irəli gələn meyarlar təşkil etməlidir. Bundan sonra, ikinci dərəcəli əsasların nəzərə alınması nəzərdən keçirilə bilər. Qeyd olunanların ümumi (ilkin və yaxud əsas ayrılma) və xüsusi (əlavə və ya müəssisədaxili ayrılma) əsaslar kimi qəbul edilməsi daha düzgün olardı. Təsnifatın ümumi anlayışını, yəni bu anlayış altında əşyaların, faktların, hadisələrin və s. onların ümumi cəhətlərə görə biri-birinə yaxın və ya oxşar qrupları, dərəcələrə, siniflərə bölünməsi kimi qəbul edildiyini nəzərə almaqla, azadlıqdan məhrum edilmiş məhkumların təsnifatı anlayışının aşağıdakı kimi verilməsini məqsədəuyğun he-

sab edirik. **Azadlıqdan məhrum edilmiş məhkumların təsnifatı** – bu şəxslərin törədilmiş cinayətlərin xarakterindən, ictimai təhlükəlilik dərəcəsindən, təqsirin növündən, təyin edilmiş cəzanın müddətindən, yaşdan, cinsdən, keçmiş məhkumluqdan, habelə digər meyarlardan asılı olaraq oxşar qruplara (kateqoriyalara) ayrılması və ya bölünməsidir.

Yuxarıda göstərildiyi kimi azadlıqdan məhrum edilmiş şəxslərin təsnifatının aparılması təsadüfi deyildir və cəzanın icrası zamanı belə ayrılmanın qeyd edilənlərdən əlavə digər məqsədləri də vardır. İlk növbədə, azadlıqdan məhrum edilmiş şəxslərin təsnifatı cəzanın icrasının fərdiləşdirilməsi və differensiyası üçün əlverişli zəmin yaradır, cəzaçəkmə müəssisələrinin sisteminin formalaşmasına təsir edir, ictimai təhlükəlilik və davranışa görə fərqlənən məhkumları bir-birindən ayırmağa və təcrid etməyə imkan verir.

Azərbaycan Respublikasında beynəlxalq aktların tələbləri nəzərə alınmaqla azadlıqdan məhrum olunmuş şəxslərin təsnifatının müəyyənləşdirilməsi qanunvericiliyin üzərinə qoyulmuşdur. Cinayət Məcəlləsinin 55, 56 və 85-ci maddələri müxtəlif meyarlara istinad etməklə azadlıqdan məhrum edilmiş şəxslərin təsnifatının aparılması qaydasını, yəni belə məhkumların hansı növ cəzaçəkmə müəssisəsində cəza çəkmələrini müəyyənləşdirmişdir. Cəzaların icrası qanunvericiliyi, yəni Cəzaların İcrası Məcəlləsinin 72-ci maddəsi öz növbəsində bu təsnifatı bir qədər genişləndirmişdir. Yuxarıda qeyd olunanlara istinadən belə nəticəyə gəlmək olar ki, azadlıqdan məhrum edilmiş şəxslərin təsnifatı cinayət və cəza-icra hüququ sahələrinin qarışıq institutudur.

Azadlıqdan məhrum edilmiş şəxslərin təsnifatı onları bir-birindən təcrid etməyə, məhkumların təhlükəsizliyinin təmin olunmasına və islah işinin səmərəli şəkildə təşkil etməyə əlverişli imkanlar yaratsa da, onun tam mükəmməl olduğunu və təkmilləşdirilməsinə lüzum olmadığını iddia etmək düzgün olmazdı. Son illərdə azadlıqdan məhrum etmə cəzasının mahiyyətinin dəqiqləşdirilməsi, onun icrasının təkmilləşdirilməsi məsələlərinə xüsusi diqqət yetirilməsi, habelə cəza çəkənlərin azad cəmiyyətə daha tez inteq-

rasiyasının vacibliyi baxımından məhkumların təsnifatına yenidən baxılmasının əhəmiyyət kəsb edən probelmlər sırasına daxil edilməsi məqsədilə müvafiq tədqiqatların aparılması məqsədəuyğun olardı. Fikrimizcə, ilk növbədə azadlıqdan məhrum edilmiş məhkumların təsnifatının genişləndirilməsi imkanlarının nəzərdən keçirilməsi daha vacib məsələdir. Bunun üçün ümumi təsnifatın, habelə bir cəzaçəkmə müəssisəsi çərçivəsində istifadə edilən xüsusi təsnifatın yeni meyarlarının müəyyən edilməsi və onlara istinadən məhkumların cəzalarının icrasının müxtəlif qruplara bölünməklə həyata keıirilməsinin nə dərəcədə səmərəli olması məsələlərinin öyrənilməsi əhəmiyyət kəsb edir.

***İstinad edilmiş mənbə:***

***"Qloballaşan cəmiyyətdə hüquq elminin aktual problemləri" mövzusunda Hüquq fakultəsinin 80 illik yubiliyinə həsr olunmuş respublika elmi konfransının materialları. Bakı, Bakı Dövlət Universiteti, 2008. Səh. 79–81.***

## Azərbaycan Pespublkasında azadlıqdan məhrum etmə cəzasının müddəti və onun bəzi problemləri

Azərbaycan Respublikası Konstitusiyasının 28-ci maddəsinin ikinci hissəsinə əsasən, azadlıqdan məhrum etmə insanların azadlıq hüququnun qanunda nəzərdə tutulmuş məhdudlaşdırılması yollarından biri hesab olunur. Azadlıqdan məhrum etmə cəzası Azərbaycan Respublikası Cinayət Məcəlləsində nəzərdə tutulan və cinayət törətməkdə təqsirkar bilinən şəxsə məhkəmə hökmü ilə təyin olunan əsas cəza növlərindən biridir. Azərbaycan Respublikasında müstəsna cəza növünün – ölüm cəzasının ləğvindən sonra azadlıqdan məhrum etmə cəzası Cinayət Məcəlləsində nəzərdə tutulan cəzaların ən ciddisi və sərti hesab olunur. Azadlıqdan məhrum etmə, məhkumu məhkəmə hökmündə göstərilən müddətə cəmiyyətdən təcrid etməklə, islah-əmək müəssisələrində məcburi qaydada saxlamaqdan (yerləşdirməkdən) ibarət olan cəza növüdür. Azadlıqdan məhrum etmə cəzası əsas dövlət məcburiyyət tədbirlərindən biri kimi Azərbaycan Respublikasının Cinayət Məcəlləsində uzun müddət qalmaqla, məhkumların islahı, yeni cinayətlərin qarşısının alınması və nəhayət, sosial ədalətin bərpası kimi ictimai faydalı vəzifələrin yerinə yetirilməsini qanunun tələb etdiyi tərzdə təmin edir. Bu, cinayət-hüquqi xarakterli tədbir məhkəmə təcrübəsində kifayət qədər geniş tətbiq olunan cəza növüdür. Aparılmış təhlil göstərir ki, 1990-1998-ci illərdə respublikamızda bütün məhkum olunmuşların təxminən 40,1 %-ni azadlıqdan məhrum olunmuş şəxslər təşkil etmişdir. Həmin illərdə azadlıqdan məhrum etmə cəzasının təyin edilməsi faizlə göstəriciləri aşagıdakı göstərildiyi kimi olmuşdur:

- 1990 - 29,8 %;
- 1991 - 34,1 %;
- 1992 - 37,5 %;
- 1993 - 38,6 %;
- 1994 - 39,3 %;
- 1995 - 42,9 %;

- 1996 - 48,8 %;
- 1997 - 46,9 %;
- 1998 – 43,0 %.

Beləliklə, son doqquz il ərzində məhkum olunan hər on şəxsdən təxminən dördünə məhkəmələr tərəfindən islah-əmək müəssisələrinə göndərilməklə azadlıqdan məhrum etmə cəzası tətbiq olunmuşdur. Belə məhkəmə təcrübəsinin müxtəlif səbəbləri vardır. Onlardan birini Azərbaycan Respublikasının Cinayət Məcəlləsində axtarmaq lazımdır. 01 aprel 1999-cu il tarixə qüvvədə olan Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Xüsusi hissəsində Cinayət Məcəlləsində məsuliyyət nəzərdə tutan ümumən 268 maddədən 247-nin sanksiyasına azadlıqdan məhrum etmə cəzası daxil edilmişdir ki, bu da, Xüsusi Hissədəki maddələrinin 92,2 %-ni təşkil edir. Azadlıqdan məhrum etmə Cinayət Məcəlləsinin Xüsusi Hissəsinin 98 maddəsinin sanksiyasında təyin oluna biləcək yeganə cəza növü kimi, 149 maddəsində isə, alternativ cəza kimi nəzərdə tutulmuşdur. Azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaların tətbiqi Cinayət Məcəlləsinin yalnız 21 maddəsində mümkün hesab olunmuşdur.

Azadlıqdan məhrum etmə nisbətən yüksək ictimai təhlükəli olan cinayətlərə görə tətbiq edilir. Bu cəza növü tətbiq edilərkən cinayətin xarakteri, onun ictimai təhlükəlilik dərəcəsi və cinayətkarın şəxsiyyəti nəzərə alınır, məhkumun islah və yenidən tərbiyə edilməsi üçün onun cəmiyyətdən təcrid olunması azadlıqdan məhrum etmənin mahiyyətini təşkil edir. Azadlıqdan məhrum etmə məhkumun hüquqlarını xeyli məhdudlaşdırır, azad yerdəyişmə və peşə fəaliyyətinin növünü seçmək hüququnu, onun asudə vaxtı üzərində müstəqil səlahiyyət vermək, qohumlarla, yaxın olan insanlarla unsiyyətə girmək və digər imkanlarını məhdudlaşdırır. Azadlıqdan məhrum etməni hazırda qüvvədə olan Cinayət Məcəlləsində nəzərdə tutulan digər cəza növlərindən fərqləndirən əsas cəhət məhdudiyyətlərin ciddiliyi, həmçinin məhkumun cəmiyyətdən müəyyən olunmuş müddətə və ya ömürlük təcrid edilməsidir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 21-ci mad-

dəsinin birinci və ikinci bəndində azadlıqdan məhrum etmənin iki növü göstərilmişdir:

- ömürlük azadlıqdan məhrum etmə;
- müəyyən müddətə azadlıqdan məhrum etmə.

Azadlıqdan məhrum etmənin bu növləri ayrı cəza növləri kimi verilsə də, fikrimizcə, onlar məzmun və mahiyyətcə bir-birindən demək olar ki, o qədər də fərqlənmir. Bu cəza növləri arasında yeganə fərq cəza müddəti ilə bağlıdır.

Müəyyən müddətə azadlıqdan məhrum etmə cəzası Cinayət Məcəlləsinin 23-cü maddəsinin ikinci hissəsinə əsasən üç aydan on llədək müddətə, ağır cinayətlər və ya ağır nəticələrə səbəb olmuş cinayətlər, habelə xüsusi təhlükəli revidivistlər üçün isə, on beş ildən çox olmayaraq müəyyən edilir. Bu qaydadan yalnız bir istisna mövcüddur. Belə ki, Cinayət Məcəlləsinin 22-1-ci maddəsinin ikinci hissəsinə əsasən, ömürlük azadlıqdan məhrum etmə cəzası əfv qaydasında müddətli azadlıqdan məhrum etmə ilə əvəz edildikdə, cəza müddəti on beş ildən az olmayaraq iyirmi ilə kimi müəyyən oluna bilər. Cinayət törədilənədək on səkkiz yaşına çatmamış şəxsə cəza təyin olunarkən azadlıqdan məhrum etmə müddəti on ildən çox ola bilməz.

Cinayət Məcəlləsinin 23-cü maddəsinə əsasən məhkəmənin hökmü ilə azadlıqdan məhrum etmə növündə cəzanın çəkilməsi islah-əmək koloniya məntəqələrinə, ümumi, möhkəm, ciddi və xüsusi rejimli koloniyalara və ya həbsxanaya, ümumi və möhkəm rejimli tərbiyə-əmək koloniyalarına təyin olunur. Cəzanın çəkiləcəyi müəssisənin növü və rejimi törədilən cinayətin xarakteri, ictimai təhlükəlilik dərəcəsi, cinayət törətmiş şəxsin keçmiş məhkumluğu, cinsi, yaşı və şəxsiyyətinin digər xüsusiyyətləri nəzərə alınmaqla məhkəmə tərəfindən müəyyən edilir.

Ömürlük azadlıqdan məhrum etmə cəzası Azərbaycan Respublikasında ölüm cəzasının ləğv olunması ilə əlaqədar 10 fevral 1998-ci il tarixli qanunla Cinayət Məcəlləsinə əlavə edilmiş azadlıqdan məhrum etmənin yeni növüdür. Cinayət Məcəlləsinin 22-1-ci maddəsində təsbit olunan ömürlük azadlıqdan məhrum etmə

cəzası Cinayət Məcəlləsində xüsusi olaraq nəzərdə tutulmuş hallarda təyin edilə bilər. Cinayət törədənədək on səkkiz yaşına çatmayan şəxslərə və qadınlara ömürlük azadlıqdan məhrum etmə cəzası təyin edilmir. Qüvvədə olan Cinayət Məcəlləsinin Xüsusi hissəsində ömürlük azadlıqdan məhrum etmə cəzasının təyin olunmasını nəzərdə tutan on iki maddə vardır. Bunlar aşağıdakılardır:

- Vətənə xəyanət (57-ci maddə);
- Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən və Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş digər silahlı birləşmələrdən Azərbaycan xalqına və konstitusiyalı dövlət orqanlarına qarşı istifadə etmə (57-1-ci maddənin 2-ci hissəsi);
- Cəsusluq (58-ci maddə)
- Terror aktı (59-cu maddənin 1-ci hissəsi);
- Təxribat (61-ci maddə);
- Banditizm (70-ci maddə);
- Qanunvericilikdə nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların yaradılması (70-2-ci maddənin 3-cü hissəsi);
- Ağırlaşdırıcı hallarda qəsdən adam öldürmə (94-cü maddə);
- Zorlama (109-cu maddənin 4-cü hissəsi);
- Dəmir yolu qatarını, hava, dəniz və ya çay gəmisini qaçırma və ya ələ keçirmə, eləcə də vağzalı, aerodromu, limanı və ya başqa nəqliyyat müəssisəsini, idarəsini, təşkilatını, habelə oğurlamaq məqsədi güdmədən yükləri ələ keçirmə (212-2-ci maddənin 3-cü hissəsi);
- Terrorçuluq (212-3-cü maddənin 3-cü hissəsi);
- Hakimiyyətdən sui-istifadə etmə, hakimiyyət həddini aşma və ya hakimiyyətdən istifadə etməmə (255-ci maddənin "b" bəndi).

Beləliklə, təhlil göstərir ki, azadlıqdan məhrum etmə cəzası Cinayət Məcəlləsində nəzərdə tutulan, dövlətin cinayətkarlığa qarşı mübarizə işində güclü təsir vasitəsidir və hazırda onun zəruriliyi mübahisə doğurmur. Məlum olduğu kimi, Azərbaycan Respublikasının yeni Konstitusiyası qəbul edildikdən sonra ölkədə həyata keçirilən hüquqi islahatlar çərçivəsində müasir dövrün tələblərinə

cavab verən yeni Cinayət Məcəlləsinin hazırlanması nəzərdə tutulmuşdur. Bu məsələnin vacibliyi Azərbaycan Respublikası Prezidenti H. Əliyev cənablarının 20 yanvar 1998-ci il tarixli "Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi sahəsində tədbirlər haqqında" Sərəncamının 2-ci bəndində də qeyd edilmişdir. Yeni məcəllədə sözsüz ki, digər institutlar kimi cəza institutu da müəyyən dəyişikliklərə məruz qalacaq və müasir dövrün tələblərinə, beynəlxalq təcrübəyə uyğunlaşdırılacaqdır. Azadlıqdan məhrum etmə cəzasının digər cəza növlərindən fərqli olaraq yeni məcəlləyə daxil ediləcəyi heç bir şübhə doğurmur. Burada məsələ yalnız cəza müddətinin aşağı və yuxarı hədlərinin müəyyən olunmasıdır. Bu məsələyə dair respublikamızın hüquqşunas alimləri və aidiyyəti mütəxəssisləri arasında müəyyən fikir ayrılığı vardır. Bir qrup hüquqşunaslar Müstəqil Dövlətlər Birliyinin Parlamentlərarası Assambleyasında Azərbaycan Respublikasının bu sahədə tanınmış mütəxəssisələrdən ibarət nümayəndə heyətinin iştirakı ilə digər üzv dövlətlərinin cinayət hüququ sahəsində çalışan alim və praktiki işçilərinin iştirakı ilə hazırlanmış, 1996-cı il fevral ayının 17-də Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində qəbul olunmuş Cinayət Məcəlləsinin modelinə üstünlük verirlər. Tövsiyə xarakteri daşıyan bu sənəddə müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasının altı aydan iyirmi ilə kimi təyin olunması nəzərdə tutulmuşdur. Bir neçə hökm üzrə cəza təyin edilərkən cəza müddəti iyirmi beş il təklif olunur.

Hüquq elmləri doktoru H.Ş. Qurbanovun işləyib hazırladığı Azərbaycan Respublikasının yeni Cinayət Məcəlləsinin ümumi hissəsinin layihəsi də müəyyən maraq doğurur. Həmin layihənin 72-ci maddəsində müddətli azadlıqdan məhrum etmə cəzasının aşağı və yuxarı hədlərinin qaldırılması nəzərdə tutulur. Layihənin müəllifi müddətli azadlıqdan məhrum etmə cəzasını altı aydan iyirmi beş ilə kimi müəyyənləşdirməyi təklif edir. 16 yaşına çatmamış şəxslərin cəzasının yuxarı həddinin on il, 16 yaşından 18 yaşına kimi olan şəxslər, qadınlar və yaşı 65-dən yuxarı olan kişi-

lər üçün isə, on beş il olması təklif edilir. Ümumiyyətlə, son illərdə azadlıqdan məhrum etmə cəzasının istər aşağı, istər yuxarı həddinin artırılması meyli müşahidə olunur. Belə artım demək olar ki, keçmiş SSRİ məkanına daxil olan respublikalarda da həyata keçirilməkdədir. Bizcə, belə dəyişikliklər bəzi xarici ölkələrin mövcud cinayət qanunvericiliyinə uyğun aparılır. Misal üçün, son illərdə qəbul olunmuş Fransanın, İspaniyanın yeni cinayət məcəllələrində azadlıqdan məhrum etmə cəzasının yuxarı həddi otuz il təyin edilmişdir. Digər xarici ölkələrdə (İngiltərə, Yaponiya, Finlandiya və s.) bu müddət iyirmi-iyirmi beş ildir, Amerika Birləşmiş Ştatlarının bəzi ştatlarında isə, ümumiyyətlə azadlıqdan məhrum etmə cəzasının yuxarı həddi təyin edilməmişdir. Rusiya Federasiyasının 01 yanvar 1997-ci il tarixdən qüvvəyə minmiş yeni Cinayət Məcəlləsində azadlıqdan məhrum etmə cəzası ümumən altı aydan iyirmi ilə kimi müəyyən edilmişdir. Eyni zamanda, bu ölkədə bir neçə cinayətə görə cəza təyin edilərkən müddət iyirmi beş il, bir neçə hökm üzrə otuz il nəzərdə tutulmuşdur. Lakin, nəzərə almaq lazımdır ki, heç də bütün ölkələrdə azadlıqdan məhrum etmə cəzasının müddəti yüksək deyildir. Misal üçün, Almaniyada bu cəza növünün yuxarı həddi on beş il müəyyən olunmuşdur. Beləliklə, araşdırma göstərir ki, məsələ müxtəlif ölkələrdə bir-birindən fərqli şəkildə həll olunmuşdur.

Fikrimizcə, müasir dövrdə Azərbaycanda azadlıqdan məhrum etmə cəzasının müddətinin artırılması məqsədəuyğun hesab edilərsə, bu addımın zəruriliyi və vacibliyi kifayət qədər əsaslandırılmalı, onun gələcək nəticələri proqnozlaşdırılmalı və sonradan optimal qərar qəbul olunmalıdır. Əvvəla, onu qeyd etmək lazımdır ki, azadlıqdan məhrum etmənin müddətinin artırılması bu cəzanı çəkən məhkumların sayının artması üçün əlverişli zəmin yarada bilər. Eyni zamanda bütün dünyada qəbul olunmuş "Cəza ağırlığı ilə yox, labüdlüyü ilə güclüdür" tezisini də yaddan çıxarmaq olmaz.

Xatırlatmaq istərdik ki, azadlıqdan məhrum etmə cəzasının müddətinin artırılmasının cinayətkarlıqla mübarizə işinə müsbət

təsir göstərməsi ilə bağlı qərarların düzgün olması hələ öz təsdiqini tapmamışdır. Buna görə də, Azərbaycan Respublikasının yeni Cinayət Məcəlləsində azadlıqdan məhrum etmə cəzasının müddətinin artırılması işinə çox ehtiyatla və hərtərəfli yanaşılmalıdır. Əgər bu problemin müsbət həlli zəruri hesab olunarsa, onun yalnız bəzi ağır cinayətlərə görə tətbiq edilməsi məqsədəuyğun olardı. Fikrimizcə, hər bir halda azadlıqdan məhrum etmə cəzasının yuxarı həddinin iyirmi ildən çox olmamaqla müəyyən edilməsi daha düzgün olardı.

***İstinad edilmiş mənbə:***

***"Hüquqi dövlət və qanun" jurnalı. Bakı, 1999. № 5, Səh. 36–38.***

## Azərbaycan Respublikasında ömürlük azadlıqdan məhrum etmə cəzası və onun icrasının bəzi problemləri

Azərbaycan Respublikasının Prezidenti H.Əliyev cənablarının təşəbbüsü ilə ölkəmizdə həyata keçirilən hüquqi islahatlar çərçivəsində Milli Məclis tərəfindən 10 fevral 1998-ci il tarixdə "Azərbaycan Respublikasında ölüm cəzasının ləğv olunması ilə əlaqədar Azərbaycan Respublikasının Cinayət, Cinayət-Prossesual və İslah-Əmək məcəllələrinə dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Bu qanunla Cinayət Məcəlləsindən müstəsna cəza növü-ölüm cəzasının tətbiq olunması nəzərdə tutulan 22-ci maddə çıxarılmış və Məcəlləyə ömürlük azadlıqdan məhrum etmə başlığı altında yeni 22-1-ci maddə əlavə edilmişdir. Bundan əlavə, Cinayət Məcəlləsinin 21-ci maddəsində nəzərdə tutulmuş cəzaların siyahısına bu yeni cəza növü əlavə edilmişdir. Yeni 22-1-ci maddəyə əsasən Cinayət Məcəlləsində xüsusi olaraq nəzərdə tutulmuş hallarda ömürlük azadlıqdan məhrum etmə cəzasının təyin olunması nəzərdə tutulmuşdur. Hal-hazırda qüvvədə olan Azərbaycan Respublikasının Cinayət Məcəlləsində ömürlük azadlıqdan məhrum etmə cəzasının təyin olunması nəzərdə tutulan on iki maddə vardır.

Cinayət Məcəlləsinin 22-1-ci maddəsinə əsasən ömürlük azadlıqdan məhrum etmə cəzası cinayət edənədək on səkkiz yaşına çatmayan şəxslərə və qadınlara təyin olunmur. Ömürlük azadlıqdan məhrum etmə cəzası əfv qaydasında yalnız azadlıqdan məhrum etmə cəzası ilə əvəz edilə bilər. Qanunla, ömürlük azadlıqdan məhrum etmə cəzası bütün cəza müddətində həbsxanada saxlanılmaqla təyin olunur. 10 fevral 1998-ci il tarixli Qanunun 4-cü bölməsinə əsasən bu Qanun qüvvəyə mindiyi günədək ölüm cəzasına məhkum olunmuş şəxslərin cəzaları ömürlük azadlıqdan məhrum etmə cəzası ilə əvəz olunmuşdur. Lakin Qanunun 6-cı bölməsində respublikamızda müharibə təhlükəsi olduqda və ya müharibə dövründə ağır cinayətlərə görə müstəsna hallarda xüsusi qanun qəbul

edilməklə, ölüm cəzasının tətbiqinə yol veriləbiləcəyi göstərilmişdir. Qanundakı bu müstəsna, yəni ölüm cəzasının gələcəkdə tətbiqinə yol verilməsi şərtləri 4 noyabr 1950-ci il tarixli "İnsan Hüquqlarının və Əsas Azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasına 1983-cü ilin aprel ayının 28-də əlavə edilmiş 6-cı protokolunun 2-ci maddəsinə uyğundur. Bu da onu göstərir ki, Azərbaycanda ölüm cəzasının ləğvi həyata keçirilərkən beynəlxalq sənədlərin tələblərinə böyük diqqət yetirilmişdir.

1999-cu ilin yanvar ayının 1-nə respublikamızda ömürlük azadlıqdan məhrum etmə cəzasını çəkən şəxslər aşağıdakı sosial-demoqrafik və cinayət-hüquqi xarakteristikalara malik olmuşlar.

1. Yaş üzrə:
- 25 yaşa kimi - 16 %;
- 26 – 35 - 43,5 %;
- 36 – 45 - 27, 6 %;
- 46 – 55 - 5,3 %;
- 55-dən yuxarı - 7,6 %.

2. Ailə vəziyyəti üzrə:
- subay – 44,3 %;
- evli – 55,7 %.

3. Əmək fəaliyyəti üzrə:
- dövlət qulluğunda – 23 %;
- digər yerlərdə – 22 %;
- işləməyib – 55 %.

4. Təhsillə bağlı:
- orta – 82,4 %;
- orta ixtisas -3,1 %;
- ali -14,5 %.

5. Vətəndaşlıq üzrə:
- Azərbaycan Respublikası vətəndaşı – 97 %;
- əcnəbilər – 3 %.

6. Milli mənsubiyyət üzrə:
- azərbaycanlı – 95,4 %;
- digərləri – 4,6 %.

7. Cinayət Məcəlləsinin maddələri üzrə:
- 58, 61, 70, 109-ci maddələr – 3,5 %;
- 57-ci maddə – 5,4 %;
- 94-cü madə – 91,1 %.

8. Məhkumluq üzrə:
- əvvəllər məhkum olunmamış – 55 %;
- əvvəllər məhkum olunmuş – 45 %, onlardan;
- bir dəfə - 24,4 %;
- iki və daha çox – 20,6 %.

Təhlil göstərmişdir ki, ömürlük azadlıqdan məhrum etmə cəzasını çəkən şəxslərin 8,4 %-i qəsdən adam öldürməyə görə əvvəllər məhkum olunmuşlar. Beləliklə, hal-hazırda ömürlük azadlıqdan məhrum etmə cəzasını çəkən məhkumların yuxarıda göstərilmiş meyarlara görə təhlili göstərir ki, onların təxminən 60 %-ni 35 yaşadək, 87 %-ni isə 45 yaşadək, yarıdan çoxunu ailəli və əvvəllər məhkum olunmamış kişilər təşkil edir. Azərbaycanda kişilərin orta yaş həddini nəzərə alsaq, bu kateqoriyalı məhkumların böyük hissəsi orta hesabla ömürlərinin 25-30 ilini həbsxanada keçirməli olacaqlar. Bir fakt da şübhəsizdir ki, belə məhkumların sayı hər il artacaqdır. Yəni, yaxın gələcəkdə ömürlük azadlıqdan məhrum etmə cəzasını çəkən məhkumların beynəlxalq standartlara uyğun yerləşdirilməsi üçün yeni binaların və müəssisələrin təşkili, onların saxlanmasına daha çox maliyyə vəsaitinin ayrılmasının labüdlüyü danılmazdır.

1998-ci ilin fevralından sonra həmin il ərzində məhkəmələr tərəfindən ömürlük azadlıqdan məhrum etmə cəzası 9, 1999-cu ildə 14 və 2000-ci ildə isə, 23 məhkuma təyin olunmuşdur. Sabiq Cinayət Məcəlləsinin 22-1-ci maddəsinə əsasən ömürlük azadlıqdan məhrum etmə bütün cəza müddətində həbsxanada saxlanılmaqla çəkilirdi və əfv qaydasında on beş ildən çox, lakin iyirmi ildən artıq olmayan müddətə azadlıqdan məhrum etmə ilə əvəz edilə bilərdi. Əfv olunmuş belə məhkum cəzanı xüsusi rejimli islah-əmək müəssisəsində çəkməli, onlara cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmə və ya məntəqə tipli cəzaçəkmə müəssisəsinə keçi-

rilmənin tətbiqi qadağan edilmişdi. 1998-2000-ci illərdə Azərbaycan Respublikası Prezidentinin Fərmanları ilə ömürlük azadlıqdan məhrum edilmiş səkkiz məhkumun cəzası iyirmi il azadlıqdan məhrum etmə ilə əvəz edilmişdir.

Ömürlük azadlıqdan məhrum etmə cəzasının icra mexanizmi 1998-ci il 25 iyun tarixli "Azərbaycan Respublikasının İslah-Əmək Məcəlləsinə, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə və İnzibati Hüquqpozmalar haqqında Azərbaycan Respublikasının Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi barədə" Qanunla İslah-Əmək Məcəlləsinə əlavə olunmuş 33-1-ci maddə ilə tənzimlənir. Bu maddəyə əsasən, ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxslər həbsxanada ayrılıqda və ya iki nəfərdən artıq olmamaqla kameralarda saxlanılırlar. Bu məhkumlar yeyinti məhsulları və zəruri mallar əldə etmək üçün ayda minimum əmək haqqı məbləğinin yarım mislinədək miqdarda pul xərcləyə bilərlər. Onlar il ərzində qısa müddətli iki görüş, iki bağlama, iki banderol almaq və dörd dəfə telefon danışıqlarından, hər gün bir saat ərzində gəzintidən istifadə etmək hüququna malikdirlər. Beləliklə, İslah-Əmək Məcəlləsinin 33-1-ci maddəsi ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxslərin saxlanılması rejimini müəyyən etmiş və həmin məhkumların hüquqi vəziyyətinə aydınlıq gətirmişdir. Qeyd etmək lazımdır ki, respublikada ölüm cəzasının ləğvi və ömürlük azadlıqdan məhrum etmə cəzasının müəyyən olunması ilə əlaqədar bu kateqoriyalı şəxslərin yerləşdirilməsi və saxlanması, cəzanı icra edən orqan, yəni Ədliyyə Nazirliyi üçün böyük problem yaratmamışdır. Qanun qüvvəyə mindikdən sonra bu məhkumlar qısa müddət ərzində həbsxanaya keçirilmiş və onların cəza çəkməsi üçün zəruri şərait yaradılmışdır.

Ömürlük azadlıqdan məhrum etmə cəzasının icrası prosesində müəyyən problem yaradan məsələ bu cəza növünə məruz qalmış məhkumların cəza çəkmədən azad olunması imkanına qoyulmuş məhdudiyyətlərdir. Qüvvədə olan qanunvericilikdə, yəni İslah-Əmək Məcəlləsinin 108-ci maddəsində cəza çəkmədən azad olun-

mağın aşağıdakı əsasları nəzərdə tutulmuşdur:

- cəza müddəti çəkildikdən sonra;
- amnistiya aktına əsasən;
- bağışlanma əsasında;
- işin icraatına xitam verilməklə, yaxud cəza şərti məhkumluqla əvəz olunmaqla məhkəmə nəzarəti qaydasında hökmün ləğv edilməsi və ya yeni açılmış hallara görə işin təzələnməsi nəticəsində;
- cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə əsasında;
- məhkumun xroniki ruhi və ya cəzanın ardının çəkilməsinə mane olan başqa ağır xəstəliyə tutulması nəticəsində cəzadan azad etmə haqqında məhkəmənin qərarlarına əsasən.

Təcrübədə məhkumların cəza müddəti çəkildikdən, amnistiya, bağışlanma və şərti olaraq vaxtından əvvəl cəzadan azad olunmasına daha çox rast gəlinir. Belə ki, 1998-ci ildə Azərbaycan Respublikasının azadlıqdan məhrum etmə yerlərindən azad olunanların 97, 9%-i bu əsaslarla, yəni 32,2 % cəza müddəti başa çatdığına görə, 49,1 % amnistiya, 2 % bağışlanma əsasında, 14,6 % isə vaxtından əvvəl şərti azad edilmiş şəxslər olmuşlar. Yuxarıda sadalanan digər əsaslarla isə, həmin ildə cəmi 2,1 % məhkum azad edilmişdir.Yuxarıda nəzərdən keçirilən azadlıqdan məhrum etmə cəzasından azad olunmanın, xüsusi ilə təhlili verilən əsasları araşdırdıqda məlum olur ki, ömürlük azadlıqdan məhrum etmə cəzası çəkən şəxslərin cəzadan azad olunması qüvvədə olan qanunvericiliklə demək olar ki, qeyri-mümkündür. Aydındır ki, ömürlük azadlıqdan məhrum etmə cəzasının sonu müəyyən olunmadığından məhkum cəza müddətini çəkməklə azad oluna bilməz. Ömürlük azadlıqdan məhrum olunmuş şəxslərin amnistiya qaydasında azad olunmasına da rast gəlinmir. Çünki, bu şəxslərin törətdikləri cinayətlər kifayət qədər ağır olduğuna və böyük ictimai təhlükə doğurduğuna görə, bir qayda olaraq belə məhkumlara amnistiya tətbiq olunmur. Belə ki, 1998-ci ildə Azərbaycanda qəbul olunmuş iki amnistiya aktı bu kateqoriyalı məhkumlara və ümumiyyətlə, bu şəxslərin məhkum olunduğu maddələrlə məhkum olun-

muş digər şəxslərə də tətbiq edilməmişdir.

Yuxarıda qeyd olunduğu kimi, ömürlük azadlıqdan məhrum edilmiş şəxsin əfv qaydasında da azad olunmasına Cinayət Məcəlləsinin 22-1-ci maddəsi ilə qadağan qoyulmuşdur. Ömürlük azadlıqdan məhrum olunmuş məhkumların cəzadan şərti olaraq vaxtından əvvəl azad olunmasına isə qüvvədə olan cinayət qanunvericiliyi, yəni Cinayət Məcəlləsinin 50-1-ci maddəsi ilə məhdudiyyət müəyyən edilmişdir. Belə vəziyyət bu kateqoriyalı məhkumlara cüzi də olsa, gələcəkdə azad cəmiyyətə qayıtmaq ümidi vermir, cəza çəkən şəxsi qanun çərçivəsindəki davranışa həvəsləndirmir və müdiriyyətə özünü müsbət aparan məhkumları digərlərindən fərqləndirməyə imkan yaratmır. Nəticədə, müsbət stimulların olmaması səbəbindən məhkum öz hərəkətlərini mövcüd cəza çəkmə rejimi çərçivəsində qurmağa çalışmır, müxtəlif yollara azadlıqdan məhrum etmə yerlərindən qaçmaq fikrinə düşür və nəhayət, müxtəlif yeni cinayətlərin törədilməsi üçün zəmin yaranır. Ömürlük azadlıqdan məhrum olunmuş şəxs cəza çəkərkən cinayət törədərsə, son nəticədə onun hüquqi vəziyyəti dəyişmir, yəni məhkum yenidən həmin cəzanı çəkməkdə davam edir. Belə şəraitdə ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxslərə müəyyən tərbiyəvi-profilaktik iş aparmaq və ümumiyyətlə, onlarla işləmək çətinliklər doğurur.

Buna görə də belə aktual məsələnin həllini aşağıdakı kimi görürük. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 22-1-ci maddəsi yalnız Azərbaycan Respublikası Prezidentinin ölkə Konstitusiyasının 109-cu maddəsinin 22-ci bəndinə uyğun olaraq müstəsna səlahiyyətindən istifadə edərək, qanunda müəyyən edilmiş müddət təyin etməklə, bu kateqoriyalı məhkumları əfv etməsini nəzərdə tutmuşdur. Fikrimizcə, bu maddə Azərbaycan Respublikasının Prezidentinin Konstitusiya ilə ona verilmiş səlahiyyətini müəyyən qədər məhdudlaşdırmışdır. Cinayət Məcəlləsi ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxslərin əfv edilməsi zamanı məhkumun cəzadan tam azad edilməsini yox, yalnız bu cəzanın müddəti 15 ildən az olmayan və 20

ildən çox olmayan azadlıqdan məhrum etmə ilə əvəz olunmasını nəzərdə tutur. Fikrimizcə, Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapmış Azərbaycan Prezidentinin müstəsna hüququnun Cinayət Qanunu ilə məhdudlaşdırılması məqbul hesab olunmamalıdır. Məlum olduğu kimi ölüm cəzasının mövcüd olduğu vaxtlarda belə müstəsna cəza növünə məhkum olunmuş şəxslərin əfv olunması zamanı ölüm cəzasının azadlıqdan məhrum etmə cəzası ilə əvəz olunması nəzərdə tutulmuşdu. Belə qayda hal-hazırda ölüm cəzasının ləğv etməmiş ölkələrin hamısında, misal üçün, Rusiya Federasiyasında da mövcüddür. Belə ki, 1997-ci ilin yanvarın 1-dən qüvvəyə minmiş Rusiya Federasiyasının yeni Cinayət Məcəlləsinin 59-cu maddəsinin 3-cü bəndində ölüm cəzasının əfv qaydasında ömürlük və ya iyirmi illik azadlıqdan məhrum etmə cəzası ilə əvəz olunması nəzərdə tutulmuşdur. Ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxslərin əfv olunması zamanı isə, bu cəza növünün yalnız müddətli azadlıqdan məhrum etmə cəzası ilə əvəz olunması nəzərdə tutulmamış və Rusiya Federasiyasının Prezidentinin əfv etmə səlahiyyəti cinayət qanunu ilə məhdudlaşdırılmamışdır. Fikrimizcə, bu ziddiyəti aradan götürmək və problemi Əsas Qanunumuza uyğun həlli üçün əfv etmə haqqında qanun qəbul olunması daha məqsədəuyğun olardı. Bu qanun əfv etmənin hüquqi əsaslarını və Azərbaycan Respublikasının Prezidentinin bu sahədəki səlahiyyətinin hüdüdlarını müəyyənləşdirərdi.

İkincisi, hal-hazırda qüvvədə olan Cinayət Məcəlləsinin 50-1-ci maddəsi ilə ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxslərin vaxtından əvvəl şərti azad olunmasına qadağa qoyulmuşdur. Ümumiyyətlə, qüvvədə olan Cinayət Məcəlləsi təkcə ömürlük azadlıqdan məhrum edilmiş şəxslərin yox, bir sıra ağır cinayətlərə görə məhkum olunmuş digər bir qrup şəxslərin də vaxtından əvvəl şərti azad olunmasına qadağalar müəyyən etmişdir. Halbuki, digər xarici ölkələrin Cinayət Məcəllələrində belə məhdudiyyətlər mövcud deyil. Misal üçün, Rusiya Federasiyasının Cinayət Məcəlləsinin 79-cu maddəsinə əsasən bütün məh-

kumlara, o cümlədən ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxslərə də vaxtından əvvəl şərti azad olunma institutu tətbiq oluna bilər. Bu qayda Qazaxstan Respublikasının Cinayət Məcəlləsində də öz əksini tapmışdır. Aparılmış təhlillər göstərir ki, digər xarici dövlətlərdə ömürlük azadlıqdan məhrum etmə cəzasının mütləq çəkilməli olan cəza müddəti orta hesabla 10-15 il təşkil edir. Misal üçün, Yaponiyada bu müddət 10 il, İngiltərədə 12 il, Almaniyada, Danimarkada, İsveçdə isə 15 il təşkil edir. Ömürlük azadlıqdan məhrum etmə cəzasından əfv qaydasında azad olunma nəzərdə tutulan digər ölkələrdə bu müddət orta hesabla 10-15 il təşkil edir. Misal üçün, Danimarkada, Finlandiyada bu müddət 10-12 il təşkil edir.

Bundan əlavə, Rusiya Federasiyasının 1997-ci ilin iyul ayının 1-dən qüvəyə minmiş Cinayət-İcra Məcəlləsi bu təcrübədə əlavə bir məhdudiyyət də müəyyən etmişdir. Həmin məcəllənin 176-cı maddəsinə əsasən ömürlük azadlıqdan məhrum edilmiş məhkumlar cəzadan vaxtından əvvəl şərti azad olunmağa yalnız cəza müddətinin müəyyən olunmuş iyirmi beş ilini çəkdikdən sonra və cəza müddətinin son üç ilində cəza çəkmə qaydalarını qəsdən pozmadıqda təqdim oluna bilərlər. Bu maddənin ikinci hissəsinə əsasən ömürlük azadlıqdan məhrum etmə cəzasını çəkən məhkum, əgər yeni ağır və ya xüsusi ağır cinayət törədərsə, bu zaman həmin şəxs vaxtından əvvəl azad edilməyə təqdim olunmur.

Fikrimizcə, ömürlük azadlıqdan məhrum etmə cəzasının icrasındakı bu problemi aradan qaldırmaq məqsədi ilə bu cəza növündən vaxtından əvvəl şərti azad olunmaq üçün mövcud məhdudiyyəti aradan götürmək məsələsinə baxmaq məqsədəuyğun olardı. Buna görə Azərbaycan Respublikasının Cinayət Məcəlləsində mövcud 50-1 maddəsi ləğv olunmalı və bu Məcəllənin 50-ci maddəsinə müvafiq dəyişikliklər edilməlidir.

Əlbəttə, belə azad olunmanın tətbiqi üçün qanunvericilikdə müvafiq şərtlərin müəyyən olunması da vacibdir. İlkin olaraq məhkumun mütləq çəkməli olduğu cəza müddəti təyin olunmalıdır. Fikrimizcə, bu müddətin 20 il müəyyən olunması daha məq-

sədəuyğundur. Məlum olduğu kimi hal-hazırda qüvvədə olan qanunvericiliyə əsasən məhkəmə tərəfindən təyin oluna bilən maksimum cəza müddəti 15 ildir. İkincisi, ömürlük azadlıqdan məhrum olunmuş şəxs cəzanı çəkdiyi müddətdə qəsdən törətdiyi cinayətə görə yenidən məhkum olunmamalıdır. Məsələnin belə qoyuluşu, ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxslərə davranışlarını qanun çərçivəsində qurmaq üçün stimul rolunu oynamaqla yanaşı, həmin məhkumların idarə edilməsini bir qədər asanlaşdıra bilərdi. Yuxarıdakılara istinadən Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 50-ci maddəsinə aşağıdakı məzmunda yeni hissənin əlavə olunması məqsədəuyğun hesab edirik:

"Maddə 50.

..... Ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxs iyirmi il cəza müddəti çəkdikdən sonra, qanunvericiliklə müəyyən olunmuş qaydada cəzanı icra edən orqanın təqdimatı ilə vaxtından əvvəl şərti azad edilmək üçün təqdim oluna bilər. Əgər ömürlük azadlıqdan məhrum edilmiş şəxs cəza çəkdiyi müddətdə qəsdən cinayət törətməyə görə yenidən məhkum olunarsa, bu şəxsə vaxtından əvvəl şərti azad etmə tətbiq olunmur".

***İstinad edilmiş mənbə:***

***"Qanunçuluq" jurnalı. Bakı, 1999. " № 3, Səh. 13–18.***

## Azərbaycan Respublikasında ömürlük azadlıqdan məhrum etmə cəzası

Ömürlük azadlıqdan məhrum etmə azadlıqdan məhrum etmə cəzasının bir növü olmaqla, Azərbaycan Respublikasında cinayət-hüquqi xarakterli yeni tədbirdir. Bu cəza Azərbaycan Respublikasında ölüm cəzasının ləğvi ilə əlaqədar cinayət qanununa daxil edilmişdir. 1998-ci il 03 fevralda Azərbaycan Respublikasının Prezidenti H.Əliyev qanunvericilik təşəbbüsü qaydasında ölüm cəzasının ləğv olunması ilə əlaqədar ölkənin parlamentinə müraciət etmişdir. 10 fevral 1998-ci il tarixdə Milli Məclis Azərbaycan Respublikasında ölüm cəzasının ləğvi ilə bağlı tarixi qanun qəbul etdi. Bu qanunun qəbulu ilə bağlı Cinayət, Cinayət-Prosessual və İslah-Əmək məcəllələrinə əlavə və dəyişikliklər edilmişdi. Azərbaycan Respublikasının 1960-ci il tarixli Cinayət Məcəlləsinə yeni cəza növü – ömürlük azadlıqdan məhrum etmə əlavə olundu. Həmin cinayət-hüquqi xarakterli tədbir cəza sisteminə daxil edilməyərək Cinayət Məcəlləsinin 22-1-ci maddəsində özünə xüsusi yer aldı. Cinayət Məcəlləsinin sözügedən maddəsinə uyğun olaraq ömürlük azadlıqdan məhrum etmə xüsusi hallarda dövlətə, şəxsiyyətə, ictimai təhlükəsizliyə, habelə hərbi cinayətlərə görə təyin edilə bilərdi. Bu cəza Cinayət Məcəlləsinin Xüsusi Hissəsinin 12 maddəsinə daxil edilmiş, qadınlara və cinayət törədərkən on səkkiz yaşına çatmayan şəxslərə tətbiq edilə bilməzdi.

1998-ci ilin fevralından sonra həmin il ərzində məhkəmələr tərəfindən ömürlük azadlıqdan məhrum etmə cəzası 9, 1999-cu ildə 14 və 2000-ci ildə isə 23 məhkuma təyin olunmuşdur. Sabiq Cinayət Məcəlləsinin 22-1-ci maddəsinə əsasən ömürlük azadlıqdan məhrum etmə bütün cəza müddətində həbsxada saxlanılmaqla çəkilirdi və əfv qaydasında on beş ildən çox, lakin iyirmi ildən artıq olmayan müddətə azadlıqdan məhrum etmə ilə əvəz edilə bilərdi. Əfv olunmuş belə məhkum halda cəzanı xüsusi rejimli islah-əmək müəssisəsində çəkməli, onlara cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmə və ya məntəqə tipli cəzaçəkmə müəssisəsinə keçi-

rilmənin tətbiqi qadağan edilmişdi. 1998-2000-ci illərdə Azərbaycan Respublikası Prezidentinin Fərmanları ilə ömürlük azadlıqdan məhrum edilmiş cəkkiz məhkumun cəzası iyirmi il azadlıqdan məhrum etmə ilə əvəz edilmişdi.

İlk vaxtlarda ömürlük azadlıqdan məhrum etmə cəzasının icrası qaydası kifayət qədər sərt idi. Azərbaycan Respublikasının İslah-Əmək Məcəlləsinə 25 iyun 1998-ci il tarixli Qanunla əlavə edilmiş yeni 33-1-ci maddəyə əsasən belə məhkumlar il ərzində iki qısa müddətli görüş, iki sovqat və ya banderol almaq, habelə hər biri on dəqiqə olmaqla dörd telefon danışığı hüququna malik idilər.

01 sentyabr 2000-ci ildən qüvvəyə minmiş Azərbaycan Respublikasının yeni Cinayət Məcəlləsində ömürlük azadlıqdan məhrum etmə cəza sisteminə daxil edilmiş və 42-ci maddədə müstəqil cəza növü kimi göstərilmişdir. Yeni Cinayət Məcəlləsinin 57-ci maddəsinə əsasən ömürlük azadlıqdan məhrum etmə yalnız xüsusilə ağır cinayətlərə görə tətbiq edilir. Hazırda Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin Xüsusi Hissəsindəki 19 maddənin sanksiyasında ömürlük azadlıqdan məhrum etmə vardır. Onlardan 7-i sülh və bəşəriyyət əleyhinə, 6-ı dövlətin konstitusiya quruluşunun əsaslari və təhlükəsizliyi əleyhinə, 3-ü hərbi xidmət, 2-i ictimai təhlükəsizlik əleyhinə, 1-i isə həyat və sağlamlıq əleyhinə olan cinayətlərə görə nəzərdə tutulmuşdur. Yeni Cinayət Məcəlləsində ömürlük azadlıqdan məhrum etmənin təyin edilməməsi ilə bağlı mövcud dairə də genişləndirilmişdir. Həmin Məcəllənin 57-ci məddəsinə əsasən ömürlük azadlıqdan məhrum etmə qadınlara və cinayət törədərkən on səkkiz yaşına çatmayan şəxslərə, habelə hökm çıxarılanadək altmış beş yaşına çatmış kişilərə təyin edilmir. Cinayət Məcəlləsinin 75-ci maddəsinə əsasən cinayət məsuliyyətindən azad olunmanın müddətinin keçməsi, həmin Məcəllənin 63-cü maddəsinə əsasən isə, başa çatmamış cinayətə görə ömürlük azadlıqdan məhrum etmə növündə cəza təyin edə bilməz. Cinayət Məcəlləsinin 80-ci maddəsinə əsasən ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxs barəsində hökmün icra müddətinin tətbiq olunması məsələsinə baxan məh-

kəmə ya məhkumu azad edir, yaxud icra müddətinin tətbiq edilməsi mümkün sayılmadıqda, həmin cəza növü müəyyən müddətə azadlıqdan məhrum etmə cəzası ilə əvəz edilir. Lakin nəzərə alınmalıdır ki, Cinayət Məcələsinin qeyd olunan 63 və 80-ci maddələrindəki müddəalar dairəsi Cinayət Məcəlləsində nəzərdə tutulmuş sülh və insanlıq əleyhinə, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə və müharibə cinayətləri törətmiş şəxslərə tətbiq olunmur.

2001-2013-cu illərdə Azərbaycan Respublikasının Ağır Cinayətlərə dair məhkəmələri tərəfindən ömürlük azadlıqdan məhrum etmə cəzasının təyini ilə əlaqədar hökmlərin çıxarılması aşağıdakı kimi olmuşdur: 2001-ci ildə - 19, 2002 - 23, 2003 - 21, 2004 - 20, 2005 - 13, 2006 - 9, 2007 - 18, 2008 - 9, 2009 - 12, 2010 - 15, 2011 - 4, 2012 - 9 və 2013–cü ildə - 15. Beləliklə, 1998-2013-cü illərdə Azərbaycan Respublikasının məhkəmələri tərəfindən xüsusilə ağır cinayətlərə görə 233 məhkuma ömürlük azadlıqdan məhrum etmə cəzası tətbiq edilmişdir. Təhlil göstərdi ki, ömürlük azadlıqdan məhrum etmə cəzası əksər hallarda Cinayət Məcəlləsinin 120.2-ci maddəsində nəzərdə tutulmuş, ağırlaşdırıcı hallarda qəsdən adam öldürməyə görə təyin edilmişdir. Yeni Cinayət Məcəlləsinə əsasən ömürlük azadlıqdan məhrum etmə yenə həbsxanada çəkilir. 1960-ci il tarixli Cinayət Məcəlləsindən fərqli olaraq yeni məcəllədə ömürlük azadlıqdan məhrum etmə cəzasını çəkən şəxslər barəsində amnistiya, əfv aktlarının tətbiqi, habelə cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə və ya cəzanın müəyyən müddətə azadlıqdan məhrum etmə ilə əvəz edilməsi ilə əlaqədar qadağalar nəzərdə tutulmamışdır. Cinayət Məcəlləsinin 57-ci maddəsinə uyğun olaraq ömürlük azadlıqdan məhrum etməyə məhkum olumuş şəxs azadlıqdan məhrum etmənin ən azı iyirmi beş ilini həqiqətən çəkdikdə, həmçinin cəzanın çəkildiyi müddətdə qəsdən cinayət törətmədiyi halda, onun cəzası 15 ildən çox olmayan müddətə azadlıqdan məhrum etmə ilə əvəz edilə və ya məhkum cəzadan şərti olaraq vaxtından əvvəl azad edə bilər. Azərbaycanın Cinayət Məcəlləsinin 82-ci maddəsinə əsasən ömürlük azadlıqdan məhrum etmə cəzası əfv qaydasında iyirmi

beş ildən çox olmayan müddətə azadlıqdan məhrum etmə cəzası ilə əvəz edilə bilər. Bu halda məhkumlar cəzalarını xüsusi rejimli cəzaçəkmə müəssisəsində çəkməlidirlər, bu zaman onların məntəqə tipli cəzaçəkmə müəssisələrinə keçirilməsi qanunvericilklə qadağan edilmişdir.

2001-2014-cü illərdə Azərbaycan Respublikası Prezidentinin əfv fərmanlarına əsasən ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş 7 şəxsin cəzası iyirmi il müddətinə azadlıqdan məhrum etmə cəzası ilə əvəz edilmişdir. Həmin illərdə ömürlük azadlıqdan məhrum etmə cəzasını çəkən məhkumların cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi halları olmamışdır.

Azərbaycan Respublikasında yeni Cəzaların İcrası Məcəlləsinin qəbulundan sonra ömürlük azadlıqdan məhrum etmə cəzasının icrası şərtləri əhəmiyyətli dərəcədə yaxşılaşdırılmış, 24 iyun 2008-ci il və 16 oktyabr 2012-ci illərdə həmin məcəlləyə edilmiş dəyişikliklərdən sonra onlar daha da humanistləşdirilmişdir. Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin 84 və 122-ci maddələrinə əsasən ömürlük azadlıqdan məhrum edilmiş məhkumlar:

- ərzaq məhsulları və ən zəruri mallar əldə etmək üçün ayda iyirmi beş manatadək miqdarda pul xərcləyə bilərlər;
- il ərzində qısa müddətli altı görüş və uzun müddətli iki görüş almaq hüququna malikdirlər;
- il ərzində səkkiz bağlama, sovqat və ya banderol almaq hüququna malikdirlər;
- həftədə bir dəfə müddəti on dəqiqə olmaqla telefonla danışıqmaq hüququna malikdirlər;
- hər gün bir saat gəzinti hüququna malikdirlər.

Həmin Məcəlləyə əsasən bu məhkumlar cəzanın icrası qaydalarını pozmadıqda və əməyə vicdanla yanaşdıqda, təyin olunmuş cəzadan ən azı on il keçdikdən sonra onların saxlanılması şəraiti yaxşılaşdırıla bilər. Bu halda məhkumlar əlavə olaraq:

- ərzaq məhsulları və ən zəruri mallar əldə etmək üçün ayda iyirmi beş manatadək miqdarda pul xərcləyə bilərlər;
- il ərzində qısa müddətli iki görüş və uzun müddətli bir görüş

almaq hüququna malikdirlər;

- il ərzində iki bağlama, sovqat və ya banderol almaq hüququna malikdirlər;
- il ərzində dörd dəfə telefonla danışmaq hüququna malikdirlər.

Hazırda Azərbaycan Respublikasının Prezidentinin 28 dekabr 2006-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"na, habelə Azərbaycan Respublikasının Prezidentinin 11 iyun 2007-ci tarixli "Qobustan dövlət tarixi-bədii qoruğu ərazisində yerləşən tarixi və mədəni sərvətlərin qorunması haqqında" Sərəncamına uyğun olaraq ömürlük azadlıqdan məhrum etmə cəzasını çəkən məhkumlar üçün yeni həbsxananın inşası aparılır. Yeni müəssisənin layihələndirilməsi zamanı Avropa Şurasının tövsiyələri, o cümlədən ömürlük azadlıqdan məhrum etmə cəzasını çəkən məhkumlarla bağlı qəbul edilmiş 09 sentyabr 2003-cü il tarixli R(2003) nömrəli Tövsiyəsi, habelə İşgəncələrə qarşı Avropa Komitəsinin tövsiyələri nəzərə alınmışdır. Yeni müəssisədə sözügedən məhkumlar gəzintiyə çıxmaq, idmanla, ictimai faydalı əməklə məşgul olmaq, ümumi və peşə təhsili almaq məqsədilə hər gün müəyyən vaxtlarını saxlandıqları kamerlardan kənarda keçirmək imkanları əldə edəcəklər. Göstərilənlərlə əlaqədar və yeni müəssisənin istismara verilməsi ilə bağlı ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum edilmiş şəxslərin hüquqi statusunu və saxlanılma şərtlərini tənzimləyən Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinə müvafiq dəyişikliklər edilməsi zərurəti yaranacaqdır.

***İstinad edilmiş mənbə:***

***"Beynəlxalq penitensiar jurnal" (https://ipj.editorum.ru/) (rus dilində). Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası, Ryazan, 2015. № 1, Səh. 55–58. (C.Ə. Nəzərovla birlikdə)***

## Azərbaycan Respublikasında cinayət cəzaları: dəyişikliklər və inkişaf perspektivləri

30 dekabr 1999-cu ildə qəbul edilmiş və 1 sentyabr 2000-ci il tarixdə qüvvəyə minmiş hazırda Azərbaycan Respublikasının Cinayət Məcəlləsi (bundan sonra AR CM) ölkənin cinayət qanunvericiliyinin əsas və yeganə mənbəyidir. Cəza sistemi daxil olmaqla, AR CM-in layihəsi 12 noyabr 1995-ci il tarixdə qəbul edilmiş ölkənin yeni Konstitusiyasının müddəaları əsasında, Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyasının 17 fevral 1996-cı il tarixli qərarı ilə təsdiq edilmiş model Cinayət Məcəlləsi nəzərə alınmaqla, hazırlanmışdır. Qanun layihəsinin hazırlanması prosesində digər müddəalarla yanaşı, Azərbaycan SSR-nin 1960-ci il Cinayət Məcəlləsindəki cəza növləri, müvafiq vaxtda ölkədəki kriminogen vəziyyət, cinayətkarlığın strukturu və dinamikası da nəzərə alınmışdır. Sözügedən model Cinayət Məcəlləsi ilə tövsiyə olunan yetkinlik yaşına çatmayanların asudə vaxtının məhdudlaşdırılması, habelə 10 fevral 1998-ci il tarixli qanunla ləğv edilmiş ölüm cəzası istisna olmaqla, ölkənin AR CM-nə əsas və əlavə cəza kimi tətbiq edilən on bir, habelə yalnız əlavə cəza kimi tətbiq olunan Azərbaycan Respublikasının hüdudlarından məcburi kənara çıxarma və nəqliyyat vasitələrini idarə etməkdən məhrum etmə növündə iki əlavə cəza növü daxil edilmişdir. Yeni AR CM-ə 1960-ci il tarixlı məcəllə ilə müqayisədə ictimai məzəmmət, vəzifədən azad etmə, valideynlik hüquqlarından məhrum etmə, tərbiyə-əmək profilaktoriyasına göndərmə, habelə, hələ 1992-ci ilin oktyabrında ləğv edilmiş sürgün və köçürtmə cəzaları daxil edilməmişdir.

Ötən müddət ərzində ölkənin digər qanunvericilik aktları kimi AR CM-də kifayət qədər təkmilləşdirilmiş və müasirləşdirilmişdir. Belə ki, 1 iyun 2024-cü il tarixə 2000–2023-cü illərdə və 2024-cü ilin birinci yarısında qəbul edimiş 167 qanunla AR CM-i min beş yüzdən çox, o cümlədən redaksiya xarakterli müxtəlif dəyşikliklərə məruz qalmışdır. AR CM-in on yeddi maddədən

ibarət olan cəzanın anlayışını, məqsədlərini və növlərini tənzimləyən doqquzuncu fəslinə də otuz yeddi müxtəlif dəyişikliklər edilmişdir ki, onlardan otuz biri bilavasitə müxtəlif cəza növləri ilə bağlı olmuşdur. Qeyd etmək istərdik ki, AR CM-ə cəzalarla ən böyük dəyişiklik 20 oktyabr 2017-ci il tarixli qanunla edilmişdir. Araşdırılan müddət ərzində cəzalarla bağlı AR CM-in müddəalara altı yeni maddə əlavə edilmiş, dörd maddə çıxarılmış, on iki maddə yeni redaksiyada verilmişdir. Belə ki, 31 may 2011-ci il və 7 mart 2012-ci il tarixli qanunlarla iki cəza növü: azadlığın məhdudlaşdırılması və əmlak müsadirəsi məcəllədən çıxarılmışdır. Lakin 20 oktyabr 2017-ci il tarixli qanunla azadlığın məhdudlaşdırılması fərqli məzmun və tətbiq şərtləri ilə yenidən cəza sisteminə qaytarılmışdır. Beləliklə, hazırda AR CM-in müvafiq fəsli on altı maddədən ibarətdir, 42-ci maddəyə uyğun olaraq isə, cəza sisteminə on iki cəza növü daxildir. Onlardan yeddisi, yalnız əsas cəza kimi (ictimai işlər, islah işləri, hərbi xidmət üzrə məhdudlaşdırma, azadlığın məhdudlaşdırılması, intizam xarakterli hərbi hissədə saxlama, müəyyən müddətə azadlıqdan məhrum etmə, ömürlük azadlıqdan məhrum etmə), ikisi həm əsas, həm də əlavə cəza kimi təyin oluna bilən (cərimə və müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə), üçü isə, yalnız əlavə cəza olaraq tətbiq edilə bilən (nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə, xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum etmə və Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma) dövlət məcburiyyət tədbirləridir.

İyirmi üç ildən çox bir müddət ərzində AR CM-də cəzalarla bağlı baş vermiş dəyişikliklərin təhlili ilə əlaqədar qeyd edə bilərik ki, intizam xarakterli hərbi hissədə saxlama və 15 aprel 2018-ci ildən yeni redaksiyada tətbiqinə başlanmış azadlığın məhdudlaşdırılması cəzaları istisna olmaqla, cəzaların digər növləri müxtəlif dəyişikliklərə uğramışdır. Öz növbəsində, cərimə, ictimai işlər, Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma növündə cəzalar daha cox yeniliklərə məruz qalmışdır.

Buna görə də ilkin olaraq həmin üç cəzanın məzmununa və redaksiyasına olunmuş dəyişiklikləri ardıcıllıqla təhlil etməyi, sonra isə cəza siteminə daxil olan digər dövlət məcburiyyət tədbirləri ilə bağlı yenilikləri nəzərdən keçirməyi məqsədəuyğun hesab edirik.

**Cərimə**. İlkin redaksiyada cərimənin məbləği törədilmiş cinayətin agırlığı və məhkum edilən şəxsin əmlak vəziyyəti nəzərə alınmaqla, minimal əmək haqqının yüz milslindən beş min mislinədək miqdarda müəyyən edilmişdi. Sonra 2000-ci ilin dekabr ayının sonundan minimal əmək haqqı şərti maliyyə vahidi ilə əvəz edilmişdir (həmin vaxt Azərbaycan Respublikasında şərti maliyyə vəsaiti 5500 manata bərabər olmuş, 2005-ci ilin oktyabrında ölkədə pul vahidinin denominasiyasından sonra isə 1 manat 10 qəpik olmuşdur). 2 iyul 2001-ci il tarixlı dəyişikliyə uyğun olaraq cərimə digər cəza növləri ilə, yalnız onun ödənilməsindən qərəzli boyun qaçırılması hallarında əvəz edilə bilər. 6 noyabr 2007-ci il tarixli qanunla cərimənin yuxarı həddi beş min şərti maliyyə vahidindən on minədək artırılmış, 16 may 2008-ci ildən sonra isə, on min manat məbləğində müəyyən edilmişdir. 31 may 2011-ci il tarixli dəyişikliklə cərimə müvafiq konkret məbləğdən əlavə, cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) bir mislindən on mislinədək miqdarında da təyin oluna bilər. 31 may 2017-ci il tarixdə AR CM-ə edilmiş dəyişikliklə cərimənin yuxarı həddi iyirmi manatadək artırılmış, 1 may 2020-ci ildən sonra isə, sözügedən cəza, habelə cinayətin predmetinin dəyərinin yüz faizinədək miqdarında da təyin edilə bilər.

Yetkinlik yaşına çatmayan şəxslər üçün cərimənin məbləği ilkin olaraq şərti maliyyə vahidinin otuz mislindən üç yüz mislinədək müəyyən edilmişdi, 16 may 2008-ci il tarixli qanunla həmin məbləğ alti yüz manata kimi artırılmışdır.

**İctimai işlər**. 13 iyun 2008-ci il tarixli qanunla ictimai işlər tətbiq edilməyən şəxslərin dairəsi genişləndirilmiş və müvafiq siyahıya sağlamlıq imkanları məhdud uşaqlar daxil edilmişdir. 2 noyabr 2012-ci il tarixli dəyişlikliyə uyğun olaraq ictimai işlərin aşağı və yuxarı hədləri kifayət qədər artırılmış, yəni on səkkiz ya-

şından yuxarı olan şəxslərə iki yüz qırx saatdan dörd yüz səksən saata, yetkinlik yaşına çatmayanlar üçün isə, altmış saatdan üç yüz iyirmi saatadək müəyyən edilmişdir. 6 may 2016-ci il tarixli qanuna əsasən ictimai işlərin müəyyən müddətə azadlıqdan məhrum etmə ilə əvəz edilməsi ilə bağlı hesablanma qaydası dəyişdirilmiş və səkkiz saat ictimai iş bir gün azadlıqdan məhrum etmə kimi hesablanmaga başlanmışdır. AR CM-in 47-ci maddəsinə 20 oktyabr 2017-ci il tarixdə edilmiş dəyişikliklərlə ictimai işlər tətbiq olunmayan şəxslərin dairəsi yenidən genişləndirilmiş, onlara üç yaşınadək uşağı təkbaşına böyüdən kişilər, hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisələrinin kursantları da əlavə edilmişdir. Eyni zamanda, ictimai işlər cəzasının tətbiqini genişləndirmək məqsədilə himayəsində uşağı olan qadınların uşaqlarının yaşı, üç yaşınadək azaldılmışdır. Habelə, ictimai işlərin keçirildiyi yerləri və onların növlərini müəyyənləşdirmək ilə bağlı yerli icra hakimiyyəti orqanlarının səlahiyyəti ləğv edilmişdir. Sözügedən hüquq Nazirlər Kabinetinə verilmiş və onun tərəfindən 17 oktyabr 2017-ci il tarixdə 438 nömrəli qərarla ictimai işlər cəzasına məhkum olunmuş şəxslərin cəlb ediləcəyi işlərin növləri və belə işlərin keçiriləcəyi yerlərin müəyyənləşdirilməsi ilə bağlı Qayda təsdiq edilmişdir. Əlavə olaraq, ictimai işlərin digər cəzalarla əvəz edilməsi qaydası da dəyişdirilmişdir. Belə ki, həmin cəzaya məhkum olunmuş şəxs müvafiq işləri yerinə yetirməkdən qərəzli boyun qaçırdıqda, məhkəmə ictimai işlərin çəkilməmiş hissəsini müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasından başqa azadlığın məhdudlaşdırılması ilə də əvəz edə bilər. Bu zaman məhkumun ictimai işləri yerinə yetirdiyi müddət nəzərə alınır və çəkilməmiş dörd saat ictimai işə bir gün azadlığın məhdudlaşdırılması, səkkiz saat ictimai iş işə, bir gün azadlıqdan məhrum etmə kimi hesablanır.

1 may 2020-ci il tarixli dəyişikliklə ictimai işlər artıq bütün hərbi qulluqçulara tətbiq edilmir. 29 iyun 2020-ci il tarixli qanunla edilmiş dəyişikliklə ictimai iş təyin edilmiş məhkumlara yeni əlavə vəzifələr həvalə edilmişdir. Belə ki, sözügedən cəzaya məh-

kum edilmiş şəxslər ictimai işlərin yerinə yetirildiyi yerlərdə elektron nəzarət vasitəsini gəzdirməli və həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etməlidirlər. Nəhayət, 22 iyun 2021-ci il tarixli dəyişikliyə uyğun olaraq, orqanizmin funksiyalarının 61–100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə və ya əlilliyi olan uşaqlara da ictimai işlərin tətbiq edilməsi qadağan olunmuşdur.

**Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma**. 2 iyul 2001-ci il tarixli qanunla edilmiş dəyişikliklə AR CM-in 52-ci maddəsinin ilkin redaksiyasından fərqli olaraq Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma cəzasının törədilmiş cinayətin kateqoriyasından asılı olmayaraq bütün əcnəbilərə tətbiqi nəzərdə tutulmuşdur. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin qəbulu ilə əlaqədar 03 dekabr 2013-cü il tarixli qanunla AR CM-in 52-ci maddəsinə nəzərəçarpacaq dəyişikliklər edilmişdir. Belə ki, ilkin olaraq Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma cəzasının bir ildən artıq azadlıqdan məhrum edilmiş bütün əcnəbi məhkumlara, o cümlədən vətəndaşlığı olmayan şəxslərə də tətbiqi nəzərdə tutulmuş və həmin cəza onlar əsas cəza növünü çəkdikdən sonra icra edilir. Habelə, sözügedən əlavə cəza məhkəmə tərəfindən bir ildən artıq olmayan müddətə azadlıqdan məhrum etmə cəzasına və ya azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzaya məhkum edilən əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslərə də AR CM-in 58.3-cü maddəsində göstərilmiş hallar, yəni törədilmiş cinayətin xarakteri və ictimai təhlükəlilik dərəcəsi, təqsirkarın şəxsiyyəti, o cümlədən cəzanı yüngülləşdirən və ağırlaşdıran hallar, habelə təyin olunmuş cəzanın şəxsin islah olunmasına və onun ailəsinin həyat şəraitinə təsiri nəzərə alınmaqla, təyin edilə bilər. Eyni zamanda, Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma cəzasının tətbiq edilmədiyi şəxslərin dairəsi genişləndirilmişdir. Əvvəllər AR CM-in 52-ci maddəsilə müəyyən edilmiş məhkumlara, məcburi çıxarılması milli təhlükəsizliyin təmin edilməsi mənafeyinə zidd olan şəxslər də əlavə

olunmuşdur. Öz növbəsində ikinci qrup əliliyi olan, habelə himayəsində Azərbaycan Respublikasının vətəndaşı olmayan yetkinlik yaşına çatmayan uşağı olanlar Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma cəzasının tətbiqi ilə əlaqədar toxunulmazlıq hüququnu itirmişlər. AR CM-in sözügedən maddəsinə barəsində Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma cəzası tətbiq edilmiş şəxsin Azərbaycan Respublikasına gəlmək hüququnun onun məhkumluğu ödənilənədək və ya götürülənədək məhdudlaşdırılmasını nəzərdə tutan yeni norma da əlavə edilmişdir.

**Nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə**. 20 oktyabr 2015-ci il tarixli qanunla AR CM-in 45-ci maddəsinə intizam xarakterli hərbi hissədə saxlamaya, azadlıqdan məhrum etməyə, habelə digər əsas cəzalara, habelə şərti məhkum etmə zamanı sözügedən əlavə cəzanın təyini zamanı müddətin hesablanmasını tənzimləyən yeni norma əlavə edilmişdir. Müəyyən edilmişdir ki, nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə cəza növünün intizam xarakterli hərbi hissədə saxlama və ya azadlıqdan məhrum etmə cəzalarına əlavə olaraq təyin edildiyi hallarda, əlavə cəza əsas cəzanın çəkildiyi bütün müddətə və bundan əlavə, hökmdə bu cəza növü üçün müəyyən edilmiş müddətə şamil olunur. Habelə, həmin cəzanın digər əsas cəzalara əlavə olaraq təyin edildiyi hallarda, o cümlədən şərti məhkum etmə zamanı, əlavə cəzanın müddəti hökmün qanuni qüvvəyə mindiyi andan hesablanır.

**Müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə**. 20 oktyabr 2015-ci il tarixli qanunla AR CM-in 46-cı maddəsinə, nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə cəzasının digər cəzalara, habelə şərti məhkum etmənin təyini zamanı müddətin hesablanmasını tənzimləyən oxşar yeni norma əlavə edilmişdir. Belə ki, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə cəzasının intizam xarakterli hərbi hissədə saxlama və ya azadlıqdan məhrum etmə cəzalarına əlavə olaraq təyin edildiyi

hallarda, əlavə cəza əsas cəzanın çəkildiyi bütün müddətə və bundan əlavə, hökmdə bu cəza növü üçün müəyyən edilmiş müddətə şamil olunması, habelə bu cəzanın cərimə və digər əsas cəzalara əlavə olaraq təyin edildiyi hallarda, o cümlədən şərti məhkum etmə zamanı, əlavə cəzanın müddətinin hökmün qanuni qüvvəyə mindiyi andan hesablanması təsbit edilmişdir.

**Xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum etmə**. AR CM-in 48-ci maddəsinin Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin 23 iyul 2004-cü il və 25 iyul 2013-cü il tarixlı Qərarlarına uyğunlaşdırılması məqsədilə 20 oktyabr 2017-ci il tarixli qanunla sözügedən maddə yeni redasiyada verilmiş, müvafiq əlavə cəzanın tətbiqi qaydası qismən dəyişdirilmişdir. Belə ki, AR CM-in 48-ci maddəsinin ilkin redaksiyasından fərqli olaraq, məhkumun digər dövlət orqanı tərəfindən verilmiş xüsusi və ya hərbi rütbədən, yaxud təltifdən məhrum edilməsi haqqındakı qərarı, artıq məhkəmə hökmdə göstərir və özü də icraya yönəldir.

**İslah işləri**. Azadlığın məhdudlaşdırılması növündə cəzanın ləğv edilməsi, sonradan yenidən cəza siteminə qaytarılması ilə əlaqədar islah işlərinin digər cəza növü ilə əvəz edilməsi zamanı çəkilmiş müddətin hesablanması qaydası dəyişdirilmişdir. AR CM-in 49-cu maddəsinin son redaksiyasına əsasən, islah işlərinə məhkum olunmuş şəxs həmin cəzanı çəkməkdən qərəzli boyun qaçırdıqda, məhkəmə islah işlərinin çəkilməmiş hissəsini azadlığın məhdudlaşdırılması və ya müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza ilə əvəz etdikdə, məhkumun islah işlərini yerinə yetirdiyi müddət nəzərə alınır və çəkilməmiş iki gün islah işlərinə bir gün azadlığın məhdudlaşdırılması və ya dörd gün islah işlərinə bir gün azadlıqdan məhrum etmə hesabı ilə hesablanır.

**Hərbi xidmət üzrə məhdudlaşdırılma**. 20 oktyabr 2017-ci il tarixli qanunla AR CM-in 50-ci maddəsinə yeni norma əlavə edilmiş və bu yeniliklə hərbi xidmət üzrə məhdudlaşdırmanın müddətli həqiqi hərbi xidmətdə olan hərbi qulluqçulara və hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisələrinin kursantla-

rına tətbiqinə məhduduyyət qoyulmuşdur.

**Müəyyən müddətə azadlıqdan məhrum etmə.** AR CM-in 55-ci maddəsinə 30 may 2014-ci il tarixli qanunla edilmiş dəyişikliklə müəyyən müddətə azadlıqdan məhrum etmənin, habelə sözügedən cəzanın cinayətlərin və hökmlərin məcmusu üzrə təyini zamanı yuxarı hədləri beş il artırılmışdır. Hazırda müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasının, habelə cinayətlərin məcmusu üzrə cəza təyin edilərkən azadlıqdan məhrum etmə müddətinin qismən və ya tamamilə toplandığı hallarda maksimal müddət iyirmi il, hökmlərin məcmusu üzrə isə iyirmi beş il təşkil edir.

**Ömürlük azadlıqdan məhrum etmə**. 20 oktyabr 2017-ci il tarixli qanunla AR CM-in 57.3-cü maddəsinə edilmiş dəyişikliyə uyğun olaraq, ömürlük azadlıqdan məhrum etmə cəzasının müəyyən müddətə azadlıqdan məhrum etmə ilə əvəz edilməsi zamanı təyin edilən cəza müddəti beş il azaldılmışdır. Hazırda müvafiq müddət on il təşkil edir.

Azərbaycan Respublikasında məhkəmələr tərəfindən cəzaların tətbiqi təcrübəsini təhlili ilə əlaqədar qeyd etmək istərdik ki, müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza uzun illər ərzində aparıcı mövqedə qalmaqda davam edir. Belə ki, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatına əsasən, təkcə son yeddi, yəni 2017–2023-cü illərdə ölkənin məhkəmələri tərəfindən ümuməm 93 minə yaxın şəxs məhkum edilmişdir. Onlardan 54,3 %-nə azadlıqdan məhrum etmə cəzası təyin edilmiş, 20,7 %-lə ikinci yeri azadlığın məhdudlaşdırılması tutur, halbuki həmin cəza yenidən alti ildən bir qədər artıq müddətdə tətbiq edilməyə başlanmışdır. Üçüncü yerdə 8,7 %-lə cərimə, dördüncü yerdə isə, 5,9 %-lə islah işləri növündə cəzalardır. Təəssüf ki, hələ ictimai işlər cəzasının tətbiqi təcrübəsi çox aşağıdır. Belə ki, yuxarıda göstərilən illər ərzində ictimai işlər cəzasına cəmi doqquz yüz şəxs məhkum edilmişdir ki, bu da müvafiq illərdə cəza tətbiq edilmiş məhkumların 0,9 %-ni təşkil edir. Qeyd etmək istərdik ki, yalnız hərbi qulluqçular barəsində tətbiq

olunan, yəni hərbi xidmət üzrə məhdudlaşdırma, intizam xarakterli hərbi hissədə saxlama cəzalarından məhkəmələr tərəfindən da çox az sayda istifadə edilmişdir. Habelə, istər əsas cəza, istərsə əlavə cəza qismində müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə cəzasının da təyin edilmə faizi də kifayət qədər azlıq təşkil edir. Ən sərt cəza növü–ömürlük azadlıqdan məhrum etmə isə, yalnız istisna hallarda tətbiq edilir. Xüsusilə, son bir neçə ildə, yəni 2017–2023-cü illərdə ömürlük azadlıqdan məhrum etmə cəzasının tətbiqinin azalması müşahidə edilir, müvafiq illərdə onların sayı uçdən yeddiyə kimi olmuşdur.

Qeyd olunmalıdır ki, Azərbaycan Respublikasında son illərdə məhkəmələr tərəfindən, xüsusilə böyük ictimai təhlükə törətməyən və az agır cinayətlərə görə azadlıqdan məhkum etmənin tətbiqi faizinin yüksək olması müşahidə edilir. Nəticədə, penitensiar müəssisələrdə məhkumların sayının artması və onların yüklənməsi tendensiyası izlənməkdədir. Göstərilənlər Azərbaycan Respublikasının Prezidentinin ciddi narahatlığına səbəb olmuş və yaranmış vəziyyəti dəyişmək məqsədilə ölkə başçısı 10 fevral 2017-ci il tarixdə "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncam imzalamışdır. Bu əhəmiyyət kəsb edən sənəddə azadlıqdan məhrum etməyə alternativlərdən geniş isifadə edilməsi ilə əlaqədar səlahiyyətli dövlət orqanlarına müvafiq tapşırıqlar, məhkəmələrə isə, tövsiyələr verilmişdir. Ötən müddət ərzində dövlət başçısının sərəncamının icrası ilə bağlı kompleks qanunvericilik, təşkilati, institusional və digər praktik tədbirlər həyata keçirilmişdir. Cinayət qanunu əhəmiyyətli dərəcədə humanistləşdirilmiş, ona cəzaların təyini ilə bağlı kifayət qədər dəyişikliklər edilmişdir. Dövlət başçısının sərəncamından irəli gələn vəzifələr ümumən icra edilmiş, müəyyən müsbət nəticələr əldə edilmişdir. Eyni zamanda, ölkədə azadlıqdan məhrum edilmiş məhkumların sayını azaltmaq, onu

Avropa Şurasının təşkilatçılığı ilə Lozanna universiteti tərəfindən hər il keçirilən cinayət statistikası üzrə tədqiqatın nəticəsi kimi təqdim edilən illik SPACE I hesabatlarında göstərilən yüz min nəfər əhaliyə nisbətdə məhkumların sayı ilə bağlı tövsiyə olunan göstəriciyə uyğunlaşdırmaq hələ mümkün olmamışdır. Belə ki, göstərilən SPACE I–2023-cü il hesabatındakı məlumata əsasən, hər yüz min nəfər əhaliyə düşən azadlıqdan məhrum edilmiş şəxslərin sayına görə Türkiyə, Gürcüstandan sonra Azərbaycan Respublikası 243,3 göstərici ilə müvafiq siyahıda üçüncü yerdə yerləşmişdir ki, bu da Avropa Şurasına daxil olan dövlətlər üçün tövsiyə olunan və məqbul hesab edilən orta göstəricidən iki dəfədən də çoxdur.

Təəssüflər olsun ki, son illərdə məhkəmələr tərəfindən azadlıqdan məhrum etmə cəzasının tətbiqi təcrübəsi də azalmamışdır. Belə ki, son üç, yəni 2021–2023-cü illərdə digər cəzalarla müqayisədə, azadlıqdan məhrum etmə cəzasının ümumi məhkumetmə təcrübəsindəki payı kifayət qədər böyük olmuş, yəni ümumən 57–58 % təşkil etmişdir. Halbuki, istinad edilən illərdə ölkədə cinayətkarlığa qarsı belə sərt reaksiya verilməsinə ciddi səbəblər olmamışdır. Belə ki, Azərbaycan Respublikasında müvafiq dövrdə ağır və xüsusilə ağır, habelə zorakılıqla bağlı olan cinayətlərin artımı qeydə alınmamışdır. Habelə, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatına əsasən 2017–2023-cü illərdə ölkədə qeydə alınmış cinayətlərin 80 %-dən çoxunu böyuk ictimai təhlükə törətməyən və az ağır ictimai təhlükəli əməllər təşkil etmişdir.

Yaranmış vəziyyəti dəyişmək, yəni azadlıqdan məhrum etmə ilə bağlı hökmlərin, habelə penitensiar müəssisələrdə cəza çəkən şəxslərin sayının azaldılması məqsədilə tərəfimizdən əlavə tədbirlərin görülməsi, habelə müvafiq qanunvericiyin humanistləşdirilməsinin davam etdirilməsi ilə bağlı təkilflər verimişdir. Eyni zamanda, xarici ölkələrin qanunvericiliyini, alim penaloqların elmi əsərlərindəki, habelə Azərbaycan Respublikasında cəzalara həsr edilmiş bizim məqalələrdəki təklifləri nəzərə almaqla, AR CM-in

cəza sisteminin və müvafiq dövlət məcburiyyət tədbirlərinin növlərinin təkmilləşdirilməsi prosesinin davam etdirmək məqsədəuyğun olardı. Belə ki, **cərimə** (AR CM-in 44 və 85-ci maddələri) ilə bağlı:

– bu cəzanın təyini zamanı qanunla müəyyən olunmuş hallardan əlavə məhkumun ailəsinin maddi vəziyyətinin də nəzərə alınması ilə əlaqədar müvafiq maddələrə dəyişiklik etmək;

– onun məbləğini törədilmiş cinayətin ağırlıq dərəcəsindən asılı olaraq fərləndirilmiş qaydada müəyyənləşdirmək;

– müvafiq məbləği gündəlik, həftəlik və ya aylıq əmək haqqı, yaxud gəlirlər miqdarında da təyin edilməsini nəzərdə tutmaq;

– yetkinlik yaşına çatmayan məhkumların razılığı ilə cərimənin məbləğini onların valideynləri və yaxud qanuni nümayəndələri tərəfindən ödənilməsi ilə bağlı imkanı təsbit etmək;

– cəzanın azadlıqdan məhrum etmə ilə əvəz edilməsi imkanını ləğv etmək;

– cərimənin məbləğindən asılı olaraq onun digər cəzalarla əvəz edilməsi, habelə cinayətlərin və is hökmlərin məcmusu üzrə yekun cəzanın təyini zamanı digər cəzalarla qismən və ya tamlıqla toplanması ilə əlaqədar hesablanması qaydasını müəyyənləşdirmək məqsədəuyğundur.

**Nəqliyyat vasitəsini idarə etməkdən məhrum etmə cəzası** (AR CM-in 45-ci maddəsi) ilə əlaqədar hesab edirik ki,:

– cəzanı dəmir yolu, su və hava nəqliyyatının hərəkət təhlükəsizliyi və istismar qaydalarının pozulması ilə bağlı cinayətlərə görə də təyin edilməsini nəzərdə tutmaq;

– cəza ilə bağlı məhkəmənin hökmünün tələblərinin qərəzli icra edilməməsi ilə bağlı cinayət məsuliyyəti müəyyən etmək. Belə məsuliyyət bağlı müddəa Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin 158-ci maddəsinə daxil edilmişdir, həmin normanı AR CM-də də nəzərdə tutmaq və əvəz etmə formasını konkretləşdirmək lazımdır. Eyni zamanda, məhkəmənin hökmünün nəqliyyat vasitəsini idarə etməkdən məhrum etmə cəzasının tələblərinin qərəzli icra edilməməsi ilə bağlı cəza təyini zamanı, əsas

cəza ilə yanaşı həmin əlavə cəzanı da tətbiq ediməsi ilə əlaqədar AR CM-in 45-ci maddəsinə müvafiq müddəa daxil edilməsi zəruridir. Belə yanaşma məhkuma nəqliyyat vasitəsini idarə etməkdən məhrum etmədən yayımağın qarşısını almaga imkan verəcəkdir.

**Müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə** (AR CM-in 46-ci maddəsi) ilə bağlı:

– cəzanın çəkilməsi ilə əlaqədar məhkəmə hökmünün tələblərinin qərəzli icra edilməməsi ilə bağlı cinayət məsuliyyətini müəyyən etmək. Belə məsuliyyətlə bağlı müddəa Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin 33-cü maddəsinə daxil edilmişdir, həmin normanı AR CM-də də nəzərdə tutmaq və müvafiq cəzanın digər cəza ilə əvəz etmə formasını konkretləşdirmək lazımdır.

– əsas cəza kimi təyin edilmiş müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə ilə bağlı məhkəmə hökmünü qərəzli icra etməmə zamanı onun islah işləri və azadlığın məhdudlaşdırılması ilə əvəz olunması, bu zaman müvafiq cəzanın çəkilməmiş hüssəsinin artıq əlavə cəza kimi təyin edilməsi ilə əlaqədar CM-ə müvafiq dəyişiklik edilməsi məqsədəuygun olardı. Belə tənzimlənmə məhkumun əvvəllər müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməsi ilə bağlı mövcud məhdudiyyətlərdən yayımamasının qarşısını almaga zəmin yaracaqdır.

**Xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum etmə** (AR CM-in 48-ci maddəsi) ilə əlaqədar:

– bu əlavə cəzanın ixtisas dərəcələrinə malik dövlət qulluqçularına da tətbiq edilməsi ilə əlaqədar müvafiq maddənin redaksiyasına dəyişikliklər edilməsini məqsədəuyğun hesab edirik. Belə ki, Azərbaycan Respublikasında ixtisas dərəcəsi dövlət qulluqçusuna xüsusi və hərbu rütbəli şəxslərlə yanaşı müəyyən güzəştlərdən faydalamağa, ilk növbədə, əmək haqqına əlavə ödəniş hüququ verir. Habelə, həmin əlavə ödəniş pensiya kapitalının miqdarının formalaşmasına və pensiyasının məbləğinə də təsir göstərir.

**İslah işləri** (AR CM-in 49, 85-ci maddələri) ilə bağlı zəruri hesab edirik ki:

– cəzanın ikinci dərəcəli əlilliyi olan, pensiya yaşına çatmış şəxslərə, hamilə və üç yaşına kimi uşağı olan qadınlara, habelə əcnəbi vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə təyin edilməsinə qadağa qoymaq;

– yetkinlik yaşına çatmayan məhkumların qazancından, yəni əmək haqqından və ya digər gəlirlərindən tutulmaları on faizədək azaltmaq;

– cəzanın çəkilməsindən qərəzli boyun qaçırılması zamanı onu digər alternativlə, yəni azadlığın məhdudlaşdırılması ilə əvəz etmək məqsədəuyğun olardı.

**Hərbi xidmət üzrə məhdudlaşdırma, intizam xarakterli hərbi hissədə saxlama cəzaları** (AR CM-in 50 və 54-cü maddələri) ilə əlaqadar hesab edirik ki, bu cəzaların icrasından qərəzli boyun qaçırma ilə bağlı cinayət məsuliyyətinin müəyyən edilməsi və onların digər cəzalarla, o cümlədən azadlıqdan məhrum etmə ilə əvəz edilməsi qaydasını müəyyən etmək məqbul olardı.

**Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarmaya** (AR CM-in 52-ci maddəsi) gəldikdə, hazırkı vaxtın reallıqlarını, milli təhlükəsizliyə qarşı artan təhlukə və çağırışları nəzərə alaraq, əcnəbi və vətəndaşlığı olmayan şəxslər tərəfindən ölkədə törədilə bilən mümkün cinayətlərdən müdafiənin təmin olunması, sözügedən şəxslərin cəzalarının icrası və çəkilməsi prosesində yaranan bir sıra çətinliklərdən, habelə belə kateqoriyalı məhkumların cəzalarını çəkmək üçün mənsub olduqları dövlətlərə verilməsi ilə bağlı kifayət qədər mürəkkəb və böyük müddət tələb edən prosedulardan qaçmaq məqsədilə, bu əlavə cəzanın müvafiq şəxslərə əsas cəza qismində də tətbiqini təklif edirik. Cəzanın tətbiqinə qadaga qoyulmuş şəxslərin mövcud siyahısının bir qədər məhdudlaşdırılmasını, habelə müvafiq şəxslərin, əvvələr törədilmiş cinayətin ağırlıq dərəcəsindən asılı olaraq Azərbaycan Respublikasına gəlmək hüququnun da sərtləşdirilməsini təklif edirik. Göstərilənlərlə əlaqədar AR CM-in 52-ci mad-

dəsini aşağıda göstərilən yeni redaksiyada verilməsini təklif edirik:

"52.1. Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma cəzası əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslərə həm əsas, həm də əlavə cəza kimi təyin edilir.

52.2. Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma əsas cəza böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə təyin edilir. Bu Məcəllənin 58.3-cü maddəsində göstərilmiş hallar nəzərə alınmaqla və məhkumun Azərbaycan Respublikasının ərazisində qalması məqsədəuyğun olmadıqda, Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma cəzası ağır cinaəyətlərə görə də tətbiq edilə bilər.

52.3. Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma əlavə cəza kimi ağır cinayətlərə və xüsusilə ağır cinayətlərə görə məhkum edilən şəxslərə təyin edilir və əsas cəza növü çəkildikdən sonra icra edilir.

52.4. Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma cəza növü aşağıdakı şəxslərə şamil edilmir:

52.4.1. barəsində ittiham hökmü qanuni qüvvəyə minənədək Azərbaycan Respublikasının vətəndaşı ilə nikahda olan şəxslərə, lakin həmin cəzanın tətbiq edilməməsi ilə əlaqədar arvadın (ərin) yazılı razılığı olduqda;

52.4.2. valideynlərindən biri Azərbaycan Respublikasının vətəndaşı olan şəxslərə;

52.4.3. himayəsində Azərbaycan Respublikasının vətəndaşı olan yetkinlik yaşına çatmayan, habelə fəaliyyət qabiliyyəti olmayan və ya birinci və ya ikinci qrup əlilliyi müəyyən edilmiş uşağı olan şəxslərə;

52.4.4. məcburi çıxarıldığı zaman gedəcəyi ölkədə işgəncəyə və ya təqibə məruz qala biləcəyinə ciddi əsaslar olduğu ehtimal edilən şəxslərə;

52.4.5. məcburi çıxarılması milli təhlükəsizliyin təmin edilməsi mənafeyinə zidd olan şəxslərə.

52.5. Barəsində Azərbaycan Respublikasının hüdudlarından

kənara məcburi çıxarma cəzası tətbiq edilmiş şəxslərin Azərbaycan Respublikasına gəlmək hüququ onların məhkumluğu ödənildikdən və ya götürüldükdən sonra böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə məhkum edilmişlər barəsində on il müddətinə, agır cinayətlərə görə məhkum edilmişlər barəsində on beş il müddətinə, xüsusilə ağır cinayətlərə görə məhkum edilmişlər barəsində isə müddətsiz olaraq məhdudlaşdırılır.

52.6. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə bu Məcəllənin 52.2-ci və 52.4-cü maddələri arasında ziddiyyət yaranarsa, Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilmiş aktlar istisna olmaqla, beynəlxalq müqavilələr tətbiq edilir."

**Azadlığın məhdudlaşdırılması cəzası** (AR CM-in 52-1-ci maddə) ilə bağlı təklif edirik:

– cəzanın beş illik yuxarı həddini bir il azaltmaq, onu törədilmiş cinayətin ağırlıq dərəcəsi nəzərə alınmaqla, böyük ictimai təhlükə törətməyən cinayətlərə görə iki ilədək, az ağır cinayətlərə görə üç ilədək, ağır cinayətlərə görə isə dörd ilədək təyin etmək;

– məhkumların yaşayış yerinin qanunvericilkdə nəzərdə tutulmuş əsaslara uyğun dəyişdirilməsi ilə bağlı qərarın qəbul edilməsi işində operativliyin təmin edilməsi, bu işlər üzrə məhkəmələrin xidmət yükünün azaldılması məqsədilə ilə məsələnin həlli ilə əlaqədar hüququ probasiya üzrə icra məmuruna vermək məqsədəuyğun olardı.

**Ömürlük azadlıqdan məhrum etmə** (AR CM-in 57-ci maddəsi) cəzasını çəkən şəxslərin cəzalarının müəyyən müddətə azadlıqdan məhrum etmə ilə əvəz edilməsi və ya cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi məsələsinə baxılması üçün qanunla tələb olunan müddəti beş il azaltmaqla, iyirmi il müəyyən etmək daha məqbul olardı.

**İctimai işlər növündə cəzanın** (AR CM-in 47-ci maddəsi), yəni azadılqdan məhrum etməyə alternativ kimi cıxış edən bu dövlət məcburiyyət tədbirinin məhkəmələr tərəfindən tətbiqi təcrübəsinin genişləndirilməsi məqsədilə, onu AR CM-in Xüsusi his-

səsinin böyük ictimai təhlükə törətməyən və az agır cinayətlərə görə nəzərdə tutulmuş digər maddələrinin sanksiyalarına əlavə edilməsini təklif edirik.

Fikirləşirik ki, AR CM-ə təklif edilən, xüsusilə alternativ cəzalarla bağlı cəzalarla əlaqədar dəyişikliklər ölkə məhkəmələri tərəfindən azadlıqdan məhrum etmə cəzasının tətbiqi təcrübəsinin azalmasına və penitensiar müəssisələrdə cəza çəkən şəxslərin sayının aşağı düşməsinə komək edə bilər. Habelə, düşünürük ki, cinayət cəzalarının səmərəliyinin artırılması, onların icrası ilə bağlı təcrübədə yaranan çətinliklərin və məsələlərin həlli məqsədilə onların icrası mexanizmləri də təkmilləşdirilməlidir. Yuxarıda göstərilən təkliflərin qəbulu təqdirində AR CM-in digər məcəllələrinə, habelə Azərbaycan Respublikasının Cinyət-Prossesual, Cəzaların İcrası məcəllələrinə və ölkənin bir sıra digər qanunlarına dəyişikliklər edilməsi zərurəti yaranacaqdır.

Eyni zamanda, Azərbaycan Respublikasında cəzaların təyini təcrübəsinin hərtərəfli öyrənilməsi prosesesinin, bu sahədə mükəmməl təhlillərin, cəza tətbiqi ilə bağlı fundamental elmi tədqiqatların aparılmasının asanlaşdırılması məqsədilə, ölkədə cinayətkarlığa və hüquqpozmalara həsr olunmuş rəsmi məhkəmə statistikasının mövcud srukturunun, məhkəmələr tərəfindən təyin olunan bütün dövlət məcburiyyət tədbirləri, o cümlədən əlavə cəzalar və cinayət-hüquqi tədbirlər barədə məlumatlar da daxil edilməklə, təkmilləşdirilməsi məqsədəuyğun olardı.

***İstinad edilmiş mənbə:***

***Znanstvena misel journal. Slovenia, 2024. № 92, C. 20–26.***

## Azadlıqdan məhrum etmə növündə cəzanın icrası modelləri

Azərbaycan Respublikasında planlı şəkildə həyata keçirilən penitensiar sistemin islahatı prosesində azadlıqdan məhrum etmə növündə cəzanın icrasının münasib modelinin seçilməsi qızgın müzakirələr doğurur. Ümumbəllidir ki, dünyanın penitensiar təcrübəsi azadlıqdan məhrum etmə növündə cəzanın icrasının iki əsas modelini tanıyır. Birincisi - cəzanın həbsxanada, məhkumların kameralarda saxlanması ilə icra edilməsidir. Bu model qədim tarixə malik olmaqla, azadlıqdan məhrum etmənin klassik şəkildə icrasına başlanması ilə həyata vəsiqə almış və hazırda bütün dünyada geniş tətbiq edilir. SSRİ-nin süqutundan sonra sabiq Baltikyanı respublikalar bu modelin tətbiqinə başlamışlar. Çoxsaylı dəyişikliklərə baxmayaraq, həmin model xarici görünüşünü qoruyub saxlaya bilmişdir. Bu model maliyyə təminatı cəhətdən bir qədər məsrəfli olmasına, idarəetmənin təşkilində müəyyən çətinliklər yaratmasına baxmayaraq, penitensiar müəssisələrin əsas problemlərindən biri olan istər işçi heyətinin, istərsə məhkumların təhlükəsizliyini təmin edir, habelə cəza çəkənlərin əsas hissəsini cinayətkar elementlərin mənfi təsirindən qoruyur. Azadlıqdan məhrum etmənin belə icra modeli məhbuslarla rəftara həsr olunmuş beynəlxalq aktlarda da nəzərdə tutulmuşdur.

İkinci model, cəzanın müxtəlif rejimli cəzaçəkmə müəssisələrində məhkumların yataqxanalarda yerləşdirilməsilə icra edilən növüdür. Bu model sabiq SSRİ-nin bir neçə respublikasında, o cümlədən Azərbaycan Respublikasında və Rusiya Federasiyasında hələ də qalmaqdadır. Bu model sovet sisteminin, onun kollektivçilik prinsipinə əsaslanan məfkurəsinin, bolşeviklərin "həbsxanalardan tərbiyə müəssisələrinə keçid" ideyası ilə müşayiət edilən məhsuludur. Fikrimizcə, bu modelin tətbiqinin əsas məqsədləri aşagıdakılar olmuşdur:

- azadlıqdan məhrum etmə cəzasının icrasına yad, yəni kapitalist yanaşmadan imtina etmək, sovet cəzaçəkmə müəssisələrinə si-

vil və ictimai görünüş vermək cəhdi;

- böyük sayda məhkumların qənaətli şəkildə yerləşdirilməsi və onların saxlanmasına sərf edilən xərclərin xeyli azaldılması;

- cəza çəkən məhkumların ucuz əməyinə üstünlük verilməsi, böyük iqtisadi problemlərin və çətin təsərrüfat məsələlərinin həllinə məhkumların ödənişsiz cəlb edilməsi;

- gündəlik həyatı problemlərin bir hissəsinin (yemək, gəzinti, asudə vaxtın təşkili və digər) həllinin, habelə cəzanın çəkilməsi yerlərində təhlükəsizlik və yaşamın təmin edilməsi məsələlərinin məhkumların üzərinə qoyulması;

- məhkumların idarə edilməsinin asanlaşdırılması, zəruri hallarda hakimiyyətin arzu edilməyən şəxslərdən qisas alınması məqsədilə həbsxanada submədəniyyətin (yəni, müəssisədə idarəetmənin tənzimlənməsinə mənfi xarakterizə edilən məhkumların cəlb olunması) təşkili imkanları.

Lakin baş vermiş dəyişikliklərlə, yuxarıda göstərilən məqsədlərdən imtinaya baxmayaraq, bu modelin çox mühüm qüsurları vardır. Bu model işçi heyətinin və məhkumların təhlükəsizliyinin, habelə sağlamlığının təmin edilməsi ilə bağlı ciddi problemlər yaradır. Göstərilən məsələnin həlli, habelə Azərbaycan Respublikası Prezidentinin 06 fevral 2009-cu il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan ədliyyəsinin inkişafına dair 2009-2013-cü illər üçün Dövlət Proqram"ında nəzərdə tutulmuş ölkənin penitensiar sisteminin təkmilləşdirilməsinin davam etdirilməsi, habelə cəza-icra fəaliyyətinin Avropa Şurasının məhbuslarla rəftara həsr edilmiş müvafiq aktlarında, xüsusilə Avropa Penitensiar Qaydalarında qeyd olunmuş standartlara uyğun qurulması məqsədilə Azərbaycanda məntəqə tipli cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumlar istisna olmaqla, azadlıqdan məhrum etmənin icrasında həbsxana modelinə keçidə istiqamət götürülmüşdür. Oxşar qərar Rusiya Federasiyasında da qəbul edilmişdir. Bu ölkənin hökumətinin 14 oktyabr 2010-cu il tarixli 1772-r nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Rusiya Federasiyasının cəza-icra sisteminin 2020-ci elədək inkişaf Konsepsiyası"nda mövcud cəzaçəkmə mü-

əssisələrinin həbsxanalarla əvəz edilməsi ilə bağlı tədbirlər nəzərdə tutulmuşdur. Göstərilənlərlə əlaqədar azadlıqdan məhrum etmənin icrasında həbsxana modelinin seçimi böyük əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasında Ədliyyə Nazirliyinin təklifinə əsasən Nazirlər Kabineti tərəfindən Avropa ölkələrinin, habelə qardaş Türkiyənin təcrübəsi nəzərə alınmaqla təklif edilən yeni bir modelin tətbiqi nəzərdə tutulur. Bu modelin köhnə cəzaçəkmə müəssisələrində tətbiqinin mürəkkəbliyi və məqsədəmüvafiq olmadığı nəzərə alınaraq, onun Azərbaycan Respublikasında inşa edilən yeni regional penitensiar müəssisələrin bazasında həyata keçirilməsi qərara alınmışdır. Dünya təcrübəsində azadlıqdan məhrum etmənin icrası prosesindəki mövcud həbsxana modellərinin müxtəlifliyi nəzərə alınmaqla, Azərbaycan Respublikasında tətbiq ediləcək bu modelin də özünə məxsus xüsusiyyətləri olacaqdır. Məhkumların belə müəssisələrdə üçmərtəbəli rejim korpuslarında az adamlıq, yəni 1-4 nəfərlik kameralarda yerləşdirilməsi planlaşdırılır, cəzanın icrası və rejim qaydalarına riayət edilməsindən asılı olaraq onlara gündüz vaxtlarını kameradan kənarda keçirmək imkanının verilməsi və bu müddəanın qanunvericiliyə daxil edilməsi nəzərdə tutulur. Rejim korpuslarının ilk iki mərtəbəsində saxlanılan məhkumlar yuxudan durmaq vaxtından yatmaqa hazırlığa qədər öz kameralarından kənarda olmaq, mərtəbə daxilində hərəkət etmək, sərbəst qaydada yemək qəbul etmək, müəssisənin gün bölgüsünə uyğun olaraq müxtəlif tərbiyəvi, mədəni-kütləvi, idman, maarifləndirici, əyləncə xarakterli və digər tədbirlərdə iştirak etmək, habelə gün ərzində müəssisənin həyatində, habelə idman meydançasında bir neçə saat açıq havada olmaq hüququna malik olacaqlar. Rejim korpuslarının üçüncü mərtəbəsi cəzanın icrası qaydalarını qərəzli pozan, habelə məhkəmə qərarı ilə həbsxanaya keçirilən məhkumlar üçün nəzərdə tutulmuşdur. Həmin məhkumlar gəzintiyə çıxmaq, həkimin və yə müdiriyyətin qəbuluna getmək məsələləri istisna olmaqla, daim bağlı olan kameralarda saxlanılacaqlar. Onlara hər gün saxlandıqları kamerala-

rın qarşısında, yəni üçüncü mərtəbədə ayrıca üstü açıq olan otaqlarda iki saatdan az olmayan müddətə gəzinti veriləcəkdir. Cəzanın icrası qaydalarını qərəzli pozan məhkumların göstərilən qaydada yerləşdirilməsi işçi heyətinin təhlükəsizliyini təmin etməklə, onların digər müəssisələrə, habelə həbsxanaya müşayiət olunmasından, bununla bağlı çəkilən xərclərdən qaçmaqa imkan yaratmaqla yanaşı, beynəlxalq aktlarda, habelə Azərbaycan Respublikasının cəzaların icrası qanunvericiliyində nəzərdə tutulmuş məhkumun cəzasını yaşayış yerinin yaxınlığında çəkməsi ilə bağlı müvafiq müddəaların həyata keçirilməsinə əlverişli zəmin yaradacaqdır. Qeyd etmək lazımdır ki, məhkumun azad hərəkətinin kifayət qədər məhdudlaşdırılması məhbuslarla rəftara həsr edilmiş beynəlxalq normaların pozulması kimi qiymətləndirilməməlidir. Birincisi, həmin normalar təhlükəsizliyin təmin edilməsi naminə belə məhduddiyətlərin tətbiqini mümkün hesab edir, ikincisi, oxşar məhdudiyyətlər Avropanın çoxsaylı ölkələrinin cəza-icra qanunvericilyində nəzərdə tutulmuşdur, üçüncüsü isə, dünyada mövcud olan beynəlxalq penitensiar təcrübə ilə rejim qaydalarını qərəzli pozan məhkumların cəzalarının digər, daha səmərəli icrası qaydaları hələ müəyyən edilməmişdir.

Cəzanın icrası qaydalarını qərəzli pozan məhkumlara tətbiq edilə bilən tənbeh tədbirinin tətbiqi qismində təklif olunan bağlı kameralarda iki aydan altı ayadək müddətdə saxlanılmasının, onun sonradan Penitensiar Xidmətlə razılaşdırılmaqla, bir ilədək artırılmasının penitensiar müəssisənin müdiriyyətinin səlahiyyətlərinə aid edilməsi məqsədəuyğun olardı. Məhkumların bağlı olan kameralarda bir ildən çox müddətə saxlanılmasının isə, penitensiar müəssisənin müdiriyyətinin təqdimatına əsasən qəbul edilmiş məhkəmə qərarı ilə həyata keçirilməsini təklif edirik.

Fikrimizcə, azadlıqdan məhrum etmə üçün təklif edilən yeni icra modeli, bir penitensiar müəssisə daxilində müxtəlif rejimli cəzaçəkmə müəssisəsi təşkil etməklə yanaşı, müvafiq cəza növünün fərdi və fərqli qaydada icrasını təmin edə bilərdi. Azadlıqdan məhrum etmə növündə cəzanın həbsxanada icrasının təklif olunan

modelinin nə qədər səmərəli olub və ya olmadığunu sözsüz ki, zaman və təcrübə göstərəcəkdir.

***İstinad edilmiş mənbə:***

***“Rusiya Federasiyasının cəza-icra sistemi modernləşdirmə mərhələsində: müasir vəziyyət və inkişaf perspektivləri” mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materiallarının toplusu (rus dilində). Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası, Ryazan, 2012. Tom I, Səh. 116–119.***

## Penitensiar komplekslər–Azərbaycan Respublikasında cəzaçəkmə müəssisəsinin yeni növü kimi

Məhkumun cəzanı yaşayış yerinə yaxın ərazidə çəkməsinin xüsusi əhəmiyyət kəsb etdiyi ümümibəllidir. Bununla əlaqədar dünya ölkələrinin cəzaların icrasını tənzimləyən milli qanunvericiliyinə müvafiq normalar daxil edilmiş, eyni zamanda məhbuslarla davranışa həsr olunmuş beynəlxalq aktlar da bu məsələnin müsbət həllini dəstəkləyir. Belə ki, Avropa Qaydalarının 17.1-ci bəndi, məhkumları cəzanı çəkmək üçün imkan daxilində, yaşayış və ya sosial reabilitasiya yerlərinin yaxınlığında yerləşən penitensiar müəssisələrə göndərilməsini tövsiyə edir.

Sabiq SSRİ dövlətlərindən fərqli olaraq Avropada, habelə dünyanın digər ölkələrində azadlıqdan məhrum etmə cəzasının çəkilməsini yaşayış yerinə yaxın yerdə təmin etmək, müxtəlif rejimli cəzaçəkmə müəssisələri əvəzinə fəaliyyət göstərən həbsxanalarda daha asandır. Lakin belə cəza çəkməni təcrübədə həyata keçirmək həmişə çətinliklər doğurmuş və problem olaraq qalmaqdadır. Belə ki, sabiq SSRİ-də, o cümlədən Azərbaycanda bu məsələ uzun müddət qanunvericiliklə tənzimlənməmişdir. İkincisi, əvvəllər məhkumun cəzasının çəkilməsi yerini müəyyənləşdirən əsas meyarı iqtisadi amil, yəni məhkumun əməyindən istifadədən alınacaq maraq, yəni gəlir təşkil etmişdir.

20 may 1925-ci il tarixdə qəbul edilmiş Azərbaycan SSR-nin ilk İslah-Əmək Məcəlləsində azadlıqdan məhrum etmə növündə cəzanın çəkilməsi yeri ilə bağlı məsələ tənzimlənmirdi. Həmin məcəllənin 47-ci maddəsinə əsasən məhkumlar azadlıqdan məhrum etmə növündə cəzanı icra edən müəssisələrə "cinayətkarın şəxsiyyətinin sosial və psixioloji xüsusiyyətləri, habelə törədilmiş cinayətin səbəblərindən asılı olaraq fərdi qaydada tətbiq olunmuş ictimai müdafiə tədbirləri" nəzərə alınmaqla, göndərilirdilər. Sonradan bu məsələ yenə də üzun müddət qanunvericiliklə tənzimlənməmişdir. Sabiq SSRİ Daxili İşlər Nazirliyinin 07 iyun 1954-cü il tarixli əmri ilə təsdiq edilmiş "İslah-əmək koloniyaları və həbsxa-

nalar haqqında Əsasnamə"də də cəzanın çəkilməsi yerləri ilə bağlı müddəlar nəzərdə tutulmamışdır.

İlk dəfə sözügedən problem öz həllini sabiq SSRİ-nin Nazirlər Sovetinin 08 dekabr 1958-cü il tarixli 1334 nömrəli Qərarı ilə təsdiq edilmiş "SSRİ-nin Daxili İşlər Nazirliyinin islah-əmək koloniyaları və həbsxanaları haqqında Əsasnamə"də tapmışdır. Həmin Əsasnamənin 6-cı maddəsində göstərilirdi ki, məhkumlar cəzalarını bir qayda olaraq, həbs edilənədək yaşadıqları, yaxud məhkum olunduqları vilayətin, diyarın və ya respublikanın hüdudlarında çəkirlər. Cəzanın çəkilməsi rejiminin şərtləri və digər səbəblər nəzərə alınmaqla, cəzanın məhkumun həbs edilənədək yaşadığı, yaxud məhkum olunduğu yerlərdə çəkilməsi mümkün olmadıqda, onlar digər vilayət, diyar və ya respublikaların ərazısində yerləşən müvafiq islah-əmək koloniyalarına və həbsxanalara göndərilə bilərdilər.

Azərbaycan SSR-də cəzanın çəkilməsi yeri il bağlı məsələnin qanunvericiliklə tənzimlənməsi Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin 29 iyul 1961-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan SSR Daxili İşlər Nazirliyinin islah-əmək koloniyaları və həbsxanaları haqqında Əsasnamə"sində tapmışdır. Əsasnamənin 8-ci maddəsində göstərilirdi ki, ilk dəfə azadlıqdan məhrum etməyə məhkum edilmiş şəxslər cəzalarını bir qayda olaraq, həbs edilənədək yaşadıqları, yaxud məhkum olunduqları respublika ərzisindəki islah-əmək koloniyalarında və həbsxanalarda çəkirlər. Xüsusilə təhlükəli residivistlər və ölüm cəzasına məhkum edilib, sonradan cəzaları bağışlanma qaydasında azadlıqdan məhrum etmə ilə əvəz olunanlar öz cəzalarını ciddi təcrid edilmə və rejim şəraitində saxlanılmaqla, əsasən ağır fiziki işlərdə istifadə olunmaqla böyük yaşayış məntəqələrindən uzaqda yerləşən islah-əmək koloniyalarında çəkirdilər.

Cəzanın çəkilməsi yeri ilə bağlı məsələ sabiq SSRİ-nin 11 iyul 1969-cu il tarixli Qanunu ilə təsdiq edilmiş "SSR İttifaqı və müttəfiq respublikaların islah-əmək qanunvericiliyinin Əsasları"nın 6-ci maddəsində də, lakin bir qədər fərqli şəkildə öz əksini tapmışdır. Həmin maddədə göstərilirdi ki, ilk dəfə azadlıqdan məhrum etməyə məhkum edilmiş şəxslər cəzalarını bir qayda olaraq,

həbs edilənədək yaşadıqları, yaxud məhkum olunduqları respublikanın ərzisində çəkirlər. Lakin məhkumların daha uğurlu islahı və yenidən tərbiyələndirilməsi məqsədilə onlar cəzalarını çəkmək üçün digər müttəfiq respublikaların müvafiq islah-əmək müəssisələrinə göndərilə bilərlər. Əvvəllər azadlıqdan məhrum etmə növündə cəza çəkmiş, ölüm cəzasına məhkum edilərək sonradan cəzaları amnistya və ya əfv qaydasında azadlıqdan məhrum etmə ilə əvəz olunan, xüsusi təhlükəli dövləti cinayətlərə görə məhkum edilmiş, habelə əcnəbi və ya vətəndaşlığı olmayan şəxslər həbs edilənədək yaşadıqları respublikadan asılı olmayaraq, bu kateqoriyalı məhkumlar üçün müəyyən edilmiş islah-əmək müəssisələrinə göndərilirlər. Azadlıqdan məhrum etməyə məhkum edilmiş qadınlar, yetkinlik yaşına çatmayanlar və xüsusi müalicəyə ehtiyacı olan şəxslər həbs edilənədək yaşadıqları, yaxud məhkum olunduqları respublika ərzisində müvafiq islah-əmək müəssisəsi olmadıqda, cəzalarını çəkmək üçün digər müttəfiq respublikanın islah-əmək müəssisələrinə göndərilə bilərdilər. Qeyd olunan müddəa müttəfiq respublikaların, o cümlədən 23 dekabr 1970-ci ildə qəbul edilmiş Azərbaycan SSR-nin İslah-Əmək Məcəlləsinə də daxil edilmişdir. Həmin Məcəllənin cəzanın çəkilməsi yerini müəyyən edən 6-cı maddəsində göstərilirdi ki, SSR İttifaqı və müttəfiq respublikaların islah-əmək qanunvericiliyinin Əsaslarının 6-ci maddəsinə uyğun olaraq:

- ilk dəfə azadlıqdan məhrum etməyə məhkum edilmiş, həbs olunadək, yaxud məhkum edilənədək Azərbaycan SSR-nin ərazisində yaşayan şəxslər cəzalarını bir qayda olaraq, Azərbaycan SSR-nin ərazisində çəkirlər. Müstəsna hallarda, məhkumların daha uğurlu islahı və yenidən tərbiyələndirilməsi məqsədilə onlar cəzalarını çəkmək üçün digər müttəfiq respublikaların müvafiq islah-əmək müəssisələrinə göndərilə bilərlər;
- əvvəllər azadlıqdan məhrum etmə növündə cəza çəkmiş, ölüm cəzasına məhkum edilərək sonradan cəzaları amnistya və ya əfv qaydasında azadlıqdan məhrum etmə ilə əvəz olunan, xüsusi təhlükəli dövləti cinayətlərə görə məhkum edilmiş, habelə əcnəbi və ya vətəndaşlığı olmayan şəxslər həbs edilənədək yaşadıqları

respublikadan asılı olmayaraq bu kateqoriyalı məhkumlar üçün nəzərdə tutulmuş islah-əmək müəssisələrinə göndərilirlər;

- azadlıqdan məhrum etməyə məhkum edilmiş qadınlar, yetkinlik yaşına çatmayanlar və xüsusi müalicəyə ehtiyacı olan şəxslər həbs olunadək, yaxud məhkum edilənədək yaşadıqları Azərbaycan SSR-nin ərzisində müvafiq islah-əmək müəssisəsi olmadıqda, cəzalarını çəkmək üçün digər müttəfiq respublikaların islah-əmək müəssisələrinə göndərilə bilərlər.

Sabiq SSRİ Ali Sovetinin Rəyasət Heyətinin 12 oktyabr 1987-ci il tarixli Fərmanı ilə SSR İttifaqı və müttəfiq respublikaların islah-əmək qanunvericiliyinin Əsaslarının 6-ci maddəsinin dəyişdirilməsi nəzərə alınaraq, Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin 06 noyabr 1987-ci il tarixli Fərmanı ilə Azərbaycan SSR-nin İslah-Əmək Məcəlləsinin 6-cı maddəsinə də dəyişiklik edilmişdir. Bu dəyişikliyə əsasən məhkumlar daha uğurlu islah edilmə və yenidən tərbiyələndirilmə məqsədilə cəzalarını çəkmək üçün digər müttəfiq respublikaların müvafiq islah-əmək müəssisələrinə SSRİ Prokurorluğu ilə razlılaşdırılmaqla, SSRİ Daxili İşlər Nazirliyinin müəyyən etdiyi qaydalara uyğun göndərilə bilərdilər. Beləliklə, qeyd olunan dəyişikliklərlə SSR İttifaqı və müttəfiq respublikaların islah-əmək qanunvericiliyinin Əsaslarından və Azərbaycan SSR-nin İslah-Əmək Məcəlləsindən məhkumların cəzalarını çəkmək üçün digər müttəfiq respublikanın müvafiq islah-əmək müəssisələrinə göndərilməsi ilə bağlı müstəsna hallar çıxarılmış və müvafiq qaydanın müəyyən edilməsi səlahiyyəti SSRİ Daxili İşlər Nazirliyinə verilmişdir.

Lakin bəzi məhkumların cəzanı yaşayış yerinə yaxın ərazidə çəkilməsi ilə əlaqədar hüquqi tənzimlənməyə və imkanlara baxmayaraq, SSRİ dönəmindəki təcrübədə bu müddəalar həmişə nəzərə alınmırdı, məhkumlar cəzanı çəkmək üçün ölkənin istənilən nöqtəsinə göndərilə bilərdilər və göndərilirdilər. SSRİ süqut etdikdən və məhkumlar mənsub olduqları müstəqil dövlətlərə qaytarıldıqdan sonra bu problemin həlli qaydası, o cümlədən Azərbaycanda da dəyişdirildi. Məhkumlar cəzalarını vətəndaşları olduqları ölkədə çəkməyə başladılar. Bununla bağlı Azərbaycan

Respublikasının 7 fevral 1997-ci il tarixli Qanunu ilə İslah-Əmək Məcəlləsinin 6-ci maddəsinə müvafiq dəyişikliklər edildi. Bu dəyişikliklərə əsasən Azərbaycan Respublikası ərazisində törədilmiş cinayətlərə görə azadlıqdan məhrum edilmiş şəxslər cəzanı Azərbaycan Respublikası hüdudlarında çəkirlər. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin cəzaçəkmə yerlərinin Azərbaycan Respublikası hüdudlarından kənara dəyişdirilməsi, habelə başqa ölkələrdə cəza çəkən Azərbaycan Respublikası vətəndaşlarının Azərbaycan Respublikasının müvafiq islah-əmək müəssisələrinə keçirilməsi Azərbaycan Respublikasının beynəlxalq (ikitərəfli və ya çoxtərəfli) müqavilələri, sazişləri əsasında həyata keçirilir.

14 iyul 2000-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi azadlıqdan məhrum etmə cəzasının icrası yeri ilə bağlı məsələyə də aydınlıq gətirmişdir. Həmin Məcəllənin 65-ci maddəsinə əsasən müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslər cəzalarını bir qayda olaraq yaşayış yerinə yaxın ərazidə yerləşən cəzaçəkmə müəssisələrində çəkirlər. Sağlamlıq vəziyyətinə görə, şəxsi təhlükəsizliyini təmin etmək məqsədi ilə və digər müstəsna hallara görə məhkum cəzasını çəkmək üçün başqa ərazidə yerləşən cəzaçəkmə müəssisələrinə göndərilə bilər. Eyni zamanda, cinayətlərin xüsusi təhlükəli residivinə görə, ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya və ya cəzalarının bir hissəsini həbsxanada çəkməyə məhkum olunanlar, həmçinin əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər cəzalarını çəkmək üçün yaşadıqları yerdən asılı olmayaraq, müvafiq cəzaçəkmə müəssisələrinə göndərilirlər. Qeyd etmək lazımdır ki, təcrübədə digər müstəsna hallar qismində bir qayda olaraq müvafiq ərazidə qanunla müəyyən edilmiş növlü və ya rejimli cəzaçəkmə müəssisəsinin olmaması çıxış edir.

Qanunun cəzanın bir qayda olaraq yaşayış yerinə yaxın ərazidə çəkilməsi ilə əlaqədar müddəasına riayət edilməsi SSRİ dönəmində islah-əmək müəssisələrinin əsasən Bakıda və onun ətrafında yerləşməsi səbəbindən kifayət qədər çətin idi. Azərbaycan Respublikasında həyata keçirilən məhkəmə-hüquq islahatları prosesində bu problemə və onun həlli ilə bağlı məsələyə də xüsusi diq-

qət verilmişdir. Bu məqsədlə beynəlxalq təcrübə öyrənilmiş və ölkənin regionlarında azadlıqdan məhrum etmə cəzasının icrası üçün yeni yerlər, yəni müxtəlif kateqoriyalı məhkumların bir müəssisədə, lakin onların bir-birindən ayrı və təcrid olunmaqla saxlanması ilə əlaqədar təkliflər hazırlanmışdır. Eyni zamanda, bu təklifin yeni penitensiar müəssisələrin inşası yolu ilə həyata keçirilməsi məqsədəuyğun hesab edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 09 oktyabr 1999-cu il tarixli "Azərbaycan Respublikasında hüquqi islahatların həyata keçirilməsi, məhkəmələrin, islah-əmək müəssisələrinin və istintaq təcridxanalarının işinin yaxşılaşdırılması ilə əlaqədar əlavə tədbirlər haqqında" Fərmanı qeyd edilən təklifin həyata keçirilməsi ilə bağlı ilkin addım oldu. Həmin Fərmanın giriş hissəsində qarışıq rejimli islah-əmək müəssisələrinin yaradılmasının vacibliyi qeyd olunmuş, bununla bağlı müvafiq təkliflərin iki ay müddətində hazırlanması və Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi ilə əlaqədar Nazirlər Kabinetinə tapşırıq verilmişdir. Fərmanda göstərilən bu müddəa Cəzaların İcrası Məcəlləsinin layihəsi hazırlanarkən də nəzərə alınmışdır. Həmin məcəllənin məhkumların cəzaçəkmə müəssisələrində ayrılıqda saxlanması qaydasını tənzimləyən 72-ci maddəsində cəzanı müxtəlif rejimdə çəkən məhkumların bir cəzaçəkmə müəssisəsində, lakin ayrılıqda və bir-birindən təcrid edilməklə saxlanılmasının mümkünlüyü nəzərdə tutulmuşdur.

Azadlıqdan məhrum edilmiş şəxslər üçün beynəlxalq normalara cavab verən yeni penitensiar müəssisələrin inşasının vacibliyi ölkə Prezidentinin təsdiq etdiyi 18 iyun 1998-ci il tarixli "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nda, 28 dekabr 2006-ci il tarixli "Azərbaycan Respublikasında İnsan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"nda, 27 dekabr 2011-ci il tarixli "Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nda da öz əksini tapmışdır. Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 17 avqust 2006-ci il tarixli "Ədliyyə orqanlarının inkişafı haqqında" Fərmanında Ədliyyə Nazirliyinə ölkənin regionlarında yeni penitensiar müəssisələrin təşkili ilə

bağlı məsələnin həlli tapşırılmışdır. Azərbaycan Respublikası Prezidentinin 06 fevral 2009-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan ədliyyəsinin inkişafına dair 2009-2013-cü illər üçün Dövlət Proqram"ında da yeni penitensiar müəssisələrin inşasının davam etdirilməsi əlaqədar tədbirlər nəzərdə tutulmuşdur. Sadalanan sənədlərin tələblərinin icrası ilə bağlı bir sıra Avropa ölkələrinin, o cümlədən qardaş Türkiyə dövlətinin təcrübəsi öyrənilməklə ölkənin regionlarında hüquqpozucuları ilə rəftara həsr olunmuş beynəlxalq aktların tələblərinə cavab verən yeni müasir penitensiar müəssisələrin layihələndirilməsinə və inşasına başlanmışdır.

Həbs edilmiş şəxslərin də yaşayış yerinin yaxınlığında saxlanması ilə əlaqədar maraqlarının təmin edilməsi məqsədilə yeni inşa olunan penitensiar müəssisələrin ərazısində istintaq təcridxanalarının da yerləşdirilməsi ilə bağlı qərar qəbul edilmişdir. Qanunvericilikdə bir necə növlü və rejimli cəzaçəkmə müəssisələrinin, habelə istintaq təcridxanalarının yerləşdirildiyi yeni inşa edilən müəssisələrlə bağlı müddəanın olmaması nəzərə alınaraq, onların "penitensiar kompleks" adlandırılması ilə bağlı təklif verilmişdir. Penitensiar komplekslər köhnə islah-əmək müəssisələri ilə müqayisədə Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin 65-ci maddəsinin tələblərinin həyata keçirilməsi üçün aşkar üstunlüklərə malik olmaqla:

- az xərclərlə regionlarda müxtəlif rejimli cəzaçəkmə müəssisələrini və istintaq təcridxanasını özündə cəmləşdirən vahid penitensiar müəssisələri inşa etməyə;
- həbs edilmiş şəxslərin və məhkumların daşınması ilə bağlı maliyyə vəsaitinə qənaət olunmasına;
- ölkənin paytaxtının, xüsusilə onun mərkəzi hissəsinin müasir görünüşünə xələl gətirən köhnə islah-əmək müəssisələrindən təmizləmyə, həbs edilmiş şəxslərin və məhkumların hüquq və azadlıqlarının, habelə qanuni maraqlarını təmin edən yeni cəzaçəkmə yerlərini təşkil etməyə;
- həbs edilmiş şəxslərin və məhkumların faydalı sosial əlaqələrinin saxlanmasına şərait yaratmağa, onların yaxınları və digər şəxslərə görüş hüququnun daha münasib qaydada həyata keçiril-

məsinə;

- həbs edilmiş şəxslərə və məhkumlara baş çəkən qohumlar üçün daha əlverişli şərait yaratmağa və bununla əlaqədar onların çəkdikləri xərcləri azaltmağa;
- məhkumların qohumlarını və yaxınlarını daha fəal şəkildə cəza çəkən şəxslərin islah prosesində iştiraka, habelə cəzanın çəkilməsi qaydalarını pozanlara müsbət təsir göstərməyə cəlb etməyə;
- məhkumların cəzanı çəkməkdən azad edildlkdən sonra sosial adaptasiyasını asanlaşdırmağa əlverişli imkanlar yaradır.

Hazırda Azərbaycan Respublikasında artıq iki penitensiar kompleks istifadəyə verilmişdir. 2008-ci ilin aprel ayından Naxçıvan Muxtar Respublikasında yeni penitensiar kompleks fəaliyyətə başlamış, 2013-cü ilin iyul ayında isə Şəki şəhərində digər belə müəssisə istismara verilmişdir.

Ölkənin bir sıra digər regionlarında da belə yeni komplekslərin inşası davam edir. Yeni penitensiar komplekslərin dislokasiyası müəyyən edilən zaman həmin regionda Ağır Cinayətlərə dair və Apellyasiya məhkəmələrinin fəaliyyət göstərməsi halları da nəzərə alınmışdır. Yeni inşa edilən belə müəssisələrdə azadlıqdan məhrum etmə cəzasının icrasının həbsxana modelindən istifadə etməklə həyata keçirilməsi barədə qərar qəbul edilmişdir.

Penitensiar komplekslərdə istintaq təcridxanası, müxtəlif növlü və rejimli cəzaçəkmə müəssisələri üçün ümumi mühafizə, mətbəx, qazanxana və təsərrüfat təyinatlı digər obyektlər fəaliyyət göstərir. İstintaq təcridxanasında saxlanılan şəxslər və məhkumlar arasında görüş və təmasların istisna edilməsi məqsədilə təcridetmə tədbirlərinə xüsusi diqqət verilmişdir. Bununla əlaqədar hər iki kompleksin hər bir ayrı-ayrı müəssisələrində zəruri maddi-məişət, rejim şəraiti, habelə yeni qəbul edilmiş şəxslərin müvəqqəti saxlanması üçün karantin otaqları təşkil edilmişdir. Komplekslərin tibb-sanitariya hissələrinin, uzun müddətli görüş otaqlarının hər birində təhlükəsizlik və təcridetmə tələbləri nəzərə alınmaqla zəruri şərait yaradılmışdır. İstintaq təcridxanaları da müstəqil fəaliyyət göstərir, həbs edilmiş şəxslərin müəssisədaxili hərəkətlərini azaltmaq, onların hər gün kifayət qədər təmiz havada olmasını tə-

min etmək məqsədilə hər bir kameraya bitişik olan ayrıca gəzinti otaqları inşa edilmişdir. İstintaq təcridxanasında və cəzaçəkmə müəssisələrində həbs edilmiş şəxslər və məhkumlar az adamlıq kameralarda və otaqlarda saxlanılırlar. Kompleksin mühafizəsini həyata keçirən xidmətə həbs edilmiş şəxslərin və məhkumların istintaq orqanlarına, məhkəmələrə, müalicə müəssisələrinə və qanunvericiliklə nəzərdə tutulmuş digər yerlərə müşayiəti vəzifəsi də həvalə edilmişdir. Penitensiar kompleksin bir xüsusiyyətini qeyd etmək istərdik. Digər cəzaçəkmə müəssisələrindən fərqli olaraq saxlanmanın həbsxana modeli vasitəsi ilə həyata keçirilməsi səbəbindən penitensiar kompleksin normal fəaliyyətini təmin etmək üçün daha çox işçi heyəti tələb olunur. Onların penitensiar kompleksdə saxlanılan şəxslərə, yəni həbs edilmiş şəxslərə və məhkumlara nisbəti, təxminən birin ikiyədir.

Penitensiar komplekslərin xüsusilyyətləri nəzərə alınaraq, onların yuxarıda göstərilən qaydada həyata keçirilən fəaliyyətinin hüquqi tənzimlənməsi məqsədilə Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinə bir sıra dəyişikliklər edilməsi məqsədilə qanun layihəsi hazırlanmışdır. Burada digər məsələlərlə yanaşı, azadlıqdan məhrum etmə növündə cəzanı icra edən cəzaçəkmə müəssisəsinin yeni növü kimi çıxış edən penitensiar kompleksin də anlayışı verilmişdir.

Yekunda qeyd etmək istərdik ki, fikrimizcə, cəzaçəkmə müəssisəsinin yeni növü kimi təklif edilən-penitensiar kompleks, azadlıqdan məhrum edilmiş məhkumların ən əhəmiyyətli qanuni maraqlarından biri kimi çıxış edən, cəzanın yaşayış yerinin yaxınlığında çəkilməsi ilə əlaqədar milli qanunvericiliyin müddəalarının və beynəlxalq aktların tövsiyələrinin həyata keçirilməsinin ən münasib yoludur.

***İstinad edilmiş mənbə:***

***"Cinayət, cəza və islah" I Beynəlxalq Penitensiar Forumun plenar iclasının materiallarının toplusu (rus dilində). Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası, Ryazan, 2013. Tom I, Səh. 141–149.***

## Azərbaycan Respublikasının Qarabağ və Sərqi–Zəngəzur iqtisadi rayonlarında yeni penitensiar müəssisələrin təşkili, həmin ərazilərdə yaşayan həbs edilmiş şəxslərin və məhkumların hüquq və azadlıqlarının daha səmərəli həyata keçirilməsinin imkanı kimi

Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması ilə bağlı Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının Baş naziri və Rusiya Federasiyasının Prezidenti tərəfindən 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın imzalanmasından sonra işğaldan azad edilmiş ərazilərin bərpası, onların gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlərin həyata keçirilməsinə başlanmışdır. Həmin ərazilərin ölkənin iqtisadiyyatına reinteqrasiyası, həyata keçirilməsi nəzərdə tutulan böyük layihələr üzrə görülən işlərin səmərəliyinin artırılması, habelə iqtisadi idarəetmədə çevikliyin təmin olunması məqsədilə Azərbaycan Respublikasının Prezidentinin 7 iyul 2021-ci il tarixlı fərmanı ilə ölkənin iqtisadi rayonlarının tərkibinə yenidən baxılmışdır. Həmin fərmana əsasən mövcud on iki iqtisadi rayonla yanaşı, yeni Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılmışdır. Yeni iqtisadi rayonların ərazilərində sürətləndirilmiş templərlə zəruri infrastuktura malik, yeni müasir yaşayış məntəqələri, avtomobil və dəmir yolları, aeroportlar, su elektrik stansiyaları, su təchizatı xəttləri və sosial təyinatlı obyektlər inşa edilir. 2022-ci ilin iyul ayında yenidən inşa edilmiş Zəngilan rayonunun Ağalı kəndinə əhalinin köçürülməsinə başlanmışdır.

Surətli tikinti işləri ilə yanaşı azad edilmiş rayonlarda dövlət orqanlarının, o cümlədən hüquqmühafizə strukturlarının, yəni polisin, prokurorluğun, məhkəmələrin, ədliyyə, təhlükəsizlik orqanlarının fəaliyyətinin bərpası ilə əlaqədar məsələlər də fəal şəkildə həll edilir. Eyni zamanda, vacib bir məsələyə də, yəni məhkəmə

qərarlarını icra edən müəssisə və orqanların fəaliyyətinin təşkil olunmasına diqqət verilir. Belə ki, 2020-ci ilin dekabrında Azərbaycan Respublikasının ədliyyə nazirinin əmri ilə Qarabağ regional ədliyyə idarəsi, işgaldan azad edilmiş rayonların icra və probasiya şöbələri yaradılmış, onların yeni strukturu, stat cədvəlləri təsdiq edilmiş, rəhbərləri ilə bağlı təyinatlar aparılmışdır. İcra və probasiya şöbələrinə mülki, ailə, inzibati və digər aidiyyəti məhkəmə qərarlarının, habelə məhkumun cəmiyyətdən təcrid edilməsi ilə əlaqədar olmayan cəzaların icrası həvalə edilmişdir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazilərində yaşayan şəxslər barədə məhkəmələrin qətimkan tədbiri–həbs barədə qərarlarının, habelə azadlıqdan məhrum etmə növündə cəzanın icrasının təşkili məsələləri də baxılma mərhələsindədir.

Qarabağ regionunda konfliktin başlanmasına qədər Azərbaycanın üç cəzaçəkmə müəssisəsi– Şuşada, istintaq təcridxanasının vəzifəsini də yerinə yetirən həbsxana, Ağdam rayonunda isə, iki məntəqə tipli müəssisə fəaliyyət göstərirdi. Hər üç müəssisədə həbs edilmış şəxslərin və məhkumların saxlanması üçün həmin dövrdə qüvvədə olmuş qanunvericiliyin tələblərinə uyğun olaraq müvafiq şərait və infrastruktur yaradılmışdı. İşgal dövründə son iki müəssisənin fəaliyyətu dayandırılmış, Şuşa şəhərindəki həbsxana isə, separartçı rejim tərəfindən cəzaçəkmə müəssisəsi kimi istifadə edilirdi.

Azərbaycan Respublikasında ölkə üzrə, o cümlədən işgaldan azad edilmiş şəhər və rayonların məhkəmələrinin həbs qətimkan tədbiri və azadlıqdan məhrum etmə cəzası ilə bağlı qərarlarının icrasını təmin etmək üçün kifayət qədər istintaq təcridxanaları və cəzaçəkmə müəssisələri mövcuddur. Lakin, həbs edilmiş şəxslərin və məhkumların hüquq və azadlıqlarının tam şəkildə təmin edilməsi, habelə onlara gələcəkdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazisində yaşayan qohumları tərəfindən daha əlverişlı qaydada baş çəkilməsinə şərait yaradılması məqsədilə yeni həbs yerinin və cəzaçəkmə müəssisənin təşkil edilməsini məqsədəuygun hesab edirik. Fikrimizcə, Qarabağ və Şərqi Zəngəzur iq-

tisadi rayonlarının ərazisində yaşayan həbs edilmiş şəxslər və azadlıqdan məhrum edilimş məhkumlar barədə məhkəmə qərarlarının daha səmərəli icrası üçün müvafiq rayonların ərazisində yeni penitensiar kompleksin inşa edilməsi daha məqbul olardı. Təklif edilən penitensiar kompleksin inşası üçün Azərbaycanda müvafiq hüquqi əsaslar və təcrübə artıq formalaşmışdır. Belə ki, Azərbaycan Respublikasının Prezidentinin 17 avqust 2006-ci il tarixlı "Ədliyyə orqanlarını inkişafı haqqında" fərmanında Ədliyyə nazirliynə olkənin regionlarında penitensiar müəssisələrin təşkili ilə əlaqədar tapşırıq verilmişdir. Ölkə başçısının 27 dekabr 2011-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"na azadlıqdan məhrum edilmiş şəxslərin beynəlxalq standartlara uyğun saxlanılması məqsədilə yeni penitensiar müəssisələrin inşa edilməsi işinin davam etdirilməsi ilə bağlı tədbir də nəzərdə tutulmuşdu. İstinad edilən sənədlərə uyğun olaraq Naxçıvan Muxtar Respublikasında (bundan sonra Naxçıvan MR), Bakı və Şəki şəhərlərində yeni, müasir penitensiar komplekslər, yəni qarışıq rejimli cəzaçəkmə müəssisələri inşa edilərək, istifadəyə verilmişdir. Gənçə, Lənkəran şəhərlərində, Bakıda oxşar müəssisələrin tikintisi davam etdirilir. Qeyd olunmalıdır ki, Naxçıvan MR-da və Şəki şəhərindəki penitensiar komplekslərin nəzdində təcrid etmə və rejim tələblərinə riayət edilməklə, istintaq təcridxanaları və müxtəlif rejimli cəzaçəkmə müəssisələri (həbsxana istisna olmaqla) təşkil edilmişdir. Naxçıvan Muxtar Respublikasının penitensiar kompleksində məhkum qadınlar üçün çəzaçəkmə müəssisəsi və yetkinlik yaşına çatmayanlar üçün tərbiyə müəssisəsi də fəaliyyət göstərir. Habelə, sözügedən müəssisənin yanında yeni məntəqə tipli cəzaçəkmə müəssisəsi yerləşdirilmiş və burada cəza çəkən məhkumlar penitensiar kompleksə xidmət göstərilməsi ilə bağlı təsərrüfat işlərinə cəlb edilmişlər. 2022-ci ilin aprel ayında Bakıda istifadəyə verilmiş yeni penitensiar kompleksdə məhkum qadınlar üçün cəzaçəkmə müəssisəsi və yetkinlik yaşına çatmayan məhkumlar üçün tər-

biyə müəssisəsisi fəaliyyət göstərir.

Münasib coğrafi yerləşməni, regionun əksəriyyət rayonlarına yaxınlığını, mövcud və yeni təşkil edilən yol infrastukturlarını nəzərə almaqla, yeni penitensiar kompleksin inşası üçün daha optimal və əlverişli yer, fikrimizcə, gələcəkdə yüz min əhalinin yaşaması planlaşdırılan Ağdam rayonunun ərazisidir. Eyni zamanda, Ağdam, Füzuli rayonu ilə yanaşı bərpa-tikinti işlərinin ilk mərhələdə aparılması planlaşdırılan və 2026-ci ilə kimi yeni inşa edilmiş evlərə yetmiş minə yaxın məcburi köçkünlərin qayıdışı gözlənilən inzibati ərazi vahididir. Təklifə müsbət baxılması təqdirində Haxçıvan MR-də penitensiar kompleksin inşası təcrübəsindən istifadə edilməsi, yəni yeni kompleksdə istintaq təcridxanasının, xüsusi rejimli cəzaçəkmə müəssisəsi və həbsxana istisna olmaqla, müxtəlif rejimli cəzaçəkmə müəssisələrinin, habelə məhkum qadınlar və yetkinlik yaşına catmayan şəxslər üçün az həcmli müəssisələrin təşkili məqsədəuyğun olardı. Eyni zamanda, kompleksin yaxınlığında məntəqə tipli cəzaçəkmə müəssisənin inşası da məqbul olardı. Operativliyin təmin edilməsi, maliyyə xərclərinin azaldılması məqsədilə, müvafiq region üzrə həbs edilmiş şəxslərin və məhkumların müşayiətinin və mühafizəsini penitensiar kompleksin işçi heyətinə həvalə etmək olardı. Belə təcrübə Haxçıvan MR və Şəki penitensiar komplеklərində uğurla həyata keçirilir.

Şuşa səhərindəki həbsxananın fəaliyyətinin bərpa olunması məsələsi ilə bağlı qeyd etmək istərdik ki, beynəlxalq standartlar nəzərə alınmaqla, Bakı şəhərinin yaxınlığında müvafiq tipli yeni, müasir müəssisənin inşasının aparılması səbəbindən, sözügedən müəssisənin əvvəlki təyinatına uygun istifadə olunması məqsədə uyğun hesab edilmir. Fikrimizcə, sabiq həbsxana Şuşaya yaxın olan Laçın, Zəngilan, Cəbrayıl, Xankəndi, Xocalı, Xocavənd şəhər və rayonlarında yaşayan, həbs edilmiş şəxslər və məhkumlsr üçün istintaq təcridxanası və ya cəzaçəkmə müəssisəsi kimi istifadə edilə bilərdi. Lakin, saxlama şəraitini, zəruri infrastrukturu Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinə, “Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edil-

məsi haqqında" Qanunun tələblərinə yuğunlaşdırmaq zərurəti vardır, habelə keçirilməsi tələb edilən tədbirlər üçün kifayət qədər maliyyə vəsaitinə ehtiyac yaranacaqdır.

Hesab edirik ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazisində yaxın illərdə yeni penitensiar kompleksin inşası, habelə Şuşa şəhərində həbsxananın fəaliyyətinin bərpa edilməsi sözügedən ərazilərdəki on dörd şəhər və rayondan olan məhkumların Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin 65.1-ci maddəsinin müddəalarına uyğun olaraq cəzalarını daimi yaşayış yerlərinin yaxınlığında çəkməyə, həbs edilmiş şəxslərin və məhkumların istintaq hərəkətlərinin keçirilməsi və məhkəmə baxışına, habelə cəzanın çəkilməsi yerlərinə müşayiət edilməsinə sərf olunan maliyyə vəsaitinə qənaət etməyə zəmin yarada bilərdi. Eyni zamanda, həbs edilmiş şəxslərin və məhkumların hüquq, azadlıq və qanuni maraqlarının, xüsusilə qohumlarla görüş, sovqat almaq hüquqları təmin oluna, habelə onlara yaxınlarının əlverişli və böyük xərc çəkmədən başçəkməsinə münasib şərait yarana bilərdi. Azərbaycan Respublikasında qeyd olunan müəssisənin istifadəyə verilməsi yeni iş yerlərinin açılmasına, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazisində yaşayan əhalinin əmək məşgulluğunun təmin edilməsinə də kömək edə bilərdi.

***İstinad edilmiş mənbə:***

***"Rusiya Federasiyasının cəza-icra sisteminin 2030-ci ilədək inkişafı konsepsiyasının həyata icrası nəzərə alınmaqla cəza-icra sistemi müasir dövrdə" movzusunda Beynəlxalq konfrans iştirakşılarının çıxışlarının və məruzələrinin tezislərinin toplusu (rus dilində). Plenar iclasın materialları. Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası, Ryazan, 2022. Tom 1, Səh. 324–327.***

## Azərbaycan Respublikasında azadlıqdan məhrum etmə növündə cəzanın icrası problemləri

Azərbaycan Respublikasında 1998-ci ilin fevral ayında müstəsna cəza-ölüm cəzasının ləğvindən sonra azadlıqdan məhrum etmə cinayətkarlıqla mübarizədə ən sərt və ağır cəza növü hesab edilir. Bu cəza 2000-ci ilin 01 sentyabrından qüvvəyə minmiş Azərbaycan Respublikasının yeni Cinayət Məcəlləsində iki növdə: müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə ilə təmsil olunmuşdur. Müəyyən müddətə azadlıqdan məhrum etmə üç aydan on beş illədək müddətə təyin edilir. Cinayətlərin məcmusu üzrə cəza təyin edilərkən azadlıqdan məhrum etmə müddətinin qismən və ya tamamilə toplandığı hallarda, azadlıqdan məhrum etmənin yuxarı həddi on beş ildən, hökmlərin məcmusu üzrə isə iyirmi ildən artıq ola bilməz.

Ömürlük azadlıqdan məhrum etmə cəzası sülh və insanlıq, şəxsiyyət, ictimai təhlükəsizlik və ictimai qayda, dövlət hakimiyyəti və hərbi xidmət əleyhinə olan bir sıra xüsusilə ağır cinayətlərə görə nəzərdə tutulmuşdur.

Qeyd olunmalıdır ki, bütün dünyada ilkin vaxtlarda hazırda azadlıqdan məhrum etmə hamıya məlum klassik cəza növü kimi cəza sisteminə daxil edilməmişdi. Lakin sonradan bu cəza növü dərhal qabaqcıl mövqeyə çıxmış və bu günə kimi birinciliyi əldən buraxmır. Azərbaycan Respublikasında da vəziyyət eynidir. Belə ki, aparılmış təhlillər göstərdi ki, azadlıqdan məhrum etmə təkcə son otuz il ərzində ümümi cəza tətbiq edilmiş şəxslərin 40%-dən çoxuna, yəni orta hesabla hər ikinci məhkum edilmiş şəxsə təyin edilmişdir. Belə vəziyyətin bir sıra səbəbləri vardır. Birincisi, sabiq SSRİ-də, habelə Azərbaycan SSR-də həyata keçirilən cinayət siyasətinin əsas istiqaməti olan cinayətkarlıqla mübarizənin gücləndirilməsi işi hüquqpozucularına ciddi və sərt tədbirlərin tətbiqi ilə müşayiət edilmişdir. Bu siyasət, əsasən cinayət törətmiş şəxslərə, bir qayda olaraq azadlıqdan məhrum etmə növündə cəzanın tətbiqi və alternativlərə əhəmiyyət verilməməsi şəratində aparıl-

mışdır. İkincisi, məhkumların azadlıqdan məhrum etmə yerlərində saxlanması iqtisadi baxımdan, onların əməyindən alınan böyük gəlir baxımından dövlət üçün kifayət qədər faydalı və maraqlı olmuşdur. Nəticədə, azadlıqdan məhrum etmə Azərbaycanın Cinayət məcəllələrinin Xüsusi Hissələrinin maddələrinin sanksiyalarında daim üstünlük təşkil etmişdir. Azərbaycan Respublikasının yeni Cinayət Məcəlləsinin qəbulu ilə də vəziyyət dəyişməmişdir. Halbuki, azadlıqdan məhrum etmə artıq özünün iqtisadi əlverişliyini itirmişdir. Belə ki, əgər 1960-ci ilin Cinayət Məcəlləsinin son redaksiyasında azadlıqdan məhrum etmə Xüsusi Hissənin 92,4 % maddələrində nəzərdə tutulmuşdusa, yeni məcəllədə bu göstərici 95,6 % təşkil edir. Əgər sabiq Cinayət Məcəlləsində azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulmayan 21 maddə var idisə, yeni məcəllədə onların sayı cəmi 12-dir.

Azadlıqdan məhrum etmə digər cəza növləri ilə müqayisədə məhkum edilmişin şəxsi azadlığına nəzərəçarpacaq dərəcədə siyarət edir və onu kifayət qədər məhdudlaşdırır. Bu da öz növbəsində sosial və əxlaqi problemlər yaradır. Məlumdur ki, azadlıqdan məhrum etmə cəzası, bir qayda olaraq qanunvericiliklə nəzərdə tutulmuş şərtlərə uyğun və bu məqsədlər üçün yaradılmış penitensiar müəssisələr (cəzaçəkmə müəssisələri) tərəfindən icra edilir. Bu baxımdan azadlıqdan məhrum etmənin problemləri penitensiar sistemin (yəni azadlıqdan məhrum etmə növündə cəzanın icrasını həyata keçirən müəssisələrin) problemlərinə çevrilir. Hazırki dövrdə azadlıqdan məhrum etmə növündə cəzanın icrasının əsas problemi penitensiar müəssisələrin fəaliyyətində beynəlxalq standartların həyata keçirilməsi, başqa sözlə, penitensiar sistemin beynəlxalq normalara uyğunlaşdırılmasıdır.

2001-ci ildə Azərbaycan Respublikasının Avropa Şurasına qəbulu zamanı məhbuslarla rəftara həsr olunmuş beynəlxalq standartların həyata keçirilməsinə xüsusi diqqət verilmişdir. Sözsüz ki, bu gün Azərbaycan Respublikasının penitensiar sisteminin öz parametrlərinə görə beynəlxalq standartlara cavab vermədyini demək olmaz. Azərbaycan dövləti tərəfindən son bir neçə ildə ölkənin penitensiar sisteminin Avropa standartlarına uyğunlaşdırılma-

sı məqsədilə kompleks qanunvericilik, iqtisadi, təşkilati və digər tədbirlər həyata keçirilmişdir. Birincisi, Azərbaycan Respublikasında beynəlxalq təcrübəyə uyğun olaraq sabiq SSRİ respublikaları arasında ilkin olaraq 09 yanvar 1993-cü il tarixdən penitensiar müəssisələr Daxili İşlər Nazirliyinin nəzdindən cıxarılaraq Ədliyyə Nazirliyinin tabeçiliyinə vermişdir. 01 sentyabr 2000-ci il tarixdən ölkədə yeni Cəzaların İcrası Məcəlləsi fəaliyyətə başlamışdır. Bu normativ-hüquqi akt sabiq məcəllədən cəzaların icrası qayda və şərtlərinin əhəmiyyətli dərəcədə humanistləşdirilməsi, habelə insan hüquq və azadlıqlarının, eləcə də, məhbuslarla rəftara həsr olunmuş aktların tələblərinin kifayət qədər nəzərə alınması ilə fərqlənir.

1993-1999-cu illərdə Azərbaycan Respublikasının Prezidenti tərəfindən penitensiar sistemin problemlərinin həllinə həsr edilmiş dörd vacib fərman imzalanmışdır. 1999-cu ilin may ayında ölkənin Nazirlər Kabineti tərəfindən cəzaların icrası sisteminin islahatı ilə bağlı geniş Dövlət Proqramı, habelə bu sahədə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsinə yönəlmiş qərar və sərəncamlar qəbul edilmişdir. Penitensiar müəssisələrdə ciddi dəyişikliklər aparılmış, işçi heyətində uzun müddət ərzində formalaşmış köhnə stereotiplərinin sınması prosesi fəal davam etmiş, məhkumlara olan münasibət kökündən dəyişmişdir. Nəticədə, hazırda Azərbaycan Respublikasının penitensiar sistemində azadlıqdan məhrum edilmiş məhkumlar üçün beynəlxalq standartlara yaxın normal şərait yaradılmışdır. Azərbaycan Respublikasının penitensiar sistemində baş vermiş pozitiv dəyişikliklər beynəlxalq təşkilatlar, o cümlədən Avropa Şurası və ATƏT tərəfindən də qeyd edilmişdir. Lakin bu sahədə yenə həllini gözləyən problemlər də vardır. Eyni zamanda, qeyd etmək istərdik ki, hər hansı bir dövlətin özünün penitensiar sisteminin tamlıqla və faktiki olaraq beynəlxalq aktlarda nəzərdə tutulan normalara uyğunluğu, habelə problemlərin olmadığlı barədə təminat verməsi inandırıcı görünmür.

Ölkənin penitensiar müəssisələrinin fəaliyyətinin ətraflı təhili aşagıda göstərilən əsas problemlərin müəyyən edilməsinə kömək etmişdir. Qeyd olunmalıdır ki, aşagıda göstərinən problemlər digər

dövlətlərin, o cümlədən sabiq SSRİ-yə daxil olmuş dövlətlərin də penitensiar sistemlərində mövcuddur. Fikrimizcə, həmin problemlər aşağıdakılardır:

- penitensiar sistemin fəaliyyətinin kifayət qədər maliyyələşdirilməməsi;
- azadlıqdan məhrum etmə cəzasının icrasının optimal modelinin seçilməsi;
- məhbuslarla rəftara həsr olunumuş beynəlxalq aktların tələblərinə ciddi şəkildə riayət edilməsi şəraitində işləyə biləcək işçi heyətinin hazırlanması;
- məhkumların məşgulluğunun təmin edilməsi;
- məhkumların sağlamlıq hüququnun təmin edimәsi;
- uzun müddətə, habelə ömürlük azadlıqdan məhrum edilmiş məhkumların cəzalarının icrasının səmərəli təşkili.

Qeyd olunmalıdır ki, azadlıqdan məhrum etmə növündə cəzanın icrası ilə əlaqədar sadalanan problemlər tam deyildir, lakin düşünürük ki, hazırkı dövrdə onlar əsas və ilkin olaraq öz həllini gözləyən problemlərdir. İndi isə həmin problemlər üzərində ayrılıqda və qısa şəkildə dayanmaq istərdik.

**Penitensiar sistemin fəaliyyətinin kifayət qədər maliyyələşdirilməməsi**

Son on il ərzində Azərbaycan Respublikasının penitensiar sisteminin maliyyələşdirilməsi ilə bağlı ayrılan maliyyə vəsaitinin təxminən 8 dəfə artmasına baxmayaraq, bu sahədə vəziyyəti tam məqbul hesab etmək çətindir. Məlumat məqsədilə bildirilir ki, əgər 1993-cü ildə ayrılmış vəsait ABS dolları ilə 1,8 milyon təşkil etmişdisə, 1998-ci ildə bu vəsait 10,6 milyon olmuş, 2003-cü ildə isə həmin məbləğ 15,6 milyona çatmışdır. Göründüyü kimi penitensiar sistemin saxlanmasına dövlət büdcəsindən ayrılan vəsait ilbəil artmışdır. Lakin Avropa dövlətləri ilə müqayisədə göstərilən məbləğ o qədər də çox deyildir. Əgər həmin ölkələrdə bir məhkumun saxlanmasına il ərzində orta hesabla 20 min və daha çox ABŞ dolları ayrılırsa, Azərbaycanda, habelə sabiq SSRİ-nin bir sıra dövlətlərində bu məbləğ 800-1000 ABŞ dolları təşkil edir. Halbuki, tövsiyə edilən beynəlxalq normaya əsasən bir məhku-

mun gündəlik saxlanma xərci ən azı 8 ABŞ dollardan az olmamalıdır. Ayrılan maliyyə vəsaiti ilə penitensiar sisteminin tam normal fəaliyyətini təmin etmək, mövcud problemləri vaxtında aradan qaldırmaq müəyyən çətinlik doğurur.

Sözsüz ölkənin penitensiar sisteminin tələb edilən həcmdə maliyyələşdirilməsinə uzun illər davam edən Dağlıq Qarabağ münaqişəsi, habelə Azərbaycan Respublikasının torpaqlarının Ermənistan dövləti tərəfindən işğal olunması mənfi təsir göstərir. Bir milyondan çox məcburi köçkün və qaçqının olduğu nəzərə alınaraq, Azərbaycan hökumətinə öz penitensiar sistemini beynəlxalq normalara uyğun həcmdə maliyyələşdirilməsi iə bağlı irad bildirmək kifayət qədər çətindir.

**Azadlıqdan məhrum etmə növündə cəzanın icrasının optimal modelinin seçilməsi**

Məlumdur ki, azadlıqdan məhrum edilmiş məhkumlar sabiq SSRİ respublikalarından fərqli olaraq Avropada bir qayda olaraq kameralarda saxlanılırlar. Belə saxlanılma, yəni məhkumların 1-2 nəfərlik ayrı otaqlarda yerləşdirilməsi maliyyə vəsaiti baxımından kifayət qədər baha başa gəlsə də, işçi heyətinin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı əlverişli şərait yaradır. BMT-nin Məhbuslarla rəftarın minimal standart qaydaları (1955-ci il), Avropa Həbsxana Qaydaları (1987-ci il) məhkumların göstərilən qaydada saxlanılmasını nəzərdə tutur. SSRİ-nin süqutundan sonra onun tərkibində olmuş bir sıra respublikalar, ilk növbədə Baltikyanı dövlətlər penitensiar sistemin islahatı çərçivəsində azadlıqdan məhrum edilmiş məhkumların cəzalarının icrasını onların kameralarda saxlanması ilə bağlı həbsxana modelini seçmişlər. Hazırda Azərbaycan Respublikası da belə seçim qarşısındadır. Ölkədə sözügedən həbsxana modelinin tərəfdarları az deyildir. Lakin, fikrimizcə, hazırda azadlıqdan məhrum etmə cəzasının tətbiq edilən modeli daha məqsədəuyğundur. Birincisi, Azərbaycan Respublkasında mövcud iqtisadi vəziyyət, habelə qonşu ölkə ilə müharibə şəraitinin mövcudluğu nəzərə alınmaqla, ölkəmiz hələlik yeni, o cümlədən keçmişdən miras qalmış köhnə islah müəssisələrinin bazasında həbsxanaların inşasına başlanması hələlik real görün-

mür. İkincisi, kameralarda saxlanma ilə müqayisədə məhkumların daim bağlı olmayan bina və otaqlarda saxlanması müəyyən üstünlüklərə malikdır. Belə ki, bu halda məhkumlar rejim qaydaları çərçivəsində daha çox sərbəst hərəkət etmək imkanlarına malik olmaqla, gün ərzində maddi-məişət tələbatlarını, habelə asudə vaxtın keçirilməsi ilə əlaqədar qarşılaşdıqları problemləri daha asan, yəni müdiriyyətin böyük müdaxiləsi olmadan da həll edə bilərlər. Üçüncüsü, hazırda dünyanın bir çox ölkələrində azadlıqdan məhrum edilmiş məhkumlar çox az müddətdə, əsasən gecə vaxtı öz kameralarında olurlar. Beləliklə, Avropada da tədricən məhkumların daim bağlı olan kameralarda saxlanılmasından imtina etməyə başlanılmışdır. Fikrimizcə, azadlıqdan məhrum etmə növündə cəzanın icrasının optimal modelinin seçilməsi üzərində ciddi düşünmək zərurəti vardır.

**Penitensiar müəssisələrin işçi heyətinin hazırlanması**

Azadlıqdan məhrum etmə növündə cəzanın icrası prosesində işçi heyəti çox əhəmiyyətli rol oynayır və buna görə də onların xidmətə hazırlanması birinci dərəcəli məsələlərdən biridir. İşçi heyətinin hazırlığına əvvələr az diqqət verildiyini demək olmaz. Lakin beynəlxalq standartların ardıcıl həyata keçirilməsini təmin etmək məqsədilə qanunvericiliyin və beynəlxalq aktların tələblərinə ciddi riayət edilməsi ilə bağlı yaranmış şəraitdə düşünə və işləyə bilən yeni nəsil işçi heyəti tələb olunur. Bu məqsədlə işçi heyətinin qulluğa qəbulu və fəaliyyətə hazırlanması ilə bağlı yeni şərtlər, habelə əməyin ödənilməsinin yeni sistemi işlənib hazırlanmalı və bu sahədə digər əhəmiyyət kəsb edən məsələlər həllini tapmalıdır.

Azərbaycan Respublikasında sözügedən problemin həlli istiqamətində tədbirlər görülməkdədir. Belə ki, 01 iyul 1999-cu ildən penitensiar sistemin işçi heyətinin vəzifə maaşları üç dəfəyədək artırılmış, əmək haqqına yeni əlavə və imtiyazlar müəyyən edilmişdir. Hazırda penitensiar sistemin əməkdaşlarının əmək haqqı ölkənin Daxili İşlər Nazirliyinin əməkdaşlarının əmək haqqından yüksəkdir. Azərbaycan Respublikasının hökuməti tərəfindən cari ilin sonuna kimi penitensiar sistemin işçi heyətinin növbəti dəfə

əmək haqqlarının artırılması ilə əlaqədar məsələyə baxılır.

Azərbaycan Respublikası Prezidentinin 09 oktyabr 1999-ci il tarixli Fərmanına əsasən Nazirlər Kabinetinin 06 sentyabr 2000-ci il 162 nömrəli qərarı ilə penitensiar müəssisələr üçün ixtisaslı kadrların hazırlanmasının, onların peşə hazırlığının və ixtisaslarının artırılmasının təmini məqsədilə Məhkəmə Qərarlarının İcrası Baş İdarəsinin tərkibində Təlim-Tədris Mərkəzi yaradılmışdır. Qulluğa yeni qəbul edilmiş şəxslərin altı aylıq icbari təliminin və üç aylıq ixtisaslarının artırılmasını nəzərdə tutuan tədris proqramları təsdiq edilmişdir.

Hazırda "Penitensiar müəssisələr və onların işci heyətinin statusu haqqında", "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" qanun layihələri üzərində iş başa çatmaq üzrədir. Onların qəbulu birmənalı olaraq penitensiar sistemin əməkdaşlarının nüfuzunun artmasına, sosial-hüquqi müdafiəsinin gücləndirilməsinə və peşəkarlıqlarının artırılmasına köməklik edəcəkdir.

**<u>Məhkumlarının məşgulluğunun təmin edilməsi</u>**

Məhkumların işlə təmin edilməməsi penitensiar sistemin əsas problemlərindən biridir. Bunun istər obyektiv, istərsə subyektiv səbəbləri vardır: azadlıqdan məhrum etmə yerlərində istehsalın təşkili ilə əlaqdar mövcud mexanizmindən imtina edilməsi, bu sahədə liberallaşmanın bərqərar olması, bazar iqtisadiyyatına keçid, dövlət sifarişlərinin ləğvi, rəqabət mühiti və digərləri. Azərbaycan hökuməti və Ədliyyə Nazirliyi tərəfindən görülmüş tədbirlərə baxmayaraq, hazırda məhkumların cəmi 7 %-i ödənişli əməklə təmin edilmişdir. İctimai faydalı əməklə məşgul olmaq üçün imkanların olmaması islah prosesinə mənfi təsir göstərir, penitensiar müəssisələrin fəaliyyətinin normal təşkili və məhkumların idarə edilməsi ilə əlaqədar ciddi problemlər yaradır. Belə şəraitdə məhkumlar özlərinin adi insanı tələbatlarının ödənilməsi, ailələrinə və yaxınlarına müəyyən maddi kömək göstərilməsi ilə bağlı qazanc əldə etmək hüquqlarını reallaşdıra bilmirlər. Cinayətlə vurulmuş ziyan, habelə dövlət tərəfindən məhkumlara verilən yemək və paltarla bağlı xərclər ödənilmir. İşləmək imkanının olmaması əmək vərdişlərinin saxlanmasına mənfi təsir göstərir, məhkumların cə-

zadan azad edildikdən sonra cəmiyyətə adaptasiyasını və reinteqrasiyasını çətinləşdirir. Eyni zamanda, əmək sağlamlığın qorunması ilə bağlı çox vacib vəzifəsini yerinə yetirmir.

**Məhkumlarının sağlamlığının təmin edilməsi**

Azərbaycan Respublikasında son illərdə kompleks tədbirlər həyata keçirilməsinə baxmayaraq, məhkumların saglamlıqlarının qorunması birinci növbədə həllini tələb edən problemlər sırasına daxildir. Görülmüş təşkilati, iqtisadi və digər tədbirlər nəticəsində son alti il ərzində penitensiar müəssisələrdə tibbi xidmətin səviyyəsini nəzərəçarpacaq dərəcədə yaxşılaşdırmaq, məhkumlar arasında, xüsusilə vərəm xəstəliyindən ölüm hallarının sayının üç dəfəyədək azaldılması mümkün olmuşdur. Əgər 1995-ci ildə vərəmdən vəfat edən məhkumların sayı 469 olmuşdursa, 1998-ci ildə həmin göstərici 215, 2002-ci ilin sonuna isə artıq 156 olmuşdur. Belə müsbət nəticənin əldə edilməsində Azərbaycanın Ədliyyə Nazirliyi ilə fəal əməkdaşlıq edən Beynəlxalq Qırmızı Xaç Komitəsinin Bakıdakı nümayəndəliyinin töhfəsini qeyd etmək lazımdır. Lakin qeyd olunanlara baxmayaraq, problem ciddi olaraq qalır. Eyni zamanda, hazırda bu sahədə QİÇS-lə yoluxanlar, narkoman məhkumların müalicəsinin təşkili də müəyyən problemlər doğurur. Əlavə olaraq vərəmin dərmanlara müqavimətli, yəni multirezistent tipli yeni növünün məhkumlar arasında yayılması ciddi narahatlıq yaradır.

**Uzun müddətə, habelə ömürlük azadlıqdan məhrum edilmiş məhkumların cəzalarının icrasının səmərəli təşkili**

Son illər uzun müddətə, habelə ömürlük azadlıqdan məhrum edilmiş məhkumların cəzalarının icrasının səmərəli təşkili problemi fəal diskusiyalara səbəb olur. Fikrimizcə, bu insanın, yəni məhkumun cəmiyyətdən uzun müddətə təcrid edilməsinin neqativ nəticələri ilə əlaqəlidir. Həmin məsələ Avpopa Şurasını daim narahat etmiş və hazırda da narahat etməkdədir. Problemlə əlaqədar 2001-ci ilin əvvəlində Avropa Şurası tərəfindən yaradılmış müvafiq komissiyaya daxil edilmiş ekspertlər tərəfindən narahatlıq mənbəyi olan məsələ ilə bağlı təkliflər hazırlanmaqdadır. Belə yönümlü sənədlər əvvəllər də qəbul edilsə də, komissiyanın əsas

təklifləri yəqin ki, azadlıqdan məhrum etmə ilə bağlı cəzanın tətbiqi təcrübəsini azaltmaq, bu cəzanın müddətini aşağı salmaq və uzun müddətli azadlıqdan məhrum etmə cəzasının icrası və çəkilməsi şərtlərinin humanistləşdirilməsi ilə bağlı olacaqdır.

Bütün dünyada olduğu kimi, bizim də narahatçılığımız ömürlük azadlıqdan məhrum etmə cəzasının icrası şərtləri ilə bağlıdır. Azərbaycan Respublikasında 1998-ci ilin fevralında ölüm cəzasının ləğvindən sonra belə məhkumların sayı artmaqdadır. Belə ki, əgər 1999-cu ilin əvvəlinə belə məhkumların sayı 117 nəfər idi isə, 01 aprel 2003-cü il tarixə bu göstərici 187 nəfər olmuşdur. Digər məhkumlarla müqayisədə ömürlük azadlıqdan məhrum edilmiş şəxslərin cəzalarının icrası şərtləri çox sərtdir. Bu ömürlük azadlıqdan məhrum etmə cəzasının müəyyən müddətə azadlıqdan məhrum etmə ilə əvəz edilməsi və cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmə imkanlarına da aiddir. Halbuki, yeni qəbul edilmiş Cinayət və Cəzaların İcrası məcəllələri vəziyyəti xeyli dəyişdirmişdir. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi ömürlük azadlıqdan məhrum etmə cəzasının çəkilməsindən iyirmi beş il keçdikdən sonra onun müəyyən müddətə azadlıqdan məhrum etmə ilə əvəz olunması və ya cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmənin tətbiqi ilə bağlı müddəa nəzərdə tutmuşdur. Cəzaların İcrası Məcəlləsi belə məhkumların cəza çəkilməsi şərtlərini əhəmiyyətli dərəcədə humanistləşdirmişdir. Belə ki, ömürlük azadlıqdan məhrum etmə cəzasını çəkən məhkumların qohumları və digər şəxslərlə görüşlərinin sayı artırılmış, onlara uzun müddətli görüşlərdən istifadə etmək hüququ verilmiş və s. Lakin hesab edirik ki, göstərilən müsbət dəyişikliklərə baxmayaraq, Avropa ölkələri ilə müqayisədə onların saxlanma şəraiti hələ də sərtdir. Əgər Avropada ömürlük azadlıqdan məhrum etmə cəzasını çəkən məhkumlar müəyyən müddətə məhkum olunmuş şəxslərlə bir yerdə saxlanılmaqla, digər məhkumlarla, habelə xarici aləmlə daha yaxından təmas yaratmaq, faydalı fəaliyyətlə məşğul olmaq üçün böyük imkanlara malikdirlərsə, bizim məhkumlar Cəzaların İcrası Məcəlləsinə uyğun olaraq belə hüquqlara malik deyillər. Gündəlik bir saatlıq gəzinti istisna olmaqla, məhkumlar

bütün gün ərzində daim bağlı olan iki nəfərlik kameralarda saxlanılırlar. İctimai faydalı əməklə, təhsillə, idmanla, habelə digər səmərəli fəaliyyətlə məşgul olmaq üçün normal şəraitin olmaması, habelə qanunvericiliklə müəyyən edilmiş bir sıra digər qadağalar belə məhkumların psixologiyasına mənfi təsir edir və onların sağlamlığı üçün ciddi problemlər yaradır. Belə şəraitdə sözügedən məhkumların idarə edilməsi kifayət qədər çətinləşir.

Yuxarıda göstərilən problemlərin həlli, penitensiar sistemin səmərəli fəaliyyət göstərməsi və onun beynəlxalq standartlara uyğunlaşdırılması üçün nə etmək lazımdır? Fikrimizcə, sadalanan problemlərin həllinin əsas şərtlərindən biri azadlıqdan məhrum etmə cəzasını çəkən şəxslərin sayının azaldılması və onların artmasına mane ola bilən mexanizmin yaradılmasıdır. Azadlıqdan məhrum edilmiş məhkumların sayının artması problemi bir çox dövlətlərin hökumətlərini, habelə beynəlxalq və qeyri-hökumət təşkilatlarını da narahat edir.

Son illərdə Azərbaycan Respublikasında məhkumların, o cümlədən azadlıqdan məhrum etməyə məhkum edilmiş və bu cəzanı çəkən şəxslərin sayının azalması tendensiyası müşahidə olunur. Göstərilənlərlə əlaqədar son bir neçə ildə azadlıqdan məhrum etməyə məhkum edilmişlərin sayı artmamış, əksinə 2001-2002-ci illərdə onların sayında azalma baş vermişdir. Belə vəziyyət aşağıda göstərilmiş tədbirlər nəticəsində baş vermişdir.

1. Son yeddi ildə dövlətin qanunverici orqanı tərəfindən 6 amnstiya aktı qəbul edilmişdir ki, nəticədə 64 mindən çox təqsirləndirilən şəxs və məhkum cinayət məsuliyyətindən, habelə müxtəlif cəzaları çəkməkdən azad edilmişdir. Həmin aktlarla azadlıqdan məhrum etmə yerlərindən 19 minə yaxın məhkum azad olunmuşdur. Cari ilin 06 may tarixində yeni amnistiya aktı qəbul edilmişdir ki, həmin aktın təxminən 14 minədək məhkuma tətbiq ediləcəyi, onlardan 3 mindən çox məhkumun azadlıqdan məhrum etmə yerlərindən azad olunacağı gözlənilir.

2. Azərbaycanda son illər ərzində əfvetmə institutu geniş tətbiq edilməkdədir. Belə ki, 1995-2002-ci illər ərzində, habelə 2003-cü ilin birinci rübü nəzərə alınmaqla, dövlət başçısı tərəfindən məh-

kumların əfv edilməsi ilə bağlı 30 fərman imzalanmışdır ki, bu humanist aktlar umumən 2.900 məhkuma tətbiq edilmişdir. Belə sayda məhkumların böyük əksəriyyətini azadlıqdan məhrum etmə cəzasını çəkən məhkumlar təşkil etmiş və onlar cəzadan azad edilmişlər.

3. Azərbaycan Respublikasının yeni Cinayət Məcəlləsi qüvvəyə mindikdən sonra cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə instututunun tətbiqində mövcud olmuş məhdudiyyətlər ləğv edilmişdir. Yeni Cinayət Məcəlləsinə uyğun olaraq hazırda törədilmiş cinayətin ağırlığından asılı olmayaraq, bütün məhkumlar cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmə imkanına malikdırlər. Əvvəlki illərlə, yəni 2000-ci ilə kimi olan illərlə müqayisədə, bu institutdan geniş istifadəyə başlanmış, onun təcrübədə tətbiqi iki dəfədən çox artmışdır.

4. Azərbaycan Respublikasının yeni Cinayət Məcəlləsində şərti məhkum etmə, habelə daha yüngül cəza təyin edilməsi institutlarından geniş istifadə üçün əlverilşli imkanlar nəzərdə tutulmuşdur. Belə ki, əgər 2000-ci ildə şərti məhkum etmə insitutu 1.659 məhkuma tətbiq edlmişdirsə, 2001-2002-ci illərdə həmin göstərici müvafiq olaraq 45 % və 59 % artmaqla, sayca 2.396 və 2.939 nəfər olmuşdur.

5. Azərbaycan Respublikasının yeni Cinayət Məcəlləsinə azadlıqdan məhrum etməyə alternativ olan üç yeni cəza növü daxil edilmişdir. Onlar ictimai işlər, hərbi xidmət üzrə məhdudlaşdırma və azadlığın məhdudlaşdırılmasıdır. Həmin cəzalarla yanaşı azadlıqdan məhrum etməyə alternativ olan digər cəzalar, yəni cərimə, müəyyən vəzifə tutmaq və ya müəyyən fəaliyyətlə məşgul olmaq hüququndan məhrum etmə, islah işləri də kifayət qədər tətbiq edilir. Təhlil göstərir ki, son iki, yəni 2001-2002-ci ilərdə alternativ cəzaların tətbiqi atmaqdadır. Belə ki, 2001-ci ildə alternativ cəzalar 4.374 məhkuma tətbiq edilmişdirsə, 2002-ci ildə bu göstərici 5.811 olmuşdur ki, bu da 32,9 % artım deməkdir. 2002-ci ildə 2001-ci illə müqayisədə məhkəmə hökmləri ilə azadlıqdan məhrum edilmiş məhkumların sayı 10,5 % azalaraq, ümumi sayın 37,5 %-ni təşkil etmişdir.

Lakin yaranmış vəziyyəti tam müsbət hesab etmək hələ tezdir. Dünya təcrübəsi göstərir ki, hər 100 min nəfər əhaliyə düşən məhkumların optimal sayı 80-100 nəfər təşkil edir. Azərbaycan Respublikasında bu rəqəm hələlik arzu olunandır, belə ki, 2003-cü ilin əvvəlinə müvafiq göstərici iki dəfədən çox olmaqla, 220 nəfər təşkil etmişdir. Həmin göstərici bir sıra dövlətlətlə, habelə sabiq SSRİ-nin respublikaları ilə daha yaxşı və o qədər də böyük olmasa da, dünya təcrübəsinə istinad edilməsi daha məqsədəuyğun olardı. Azərbaycan dövləti tərəfindən bu sahədə görülmüş tədbirlər vəziyyəti müsbət istiqamətə dəyişdirsə də, məsələnin köklü həlli məqsədilə kompleks əlavə tədbirlərin görülməsinə ehtiyac duyulur. İlkin olaraq, azadlıqdan məhrum etmə cəzasının tətbiqindəki və belə şəxslərin sayının azalmasında müşahidə olunan müsbət tendensiyanı Azərbaycan Respublikasının yeni Cinayət Məcəlləsində nəzərdə tutulumuş müsbət imkanlardan maksimum istifadə olunma yolu ilə davam etdirmək, habelə cəza təyini zamanı həmin məcəllənin 58-ci maddəsində nəzərdə tutulmuş tələblərə, xüsusilə alimlər tərəfindən tövsiyə edilən cəzaya qənaət prinsipinə ciddi riayət etmək lazımdır. Göstərilən problemlərin həlli ilə bağlı Azərbaycan Respublikasının yeni Cinayət Məcəlləsinə dəyişikliklər edilməsi ilə əlaqədar aşağıdakı təkliflərə baxılmasını məqsədəuyğun hesab edirik.

1. Azadlıqdan məhrum etmə cəzasının ümumən, habelə bəzi cinayətlərə görə onun yuxarı həddinin təxminən 2-3 il azaltmaq. Təhlil göstərir ki, məhkumların sayının artmasına uzun müddətli azadlıqdan məhrum etmə ilə bağlı hökmlər ciddi təsir göstərir.

2. Hazırda hamilə və azyaşlı uşağı olan qadınlara tətbiq edilən cəzanın icrasının təxirə salınması institutunun tətbiqi dairəsinin genişləndirilməsi, yəni onun digər məhkumlara, o cümlədən cəzanın icrası mərhələsində tətbiqi məqsədəuyğun olardı. Burada mediasiyanın, yəni cəzanın icrası prosesində cinayət tərəflərinin barışması, habelə cinayəti törətmiş şəxsin zərərçəkmişlə müəyyən şərtlərlə müqavilə bağlamasını nəzərdə tutan institut əsas götürülə bilərdi. Qeyd olunmalıdır ki, mediasiya institutundan 1998-ci ildən başlayaraq Polşada uğurla istifadə edilir.

3. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə amnistiya və əfvetmə aktlarının tətbiqi zamanı istifadə edilən, cəza müddətinin azaldılmasını nəzərdə tutan yeni institutun əlavə edilməsini təklif edirik. Məhkumun təyin edilmiş cəza müddətinin müəyyən hissəsi çəkildikdən sonra çəkiməmiş cəza müddətinin azaldılması ilə bağlı məhkəmə tərəfindən qərar qəbul edilə bilərdi.

4. Cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə institutunun tətbiqi müddətlərinin aşagı salınması məsələsinə baxılması məqsədəuyğun olardı. Hazırda Cinayət Məcəlləsinin 76-ci maddəsinə əsasən onun tətbiqi üçün cəzanın ən azı yarısı, ücdən ikisi və ya dörddən üçünün çəkilməsi tələb olunur.

5. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində cinayət törətmiş şəxslərin müəyyən şərtlərlə məsuliyyətdən azad edilməsi ilə bağlı olan həvəsləndirici normaların sayının artırılması məsələsini bir daha nəzərdən keçirilməsi təklif edilir. Eyni zamanda, məqbul hesab edilə bilən yeni normaların məhkəmə hökmü çıxarıldıqdan sonra, habelə cəzanın icrası mərhələsində də tətbiqi imkanları diqqətdən kənarda qalmamalıdır.

6. Fikrimizcə, şərti məhkum etmə instututunun geniş tətbiqi məqsədilə onun təyini şərtlərinə yenidən baxılması, onun, xüsusilə bir sıra ağır cinayətlərə görə də tətbiqi məqsədəuyğun olardı.

Burada bir vacib cəhətə toxunmaq istərdik. Bütün göstərilənlər, yəni məhkumların sayının azaldılması siyasətinin məntiqi sonluğa, yəni arzu olunan məqsədə çatması, yalnız məhkəmələr tərəfindən onların müsbət qəbul edilməsi ilə mümkün ola bilər. Tərəfimizdən məhkumların sayının azaldılması ilə əlaqədar verilən təkliflər xüsusi məqsəd daşımır, onlar azadlıqdan məhrum etmə cəzası ilə bağlı mövcud problemlərin həllinə yönəlmiş addımlar kimi qəbul edilməlidir.

Azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxslərin sayının azaldılması ilə bu cəza növünün icrasında yaşanan problemlərin tam həllinə nail olmaq mümkün deyildir. Bu məqsədlə digər tədbirlərin də görülməsi vacibdir və fikrimizcə, onlar aşağıdakılardır:

1. Penitensiar, o cümlədən cəza-icra sisteminin maliyyələşdiril-

məsi onun tələbatına uyğun həyata keçirilməlidir. Bu çox əhəmiyətli tədbirdir. Zəruri maliyyə vəsaiti olmadan mövcud problemlərin həlli kifayət qədər çətin və ya imkan xaricində olur.

2. Azadlıqdan məhrum etmə cəzasının həbsxanada icrası modelini hələ qəbul etməməklə yanaşı, mövcud icra modelini bir penitensiar müəssisədə saxlanılan məhkumların sayının azaldılması yolu ilə təkmilləşdirmək yaxşı olardı. Fikrimizcə, bir penitensiar müəssisədə saxlanılan məhkumların sayı 500 nəfərdən çox olmamalıdır. Belə yanaşma penitensiar müəssisənin müdiriyyətinə normal idarəetməni həyata keçirməyə, məhkumların islah edilməsi işini daha səmərəli qurmağa və cəza çəkən şəxslərin azad həyata uğurlu hazırlanmasına əlverişli zəmin yarada bilərdi.

3. Məhkumlarla rəftara dair standartları adekvat qəbul etmək qabiliyyətinə malik, bu fəaliyyət sahəsində çalışmaq arzusunda olan yeni dövrun işçi heyətinin qulluğa qəbulunu beynəlxalq təcrübə nəzərə alınmaqla, çox ciddi seçim və həmin kadrların mükəmməl icbari ixtisas hazırlığını təşkil etməklə həyata keçirmək lazımdır. Bu sahədə elə bir mexanizm yaratmaq vacibdir ki, işçinin öz iş yerinin saxlaması, onun məhkumların hüquq və azadlıqlarına hörmətlə yanaşmasından, habelə beynəlxalq aktların tələblərinə ciddi şəkildə riayət edilməsindən asılı olsun. Bu mexanizm həmçinin, işçi heyətinin ardıcıl peşə hazırlığını, onun ixtisasının artırılmasını və illik obyektiv attestasiyasını nəzərdə tutmalıdır.

İşçi heyəti ilə bağlı yuxarıda göstərilən qanun layihələrinin qəbulundan sonra böyük təşkilatı tədbirlər və heç də az olmayan maliyyə resursları tələb ediləcəkdir. Lakin göstərilən çətinliklərə baxmayaraq, işçi heyəti ilə bağlı problemi digərləri ilə birlikdə həll etmək zəruridir.

4. Fikrimizcə, məhkumların ictimai faydalı əməyə cəlb edilməsi probleminin həlli məqsədilə azadlıqdan məhrum etmə yerlərində cəza çəkən şəxslərin məşğulluğu ilə əlaqədar xüsusi dövlət proqramının qəbul edilməsi vaxtı artıq çatmışdır. Eyni zamanda, məhkumların, xüsusilə böyük cəza müddətli şəxslərin təhsil və peşə hazırlığı ilə əlaqədar proqramların da qəbul edilməsi əhəmiyyət kəsb edir. Həmin proqramlar məhkumların cəza çəkməkdən

azad edildikdən sonra azad cəmiyyətə daha uğurlu reinteqrasiyasını təmin etməyə yönəldilməlidir.

5. Penitensiar müəssisələrdə saxlanılan məhkumların tibbi təminatının təkmilləşdirilməsi və yaxşılaşdırılması ilə bağlı tədbirləri davam etdirmək vacibdir. Beynəlxalq təcrübə nəzərə alınmaqla, məhkumların hüquq və azadlıqlarının maksimal şəkildə təmin edilməsi ilə müşayiət edilən şəraitdə vərəmin, xüsusilə onun rezistentli növünün, narkomaniyanın profilaktikası və müalicəsi, habelə QİÇS infeksiyalı azadlıqdan məhrum edilmişlərin cəzaların icrasının təşkili ilə əlaqədar xüsusi proqramların qəbuluna gündəmdə olan əhəmiyyətli məsələ kimi baxılımalıdır.

6. Uzun müddətə azadlıqdan məhrum edilmənin məhkumlara göstərdiyi mənfi təsirin neytrallaşdırılmasına yönəlmiş, belə kateqoriyalı şəxslərin cəzalarının çəkilməsi şərtlərinin, xüsusilə onların faydalı fəaliyyətinin yaxşılaşdırılmasını, xarici aləmlə təmaslarının genişləndirilməsini nəzərdə tutan yeni proqramların işlənib hazırlanmasını məqsədəuyğun hesab edirik. Bu işə bütün penitensiar müəssisələrdə tərəfimizdən yaradılması təklif olunan psixoloji xidmət böyük dəstək ola bilərdi. Yuxarıdakılar, ömürlük azadlıqdan məhrum etmə cəzasını çəkən məhkumlara da aiddir. Fikrimizcə, cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin tətbiqi məsələsinə baxılması üçün qanunvericilikdə müəyyən olunmuş 25 illik müddət, digər ökələrlə müqayisədə bir qədər çoxdur. Hesab edirik ki, ömürlük azadlıqdan məhrum edilmiş məhkumların cəzalarının əvəz edilməsi və yaxud onların cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi müddəti Azərbaycan Respublikasının Cinayət Məcəlləsində müəyyən müddətə azadlıqdan məhrum edilmiş şəxslər üçün nəzərdə tutulmuş müddətlər kimi müxtəlif, lakin məntiqəuyğun və ağlabatan olmalıdır. Hesab edirik ki, həmin müddətlər müvafiq olaraq 10 və 15 ildən çox olmamalıdır. Sözsüz ki, ömürlük azadlıqdan məhrum edilmiş məhkumlar barədə təkilf olunan qərarların qəbuluna böyük ehtiyatla yanaşılmalı, bir sıra ciddi tələblər qoyulmaqla yanaşı gələcəkdəki mümkün risklərin qiymətləndirilməsi ilə bağlı etibarlı metodikanın işlənib hazırlanması və ondan obyektiv istifadə etmək zərurəti yaranacaqdır.

Göstərilənlərdən başqa, ömürlük azadlıqdan məhrum etmə cəzası çəkən məhkumlarla əlaqədar BMT tərəfindən 1995-ci ildə qəbul edilmiş tövsiyələrə riayət edilməsini və onların qanunvericilikdə nəzərə alınmasını da məqsədəuyğun hesab edirik.

Azadlıqdan məhrum etmə növündə cəzanın sosial və şəxsiyyətlə bağlı yaratdığı fəsadları nəzərə alaraq, biz XVIII əsrin tanınmış ingilis kriminoloqu Yeremiy Bentamın (1748-1832) cəza ilə bağlı, yəni onun, xüsusilə cəzanın represiv növlərinin, öz-özlüyündə "pislik" olması, bu tədbirə kifayət qədər ehtiyatla yanaşılması və ondan minimal istifadə olunması, "cəzanın məhdudlaşdırılmasının vacibliyi" prinsipinə riayət edilməsi kimi fikirlərini tamlıqla dəstəkləyirik. Eyni zamanda, onun "bu zaman dövlətin vəzifəsinin təkcə "pisliy"in növünün seçilməsinin olmaması, həmçinin iki məsələni: cinayətin və cəzanın - xəstəliyin və dərmanın da "pislik" olmasının nəzərə alınması" ilə bağlı söylədiklərinə də tərəfdar çıxırıq.

Sözsüz ki, yuxarıda göstərilən problemlərin həlli ilə bağlı verilmiş təkliflər bizim düşüncələrimizi və şəxsi baxışlarımızı ifadə edir, lakin onların ətraflı şəkildə öyrənilməsi və qiymətləndirilməsi də yaxşı olardı.

Sonluqda qeyd etmək istərdik ki, XXI əsrdə bəşəriyyətə azadlıqdan məhrum etmə cəzasının fəlsəfəsini yenidən nəzərdən keçirmək lazımdır. Bunu gələcək nəsillərin bizi onlara miras qoyub getdiyimiz "pisliyə" görə ittiham etməmələrinə görə etmək zəruridir. Bu işi görmək nə qədər çətin və mürəkkəb olsa da, dövlətin və zərərçəkmişin maraqları əsas götürülməklə, elə optimal yollar axtarıb tapmaq lazımdır ki, onlar cüzi məhrumiyyətlərlə, lakin mümkün qədər qısa müddət ərzində cinayət cəzasının sosial məqsədlərinə nail olmağa imkan verə bilsin.

***İstinad edilmiş mənbə:***

***"Avropada cinayətkarlıq və cinayət siyasəti" Cinayət hüququ və cinayətkarlıq. Orta və Şərqi Avropada inkişafı (rus dilində). Almaniya, Bohum, 2004. Doktor N.Brokmayer, Tom 1, Səh. 249–260.***

## Azərbaycan Respublikasında azadlıqdan məhrum edilmiş şəxslərin sayının artmasının səbəbləri və qarşının alınmasının mümkün yolları

10 fevral 2024-cü il tarixdə Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncamının imzalanmasının yeddi ili tamam olmuşdur. Həmin sənəddə qanunvericilikdə dəyişikliklər edilməsi zərurətindən əlavə, məhkəmə-hüquq sahəsində idarəetmənin müasirləşdirilməsinin davam etdirilməsi, dövlətin cəzaların icrası ilə bağlı fəaliyyətinin müasir tələblərə uyğun qurulması, mövcud nöqsanları aradan qaldırmaqla, cəzanı icra edən müəssisə və orqanların işinın daha səmərəli təşkili, cinayət təqibi və cəzaların icrası sahəsində korrupsiyanı istisna edən şəraitin tam təmin edilməsi və yeni informasiya-kommunikasiya texnologiyalarından isitifadə ilə bağlı tədbirlər də nəzərdə tutulmuşdur. Eyni zamanda, ölkə başçısı sərəncamda məhkəmələr tərəfindən böyük ictimai təhlükə törətməyən və az ağır, o cümlədən iqtisadi fəaliyyət sahəsində cinayətlərə görə həbs qətimkan tədbirinin geniş tətbiqi, habelə həmin cinayətlərə görə azadlıqdan məhrum etmənin dinamikasının artması və penitensiar müəssisələrin yüklənməsi ilə bağlı narahatlığını bildirmişdir. Qeyd olunanlarla bağlı səlahiyyətli dövlət orqanlarına zəruri göstərişlər, məhkəmələrə həbs qətimkan tədbirinin seçilməsinə dair əsaslara, habelə hökmlərin çıxarılması zamanı Azərbycan Respublikasının Cinayət Məcəlləsinin (bundan sonra AR CM) 58-cı maddəsində nəzərdə tutulmuş cəzanın təyininin ümumi əsaslarına xüsusi diqqət yetirilməsi ilə bağlı tövsiyələr verilmişdir. AR CM-in istinad edilən maddəsinin tələblərinə uyğun olaraq məhkəmələr nəzərə almalıdırlar ki, törədilmiş cinayətə görə nəzərdə tutulmuş cəzalardan daha ciddi cəza növü və ya yuxarı həddi yalnız o halda təyin edilir ki, az ciddi cəza növü və ya onun

həddi cəzanın məqsədlərini təmin edə bilmir. Cinayət hüququ elmində dövlət məcburiyyət tədbirinə qeyd olunan tərzdə yanaşma, cinayət təqibinə qənaət pripsipi kimi xarakterizə edilir.

Qeyd olunmalıdır ki, hüquqmühafizə orqanları və məhkəmələr üçün vacib "yol xəritəsi" kimi qəbul edilən, dövlət başçısının sözügedən sərəncamından keçən müddət ərzində onun icrası ilə bağlı kompleks qanunvericilik, təşkilati, insitututsional və digər praktiki tədbirlər həyata keçirilmişdir. İlk növbədə, cəza təyini üzrə dövlət siyasətinin humanistləşdirilməsi məqsədilə bir qrup cinayətlərin, o cümlədən, iqtisadi fəaliyyət sahəsindəki cinayətlərin dekriminallaşdırılması ilə əlaqədar AR CM-ə üç yüzə yaxın dəyişikliklər edilmiş, bir sıra maddələrin sanksiyalarına azadlıqdan məhrum etməyə alternativlər əlavə olunmuş, cəza sisteminə 2011-ci ilin may ayında ləğv edilmiş azadlığın məhdudlaşdırılması, cəzası yeni məzmun və fərqli təyin etmə şərtləri ilə qaytarılmışdır. Müsbət haldır ki, həmin cəza növünü məhkəmələr dərhal fəal şəkildə tətbiq etməyə başlamış, nəticədə son beş il ərzində onun təyini 3,5 dəfə artmışdır. Belə ki, 2018-ci ilin aprel ayından başlamaqla, həmin il ərzində ölkənin məhkəmələri tərəfindən məhkum edilmiş şəxslərin 8,2 %-i barədə azadlığın məhdudlaşdırılması tətbiq olunmuşdusa, 2020-ci ildə müvafiq göstərici 27,8 %, 2022-ci ildə isə, 28,5 % təşkil etmişdir. 2023-cü ilin yekunlarına əsasən məhkəmələr tərəfindən azadlığın məhdudlaşdırılması cəzasının təyini yenə yüksək olaraq qalmış, 29 %-dən çox olmuşdur.

Məhkəmələr tərəfindən ictimai işlər növündə cəzanın tətbiqi təcrübəsinin genişləndirilməsi məqsədilə, onun icrası qaydası təkmilləşdirilmiş, məhkumlar üzərinə qanunla qoyulmuş vəzifələrin yerinə yetirilməsi prosesində yol verilən pozuntuların qarşısının alınması, işlənmiş vaxtın dəqiq uçotunun aparılması ilə əlaqədar tədbirlər görülmüş, habelə məhkumların həmin işlərdən yayınmasına şərait yaradılmasına görə vəzifəli şəxslər üçün inzibati məsuliyyət müəyyən edilmişdir. İctimaiyyətin məhkumların sənədlərinin məhkəmələrə təqdim edilməsi işində iştiraka daha fəal cəlb edilməsi və bu işdə şəffaflığın təmin olunması məqsədilə Azər-

baycan Respublikasının Ədliyyə nazirliyi tətəfindən xüsusi prosedurun tətbiqi nəticəsində penitensiar müəssisələrdə cəza çəkən məhkumlar barədə cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmənin daha geniş tətbiqinə nail olunmuşdur.

Həbs edilmiş şəxslərin, azadlıqdan məhrum edilmiş məhkumların saxlanma şəraiti, onların yemək, tibbi-sanitariya, maddi-məişət təminatlarının həyata keçirilməsi ilə əlaqədar nəzarət gücləndirilmişdir. Eyni zamanda, penitensiar müəssisələrin fəaliyyətinin müasirləşdirilməsi, infrastrukturunun yenilənməsi ilə bağlı tədbirlər davam etdirilmişdir. 2022–2023-cü illərdə və 2024-cü ilun yanvar ayında Bakı və Lənkəran şəhərlərinin ərazisində üç yeni, müasir penitensiar kompleks (onların ikisinin nəzdində istintaq təcridxanaları, müxtəlif növ və rejimli cəzaşəkmə müəssisələri fəaliyyət göstərir) istifadəyə verilmişdir ki, onlar yetkinlik yaşına çatmayan, qadın, ömürlük və müəyyən müddətə azadlıqdan məhrum edilmiş məhkumların, habelə həbs edilmiş şəxslərin saxlanma şəraitini əhəmiyyətli dərəcədə yaxsılaşdırmışdır. Qeyd edilməlidir ki, hazırda Bakı şəhərinin ərazisində və olkənin regionlarda beş yeni penitensiar kompleks, habelə 2009-cü ildə istifadəyə verilmiş müasir istintaq təcridxanası fəaliyyət göstərir ki, onlar da həbsdə olan şəxslərə və azadlıqdan məhrum edilmiş şəxslərə daimi yaşayış yerlərinə, yaxud qohumlarına yaxın ərazilərdə saxlanılmaq və cəza çəkmək imkanları yaratmışdır.

Məhkumun cəmiyyətdən təcrid edilməsi ilə əlaqədar cəzaların icrasına effektiv nəzarətin təşkil edilməsi və bu sahədə idarəetmənin səmərəliliyinin artırılması məqsədilə Azərbaycan Respublikası Ədliyyə nazirliyinin Probasiya xidməti yaradılmış və həmin yeni təsisat 1 dekabr 2017-ci il tarixdən fəaliyyət göstərir.

2018-ci ilin aprel ayından başlayaraq qətimkan tədbirlərinin və cəzaların icrası prosesində müasir informasiya-kommunikasiya texnologiyalarından, yəni elektron nəzarət vasitələrdən geniş istifadəyə başlanılmışdır. Belə ki, qanunvericiliyə uyğun olaraq azadlığın məhdudlaşdırılması, ictimai işlər növündə cəzaların icrası, habelə ev dustaqlığı tətbiq olunmuş, şərti məhkum edilmiş,

penitensiar müəssisələrdən cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxslərə nəzarətin həyata keçirilməsi prosesində elektron nəzarət vasitələrindən istifadə edilir. Ötən müddət ərzində, yəni 2018–2023-cü illərdə elektron nəzarət vasitələri 19 mindən artıq ev dustaqlığında olan şəxsə və məhkuma tətbiq olunmuşdur. Ədliyyə nazirliyinin məlumatına əsasən 2024-cü ilin əvvəlinə 5,2 mindən artıq şəxs barədə elektron monitorinq həyata keçirilirdi.

Qeyd olunmalıdır ki, cəza siyasətinin yumşaldılması və cinayətlərin dekriminallaşdırılması tədbirləri Azərbaycan Respublikası Prezidentinin 3 aprel 2019-cu il tarixli "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanına uyğun olaraq davam etdirilmiş, onun icrası prosesində AR CM-ə cinayət qanununun humanistləşdirilməsi ilə əlaqədar 200-dən artıq yeni dəyişikliklər edilmişdir.

Lakin cinayət və cinayət-prosessual qanunvericiliyinin xeyli humanistləşdirilməsinə, görülmüş tədbirlərə və əldə edilmiş müsbət nəticələrə baxmayaraq, təəssüf ki, prosessual məcburiyyət tədbirlərin və alternativ cəzaların tətbiqinin genişləndirilməsi ilə bağlı sözügedən sərəncamda verilmiş tapşırıqlar və tövsiyələr tamlıqla həyata keçirilməmişdir. Belə ki, hələ azadlıqdan məhrum etmənin tətbiqi təcrübəsinin azalmasına nail olunmamışdır ki, nəticədə bu növdə cəza təyin edilmiş məhkumların sayı yenə artmaqdadır. Yalnız 2019-cu ildə məhkəmələr tərəfindən azadlıqdan məhrum etmə 2011-ci ildən sonra ilk dəfə məhkum edilənlərin yarısından azını, yəni 46,4 %-ni təşkil etmişdir. Lakin 2020-ci ildən başlayaraq, azadlıqdan məhrum etmə, cəza tətbiqetmə təcrübəsində yenidən artmağa başlamış, 2020-ci ildə 51,6 %, 2021-ci ildə 57,3 %, 2022-ci ildə 57,8 %, 2023-cü ildə isə yenə 56 %-dən çox olmuşdur. Halbuki, məhkəmələr tərəfindən ölkədəki cinayətkarlığa qarşı belə sərt şəkildə reaksiya verilməsi üçün ciddi əsaslar olmamışdır. Belə ki, Azərbaycan Respublikasında göstərilən illərdə ağır və xüsusilə ağır cinaəyətlərin, habelə zorakılıqla bağlı cinayətlərin artımı müşahidə olunmamışdır. Ölkənin Daxili işlər nazirliyinin

rəsmi məlumatlarına əsasən, son bir neçə il, o cümlədən 2017–2023-cü illərdə Azərbaycanda qeydə alınmış cinayətlərin 80 %-dən çoxunu böyük ictimai təhlükə törətməyən və az agır əməllər təşkil etmişdir. Belə ki, 2023-cü ildə də ölkədə qeydə alınmış cinayətlərin yalnız 15,6 %-i ağır və xüsusilə ağır cinayətlər olmuşdur.

Qeyd olunmalıdır ki, Azərbaycanda məhkəmələrin azadlıqdan məhrum etmənin tətbiqi ilə əlaqədar yuxarıda göstərilən göstəriciləri digər, o cümlədən qonşu dövlətlərlə müqayisədə kifayət qədər yüksəkdir. Belə ki, 2019–2023-cü illərdə Rusiya Federasiyasının məhkəmələrinin fəaliyyəti ilə əlaqədar stasistik məlumatların öyrənilməsi göstərdi ki, həmin dövrlərdə ümumiqəbul edilmiş hökmlərin təxminən 29 %-i azadlıqdan məhrum etmə cəzasının tətbiqi ilə əlaqdar olmuşdur. Belarus Respublikasında istinad edilən illərdə azadlıqdan məhrum etmə cəzasının tətbiqi 22–25 % arasında olmuşdur. Avropa ölkələrinin əksəriyyətində, habelə bir sıra sabiq SSRİ respublikalarında oxşar göstəricilər müşahidə edilir. Bununla əlaqədar son illərdə Rusiya Federasiyasında, Ukraynada, Qazaxıstanda, Moldovada və digər bir sıra dövlətlərdə azadlıqdan məhrum etmə yerlərində saxlanılan şəxslərin sayının azalması prosesi gedir.

Azərbaycan Respublikasında 2017–2023-cü illərdə azadlıqdan məhrum etməyə alternativ cəzaların, yəni cərimənin, ictimai işlərin, islah işlərinin, habelə şərti məhkum etmə institutunun tətbiqi təcrübəsində də müsbət dəyişikliklər baş verməmişdir. Ölkə Prezidentinin istinad olunan sərəncamımın icrası illərində yuxarıda göstərilən cəza növlərinin məhkəmələr tərfindən tətbiqində azalma dinamikası müşahidə edilir. Belə ki, 2017-ci illə müqayisədə 2022-ci ildə cərimənin təyin olunması faiz hesabı ilə 5,7 dəfə, islah işlərinin tətbiqi isə, 5 dəfədən çox azalmışdır. İctimai işlərin də təyininin azalması prosesi gedir, 2017-ci illə müqayisədə 2022-ci ildə azalma 27, 3 % təşkil etmişdir. Habelə, şərti məhkum etmə institutunun tətbiqinin azalması tendensiyası davam etməkdədir. Belə ki, 2018-ci illə müqayisədə 2022-ci ildə məhkəmələr

həmin instituta 2,5 dəfədən az müraciət etmiş, onun ümumi cəza tətbiqindəki çəkisi 13,2 %-dən 5,2 % kimi azalmışdır. 2023-cü ildə 2018-ci illə müayisədə şərti məhkum etmə faiz hesabi ilə 3,2 dəfə, 2002-ci illə müqayisədə isə, 4,5 dəfədən çox azalmışdır. İstinad olunan illər ərzində penitensiar müəssisələrdə məhkumların sayının azalması da müşahidə edilməmişdir. Belə ki, 2023-cü illə müqayisədə 1 yanvar 2024-cü il tarixinə penitensiar müəssisələrdə 21 %-dən çox məhkum olmuşdur.

Həbs yerlərində saxlanılan şəxslərin sayı ilə bağlı vəziyyət də ürəkaçan deyil, burada da artım müşahidə edilir. Yalnız 2018–2019-cu illərdə istintaq təcridxanalarında saxlanılan şəxslərin sayında müəyyən azalmalar baş vermişdi, lakin 2020-ci ildən başlayaraq yenidən artım vardır. Belə ki, 2022-ci illə müqayisədə 2023-cü ildə həbs yerlərində artım 17 %-dən artıq olmuşdur. Lakin, qeyd etmək lazımdır ki, 2021-ci ildən başlayraq Azərbaycan Respublikasında cinayətkarlığın sayca artması müşahidə edilməkdədir. Rəsmi statistikaya əsasən, əgər 2020-ci ildə ölkədə 26.004 cinayət qeydə alnmışdısa, 2021-ci ildə həmin say 31.131, 2022-ci ildə –36.494, 2023-cü ildə isə, 38.811 olmuşdur. Beləliklə, 2020-ci illə müqayisədə 2023-cü ildə artım 41,5 % təşkil etmişdir. İstnad edilənlərlə əlaqədar 2021–2022-ci illərdə ölkə məhkəmələri tərəfindən məhkum edilən şəxslərin də sayı artmışdır. 2019-cu illə müqayisədə göstərilən iki il ərzində artım müvafiq olaraq 20,9 % və 26,9 % olmuşdur.

Avropa Şurası üçün Lozanna universiteti tərəfindən aparılan tədqiqatlar əsasında tərtib olunmuş illik cinayət satistikası üzrə məlumata (SPACE I) uyğun olaraq, Azərbaycan Respublikası yuxarıda göstərilən müvafiq artım ilə əlaqədar son bir neçə ildə yüz min əhaliyə düşən həbs edilmiş şəxslərin və məhkumların sayı ilə bağlı ən yüksək göstəriciyə malik on Avropa dövlətləri sırasına daxil olmuş, 2022-ci ilin əvvəlindən isə, artıq Turkiyə və Gürcüstanla birinci üçlükdə qərar tutmuşdur. Belə ki, 31 yanvar 2022-ci il tarixinə Azərbaycanda müvafiq göstərici 216,9 təşkil etmişdir ki, bu da çoxsaylı Avropa dövlətlərin, habelə bir necə sabiq SSRİ-

nin tərkibində olmuş ölkələrin göstəricisindən təxminən iki dəfədən çoxdur. Qeyd olunmalıdır ki, SPACE I-də olan məlumatlara istinadən 2012–2022-ci illərdə Azərbaycan Respublikasında həbs edilmş şəxslərin və azadlıqdan məhrum etmə yerlərində cəza çəkən məhkumların yüz min əhaliyə düşən sayı üzrə göstərici daim 200-dən yüksək olmuşdur.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) S. Əliyeva 2024-cü ilin 5 fevralında ölkə parlamentində 2023-cü il üzrə "Azərbaycan Respublikasında insan hüquqlarının qorunması haqqında" məruzəsi ilə çıxışı zamanı, ölkənin penitensiar müəssisələrində mövcud problemlərdən birinin sıxlıqla bağlı olduğunu qeyd etmişdir.

Azadlıqdan məhrum edilmiş şəxslərin sayının artması, həbsxanalarda sıxlığın yaranması ilə bağlı məsələlər atrıq uzun illərdir ki, dünya ölkələrini və beynəlxalq təşkilatları narahat etməkdədir. Belə ki, sözügedən məsələlər XX əsrin 70-ci illərindən başlayaraq daim müzakirə edilir və müntəzəm olaraq beynəlxalq təşkilatların, xüsusilə BMT-nin, Avropa Şurasının və onların xüsusi orqanlarının gündəliyinə daxil edilir. Həbs edilmiş şəxslərin və məhkumların sayının artması ilə bağlı vacib məsələyə münasibət bildirmək və onun həlli ilə əlaqədar BMT-nin 14 dekabr 1990-ci il tarixli "Həbslə bağlı olmayan tədbirlərlə əlaqədar minimal standart qaydaları (Tokio Qaydaları)", Avropa Şurasının 1992-ci il R (92) 16 nömrəli "İctimai sanksiyalar və tədbirlərin tətbiqi ilə əlaqədar Avropa qaydaları", 1999-cu il R (99) 22 nömrəli "Həbsxanaların dolması və həbsdə olan şəxslərin sayının artması probleminə dair", 2000-ci il R (2000) 22 nömrəli "İctimai sanksiyalar və tədbirlərin tətbiqi ilə əlaqədar Avropa qaydalarının təkmilləşdirilməsi" ilə bağlı vacib beynəxalq aktlar qəbul edilmiş, həmin sənədlərdə yaranmış vəziyyətlə bağlı narahatçılıq ifadə olunmuş və müvafiq tövsiyələr verilmişdir. Avropa Şurasının cinayət statistikası üzrə illik məlumatları (SPACE I), üzv dövlətlər üçün azadlıqdan məhrum edilmiş şəxslərin sayı, hərəkəti, tərkibi ilə bağlı maraqlı informasiya və analitik material olmaqla yanaşı, daha çox azadlıq-

dan məhrum edilmiş şəxslərə və həbsxanada saxlanılan məhkumlara malik dövlətlərə yaranmış vəziyyəti dəyişmək üçün zəruri tədbirlərin görülməsinə çağırış rolunu oynayır.

Öz növbəsində İşgəncənin və qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması üzrə Avropa Komitəsi (bundan sonra Avropa Komitəsi) müntəzəm olaraq, xüsusilə illik ümumi hesabatlarında, azadlıqdan məhrum etmə yerlərindəki sıxlığa diqqət yetirməklə, qeyd edir ki, belə vəziyyət əsasən sərt cinayət-hüquqi siyasətin nəticəsi, məhkəməyə qədər həbs yerlərində daha tez-tez uzun müddət saxlanılmağın, həbs müddətlərinin böyük olması və həbsdə saxlanmaya alternativlərin daha az tətbiqi ilə əlaqədardır. Avropa Komitəsi, habelə mümkün həlləri də təklif edir, lakin əsas olaraq həbsə və azadlıqdan məhrum etməyə alternativ tədbirlərin tətbiqinin genişləndirilməsinə diqqət yetirməyi, habelə, bütün maraqlı tərəfləri məsələyə sistemli yanaşmağı və razılaşdırlmış tədbirləri həyata keçirməyi tövsiyə edir. Avropa Komitəsi həbsxanalarda saxlanılanların sayının çox olması ilə bağlı məsələni müzakirə edərək, Avropa Şurasının Ag kitabında göstərilən “Hər bir üzv dövlətdə siyasətçilərin, qanunvericiliklə məşgul olanların, hakimlərin, prokurorların, həbsxana və probasiya xidmətinin rəhbərlərinin iştirakı ilə daimi dialoq, ümumi anlayış və tədbirlər olmalıdır” tövsiyəsinə istinad edir. Avropa Komitəsi, 21 aprel 2022-ci ildə dərc olunmuş 31-ci Ümumi məruzəsində bir daha həbsxanaların dolu olmasına diqqət yetirərək, qeyd edir ki, Komitə tərəfindən dəfələrlə verilmiş tövsiyələrə, habelə İnsan hüquqları uzrə Avropa Məhkməsinin qərarlarına baxmayaraq, bir çox penitensiar sistemlərdə, xüsusilə həbs edilmiş şəxslərin saxlandıqları müəssisələrdə sıxlıq hələ də gündəlik reallıq olaraq qalmaqdadır. Avropa Komitəsi, habelə qeyd edir ki, həbsxanaların dolu olması, bu təkcə həbsxana rəislərinin və müdiriyyətinin həll edəcəkləri, habelə hökumətlərin təklikdə bacardığı problem deyil. Kollektiv və birgə tədbirlər zəruridir. Fikrimizcə, bu problemin həllində cəmiyyətin iştirakı da vacibdir.

Həbsxana əhalisinin sayının azaldılması ilə bağlı beynəlxalq

təşkilatlarla yanaşı beynəlxalq qeyri-hökumət təşkilatları da çağırışlar edirlər. Sonuncular arasında Beynəlxalq Həbsxana Təşkliatı (PRİ), Beynəlxalq həbsxana tədqiqatı mərkəzi (ICPS), İşgəncəyə qarşı ümumdunya təşkilatı (OMST), İşgəncələrin qarşısını alınması Assosiyasiyası (APT) və bir sıra digərləri fəal fəaliyyətləri ilə ilə fərqlənirlər. Həmin təşkilatlar artıq uzun müddət ərzində apardıqları tədqiqatlara, habelə müxtəlif təşkilatlar tərəfindən dərc edilən materiallara, statistik məlumatlara istinad etməklə, azadlıqdan məhrum etmə yerlərində saxlanılan şəxslərin sayının artmasını, əsasən məhkəmə təcrübəsində həddindən sərt cəzaların tətbiqi və azadlıqdan məhrum etməyə alternativlərdən az istifadə olunması ilə əlaqələndiririrlər. Onlar tərəfindən yaranmış vəziyyətin yaxşılaşdırılması ilə bağlı müxtəlif tədbirlər təklif edilir. Misal üçün, 2015-ci ildən başlayraq PRİ, hər il Tailandın ədliyyə institutu ilə birlikdə dərc etdiyi cinayət mühakiməsi, həbsxana siyasəti və təcrübəsi ilə əlaqədar son hadisələrin nəticələri ilə bağlı 2023-cü il üzrə "Həbsxana sistemində qlobal tendensiyalar" adlı məruzədə qeyd edir ki, həbsxanaların yüklənməsi ilə bağlı problemin qarşısını alınmasında azadlıqdan məhrum etmə ilə bağlı olmayan alternativ cəzaların tətbiqinin həlledici əhəmiyyəti vardır. Sözügedən məruzədə habelə qeyd edilmişdir ki, 2000-ci illə müqayisədə 2023-ci ildə dünyada həbs edilmiş şəxslərin və məhkumların sayı 24 % artmış və umumilikdə 11,5 milyon təşkil etmişdir.

Danimarkanın İşgəncələrə qarşı "DIGNITY" institutu T. Ritter və K. Kambanella tərəfindən hazırlanmış, penitensiar sistemlərdə COVİD-19 pandemiyası ilə mübarizə dövründə ilkin həbs və azadlıqdan məhrum etmə yerlərində sayın azaldılmasına həsr edilmiş məlumat xarakterli sənəddə qeyd edir ki, həbsxanalarda sıxlığın aradan qaldırılmasına ilk növbədə, həbs yerlərində və həbsxanalarda saxlanılan şəxslərin sayının məhkəməyəqədər və hökm çıxarılması mərhələlərində azadlıqdan məhrum etmə ilə bağlı olmayan tədbirlərlə nail olmaq olar. İkincisi, həbs edilmiş şəxslərin və məhkumların azad edilməsi prosesini, istər şərtsiz və ya şərti olaraq vaxtından əvvəl azad etmə proqramları ilə, istərsə də azadlıq-

dan məhrum etmə ilə əlaqəli olmayan digər tədbirlərlə sürətləndirmək məqsədəuyğundur.

Yuxarıda göstərilənləri umumiləşdirməklə, qeyd etmək istərdik ki, çoxsayı dövlətlər, tanınmış beynəlxalq təşkilatlar, habelə beynəlxalq qeyri-hökumət strukturları həbsxanalarda saxlanılan şəxslərin sayının artmasının səbəbləri və fəsadları ilə bağlı məsələlərdə eyni mövqe nümayiş etdirməklə, hesab edirlər ki, onları ilk növbədə, azadlıqdan məhrum etmədən ehtiyatla və qənaətlə tətbiq etməklə, habelə alternativ cəzaların təyininin genişləndirilməsi yolu ilə həll etmək olar.

Ümimbəllidir ki, azadlıqdan məhrum etmə yerlərində məhkumların sayındakı artım, dövlətdən daha çox maliyyə vəsaiti tələb edir, çəza çəkən şəxslərin saxlanma şəraitinin keyfiyyəti aşagı düşür, infeksion xəstəliklərin yayılması üçün əlverişli imkanlar yaranır və zorakılq halları ilə əlaqədar risklər artır. Eyni zamanda, işçi heyətinin xidmət yükü yüksəlir, penitensiar müəssisələrin idarə edilməsi çətinləşir, habelə məhkumların islahının və reabilitasiyasının daha səmərəli həyata keçirilməsi prosesi mürəkkəbləşir.

Cinayətkarlıqla və cəzaların tətbiqi təcrübəsi ilə bağlı dövlət orqanları tərəfindən təqdim edilmiş statistikanın və beynəlxalq təşkilatlarının məlumatlarının təhlili, cəzanı icra edən orqanlarda çoxillik fəaliyyətimiz, əvvəllər müvafiq sahədəki tədqiqatlarımızın nəticələri, habelə hüquqmühafizə və məhkəmə əməkdaşları, o cümlədən qeyri-hökümət təşkilatlarının nümayəndələri ilə apardığımız müzakirələr Azərbaycan Respublikasında azadlıqdan məhrum edilmiş şəxslərin sayının artmasını şərtləndirilən mümkün səbəbləri müəyyən etməyə imkan yaratmışdır. Fikrimizcə, həmin səbəblər aşağıdakılardır.

**1. Hökmlə əlaqədar prokurorluq, zərərçəkmiş tərəfindən protestlərin və ya şikayətin verilməsi, habelə təyin edilmiş cəzanın apellyasiya və kassasiya instansiyalarında ləğv olunması ilə ehtimalı ilə bağlı birinci instansiya məhkəmələri hakimlərinin azadlıqdan məhrum etməyə alternativlərə ehtiyatlı yanaşmaları.**

Azərbaycan Respublikasında demək olar ki, əksəriyyət məhkəmə hökmləri ilə bağlı protestlər, şikayətlər verilir, yəni birinci məhkəmə instansiyalarının qəbul etdiyi, o cümlədən alternativ cəzalarla bağlı qərarlar, bir qayda olaraq, apellyasiya məhkəmələrində, habelə bir çox hallarda isə, kassasiya məhkəmələrində təkrar baxışlara məruz qalır. Hökmlərlə bağlı məhkum edilmiş şəxslər tərəfindən cəzanın sərtliyi, ittiham orqanı və zərərçəkmiş tərəfindən isə, yüngüllüyü, o cümlədən azadlıqdan məhrum etmə ilə bağlı olmaması ilə əlaqədar protest və ya sikayətlər verilir. Həmin səbəblərdən birinci instansiya məhkəmələri böyük ictimai təhlükə törətməyən və az agır cinayətlərlə bağlı işlərə baxılması zamanı özlərini əvvəlcədən sığortalamaqla, "coxluğun", yəni ittihamın və zərərçəkmişin tərəfini tutur, daha münasib, rahat mövqeyi seçərək, azadlıqdan məhrum etmə cəzasının tətbiqinə üstünlük verirlər. Belə yanaşma ilə hakimlər protest və ya sikayətlərdən yayınmaq istəyir, habelə hesab edirlər ki, yuxarı məhkəmə instansiyaları "azlığın", yəni məhkumun şikayətini təmin etməyəcəklər.

**2. Apellyasiya və kassasiya məhkəmələrinin azadlıqdan məhrum etmənin alternativ cəzalarla əvəz edilməsinə böyük tərəddüdlü və qeyri-ciddi münasibətləri**.

Ölkənin apellyasiya və kassasiya məhkəmə instansiyaları azadlıqdan məhrum etmənin alternativ cəzalarla əvəz edilməsinə böyuk ehtiyatla yanaşırlar. Təcrübədə apellyasiya məhkəmələri çox az, Ali Məhkəmənin Cinayət kollegiyası isə nadir hallarda azadlıqdan məhrum etməni alternativ cəzalarla əvəz edirlər. Halbuki, ölkənin Cinayət-Prossesual Məcəlləsi (bundan sonra AR CPM), habelə Ali Məhkəmənin müvafiq Plenum qərarları cinayət işlərinə apellyasiya və kassasiya instansiyalarında baxılarkən, tətbiq olunmuş cəzanın növünün və müddətinin (miqdarının) təyin edilməsinin əsaslığını diqqətlə öyrənilməsini, habelə azadlıqdan məhrum etmə cəzasının alternativlərlə əvəz edilməsinə həssaslıqla yanışılmasını tələb və tövsiyə edirlər.

**3. Prokurorluq orqanlarının alternativ cəzalara qeyri-ciddi yanaşmaları və inamsızlığı**. Prokurorluq dövlət ittihamı orqanı

kimi cinayət islərinə məhkəmələrdə baxılarkən, demək olar ki, birmənalı şəkildə AR CM-in müvafiq sanksiyasında nəzərdə tutulmuş daha ciddi cəzaya, əksər hallarda isə, azadlıqdan məhrum etməyə üstünlük verir. İttiham tərəfi çox nadir hallarda təyin edilmiş azadlıqdan məhrum etmə ilə bağlı protest verərək, onun alternativ cəzalarla əvəz olunmasını, yaxud şərti məhkum etmə institutunun tətbiqini təklif edir. Halbuki, qanunvericilik sözügedən təkliflərin verilməsini onlara qadağan etmir. Belə təsəvvür yaranır ki, prokurorluq orqanları məhkəmələrin azadlıqdan məhrum etməyə alternativ cəzaların tətbiqində maraqlı deyillər.

**4. İstintaq orqanları və məhkəmələr tərəfindən AR CM-də cinayət məsuliyyətindən və cəzanın çəkilməsi ilə bağlı mövcud imkanlardan tamlıqla istifadə edilməməsi**. Sözügedən imkanlar istər azadlıqdan məhrum etmənin tətbiqinin, istərsə azadlıqdan məhkum etmə yerlərində saxlanılan şəxslərin sayının azalmasına şərait yarada bilər.

Yuxarıda qeyd olunduğu kimi, son illərdə penitensiar müəssisələrdə cəza çəkən şəxslərin sayının aşağı düşməsinə müsbət təsir göstərən, azadlıqdan məhrum etmə ilə bağlı olmayan əksəriyyət cəzaların, yəni cərimənin, ictimai işlərin, islah işlərinin tətbiqində ciddi azalmalar qeydə alınmışdır. Eyni zamanda, azadlıqdan məhrum etmə yerlərində cəza çəkən məhkumların sayının azalmasına əvvəlki illərdə nəzərəçarpacaq dərəcədə zəmin yaradan şərti məhkum etmə institutu da çətin günlərini yaşayır. Göstərilənlər bizə yeni və məzmununa görə kifayət qədər sərt, bütün cəza müddətində elektron nəzarət vasitəsinin tətbiq edilməsini, habelə digər ciddi məhdudiyyətləri özündə ehtiva edən azadlığın məhdudlaşdırılmasının ona bəslənən böyük ümidləri və gözlənilən proqnozları tamlıqla doğrultmadığı nəticəsinə gəlməyə zəmin yaradır. Təhlil göstərdi ki, azadlığın məhdudlaşdırılması azadlıqdan məhrum etməni azaltmağa dəstək göstərmək əvəzinə, azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzaların, o cümlədən şərti məhkum etmə institutunun yerini tutmağa başlamışdır.

2017-ci ildə AR CM-in 234.1-ci maddəsində nəzərdə tutulmuş

cinayəti (satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri xeyli miqdarda əldə etmə, saxlama, hazırlama, emal etmə, daşıma) törətmiş, əməlində başqa cinayət tərkibi olmayan və narkomaniya xəstəliyinə düçar olmuş şəxs barəsində məhkəmə tərəfindən həmin xəstəliklə əlaqədar stasionar qaydada tibbi xarakterli məcburi tədbirlər tətbiq edilməklə, cinayət məsuliyyətindən azad etməni nəzərdə tutan yeni 74-1-ci maddənin məcəlləyə əlavə edilməsinə baxmayaraq, yeni normadan artıq altı ildən artıq bir müddətdə istifadə edilmir. Məhkəmə təcrübəsində cəzadan azad etmənin yeni institutunun tətbiq edilməməsi, hazırki vaxta kimi qanunvericilikdə narkomanlıqdan əziyyət çəkən şəxslərin stasionar qaydada müalicəsi üçün nəzərdə tutulmuş xüsusi müalicə müəssisəsinin təşkil olunmaması ilə əlaqədardır. Sözügedən müəssisənin fəaliyyətə başlaması, birmənalı olaraq AR CM-in 234.1-ci maddəsi ilə məhkum edilən və penitensiar müəssisələrdə cəza çəkən məhkumların sayının azalmasına kömək göstərə bilərdi.

Məhkəmələr tərəfindən təyin edilən azadlıqdan məhrum etmə cəzasının müddəti də müəyyən suallar doğurur. Aydındır ki, uzunmüddətli azadlıqdan məhrum etmə ilə bağlı hökmlər penitensiar müəssisələrdə saxlanılan şəxslərin sayının artımına zəmin yaradır. Avropa dövlətlərindən fərqli olaraq, Azərbaycan Respublikasının məhkəmə təcrübəsində qısamüddətli azadlıqdan məhrum etmə ilə bağlı hökmlərə çox az sayda rast gəlinir. 2020-ci il üzrə SPACE I məlumatına əsasən Azərbaycan Respublikasının penitensiar müəssisələrində saxlanılan məhkumların yalnız 12,6 %-i bir ildən üç ilədək müddətə azadlıqdan məhrum edilmişlər. Eyni zamanda, 39,9 % məhkumlar üç ildən beş ilədək, 32,7 %-i isə, beş ildən on ilədək müddətə azadlıqdan məhrum olunmuşlar. Azadlıqdan məhrum etmənin istinad edilən sonuncu iki müddəti Avropa Şurasına üzv dövlətləri ilə müqayisədə kifayət qədər yüksəkdir.

Yuxarıda qeyd olunduğu kimi, son illərdə məhkəmələr tərəfindən cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə institutunun tətbiqi xeyli artmışdır. Belə ki, 2021-ci illə müqayisədə 2023-cü

ildə penitensiar müəssisələrdən cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş məhkumların sayı 2,8 dəfə çox olmuşdur. Lakin təhlil göstərir ki, böyük artıma baxmayaraq, sözügedən əsasla azadlıqdan məhrum etmə yerlərindən azad etmə AR CM-in 76-ci maddəsində nəzərdə tutulan cəza müddətinin faktiki olaraq yarısı, üçdə iki və ya dörddə üç hissəsi çəkildikdən sonra deyil, daha uzun müddətlərdən sonra, bəzən cəza müddətinin sonuna cəmi bir ay və yaxud həftə qaldıqda baş verir. Məhkumun cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsinə, cəza müddətinin başa çatmasına hətta bir və ya iki gün qalmış tətbiqi hallarına da rast gəlinir.

Cinayət qanununda nəzərdə tutulmuş müvafiq imkana, habelə dövlət başçısının 10 fevral 2017-ci il tarixli Sərəncamındakı tövsiyəsinə baxmayaraq, əvvəlki illərdə olduğu kimi AR CM-in 77-ci maddəsində təsbit edilmiş cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza ilə, o cümlədən azadlıqdan məhrum etmənin alternativlərlə əvəz edilməsi institutu, demək olar ki, tətbiq olunmur. Yuxarıda qeyd olunanlarla bağlı, çoxsaylı Avropa dövlətlərindən fərqli olaraq, Azərbaycan Respublikasının penitensiar müəssisələrindən hər il azad edilənlərin faktiki olaraq üçdə birindən çoxu cəza müddətinin başa çatması ilə əlaqədar cəza yerini tərk edirlər. Belə ki, 2021–2023-cü illərdə məhkumların 32 %-dən çoxu cəza müddətinin başa şatması ilə bağlı azadlığa çıxmışdır.

**5. Vəkillik institutunun məhkəmə qərarlarının qəbulunda az səmərəli fəaliyyəti, cinayət işlərinə baxılması prosesində onların lazımi nüfuzunun olmaması**.

Azərbaycan Respublikasında son illərdə vəkillik institutunun inkişafı və işinin təkmilləşdirilməsi ilə əlaqədar kompleks tədbirlər görülmüşdür. Birincisi, “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Qanun qəbul edilmiş, bu sənədə uyğun olaraq qeyri-dövlət, müstəqil, özünü idarə edən və bütün vəkillərin daxil olduğu Vəkillər kollegiyası yaradılmışdır. Ölkənin məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsi və modernləşdirilməsi ilə baglı tədbirlər çərçivəsində, vətəndaşların yüksək keyfiyyətli hüquqi yardım al-

maq hüququnun həyata keçirilməsi, insan hüquq və azadlıqların etibarlı müdafiəsi və ədalət mühakiməsinin səmərəli fəaliyətinin təmin olunması və vəkilliyin inkişafına dəstək göstərilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti 22 fevral 2018-ci il tarixli "Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" xüsusi sərəncam imzalamışdır. Həmin sərəncama uyğun olaraq vəkilliyin normal fəaliyyətinin təmin edilməsi, infrastrukturunun yaxşılaşdırılması, onlara, o cümlədən regional məhkəmələrdə müvafiq binaların, yerlərin ayrılması, maddi-texniki təminatlarının gücləndirilməsi, Vəkillər kollegiyasına namizədlərin qəbulu qaydasının təkmilləşdirilməsi ilə bağlı tədbirlər görülmüşdür. Vəkilin xidmətlərini ödəmək üçün kifayət qədər vəsaiti olmayan şəxslərə dövlət hesabına göstərilən hüquqi yardıma görə müəyyən edilmiş məbləğ üç dəfə artırılmışdır. Nəticədə, 2017-ci illə müqayisədə vəkillərin və vəkillik bürolarının sayı təxminən üç dəfə artmış, əsasən gənclərin hesabına kadr potensialı möhkəmləşdirilmiş, müntəzəm olaraq onlar üçün ixtisasartırma kursları kecirilir, 2023-cü ilin oktyabrında isə, Vəkillik Akademiyası yaradılmışdır. Lakin həyata keçirilmiş islahatlara, yaxşı imkanların olmasına baxmayaraq, hesab edirik ki, vəkillik instututu hələ tam gücü ilə işləmir, kifayət qədər nüfuza malik deyil və buna görə də hazırda cinayət mühakiməsinin həyata keçirilməsi prosesində azadlıqdan məhrum etmə növündə cəzanın tətbiqinin azaldılması və ya məhdudlaşdırılması işində zəif pol oynayır.

**6. Araşdırılan sahədə yaranmış vəziyyətin səbəbləri, müsbət dəyişikliklərə nail olunması ilə bağlı təklifləri özündə ehtiva edən xüsusi, mükəmməl elmi tədqiqatların, hərtərəfli analitik araşdırmaların mövcud olmaması**.

Son illərdə bilavasitə dövlətin cinayət-hüquqi siyasəti, onun mahiyyəti, cinayət-hüquqi xarakterli tədbirlərin tətbiqi tendensiyaları, məhkəmələrin böyük ictimai təhlükə törətməyən, az ağır cinayətlərə sərt cavabının səbəbləri, onlar tərəfindən azadlıqdan məhrum etmənin sabit olaraq yüksək tətbiqi, məhkumun cəmiy-

yətdən təcrid edilməsi ilə əlaqədar olmayan cəzalara zəruri inamın olmaması ilə bağlı müvafiq nəticələri, habelə mövcud reallıqlara və xarici təcrübəyə istinad ediməklə hazırlanmış təklifləri özündə cəmləşdirən aidiyyəti dövlət strukturlarının məzmunlu analitik təhlillərinə, elmi müəssisələrin fundamental araşdırmalarına, habelə sözügedən məsələlərə həsr olunmuş dissertasiyalara çox nadir hallarda rast gəlinir. Azərbaycan Respublikasında hakimlərin, hüquqmühafizə orqanlarının əməkdaşlarının, vəkillərin, alimlərin, ictimai təşkilatların nümayəndələrinin istirakı ilə yuxarıda göstərilən problemlərə həsr olunmuş elmi diskussiyalar, dayirmi masalar, müşavirələr, habelə beynəlxalq tədbirlər hələ az keçirilir.

**7. Medianın sözügedən sahədə zəif rolu, cəzaların icrası ilə əlaqədar məhkəmə təcrübəsinə, o cümlədən məhkəmələr tərəfindən azadlqdan məhrum etmə cəzasının geniş tətbiqinə həsr edilmiş mövzulara az maraq göstərilməsi, alternativlərin tətbiqinin vacibliyinın və cəmiyyət üçün faydalı olması ilə əlaqədar ətraflı müzakirələrin aparılmaması**.

Medianın inkişafı ilə bağlı məsələlərə xeyli diqqət ayrılmasına və mövcud problemlərinin həllinin dövlətin daimi nəzarətində olmasına, müstəqil və səmərəli fəaliyyət üçün müvafiq qanunvericilik bazasının, bu sahədə özünüidarə orqanının yaradılmasına, hökumət tərəfindən maddi və digər köməyin göstərilməsinə baxmayaraq, təəssüflər olsun ki, apaşdırılan məsələyə zəruri maraq göstərilmir. Kütləvi informasiya vasitələrindən cəmiyyətdə məhkəmələr tərəfindən azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaların tətbiqinə konstruktiv münasibətin formalaşması istiqamətində hələ kifayət qədər istifadə olunmur. Media müstəqil olaraq, yaxud maraqlı orqanların cəlb edilməsi ilə məhkəmələrin cəzaların tətbiqi ilə bağlı fəaliyyəti, azadlıqdan məhrum etmənin növündə cəzanın təyininin geniş vüsət almasının səbəbləri ilə əlaqədar ictimai dinləmələr, diskussiyalar təşkil etmir.

**8. Azadlıqdan məhrum etmə növündə cəzanın mənfi fəsadları ilə əlaqədar əhalinin hüquqi maarifləndirilməsinin tam səmərəli olmaması və yaranmış vəziyyətin dəyişdirilməsi üçün**

**zəruru ictimai dəstəyin yoxluğu**.

Əhalinin, o cümlədən dövlətin cinayətlərə reaksiyası ilə əlaqədar görülən tədbirləri ilə bağlı hüquqi maarifləndirilməsi işini hələ də kifayətləndirici hesab etmək olmaz. Cəmiyyətin, vətəndaşların məhkəmələrin cəzaların, o cümlədən azadlıqdan məhrum etmə növündə cəzanın tətbiqi ilə bağlı münasibətinin öyrənilməsi məqsədilə sorğular keçirilmir, onlarla bağlı məlumat xarakterli materiallar, habelə aidiyyəti mövzuda ədəbiyyat dərc olunmur.

**9. Məhkəmə təcrübəsinə, azadlıqdan məhrum etmə ilə bağlı prosessual tədbirlərin və cəzaların tətbiqinə təsir edə bilən tam nüfuza malik ictimai rəyin olmaması**.

Bir sıra Avropa dövlətlərindən fərqli olaraq, Azərbaycanda ədalət mühakiməsinin həyata keçirilməsinə, o cümlədən cəzaların tətbiqinə vahid ictimai rəyin yaradılması məsələsi həllini tapmamışdır, halbuki bunun üçün dövlət tərəfindən bütün zəruri imkanlar yaradılmışdır. Qeyd olunmalıdır ki, dövlətdə bu və ya digər problem üzrə, o cümlədən cinayətkarlıqla mübarizə və ədalət mühakiməsinin həyata keçirilməsi ilə əlaqədar güclü ictimai rəyin mövcudluğu, onlara hakimiyyət tərəfindən yüksək diqqətin cəlb olunmasına, habelə, birinci növbədə oyrənilməsinə və həlli ilə bağlı zəruri tədbirlərin görülməsinə zəmin yaradır.

**Nəhayət sonuncu**. Azərbaycan Respublikasında 2007-ci mayında xüsusi qanun qəbul edilməsinə, müvafiq tədbirlər görülməsinə baxmayaraq, penitensiar müəssisələrdən azad edilmiş şəxslərin azadlıqdakı sərbəst həyata uğurlu uyğunlaşdırılması və reinteqrasiyası ilə əlaqədar tədbirlər həmişə gözlənilən nəticəni vermir. Yekunda, hər il qeydə alınan residiv cinayətkarlıq, istər azadlıqdan məhrum edilmiş şəxslərin, istərsə penitensiar müəssisələrdə saxlanılan məhkumların sayının artmasına zəmin yaradır. Belə ki, rəsmi statistikaya əsasən 2020–2022-ci illərdə ölkə məhkəmələri tərəfindən məhkum edilmişlərin orta hesabla 20 %-i məhkumluğu olan şəxslər olmuşdur.

Yuxarıda sadalanan səbəblər əsasında aparılmış təhlillərə istinadən fikirləşirik ki, nəzərdən keçirdiyimiz məsələ ilə əlaqədar

Azərbaycan Respublikasında aidiyyəti dövlət oqanlarının vahid, razılaşdırılmış mövqeyi hələ formalaşmamış, habelə məsələnin tənzimlənməsi üzrə dövlət və ictimaiyyət arasında müvafiq razılığın əldə olunması ilə də bağlı dialoq aparılmır.

Lakin, azadlıqdan məhrum etmə yerlərində məhkumların sayının artmasını şərtləndirən səbəblərə, həbsxana əhalisinin azalmasına və alternativ cəzaların tətbiqinin genişləndirilməsinə mane olan mövcud çətinliklərə baxmayaraq, Azərbaycan Respublikasında sözügedən problemin mərhələli və uğurlu həlli üçün olduqca əlverişli şərait mövcuddur.

**Birincisi**, dövlət başçısının daimi diqqəti və onun rəhbərliyi ilə uğurla həyata keçirilmiş fundamental islahatlar nəticəsində Azərbycan Respublikasında beynəlxalq tanınmaya malik müasir, müstəqil və üçpilləli məhkəmə sistemi yaradılmışdır. Qeyd olunmalıdır ki, Avropa Şurası, Avropa Birliyi və digər nüfuzlu beynəlxalq təşklilatlar tərəfindən Azərbaycanın ədalət mühakiməsinin inkişafı və təkmilləşdirilməsi sahəsindəki təcrübəsi nümunə kimi Avropa ölkələrinə tövsiyə edilmişdir. Məhkəmə sistemində əldə olunmuş uğurlara, məhkəmələrin fəaliyyətinin təşkili və ədliyyə mühakiməsinin həyata keçirilməsi ilə bağlı innovativ və səmərəli layihələrinin icrası işindəki uğurlara görə Azərbaycan Respublikası Avropa Şurasının ədalət mühakiməsi üzrə "Ədliyyənin Kristal Tərəzisi" mükafatına layıq görülmuşdir.

**İkincisi**, ölkədə məhkəmələrin fəaliyyətini tənzimləyən, beynəxalq normalara əsaslanan yeni hüquqi baza yaradılmışdır. 28 dekabr 2004-cü ildə qəbul edilmiş qanuna uyğun olaraq ölkədə məhkəmə sisteminin təşkilinin, hakimlərin və məhkəmə sisteminin müstəqilliyinin təmin edilməsi, vakant hakim vəzifələrinə namizədlərin seçilməsinin təşkili, məhkəmələr və hakimlərlə bağlı digər məsələləri səlahiyyəti daxilində həll edən məhkəmə hakimiyyətinin özünüidarə funksiyalarını həyata keçirən müstəqil, daimi fəaliyyət göstərən orqan–Məhkəmə-Hüquq Şurası yaradılmışdır.

**Üçüncüsü**, son bir neçə ildə ölkədə yeni, gənc və tam hazırlıqlı

hakim korpusu formalaşdırılmışdır. Məhkəmə-Hüquq Şurasının 12 yanvar 2023-cü il tarixli məlumatına əsasən fəaliyyət göstərən hakimlərin 80 %-dən çoxu 10 iyun 1997-ci il tarixli "Məhkəmələr və hakimlər haqqında" Qanunun tələblərinə uyğun təyin edilmişlər. Vakant vəzifələrə təyin edilmiş yeni nəsil hakimlər, kifayət qədər ciddi və çoxmərhələli seçimdən keçmiş, azadlıqdan məhrum etmə yerlərində saxlanılan şəxslərin sayı ilə bağlı problemlərə dair mövzular da daxil olmaqla, uzunmüddətli tədris kurslarına cəlb edilmiş, onlar İnsan hüquqları uzrə Avropa Məhkəməsinə, İşgəncələrə qarşı Avropa Komitəsinə baş çəkmiş, xarici ölkələrinin məhkəmə təcrübəsi ilə tanış olmuşlar. Yeni hakimlər ədalət mühakiməsinin həyata keçirilməsi ilə bağlı BMT, Avropa Şurası kimi beynəlxalq təşkilatların, habelə onların orqanlarının tövsiyələri ilə əlaqədar zəruri biliklərə yiyələnmiş, habelə hüquqpozucuları ilə davranışa dair əsas beynəlxalq aktlarları ətraflı öyrənmişlər.

Son illər ərzində, xüsusilə Azərbaycan Respublikası Prezidentinin ədliyyə orqanlarının inkişafina dair 2009-cu və 2018-ci illərdə təsdiq etdiyi iki beşillik dövlət proqramları çərçivəsində məhkəmələrin və hakimlərin təminatlarının yaxşılaşdırılmasına yönəlmiş kompleks tədbirlər həyata keçirilmişdir. İlk növbədə, vətəndaşların ədalət mühakiməsinə çatımlığının yaxşılaşdırılması məqsədiə yeni müxtəlif instansiya məhkəmələri yaradılmışdır. 13 fevral 2023-cü il tarixdə Azərbaycan Respublikasının Ali Məhkəməsinin yüz illiyinə həsr olunmuş beynəlxalq konfransda çıxış edən sabiq ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri F. Məmmədov qeyd etmişdir ki, Beynəlxalq valyuta fondunun iştirakı ilə ölkənin məhkəmə sisteminin modernləşdirilməsi layihəsi çərçivəsində infrastruktur əhəmiyyətli dərəcədə yenilənmış, paytaxtda və regionlarda otuz beş müasir, konseptual baxımdan yeni, yüksək texnoloji imkanlara malik rayon (şəhər) məhkəmələri, ölkənin Ali Məhkəməsinin yeni binası və müxtəlif növ məhkəmələrdən ibarət olan komplekslər inşa olunaraq istifadəyə verilmişdir. Digər məhkəmə binalarında da təmir və rekonstruksiya işləri aparılmış və zəruri infrastruktur təşkil edilmişdir.

Ölkə Prezidentinin 13 fevral 2014-cü il tarixli Sərəncamına uyğun olaraq, ədalət mühakiməsinin səmərəliyinin əhəmiyyətli dərəcədə artırılmasına, məhkəmələrə müraciətlərin və çatımlığın sadələşdirilməsinə, şəffaflığın artırılmasına, sui-istifadə hallarının, pozuntuların qarışının alınmasına imkan yaradan "Elektron məhkəmə informasiya sistemi" istifadəyə verilmişdir. Azərbaycan Respublikası Prezidentinin 3 aprel 2019-c il tarixli Fərmanı ilə fəaliyyətin və iş yükünün daha optimal şəkildə qurulması, ədalət mühakiməsinin keyfiyyətinin yüksəldilməsi və məhkəmələrdə işlərə baxılma müddətlərinin qısaldılması məqsədilə, ölkənin məhkəmə sisteminə daxil olan hakimlərinin ümumi sayı daha 200 nəfər artırılmışdır. Hakimlərin, məhkəmə aparatlarının işçilərinin sosial müdafiəsi möhkəmləndirilmiş və onların əmək haqqları əhəmiyyətli dərəcədə artırılmışdır. Hakimlərin müstəqilliyinin təmin olunmasının, onların fəaliyyətinə müdaxilələrin qarşısının alınmasının yeni mexanizmləri hazırlanmış, həmin qeyri-qanuni əməllərə görə məsuliyyət gücləndirilmişdir.

Müstəqillik illərində Azərbaycan Respublikasının Ali Məhkəməsinin Plenumunun məhkəmələr tərəfindən cəzaların təyin edilməsinə dair bir neçə qərarı qəbul edilmişdir. Belə ki, hələ 30 dekabr 1997-ci il tarixdə qəbul edilmiş "Məhkəmələr tərəfindən cəza təyin etmənin ümumi prinsiplərinin tətbiq olunması təcrübəsi haqqında" qərarda qanunda təsbit olunan prinsiplərə məhkəmələrin cinayət-hüquqi xarakterli tədbirlərin təyini prosesində riayət edilməsi ilə əlaqədar müvafiq izahlar verilmişdir. Eyni zamanda, həmin qərarda, bəzi hallarda məhkumun islahının, cəmiyyətdən təcrid edilmədən mümkün olması imkanlarına baxmayaraq, məhkəmələrin kifayət qədər əsaslar olmadan azadlıqdan məhrum etmə cəzasının təyin etmələri ilə bağlı narahatçılıq ifadə olunmuşdur.

Bir müddət keçdikdən sonra Ali Məhkəmənin Plenumunun "Məhkəmələr tərəfindən cinayət cəzalarının təyin edilməsi təcrübəsi haqqında" 25 iyun 2003-ci il tarixli qərarı qəbul edimiş, beynəlxalq aktlar, İnsan hüquqları uzrə Avropa Məhkəməsinin qərarları, habelə milli qanunvericilikdə baş vermış dəyişikliklər nəzərə

alınmaqla, 30 aprel 2021-ci il tarixli qərarla təkmilləşdirilmiş, burada qanunların müddəaları daha ətraflı şərh olunmaqla dəqiqləşdirilmiş, ittiham hökmlərinin çıxarılması zamanı dövlət məcburiyyət tədbirlərinin seçilməsi ilə əlaqədar geniş izahlar verilmişdir. Belə ki, həmin Qərarın 2-ci bəndində, məhkəmələrdən səxsin təqsirli bilindiyi maddənin sanksiyası azadlıqdan məhrum etmə ilə yanaşı digər yüngül cəza növləri də nəzərdə tutursa, hökm çıxarılarkən azadlıqdan məhrum etmə cəzası təyin edildikdə, bu qərarın hökmdə əsaslandırılmağı tələb edilir. Habelə, sözügedən Qərarın 3-cü bəndi məhkəmələrə böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətmiş, cəmiyyətdən təcrid edilməsinə ehtiyac olmayan şəxs barəsində işin konkret hallarını, şəxsiyyəti barədə məlumatları nəzərə almaqla, daha yüngül cəza təyin edilməsi məsələsini müzakirə edilməsini tövsiyə etmişdir.

Ali Məhkəmənin Plenumunun 30 aprel 2021-ci il tarixli qərarı ilə “Həbs və ev dustaqlığı qətimkan tədbirlərinə dair müraciətlərə baxılması üzrə məhkəmə təcrübəsi haqqında” 3 noyabr 2009-cü il tarixlı Plenum qərarı nəzərəçarpacaq dərəcədə yeniləndirilmiş, burada məhkəmələr tərəfindən cinayət işləri üzrə ən sərt prosessusal məcburiyyət tədbirinin–həbsin seçilməsinin əsas meyarları dəqiqləşdirilmişdir. Habelə, 24 dekabr 2021-ci il tarixdə Ali Məhkəmənin Plenumu “Məhkəmə hökmü haqqında” yeni qərar qəbul etmişdir. Sözügedən qərarda, İnsan hüquqları uzrə Avropa məhkəməsinin çoxsaylı qərarları nəzərə alınmaqla, cinayət cəzaların, o cümlədən azadlıqdan məhrum etməyə alternativlərin təyin edilməsi üzrə yeni və ətraflı izahlar verilmişdir. Eyni zamanda, həmin qərarda hökmlərin apellyasiya və kassasiya instansiyalarında baxılması ilə əlaqədar məsələlər əsaslı şəkildə təhlil edilmişdir.

Dövlət başçısının 3 aprel 2019-cu il tarixli Sərəncamına uyğun olaraq, ölkənin Ali Məhkəməsi tərəfindən ədalət mühakiməsinin keyfiyyətinin yaxşılaşdırılması, məhkəmələrin hüquqi məsələlərin həllinə yanaşmalarının sabitliyini təmin edilməsi və onların hüquqi mövqeylərinin proqnozlaşdırılması, habelə normativ aktların tətbiqi zamanı vahid məhkəmə təcrübəsinin formalaşdırılması ilə

bağlı fəal tədbirlər görülür. Ötən müddət ərzində Ali Məhkəmənin Plenumu, Cinayət kollegiyası tərəfindən yuxarıda araşdırdığımız problemlərlə ilə bağlı bir neçə qərar qəbul edilmişdir ki, onlarda baxılan məsələlər ölkənin ölkənin Ali Məhkəmə instansiyasının mövqeyi öz əksini tapmışdır. Həmin məqsədlə 2024-cü ilin fevral ayında məhkəmə təcrübəsi üzrə yeni axtarış sistemi də istifadəyə verilmişdir. Bu axtarış sistemi Ali Məhkəmənin Plenum qərarlarına, Kollegiyaların məhkəmə təcrübəsinin vahidliyini təmin edən qərardadlarına, vahid məhkəmə təcrübəsi baxımından əhəmiyyətli olan məhkəmə aktlarına və kassasiya qaydasında, o cümlədən cinayət işləri üzrə baxılmış digər məhkəmə aktlarına əlçatanlığı təmin edir. Axtarış sisteminə sərbəst giriş bütün istifadəçilərə, o cümlədən birinci instansiya məhkəmələrinin hakimlərinə baxılan cinayət işlər üzrə apellyasiya və kassasiya məhkəmələrinin hüquqi mövqeyləri ilə yaxından tanış olmağa imkan yaratmaqla, sözsüz ki, onlar tərəfindən ədalətli, qanunauyğun, obyektiv və əsaslandırılmış hökmlərin qəbuluna köməklik göstərəcəkdir.

Habelə, Avropa ölkələrinin təcrübəsinə istinadən, elektron ədalət mühakiməsinin vahid platformada həyata keçirməyə imkan verəcək "E-justice" platformasının tətbiqi ilə əlaqədar tədbirlər görülür. 2 aprel 2024-cü il tarixdə Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İ. Kərimov Baş Prokurorluq tətəfindən təşkil olunmuş "Rəqəmsal cinayət prosesi: müasir çağırışlar və hədəflər" mövzusunda keçirilən konfransda Ali Məhkəmə və Məhkəmə-Hüquq Şurası tərəfindən hüquq-mühafizə orqanlarının, eləcə də məhkəmə hakimiyyətinin işinə önəmli töhfə vermək məqsədilə dövlət orqanlarının qarşılıqlı elektron fəaliyyətini özündə əks etdirən yeni bir konsepsiya hazırlanması barədə məlumat vermişdir. Həmin platforma ədalət mühakiməsinə əlçatanlığın asanlaşmasına və səmərəliliyinin artırılmasına, vətəndaş məmnunluğunun yüksəldilməsinə, eləcə də vahid platforma üzərindən elektron ədalət mühakiməsinin həyata keçirilməsinə xidmət edəcəkdir. "Elektron ədalət mühakiməsi" sistemi mülki, kommersiya, inzibati, cinayət və inzibati xətalara dair işlər üzrə icraatın rəqəmsallaş-

masını təmin edən mərkəzləşdirilmiş bir platforma rolunu oynayacaqdır.

**Dördüncüsü**, yuxarıda qeyd olunduğu kimi, son illərdə, xüsusilə 2017 və 2019-cu illərdə, ölkənin cinayət, cinayət-prosessual qanunvericilikləri azadlıqdan məhrum etməyə alternativlərin, cinayət məsuliyyətindən və cəza çəkməkdən azad etmə institutlarının geniş tətibqinə imkan yaratmaqla, əhəmiyyətli dərəcədə humanistləşdirilmişdir.

**Beşincisi**, cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan cəzaların icrasına effektiv nəzarətin təşkili, bu sahədə idarəetmənin səmərəliliyinin artırılması məqsədilə yeni hüquqi təsisat–Azərbaycan Respublikası Ədliyyə nazirliyinin Probasiya xidməti yaradılmış və bu qurum altı ildən artıq bir müddətdə qanunvericiliklə üzərinə qoyulmuş vəzifələri uğurla yerinə yetirir. Burada 20 yanvar 2010-cu il tarixli Avropa probasiya qaydalarını xüsusilə qeyd etmək istərdik. Həmin qaydalarda göstərilir ki, Probasya xidməti dövlətin ədalət mühakiməsi sisteminin əsas qurumlarından biridir və onun fəaliyyəti azadlıqdan məhrum etmə yerlərində saxlanılan şəxslərin sayının azalmasına müsbət təsir göstərir. Strukturunun, fəaliyyətinin təkmilləşdirilməsi və ştat vahidlərinin artırılması təqdirində, Probasiya xidməti azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzalara məhkum edilmiş şəxslərin sayının artımı ilə bağlı yarana biləcək əlavə xidməti yükü də lazımınca yerinə yetirə bilər.

**Altıncısı**, dövlətin adından ifadə edilən dövlət başçısının möhkəm iradəsi, onun məhkəmə sisteminə və fəaliyyətinə daimi dəstəyi, habelə ölkə Prezidentinin 10 fevral 2017-ci və 3 aprel 2019-cu il tarixli müvafiq xüsusi Sərəncamı və Fərmanı mövcuddur.

Yuxarıda göstərilənlərə istinadən, azadlıqdan məhrum etmənin təyini təcrübəsinin, Azərbaycan Respublikasında həbs yerlərində saxlanılan şəxslərin və penitensiar müəssisələrdəki məhkumların sayının azaldılması məqsədilə, cəmiyyətdən təcrid edilməklə əlaqədar olmayan alternativ cəzaların tətbiqi üzrə BMT-nin, Avropa Şurasının qəbul etdikləri beynəlxalq aktların tövsiyələrini, xarıcı

dövlətlərin qanunvericiliklərini və müsbət praktikasını nəzərə alaraq, habelə bizim əvvəlki təkliflərimizə diqqət yetirməklə, aşağıdakıların nəzərdən keçirilməsini məqasədəuyğun hesab edirik.

**1.** Cinayət icraatında iştirak edən bütün aidiyyatı orqanlar tərəfindən qətimkan tədbirlərinin və cəzaların tətbiqi ilə əlaqədar qanunvericiliyə dönmədən riayət etmək, Azərbaycan Respublikası Prezidentinin yuxarıda göstərilən, uzun müddətə hədəflənə, müvafiq sərəncam və fərmanından irəli gələn tələb və tövsiyələrini dəqiq yerinə yetirmək, habelə ölkənin Ali Məhkəməsi Plenumunun müvafiq qərarlarındakı izahları nəzərə almaq vacibdir.

**2.** Məhkəmə təcrübəsində təqsirləndirilən şəxslərin və məhkumların cəmiyyətdən təcrid edilməsi ilə əlaqədar olmayan alternativlərdən fəal istifadə olunması, habelə AR CM, AR CPM-də nəzərdə tutulmuş cinayət məsuliyyətindən və cəzadan azad edilmə institutlarının geniş tətbiqi zəruridir. Habelə, uzun müddət ərzində hərəkətsiz qalmış cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsi institutundan (AR CM-in 77-ci maddəsi) da istifadəyə başlamaq lazımdır.

**3.** Xarici dövlətlərinin cinayət məcəllələrindəki normalar da nəzərə alınmaqla, cinayət məsuliyyətindən və cəzadan azad etmə institutlarının təkmilləşdirilməsi ilə bağlı cinayət qanununa dəyişikliklər edilməsi məqsədəuyğun olardı. Bu məqsədlə təklif edirik:

– AR CM-də cinayət törətmiş şəxslərin, müvafiq şərtlərlə və təqsiri etiraf etməklə azad edilməsi ilə bağlı mövcud həvəsləndirici normaların artırılması imkanlarını bir daha hərtərəfli nəzərdən keçirmək. Göstərilən normaların hökm çıxarıldıqdan sonra, habelə cəzanın icrası mərhələsində də tətbiqinin mümkünlüyünü öyrənmək;

– məhkəmələr tərəfindən şərti məhkum etmənin tətbiqi təcrübəsinin artırılması məqsədilə, həmin cinayət-hüquqi institutun təyini əsaslarını qanunda konkretləşdirmək lazımdır. Eyni zamanda, AR CM-in 70-ci maddəsinin məhkəmələr tərəfindən tətbiqinə eyni yanaşmanı təmin edilməsi üçün Azərbaycan Respublikasının

Ali Məhkəməsinə ümimiləşdrmə yolu ilə vahid məhkəmə təcrübəsini formalaşdırmaq və ya şərti məhkum etmə ilə əlaqədar xüsusi izahları özundə ehtiva edən Plenumun xüsusi qərarını qəbul etmək lazımdır;

– cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə (AR CM 76-ci maddəsi) və cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz etmə (AR CM-in 77-ci maddəsi) institutlarının məzmununun humanistləşdirilməsini davam etdirmək və onların tətbiq dairəsini genişləndirmək;

– AR CM-in 74-1-ci maddəsinin müddəalarının təcrübədə tətbiqi məqsədilə xüsusi tibb müəssisəsinin – narkomaniya xəstəliyindən əziyyət çəkən və məhkəmə tərəfindən barəsində tibbi xarakterli məcburi tədbirlər tətbiq edilməklə, AR CM-in 234-cü maddəsi ilə nəzərdə tutulmuş cinayət məsuliyyətindən azad edilmiş şəxslərin müalicəsi üçün nəzərdə tutulan stasionarın qısa müddətdə istifadəyə vermək;

– cəzanın çəkilməsinin təxirə salınması institutunun təyin edilməsi dairəsinin genişləndirilməsinin, o cümlədən, onun böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə məhkum edilmiş şəxslərə, habelə cəzanın icrası mərhələsində tətbiqinin məqsədəuyğunluğunu nəzərdən keçirmək;

– cinayət məsuliyyətindən və cəzadan azad etmə ilə əlaqədar bərpaedici ədliyyənin, yəni mediasiya institutunun tətbiqi (AR CM-in 73, 73–1, 73–2, 80–1-ci maddələri), yəni zərərçəkmişlə barışmaqla və vurulmuş ziyanı tamlıqla ödəməklə, cinayət məsuliyyətindən və cəzadan azad etmənin təcrübəsinin genişləndirmək, həmin normaların məzmumunu humanistləşdirmək yolu ilə təkmilləşdirilməsi imkanlarını nəzərdən keçirmək;

– amnistiya və əfvetmə institutlarının tətbiqi prosesində istifadə edilən, cəzanın çəkilməmiş hissəsinin azaldılmasının, təyin edilmiş cəza müddətinin bir hissəsi çəkildikdən sonra azadlıqdan məhrum edilmiş məhkumlara da şamil olunması ilə əlaqadar AR CM-ə yeni norma daxil etmək;

– azadlıqdan məhrum edilmiş məhkumların cəza müddətindən

asılı olaraq, cəzaçəkmə müəssisəsindən cəzanın sonuna bir aydan üç aya kimi qaldıqda, məhkəmə qərarı olmadan, lakin nəzarətin, o cümlədən elektron nəzarət vasitələrindən istifadə edilməklə keçirilməsilə şərti ilə azad edilməsi ilə bağlı AR CM-ə və yaxud Cəzaların İcrası Məcəlləsinə yeni norma əlavə etmək;

– hakimlərə təqsirləndirilən şəxsin şəxsiyyətinin xüsusiyyətləri, mənəvi-psixoloji vəziyyəti, sosial, ailə vəziyyəti barədə, habelə cəmiyyətdə davranışı, yaxınlarına, təhsil, əmək fəaliyyətinə münasibəti, habelə, AR CM-in 58-ci maddəsində nəzərdə tutulmuş, təyin olunmuş cəzanın onun ailəsinin həyat şəraitinə təsiri ilə bağlı ətraflı məlumatın təqdim edilməsi məqsədilə, beynəlxalq təcrübədə uğurla tətbiq olunan və 20 yanvar 2010-cu il tarixli Avropa probasiya qaydaları ilə tövsiyə edilən məhkəməyədək məruzə ilə bağlı yeni institututun tətbiqini qanunvericilyə daxil etmək. Cinayət işinə baxılmamışdan əvvəl təqsirləndirilən şəxsi kifayət qədər xarakterizə edən məlumatın alınması, hakimə həmin şəxsi daha yaxsı tanımağa, habelə şəxsiyyətini düzgün qiymətləndirməyə imkan yaratmaqla, hərtərəfli və daha ədalətli hökm çıxarmağa zəmin yarada bilərdi. Təklif edilən yeni institutun icrasını, yəni hakimin sorğusuna əsasən məhkəməyədək məruzənin hazırlanmasını, digər dövlərlərdə olduğu kimi ölkənin Probasiya xidmətinə həvalə etmək olardı. Məhkəməyədək məruzənin tətbiqi məqsədilə AR CPM-ə və "İcra məmurları haqqında" Qanuna dəyişikliklər etmək və yaxud sözügedən institut barədə normalar nəzərdə tutulmuş "Probasiya fəaliyyəti haqqında" qanun layihəsinin qəbulunu sürətləndirmək lazımdır;

– məhkəmələrin alternativ cəzaların azadlıqdan məhrum etmə ilə əvəz edilməsi təcrübəsini azaldılması məqsədilə mövcud müvafiq əsasları humanistləşdirmək, habelə cərimə, islah işləri, azadlığın məhdudlaşdırılması cəzalarının məzmununu və icrası qaydalarını təkmilləşdirmək də vacibdir.

Yuxarıda qeyd olunan təkliflərin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının Cinayət, Cinayət-Prosessual və Cəzaların İcrası məcəllələrinə, habelə bir sıra digər qanunvericilik

aktlarına dəlişikliklər edilməsi zərurəti yaranacaqdır.

Azərbaycan Respublikasında qəbul edilmiş amnistiya və əfvetmə aktlarının uzunmüddətli perspektivdə azadlıqdan məhrum etmə yerlərində saxlanılan şəxslərin sayının əhəmiyyətli dərəcədə azalmasına arzu olunan təsir göstərə bilmədiyindən, biz onların tez-tez tətbiqinin tərəfdarı deyilik. Belə ki, ölkə Prezidentinin 2018–2024-cü illərdə imzaladığı yeddi əfvetmə sərəncamı, habelə parlamentin 2021-ci ilin noyabrında qəbul etdiyi amnistiya aktı, həbs yerlərinin və cəzaçəkmə müəssisələrinin yüklənməsi probleminin həllinə, yəni azadlıqdan məhrum etmə yerlərinin əhəmiyyətli dərəcədə boşaldılmasına böyük töhfə verə bilməmişdır.

**4.** Cinayət icraatı prosesində iştirak edən müəssisə və orqanların (istintaq orqanları, dövlət ittihamı, vəkillik, məhkəmələr) nəzərdən keçirilən problemin mahiyyətinə dərindən nüfuz edərək, mövcud məsələyə yeni yanaşması zəruridir. Bununla əlaqədar:

– ibtidai istintaq dövründə istintaq orqanlarına və prokurorluğa həbs qismində qətimkan tədbirinin yalnız müstəsna və ən vacib hallarda seçilməsi ilə əlaqədar müraciət etmək, alternativlərin, o cümlədən ev dustaqlığının təyini ilə bağlı daha çox vəsatət qaldırmaq məqbul olardı. Məhkəmələrə təqsirləndirilən şəxslər barədə ən sərt qətimkan tədbirinin seçilməsi ilə bağlı verilmiş vəsatətləri diqqətlə və hərtətəfli oyrənmək məqsədəuyğun olardı;

– Baş Prokurorluğa ittiham institutunun azadlıqdan məhrum etmə yerlərində saxlanılan şəxslərin sayının artmasında rolunu diqqətlə təhlil etmək, qanunvericiliyin tələbləri nəzərə alınmaqla, məhkəmələr tərəfindən azadlıqdan məhrum etmə növündə cəzanın həddindən artıq tətbiqinin azaldılmasına müsbət təsir göstərilməsi ilə əlaqədar tədbirlər görmək. Habelə, təqsirləndirilən şəxslərə azadlıqdan məhrum etmə növündə cəzanın təyini ilə bağlı məhkəmərə verilən təkilflərə daha böyük məsuliyyətlə yanaşılması vacibdir;

– vəkillərə azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzaların tətbiqi üzrə hökmlərin qəbuluna daha effektiv təsir göstərilməsi məqsədilə, bu sahədə mövcud xarıci təcrübəni ətraflı öyrənmək

və məhkəmə baxışlarına daha məsuliyyətlə hazırlaşmaq lazımdır. Cinayət işlərinə, xüsusilə böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlər üzrə işlərinə baxılması zamanı, milli qanunvericiliyin tələblərini, ölkənin Ali Məhkəməsinin Plenum qəralarında əks olunmuş mövqeyləri, aidiyyəti beynəlxalq aktların tövsiyələrini nəzərə almaqla, cinayət isinin materialları ilə tanışlıq, təqsirləndirilənin şəxsiyyətinin, ailə vəziyyətinin və digər xüsusatların öyrənilməsi ilə bağlı sonuncunu xarakterizə edən daha pozitiv hallara istinad etməklə, məhkəməni azadlıqdan məhrum etmə əvəzinə alternativlərin və yaxud şərti məhkum etmənin tətbiqinin daha məqbul olmasına inadırmağa çalışmaq lazımdır.

Vəkillər Kollegiyası tərəfindən vəkillərin peşəkarlıqlarının artırılmasına, o cümlədən hakimlərin, prokurorluq əməkdaşlarını cəlb etməklə, onlarla cinayət icraatının son mərhələsinə-təqsirləndirilən şəxs barədə hökmün çıxarılmasına hazırlıqla bağlı müntəzəm olaraq təlimlərin, treniqlərin keçirilməsinə xüsusi diqqət yetirmək çox əhəmiyyətli olardı.

Ölkənin Ali Məhkəməsi, istər məhkəmə təcrübəsinin mütəmadi ümumiləşdirilməsi yolu ilə zəruri izahlar verməklə, istərsə də, müzakirə olunan məsələ ilə bağlı müsbət təcrübəni yaymaqla, bütün instansiya məhkəmələrinin, xüsusilə birinci instansiya məhkəmələrinin azadlıqdan məhrum etmə cəzasına alternativlərin tətbiqinə münasibətinin dəyişdirilməsində müstəsna rol oynamalıdır.

Azərbaycan Respublikasının qüvvədə olan cinayət və cinayət-prosessual qanunvericiliyinin tələblərini, ədalət mühakiməsinin həyata keçirilməsinə dair beynəlxalq aktların tövsiyələrini, habelə cinayət işləri üzrə mövcud məhkəmə təcrübəsini nəzərə alaraq, Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 25 iyun 2003-cü il tarixli "Məhkəmələr tərəfindən cəza təyin etmənin ümumi prinsiplərinin tətbiq olunması təcrübəsi haqqında" Plenumun qərarında müvafiq yeni dəyişiklik edilməsini məqsədəuyğun hesab edirik.

– hüquq-mühafizə fəaliyyətilə əlaqəli dövlət orqanlarına, elmi təşklilatlara, ali təhsil müəssisələrinə məhkəmələr tərəfindən cə-

zaların, xüsusilə azadlıqdan məhrum etmənin və ya ona alternativlərin tətbiqi, həbsdə saxlanma yerlərinin və penitensiar müəssisələrin yüklənməsinin səbəblərinin müəyyən olunması, cəzaları icra edən müəssisə və orqanların işinin təşkili, məhkumların müxtəlif əsaslarla cəzadan azad edilməsi ilə əlaqədar təkliflərin verilməsi nəzərdə tutulmaqla, müvafiq analitik, elmi araşdırmaların, habelə dissertasiya tədqiqatlarının aparılmasını planlaşdırmaq yaxşı olardı.

Göstərilənlərlə əlaqədar, ölkədə qətimkan tədbirlərinin, cəzaların tətbiqi, onların bütün növləri, habelə həbs edilmiş şəxslərin və məhkumların sayı, tərkibi barədə, habelə hər il Avropa Şurasına SPACE I и SPACE II hesabatlarına daxil edilmək üçün təqdim olunan məlumatlar da daxil edilməklə, mövcud məhkəmə statistikasını təkmilləşdirmək məqsədəuygun hesab olunur.

**5.** Residiv cinayətkarlığın profilaktikası və səviyyəsinin azaldılması məqsədilə, penitensiar müəssisələrdən azad edilmiş şəxslərin sosial adaptasiyası üzrə fəaliyyəti yaxşılaşdırmaq, bu vacib sahəyə məsul olan orqanlar arasında koordinasiyanı möhkəmləndirmək zəruridir. Bu sahədə fəaliyyətə qeyri-hökumət təşkilatlarını daha fəal cəlb etmək, sosiallaşma və azad həyata reinteqrasiya ilə əlaqədar problemləri olan sabiq məhkumlara xüsusi diqqət yetirmək lazımdır.

**6.** Ölkə əhalisində məhkəmələrin cəzalarının tətbiqi sahəsindəki fəaliyyəti ilə bağlı mövzulara marağın yaradılması, azadlıqdan məhrum etmə cəzasına alternativlərin tətbiqinin zəruriliyi və əhəmiyyəti ilə əlaqədar geniş müzakirələrin təşkili işində medianın rolunu gücləndirmək lazımdır. Törədilmiş cinayətləri ətraflı təsvir edərək, cəmiyyətdə gərginliyin artmasına yol verilməsinin, konkret cinayət işləri üzrə sərt cəzaların tətbiqi məqsədilə məhkəmələrə təsir etmək cəhdlərinin, habelə müxtəlif ictimai təhlükəli əməllərdən asılı olmayaraq, onları törətmiş bütün şəxslərə əhali arasında mənfi münasibətin formalaşmasının qarşısını qətiyyətlə almaq lazımdır.

**7.** Zəruri ictimai dəstəyin əldə edilməsi məqsədilə əhalinin hü-

quqi maarifləndirilməsi işini daha səmərəli qaydada təşkil etmək və daha maraqlı aparmaq, bu zaman azadlıqdan məhrum etmə növündə cəzanın tətbiqinin mənfi nəticələrini, habelə həmin cəzaya alternativ cəzaların tətbiqinin mahiyyətini və cəmiyyət üçün faydalarını göstərmək lazımdır. Habelə, cinayət işləri üzrə məhkəmə təcrübəsi ilə bağlı effektiv və obyektiv ictimai rəyin yaradılmasına xüsusi diqqət ayırmaq vacibdir.

Eyni zamanda, yuxarıda göstərilən təkilflərimizlə əlaqədar peşəkar ictimai müzakirənin təşkil edilməsini faydalı və məqsədəuyğun hesab edirik. Təkliflərimizin, imkan daxilində kompleks şəkildə, təşviqatsız, bütün maraqlı tərəfləri yaxından əlaqələndirməsi şəraitində həyata keçirilməsi çox vacibdir.

Habelə, azadlıqdan məhrum etmə cəzasının, dövlətin ağır və xüsusilə ağır cinayətlərə daha ədalətli və səmərəli reaksiyası kimi qalmasının vacibliyi, habelə qanunvericilik səviyyəsində sözügedən cinayətlərə görə müəyyən edilmiş cəzadan daha yüngül cəza təyin edilməsinin (AR CM-in 62-ci maddəsi) və şərti məhkum etmənin (AR CM-in 70-ci maddəsi) tətbiqinin məhdudlaşdırılması ilə bağlı bir qrup alimlərin, o cümlədən professor Ş. Səmədovanın mövqeyi ilə də razıyıq. Ş.Səmədova hesab edir ki, alternativ sanksiyalar yalnız az ağır cinayətlərə və zoraklıqla əlaqədar olmayan ağır cinayətlərə görə mümkündür. Represiv cəza tədbirlərinə qənaət məqsədilə AR CM-də zorakılıqla bağlı olmayan və ehtiyatsızlıqdan törədilmiş cinayətlərə görə azadlıqdan məhrum etmə cəzasının məhkumun razılığı ilə cərimə ilə əvəz ediilməsinə yol verilməsi ilə bağlı norma nəzərdə tutulması lazımdır. Yuxarıda göstərilənlər dəlillərlə ümumən razılaşmaqla, hesab edirik ki, böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə azadlıqdan məhrum etməni daha qənaətlə və böyük ehtiyatla tətbiq etmək lazımdır.

Yekunda qeyd etmək istərdik ki, yuxarıda göstərilən təkliflər, yaranmış vəziyyətə bizim baxışlarımızı və mümkün həll yollarını əks etdirir. Eyni zamanda, biz heç də real vəziyyətin süni şəkildə dəyişdirilməsinə, məhkəmələrin, məhkəmə prosesi iştirakçılarının

fəaliyyətinə müdaxiləyə və yaxud nəzarətə götürülməsinə, dövlətin, vətəndaşların, xüsusilə də, cinayət qurbanlarının maraqlarının nəzərə alınmamasına dəvət etmirik. Biz, habelə bu çox həssas və mürəkkəb sahədə tələsik qərarların və əsaslandırılmamış addımların da tərəfdarı deyilik.

Eyni zamanda, hesab edirik ki, reaksiya vermək vaxtı artıq yetişmişdir, mövcud vəziyyəti müsbətə doğru dəyişməyə səylər göstərilməli, törədilmiş cinayətin xarakteri və ictimai təhlükəlilik dərəcəsindən asılı olaraq məsuliyyət və cəza məsələlərinin ağlabatan, balanslaşdırılmış və optimal həlli yollarını tapmağa çalışmalıyıq. Bunu etmək çox çətin və mürəkkəb olsa da, eyni zamanda Azərbaycan Respublikasında ölkə başçısının güclü iradəsi və dəstəyi, habelə lazımi imkan və şərait, eləcə də, taleyuklü problemlərin həlli ilə əlaqədar gözəl ənənələr mövcuddur. Belə ki, Azərbaycan Respublikasında müstəqilliyin əldə edildiyi otuz ildən artıq bir müddətdə dövlət başçısının uğurlu daxili və xarici siyasəti sayəsində hökuməti və onun vətəndaşlarını narahat edən bir çox siyasi, sosial, iqtisadi, humanitar və digər problemlər öz müsbət həllini tapmış, ölkənin ərazi bütövlüyü tamlıqla bərpa edilmiş, insanların həyatında bir çox mühüm və müsbət dəyişikliklərə nail olunmuşdur. Əminik ki, müzakirə etdiyimiz sahədəki vəziyyəti də yaxşılığa dəyişmək olar.

Sonluqda vurğulamaq istərdik ki, azadlıqdan məhrum edilmiş şəxslərin sayının azaldılması, onlarla bağlı problemlərin həlli və baxılan sahədə vəziyyətinin yaxşılaşdırılması ilə yanaşı, dövlət büdcəsindən ayrılan xeyli maliyyə vəsaitinə qənaət etməyə imkan verə bilər ki, bu da hazırda Azərbaycan Respublikasının işgaldan azad edilmiş ərazilərində aparılan genişmiqyaslı bərpa işlərinə köməklik göstərilməsinə yönəldilə bilərdi.

***İstinad edilmiş mənbə:***

***Yournal Annali d’Italia, Italiy. 2024. № 56, C. 12–24.***

## Azərbaycan Respublikasında şərti məhkum etmə: tətbiqi və təkmilləşdirilməsi yolları

Həyata vəsiqə aldığı ilk gündən şərti məhkum etmə institutu, təyin edilmiş cəzanın, müəyyən şərtlər qoyulmaqla, real çəkilməməsi üçün məhkuma verilən bir imkan kimi xarakterizə edilir. Adı, məzmunu, tətbiqi qaydasındakı fərqlərlə bağlı elmi müzakirələrdən yayınaraq, lakin eyni zamanda, çoxsaylı alimlərin fikirlərini nəzərə alaraq belə hesab edirik ki, şərti məhkum etmə dövlətin məhkuma göstərdiyi etimadda ifadə olunan humanizmin xüsusi bir formasıdır. Məhkum da öz növbəsində həmin etimadı hökmlə müəyyən edilmiş sınaq müddətində qanuna itaətli davranışla, üzərinə qoyulmuş vəzifələri dürüst və vicdanla yerinə yetirməklə doğrultmalıdır. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi 8 dekabr 2021-ci il tarixli "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 18-ci maddəsinin həmin Məcəllənin 70 və 79-cu maddələri baxımından şərh edilməsinə dair" Plenum Qərarında şərti məhkum etməni, cəzanın icrasının xüsusi forması və cinayət məsulliyətinin realizə olunmasının güzəştli növü hesab etmişdir ki, biz də belə yanaşmanı tam düzgün hesab edirik.

Şərti məhkum etmə Azərbaycan SSR-nin 1922, 1927, 1960-ci illərin Cinayət Məcəllələrində nəzərdə tutulmuş, müvafiq dövrlərdə ölkədə həyata keçirilən cinayət-hüquq siyasətinə uyğun olaraq məhkəmələr tərəfindən tətbiq edilirdi. Azərbaycan SSRİ-nin tərkibində olduğu zaman, xüsusilə XX əsrin 80-cı illərində, şərti məhkum etmə ümumi cəza tətbiqi təcrübəsində ilk üç yeri tutmasa da, alternativ cəzalarla yanaşı azadlıqdan məhrum edilmiş məhkumların sayının azalmasına az da olsa, köməklik göstərirdi.

Sözügedən institut, tətbiqinə yenə ehtiyac duyulduğu səbəbindən öz yerini 1999-cu il tarixli Azərbaycan Respublikasının yeni Cinayət Məcəlləsində (bundan sonra–AR CM) də qoruyub saxlamışdır. AR CM-də təsbit edilmiş şərti məhkum etmə sabiq SSRİ-nin tərkibində olmuş dövlətlərin Cinayət məcəllələrinə daxil edilmiş analoji institutlara məzmunca çox oxşardır. AR CM-in 70-ci

maddəsinin ilkin redaksiyasına əsasən, şərti məhkum etmə islah işləri, hərbi xidmət üzrə məhdudlaşdırma, intizam xarakterli hərbi hissədə saxlama, azadlığın məhdudlaşdırılması və ya müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaların təyin edilməsi zamanı tətbiq edilirdi. 2011-ci ilin may ayında cəza sistemindən azadlığın məhdudlaşdırılması çıxarıldıqdan sonra şərti məhkum etmə hazırda yuxarıda göstərilən digər dörd cəza növü ilə bağlı tətbiq edilir. Təhlil göstərir ki, Azərbaycan Respublikasında şərti məhkum etmə, bir qayda olaraq, böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə azadlıqdan məhrum etmə cəzasının tətbiqi zamanı təyin edilir. Bir sıra hallarda, şərti məhkum etmə ağır cinayətlərə görə azadlıqdan məhrum edilən şəxslərə də tətbiq olunur. Bu da öz növbəsində cəzaçəkmə müəssisələrinin müəyyən olunmuş həddən artıq dolmamasına əlverişli zəmin yaradır. Məhkəmə şərti məhkum etmənin təyini zamanı altı aydan beş ilədək sınaq müddəti müəyyən edir və məhkum həmin müddət ərzində öz davranışı ilə islah olunmasını sübut etməlidir. Eyni zamanda, məhkəmə məhkumun üzərinə bir sıra, yəni onun davranışına nəzarəti həyata keçirən orqanlara məlumat vermədən daimi yaşayış, təhsil və iş yerlərini dəyişməmək, müəyyən yerlərə getməmək, alkoqolizmdən, narkomaniyadan, toksikomaniyadan və ya zöhrəvi xəstəliklərdən müalicə kursu keçmək, ailəsinə maddi yardım göstərmək kimi vəzifələr qoya bilər. 2017-ci ilin oktyabr ayında AR CM-in 70-ci maddəsinə edilmiş dəyişikliyə uyğun olaraq məhkəmə məhkuma elektron nəzarət vasitəsini gəzdirmək və həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etmək kimi yeni vəzifələr də həvalə edə bilər. Habelə, məhkəmə məhkuma əlavə cəza təyin edə və ya üzərinə onun islah olunmasına kömək edən digər vəzifələr də qoya bilər. Xüsusi olaraq vurğulamaq lazımdır ki, AR CM-in 70-ci maddəsi sərti məhkum edilmiş şəxsin üzərinə yuxarıda sadalanan və digər vəzifələrin qoyulub-qoyulmamasını bilavasitə məhkəmənin müstəsna hüququ kimi təsbit etmişdir.

Dövlət müstəqilliyinin bərpasından sonrakı illərdə sözügedən

institut öz humanist missiyasını davam etdirmişdir. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən 1993–2000-ci illərdə onun tətbiqi üzrə illik orta göstəricisi 20,4 % təşkil etmişdir. Lakin 2001–2005-ci illər ərzində müvafiq göstərici 16,2 %-ə kimi azalmışdır. 2006–2015-ci illərdə şərti məhkum etmənin ümumi cəza tətbiqetmə təcrübəsində orta çəkisi 8,6 %-ə qədər aşağı düşmüş, 2016-ci ildə isə, cəmi 8,3 % olmuşdur. Şərti məhkum etmənin, alternativ cəza növlərinin təyininin azalması, habelə 2011-ci ilin may ayında azadlığın məhdudlaşdırılmasının cəza sistemindən çıxarılması, son nəticədə ölkədə azadlıqdan məhrum etmə cəzasının geniş tətbiqinə yol açmış, müvafiq kateqoriyalı məhkumların sayının artmasına və cəzaçəkmə müəssisələrinin yüklənməsinə səbəb olmuşdur. Yaranmış vəziyyəti nəzərə alan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 10 fevral 2017-ci il tarixdə "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncam imzalamışdır. Qeyd olunan sənəddə ölkədə cinayət-hüquq siyasətinin liberallaşdırılması, alternativ cəza növlərinin tətbiqinin genişləndirilməsi, penitensiar müəssisələrin fəaliyyətinin müasirləşdirilməsi, onların infrastrukturunun yenilənməsi, cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan cəzaların icrasına effektiv nəzarətin təşkili, qətimkan tədbirlərinin tətbiqi və cəzaların icrası prosesində müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə edilməsi ilə əlaqədar qanunvericilik, təşkilati və digər tədbirlərin görülməsi nəzərdə tutulmuşdur. Eyni zamanda, sərəncamda azadlıqdan məhrum etmə yerlərində məhkumların sayının azaldılması məqsədilə AR CM-in şərti məhkum etmə, cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə və cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz etmə institutlarının daha geniş tətbiqi üçün onların təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması üzrə də tapşırıq verilmişdir. Ötən müddət ərzində sözügedən sərəncamdan irəli gələn vəzifələr ümumən uğurla yeri-

nə yetirilmiş və müəyyən müsbət nəticələr əldə edilmişdir. Eyni zamanda, 2019-cu il istisna olmaqla, sərəncamın əsas hədəflərindən birinə, yəni məhkəmələr tərəfindən azadlıqdan məhrum etmə növündə cəzanın tətbiqi təcrübəsinin azaldılmasına və onun əvəzinə alternativlərdən daha geniş istifadə edilməsinə tam nail olmaq hələ mümkün olmamışdır. Belə ki, təkcə son dörd, yəni 2021–2024-cü illərdə təqsirləndirici hökmlərin ümumi sayında hər il azadlıqdan məhrum etmə cəzasının payı təxminən 57–58 % təşkil etmişdir ki, bu da digər dövlətlərlə, o cümlədən qonşu ölkələrlə müqayisədə xeyli çoxdur. Habelə, ölkədə həbs qətimkan tədbirinin tətbiqi təcrübəsinin ardıcıl olaraq azalması, ondan qənaətlə istifadə olunması tendensiyası da, hələ arzu olunan şəkildə müşahidə edilmir. Halbuki, Azərbaycan Respublikasında uzun illər, xüsusilə son bir neçə ildə qeydə alınan cinayətlərin cüzi bir hissəsini, yəni hər il təxminən 15 %-ni ağır və xüsusilə ağır ictimai təhlükəli əməllər təşkil etmişdir. Nəticədə, ölkədə azadlıqdan məhrum yerlərində saxlanılan şəxslərin sayı dünyada ümumi qəbul edilmiş orta beynəlxalq göstərici ilə müqayisədə yüksək olaraq qalmaqdadır. Avropa Şurasının cinayət statistikası üzrə SPACE I hesabatlarına əsasən Azərbaycan Respublikası son bir neçə ildə yüz min əhaliyə düşən azadlıqdan məhrum edilmiş şəxslərin sayı ilə bağlı daha yüksək göstəriciyə malik Avropa Şurasına üzv ilk on dövlət sırasında olmuş, 2024-cü ilin əvvəlində isə, 264,2 göstərici ilə ikinci yerdə qərarlaşmışdır. Müvafiq hesabatlardakı məlumatlara istinadən 2012–2023-cü illərdə Azərbaycan Respublikasında sözügedən göstərici daim 200-dən yüksək olmuşdur ki, bu da çoxsaylı Avropa dövlətlərin, habelə bir sıra sabiq SSRİ-nin respublikalarının müvafiq göstəricilərindən təxminən iki dəfə çoxdur. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) "Azərbaycan Respublikasında insan hüquqlarının qorunması haqqında" 2024-cü il üzrə məruzəsində ölkənin azadlıqdan məhrum etmə yerlərində sıxlıq probleminin hələ də aktual qaldığını, bununla əlaqədar alternativ prosessual məcburiyyət tədbirlərinin və cəzaların tətbiqi təcrübə-

sinin genişləndirilməsinin zəruri olduğunu qeyd etmişdir.

Yuxarıda istinad olunan sərəncamdan sonra, 2018-ci il istisna olmaqla, alternativ cəzalarla yanaşı şərti məhkum etmənin tətbiqində də azalma müşahidə edilmişdir. Belə ki, əgər 2018-ci ildə ümumi cəza tətbiqində şərti məhkum etmə 13,3 %-ə kimi artmışdısa, sonrakı dörd ildə həmin institutun tətbiqi ilə bağlı göstəricilər hər il aşağı düşmüş, 2022-ci ildə cəmi 5,2 % təşkil etmişdir. Nəticədə, 2018-ci illə müqayisədə 2022-ci ildə Ədliyyə nazirliyinin Probasiya xidmətinin qeydiyyatda olan şərti məhkum edilmişlərin sayı 28 %-ə yaxın azalmışdır. 2023–2024-cü illərdə şərti məhkum etmənin azalma prosesi davam etmiş və həmin institut ümumi məhkum edilmişlərin müvafiq olaraq cəmi 4 və 3,6 faizinə tətbiq edilmişdir. Beləliklə, ölkədə 2018-ci illə müqayisədə 2024-cü ildə şərti məhkum etmənin tətbiqi say hesabı ilə 2,9 dəfə, faiz hesabı ilə isə, 3,7 dəfə aşağı düşmüşdür.

Tərəfimizdən aparılmış təhlillərlə Azərbaycan Respublikasında azadlıqdan məhrum etmə cəzasına alternativlərin, o cümlədən şərti məhkum etmə institutunun geniş tətbiqinə mane olan hallar müəyyən edilmiş və onların aradan qaldırılması üçün mümkün tədbirlərlə bağlı təkliflər verilmişdir. Eyni zamanda, düşünürük ki, şərti məhkum etmədən daha geniş istifadə edilməsi məqsədilə bu institutun məzmununu, tətbiqi əsaslarını dəqiqləşdirmək, habelə onun təyini üzrə AR CM-in 70-ci maddəsində konkret müddəaları təsbit etmək yolu ilə təkmilləşdirmək məqsədəuyğun olardı. Bunun üçün kifayət qədər əsaslar vardır. Belə ki, son bir neçə ildə, o cümlədən 2017–2024-cü illərdə, ölkədə qeydiyyata alınmış cinayətlərin hər il təxminən 85 %-ni böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlər təşkil etmişdir ki, onları törətmiş şəxslərə cəzaların, xüsusilə azadlıqdan məhrum etmə cəzasının təyini zamanı şərti məhkum etməni daha çox tətbiq etmək olardı. Eyni zamanda, nəzərə almaq lazımdır ki, AR CM-in 70-ci maddəsi ağır və xüsusilə ağır cinayətlərə görə də şərti məhkum etmənin tətbiqini qadağan etmir. Habelə, ölkədə azadlıqdan məhrum edilmiş şəxslərin sayı ilə bağlı Azərbaycan Respublikası Prezidentinin sözügedən

sərəncamındakı narahatlığını, alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin, o cümlədən şərti məhkum etmə institutunun tətbiqinin genişləndirilməsi ilə bağlı verdiyi tapşırıq və tövsiyələri də yaddan çıxarmaq düzgün olmazdı.

Araşdırılan məsələ ilə əlaqədar yuxarıda qeyd olunanları nəzərə alaraq, şərti məhkum etmə institutunun təkmilləşdirilməsi məqsədilə xarici dövlətlərin cinayət qanunvericiliklərinin müddəalarını, çoxsaylı alimlərin, habelə ölkənin cəza-icra sistemindəki uzun illik fəaliyyətimiz zamanı qarşılaşdığımız çətinliklərin həllinə yönəlmiş əvvəlki tövsiyələrimizi nəzərə alaraq, aşağıdakı təklifləri nəzərdən keçirilməsi üçün təqdim edirik.

**Birincisi**, şərti məhkum etməni 2017-ci ilin oktyabrında yeni məzmun, fərqli təyin və icra şərtləri ilə AR CM-ə qaytarılmış azadlığın məhdudlaşdırılması cəzası təyin edilən şəxslərə də tətbiqini məqsədəuyğun hesab edirik. Belə ki, 2019–2024-cü illərdə azadlığın məhdudlaşdırılması məhkumlara tətbiq edilən cəzalar sırasında azadlıqdan məhrum etmədən sonra daim ikinci yerdə olmuş, habelə, göstərilən illərdə onun ilbə-il artım tendensiyası müşahidə edilmişdir. Lakin onu da vurğulamaq lazımdır ki, qeyd olunan cəzanın tətbiqi üzrə artım, onun azadlıqdan məhrum etməyə alternativ olan digər cəzaların, habelə şərti məhkum etmənin yerlərini tutması nəticəsində baş vermişdir. Halbuki, azadlığın məhdudlaşdırılması AR CM-ə cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan digər alternativ cəzaları və ya şərti məhkum etməyə əvəz kimi yox, bilavasitə azadlıqdan məhrum etməyə real aiternativ, müvafiq cəzaya məhkum edilən şəxslərin cəzaçəkmə müəssisələrində sayının azalmasına kifayət qədər müsbət təsir göstərə biləcək cinayət-hüquqi xarakterli tədbir qismində daxil edilmişdir.

**İkincisi**, şərti məhkum etmə tətbiq olunmayan cinayətlərin dairəsinin müəyyənləşdirilməsi daha məqbul olardı. Fikrimizcə, həmin qadağalara xüsusilə ağır cinayətləri, cinayətlərin xüsusi təhlükəli residivi ilə bağlı, sülh və insanlıq, ictimai təhlükəsizlik əleyhinə olan cinayətləri və bir sıra digər ictimai təhlükəli əməlləri daxil etmək daha düzgündür. Müvafiq cinayətlərin konkret siyahısı-

nın müəyyən edilməsi, sözsüz ki, qanunvericinin səlahiyyətidir. Düşünürük ki, təklif olunan konkretləşdirmə məhkəmələrə şərti məhkum etmə institutunun, xüsusilə azadlıqdan məhrum etmə cəzasına məhkum olunan şəxslər barəsində böyuk ehtiyat etmədən və daha fəal tətbiqinə zəmin yarada bilərdi. Oxşar məhdudiyyətlər Belarus Respublikasının, Rusiya Federasiyasının, Tacikistanın Cinayət məcəllələrində vardır.

**Üçüncüsü**, sınaq müddətinin törədilmiş cinayətlərin təsnifatından asılı olaraq müəyyən edilməsi daha ədalətli olardı. Belə ki, böyük ictimai təhlükə törətməyən cinayətlərə görə sınaq müddətinin bir ildən iki ilədək, az ağır cinayətlərə görə iki ildən üç ilədək, ağır və xüsusilə ağır cinayətlərə görə isə, üç ildən beş ilədək təyin edilməsini təklif edirik. İntizam xarakterli hərbi hissədə saxlama növündə cəza ilə bağlı şərti məhkum etmə tətbiq edilərkən, sınaq müddətinin hərbi xidmətdə olmanın qaldığı müddətə uyğun müəyyən olunması daha düzgün olardı. Ölkədə, habelə AR CM-də yetkinlik yaşına çatmayanlara qarşı mövcud humanist yanaşmanı nəzərə alaraq, onlar üçün sınaq müddətinin bütün hallarda, iki ilədək təyin olunması təklif edilir.

**Dördüncüsü**, sınaq müddətində məhkumun üzərinə vəzifələrin imperativ qaydada, yəni hakimin şəxsi qənaətinə görə yox, məcburi qoyulması daha məqsədəuyğundur. Belə ki, Estoniyanın, Moldovanın, Qazaxıstanın, Qırğızıstanın, Rusiya Federasiyasının, Ukraynanın və digər bir sıra Avropa dövlətlərinin Cinayət məcəllələrində şərti məhkum etmə zamanı məhkumun üzərinə vəzifələrin qoyulması məhkəmənin hüququ kimi yox, vəzifəsi kimi təsbit edilmişdir. Təcrübə göstərir ki, üzərinə vəzifə qoyulmamış məhkumlara sınaq müddətində nəzarətin həyata keçirilməsi prosesində həmin şəxslərin hansı sahədə davranışına və yaxud hansı konkret hərəkətlərinə diqqət yetirilməsinin vacibliyinin müəyyən olunması ilə bağlı çətinliklər yaranır.

**Beşincisi**, məhkum üzərinə vəzifələrin onun yaşayış yeri, yaşı, sağlamlıq durumu, ailə vəziyyəti və əmək qabiliyyəti nəzərə alınmaqla qoyulmasını təklif edirik. Belə yanaşma məhkuma, üzərinə

qoyulmuş vəzifələri çətinliklər yaşanmadan və daha səmərəli yerinə yetirməsinə əhəmiyyətli dərəcədə kömək edə bilərdi. Oxşar norma Rusiya Federasiyasının Cinayət Məcəlləsinin 73-cü maddəsinə daxil edilmişdir.

**Altıncısı**, daimi yaşayış yerini dəyişdirməmək və ya müəyyən yerlərə getməmək vəzifələrinin icrasına nəzarəti daha səmərəli təmin etmək məqsədilə, onları elektron nəzarət vasitəsini gəzdirmək və həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etmək vəzifəsi ilə birlikdə qoyulması daha məqsədəuyğun olardı.

Əlavə olaraq, AR CM-in 71.1-ci maddəsinin redaksiyasını sərti məhkum etmənin ləğv edilməsi ilə əlaqədar məhkəməyə müraciət hüququnun nəzarəti həyata keçirən icra məmurunun (probasiya üzrə), hərbi hissə və ya müəssisələrin komandanlığından başqa, məhkumun özünə də məxsus olmasını təsdiq etmiş Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Plenumunun 13 dekabr 2010-cu il tarixli “Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 71.1-ci maddəsinin şərh edilməsi haqqında” Qərarına uyğunlaşdırılmasını da zəruri hesab edirik.

Eyni zamanda, düşünürük ki, şərti məhkum etmənin tətbiqinin azalması bu sahədə vahid məhkəmə təcrübəsinin tam formalaşmaması ilə də bağlıdır. Azərbaycan Respublikası Ali Məhkəməsi (bundan sonra–Ali Məhkəmə) Plenumunun “Məhkəmələr tərəfindən cinayət cəzalarının təyin edilməsi təcrübəsi haqqında” 25 iyun 2003-cü il tarixli və “Məhkəmə hökmü haqqında” 2021-ci il 24 dekabr tarixli qərarlarında şərti məhkum etmənin tətbiqi ilə bağlı izahlar verilsə də, onlarla kifayətlənməyi düzgün hesab etmirik. İlkin olaraq qeyd edilməlidir ki, sözügedən institutun əhəmiyyət kəsb etdiyini nəzərə alan sabiq SSRİ-nin Ali Məhkəməsinin həmin quruma daxil olan respublikaların məhkəmələri üçün nəzərdə tutulmuş şərtı məhkum etmə ilə əlaqədar 4 mart 1961-ci il tarixli Plenum qərarı var idi. Sözügedən respublikalar ittifaqı süqut etdikdən sonra da şərti məhkum etmə ilə bağlı məhkəmə təcrübəsinin ümumiləşdirilməsi öz aktuallığını itirməmişdir. Belə ki, Belarus Respublikası Ali Məhkəməsinin Plenumu 29 sentyabr

2023-cü il tarıxdə "Məhkəmələr tərəfindən şərti məhkum etmənin tətbiqi təcrübəsi haqqında" ayrı qərar qəbul etmişdir. Habelə, müxtəlif qərarlarında şərti məhkum etmə ilə bağlı müvafiq müddəalara baxmayaraq, Rusiya Federasiyasının Ali Məhkəməsinin Plenumu tərəfindən 25 iyun 2024-cü il tarixli "Şərti məhkum etmənin ləğvi və ya sınaq müddətinin uzadılması ilə bağlı məhkəmə təcrübəsi haqqında" qərar qəbul edilmişdir. Göstərilənləri nəzərə alaraq, Azərbaycan Respublikasında şərti məhkum etmə institutunun tətbiqi ilə bağlı vahid məhkəmə təcrübəsinin formalaşdırılmasını, həllini gözləyən vacib məsələ kimi gündəmə daxil edilməsi yaxşı olardı.

Şərti məhkum etmənin səmərəliyinin artırılması üçün Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində (bundan sonra–AR CİM) nəzərdə tutulmuş məhkuma nəzarət mexanizminin təkmilləşdirilməsi də məqsədəuyğun olardı. İlk növbədə, icra məmurunun (probasiya üzrə), hərbi hissə və ya müəssisələrin komandanlığının, habelə məhkumun hüquq və vəzifələrini konkretləşdirmək lazımdır. Onlar hazırda AR CİM-də tam şəkildə və dəqiq göstərilməmişdir. Habelə, şərti məhkum edilmişlərə nəzarət prosesində yaranan bir sıra çətinliklərin həllinə yönəlmiş normaları, yəni məhkumun qeydiyyat üçün probasiya qurumuna vaxtında gəlməməsi, üzərinə vəzifələr qoyulmaması ilə əlaqədar sınaq müddəti ərzində ölkə hüdudlarını tərk etməsi, habelə, qeyd olunan hər iki halda sınaq müddətinin necə hesablanması ilə əlaqədar müvafiq mexanizmləri AR CM-ə və AR CİM-ə daxil edilməsi də kifayət qədər əhəmiyyət kəsb edir.

AR CM-in 71.3-cü maddəsində nəzərdə tutulmuş, sərti məhkum edilmiş şəxsin üzərinə qoyulmuş vəzifələrin yerinə yetirilməsindən boyun qaçırması və ya ictimai qaydaları pozduğuna görə barəsində inzibati tənbeh tətbiq edilməsi ilə əlaqədar sınaq müddətinin uzadılması barədə məhkəməyə müvafiq təqdimatın dərhal deyil, məhkumun yazılı şəkildə xəbərdar edilməsindən və yalnız yol verilmiş təkrar pozuntudan sonra verilməsini daha düzgün hesab edirik. Müvafiq norma Rusiya Federasiyasının Cəza-

İcra Məcəlləsinin 190-cı maddəsində nəzərdə tutulmuşdur. Həmçinin, AR CİM-in 182-ci maddəsindəki məhkumun üzərinə qoyulmuş vəzifələri sınaq müddətində mütəmadi yerinə yetirməmənin və ya onlardan qərəzli boyun qaçırmanın ölkənin Ali Məhkəməsinin yuxarıda göstərilən 25 iyun 2003-cü il tarixli Plenum qərarının 26-cı bəndinə uyğunlaşdırılması da məqbul olardı.

Sonluqda qeyd etmək istərdik ki, Azərbaycan Respublikasında şərti məhkum etmə, cinayət qanununun hələ də aktual və tətbiqinə ehtiyac duyulan vacib bir institutu olaraq qalmaqda davam edir. Düşünürük ki, ölkədə cinayətkarlığın vəziyyəti və tendensiyası nəzərə alınmaqla, şərti məhkum etməni təkmilləşdirməklə onun geniş tətbiqinə nail olmaq, bu institutu yenidən azadlıqdan məhrum etmə cəzasının real alternativinə çevirmək mümkündür. Əminik ki, belə yanaşma Azərbaycan Respublikası Prezidentinin yuxarıda göstərilən sərəncamda ölkədə cinayət-hüquq siyasətinin humanistləşdirilməsi, cəza tətbiqetmə təcrübəsində alternativlərə daha çox yer verilməsi, habelə, azadlıqdan məhrum etmə yerlərində saxlanılan şəxslərin sayının azaldılması ilə əlaqədar verdiyi tapşırıqların və tövsiyələrin yerinə yetirilməsinə yaxşı zəmin yarada bilərdi.

Qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı təkliflərin müsbət qəbulu təqdirində, AR CM-in 70, 71-ci maddələrinə və AR CİM-in 180–182-ci maddələrinə müvafiq dəyişikliklər edilməlidir.

***İstifadə olunmuş mənbə:***

***German International Journal of Modern Science. Germany. 2025. № 111. VOL. 1. pp. 20–23.***

## Cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə və cəzanı daha yüngül cəza ilə əvəz etmənin bəzi problemləri

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 50-ci maddəsində cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə və cəzanı daha yüngül cəza ilə əvəz etmə qaydaları təsbit edilmişdir. Bu maddəyə əsasən Cinayət Məcəlləsinin 50-1-ci maddəsində göstərilən şəxslər istisna olmaqla, azadlıqdan məhrum edilməyə, əməyə mütləq cəlb edilməklə şərti olaraq azadlıqdan məhrum edilməyə, islah işlərinə və ya intizam batalyonuna, yaxud Tərbiyə-əmək profilaktoriyasına göndərilməyə məhkum olunmuş şəxslərə, habelə həmin Məcəllənin 50-2-ci maddəsinə uyğun olaraq azadlıqdan məhrum etmə yerlərindən əməyə mütləq cəlb edilməklə şərti azad edilmiş şəxslərə cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə və ya cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza ilə əvəz etmə tətbiq oluna bilər. Qeyd olunanlar o zaman tətbiq olunur ki, məhkum islah olunduğunu öz nümunəvi davranışı və əməyə vicdanlı münasibəti ilə sübut etsin. Bundan əlavə, məhkumun təyin olunmuş cəza müddətinin müəyyən hissəsini, ən azı yarısını həqiqətən çəkməsi tələb olunur. Qanun, çəkilməsi mütləq tələb olunan cəza müddətini, məhkumun törətdiyi cinayətin təhlükəlilik dərəcəsini və xarakterini nəzərə alaraq, yarıdan dörddə üç hissəsinə qədər artırılmasını nəzərdə tutmuşdur. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində belə maddənin olması böyük əhəmiyyət kəsb edir. Şərti olaraq vaxtından əvvəl cəzadan azad etmə məhkumların islah olunmasında mühüm stimul kimi çıxış edir və onlara müsbət tərbiyəvi təsir göstərir, islah-əmək müəssisələrində qayda-qanunun və intizamın möhkəmləndirilməsinə kömək edir. Şərti olaraq vaxtından əvvəl azad etmənin zəruriliyi və məqsədəmüvafiqliyi onda ifadə olunur ki, əsas etibarilə cəzanın məqsədi əldə edilir, şəxs islah olunur.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 50-ci maddəsində göstərildiyi kimi cəzadan şərti olaraq vaxtından əvvəl azad

etmə və cəzanı daha yüngül cəza ilə əvəz etmə bütün məhkumlara tətbiq olunmur. Məcəllənin 50-1-ci maddəsində sözügedən institutun tətbiq olunma təsiri altına düşməyən şəxslərin konkret siyahısı müəyyən edilmişdir. Qanuna əsasən:

- xüsusi təhlükəli residivistlərə;
- xüsusi təhlükəli dövləti cinayətlərə (57-66-cı maddələr) görə məhkum olunmuş şəxslərə;
- bir sıra ağır cinayətlərə, yəni banditizmə (70-ci maddə), islah-əmək müəssisələrinin işini pozan əməllərə (70-1-ci maddə), qanunvericilikdə nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların yaradılmasına (70-2-ci maddə), ağırlaşdırıcı hallarda dövlət əmlakına, ictimai əmlaka və ya xüsusi mülkiyyətdə olan əmlaka sahib olmaq məqsədilə quldurluğa (88-ci maddənin ikinci hissəsi, 145-ci maddənin ikinci hissəsi), dövlət əmlakını və ya ictimai əmlakı quldurluq yolu ilə xüsusilə külli miqdarda talamağa (88-1-ci maddə), qəsdən adam öldürməyə (94-96-cı maddələr və 235-ci maddənin "v" bəndi), ağırlaşdırıcı hallarda qəsdən bədənə ağır xəsarət yetirməyə (102-ci maddənin ikinci hissəsi), xüsusilə ağır nəticələrə səbəb olan zorlamağa, habelə azyaşlını zorlamağa (109-cu maddənin dördüncü hissəsi), adamları girov saxlamağa (120-1-ci maddə), xüsusilə qərəzli xuliqanlığa (207-ci maddənin üçüncü hissəsi), dəmiryol qatarını, hava, dəniz və ya çay gəmisini qaçırma və ya ələ keçirmə, eləcə də vağzalı, aerodromu, limanı və ya başqa nəqliyyat müəssisəsini, idarəsini, təşkilatlarını, habelə oğurlamaq məqsədi güdmədən yükləri ələ keçirməyə (212-2-ci maddə), odlu silahı, döyüş sursatını və ya partlayıcı maddələri quldurcasına basqın yolu ilə oğurlamağa (226-2-ci maddənin üçüncü hissəsi) görə məhkum olunmuş şəxslərə;
- ölüm cəzası növündə cəzası bağışlanma və ya amnistiya qaydasında azadlıqdan məhrum etmə ilə əvəz edilmiş şəxslərə;
- qəsdən cinayət etməyə görə əvvəllər iki dəfədən çox azadlıqdan məhrum edilməyə məhkum olunmuş şəxslərə, əgər əvvəlki cinayətə görə məhkumluq qanunla müəyyən edilmiş qaydada götürülməmişdirsə və ya ödənilməmişdirsə;

- əvvəllər məhkəmənin təyin etdiyi cəza müddətini tamamilə çəkib qurtarmadan azadlıqdan məhrum etmə yerlərindən şərti olaraq vaxtından əvvəl azad edilmiş və ya əməyə mütləq cəlb olunmaqla şərti azad edilmiş və cəzanın, yaxud mütləq iş müddətinin çəkilməmiş dövründə qəsdən yeni cinayət törətmiş şəxslərə cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə və cəzanı daha yüngül cəza ilə əvəz etmə qaydası tətbiq edilmir.

Qeyd olunan bu məhkumlara digər institut, yəni Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 50-2-ci maddəsində təsbit olunan, məhkumu azadlıqdan məhrum etmə yerlərindən əməyə mütləq cəlb olunmaqla şərti azad etmə də tətbiq olunmur.

Təcrübə göstərir ki, cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə qaydası tətbiq olunmayan məhkumlara bir qayda olaraq amnistiya aktları da şamil edilmir və onlar əfv qaydasında bağışlanmırlar. Beləliklə, bu kateqoriyadan olan məhkumlar məhkəmə tərəfindən təyin olunmuş cəza müddətinin hamısını çəkməyə məcburdurlar. Göstərilən şəraitdə belə məhkumlarla islah və tərbiyə işini tələb olunan səviyyədə aparmaq böyük çətinliklər doğurur, gözlənilən pozitiv nəticə hasil olunmur. Cəza çəkən belə məhkumlar islah olunmağın, əməyə vicdanlı münasibət göstərməyin, nümunəvi davranışa malik olmağın nəticəsiz qalacağı perspektivini dərk etdikdən sonra, ümidsizliyə qapılır və öz hərəkətlərini həmişə qanun çərçivəsində qurmağa çalışmırlar. Bu qəbildən olan şəxslərin bir hissəsi cəzanı icra edən orqana – islah-əmək koloniyalarının müdiriyyətinə qarşı qərəzli mövqe tutur, cəzanın icrasına, islah-tərbiyə prosesinin düzgün həyata keçirilməsinə maneçilik etməyə çalışır və müxtəlif qanun pozuntuları, habelə yeni cinayətlər törətməyə meyilli olurlar. Aparılmış təhlillər göstərir ki, azadlıqdan məhrum etmə yerlərindən qaçanların və qaçmağa cəhd edənlərin böyük bir hissəsini belə məhkumlar təşkil edir. Respublikamızın islah-əmək koloniyalarında qaçmağa meyilli şəxslər kimi profilaktik qeydiyyata götürülmüş məhkumlar arasında cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə qaydası tətbiq olunmayanlara daha çox rast gəlinir. Fikrimizcə, cəzadan şərti olaraq

vaxtından əvvəl azad etmədə qoyulmuş qadağalar, cinayət qanununun cəza institutu qarşısında qoyduğu vəzifələrdən birinə-şəxsin tənbehinə daha çox qulluq edir, digər vəzifələri ikinci dərəcəli edir.

Məlumat üçün bildiririk ki, cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin tətbiqi sahəsində dünyanın müxtəlif ölkələrinin cinayət qanunvericiliyinin təhlili göstərdi ki, həmin ölkələrdə belə məhdudiyyətlər yoxdur. Sabiq SSRİ qurumuna daxil olan Rusiya Federasiyasının 1997-ci ilin yanvar ayının 1-dən qüvvəyə minmiş yeni Cinayət Məcəlləsində əvvəllər cəzadan şərti olaraq vaxtından əvvəl azad etmədə olan qadağalar ləğv edilmiş, yeni qanunla bütün məhkumlar, cəza sistemində öz əksini tapmış yeni cəzaya - ömürlük azadlıqdan məhrum edilməyə məhkum edilmiş şəxslər də şərti olaraq vaxtından əvvəl azad edilməyə təqdim oluna bilərlər.

Fikrimizcə, araşdırılan problemin digər ölkələrdəki kimi həlli vaxtı respublikamızda da çatmışdır. Bunun üçün şərti olaraq vaxtından əvvəl azad etmədə olan qadağaları aradan götürmək, yəni Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin hal-hazırki 50-1-ci maddəsini ləğv etmək, belə tədbiri törədilən cinayətin ağırlığından, təhlükəlilik dərəcəsindən asılı olaraq, 50-ci maddədə əksini tapmış prinsipə əsasən, yəni təyin olunmuş cəzanın çəkilmə müddətlərini artırmaqla, həmin institutun bütün məhkumlara tətbiq olunmasını məqsədəuyğun hesab edirik. Zənnimizcə, cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə tədbirinin 50-1-ci maddəsinin:

- 3, 5, 6-cı bəndlərində göstərilən şəxslərə, təyin olunmuş cəza müddətinin azı beşdə dörd hissəsi;

- 2-ci bəndində göstərilən şəxslərə cəza müddətinin azı altıda beş hissəsi;

- 1, 4-cü bəndlərində göstərilən şəxslərə, cəza müddətinin azı yeddidə altı hissəsi, həqiqətən çəkildikdən sonra tətbiq olunması daha düzgün olardı.

Cəzadan şərti olaraq vaxtından əvvəl azad etmədə olan qadağa-

ların aradan götürülməsinin əleyhinə olanların nəzərinə çatdırmaq istərdik ki, məhkuma “bağışlanan”, çəkilməmiş cəza müddəti çox az olacaq. Misal üçün, xüsusi mülkiyyətdə olan əmlaka sahib olmaq məqsədilə quldurluğa (145-ci maddənin ikinci hissəsi) görə 10 il azadlıqdan məhrum edilmiş şəxs 8 ildən, 15 il azadlıqdan məhrum edilmiş isə 12 ildən sonra cəzadan şərti olaraq vaxtından əvvəl azad etməyə təqdim oluna bilər. Xüsusi təhlükəli residivist hesab olunan şəxs üçün müvafiq olaraq bu müddətlər 8 il 7 ay və 13 il təşkil edir. Həmçinin, nəzərə almaq lazımdır ki, İslah-Əmək Məcəlləsinin 65-ci maddəsinə əsasən cəzadan şərti olaraq vaxtından əvvəl azad etməyə təqdim etmək yalnız cəzanı icra edən orqanın hüququdur.

Məlumat üçün bildiririk ki, Rusiya Federasiyasının yeni Cinayət Məcəlləsində cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə tədbiri məhkumun törətdiyi cinayətdən və cəza müddətindən asılı olaraq, hökmdə müəyyən olunmuş cəzanın ən çoxu dörddə üç hissəsi həqiqətən çəkildikdən sonra tətbiq edilə bilər.

Məlum olduğu kimi Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 50-ci maddəsi cəzadan şərti olaraq vaxtından əvvəl azad etmədən başqa, cəzanın daha yüngül cəza ilə əvəz edilməsini də nəzərdə tutur. Öz məzmununa görə bir-birindən fərqlənən iki müstəqil institutun fəaliyyətinin eyni bir maddə ilə tənzimlənməsini düzgün hesab etmirik. Çünki, bu institutlar özlərinə məxsus müxtəlif vəzifələri yerinə yetirirlər. Birinci institut məhkumu şərti də olsa, cəzadan azad edir, ikincisi isə, cəzanı yalnız digər daha yüngül cəza ilə əvəz edir. Bundan əlavə, hər iki tədbirin tətbiq olunma qaydasının və dairəsinin bir-birindən fərqlənməməsi ədalət prinsipi ilə uzlaşmır. Təcrübə göstərir ki, son illərdə respublikamızda Cinayət Məcəlləsinin 50-ci maddənin tətbiqi zamanı cəzanı daha yüngül cəza ilə əvəz etmə institutundan demək olar ki, istifadə olunmur. Belə ki, cəzanın qanunla müəyyən olunmuş hissəsi çəkildikdən sonra müdiriyyət, o cümlədən məhkumun özü də cəzadan şərti olaraq vaxtından əvvəl azad olunmağı cəzanı daha yüngül cəza növü ilə əvəz etməkdən üstün tutur, bu da başa düşü-

ləndir. Göstərilən problemin həllini cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə və cəzanı daha yüngül cəza ilə əvəz etmə institutlarının Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin ayrı, yəni müstəqil maddələri ilə tənzimlənməsində görürük. Əlavə olaraq, qanunda cəzanı daha yüngül cəza ilə əvəz etmə tədbirinin tətbiq olunması, cəzadan şərti olaraq vaxtından əvvəl azad etmədən, çəkilməsi tələb olunan cəza müddətinin az olması ilə fərqlənməlidir.

Yuxarıda təklif olunan dəyişikliklər müstəqil Azərbaycan Respublikasının Konstitusiyasında insan hüquqlarının və azadlıqlarının təmin olunmasının ön plana çəkilməsi, dövlətimizin demokratik ölkələr sırasına daxil olma perspektivi, cinayət-cəza siyasətinin humanistləşməsi ilə əlaqələndirilir.

***İstinad edilmiş mənbə:***

***"Qanunçuluq" jurnalı. Bakı, 1997. № 1–2, Səh. 62–65.***

## Azərbaycan Respublikasında cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə institutu və onunla ilə bağlı qanunvericiliyin inkişafı (1920–2014-cü illər)

Cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə institutu, onun anlayışı, hüquqi təbiəti, əlamətləri, sosial zəruriliyi və əhəmiyyəti ilə əlaqədar cinayət hüquq elmi sahəsindəki ailmlər tərəfindən kifayət qədər tədqiqatlar aparılmışdır. Eyni zamanda, bu hüquq institutunun aktuallığı və təkmilləşdirilməsi əhəmiyyətli dərəcədə qalmaqda davam edir, bu son illərdə aparılmış çoxsaylı araşdırmalarla, təhlillərlə, o cümlədən müvafiq dissertasiyaların müdafiəsi ilə təsdiq olunur. Burada bir çöx ölkələrdə alimlər və praktiki işçilər tərəfindən azadlıqdan məhrum edilmiş şəxslərin sayının azaldılmasına yönəlmiş mövcud tədbirlərin təkmilləşdirilməsi, sözügedən sahədə də yeniliklərin axtarışı ilə üzrə fəallığın artması müşahidə edilir.

Hüquqpozucuları ilə rəftara dair beynəlxalq aktlar məhkumların azad həyata daha tez inteqrasiyası baxımından cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə institutundan daha fəal istifadəni tövsiyə edirlər. Belə ki, Avropa Şurasının Nazirlər Komitəsinin 24 sentyabr 2003-cü ildə qəbul etdiyi "Cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə barədə" R(2003)22 nömrəli tövsiyədə göstərilmişdir ki, həmin institut məhkumun cəmiyyətə qayıdışının planlaşdırılmış və nəzarət edilən tərzdə uyğunlaşmasının, təkrar cinayətlərin qarşısının alınmasının səmərəli və təsirli vasitələrindən biridir. Buna görə də sözügedən sənəd siyasi xadimləri, dövlət qulluqçularını, hakimləri, prokurorları, vəkilləri və cəmiyyətin digər hissəsini həmin institutu dəstəkləməyə çağırmaqla, hüquqi demokratik dövlətləri cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin insan və azadlıqları haqqında Avropa Konvensiyasına uyğun fundamental prinsiplər əsasında formalaşmış qanunvericiliyə və təcrübəyə uyğun olaraq həyata keçirməyə dəvət etmişdir.

Öz başlanğıcını XIX əsrin əvvəllərində Avstraliyada götürmüş,

1885-ci ildə Fransada hüquqi forma almış cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə institutu hümanizmin göstəricisi olmaqla, cinayət-hüquqi xarakterli həvəsləndirmə tədbiri kimi azadlıqdan məhrum etmə yerlərində qanunvericiliklə müəyyən olunmuş qaydalarının təmin edilməsinə və məhkumların islah edilməsi prosesinin stimullaşdırılmasına yönəlmişdir. Azərbaycan Respublikası sivil dünyanın bir hissəsi olaraq cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə institutunda, onun səmərəli tətbiqində və müsbət nəticələrində maraqlıdır. Göstərilənlərə Azərbaycan Respublikasının Ali Məhkəməsinin Plenumu tərəfindən 08 oktyabr 2010-ci il tarixli "Cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə, cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz etmə, cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi və xəstəliyə görə cəzanı çəkməkdən azad etmə ilə bağlı məhkəmə təcrübəsi haqqında" 2 nömrəli Qərarını misal göstərmək olar. Bu qərarda qanunvericilikdə cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə üçün geniş imkanların mövcudluğu, onun məhkumların islah olunma prosesinin surətləndirilməsinə və normal sosial faydalı həyata qaytarılmasına yardım edən institut olduğu vurğulanmışdır.

Yuxarıda göstərilənləri nəzərə almaqla, tərəfimizdən Azərbaycan Respublikasında 1920-ci ildən, yəni Xalq Cümhuriyyətinin süqutundan sonrakı dövrdən başlayaraq bu günə kimi cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə institutunun və onunla ilə bağlı qanunvericiliyin tədqiqinə cəhd edilmişdir. Qeyd etmək istərdik ki, müstəqil Azərbaycan Demokratik Respublikasının movcud olduğu, yəni 1918-ci ilin mayından 1920-ci ilin aprel ayına kimi dövrdə istər o vaxtkı hökumət, istərsə dövlətin qanunvericilik orqanı tərəfindən məhkumların cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi ilə bağlı normativ-hüquqi aktlar qəbul edilməmişdir.

Azərbaycan Respublikasında cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə institutunun və onunla ilə bağlı qanunvericiliyin ardıcıl tədqiqi məqsədilə müvafiq müddəti şərti olaraq üç dövrə

bölmək olar:

- 1920–1960-ci illər;
- 1961–2000-ci illər;
- 2000-ci ildən sonrakı dövr.

Müvafiq institutun və qanunvericiliyin birinci inkişaf dövrü onların əsasının qoyulması və tətbiqi ilə əlaqədar çoxsaylı normativ-hüquqi aktların qəbulu ilə xarakterizə edilir. Onlardan birincisi Azərbaycanın Mərkəzi İcra Komitəsinin (bundan sonra MİK) 05 iyun 1920-ci il tarixli "Vaxtından əvvəl azad etmə haqqında" Qərarıdır. Həmin qərarda göstərilirdi ki, azadlıqdan məhrum etmə cəzasını çəkən şəxslər aidiyyəti üzrə xalq məhkəmələrinin və ya inqilabi tribunalarının qərarı ilə cəza müddətinin başa çatmasınadək azad edilə bilərlər. Bu sənədlə həmçinin, vaxtından əvvəl azad etmə ilə əlaqədar vəsatətin göndərilməsi, həmin işlərə baxılması qaydası və proseduru, yeni cinayət törədilməsi hallarında qəbul edilən qərarlar və digər aidiyyəti məsələlər tənzimlənmişdir. Vaxtından əvvəl azad etmə ilə bağlı vəsatətin verilməsi üçün cəza müddətinin yarısının çəkilməsi tələb edilirdi. Məhkəməyə vaxtından əvvəl azad etmə ilə əlaqədar vəsatətin göndərilməsi hüququna məhkumun özü, onun yaxınları və Həbsxana kollegiyası malik idi. Məhkəmə vəsatəti təmin etdikdə, o qərarında sovet patronat orqanının adını, belə təşkilatın olmadığı hallarda isə, üzərinə şərti olaraq vaxından əvvəl azad edilmiş şəxsə nəzarət və müşahidə vəzifəsi qoyulan şəxsin adını göstərməli idi. Cəzadan şərti olaraq vaxtından əvvəl azad etməyə Azərbaycan MİK-in 26 sentyabr 1920-ci il tarixli "Məcburi işlər düşərgələri haqqında" Dekretində də toxunulmuşdur. Həmin sənədin 40-ci bəndinin qeydində düşərgələrdə saxlanılan məhkumların da ümumi qaydalara uyğun olaraq vaxtından əvvəl azad edilməsinin mümkünlüyü göstərilmişdir.

Azərbaycan MİK-i 14 noyabr 1921-ci il tarixdə qəbul etdiyi "Azadlıqdan məhrum etmə və məhbusların şərti olaraq vaxından əvvəl azad edilməsi qaydası haqqında" Dekretlə sovet quruluşu üçün təhlükəli hesab edilmiş şəxslərin təcrid edilməsinin, onların ciddi saxlanma şəraitindən daha yüngülünə keçirilməsinin və cə-

zadan şərti olaraq vaxından əvvəl azad edilməsinin ümumi əsaslarını müəyyən etmişdir. Dekretin dördüncü hissəsində xalq məhkəmələrinin və ya inqilabi tribunaların hökmləri ilə məhkum edilmiş məhbusların cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsinin ümumi qaydası təsbit edilmişdir. Həmin hissədə göstərilirdi ki:

- şərti olaraq vaxtından əvvəl azad etmə, ya cəzadan tam olaraq azad olunmada, ya da cəzanın bütün qalan müddəti və ya onun bir hissəsi ərzində həbsdə saxlanılmadan icbari işlərin saxlanmasında ifadə olunur;
- vaxtından əvvəl azad etmə haqqında vəsatət azadlıqdan məhrum edilmiş şəxsin özü, onun yaxınları, təşkilatlar, idarələr və vəzifəli şəxslər tərəfindən məhbusun cəza müddətinin yarısını çəkməsindən tez olmayaraq qaldırıla bilər. Məhkəmələrin vaxtından əvvəl azad etmə haqqında məsələ qaldırmaq hüququ yoxdur;
- müddətin yarısının çəkilməsindən tez vaxtından əvvəl azad etməyə təqdim etmə hüququna yalnız Xalq Ədliyyə Komissarlığının İslah şöbəsinin yanındakı mərkəzi bölgü komissiyası malikdir.

Şərti olaraq vaxtından əvvəl azad etmə üçün növbəti xüsusi çəkiyə malik hüquqi əsas Azərbaycan MİK-i tərəfindən 09 dekabr 1922-ci il tarixdə qəbul edilmiş birinci Cinayət Məcəlləsi olmuşdur. Həmin məcəllənin cəzanın çəkilməsi adlanan 5-ci bölməsində şərti olaraq vaxından əvvəl azad etmə məsələləri də öz tənzimini tapmış, 52-ci maddənin ilkin redaksiyasında göstərilmişdir ki, azadlıqdan məhrum etmə və ya məcburi işlər növündə (yəni, islah işləri) cəza çəkən məhkumlar islah olunduğlarını göstərdikdə, onlara şərti olaraq vaxtından əvvəl azad etmə tətbiq edilə bilər. Beləliklə, Azərbaycan SSR-nin Cinayət Məcəlləsi sərti olaraq vaxından əvvəl azad etmənin hüdudlarını genişləndirərək, azadlıqdan məhrum edilmişlərə islah işlərinə məhkum olunmuş şəxsləri də əlavə etmişdir.

Azərbaycan Respublikası MİK-in 1926-1927-ci illərdəki qərarları ilə Cinayət Məcəlləsinə edilmiş dəyişikliklərdən sonra şərti olaraq vaxtından əvvəl azad etmə digər cəzalara, yəni müddətli ic-

timai müdafiə tədbirlərinə məhkum edilmiş şəxslərə də tətbiq edilə bilərdi. Belə məhkumlar məhkəmə tərəfindən müəyyən olunmuş müddətin üçdə birindən az olmayan hissəsini çəkməli, habelə islah olunduqlarını göstərməli idilər. Eyni zamanda, məcəllənin 53-cü maddəsində göstərilirdi ki, şərti olaraq vaxtından əvvəl azad etmə, ya çəkilən cəzadan tam olaraq azad olunmada, yaxud cəzanın bütün qalan müddəti və ya onun bir hissəsi ərzində məcburi işlərə keçirilmədə ifadə olunur və hökmü çıxarmış məhkəmə tərəfindən tətbiq edillə bilər. Həmin maddəyə 02 oktyabr 1927-ci il tarixdə edilmiş dəyişikliyə əsasən şərti olaraq vaxtından əvvəl azad etmə cəzadan tam azad etmə, yaxud cəzanın daha yüngül tədbirlə əvəz etmə kimi və 20 may 1925-ci ildə qəbul edilmiş Azərbaycan SSR-nin İslah-Əmək Məcəlləsinə uyğun tətbiq edilə bilərdi. Həmin Məcəllənin 16.5-ci maddəsinə əsasən məhkumun vaxtından əvvəl azad edilməsi barədə məhkəmələrə vəsatət cəzaçəkmə müəssisələrində fəaliyyət göstərən müşahidə komissiyalarının təklifi ilə Azərbaycan SSR dairə xalq məhkəmələrindəki Bölüşdürücü Komissiyalar tərəfindən təqdim edilə bilərdi. Müşahidə komissiyalarının tərkibinə cəzaçəkmə müəssisənin rəisi, müəssisənin olduğu yerin xalq məhkəməsinin hakimi və həmkarlar bürosunun nümayəndəsi daxil idilər. Cəzadan vaxtından əvvəl azad etmə ilə bağlı məsələ komissiyada ilkin müzakirə edilən zaman prokuror və ya onun köməkçisi iştirak etməli idilər. Habelə, müzakirədə cəzaçəkmə müəssisəsinin müxtəlif sahələr üzrə rəhbərləri və səhiyyə şöbəsinin nümayəndəsi də iştirak edə bilərdi.

Cəzadan vaxtından əvvəl azad etmə ilə bağlı növbəti hüquqi əsas Azərbaycan MİK və Xalq Komissarları Şurası tərəfindən 03 dekabr 1927-ci il tarixdə qəbul edilmiş və 1928-cü ilin 15 yanvarından qüvvəyə minmiş Azərbaycan SSR-nin ikinci Cinayət Məcəlləsi olmuşdur. Həmin Məcəllənin 6-cı bölməsi ilə şərti məhkum etmə və şərti olaraq vaxtından əvvəl əvvəl azad edilmə məsələləri tənzimlənmişdir. Məcəllənin 61-ci maddəsinə əsasən müddətli ictimai müdafiə tədbirinə, yəni cəzaya məhkum edilmiş və islah olunduğunu göstərmiş şəxslər təyin olunmuş cəza müddə-

tinin üçdə bir hissəsindən az olmayan hissəsini çəkdikdən sonra şərti olaraq vaxtından əvvəl azad edilə bilərlər. Şərti olaraq vaxtından əvvəl azad etmə, məhkəmə tərəfindən müəyyən edilmiş ictimai müdafiə tədbirinin qalan hissəsini keçirməkdən azad etməkdən və ya daha yüngül tədbirlə əvəz etməkdən ibarət olmuş, belə imkan İslah-Əmək Məcəlləsində göstərilən qaydaya uyğun olaraq tətbiq edilirdi.

Burada sabiq SSRİ-nin QULAQ adlanan sistemi tərəfindən 1931-ci iiln yanvarında islah-əmək düşərgələrində məhkumların əmək fəallığını stimullaşdırmaq məqsədilə tətbiq edilmiş iş günlərinin cəzanın çəkilməsi müddətinə hesablanması sistemini xüsusilə qeyd etmək lazımdır. Bu sistemin sinfi xarakter daşımasına, sonradan məhdudlaşdırılmasına və ləğvinə baxmayaraq, o vaxtından əvvəl azad edilmənin bir üsulu kimi xidmət göstərmişdir.

SSRİ-nin ÜMİK və XKS-ın 06 noyabr 1929-cu il tarixli "SSRİ və müttəfiq respublikaların cinayət qanunvericliyinin əsas başlanğıclarının 13, 18, 22 və 38-ci maddələrinə dəyişikliklər edilməsi haqqında" Qərarı islah edildiyini göstərən məhkumlar barədə cəzadan vaxtından əvvəl azad etmə institutuna yeniliklər gətirdi. Belə ki, müvafiq dəyişikliklərdən sonra vaxtından əvvəl azad etmə məhkumlara, onlar ictimai müdafiə tədbirinin üçdə bir hissəsindən az olmayan hissəsini çəkdikdən sonra tətbiq edilə bilərdi. İslah-əmək düşərgələrində cəza çəkən, məhkəmə hökmü çıxarılana kimi seçki hüququndan istifadə etmiş və islah edildiyini göstərən məhkumlar barədə vaxtından əvvəl azad etmə çəkilməmiş cəza müddətində onların həmin düşərgənin yerləşdiyi rayondakı məntəqəyə yaşamaq üçün keçirilməsindən ibarət olmuşdur. SSR İttifaqı üzrə qanunvericliyə edilmiş dəyişikliklər SSRİ-nin XKŞ-nın 07 aprel 1930-cu il tarixli Qərarla təsdiq etdiyi "İslah-əmək düşərgələri haqqında Əsasnamə"də də öz əksini tapmışdır. İttifaq qanunvericiliyinə edilmiş dəyişikliklərə uyğun olaraq 03 fevral 1930-cu il tarixli qərarla respublikanın qanunvericiliyi də müvafiq dəyişikliklərə məruz qalmışdır.

Qüvvədə olan qayda sonradan Azərbaycan SSR Ali Sovetinin

Rəyasət Heyətinin 17 oktyabr 1939-cu il tarixli Fərmanı ilə dəyişdirilmişdir. Bu dəyişikliyə görə və islah-əmək düşərgələri haqqında Əsasnaməyə əsasən təyin olunmuş cəzanın böyük hissəsini çəkmiş, istehsalat əlaçısı olan və yüksək əmək göstəricilərinə malik bir sıra məhkumlar barədə müstəsna hal kimi vaxtından əvvəl azad etmə tətbiq edilə bilərdi. Azadlıqdan məhrum etmə cəzası istisna olmaqla, digər müddətli cəzalara məhkum edilmiş şəxslər barədə hökmlə təyin olunmuş cəza müddətinin ən azı üçdə bir hissəsi çəkildikdən sonra məhkəmə tərəfindən vaxtından əvvəl azad etmə tətbiq oluna bilərdi. Cəzadan vaxtından əvvəl azad etmə cəzanın çəkilməsindən tam azad etmə və ya onun daha yüngül növü ilə əvəz olunması yolu ilə həyata keçirilirdi.

Lakin vaxtından əvvəl azad etmə ilə bağlı yuxarıda göstərilən dəyişikliklərə baxmayaraq, təcrübədə Daxili İşlər Xalq Komissarlığının 15 iyun 1939-cu il tarixli "İş günlərinin hesablanmasının və vaxtından əvvəl azad etmənin ləğvi haqqında" əmri ilə qoyulmuş qadağa vaxtından əvvəl azad etmə institutunun təcrübədə tətbiqini dayandırmışdı. Həmin institut SSRİ-də uzun illər mövcud olmuş şəxsiyyətə pərəstijin tənqidindən sonra Ali Sovetinin Rəyasət Heyətinin 14 iyul 1954-cü il tarixli "Həbs yerlərindən vaxtından əvvəl azad etmənin tətbiqi haqqında" Fərmanı ilə bərpa edilmişdir. Bu Fərmana əsasən azadlıqdan məhrum etmə yerlərində cəza müddətinin ən azı ücdə iki hissəsini çəkmiş, islah edildiyini əməyə vicdanlı münasibəti və nümunəvi davranışı ilə sübut etmiş məhkumlara vaxtından əvvəl azad etmə tətbiq edilə bilərdi. Bu zaman həbs yerləri müdiriyyətinin təqdimatına əsasən məhkum ya cəzadan azad edilirdi, yaxud onun çəkilməmiş cəza müddəti daha yüngül cəza ilə əvəz edilirdi. Qeyd olunan Fərmanın bəzi müddəaları 08 dekabr 1960-cı ildə qəbul edilmiş və 1961-ci ilin 1 martından qüvvəyə minmiş Azərbaycan SSR-nin üçüncü Cinayət Məcəlləsinə daxil edilmişdir. Həmin Məcəllə vaxtından əvvəl azad etmə institutunun və onu tənzimləyən qanunvericiliyin ikinci mərhələsinin əsasını qoydu. Cinayət Məcəlləsinin 50-ci maddəsi cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə ilə institutu ilə yana-

şı cəzanı daha yüngül cəza növü ilə əvəz etməni də tənzimləyirdi. Bu maddəyə əsasən azadlıqdan məhrum etməyə, islah işlərinə, sürgünə, köçürtməyə və ya intizam batalyonuna göndərməyə məhkum edilmiş şəxs özünün nümunəvi davranışı və əməyə vicdanlı münasibəti ilə islah olunduğunu sübut edərsə, təyin olunmuş cəza müddətinin azı yarısını, bir sıra ağır cinayətlərə görə isə cəza müddətinin üçdə ikisini faktiki olaraq çəkdikdən sonra ona məhkəmə tərəfindən cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə və ya cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz etmə tətbiq oluna bilərdi. Cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə və ya cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz etmə zamanı məhkəmə, həmçinin məhkumu ona əlavə cəza kimi verilmiş sürgün, köçürtmə və ya müəyyən vəzifələri tutma, yaxud müəyyən fəaliyyətlə məşgul olma hüququndan məhrum etmə cəzalarından da azad edə bilərdi. Həmin maddəyə əsasən cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə və ya cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz etmə məhkəmə tərəfindən Cinayət Məcəlləsinin 24-cü maddəsinə əsasən xüsusi təhlükəli residivst hesab edilmiş məhkumlara tətbiq edilmirdi. Yeni Cinayət Məcəlləsində cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə və ya cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz etməyə təqdim olunma qaydası tənzimlənmədiyindən köhnə prosedur qüvvədə idi. Lakin qeyd edilməlidir ki, Azərbaycan SSR-nin Cinayət Məcəlləsinın tətbiqinə başlandıqdan dərhal sonra Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin 24 iyul 1961-ci, habelə 07 avqust 1962-ci il tarixli Fərmanları ilə yuxarıda göstərilən hər iki instututun tətbiqinə qoyulmuş qadağaların dairəsi genişləndirilmişdir. Xüsusi təhlükəli residivistlərə, xüsusi təhlükəli dövləti cinayətlərə, bir sıra ağır cinayətlərə, habelə azadlıqdan məhrum etmə növündə cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş və ya cəzanın çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edilmiş, lakin cəzanın çəkilməmiş hissəsi müddətində qəsdən yeni cinayət törətmiş və buna görə yenidən azadlıqdan məhrum etməyə məhkum edilmiş

şəxslər də əlavə edilmişdir. Oxşar qadağalar Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin 29 iyul 1961-ci tarixli Fərmanı ilə təsdiq edilmiş "Daxili işlər nazirliyinin islah-əmək müəssisələri və həbsxanaları haqqında Əsasnamə"sində də nəzərdə tutulmuşdu. Həmin Əsasnamənin 21-ci bəndinə əsasən xüsusi təhlükəli residivistlər və bir sıra digər məhkumlar istisna olmaqla, nümunəvi davranışı və əməyə vicdanlı münasibəti ilə islah olunduğunu sübut edən şəxslər SSR İttifaqının və Azərbaycan SSR-nin cinayət qanunvericiliyinə uyğun olaraq şərti olaraq vaxtından əvvəl azad etməyə və ya cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsinə təqdim edilə bilərdilər.

11 iyul 1969-cu tarixli "SSRİ və müttəfiq respublikalarının cinayət qanunvericiliyinin Əsaslarına əlavə və dəyişikliklər edilməsi haqqında" SSRİ-nin Qanununa uyğun olaraq Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin 29 yanvar 1970-ci tarixli Fərmanı ilə Cinayət Məcəlləsinə şərti olaraq vaxtından əvvəl azad etmə və ya cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsi tətbiq olunmayan şəxslərin siyahısını nəzərdə tutan yeni 50-1-ci maddə əlavə edilmişdir. Şərti olaraq vaxtından əvvəl azad etmə Azərbaycan SSR Cinayət Məcəlləsinin 50 və 50-1-ci maddələrinin tələbləri nəzərə alınmaqla, məhkumun cəza çəkdiyi yerin məhkəməsi tərəfindən cəzanın icrasına baxan müəssisənin müdiriyyətinin yerli xalq deputatları Sovetinin İcraiyyə Komitəsi yanındakı Müşahidə Komissiyasının birgə təqdimati, intizam batalyonunda cəza çəkən şəxs barəsində isə, həmin hərbi hissənin komandirinin təqdimati ilə tətbiq edilə bilərdi.

SSRİ Ali Sovetinin Rəyasət Heyətinin 08 fevral 1977-ci il tarixli "SSRİ və müttəfiq respublikalarının cinayət qanunvericiliyinin Əsaslarına əlavə və dəyişikliklər edilməsi haqqında" Fərmanına uyğun olaraq Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin 28 mart 1977-ci tarixli Fərmanı ilə Azərbaycan SSR Cinayət Məcəlləsinin 50 və 50-1-ci maddələrinin redaksiyaları yenidən dəyişdirilmişdir. Həmin dəyişıkliklərə əsasən şərti olaraq vaxtından əvvəl azad etmənin tətbiqi imkanları genişləndirilmişdir. Belə

ki, xüsusi təhlükəli residivistlər, xüsusi təhlükəli dövləti cinayətlərə, habelə ağırlaşdırıcı hallarda qəsdən adam öldürməyə görə məhkum olunmuş, habelə ölüm cəzası bağışlanma və ya amnistiya qaydasında azadlıqdan məhrum etmə ilə əvəz edilmiş məhkumlar istisna olmaqla, digər məhkumlara şərti olaraq vaxtından əvvəl azad etmə tətbiq edilə bilərdi. Ağır cinayətlərə görə məhkum olunmuş, dəfələrlə məhkum edilmiş şəxslərə şərti olaraq vaxtından əvvəl azad etmə onlara təyin olunmuş cəza müddətinin azı dörddə üç hissəsini çəkdikdən sonra tətbiq edilə bilərdi. Təcrübə belə fərqli sosial yanaşmanın yüksək səmərəliyini göstərmişdir. Sonrakı illərdə Azərbaycanın Cinayət Məcəlləsinə edilmiş digər doqquz əlavə və dəyişikliklərlə şərti olaraq vaxtından əvvəl azad etmənin bir sıra məhkumlara tətbiqində, xüsusilə bir sıra ağır cinayətlərə görə məhkum edilmişlərə nisbətdə yeni qadağalar müəyyən edilmişdir.

Vaxtından əvvəl azad etmə institutunun və onu tənzimləyən qanunvericiliyin inkişafının üçüncü mərhələsi Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 30 dekabr 1999-cu il tarixdə yeni Cinayət Məcəlləsinin qəbuldan sonra başlanmışdır. 2000-ci ilin 01 sentyabrından qüvvəyə minmiş həmin məcəllənin digər, habelə 1960-ci ildəki Cinayət Məcəlləsindən əsas fərqi cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə institutunun cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz etmədən ayrılması, onların fərqli və müstəqil maddələr ilə tənzimlənməsidir. Yeni məcəllə cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə institutunun tətbiqində olan bütün məhdudiyyətləri ləğv etmişdir. Cinayət Məcəlləsinin 76-cı məddəsinə əsasən məhkəmə islah işləri, hərbi xidmət üzrə məhdudlaşdırma, azadlığın məhdudlaşdırılması, intizam xarakterli hərbi hissədə saxlama, müəyyən müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxsin islah olunmaq üçün cəzanı tam çəkməsinə lüzum olmadığı qənaətinə gəldikdə, həmin məhkumu cəzadan şərti olaraq vaxtından əvvəl azad edə bilər. Bu halda, şəxs tamamilə və ya qismən əlavə cəzadan da azad edilə bilər. Cəzadan şər-

ti olaraq vaxtından əvvəl azad etmənin müddəti Cinayət Məcəlləsi ilə müəyyən olunmuş cinayət əməlinin ağırlıq dərəcəsindən, yəni cinayətin kateqoriyasından asılıdır. Həmin Məcəlləyə uyğun olaraq məhkuma cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə:

- böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətməyə görə təyin edilmiş cəza müddətinin ən azı yarısını;
- ağır cinayət törətməyə görə təyin edilmiş cəza müddətinin ən azı üçdə iki hissəsini;
- xüsusilə ağır cinayət törətməyə görə təyin edilmiş cəza müddətinin ən azı dörddə üç hissəsini, habelə əvvəllər cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxsin şərti olaraq vaxtından əvvəl azad edilməsi Cinayət Məcəlləsinin 76.6-cı maddəsində nəzərdə tutulmuş əsaslara görə ləğv edilmişdirsə, yaxud əvvəllər azadlıqdan məhrum etmə növündə cəza çəkmiş şəxs cinayətlərin residivinə görə yenidən azadlıqdan məhrum etmə növündə cəzaya məhkum edilmişdirsə, bu halda da məhkuma cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə təyin edilmiş cəza müddətinin ən azı dörddə üç hissəsini həqiqətən çəkdikdən sonra tətbiq edilə bilər.

Cinayət Məcəlləsinin 57-ci maddəsinə əsasən məhkəmə ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxsin azadlıqdan məhrum etmənin ən azı iyirmi beş ilini həqiqətən çəkdiyini, onun bu cəzanı çəkdiyi müddətdə qəsdən cinayət törətmədiyini nəzərə almaqla, habelə onun həmin cəzanı çəkməsinə daha lüzum olmadığı qənaətinə gələrsə, məhkum cəzadan şərti olaraq vaxtından əvvəl azad edə bilər. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 513-cü maddəsinə uyğun olaraq cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə məsələsinə məhkumun ərizəsinə əsasən cəzaçəkmə müəssisəsinin müdiriyyətinin mülahizəsi nəzərə alınmaqla, cəzanın çəkildiyi yerin məhkəməsi tərəfindən baxılır.

Qeyd edilməlidir ki, Cinayət Məcəlləsinin 76-cı maddəsinə uyğun olaraq cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə zamanı azadlıqdan məhrum etmə cəzasının məhkum tərəfindən həqiqətən çəkilmiş müddəti altı aydan az ola bilməz. Eyni zamanda, cəza-

dan şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxslər üzərində məhkəmə tərəfindən qoyulmuş nəzarəti məhkumun yaşayış yeri üzrə icra məmurları, hərbi qulluqçular üzərində nəzarəti isə hərbi hissələrin və müəssisələrin komandanlığı həyata keçirirlər.

Bir müddət sonra Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə 31 may 2011-ci il tarixli Qanunla edilmiş dəyişikliklyə əsasən ağır cinayət törətməyə məhkum edilmiş şəxslər cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmək üçün artıq cəza müddətinin üçdə iki hissəsini yox, ən azı dörddə üç hissəsini həqiqətən çəkməli idilər.

Beləliklə, Azərbaycan Respublikasında cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə institutunun və onunla bağlı qanunvericiliyin 1920-2014-cü illərdəki təhlili bizə aşağıdakı nəticələrə gəlməyə imkan verir. Azərbaycan Respublikasında cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə institutu və onunla bağlı qanunvericilik:

- sabiq SSR İtifaqına daxil olan, habelə qonşu Rusiya Federasiyasında mövcud olmuş təcrübəyə oxşar və heç də asan olmayan yol keçmişdir;

- ilkin illərdə o ayrı-ayrı normativ aktlarla, sonradan ideoloji yanaşma və cinayətkarlığla mübarizənin gücləndirilməsi adı ilə tez-tez dəyişdirilən Cinayət Məcəllərinin müvafiq maddələri ilə tənzimlənmişdir;

- uzun illər cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsi institutu ilə birlikdə tənzimlənmiş, sonuncu Cinayət Məcəlləsində müstəqil hüquq institutu kimi fəaliyyət göstərməyə başlamışdır;

- tətbiq dairəsi tədricən genişləndirilmiş, azadlıqdan məhrum edilmiş şəxslərdən əlavə digər cəzalara məhkum edilmiş məhkumlara da tətbiq edilməsi nəzərdə tutulmuşdur;

- cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin tətbiqi qadağan edilmiş məhkumların siyahısı residiv cinayətkarlıqla, habelə müvafiq vaxtlarda xüsusi təhlükəli hesab edilən bir sıra cinayətlərlə mübarizənin gücləndirilməsi baxımından ardıcıl olaraq

genişlənmişdir.

Sonluqda qeyd etmək istərdik ki, Azərbaycan Respublikasında cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə institutunun və onunla bağlı qanunvericiliyin inkişaf tarixinin təhlili bizə belə nəticəyə gəlməyə imkan verir ki, həmin instituta cəzanın məqsədlərinə nail olunmasında əhəmiyyət kəsb edən, habelə məhkumların islahı prosesində güçlü stimul kimi çıxış edən vacib bir alət kimi uzun müddət tələbat olacaqdır. Eyni zamanda hesab edirik ki, həmin institutun təkmilləşdirilməsi və yenilənməsi ilə bağlı heç də az olmayan yeni imkanlar mövcuddur.

***İstinad edilmiş mənbə:***

***"Müasir dövrdə cəza-icra sistemi və onun inkişaf perspektivləri" mövzusunda Beynəlxalq elmi-praktiki konfrans iştirakşılarının çıxışlarının tezislərinin toplusu (rus dilində). Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası, Ryazan, 2014. Tom I, Səh. 176–185.***

## Azərbaycan Respublikasında cəzanın çəkilməmiş hissəsinin daha yüngul cəza növü ilə əvəz edilməsi

Cəzanın çəkilməmiş hissəsinin daha yüngul cəza növü ilə əvəz edilməsi ilə bağlı cinayət-hüquq institutu böyük tarixə malikdir. O, ilk dəfə, digər sabiq SSRİ respublikalarında olduğu kimi, artıq formalaşmış hüquq institutu kimi 25 dekabr 1958-ci il tarixli SSR və İttifaq respublikalarının cinayət qanunvericiliyinin əsaslarına istinadən 8 dekabr 1960-ci il tarixli Azərbaycan SSR-nin Cinayət Məcəlləsinə (bundan sonra Azərbaycan SSR CM) daxil edilmişdir. Cəzanın çəkilməmiş hissəsinin daha yüngul cəza növü ilə əvəz edilməsi, cəzadan azad edilmənin əsaslarından biri olmaqla, məhkumların hüquqa itaətli davranışının əldə edilməsinin güclü stimulu kimi çıxış edir, cəza çəkən şəxslərə müsbət təsir göstərir, azadlıqdan məhrum etmə yerlərində ictimai asayişin və intizamın möhkəmləşdirilməsinə dəstək göstərir. Azərbaycan SSR CM-in 50-ci maddəsinə əsasən azadlıqdan məhrum etmə, islah işləri, sürgün, köçürtmə, intizam batalyonuna göndərmə cəzaları təyin edilmiş məhkumların, həmin məcəllənin 50-1-ci maddəsində nəzərdə tutulmuş şəxslər istisna olmaqla, törədilmiş cinayətin agırlıq dərəcəsindən, əvvəlki məhkumluqdan, cəzanın çəkilməsi müddətində qəsdən törədilmiş cinayətdən, habelə Azərbaycan SSR CM-də nəzərdə tutulmuş bir sıra agır cinayətlərdən asılı olaraq, cəza müddətinin ən azı yarısı, ücdə iki və ya dördə üç hissəsi çəkildikdən sonra, məhkəmə onların cəzalarını daha yüngül cəza növü ilə əvəz edilə bilər. Qeyd ediməlidir ki, Azərbaycan SSR CM-in 50-ci maddəsinin ilkin redaksiyasında cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə və yaxud cəzanın çəkilməmiş hissəsinin daha yüngul cəza növü ilə əvəz etmə yalnız xüsusi təhlükəli residivist hesab edilmiş məhkumlara tətbiq edilmirdi. Cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə və yaxud cəzanın çəkilməmiş hissəsinin daha yüngul cəza növü ilə əvəz etmə yalnız o halda tətbiq edilirdi ki, məhkum cəzanın çəkilməsi müddətində özünün nümunəvi davranışı və əməyə vicdanlı yaanaşması ilə islah olunduğunu sü-

but etsin. 1977-ci ilin mart və 1982-ci ilin noyabrında Azərbaycan SSR CM-in 50-ci maddəsinə edilmiş dəyişikliklərlə qeyd olunan institutun tətbiq dairəsi genişləndirilmişdir. Belə ki, yuxarıda göstərilən şəxslərlə yanaşı, cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə, habelə yaxud cəzanın çəkilməmiş hissəsinin daha yüngul cəza növü ilə əvəz edilməsi imkanını əməyə mütləq cəlb edilməklə şərti məhkum edilmiş, əməyə mütləq cəlb olunmaqla azadlıqdan məhrum etmə yerlərindən şərti azad edilmiş, habelə tərbiyə-əmək profilaktikasına göndərmə növündə cəza təyin olunmuş məhkumlar da əldə etmişlər. 1992-ci ilin oktyabrında sürgün və köçürtmə cəzaları ləğv edildikləri səbəbindən, onlar Azərbaycan SSR CM-in 50-ci maddəsinin redaksiyasından çıxarılmışlar.

Azərbaycan SSR CM-ə şərti olaraq vaxtından əvvəl azad etmə və yaxud cəzanın çəkilməmiş hissəsinin daha yüngul cəza növü ilə əvəz etməni nəzərdə tutan digər, yəni 51-ci maddə də daxil edilmişdi, lakin həmin maddə cinayəti 18 yaşınadək dövrdə törətmiş şəxslər barədə tətbiq oluna bilərdi. Azərbaycan SSR CM-in 50-ci maddəsindən fərqli olaraq, sözügedən maddə azadlıqdan məhrum etmə və azadlıqdan məhrum edilmədən islah işləri cəzalarını çəkən məhkumlara hər hansı bir məhdudiyyət olmadan tətbiq oluna bilərdi. İlkin olaraq, 18 yaşınadək dövrdə cinayət törətmiş məhkumlara şərti olaraq vaxtından əvvəl azad etmə və yaxud cəzanın çəkilməmiş hissəsinin daha yüngul cəza növü ilə əvəz etmənin tətbiqi üçün məhkəmə tərəfindən təyin edilmiş cəzanın ən azı üçdə bir hissəsi çəkilməli idi. Lakin, sonradan 1970-ci ilin yanvarında sözügedən maddəyə dəyişikliklər edildikdən sonra, şərti olaraq vaxtından əvvəl azad etmə və yaxud cəzanın çəkilməmiş hissəsinin daha yüngul cəza növü ilə əvəz etmə bir sıra ağır cinayətlərə görə, habelə məhkumluğu olan və cəzanın çəkilməsi müddətində qəsdən yeni cinayət törətmiş şəxslərə, artıq təyin edilmiş cəzanın ən azı üçdə ikisini çəkildikdən sonra tətbiq oluna bilərdi.

Cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza ilə əvəz edilməsi imkaları Azərbaycan SSR CM-in 42 və 52-ci maddələrində

də nəzərdə tutulmuşdu. Həmin maddələrə uyğun olaraq, müvafiq olaraq məhkəmə hərbi qulluqçulara azadlıqdan məhrum etmə cəzası təyin edərkən müharibə vəziyyəti və hərbi əməliyyatların aparılmasını nəzərə alaraq, onların hökmlərin icrasını təxirə sala bilərdi, habelə amnistiya və əvfetmə aktları ilə cəzanın çəkilməmiş hissəsi daha yüngül cəza ilə əvəz oluna bilərdi.

Təcrübənin öyrənilməsi göstərdi ki, yeni Azərbaycan Respublikasında yeni Cinayət Məcəlləsi qəbul edilənə kimi məhkumlar bir qayda olaraq cəzadan şərti olaraq vaxtindan əvvəl azad edilirdilər, cəzanın daha yüngul cəza növü ilə əvəz etmə məhkəmələr tərəfindən tətbiq edilmirdi. Fikrimizcə, sözügedən təcrübə cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin, cəzanın daha yüngul cəza növü ilə əvəz olunmasının tətbiqi şərtlərinin eyni olması səbəbindən məhkumlar Azərbaycan SSR CM-in 50, 51-ci maddələrində nəzərdə tutulmuş cəza müddətini çəkdikdən sonra şərti olaraq vaxtından əvvəl azad edilməyə daha çox üstünlik verirdilər ki, bu da kifayət qədər anlaşılandır. Cəzanın daha yüngul cəza növü ilə əvəz edilməsi halları amnistiya və əfv aktlarında da nəzərdə tutulurdu. Belə ki, Azərbaycan Demokratik Respublikasının 74 illiyinə həsr edilmiş 15 iyul 1992-ci il tarixli Amnistiyanın 8-ci "b" bəndinə uyğun olaraq, bir sıra məhkumların azadlıqdan məhrum etmə cəzasının çəkilməmiş hissəsi, üç il sınaq müddəti təyin edilməklə, şərti cəza ilə əvəz edilmişdi. Ölkədə Respublika gününə həsr edilmiş 22 may 1996-cı il tarixli Amnistiyanın 4-cü bəndinə uyğun olaraq, qəsdən törədilmiş cinayətlərə görə üç ilədək azadlıqdan məhrum edilmiş bir qrup məhkumun cəzalarının çəkilməmış hissəsi, əməyə mütləq cəlb edilməklə, şərti məhkum etmə ilə əvəz olunmuşdu. Habelə, 1995–1996-cı illərdə dövlət başçısının iki əfvetmə aktına əsasən 12 məhkumun ölüm cəzası iyirmi ilədək azadlıqdan məhrum etmə ilə əvəz edilmişdi. Azərbaycan Respublikasında ölüm cəzası ləğv edildikdən və ömürlük azadlıqdan məhrum etmənin tətbiqinə başlandıqdan sonra 1998-ci ilin may və 2000-ci ilin avqust aylarında verilmiş iki əfvetmə fərmanına əsasən sözügedən cəzaya məhkum edilmiş səkkiz məhkumun cəzası

iyirmi ilədək azadlıqdan məhrum etmə ilə əvəz olunmuşdur. Eyni zamanda, cəzanın daha yüngul cəza növü ilə əvəz edilməsi halları ölkənin Azərbaycan SSR CM-dən cəza növünün çıxarılması ilə də bağlı olmuşdur. Belə ki, ölüm cəzasının ləğvi ilə əlaqədar qəbul edilmiş Azərbaycan Respublikasının 10 fevral 1998-ci il tarixli qanunu ilə müstəsna cəza növü tətbiq edilmiş 128 məhkumun cəzası ömürlük azadlıqdan məhrum etmə ilə əvəz edilmişdi.

Azərbaycan Respublikasının 30 dekabr 1999-cu il tarixli yeni Cinayət Məcəlləsində (bundan sonra AR CM) cəzanın daha yüngul cəza növü ilə əvəz edilməsi institutu əvvəlcə cinayət qanununun yalnız bir ayrı maddəsində və sabiq cinayət qanunu ilə müqayisədə fərqli şərtlərlə nəzərdə tutulmuşdu. Belə ki, AR CM-in 77-ci maddəsinə əsasən böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətməyə görə müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza çəkən məhkumun cəzasını çəkdiyi dövrdə davranışı nəzərə alınaraq, məhkəmə cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz edə bilər. Təhlil göstərir ki, cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz etmə ilə bağlı yeni norma sabiq Azərbaycan SSR CM-in 50-ci maddəsindən xeyli fərqlidir. Birincisi, sözügedən institutun yeni redaksiyasına əsasən, cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz etmə yalnız azadlıqdan məhrum etmə cəzasını çəkən məhkumlar barədə tətbiq edilə bilər. İkincisi, onun tətbiqi ilə bağlı məhdudiyyətlər mövcuddur, belə ki, agır və xüsusilə agır cinayətlərə görə məhkum edilmiş şəxslər cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz edilməsi ilə əlaqədar məhkəməyə müraciət edə bilməzlər. Üçüncüsü, əvvəllər cəza növü ilə əvəz edilməsi ilə əlaqədar tələb olunan cəza müddəti azaldılmış və hazırda cəzanın ən azı üćdə bir hissəsinin çəkilməsi kifayətdir. Dördüncüsü, məhkumdan özünün islah olunmasını sübut etmək tələb edilmir, onun yalnız müsbət davranışa malik olması yetərlidir. Qeyd olunmalıdır ki, cəzanın çəkilməmiş hissəsinin əvəz edilməsi zamanı, məhkəmə AR CM-in 42-ci maddəsində nəzərdə tutulmuş, lakin müvafiq cəzanın təyini ilə əlaqədar qadağaları nəzə-

rə almaqla, istənilən daha yüngül cəzanı, həmin cəza növü üçün cinayət qanunu müəyyən olunmuş həddə seçə bilər. Bu zaman məhkum tamamilə və ya qismən əlavə cəzadan da azad edilə bilər.

Azərbaycan Respublikasının 20 oktyabr 2017-ci il tarixli Qanunu ilə AR CM-ə yetkinlik yaşına çatmayan şəxslər barədə cəzasının çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsi ilə əlaqədar yeni 90-1-ci maddə əlavə edilmişdir. Sözügedən maddəyə əsasən, məhkəmə böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətməyə görə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum edilmiş yetkinlik yaşına çatmayan şəxsin ona təyin olunmuş cəza müddətinin ən azı dörddə bir hissəsini çəkdikdən sonra, cəzanın çəkilməsi müddətindəki davranışını nəzərə alaraq, cəzanın çəkilməmiş hissəsini istənilən daha yüngül cəza növü ilə əvəz edə bilər. Lakin belə əvəz etmə, yetkinlik yaşına çatmayan şəxslərə qanunvericiliklə tətbiq oluna bilən cəzalara uyğun həyata keçirilə bilər. Nəzərdən keçirilən yeni norma da Azərbaycan SSR-nin sabiq CM-in 51-ci maddəsindən fərqlidir. Birincisi, əvəz etmə yalnız azadlıqdan məhrum etmə cəzasını çəkən yetkinilik yaşına çatmayan məhkumlar barədə tətbiq edilə bilər. İkincisi, cəzanın çəkilməsi üçün tələb olunan vaxt cəza müddətinin dördə birinə kimi azaldılmışdır. Eyni zamanda, məhkum tamamilə və ya qismən əlavə cəzadan da azad edilə bilər. Qeyd etmək istərdik ki, yetkinlik yaşına çatmayan məhkumların cəzalarının daha yüngül cəza ilə əvəz edilməsi ilə bağlı oxşar maddələr Qazaxıstanın, Özbəkistanın, Tacikistanın CM-lərində də vardır. Rusiya Federasiyasının, Belarus respublikasının, Ukraynanın, Moldovanın, Gürcüstanın, Türkmənistanın cinayət məcəllələrində isə, müvafiq norma nəzərdə tutulmamışdır.

Qeyd olunmalıdır ki, AR CM-in 77 və 90-1-ci maddələri məhkəmələrdən müvafiq işlərə baxılması zamanı yalnız məhkumun cəzanın çəkilməsi dövründəki davranışını nəzərə alınmasını tələb edir. Öz növbəsində, Azərbaycan Respublikasının Ali Məhkəməsi 8 oktyabr 2010-cu il tarixli "Cəzadan şərti olaraq vaxtından əvvəl

azad etmə, cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz etmə, cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi və xəstəliyə görə cəzanı çəkməkdən azad etmə ilə bağlı məhkəmə təcrübəsi haqqında" Plenum Qərarında məhkəmələrə bu xarakterli işlərə baxarkən AR CM-lə nəzərdə tutulmuş şərtlərdən əlavə, cəzaçəkmə müəssisəsi tərəfindən məhkum barədə təqdim edilmiş mülahizəyə, onun törətdiyi cinayətə, əməyə münasibətinə, habelə ictimai və mədəni xarakterli tədbirlərdə konkret iştirakına da xüsusi diqqət yetirməyi tövsiyə etmişdir. Eyni zamanda, qeyd etməliyik ki, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin (bundan sonra AR CİM) 170-ci maddəsi cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz etmə zamanı yuxarıda sadalanan şərtlərdən əlavə, məhkumun təhsilə münasibətinin də nəzərə alınmasını tələb edir. Fikrimizcə, məhkəmələr tərəfindən sözügedən işlərə baxılması zamanı nəzərə alınması tövsiyə olunan şərtlərdən başqa cinayətlə vurulmuş ziyanın (hissəvi və yaxud tamlıqla) ödənilməsinin də əlavə olunmasını məqsədəuyğun hesab edirik.

AR CM-in yuxarıda istinad edilmiş iki maddəsindən əlavə, cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz etmə imkanı məcəllənin digər dörd maddəsində də təsbit edilmişdir. Belə ki, AR CM-in 57-ci maddəsinə uyğun olaraq, məhkəmə, məhkumun azadlıqdan məhrum etmənin ən azı iyirmi beş ilini həqiqətən çəkdiyini, həmçinin, onun bu cəzanı çəkdiyi müddətdə qəsdən cinayət törətmədiyini nəzərə alaraq, habelə həmin cəzanı çəkilməsinə daha lüzum olmadığı qənaətinə gəldikdə, məhkumun ömürlük azadlıqdan məhrum etmə cəzasını müəyyən müddətə azadlıqdan məhrum etmə ilə əvəz edə və ya onu bu cəzadan şərti olaraq vaxtından əvvəl azad edə bilər. Ömürlük azadlıqdan məhrum etmə cəzası ilkin olaraq on beş ilədək müəyyən müddətə azadlıqdan məhrum etmə ilə əvəz edilə bilərdi. Lakin, AR CM-in 57-ci maddəsinə 20 oktyabr 2017-ci il tarixli qanunla dəyişikliklər edildikdən sonra, həmin müddət on ilədək azaldılmışdır. Lakin, 1998-ci ilin fevral ayından ötən müddət ərzində ölkə məhkəmələri

tərəfindən ömürlük azadlıqdan məhrum etmənin müddətli azadlqdan məhkum etmə ilə əvəz edilməsi ilə bağlı qərar qəbul edilməmişdir.

AR CM-in 79-cü maddəsinə əsasən, cəzalarının çəkilməsi təxirə salınmış hamilə qadınlar və ya azyaşlı uşağı olan qadınlar, habelə on dörd yaşına çatmamış uşağını təkbaşına böyüdən kişilər, uşaq on dörd yaşına çatdıqda, məhkəmə məhkumu cəzanın çəkilməmiş hissəsindən azad və ya cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz edə bilər. AR CM-in 81, 82-ci maddələri də amnistiya və əvfetmə aktlarına əsasən cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz edilməsini nəzərdə tutmuşlar.

Ölkənin yeni cinayət qanununa əsasən cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz etmənin tətbiqinə toxunmaqla, qeyd etmək istərdik ki, Azərbaycanda, bir qayda olaraq, AR CM-in 79, 81, 82-ci maddələrindən istifadə edilir. Təhlil göstərir ki, ölkənin məhkəmələri tərəfindən AR CM-in 79-cü maddəsinə uyğun olaraq barələrində cəzanın çəkilməsi təxirə salınmış şəxslərin cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsi, nadir hallarda olsa da, tətbiq edilir. Belə təcrübə, ilk növbədə sözügedən məhkumların sayının az olması ilə bağlıdır. Belə ki, 1 iyul 2023-cü il tarixə Azərbaycan Respublikasının Ədliyyə nazirliyinin Probasiya xidmətinin qeydiyyatında barəsində cəzanın çəkilməsi təxirə salınmış cəmi 199 məhkum olmuşdur.

Azərbaycanda cəzanın çəkilməmiş hissəsinin amnistiya və əfvetmə aktların əsasında daha yüngül cəza növü ilə əvəz edilməsi təcrübəsi də davam etdirilmişdir. Belə ki, ikinci dünya müharibəsində faşizm üzərində qələbənin ildönümünə həsr edilmiş 6 may 2003-cü il tarixli Amnistiyanın 7-ci bəndinə uyğun olaraq müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının azadlıqdan məhrum etmə cəzasının çəkilməmiş hissəsi, eyni müddətə intizam xarakterli hərbi hissədə saxlama ilə əvəz edilmişdir. Həmin amnistiya aktının göstərilən bəndinə əsasən ehtiyatsızlıqdan törədil-

miş cinayətlərə görə yeddi ildən artıq olmayan, qəsdən cinayət törətdilməsinə görə isə, beş ildən artıq olmayan müddətə azadlıqdan məhrum edilmiş və cəzalarının çəkilməmiş hissəsi bir ildən artıq olmayan məhkumların cəzaları, eyni müddətə azadlığın məhdudlaşdırılması ilə əvəz edilmişdir.

2000-ci ilin sentyabrından 2022-ci ilin sonunadək imzalanmış 14 əfvetmə aktı ilə 21 məhkumun ömürlük azadlıqdan məhrum etmə cəzası iyirmi beş müddətinə azadlıqdan məhrum etmə ilə əvəz edilmişdir.

Yuxarıda göstərilmiş imkanlardan əlavə, təcrübədə cəzaların cəkilməmiş hissəsinin eyni müddətə digər cəzalarla əvəz edilməsinə, yeni AR CM-in qüvvəyə minməsi, habelə müvafiq cəza növünün cəza sistemindən çıxarılması ilə zamanı da rast gəlinmişdir. Belə ki, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" 30 dekabr 1999-cu il tarıxli Qanunun 8-ci və 9-cü maddələrinə uyğun olaraq 1960-cı il 8 dekabr tarixli Azərbaycan SSR CM-ə əsasən azadlıqdan məhrum etmədən islah işləri növündə cəzaya məhkum olunmuş və cəzalarını islah işlərinə baxan orqanların göstərişi ilə başqa yerlərdə çəkən, habelə əməyə mütləq cəlb etməklə azadlıqdan məhrum olunmağa şərti məhkum edilmiş və azadlıqdan məhrum etmə yerlərindən əməyə mütləq cəlb etməklə şərti azad edilmiş şəxslərin cəzasının çəkilməmiş hissəsi cərimə ilə əvəz olunmuşdur.

Azərbaycan Respublikasının 31 may 2011-ci il tarixli Qanunu ilə azadlığın məhdudlaşdırılması növündə dövlət məcburiyyət tədbiri cəza sistemindən çıxarılmışdı. Sözügedən qanunun keçid müddəalarına uyğun olaraq 1859 məhkumun azadlığın məhdudlaşdırılması cəzası, çəkilməmiş cəza müddətindən asılı olaraq, islah işləri və üç yüz manatdan min manatadək məbləğdə cərimə ilə əvəz edilmişdir.

Ölkənin 20 oktyabr 2017-ci il və 1 may 2020-ci il tarixli qanunları ilə AR CM-in Xüsusi hissəsində nəzərdə tutulmuş bir sıra əməllərə görə məsuliyyətin humanistləşdirilməsini nəzərdə tutan

çoxsaylı dəyişikliklər edilmişdir. Həmin dəyişikliklərə uyğun olaraq bir qrup məhkumun cəzanın çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edilmişdir.

Azərbaycanın azadlıqdan məhrum etmə yerlərindən azad edilmə təcrübəsinin öyrənilməsi nəticəsində müəyyən edilmişdir ki, həmin məqsədlə AR CM-in 77, 90-1-ci maddələri demək olar ki, tətbiq edilmir. Halbuki, rəsmi statistikaya uyğiun olaraq, Azərbaycan Respublikasında hər il qeydə alınan cinayətlərin 80 %-dən çoxunu böyük ictimai təhlükə törətməyən, az ağır cinayətlər təşkil edir və həmin həmin cinayətlərə görə məhkum olunan şəxslərin sayı da, ümumən həmin faizə bərəbərdir. Göstərilənlərə istinadən, qeyd olunan məhkumlara cəzanın müəyyən edilmiş müddəti çəkildıkdən sonra məhkəmələr tərəfindən AR CM-in 77, 91-ci maddəsi tətbiq oluna bilərdi. Lakin ölkənin məhkəmə təcrübəsində digər, fərqli mənzərə müşahidə edilir. Hesab edirik ki, belə vəziyyət, birincisi, qanunla cəzanın çəkilməmiş hissəsini əvəz etmənın, yalnız azadlıqdan məhrum edilmişlərə münasibətdə nəzərdə tutulması, digər cəzalara məhkum edilmiş şəxsləri həmin institutun tətbiqi ilə bağlı məhkəməyə müraciət etmək imkanından məhrum olunması ilə bağlıdır. İkincisi, hec də az olmayan müddət ərzində cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz etmənin tətbiq olunmaması və bu imkana ehtiyatlı yanaşılmasının səbəbləri öyrənilməmişdir. Üçüncüsü, belə təəssürat yaranır ki, məhkumların cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz etmə ilə bağlı təsəvvürləri yoxdur, onlarla cəzanın çəkilməsi dövründə aparılan hüquqi tərbiyə işi ilə bağlı tədbirlər zamanı sözügedən cəzadan azad edilmənin mahiyyəti, əsasları və əhəmiyyəti ilə bağlı ətraflı izahlar verilmir. Habelə, düşünürük ki, cəzaları icra edən müəssisə və orqanların rəhbərliyi və əməkdaşları məhkumların cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsi ilə bağlı azad olunmasına kifayət qədər əhəmiyyət yetirmirlər. Eyni zamanda, cəzaların icrasına nəzarəti həyata keçirən orqanlar nədənsə yaranmış vəziyyətilə bağlı məsələni aradırmaq və ətraflı nəzərdən keçirmək istəmirlər. Dördücü-

sü, cəzadan azad edilmənin əsasları ilə bağlı digər mövcud institutlardan fərqli olaraq, AR CM-in 77-ci maddəsinin ilkin redaksiyası, humanistləşdirmə daxil olmaqla, bir dəfə də olsun dəyişikliklərə məruz qalmamışdır.

Yuxarıda göstərilənlərə istinadən, yaranmış mövcud vəziyyəti dəyişdirmək məqsədilə, beynəlxalq təcrübə nəzərə alınmaqla, cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz etmə institutunu, onun tətbiq dairəsinin genişləndirilməsi və tətbiqi şərtlərinin dəyişdirilməsi yolu ilə bağlı təkmilləşdirilməsini təklif edirik. Birincisi, sözügedən institutunun islah işləri, azadlığın məhdudlaşdırılması cəzalarını çəkən, habelə intizam xarakterli hərbi hissədə saxlanılan məhkumlara da tətbiqini məqsədəuyğun hesab edirik. İkincisi, cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz etməni qanunverici tətəfindən müəyyən istisnalar qoyulmaqla, ağır cinayətlərə görə məhkum edilmiş bir qrup məhkumlara tətbiq olunması yaxşı olardı. Bu zaman təklif olunan məhkumlar üçün təyin edilmiş cəza müddətinin ən azı yarısının, yetkinlik yaşına çatmayanlar üçün isə-üçdə birinin çəkilməsini daha məqbul sayırıq. Üçüncüsü, məhkəmə qərarı ilə cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz edimiş şəxsin çəzadan qərəzli yayınması ilə bağlı məsuliyyətin müəyyən olunması vacib olardı. Sonuncu təklif artıq A. A. Urusovun, T. Q. Çernenko və İ. V. Masalitinanın da elmi məqalələrində öz əksini tapmışdır. Habelə, cəzaları icra edən müəssisə və orqanlarının müdiriyyətinə məhkumu cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz etmə ilə bağlı məhkəməyə təqdim edilməsi səlahiyyətinin verilməsini də məqsədə müvafiq hesab edirik.

Yetkinlik yaşına çatmayan məhkumlar da daxil olmaqla, cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsi institutunun tətbiqi qaydalarının daha ətraflı izah edilməsi, habelə məhkəmələrin diqqətinin AR CM-in 77, 90-1-ci maddəsinin tətbiqinə cəlb edilməsi məqsədilə Azərbaycan Respublikasının Ali Məhkəməsinə mövcud təcrübəni ümumiləşdirmək və qiymətləndirməklə, 8 oktyabr 2010-cu il tarixli müvafiq Plenum qərarına

dəyişikliklər edilməsi yaxşı olardı. Eyni zamanda, cəzaları icra edən müəssisə və orqanlarının rəhbərlərinə onların işini təşkil edən yuxarı orqanlar tərəfindən məhkumlarla tərbiyə işin aparılması prosesində cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsinin mahiyyəti və icra qaydası barədə izahlar verilməsi, habelə məhkumları cəzanın çəkilməsi ilə bağlı müəssisəyə qəbulu və müvafiq institutun tətbiqi ilə bağlı məhkəməyə müraciət hüququnun yaranması barədə məlumatlandırılması ilə əlaqədar tapşırıqlar verilməsi zəruridir. Öz növbəsində, cəzaları icra edən müəssisə və orqanların fəaliyyətinə nəzarəti həyata keçirən orqanların, habelə ictimai nəzarəti yerinə yetirən Azərbaycan Respublikasının Ədliyyə naziri yanında İctimai Komitəyə cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsi ilə əlaqədar məhkumların məhkəmələrə müraciət edilməsi ilə əlaqədar təcrübəni müntəzəm ümumiləşdirmək və nəticələri barədə nazirliyin rəhbərliyini məlumatlandırmaq zəruri olardı.

Qeyd etmək lazımdır ki, sözügedən analoji instututun təkmilləşdirilməsi və humanistləşdirilməsi ilə əlaqədar Rusiya Federasiyasının, Belarus respublikasının, Qazaxıstanın, Gürcüstanın, Özbəkistanın və Tacikistanın cinayət məcəllələrinə müxtəlif illərdə dəyişikliklər edilmişdir.

Düşünürük ki, cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsi təcrübəsinin genişləndirilməsi cəzaçəkmə müəssisələrində məhkumların sayının azalmasına, azadlıqdan məhrum edilmiş şəxslərin azad cəmiyyətə daha tez reinteqrasiya olunmasına töhfə verməklə yanaşı, əməkdaşların xidmət yükünün azalmasına, habelə azadlıqdan məhrum etmə yerlərinin saxlanmasına ayrılmış maliyyə vəsatinə qənaət edilməsinə imkanlar yarada bilərdi. Vurğulamaq istərdik ki, yuxarıda sadalanan təkliflər Azərbaycan Respublikasının Prezidentinin 10 fevral 2017-ci il tarixli "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncamında verilmiş vəzi-

fələrlə üst-üstə düşür. Belə ki, dövlət başçısı sözügedən sənəddə əsas hədəflərlə yanaşı, məhkumların sayının artması və penitensiar müəssisələrinin həddindən artıq yüklənməsi ilə bağlı narahatlığını da bildirmişdir. Belə ki, sərəncamın 10.4-cü bəndində Ədliyyə nazirliyinə müvafiq tapşırıq verilmiş, Ali Məhkəməyə, Baş Prokurorluğa azadlıqdan məhrum etmə cəzasının çəkilməmiş hissəsini daha yüngül cəza ilə əvəz etmə, cəzanın çəkilməmiş hissəsindən şərti olaraq vaxtından əvvəl azad etmə və şərti məhkum etmə institutlarının daha geniş tətbiq edilməsi məqsədilə qanun layihələrini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim olunması tövsiyə edilmişdir.

Yekunda qeyd etmək istərdik ki, yuxarıda göstərilən təkliflərin həyata keçirilməsi üçün AR CM-in 77, 90-1-ci və AR CİM-in 105, 171-ci maddələrinə dəyişikliklər ediləməsi zəruridir.

***İstinad edilmiş mənbə:***

***“Cinayət, cəza, islah” VI Beynəlxalq Penitensiar Forum. İştirakçıların çıxışlarının və məruzələrinin tezislərinin toplusu. Plenar iclasın materialları (rus dilində). Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası, Ryazan, 2023. Tom 1, Səh. 75–82.***

## Azərbaycan Respublikasında hamilə qadınlar və azyaşlı uşaqları olan şəxslər tərəfindən cəzanın çəkilməsinin təxirə salınması

Cinayət mühakiməsinin həyata keçirilməsi zamanı humanistliyin bir növü olan hamilə qadınlara və azyaşlı uşaqları olan şəxslərin cəzasının çəkilməsinin təxirə salınması, XIX əsrin ikinci yarısında, 1864-ci il tarixlı Cinayət mühakiməsi Nizamnaməsində həyata vəsiqə almışdır. Cəzadan azad edilmənin bir növü kimi çıxış edərək, o, özünü dövlətin azyaşlı uşaqlar barəsində qayğıkeşliyi, onların rifahının təmin edilməsi, valideynləri tərəfindən tərbiyə olunması və son nəticədə, ailənin saxlanması ilə bağlı maraqlarını özündə cəmləşdirir.

Qeyd etmək istərdik ki, azadlıqdan məhrum etmənın tətbiqinin azalmasına yönəlmiş beynəlxalq aktlar, digər alternativlərlə yanası cəzanın icrasının təxirə salınmasını da tövsiyə edirlər. Belə ki, BMT-nin 14 dekabr 1990-ci il tarixli "Həbslə bağlı olmayan tədbirlərlə əlaqədar minimal standart qaydalar (Tokio Qaydaları)"ın 8.2-ci bəndi cəzanın icrasının təxirə salınmasını tövsiyə edir. Daha əvvəl, yəni 22 yanvar 1965-ci il tarixdə Avropa Şurasının Nazirlər Komitəsi "Təxirə salınmış hökmlər, probasiya və azadlıqdan məhrum etməyə digər alternativlər"lə bağlı qərarında, üzv ölkələrin hökumətlərinə "ilk dəfə xüsusilə ağır olmayan cinayətlər törətmiş şəxs barəsindəki azadlıqdan məhrum etməni nəzərdə tutan hökmü, habelə sözügedən hökmü icraya yönəlməmişdən əvvəl şərti tədbirlə (təxirə salınmış hökmlə, probasiya barədə əmrlə və ya oxşar tədbirlərlə) əvəz etməklə və ya dəyişməklə əlaqədar hakimə, yaxud səlahiyyətli orqana hüquq verilməsini" tövsiyə etmişdir.

Sabiq SSRİ-də araşdırılan institut əvvəlcə hökmün icrasının təxirə salınması kimi təsbit edilmiş və ilk olaraq 25 dekabr 1958-ci il tarixli SSRİ və İttifaq respublikalarının Cinayət qanunvericiliyinin Əsaslarında nəzərdə tutulmuşdu. Həmin Əsasların 39-cu maddəsinə əsasən, hökmün icrasının təxirə salınması hərbi vəziyyət

zamanı hərbi qulluqçu və ya hərbi mükəlləfiyyətli şəxs barəsində tətbiq oluna bilərdi. Əsaslardakı həmin maddə XX əsrin 60-cı illərində İttifaq respublikalarının cinayət məcəllələrində, o cümlədən Azərbaycan SSR-nin Cinayət Məcəlləsinin (bundan sonra Azərbaycan SSR CM) 42-ci maddəsində öz əksini tapmışdır. Sözügedən Əsaslara 15 fevral 1977-ci il tarixli edilmiş dəyişikliklə yeni 39-1-ci maddə əlavə edildikdən sonra, hökmün icrasının təxirə salınması institutunun tətbiq dairəsi genişləndirilmiş, belə tədbir əlavə olaraq, ilk dəfə üç ilədək azadlıqdan məhrum etmə cəzasına məhkum edimiş yetkinlik yaşına çatmayanlara da təyin edilə bilərdi. SSRİ Ali Sovetinin 27 iyul 1982-ci il tarixli fərmanı ilə göstərilən maddənin redaksiyası dəyişdirildikdən sonra hökmün icrasının təxirə salınması, bir qrup məhkumlar istisna olmaqla, ilk dəfə üç ilədək azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş bütün məhkumlara tətbiq edilə bilərdi. Göstərilən oxşar dəyişikliklər Azərbaycan SSR-nin CM-ə də daxil edilmişdir. Hökmün icrasının təxirə salınması müddəti altı aydan iki ilədək təşkil edirdi.

SSR İttifaqı və ittifaq respublikaların cinayət qanunvericiliyinin 2 iyul 1991-ci il tarixli son Əsaslarında, hökmün icrasının təxirə salınması institutu onun 47-ci maddəsində, lakin çəzanın şərti tətbiq edilməməsi adı altında öz əksini tapmışdı. Həmin maddəyə əsasən, məhkəmə, törədilmiş cinayətin xarakterini və ictimai təhlükəlilik dərəcəsini, işin hallarını və təqsirkarın şəxsiyyətini, habelə məhkumun cəza çəkmədən islah olunması imkanlarını nəzərə alaraq, təyin edilmiş cəzanın tətbiq edilməməsi ilə əlaqədar qərar verə bilərdi. Sözügedən maddəyə uyğun olaraq cəzanın tətbiq edilməməsinin əsasları və şərtləri İttifaq respublikalarının Cinayət məcəllələri ilə müəyyən edilməli idi. Lakin SSRİ-nin süqutu ilə əlaqədar istinad edilən norma istifadəsiz qalmışdır. Eyni zamanda, Müstəqil Dövlətlər Birliyinin (bundan sonra MDB) iştirakçı dövlətlərinin Parlamentlərarası Assambleyası tərəfindən 17 fevral 1996-cı il tarixdə qəbul edilmiş tövsiyə xarakterli qanunvericilik aktı – model Cinayət Məcəlləsinin 80-ci maddəsi, hamilə və üç yaşınadək uşaqları olan qadınların cəzanı çəkməkdən azad edil-

məsini də nəzərdə tutmuşdu. Həmin normaya uyğun olaraq, məhkəmə, ağır və xüsusilə ağır cinayətlərə görə beş ildən yuxarı azadlıqdan məhrum edilmişlər istisna olmaqla, azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş hamilə və ana olmuş məhkum qadınları, qüvvədə olan qanunvericilikdə nəzərdə tutulmuş hamiləliyə, doğuşa və uşagın üç yaşı tamam olana kimi işdən azad edilmə müddətinə uyğun olaraq, cəzanı çəkməkdən azad edə bilərdi. Model məcəllənin müvafiq müddəaları, lakin bir sıra dəyişikliklər nəzərə alnmaqla, MDB-yə daxil olan sabiq respublikaların, o cümlədən Azərbaycan Respublikasının yeni Cinayət Məcəlləsinə (bundan sonra AR CM) daxil edilmişdir. AR CM-in 79-cu maddəsinə əsasən, şəxsiyyət əleyhinə ağır və ya xüsusilə ağır cinayət törətməyə görə beş ildən çox müddətə azadlıqdan məhrum etməyə məhkum edilmiş şəxslər istisna olmaqla, məhkəmə məhkum edilmiş hamilə qadınların və ya səkkiz yaşına qədər uşağı olan qadınların cəzalarının çəkilməsini uşaq səkkiz yaşına çatanadək təxirə sala bilərdi. Məhkum qadınlar üzərində nəzarəti həyata keçirən müvafiq dövlət orqanının xəbərdarlığından sonra uşaqdan imtina edildiyi və ya uşağı tərbiyə etməkdən boyun qaçırıldığı davam etdiyi halda, məhkəmə cəzanın çəkilməsinin təxirə salınmasını ləğv edə və məhkumu cəzanı çəkmək üçün hökmlə müəyyən olunmuş yerə göndərə bilərdi. Uşaq səkkiz yaşına çatdıqda, məhkəmə məhkum edilmiş şəxsi cəzanın çəkilməmiş hissəsindən azad edə və ya cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz edə bilərdi, yaxud məhkumu cəzanın qalan hissəsini çəkmək üçün müvafiq müəssisəyə göndərə bilərdi. Cəzanın çəkilməsinin təxirə salındığı müddətdə məhkum qadın tərəfindən yeni cinayət törədildikdə, məhkəmə tərəfindən, təxirə salınmanın ləğv edilməsi və ya saxlanması törədilmiş əməlin agırlığından asılı olaraq, həll edilirdi.

Azərbaycan Respublikasının cinayət qanunvericiyinin humanistləşdirilməsi prosesində cəzanın icrasının təxirə salınması institutu iki dəfə əhəmiyyətli qaydada dəyişdirilmişdir. Belə ki, 1 oktyabr 2007-ci il tarixli qanunla cəzanın icrasının təxirə salınması-

nın səkkiz yaşına çatmamış uşağını təkbaşına böyüdən kişilərə də tətbiq olunması nəzərdə tutulmuşdur. Belə dəyişiklikiyi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin Plenumu "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 79.1-ci maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin I, II və III hissələrinə, 26-cı maddəsinin II hissəsinə, 28-ci maddəsinin I hissəsinə, 147-ci maddəsinə və 149-cu maddəsinin I və III hissələrinə uyğunluğunun yoxlanılmasına dair" 2 mart 2010-cu il tarixli qərarında "cinslər arasında qeyri-bərabərliyinin" aradan götürülməsi kimi qiymətləndirmişdir. Sonra, yəni 20 oktyabr 2017-ci il tarixli qanunla, məhkumun uşagının yaşı on dördə kimi artırılmış, habelə uşaq on dord yaşa çatdıqdan sonra məhkum edilmiş şəxsin cəzanın qalan hissəsini çəkmək üçün hökmlə müəyyən edilmiş müəssisəyə göndərilməsi ilə bağlı müddəa ləğv olunmuşdur. Göstərilən halda, məhkəmə məhkumu cəzanın çəkilməmiş hissəsindən ya azad edir və yaxud cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz edir.

Azərbaycan Respublikasında cəzanın çəkilməsinin təxirə salınması ilə əlaqədar rəsmi statistika aparılmır, lakin Ədliyyə nazirliyinin Probasiya xidmətinin qeydiyyatında olan məhkumların sayı ilə bağlı təhlil göstərir ki, Azərbaycan Respublikasının məhkəmələri həmin istitututu müntəzəm tətbiq edirlər. Belə ki, 2018–2020-ci illər ərzində və 2021-ci ilin ilk səkkiz ayında 143 belə məhkum qeydiyyata götürülmüşdur. Əgər 2018-ci ilin əvvəlinə Probasiya xidmətinin qeydiyyatında sözügedən 112 məhkum olmuşdusa, 2019-cu ilin əvvəlinə həmin say artaraq 130, 2020-ci ildə 149, 2021-ci ilin istinad olunan dövründə isə 162 məhkum təşkil etmişdir. 2021-ci ilin 1 sentyabrına sözügedən məhkumların sayı 168 nəfər olmuşdur. Təhlildən göründüyü kimi müvafiq kateqoriyaya məxsus məhkumların sayı daim artmaqdadır.

Qeyd olunmalıdır ki, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinə (bundan sonra AR CİM) uyğun olaraq barəsində cəzanın icrasının təxirə salınması tətbiq edimiş şəxslər üzərində nəzarətin həyata keçirilməsi əvvəllər məhkumun yaşayış yeri

üzrə icra məmurlarına həvalə edilmişdi. Lakin, Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncamına və 20 oktyabr 2017-ci il tarixli AR CİM-ə edilmiş dəyişikliklərdən sonra nəzarətin aparılması vəzifəsi Probasiya xidmətinin probasiya üzrə icra məmurlarına verimişdir. Həmin əməkdaşlar sözügedən məhkumlara nəzarəti müvafiq qanunvericiliyin, Ədliyyə nazirliyinin 24 aprel 2018-ci il tarixli Kollegiya qərarı ilə təsdiq edilmiş "Şərti məhkum edilmiş, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş və cəzasının çəkilməsi təxirə salınmış şəxslər üzərində probasiya nəzarətinin həyata keçirilməsi Qaydaları"na uyğun həyata keçirirlər. İstinad edilən normativ aktların tələblərinə əsasən probasiya məmuru cəzasının çəkilməsi təxirə salınmış məhkumları qeydiyyata götürür, onların məhkəmə hökmünün və qanunvericiliyin tələblərinə riayət edilməsinə nəzarət edir, islah etmə, reabilitasiya və sosial adaptasiya ilə bağlı tədbirləri həyata keçirir, yeri məlum olmayan şəxslərin axtarılması ilə bağlı ilkin təbbirləri görür, müsbət nəticə olmadıqda, məhkumun axtarışa elan edilməsi ilə bağlı qərar qəbul edir, cəzadan yayınan məhkumlar barədə isə, cəzasının çəkilməsinin təxirə salınmasının ləğv edilməsi və ya azad edilməsi ilə əlaqədar məhkəməyə təqdimat və yaxud rəy göndərir.

Qeyd etmək istərdik ki, Azərbaycan Respublikasında cəzasının çəkilməsinin təxirə salınması institutu qarşısına qoyulmuş vəzifəni, ümumən uğurla yerinə yetirir. Belə ki, 2018–2021-ci illərdə Probasiya xidmətinin qeydiyyatında olan müvafiq məhkumlar tərəfindən cəmi dörd yeni cinayət törədilmiş, uşaqdan imtina etmə və ya uşağı tərbiyə etməkdən boyun qaçırma halları qeydə alınmamışdır. Lakin, cəzasının çəkilməsinin təxirə salınması institutunun təyini və icrası ilə bağlı müvafiq mexanizmin, yəni Azərbaycan Respublikasının Cinayət, Cinayət-Prosessual və Cəzaların İcrası məcəllələrində nəzərdə tutulmuş müvafiq normaların olma-

sına baxmayaraq, müvafiq prosedurların təkmilləşdirilməsinə ehtiyac duyulur. Belə ki, sözügedən məhkumlar üzərində probasiya nəzarətinin həyata keçirilməsində qanunvericilikdə müəyyən boşluqlar mövcuddur, habelə təcrübədə onlarla bağlı suallar yaranır. Belə ki, AR CİM-in 173.4-cü maddəsinə uyğun olaraq uşaq on dörd yaşına çatdıqda və ya uşaq vəfat etdikdə, məhkəmə məhkumun davranışını, uşağın tərbiyəsinə münasibətini nəzərə alaraq, onun cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi və ya cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsi, yaxud cəzaçəkmə müəssisəsinə göndərilməsi məsələsinə baxır. Bu zaman məhkəmə icra məmurunun mülahizəsini nəzərə almalıdır. Lakin AR CİM-in 79-cü maddəsi fərqli redaksiyada verilmişdir. Birincisi, məhkəmə məhkum edilmiş şəxsi cəzadan şərti olaraq vaxtından əvvəl deyil, cəzanın çəkilməmiş hissəsindən və yalnız bir halda, yəni uşaq on dörd yaşına çatdıqda azad edir. Bu maddədə uşağın vəfatı ilə əlaqədar məhkəmə tərəfindən məsələyə baxılması nəzərdə tutulmamışdır. İkincisi, cəzadan şərti olaraq vaxtından əvvəl azad etməni tənzimləyən AR CM-in 76-ci maddəsində, cəzasının çəkilməsi təxirə salınmış məhkumlara də sözügedən institututunun tətbiq edilməsi ilə əlaqədar müddəalar yoxdur. Nəticədə, hazırda cəzasının çəkilməsi təxirə salınmış məhkum uşagın yaşından asılı olaraq uzun müddət nəzarət altında qalmaqla, nəzərdə tutulmuş vaxtdan əvvəl azad edilmək imkanından məhrumdur ki, bu da fikrimizcə, humanizm prinsipi ilə uzlaşmır. Qeyd olunanlarla bağlı, habelə cəzasının çəkilməsi təxirə salınmış məhkumları onların üzərinə qoyulmuş vəzifələrin nümunəvi yerinə yetirilməsinə, qanuna itaətli davranışa həvəsləndirmək məqsədilə cinayət qanununda sözügedən şəxslərin təxirəsalınmanın maksimal müddətinin ən azı yarısı başa çatdıqdan sonra, onların şərti olaraq vaxtından əvvəl azad edilməsi imkanının nəzərdə tutulmasını məqsədəuyğun hesab edirik.

Azərbaycan Respublikasının cinayət qanunvericiliyinə müvafiq məhkumun yeni uşağının dünyaya gəlməsi, cəzasının çəkilməsi təxirə salınmış şəxsin özündən asılı olmayan səbəblərdən, o

cümlədən xəstəlik və yaxud sonradan alınmış əlillik səbəblərindən uşagına qayğı göstərməsi və qulluq etməsi mümkün olmadığı ilə bağlı məsələləri tənzimləyən normalar da daxil edilməmişdir. Belə ki, AR CM-in 78-ci maddəsində cəzasının çəkilməsi təxirə salınmış məhkumun xəstəliklə bağlı cəzadan azad edilməsi ilə bağlı müddəalar yoxdur. Eyni zamanda, sözügedən məhkumların əlilliyə görə cəzadan azad edilməsi ilə bağlı norma cinayət qanununda təsbit edilməmişdir.

Cəzasının çəkilməsi təxirə salınmış məhkuma nəzarətin daha səmərəli təşkili məqsədilə, onlara məhkəmə tərəfindən əlavə vəzifələrin, o cümlədən probasiya məmuruna məlumat vermədən daimi yaşayış yerini, təhsil yerini, iş yerini dəyişməməklə, müntəzəm olaraq şəxsən və yaxud telefon zəngləri vasitəsi ilə qeydiyyatdan keçməklə əlaqədar vəzifələrin həvalə edilməsini vacib hesab edirik. Təklif olunan vəzifələr cəzasının çəkilməsi təxirə salınmış şəxsin davranışına etibarlı nəzarətin həyata keçirilməsinə dəstək olmaqla, onunla reabilitasiya və sosial adaptasiya tədbirlərinin həyata keçirilməsini asanlaşdıra, sonuncunun özü və uşağı barədə mütamadi məlumat almağa, nəticə etibarı ilə isə, islah prosesinə kömək göstərə bilərdi.

Məhkumun yaşadığı yerdə onun maddi-məişət şəraiti ilə tanış olmaq, uşağı tərbiyə etməkdən boyun qaçırma və ya uşaqdan imtina etmə hallarını müəyyən etmək məqsədilə probasiya məmuruna məhkumun yaşayış yerinə başçəkmə həyata keçirilməsi vəzifəsinin həvalə olunmasını da məqsədəuyğun hesab edirik. Hazırda belə başçəkmə AR CİM -də nəzərdə tutulmasa da, yuxarıda istinad olunan Qaydanın 4.10-cü bəndinə uyğun və ayda bir dəfədən az olmayaraq həyata keçirilir. Bu səbəbdən qanun və normativ akt arasında mövcud uyğunsuzluğu aradan qaldırmaq lazımdır. Habelə, qanunda, yəni AR CİM-də "uşağın tərbiyəsindən imtina" halının anlayışını vermək zəruridir. Məhkumun sözügedən qanunda göstərilmiş əməlinə uşağın dogum evindən götürülməməsi və ya uşaq evinə verilməsi, antisosial həyat tərzi, uşağın tərbiyəsindən və ona qulluq etməkdən qəsdən boyun qaçırma, uşağı uzun müd-

dətə qohumlara və ya digər şəxslərə verilməsi, nəzarətdən yayınma hallarının daxil edilməsini təklif edirik. Qeyd olunmalıdır ki, Rusiya Federasiyasının Cəza-icra Məcəlləsinin 178-ci maddəsinin üçüncü hissəsində "uşağın tərbiyəsindən imtina" ya oxşar anlayış verilmişdir.

Nəticə olaraq qeyd etmək istərdik ki, yuxarıda verilmiş təkliflərdən bir hissəsi bu və ya digər formada alimlər N. İbrahimovanın, L. Kruqlikovanın, L. Çernışkovanın, Y. Postovalovanın, A. Kuznetsovanın elmi əsərlərində öz əksini tapmışdır.

Cəzasının çəkilməsinin təxirə salınması institutunun təkmilləşdirilməsi ilə əlaqədar təkliflərin həyata keçirilməsi məqsədilə AR CM-in 76, 78, 79-cu maddələrinə, AR CPM-in 509-511-ci maddələrinə, habelə AR CİM-in 172 və 173-cü maddələrinə dəyişikliklər edilməlidir.

***İstinad edilmiş mənbə:***

***"Cinayət, cəza, islah" V Beynəlxalq Penitensiar Forum. İştirakçıların çıxışlarının və məruzələrinin tezislərinin toplusu Plenar iclasın materialları. (rus dilində). Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası, Ryazan, 2021. Tom 1, Səh. 29–34.***

## 2011–2025–ci illərdə Azərbaycan Respublikasında amnistiya və əfvetmə insitutlarının tətbiqi, onların xüsusiyyətləri

Azərbaycan Respublikasında amnistiya və əfvetmə institutları dövlət müstəqilliyinin bərpasından sonra müntəzəm olaraq tətbiq edilməyə başlanılmışdır. Mahiyyətcə sözügedən aktlar bir-birinə oxşar olsalar da, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə (bundan sonra AR CM) uyğun olaraq amnistiyanın tətbiq dairəsi daha genişdir. Əfvetmədən fərqli olaraq amnistiya aktı ilə cinayət törətmiş şəxslər cinayət məsuliyyətindən, məhkumlar isə, əlavə cəzadan da azad edilə bilərlər.

Azərbaycan Respublikasında ilk amnistiya aktı 6 noyabr 1991-ci ildə qəbul edilmişdir. Həmin tarixdə cinayət məsuliyyətindən və cəzadan azad etmə ilə əlaqəli olmayan, yəni "Azərbaycan Respublikasının məhkəmələri tərəfindən müsadirə edilmiş və alınmış yaşayış evlərinin amnistiya qaydasında qaytarılması haqqında" digər bir Qanun da qəbul olunmuşdu. Sonrakı illərdə daha on beş amnistiya işıq üzü görmüşdür. Lakin amnistiya aktları 1996-cı ildən başlayaraq kifayət qədər əsaslandırılmaqla, yəni ölkədə real kriminogen durum, cinayətkarlığın dinamikası, qeydə alınan cinayətlərin növləri hərtərəfli təhlil edilərək, dövlətin və onun vətəndaşlarının maraqları nəzərə alınmaqla qəbul edilmişdir. Eyni zamanda, amnistiya qərarlarının hazırlanması prosesində məhkumların sayı, tərkibi, onların məhkum edildikləri maddələr, cəza müddətləri də ciddi şəkildə araşdırılmış, azad ediləcək şəxslərin ölkədəki sabitliyə və ictimai asayişə mümkün təsirləri nəzərdən keçirilmişdir. Əfvetmə aktlarının qəbulu təcrübəsi isə, 1995-ci ilin ikinci yarısından sonrakı dövrə təsadüf edir və onların müntəzəm, yəni hər il imzalanması ənənəsi bilavasitə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır.

Cəmiyyətdə dövlət tərəfindən bağışlanma aktları kimi xarakterizə edilən hər iki hüquq institutu ilə əlaqədar ilk növbədə qeyd olunmalıdır ki, AR CM-də təsbit edilmiş cinayət məsuliyyətindən

və cəzadan azad etmə, cəzanın yüngülləşdirilməsi ilə bağlı digər institutlardan fərqli olaraq, amnistiya və əfvetmənin tətbiqinin mümkünlüyü ölkə Konstitusiyasının 95-ci və 109-cu maddələrində də öz əksini tapmış, həmin hüquqa malik dövlət hakimiyyəti orqanları, yəni Azərbaycan Respublikasının Milli Məclisi (bundan sonra Milli Məclis) və Azərbaycan Respublikasının Prezidenti müəyyən edilmişdir. Eyni zamanda, vurğulanmalıdır ki, amnistiya və əfvetmə barədə qərarların qəbulunun müstəsna səlahiyyətlər olduğu baxımından 24 avqust 2002-ci ildə Əsas Qanunun 3-cü maddəsinə əlavə edilmiş yeni üçüncü hissəyə uyğun olaraq bir sıra digər məsələlərlə yanaşı, sözügedən aktlarla da bağlı Azərbaycan Respublikasında referendum keçirilməsinə məhdudiyyət qoyulmuşdur.

Azərbaycan Respublikasındakı hüquq ədəbiyyatında, ilk növbədə Cinayət hüququ dərsliklərində, AR CM-in kommentariyalarında aydınlıq gətirilməsinə, habelə, yeni cinayət qanunu qüvvəyə minənədək hüquq elmləri doktoru, professor X. Ələkbərovun cinayət məsuliyyətindən azad etməyə həsr edilmiş monoqrafiyasında amnistiya institutunun cinayət məsuliyyətindən azad etmənin bir növü kimi araşdırılmasına baxmayaraq, amnistiya və əfvetmənin xüsusi əhəmiyyət kəsb etdiyi nəzərə alınaraq, sözügedən hüquq institutları S.N. Rzayevanın dissertasiya tədqiqatının predmeti olmuşdur. Həmin hüquq institutlarının tarixləri, mahiyyətləri, mühüm əlamətləri, hüquqi təbiətləri, qəbulu prosedurları ətraflı təhlil edilməklə, onlara anlayış verilmiş, müvafiq qanunvericiliyin təkmilləşdirilməsinin nəzəri cəhətdən əsaslandırılmasına yönələn təkliflər irəli sürülmüş, habelə, hüquq ictimaiyyətinə amnistiya və əfvetmə ilə əlaqədar mükəmməl monoqrafiya təqdim olunmuşdur.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi də ölkənin Əsas Qanununa və digər qanunvericilik aktlarına istinadən amnistiya və əfvetmə aktlarının mahiyyətinə toxunmuş, onların qəbulu ilə əlaqədar nəzərə alınması vacib olan bir sıra tələbləri açıqlamışdır. Belə ki, Konstitusiya Məhkəməsi 3 mart 2020-ci il tarixli "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 83.4-cü

maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair" Plenum qərarında qeyd etmişdir ki, amnistiya və əfvetmə hüquqi təbiətinə görə humanizm, mütənasiblik prinsipləri və cinayətkarlıqla mübarizə sahəsində konstitusiya dəyərlərinin tarazlığı nəzərə alınmaqla, dövlət tərəfindən həyata keçirilən mərhəmət aktıdır. Bu konstitusiya səlahiyyətinin həyata keçirilməsi, nəinki siyasi və iqtisadi məqsədəuyğunluqdan, ilk növbədə ədalət və xeyirxahlığa olan inamdan, belə humanist addımın sosial şərtləndirilməsindən irəli gəlir. Bununla belə həmin səlahiyyətlər həyata keçirilərkən Konstitusiyada təsbit edilmiş insan hüquqlarının birbaşa qüvvəsi, sağlamlıq, mənəviyyat, ictimai asayişin qorunması, təhlükəsizlik və s. dəyərlərə xüsusi diqqət yetirilməlidir.

Məhkəmədən kənar cəzadan azad etmə institutları olmasına baxmayaraq, beynəlxalq aktlar da amnistiyanın və əfvetmənin tətbiqini təşviq edirlər. Belə ki, Birləşmiş Millətlər Təşkilatı (bundan sonra–BMT) "Mülki və siyasi hüquqlar haqqında" 16 dekabr 1966-ci il tarixli Paktın 4-cü maddəsində üzv dövlətlərə ölüm cəzasına məhkum edilmiş şəxslər də daxil olmaqla, məhkumlara amnistiya və əfvetmə aktlarının tətbiqini tövsiyə etmişdir. Eyni zamanda, Müstəqil Dövlətlər Birliyinin üzv dövlətlərdə insan hüquq və əsas azadlıqlarını təmin etmək məqsədi ilə Minsk şəhərində qəbul edilmiş, 26 may 1995-ci il tarixli "Hüquq və əsas azadlıqlar haqqında" Konvensiyanın 7-ci maddəsində milli qanunvericiliyə uyğun olaraq bütün məhkumların əfv edilməklə əlaqədar müraciət etmək hüququna malik olduqları vurğulanmışdır. Əlavə olaraq BMT, Avropa Şurası amnistiya və əfvetmə aktlarından həbs yerlərinin, cəzaçəkmə müəssisələrinin yüklənməsinin qarşısının alınması, azadlıqdan məhrum edilmiş şəxslərin sayının azaldılması və onların cəmiyyətə daha tez reinteqrasiyası məqsədi ilə də istifadə olunmasını tövsiyə etmişlər. Belə ki, BMT-nin 14 dekabr 1990-ci il tarixli "Həbslə bağlı olmayan tədbirlərə dair minimal standart qaydaları (Tokio qaydaları)"nın 9.2-ci bəndində, Avropa Şurasının "Həbsxanaların dolması və azadlıqdan məhrum etmə yerlərində saxlanılanların sayının artması problemi haqqında"

30 sentyabr 1999-cu il tarixli R(99) 22 nömrəli Tövsiyəsinin 23-cü bəndində amnistiya və əfvetmə aktlarından həbs edilmiş şəxslərin və məhkumların vaxtından əvvəl azad edilməsindən, onların sayının azaldılmasından əlavə, hüquqpozucularının azad cəmiyyətə normal qayıdışına səmərəli dəstək göstərən tədbir kimi də istifadə olunmasının vacibliyi də qeyd edilmişdir.

Sözügedən institutların mahiyyətini açıqlayan, qəbulu, tətbiqi qaydasını tənzimləyən ölkə qanunvericiliyi ilə əlaqədar ilk növbədə, amnistiya və əfvetmə məsələlərinin həlli qaydası haqqında Azərbaycan Respublikasının 29 iyul 1992-ci il tarixli Konstitusiya Qanununu qeyd etmək lazımdır. Həmin qanun müstəqil Azərbaycan Respublikasında sabiq SSRİ-nin süqutu ilə əlaqədar 1992-ci il yanvarın 1-dək məhkum edilmiş şəxslərə münasibətdə amnistiya və bağışlama aktlarının tətbiqini nizamlamaq, hər iki aktın şamil ediləcəyi şəxslərlə bağlı məsələlərə aydınlıq gətirilməsi məqsədilə qəbul edilmişdir. Eyni zamanda, amnistiya ilə əlaqədar digər normalar AR CM-in 81-ci maddəsində, habelə, amnistiya aktlarının tətbiqinin məhdudlaşdırılması, yəni qadağan edilməsi haqqında Azərbaycan Respublikasının 24 fevral 1994-cü il tarixli xüsusi qanununda öz əksini tapmışdır. Amnistiyanın tətbiqini nizamlayan digər, xüsusi normativ hüquqi akt olmadığı səbəbindən Milli Məclis tərəfindən qəbul edilən hər bir amnistiyanın mətninə, bir qayda olaraq, onun şamil edildiyi şəxslərin dairəsi, həmin aktın tətbiqi qaydaları, müvafiq məhdudiyyətlər, icraçıları, sənədin hüquqi qüvvəsi ilə bağlı müddəalar daxil edilir. Əfvetmə institutu ilə bağlı mövcud hüquqi baza isə, bir qədər genişdir. Belə ki, ilk növbədə ölkə Konstitusiyasının 65-ci maddəsində hər bir məhkumun əfv edilmək üçün müraciət etmək hüququ təsbit edilmişdir. Həmin hüquq Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin (bundan sonra AR CİM) məhkumların əsas hüquqlarına həsr edilmiş 10-cu maddəsində də öz əksini tapmışdır. AR CM-in 82-ci maddəsi öz növbəsində əfvetmənin mahiyyətini və onun tətbiqi çərçivəsini açıqlamışdır. Eyni zamanda, əfvetmə institutunun həyata keçirilməsi prosedurunu müəyyən etmək məqsədilə dövlət

başçısının 1995-ci il 4 may tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Bağışlama Məsələləri Komissiyası yaradılmışdı. Bir müddət sonra 19 iyun 2001-ci il tarixli Fərmanla sözügedən komissiyanın əvəzinə Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyası yaradılmış, 19 fevral 2016-cı il tarixli Fərmanla isə onun yeni tərkibi təsdiq edilmişdir. Sonrakı illərdə komissiyanın tərkibində müəyyən dəyişikliklər aparılmışdır. Hazırda komissiya sədrdən, on altı üzvdən, katibdən ibarət tərkibdə fəaliyyət göstərir, Azərbaycan Respublikasının Ali Məhkəməsinin sədrinə və Baş prokuroruna onun iclaslarında iştirak etmək tövsiyə olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti dövlətin Əsas Qanununda göstərilən müstəsna səlahiyyətinin 2000-ci ilin 1 sentyabrından qüvvəyə minmiş yeni cinayət qanunvericiliyi əsasında həyata keçirilməsini təmin etmək, müvafiq komissiyanın fəaliyyətini və əfvetmə prosedurunu təkmilləşdirmək məqsədi ilə 2001-ci il 19 iyul tarixli Fərmanla "Əfvetmə haqqında Əsasnamə"ni də təsdiq etmişdir. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının strukturundakı Hüquq mühafizə orqanları ilə iş şöbəsinin nəzdində Əfv məsələləri sektoru da təşkil edilmişdir. Habelə, qeyd olunmalıdır ki, amnistiya və əfvetmə institutları ilə əlaqəli ümumi normalar Azərbaycan Respubikasının Cinayət-Prosessual Məcəlləsində (bundan sonra AR CPM), AR CİM-in digər maddələrində də öz əksini tapmışdır.

Amnistiyanın əsas məqsədləri ilə əlaqədar qeyd etmək lazımdır ki, bu aktlar bir qayda olaraq, təhlükəlilik dərəcəsi yüksək olmayan, yəni böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə yol vermiş, barəsində təhqiqat, ibtidai istintaq aparılan şəxslərin cinayət məsuliyyətindən, habelə sözügedən cinayətlərə görə məhkum olunmuş şəxslərin cəzadan azad edilməklə, sonuncuların reabilitasiyasının və sosial adaptasiyasının tezləşdirilməsinə, məhkəmələrin, cəzaları icra edən müəssisə və orqanların işçi heyətinin xidmət yükünun, habelə, məhkumların, xüsusilə azadlıqdan məhrum edilmişlərin sayının azaldılmasına, ədalət mühakiməsinin hə-

yata keçirilməsinə, cəzaların, xüsusilə, azadlıqdan məhrum etmə cəzasının icrasına ayrılan dövlət vəsaitinə qənaət olunmasına xidmət edir.

Tətbiq dairəsi amnistiyadan dəfələrlə az olan əfvetmə aktının əsas məqsədi isə, ilk növbədə, cəza çəkən bir qrup şəxslərin, onların ailə üzvlərinin, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın), insan hüquqlarının müdafiəsi təşkilatlarının Azərbaycan Respublikasının Prezidentinə ünvanlanmış müraciətləri əsasında bilavasitə müvafiq məhkumlara məxsus xüsusiyyətlər, yəni şəxsiyyətləri, səhhətləri, ailə vəziyyətləri, törətdikləri cinayətlərin xarakteri və ictimai təhlükəlilik dərəcəsi, cəza çəkdikləri müddət, həmin müddətdəki davranışları, habelə, bir sıra digər xüsusatlar da nəzərə alınmaqla, onların cəzadan azad olunması və ya cəzalarının yüngülləşdirilməsi ilə əlaqədar fərdi qaydada bağışlanmasıdır. Əfvetmə, amnistiya aktı kimi humanizm, mərhəmət və insanpərvərlik prinsiplərinə əsaslanmaqla, ilk növbədə konkret məhkuma yönəlir. Fikrimizcə, hər iki bağışlanma aktını mahiyyət etibarı ilə cinayət törətmiş şəxslərə və məhkumlara dövlət tərəfindən göstərilən etimadı özündə əks etdirən humanist addım, habelə sözügedən şəxslərə şamil olunan xüsusi imtiyaz kimi də xarakterizə etmək olar. Yuxarıda istinad edilən dissertasiya və monoqrafiyada Azərbaycan Respublikasında 1991–2010-cu illərdəki amnistiya və əfvetmə aktları ilə bağlı məsələlər ətraflı tədqiq edilməklə, geniş məlumat verildiyi nəzərə alınaraq, sonrakı, yəni 2011–2025-ci illərdə qəbul edilmiş sözügedən hər iki növ aktların təhlili, onların oxşar və fərqli xüsusiyyətlərinin müəyyən edilməsi, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsinin hələ də aktuallıq kəsb etdiyi baxımından, onlar tərəfimizdən araşdırma predmeti seçilmişdir. Nəzərdən keçirilən dövrdə, yəni son on beş il ərzində Milli Məclis tərəfindən dörd, yəni 2013, 2016, 2021 və 2025-ci illərdə müvafiq olaraq Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 90 illiyi, Respublika günü, 8 Noyabr–Zəfər Günü, Konstitusiya və Suverenlik İli münasibəti ilə amnistiya aktları qəbul edilmişdir. Sözügedən aktların

hazırlanması prosesində yuxarıda göstərilən xüsusatlar yenə diqqətdə olmuş, qərar layihələri yekun olaraq cəmiyyətin, o cümlədən, cinayətlərdən zərərçəkmiş şəxslərin maraqları da nəzərə alınmaqla, mükəmməl hüquqi sənəd kimi Milli Məclisə təqdim edilmişdir. Həmin amnistiyalardan ikisinin yalnız məhkumlara, digərlərinin, yəni 2021 və 2025-ci il amnistiya aktlarının isə, məhkumlarla yanaşı, müvafiq qərar qüvvəyə minənədək barəsində istintaq və məhkəmə icraatı aparılan şəxslərə də samil edilməsi nəzərdə tutulmuşdur. Əvvəlki illərdə olduğu kimi, 2013–2021-ci illərdəki amnistiya aktlarının əsas icraçısı ölkənin cəza-icra sisteminin işini təşkil edən və ona rəhbərliyi həyata keçirən Ədliyyə nazirliyi olmuşdur. Həmin aktların icrasının dürüst və mütəşəkkil qaydada tətbiqinin təşkili, həvalə edilmiş vəzifələrin konkretləşdirilməsi, məsul şəxslərin müəyyən olunması, daimi nəzarətin həyata keçirilməsi və müəyyən edilmiş müddətlərdə yekunlaşdırılmasının təmini məqsədilə Ədliyyə nazirliyi tərəfindən geniş və əhatəli tədbirlər planları hazırlanmış, onlar nazirliyin kollegiyası tərəfindən təsdiq edilərək, icraya yönəldilmişdir. Nazirliyin Penitensiar, İcra, sonradan, yəni 2017-ci ilin sonundan fəaliyyətə başlamış Probasiya xidmətlərində, habelə, cəzaçəkmə müəssisələrində amnistiya qərarlarının icrası ilə bağlı xüsusi komissiyalar yaradılmışdır. Amnistiya aktlarının icrası prosesində daxil olmuş şikayətlərə baxılması məqsədilə nazirlikdə xüsusi monitorinq qrupu təşkil olunmuş və bütün müraciətlər nəzarətə götürülməklə, qısa müddətdə araşdırılmış və nəticələrinə uyğun olaraq zəruri tədbirlər görülmüşdür. Amnistiyaların icrası prosesi Ədliyyə nazirliyinin rəhbərliyinin daim nəzarətində olmuş, ayda bir dəfədən az olmayaraq ümumiləşdirilərək məruzə edilmiş, onların tətbiqi vəziyyəti barədə məlumatlar media vasitəsi ilə ölkə vətəndaşlarının nəzərinə çatdırılmışdır. Eyni zamanda, ölkənin Baş Prokurorluğu, onun aidiyyəti strukturları, müvafiq məhkəmələr, hərbi hissələrinin komandanlığı, habelə, 2021-ci ilin amnistiya aktının tətbiqi zamanı istintaq orqanları, həmin qərarların icrasının fəal iştirakçısı olmuş, qanunvericiliklə və amnistiya aktları ilə üzərlərinə qoyulmuş və-

zifələri layiqincə yerinə yetirmiş, sözügedən hər üç amnistiya qərarının müəyyən olunmuş vaxtda, tamlıqla və qüsursuz yekunlaşmasına öz töhfələrini vermişlər. 19 dekabr 2025-ci il tarixli amnistiya aktının da icraçıları dəyişməmiş, sözügedən əsas icraçı tərəfindən tədbirlər planını özündə əks etdirən aidiyyəti əmr imzalanmış, onun da yuxarıda göstərilən qurumlar tərəfindən mütəşəkkil qaydada və müvafiq zaman çərçivəsində təmin ediləcəyi də heç bir şübhə doğurmur. Belə ki, ölkənin Ədliyyə Nazirliyinin ilkin məlumatına əsasən amnistiya qərarı onun icrasına başlandığı qısa müddət ərzində, yəni 22 dekabr 2025-ci il tarixdən 7 yanvar 2026-cı il tarixinədək Penitensiar və Probasiya xidmətləri üzrə (Naxçıvan MR da daxil olmaqla) artıq 3 min 846 məhkum barəsində tətbiq olunmuşdu.

Araşdırılan son dörd amnistiyanın, 1991–2009-cu illərdə qəbul edilmiş digər on iki müvafiq aktla müqayisəli təhlili ilə onların oxşar və fərqli cəhətləri müəyyən edilmişdir. Amnistiyaların oxşarlığı aşağıdakılarla xarakterizə edilir:

– onlar, bir qayda olaraq, Azərbaycan dövləti və xalqı üçün əziz, tarixi əhəmiyyət kəsb edən əlamətdar hadisələrə, günlərə həsr edilmişdir. Eyni zamanda, 9 iyun 1993-cü il tarixli amnistiya qanununun tətbiq dairəsi kifayət qədər məhdud olmaqla, xüsusi məqsəd daşımış, yəni onun yalnız Gəncə şəhərində 1993-cü il 4–10 iyun tarixlərində baş vermiş məlum hadisələrdə iştirak etmiş şəxslərə tətbiqi nəzərdə tutulmuşdu;

– aktların təşəbbüskarları Azərbaycan Respublikasının Prezidenti və Heydər Əliyev Fondu olmuşdur;

– yalnız bir kateqoriya məhkumlara, yəni hərbi cinayətlər törətmiş şəxslər barəsində tətbiq edilmiş 17 oktyabr 1997-ci il tarixli Qərar istisna olmaqla, onlar bir qayda olaraq, böyük ictimai təhlükə törətməyən və az agır cinayətlər törətmiş, habelə, həmin əməllərə görə AR CM-in 42-ci maddəsində nəzərdə tutulmuş əsas cəza növlərinə məhkum edilmiş şəxslərə samil edilmişdir. Eyni zamanda qeyd olunmalıdır ki, bir sıra hallarda cəza müddətinin sonuna az, əsasən altı ay qalmış ağır və xüsusilə ağır cinayətlərə

görə məhkum edilmiş şəxslərə də amnistiya aktı tətbiq edilmişdir. Lakin AR CM-in 81-ci maddəsi ilə amnistiyanın ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxslərə də tətbiqinə məhdudiyyət qoyulmasa da, sözügedən məhkumlara amnistiya aktlarının şamil edilməsi nəzərdə tutulmamışdır;

– məhkumlardan əlavə, barəsində cinayət icraatı aparılan şəxslərə də tətbiqi təsbit olunmuşdur (2021 və 2025-ci ilin amnistiyaları);

– bəzi məhdudiyyətlər nəzərə alınmaqla, təyin edilmiş cəzanın növündən və müddətindən asılı olmayaraq, bir qrup məhkumların, yəni Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunması uğrunda aparılan döyüş əməliyyatlarında iştirak etmiş, sabiq SSRİ-nin, habelə, Azərbaycan Respublikasının orden və medalları ilə təltif edilmiş, 1990-cı il 20 Yanvar faciəsində əlil olmuş şəxslər və ya şəhid olmuş şəxslərin yaxın qohumlarının, Xocalı soyqırımında əlil olmuşların, bu zaman həlak olmuş və ya xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumlarının, qadınların, yetkinilk yaşına çatmayanların, habelə himayəsində yetkinlik yaşına çatmayan uşaqları olanların və bir sıra digər kateqoriyalı məhkumların cəzadan azad edilməsi nəzərdə tutulmuşdur. 2025-ci ilin amnistiya aktına yuxarıda sadalanan şəxslərin siyahısına əlavə olaraq Vətən müharibəsində və 2023-cü ilin sentyabr ayının 19–20-də keçirilmiş antiterror əməliyyatında istirak etmiş şəxslər, həmin əməliyyatda həlak olmuş və itkin düşmüş şəxslərin yaxın qohumları da daxil edilmişdir;

– cərimə növündə cəzaya məhkum edilmişlərə fərqli yanaşma tətbiq edilmiş, yəni, törədilmiş cinayətin ağırlıq dərəcəsindən, təyin edilmiş və ödənilməmiş məbləğdən asılı olaraq, habelə, məhkum qadınlara daha imtiyazlı münasibət sərgilənmişdir;

– digər dövlətlərin ərazisində cinayət törətdiklərinə görə məhkum edilmiş və Azərbaycan Respublikasında cəza çəkən ölkə vətəndaşlarına da şamil olunması nəzərdə tutulmuşdur;

– ölkə vətəndaşlarından əlavə, Azərbaycan Respublikasında cinayət məsuliyyətinə cəlb olunmuş, habelə məhkum edilmiş əcnəbi

vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə də tətbiqi təsbit edilmişdir;

– əsas cəzadan azad edilən bir qrup şəxslərin əlavə cəzadan da azad edilməsi mümkün hesab olunmuşdur (2021-ci il amnistiyası);

– cəzanı çəkməkdən azad edilmiş bir qrup məhkumun üzərindən məhkumluğun götürülməsi nəzərdə tutulmuşdur (2021-ci il amnistiyası);

– icra edilməsi qaydası, yəni proseduru, habelə, onların tətbiqini həyata keçirən müəssisə və orqanların dairəsi dəyişməmişdir;

– tətbiqinə qoyulmuş məhduduyyətlər, 15 iyul 1992-ci il tarixli amnistiya aktı istisna olmaqla, demək olar ki, eyni olmuşdur. Misal üçün, amnistiyanın maddi ziyanı tam ödəməmiş, təhlükəli və ya xüsusilə təhlükəli residiv yaradan cinayətlərə görə məhkum edilmiş və ya 2000-ci il sentyabrın 1-dək qüvvədə olmuş AR CM-nə əsasən xüsusi təhlükəli residivist hesab olunmuşların, 1991-ci il oktyabrın 18-dən sonra amnistiya və ya əfvetmə aktları ilə qəsdən törədilmiş cinayətlərə görə cəzaçəkmə müəssisələrində azadlıqdan məhrum etmə cəzasını çəkməkdən azad edilmiş və yenidən qəsdən cinayət törətmiş, cəzaçəkmə müəssisələrində və ya intizam xarakterli hərbi hissədə cəza çəkərkən, habelə, həbs yerlərində saxlanılarkən qəsdən cinayət törətmiş şəxslərə tətbiqinə qadağa qoyulmuşdur. Eyni zamanda, 15 iyul 1992-ci il tarixli amnistiya aktı, məhkəmə tərəfindən əvvəllər xüsusi təhlükəli residivist hesab edilmiş və həmin vaxtda cəzalarını xüsusi rejimli islah-əmək müəssisəsində çəkən məhkumlara da tətbiq edilmiş və onlar ciddi rejimli müəssisəyə keçirilmişlər. Müvafiq qərar, ilk növbədə, həmin dövrdə ölkədə xüsusi rejimli islah-əmək müəssisəsinin olmadığı və sabiq SSRİ dövlətinin süqutu ilə əlaqədar Azərbaycan Respublikası vətəndaşı olan bir qrup xüsusi təhlükəli residivist hesab olunmuş məhkumun cəzalarını çəkmək üçün Azərbaycana qaytarılması ilə bağlı yaranmış problemin həlli məqsədi daşımışdır;

– tətbiq müddətləri dörd ay müəyyən edilmiş və sözügedən ilk üç qərar həmin vaxt çərçivəsində yekunlaşdırılmışdır. 2025-ci il amnistiyasının da icra müddəti dörd ay müəyyən olunmuşdur. Eyni zamanda, 6 noyabr 1991-ci il tarixli amnistiyanın tətbiqi müddəti iki dəfə artırılmışdı. Belə ki, Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurasının qərarına əsasən həmin amnistiya aktının icra müddəti əvvəlcə 28 may 1992-ci lədək, sonradan Milli Məclisin qərarı ilə isə, 1992-ci ilin iyul ayının 29-dək uzadılmışdı. Müvafiq qərarların qəbulu Azərbaycan Respublikası məhkəmələri tərəfindən məhkum edilmiş, lakin cəzasını sabiq SSRİ-yə daxil olan respublikaların ərazisində çəkən məhkumlar barədə sənədlərin vaxtında göndərilməməsi və həmin şəxslərə amnistiyanın tətbiqinin təmin edilməsi ilə əlaqədar olmuşdur;

– Azərbaycan Respublikasının 24 fevral 1994-cü il tarixli qanununda nəzərdə tutulmuş cinayətləri, yəni 1990-cı il yanvarın 19–20-də Bakı şəhərinə Sovet qoşunlarının qanunsuz yeridilməsi ilə əlaqədar törədilmiş cinayətlərdə, Xocalı soyqırımının baş verməsində, Azərbaycan Respublikası torpaqlarının erməni silahlı qüvvələri tərəfindən işğal edilməsində təqsirli olan şəxslərə münasibətdə tətbiqinə qadağa qoyulmuşdur;

– AR CİM-in 175–177-ci maddələrinin tələblərinə uyğun olaraq, cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası, onlara zəruri yardımlar göstərilməsi ilə bağlı aidiyyəti dövlət orqanlarına tapşırıqlar verilmişdir;

– qərarların icrası ilə əlaqədar aidiyyəti dövlət orqanları tərəfindən geniş maarifləndirmə tədbirləri aparılmış, müntəzəm olaraq onların gedişatı ilə bağlı ictimaiyyətə müxtəlif formatlarda və media vasitəsi ilə məlumatlar təqdim edilmişdir;

– bir qayda olaraq, qərarların tətbiqi, xüsusilə azadlqdan məhrum edilmiş məhkumların cəzadan azad edilməsi proseduru ictimaiyyətin iştirakı ilə və təntənəli şəkildə həyata keçirilmişdir.

Sözügedən amnistiya aktlarının əvvəlki amnistiyalardan müəyyən fərqli cəhətləri də olmuşdur ki, bununla əlaqədar aşagıdakılar qeyd edilməlidir:

– onlar yalnız Milli Məclisin vahid qərarları şəklində verilmişdir. Eyni zamanda, 1991–1993-cü illərdəki ilk üç amnistiya aktı qanunlar kimi təsdiq olunmuş, onlardan tətbiqi üzrə əlavə olaraq qanunvericilik orqanının müvafiq qərarları da qəbul edilmişdir. Məlumat məqsədilə bildirilir ki, bir sıra dövlətlərdə amnistiyalar qanunlarla elan edilir;

– icrası prosesində onlara dəyişikliklər və ya əlavələr olunmamış, habelə, tətbiqinin şərhi ilə əlaqədar əlavə qərarlar qəbul edilməmişdir. Belə ki, "Azərbaycan Demokratik Respublikasının 74 illiyi münasibətilə amnistiya verilməsi haqqında" 15 iyul 1992-ci il tarixlı Qanunun tətbiqi ilə bağlı Milli Məclisin 14 oktyabr tarixli qərarı ilə sözügedən amnistiyanın bəzi maddələrilə əlaqədar izahlar verilmiş, 27 oktyabr 1992-ci il tarixli Qanunla isə, ona dəyişikliklər və əlavələr edilərək, tətbiqinə qoyulmuş məhdudiyyətlərin dairəsi bir qədər genişləndirilmişdir;

– qərarların qəbul edilmə intervallarının, yəni onlar arasındakı müddətlərin artması müşahidə olunmuşdur. Belə ki, əgər 1991–2009-cu illərdə, yəni on səkkiz ildə on iki, yəni orta hesabla hər il yarım ərzində bir qərar qəbul edilmişdisə, son on beş il ərzində (2011–2025-ci illərdə) isə dörd, yəni təxminən hər dörd ildə bir qərar qəbul edilmişdir;

– qərarların tətbiq dairəsi ardıcıl olaraq artırılmış, şamil edilməsi nəzərdə tutulan şəxslərin siyahısı genişləndirilmişdir;

– tətbiq olunmuş şəxslərin sayı artmış, yəni 10 min 40 nəfərdən (2013-cü il) 17 min 267 nəfərə (2021-ci ilin amnistiyasında) kimi yüksəlmişdir. 19 dekabr 2025-ci il tarixli amnistiyanın da əhatə dairəsi genişləndirilərək, ümumilikdə onun iyirmi minə yaxın təqsirləndirilən şəxsə və məhkuma şamil ediləcəyi gözlənilir. Sözügedən sonuncu bağışlanma aktı Azərbaycan Respublikasının müstəqillik tarixinin ən böyük amnistiyası kimi qəbul edilir.

– azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxslərin, xüsusilə cəzasının çəkilməmiş hissəsi azaldılan məhkumların sayı xeyli artmışdır. Belə ki, 2013 və 2016-cı illərin amnistiyaları ilə müqayisədə 2021-ci ildəki qərarla cəza müddəti azaldılmış

azadlıqdan məhrum edilmiş məhkumların sayı beş dəfədən çox olmuşdur. 2025-ci il amnistiyası ilə də azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxslərin, habelə cəzasının çəkilməmiş hissəsi azaldılan məhkumların sayının yenə də xeyli artacağı gözlənilir;

– Azərbaycan Respublikasının 24 fevral 1994-cü il tarixli qanununda nəzərdə tutulmuş şəxslər istisna olmaqla, törədilmiş cinayətin növündən və təsnifatından, habelə çəkilməmiş cəza müddətindən asılı olmayaraq, azadlığın məhdudlaşdırılması, intizam xarakterli hərbi hissədə saxlama cəzalarına məhkum edilmiş bütün şəxslərin cəzadan azad edilməsi nəzərdə tutulmuşdur (2025-ci ilin amnistiyası);

– təyin edilmiş cəzanın digər, daha yüngül cəza növü ilə əvəz edilməsi ilə əlaqədar müddəalara rast gəlinməmişdir. Əvvəlki amnistiya aktlarında sözügedən əvəz etmə halları nəzərdə tutulmuşdu. Belə ki, 6 noyabr 1991-ci il tarixli amnistiyada azadlıqdan məhrum edilmiş bir qrup məhkumun cəzasının əməyə mütləq cəlb edilməklə şərti azad etmə ilə əvəz olunması təsbit edilmişdi. Eyni zamanda, 6 may 2003-cü il tarixli amnistiya aktına əsasən isə, azadlıqdan məhrum edilmiş bir qrup məhkumun, habelə, həmin cəzaya məhkum edilmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının çəkilməmiş cəza müddətləri, müvafiq olaraq azadlığın məhdudlaşdırılması və intizam xarakterli hərbi hissədə saxlama ilə əvəz edilmişdi;

– tətbiqi ilə bağlı zərurət yarandığı hallarda, onu icra edən müəssisə və ya orqanın müraciəti əsasında “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq izahlar verilməsi vəzifəsi Azərbaycan Respublikası Ali Məhkəməsinə tapşırılmışdır (2021 və 2025-ci ilin amnistiyaları).

– əvvəlki illərdə qəbul olunmuş qərarlardan fərqli olaraq, 2025-ci ilin amnistiya aktında alkoqolizmdən, narkomaniyadan və ya zöhrəvi xəstəliklərdən məcburi müalicə təyin olunmuş şəxslər barəsində amnistiyanın tətbiq edilməsinə dair müvafiq müddəalar öz əksini tapmamışdır. Belə yanaşma müvafiq şəxslərə amnistiya-

nın şamil edilməsi prosesində müəyyən sualların yaranmasına zəmin yaradacaqdır. Fikrimizcə, əvvəlki amnistiya qərarlarında olduğu kimi sonuncu amnistiya qərarının mətninə də qeyd olunan aidiyyəti bəndin, yaxud alkoqolizmdən, narkomaniyadan və ya zöhrəvi xəstəliklərdən məcburi müalicənin cəzadan azad edildikdən sonra müvafiq qanunvericiliyə uyğun olaraq, o cümlədən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Plenumunun 28 iyul 2023-cü il tarixli "Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 17.1, 17-1.1, 17-1.5 və 17-1.6-cı maddələrinin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 93-1.1-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair" Qərarı nəzərə alınmaqla, həyata keçirilməsi ilə bağlı müvafiq müddəanın daxil edilməsi məqsədəuyğun olardı. Eyni zamanda, nəzərə almaq lazımdır ki, sözügedən amnistiyanın 36-cı bəndində qərarı tətbiq edən müəssisə və ya orqanın müraciəti əsasında Azərbaycan Respublikasının Ali Məhkəməsinin Plenumuna amnistiyanın tətbiqi ilə bağlı qarşıya çıxan məsələlərlə uzrə izah vermək səlahiyyəti verilmişdir.

2013, 2016 və 2021-ci illərdə qəbul edilmiş üç amnistiyanın icrasının yekunları ilə bağlı rəsmi məlumatlara istinadən, onlar ümumilikdə 38 min 238 şəxsə tətbiq edilmişdir. Həmin şəxslərin 12 min 340 nəfərini azadlıqdan məhrum etmə, 11 min 256 nəfərini islah işləri, 6 min 212-ni cərimə, 4 min 846-nı (onlardan, 2 min 837 məhkumun cəzasının çəkilməmiş hissəsi bir il müddətinə azaldılmışdır) azadlığın məhdudlaşdırılması növündə cəza çəkən məhkumlar təşkil etmişdir. Habelə, 2 min 675 nəfər cinayət törətmiş şəxs barəsində amnistiya tətbiq edilərək, istintaq orqanları tərəfindən cinayət təqibinə xitam verilmiş və ya həmin şəxslərin təyin edilmiş cəzadan azad edilməsini nəzərdə tutan məhkəmələrin ittiham hökmü çıxarılmışdır. Eyni zamanda, sözügedən amnistiya aktları şərti məhkum edilmiş, cəzadan şərti olaraq vaxtından əvvəl azad olunmuş, cəzasının icrası təxirə salınmış 580, ictimai işlər növündə cəza təyin olunmuş 224 məhkum barəsində tətbiq edilmişdir. Həmin qərarlar, umumilikdə 1 min 894 qadına, 238 yetkinlik yaşına çatmayana, 123 intizam xarakterli hərbi hissədə cəza

çəkənə, habelə 172 əcnəbi və vətəndaşlığı olmayan məhkuma da samil edilmişdir. Qeyd olunmalıdır ki, 1996–2021-ci illərdə qəbul edilmiş on iki amnistiya aktı 135 mindən artıq təqsirləndirilən şəxs və məhkuma şamil olunmuş, ümumən cəzaçəkmə müəssisələrindən 32 mindən çox məhkum azad edilmişdir. Eyni zamanda, 1991–1993-cü illərdə Azərbaycan Respublikasında qəbul edilmiş ilk üç amnistiya, təxminən iyirmi mindən çox şəxsi əhatə etmişdir. Beləliklə, Azərbaycan Respubklikasında 1991–2021-ci illər ərzindəki on beş amnistiya aktı təxminən yüz altmiş minə yaxın təqsirləndirilən şəxsə və məhkuma tətbiq olunmuşdur. 2025-ci ilin dekabr ayının 19-da qəbul edilmiş qərar da nəzərə alınmaqla, müstəqillik illərində ölkədə amnistiya aktları tətbiq edilmiş şəxslərin sayı yüz səksən min nəfərə çatacaqdır. Xüsusi olaraq vurğulanmalıdır ki, digər dövlətlərlə müqayisədə Azərbaycan Respublikasında qəbul edilmiş amnistiya aktlarının sayı daha çoxdur. Araşdırmalar göstərdi ki, bir sıra sabiq SSRİ respublikalarında da amnistiya aktları daha tez-tez qəbul edilir. Belə ki, 1991–2025-ci illər ərzində Özbəkistanda, Türkmənistanda, Qırğızıstanda iyirmidən çox, Tacikistanda on altı, Rusiya Federasiyasında 1992–2015-ci illərdə on dörd (son on il ərzində amnistiya olmamışdır), Qazaxıstanda isə, on bir amnistiya aktı qəbul edilmişdir. Eyni zamanda, bir sıra dövlətlərdə, xüsusilə Avropada amnistiya aktlarına, ictimaiyyətin heç də həmişə müsbət olmayan münasibəti ilə əlaqədar, ehtiyatla yanaşılır və onlar müstəsna hallarda, habelə, məhdud sayda şəxslərə tətbiq olunmaqla qəbul edilir. Belə ki, Polşada məhkumlarla əlaqədar sonuncu amnistiya aktı 1989-cu ildə verilmiş, Avstriyada isə, son belə qərar 2002-ci ildə qəbul edilmiş və cəmi 426 məhkumu əhatə etmişdi. Çexiya Respublikasında 1993–2025-ci illər ərzində cəmi üç, yəni 1993, 1998 və 2013-cü illərdə amnistiya aktları elan olunmuşdur. Belə vəziyyət, əksəriyyət Avropa dövlətlərində azadlıqdan məhrum edilmiş şəxslərin sayının o qədər də böyük olmadığı və cəzaçəkmə müəssisələrində sıxlıq probleminin müşahidə edilməməsi ilə də əlaqədardır.

Əfvetmə aktları ilə əlaqədar aparılmış təhlil göstərdi ki, 1995–2025-ci illər ərzində Azərbaycan Respublikasının Prezidentinin 71 fərman və sərəncamları ilə 10 min 162 məhkum əfv edilmiş, onların böyük əksəriyyəti cəzaçəkmə müəssisələrindən azad olunmuşdur. Araşdırılan 2011–2025-ci il illərdə isə, dövlət başçısı tərəfindən 23 əfvetmə Sərəncamı imzalanmış, həmin humanist aktlar ümumən 5 min 030 məhkumu əhatə etmişdir. Onlardan:

– müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmişlər– 4 min 602 nəfər, digər alternativ cəza növlərinə məhkum edilmişlər – 428 nəfər;

– ehtiyatsızlıqdan törədilmiş cinayətlərə görə məhkum edilmişlər – 1 min 206 nəfər;

– azadlıqdan məhrum etmə cəzasının müddətinin çəkilməmiş hissəsinin yarısı azaldılmışlar – 438 nəfər;

– qadınlar – 196 nəfər;

– xəstə, əlil və ahıl məhkumlar – 178 nəfər;

– ömürlük azadlıqdan məhrum edilmişlər – 12 nəfər;

– yetkinlik yaşına çatmayanlar – 3 nəfər olmuşdur.

Əfvetmə tətbiq olunmuş yetkinlik yaşına çatmayanların sayının məhdud olması, fikrimizcə, ölkədə azadlıqdan məhrum etmə cəzasını çəkən həmin məhkumlarının sayının daim çox az olması ilə bağlıdır. Eyni zamanda, həmin əfvetmə aktları ilə əcnəbi və vətəndaşlığı olmayan 241 məhkum bağışlanmışdır (onlar arasında qadın məhkumlar da olmuşdur). Əfv edilmiş əcnəbi məhkumlar arasında Azərbaycan Respublikası ilə həmsərhəd olan dövlətlərin, yəni İran İslam Respublikasının, Gürcüstanın, Türkiyənin, Rusiya Federsiyasının, habelə, Pakistanın, Çin Xalq Respublikasının, Nigeriyanın, Əfqanıstanın vətəndaşları daha çox olmuşdur.

Əfvetmə aktları cəzaları icra edən cəzaçəkmə müəssisələri, icra, 2018-ci ildən başlayaraq probasiya qurumları tərəfindən qısa müddətdə, yəni bağışlanma barədə sərəncamın imzalanmasından sonrakı gün ərzində Milli Məclisin deputatlarının, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın), onun nümayəndələrinin, Əfv Məsələləri Komissiyasının və

Ədliyyə nazirliyi yanında fəaliyyət göstərən İctimai Şura üzvlərinin, habelə hüquq müdafiəçilərinin, vətəndaş cəmiyyəti və media təmsilçilərinin, məhkumların yaxın qohumlarının iştirakı ilə icra edilmişdir. Cəzaçəkmə müəssisələrindən azad edilən şəxslərə AR CİM-in 175–177-ci maddələrinin tələblərinə uyğun olaraq hüquq və vəzifələri izah edilmiş, onlara qanunvericilikdə nəzərdə tutulmuş yardımlar göstərilmişdir. Əfvetmə, habelə amnistiya aktları ilə cəzadan azad edilmiş əcnəbi və vətəndaşlığı olmayan məhkumlar mövcud qanunvericiliyə uyğun qaydada Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılmışlar.

Arasdırma göstərdi ki, Azərbaycan Respublikasında əfvetmə tətbiq edilmiş məhkumların sayı digər, o cümlədən qonşu dövlətlərlə müqayisədə nəzərəçarpacaq dərəcədə çoxdur. Belə ki, Rusiya Federasiyasında 2002-ci ildə əfv edilmiş məhkumların sayı 283 nəfər olmuşdusa, sonradan xeyli azalaraq, il ərzində cəmi 2–7 nəfər təşkil etmişdir. 2024-cü il ərzində Rusiya Federasiyasında 8 Mart qadınlar günü münasibətilə 52 qadın məhkum əfv edilmişdir. Avropada əfvetmə aktları ilə əlaqədar formalaşmış mənfi ictimai rəylə bağlı onların da qəbuluna məhdud yanaşma sərgilənir. Belə ki, Çexiya Respublikasında 1993–2024-cü illər ərzində ölkənin dörd prezidenti tərəfindən cəmi 1 min 689 məhkum əfv edilmişdir. Macarıstanda 2005–2023-ci illərdəki dövrdə il ərzində əfvetmə tətbiq edilmiş məhkumların sayı cəmi qırx və daha az olmuşdur. Eyni zamanda, Macarıstanda 2023-cü ildəki əfvetmə aktı ilə pedifiliya, yəni yetkinlik yaşına catmayanlar barədə seksual xarakterli hərəkətlərlə bağlı cinayəti gizlətməyə görə üç il dörd ay müddətinə azadlıqdan məhrum edilmiş məhkumun cəzanın çəkilməmiş hissəsindən azad edilməsi parlamentdəki müxalifət partiyalarının nümayəndələrinin, habelə, ölkə əhalisinin ciddi və mənfi reaksiyasına səbəb olmuş, bununla əlaqədar 2024-cü ilin fevralında ölkənin prezidenti xanım Katalin Novak, habelə, Ədliyyə naziri vəzifələrindən istefa vermişlər. Yaranmış vəziyyətlə əlaqədar Macarıstan hökuməti pedifiliya cinayətlərinə görə məhkum edilmiş şəxslər barəsində əfvetmənin tətbiqinə məhdudiyyət qoyul-

ması məqsədilə ölkə Konstitusiyasına dəyişiklik edilməsi ilə əlaqədar parlamentə müraciət etmişdir. Qeyd olunmalıdır ki, Azərbaycan Respublikasında olduğu kimi Özbəkistan, Türkmənistan prezidentləri tərəfindən də əfvetmə aktlarının daha tez-tez imzalanması halları da müşahidə edilir.

2011–2025-ci illərdəki əfvetmə aktlarının təhlili göstərdi ki, onlar əvvəlki illərdə qəbul edilmiş aktlarla bir sıra oxşarlığa malikdirlər. Belə ki, sözügedən əfvetmə aktları, bir qayda olaraq:

– Azərbaycan Respublikası üçün əhəmiyyət kəsb edən əlamətdar hadisələr və günlərlə bağlı olmuşdur;

– azadlıqdan məhrum edilmiş şəxslərə daha çox tətbiq edilmişdir;

– ağır və xüsusilə ağır cinayətlərə görə məhkum edilmiş, o cümlədən ən sərt cəzaya–ömürlük azadlıqdan məhrum edilmiş şəxslərə də şamil olunmuşdur;

– məhkumun cəmiyyətdən təcrid edilməsi ilə bağlı olmayan cəzalara məhkum edilmiş şəxslər, habelə müxtəlif kateqoriyalı məhkumlar, yəni qadınlar, yetkinlik yaşına çatmayanlar, əlillər, xəstələr, ahıllar, əcnəbi və vətəndaşlığı olmayanlar da bağışlanmışdır;

– yalnız bir məhkumun əfv edilməsi ilə müşayət edilən 31 avqust 2012-ci il və 11 sentyabr 2017-ci il tarixli iki sərəncam imzalanmış, onlardan sonuncu əfvetmə aktı ilə əcnəbi vətəndaş bağışlanmışdır. 1999-cu və 2003-cü illərdə də yalnız bir məhkumun bağışlanması ilə əlaqədar əfvetmə aktları qəbul edilmişdi;

– hərbi qulluqçulara tətbiq edilən hərbi xidmət üzrə məhdudlaşdırma və intizam xarakterli hərbi hissədə saxlama cəzalarına məhkum edilmiş şəxslərə tətbiq edilməmişdir. Fikrimizcə, belə vəziyyət, ilk növbədə ölkədə sözügedən cəza növlərinə, xüsusilə intizam xarakterli hərbi hissədə saxlama tətbiq edilən şəxslərin sayının kifayət qədər az olması ilə əlaqədardır. Belə ki, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatına əsasən 2022–2024-cü illərdə 761 hərbi qulluqçuya hərbi xidmət üzrə məhdudlaşdırma cəzası tətbiq edilmişdir. Eyni zamanda, göstəri-

lən illər ərzində cəmi 75 hərbi qulluqda olan şəxsə intizam xarakterli hərbi hissədə saxlama cəzası təyin olunmuşdur. 2011–2016-cı illərdə sözügedən cəzalara məhkum edilmiş hərbi qulluqçuların sayı daha az olmuşdur. Lakin yuxarıda göstərildiyi kimi, hər iki cəzaya məhkum edilmiş hərbi qulluqçulara əfvetmədən fərqli olaraq amnistiya aktları daim tətbiq edilmişdir.

Yaranmış vəziyyət müvafiq məhkumlar arasında əfvetmə institutu və ondan faydalanmağın mümkünlüyü barədə maarifləndirmə işinin zəif aparılmasını göstərir.

Eyni zamanda, sözügedən əfvetmə aktlarının əvvəlki illərdəki aktlarla müqayisədə aşağıda göstərilən fərqli xüsusiyyətləri də müəyyən edilmişdir. Belə ki,

– həmin aktlar yalnız sərəncamlarla verilmişdir;

– Əfv məsələləri komissiyasının işinin təşkilinə diqqət artırılmışdır (onun iclasları, sənədlərinə baxılmış məhkumların sayı barədə mediada müntəzəm məlumatlar verilir), müvafiq işlərə baxılması prosesində bağışlanmaya namizədlərə dair bütün sənədlər daha ətraflı şəkildə nəzərdən keçirilir;

– Əfv məsələləri komissiyasına təqdim edilən sənədlərin, xüsusilə məhkumun cəza müddətindəki davranışını əks etdirən xasiyyətnamənin məzmununa tələb artırılmış, cəzanı icra edən müəssisə və orqanların rəhbərliyinə sözügedən sənəddə qeyd olunması zəruri hesab olunan məlumatların daha geniş açıqlanması tövsiyə edilmişdir;

– il ərzində imzalanmış sərəncamların sayı azalmışdır. Belə ki, 2018–2025-ci illərdə hər il yalnız bir əfvetmə sərəncamı imzalanmışdır. Əvvəlki illərdə isə, il ərzində əfvetmə aktlarının sayı iki–beş arası olmuşdur;

– əfvetmə tətbiq edilən məhkumların sayı artmışdır. Belə ki, əgər 1995–2010-cu illərdə imzalanmış 48 əfvetmə sərəncamı ilə 5 min 132 məhkum bağışlanmışdısa, 2011–2025-ci illərdə qəbul edilmiş 23 sərəncamla 5 min 30 məhkum əfv edilmişdir;

– bir sərəncamla əfv edilənlərin də sayı artmışdır. Belə ki, 2023-cü ildə əfvetmə tətbiq edilən şəxslərin siyahısına–801 nəfər

(Heydər Əliyevin 100 illiyi ilə bağlı), 2018-ci ildə–634, 2021-ci ildə–625 məhkum daxil edilmişdir. Belə ki, əvvəlki illərdə, yəni 18 oktyabr və 27 dekabr 1995-ci il tarixli fərmanlarla əfv edilmiş məhkumların maksimal sayı, müvafiq olaraq 608 və 578 nəfər təşkil etmişdir;

– qadın məhkumların, azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzalara məhkum edilmiş şəxslərin sayı, habelə, cəzanın çəkilməmiş hissəsinin azaldılması halları artmışdır;

– əvvəllər cəzasını çəkmiş bir şəxsin məhkumluğu götürülmüşdür (2024-cü ildə);

– xüsusi kateqoriyalı məhkumlara tətbiqi nəzərdə tutulmuş bir sərəncam imzalanmışdır. Belə ki, 2020-ci ildə koronavirus (COVİD–19) pandemiyası dövründə yoluxmaya daha həssas və yaşı 65-dən yuxarı olan azadlıqdan məhrum edilmiş 176 məhkum, onlardan on biri qadın olmaqla, əfv edilərək cəzalarını çəkməkdən azad edilmişdir. Həmin bağışlanma aktına oxşar, lakin yalnız iki kateqoriya məhkumlara, yəni hərbi xidmət keçməkdən–hərbi çağırısdan və səfərbərlikdən boyun qaçırmış, habelə, hərbi məhkəmələr tərəfindən azadlıqdan məhrum edilmiş 608 şəxsin əfv edilməsi ilə əlaqədar 18 oktyabr 1995-ci il tarixli fərmanı göstərmək olar. Eyni zamanda, BMT-nin Narkotik və Cinayətkarlıqla Mübarizə İdarəsinin (UNODC) 2020-ci ilin mart ayındakı məlumatına əsasən, koronavirus (COVID–19) pandemiyası dövründə cəzaçəkmə müəssisələrində müvafiq xəstəliklə əlaqədar mümkün risklərin azaldılması, yəni azadlıqdan məhrum etmə yerlərində saxlanılan şəxslərin, habelə orada çalışan işçi heyətinin sağlamlığının qorunması məqsədilə dünyanın on beşdən çox ölkəsi, yəni Amerika Birləşmiş Ştatları, Avstraliya, Argentina, Böyük Britaniya, Hindistan, İran, Kanada, Kolumbiya, Mərakeş, Sudan və digərləri bir qrup məhkumun azad edilməsi ilə əlaqədar əfvetmə aktları yox, amnistiya barədə qərarlar qəbul etmişlər. Lakin bu amnistiya aktları yaşı ilə bağlı koronavirus (COVID–19) infeksiyasına tutulma ehtimalı yüksək olan ahıl məhkumlardan əlavə, müəyyən məhdudiyyətlərlə, yəni törədilmiş cinayətlərin xarakteri, ağırlıq dərəcəsi

nəzərə alınmaqla, azadlıqdan məhrum edilmiş digər şəxslərə da şamil edilmişdir. Həmin amnistiya aktlarının əsas məqsədləri sırasında koronavirus (COVID–19) pandemiyası ilə əlaqədar baş verə biləcək fəsadların minimallaşdırılmasından əlavə, məhkumların sayının azaldılması, cəzaçəkmə müəssisələrində mövcud sıxlığın aradan qaldırılması da olmuşdur. Yuxarıda göstərilənlərə istinadən qeyd edə bilərik ki, müasir Azərbaycan dövlətində, kifayət qədər qədim tarixə malik olan, humanistliyi, insanpərvərliyi, mərhəmətliyi ilə seçilən, cəmiyyətin, cinayətlərdən zərərçəkmişlərin və bağışlanan şəxslərin maraqları balanslaşdırılmaqla qəbul edilmiş, cinayət törətmiş, habelə, məhkum edilmiş şəxslərə yol verdikləri səhv addımı düzgün qiymətləndirməklə, azad həyata daha tez qovuşmaq kimi imkanı təqdim edən amnistiya və əfvetmə aktları özünə məxsus yer tutmuş, gözəl və təqdir edilən bir ənənəyə çevrilmişdir. Təhlil göstərir ki, həmin bağışlanma aktlarının böyük mənfi sosial nəticələri olmamış, cəzadan, xüsusilə azadlıqdan məhrum etmə yerlərindən azad edilmiş şəxslər ictimai asayiş üçün ciddi təhlükə yaratmamış, bilavasitə onlarla bağlı ölkədə cinayətkarlığın artması halları müşahidə edilməmişdir. Qəbul olunmuş amnistiya və əfvetmə aktları ölkə vətəndaşları, hüquq ictimaiyyəti, habelə, beynəlxalq təşkilatlar tərəfindən daim müsbət qarşılanmışdır. Onlarla bağlı mediada narahatlıq və mənfi münasibət bildirilməsi faktları da müşahidə edilməmişdir. Sözügedən humanist aklardan bəhrələnmiş şəxslərin böyük hissəsi dövlətin onlara göstərdiyi inamdan düzgün nəticə çıxarmış, azad şəraitdə qanuna itaətli davranışları ilə öz həyatlarını davam etdirmiş və yeni cinayətlərə yol verməmişlər. Müvafiq rəsmi statistika aparılmasa da, cəzanı icra edən müəssisə və orqanlarda uzunmüddətli fəaliyyətimizə əsaslanaraq qeyd edə bilərik ki, Azərbaycan Respublikasında barəsində amnistiya və əfvetmə aktları tətbiq edilmiş şəxslər arasında cinayətlərin residivi o qədər də yüksək olmamışdır. Qeyd olunanlar, eyni zamanda amnistiya və əfvetmə aktları ilə azad edilən şəxslərə dövlət tərəfindən qayğı və yardımlar göstərilməsi, onların azad cəmiyyətə daha asan adaptasiyası ilə bağlı kompleks

tədbirlərin həyata keçirilməsi, hüquqmühafizə orqanlarının ölkədə cinayətkarlığı ciddi nəzarətdə saxlaması ilə də sıx əlaqədardır. Habelə, qeyd olunmalıdır ki, sözügedən aktların ardıcıl tətbiqi ölkədə məhkumların, xüsusilə, azadlıqdan məhrum edilmiş şəxslərin sayının azalmasına, cəzanı icra edən müəssisə və orqanların fəaliyyətinin daha səmərəli təşkilinə, işçi heyətinin iş yükünün optimallaşmasına, cəzaçəkmə müəssisələrində məhkumlar tərəfindən rejim qaydalarına riayət edilməsinə və yol verilmiş pozuntuların sayının aşağı düşməsinə də əlverişli zəmin yaratmışdır. Yuxarıda göstərilənlərə istinadən, Azərbaycan Respublikasında amnistiya və əfvetmə aktlarının qəbulu ilə əlaqədar formalaşmış müsbət təcrübəni, onun pozitiv nəticələrini nəzərə alaraq, cəmiyyətdə bəyənilən gözəl ənənənin davam etdirilməsi məqsədəuyğun olardı. Eyni zamanda, amnistiya və əfvetmə aktları ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsini, mövcud normativ aktlara bir sıra dəyişikliklərin olunmasını da vacib hesab edirik. Bu məqsədlə, aşağıdakılar təklif olunur.

**1.** Hüquqi dövlətlərdə hüquq subyektlərinin, o cümlədən dövlət hakimiyyəti orqanlarının səlahiyyətlərinin müvafiq hüquqi çərçivədə tənzimlənməsinin vacibliyini, ölkə Konstitusiyasında nəzərdə tutulmuş hüquq və vəzifələrin həyata keçirilmə mexanizmlərinin müəyyənləşdirilməsi məqsədilə çoxsaylı qanunların qəbulunu nəzərə alaraq, amnistiya və əfvetmə aktlarının da tətbiqi ilə bağlı prosedurların xüsusi qanunlarla, yaxud bir qanunla nizamlanmasını məqsədəuyğun hesab edirik. Düşünürük ki, Əsas Qanunla təsbit olunmuş, ictimai təhlükəli əməllərdən zərər çəkmiş şəxslərin, cinayət məsuliyyətinə cəlb edilmiş və məhkumların, habelə ümumilikdə, ölkə vətəndaşlarının maraqlarına toxunan müstəsna, yəni bağışlanma ilə əlaqədar hüquqdan da istifadənin qaydası və həddi qanunla müəyyən edilməlidir. Belə yanaşma bir sıra dövlətlərdə müzakirə edilmiş, bəzilərində isə, müvafiq qanunların qəbulu ilə yekunlaşmışdır. Belə ki, amnistiya və əfvetmə aktlarının hazırlanması, qəbulu meyarlarının qanunvericiliklə tənzimlənməsi ilə əlaqədar qonşu Rusiya Federasiyasında alimlər tərəfindən müxtəlif

illərdə təkliflər verilmiş, habelə müvafiq qanun layihələri də təqdim olunmuşdur. Ukrayna dövləti amnistiya və onun tətbiqi ilə əlaqədar 1 oktyabr 1996-ci ildə xüsusi qanun qəbul etmişdir. Həmin qanunda amnistiyanın anlayışı, növləri, tətbiq dairəsi, qəbul edilmə müddəti və digər məsələlər öz əksini tapmışdır. Habelə, Qırğızıstan Respublikasında da "Amnistiyanın əsasları və onun tətbiqi qaydaları haqqında" 20 yanvar 2017-ci il tarixli Qanun qəbul edilmişdir. On bir maddədən ibarət olan həmin qanuna amnistiyanın anlayışı, qəbul müddəti, tətbiq dairəsi, strukturu və məzmunu, cəzadan azad edilmə imkanları, şamil olunmayan şəxslərin siyahısı və cinayətlərin növləri, icra müddəti, aktı tətbiq edən subyektlər, yarana biləcək ziddiyətlərın həlli qaydası ilə bağlı normalar daxil edilmişdir. Istinad edilən qanun 1 yanvar 2019-cu il tarixdən qüvvəyə minmişdir. Azərbaycanda amnistiya və əfvetmə ilə bağlı təklif edilən qanun layihəsinin hazırlanmasının məqbul hesab edildiyi təqdirdə, yuxarıda göstərilən mövcud hüquqi bazaya, xüsusilə, özünü təcrübədə doğrultmuş Əfvetmə haqqında Əsasnaməyə, amnistiya ilə əlaqədar digər ölkələrdəki qanunlara, habelə göstərilən müvafiq qanun layihələrinə də istinad oluna bilərdi. Eyni zamanda, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının 2009-cu ildəki "Münaqişədən sonrakı dövlətlərdə hüququn aliliyinin təmini mexanizmləri. Amnistiyalar" məcmuəsində öz əksini tapmış tövsiyələrin də nəzərə alınması məqsədəuyğun olardı.

**2.** Amnistiya aktlarının bir qayda olaraq, məhkumlardan əlavə, sözügedən aktlar qüvvəyə mindiyi günədək cinayət törətmiş və barəsində icraat aparılan şəxslər barəsində də tətbiq edilməsi ədalətli olardı. Belə təklif Azərbaycan Respublikasının Ali Məhkəməsinin sabiq hakimi, əməkdar hüquqşünas M. Ağazadə tərəfindən də irəli sürülmüşdür. O, hesab edir ki, məsələnin belə qoyuluşu amnistiyanın mahiyyəti və tətbiqi ilə bağlı cinayət-hüquq nəzəriyyəsinin müddəaları ilə də üst-üstə düşür. Bu zaman həm təqsirləndirilən şəxslər, həm də məhkumlar dövlətin həyata keçirdiyi humanist tədbirdən bərabər şəkildə yararlanmaq imkanı əldə edir-

lər. Belə yanaşma, yəni təhqiqat və ibtidai istintaq orqanları işçilərinin iş yükünün azalmasına, müvafiq fəaliyyətlə əlaqədar dövlət vəsaitinə qənaət edilməsinə də səbəb ola bilərdi. Göstərilən mövqeyi biz də düzgün hesab edir və onunla razı olduğumuzu bildiririk. Müsbət haldır ki, son iki, yəni 2021 və 2025-ci il amnistiyalarının məhkumlardan əlavə təqsirləndirilən şəxslərə də tətbiqi nəzərdə tutulmuşdur.

**3.** AR CM-nin 81-ci və 82-ci maddələrində amnistiya və əfvetmə aktlarının tətbiqi zamanı cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsi nəzərdə tutulsa da, təcrübədə belə imkandan çox az istifadə edilir. Xüsusilə, son bir neçə amnistiya, habelə, əksəriyyət əfvetmə aktlarına cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsi ilə bağlı bənd daxil edilməmişdir. Hesab edirik ki, cinayət qanununun müvafiq maddələrində təsbit edilmiş sözügedən imkandan, xüsusilə amnistiya aktlarında da fəal istifadə edilməsi, bağışlanan şəxslərin əhatə dairəsinin genişləndirilməsinə, habelə, yuxarıda göstərilən məqsədlərə daha səmərəli nail olmağa əlverişli zəmin yarada bilərdi.

**4.** Amnistiya və əfvetmə aktlarının qəbulu zamanı AR CM-də nəzərdə tutulmuş cəzadan azad etmənin digər institutlarından, yəni cəzanın şərti məhkum etmə və sərti olaraq vaxtından əvvəl azad etmə ilə əvəz edilməsindən də istifadə olunması məqsədəuyğun olardı. Belə tətbiq zamanı müvafiq müddət ərzində yenidən cinayət törətmiş müvafiq şəxslərə cəzanın AR CM-in 67-ci maddəsinə uyğun olaraq hökmlərin məcmusu üzrə təyini ilə bağlı müddəanın da nəzərdə tutulması, sözügedən aktlara əsasən azad olunan məhkumlar üçün yeni ictimai təhlükəli əməllərə yol verilməsindən kifayət qədər çəkindirici amil rolunu oynaya bilərdi. Belarus Respublikasının, Türkmənistanın, Özbəkistanın, habelə, Amerika Birləşmiş Ştatlarının, Böyuk Britaniyanın cinayət qanunvericiliyinə müvafiq müddəalar daxil edilmişdir.

**5.** Əfvetmənin Azərbaycan Respublikası Prezidentinin müstəsna hüququ oldugunu nəzərə alaraq, ömürlük azadlıqdan məhrum edilmiş şəxslərin cəzalarının iyirmi beş ildən çox olmayan müd-

dətə azadlıqdan məhrum etmə cəzası ilə əvəz edilməsi yanaşı, həmin məhkumların birbaşa cəzadan azad olunması imkanının da AR CM-də nəzərdə tutulmasını məqsədəuyğun hesab edirik. Belə qayda ölkə başçısını müxtəlif əsaslara görə cəzanı çəkməkdən azad edilməsi məqsədəuyğun hesab edilən ömürlük azadlıqdan məhrum edilmiş məhkumun cəzasının ilkin olaraq müəyyən müddətə azadlıqdan məhrum etmə cəzası ilə əvəz olunması, sonradan cəzadan azad edilməsi ilə əlaqədar yeni əfvetmə sərəncamının imzalanması məcburiyyətindən azad edə bilərdi. Qeyd olunmalıdır ki, təcrübədə belə hallara rast gəlinmişdir.

**6.** Əfvetmə aktı ilə məhkumun əlavə cəzadan azad edilməsi imkanının qanunda nəzərdə tutulmasını da məqsədəuyğun hesab edirik. Belə ki, müxtəlif əsaslarla azadlıqdan məhrum etmə cəzasından azad edilmiş bir qrup məhkumun müəyyən fəaliyyət növü ilə məşğul olmaq hüququndan, yaxud nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə ilə əlaqədar əlavə cəzasının mövcudluğu, onlara uzun müddətli cəmiyyətdən təcrid edilmədən sonra özlərinin və ailələrinin ehtiyaclarını ödəmək məqsədilə malik olduqları ixtisas və ya fəaliyyət ilə əlaqədar əməklə məşğul olmalarına mane olur, belə hallar nəticə etibarı ilə arzu olunmayan nəticələrə də gətirib çıxara bilər. Fikrimizcə, amnistiya aktı ilə tətbiqinin mümkün olduğunu, ölkənin Əfvetmə məsələləri komissiyasının səmərəli fəaliyyətini, müvafiq şəxslərə fərdi yanaşmaqla, onlar barədə toplanmış materialların kifayət qədər diqqətlə öyrənilməsi təcrübəsini nəzərə alaraq, müvafiq şəxslərin əlavə cəzadan da azad edilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin mövcud müstəsna səlahiyyət dairəsinin genişləndirilməsi və bununla bağlı ölkənin cinayət qanununa aidiyyəti dəyişiklik edilməsi məqsədəuyğun olardı. Hazırda Belarus Respublikasının, Qazaxıstanın, Özbəkistanın, Moldovanın, Ukraynanın, Tacikistanın, Türkmənistanın Cinayət məcəllələrində əfvetmə aktı ilə əlavə cəzadan azad edilmə də nəzərdə tutulmuşdur.

**7.** Hərbi qulluqçulara tətbiq edilən hərbi xidmət üzrə məhdudlaşdırma və intizam xarakterli hərbi hissədə saxlama cəzalarına

məhkum edilmiş şəxslərin də əfv edilməsi ilə əlaqədar məsələyə də diqqətin artırılmasını vacib hesab edirik. Yuxarıda qeyd edildiyi kimi, 1995–2025-ci illərdə imzalanmış çoxsaylı əfvetmə aktlarında sözügedən cəzalara məhkum edilmiş şəxslərin hər hansı bir şəkildə bağışlanması nəzərdə tutulmamışdır. Halbuki, AR CM-in 82-ci maddəsində müvafiq məhdudiyyət yoxdur. Eyni zamanda, Əfvetmə haqqında Əsasnamənin 8.1-ci bəndinə əsasən, göstərilən cəzalara məhkum edilmiş şəxslər, hökm qanuni qüvvəyə mindikdən sonra əfv edilmək üçün dövlət başçısına müraciət edə bilərlər. Buna görə də müvafiq məhkumlara ölkənin Əsas Qanununda, habelə AR CİM-in 10-cu maddəsində təsbit edilmiş və onların əsas hüquqları sırasına daxil olan dövlət başçısına bağışlanmaq barədə müraciət etmək imkanı ilə bağlı müvafiq hərbi hissələrin komandanlığı tərəfindən ətraflı məlumatın verilməsi əhəmiyyət kəsb edir.

**8.** AR CPM-də, AR CİM-də amnistiya və əfvetmə aktları ilə bağlı azad edilməyə çox cüzi şəkildə toxunulmuşdur, belə yanaşmanı məqbul və kifayət hesab etmirik. Fikrimizcə, hər iki bağışlanma aktının icrası ilə bağlı, yəni onun icraçılarının vəzifələrini, tətbiqi ilə bağlı ardıcıllığı, müddətləri və müvafiq prosesdə rast gəlinən çətinliklərin həllini nizamlayan yeni normaların müəyyən edilməsi və göstərilən hər iki məcəlləyə əlavə olunması məqsədəuyğun olardı. Sonluqda vurğulamaq istərdik ki, tərəfimizdən təqdim edilmiş təkliflərin bir hissəsi yuxarıda istinad edilmiş S.N. Rzayevanın dissertasiya işində və monoqrafiyasında da öz əksini tapmışdır. Təkliflərin müsbət qəbulu zamanı yeni qanun layihələrinin və yaxud vahid layihənin hazırlanması, habelə, AR CM-in 81-ci, 82-ci, AR CPM-in 515-ci maddələrinə dəyişikliklər, habelə, AR CİM-in 170-ci maddəsinin adında və mətnində dəyişikliklər edilməsi, yaxud həmin məcəlləyə yeni normanın əlavə olunması zərurəti yaranacaqdır.

***İstinad edilmiş mənbə:***

***Journal of sciense. Lyon. France, 2026. № 74, pp. 32–41.***

## Azərbaycan Respublikasında cəza təyin edilməklə yanaşı narkomaniyadan tibbi xarakterli məcburi tədbirlər tətbiq edilmiş şəxslər barədə məhkəmə qərarlarının icrası vəziyyəti və bu sahədə fəaliyyətin təkmilləşdirilməsi yolları

Dünyada ciddi sosial bəla kimi tanınan, narkotik vasitələrdən sui-istifadə nəticəsində yaranan narkomaniyanın mənfi fəsadları, onun dövlətə, cəmiyyətə, ailəyə, insanlara vurduğu böyük maddi, psixoloji və mənəvi ziyan hamıya yaxsı bəllidir. Bu mənfi fenomenin profilaktikası, qarşısının alınması, onunla mübarizə ilə əlaqədar dünya dövlətləri müxtəlif xarakterli və növlü tədbirlər həyata keçirirlər. Azərbaycan Respublikasında da narkomaniya ilə mübarizə sahəsində ardıcıl olaraq kompleks tədbirlər görülərək müəyyən müsbət nəticələrə nail olunsa da, məsələ hələ də kifayət qədər aktualdır. Belə ki, hər il ölkədə qeydiyyata alınan cinayətlərin bir hissəsini narkotik vasitələrin qeyri-qanuni dövriyyəsi ilə əlaqəli olan ictimai təhlükəli əməllər təşkil edir. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatına əsasən 2000–2018-ci illərdə bu göstərici hər il 10–14% arası olmuşdur. Sonrakı illərdə həmin göstərici artmağa başlamışdır. 2018-ci illə müqayisədə artım 2019-cu ildə 16,4 %, 2020-ci ildə 20,2 %, 2021-ci ildə 27,5 %, 2022-ci ildə 29,2 %, 2023-cü ildə isə 27,3 % təşkil etmiş, bu illər ərzində narkotik vasitələrin qeyri-qanuni dövriyyəsi ilə bağlı cinayətlərin ümumi sayı isə, iki dəfədən çox, yəni 4.383-dən 10.057-yə kimi çoxalmışdır. Nəticədə, 2019–2023-cü illərdə ölkə ərazisində qeydə alınmış cinayətlərin orta hesabla 24,2 %-i narkotik vasitələrin qeyri-qanuni dövriyyəsi ilə bağlı olmuşdur. Qeyd olunanlarla əlaqədar 2019–2023-cü illərdə sözügedən cinayət əməllərinə görə məhkum olunan şəxslərin sayında da kifayət qədər artım olmuşdur. Əgər, 2000–2018-ci illərdə, il ərzində məhkum olunan belə şəxslərin maksimal sayı təxminən 1700–2600 arası təşkil etmişdisə, 2019–2020-ci illərdə arta-

raq 3200-ü ötmüş, 2021-ci ildə müvafiq göstərici 5901, 2023-cü ildə isə 7505 nəfər olmuşdur. Beləliklə, müvafiq cinayətlərə görə 2019-cu illə müqayisədə 2023-cü ildə məhkum edilmişlərin sayı 2,3 dəfə artmışdır.

Narkotik vasitələrin qeyri-qanuni dövriyyəsi ilə bağlı məhkum olunan şəxslərin böyük hissəsini, təxminən 70%-ni Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin (bundan sonra AR CM) 234.1-ci maddəsi ilə, yəni satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələrin və ya psixotrop maddələrin xeyli miqdarda əldə edilməsi, saxlanılması, hazırlanması, emal edilməsi, daşınması ilə bağlı olan cinayət əməllərini törətmiş, bir qayda olaraq, cəmiyyətdə qanundan kənar narkotik istifadəçiləri kimi xarakterizə olunan şəxslər təşkil etmişdir. Eyni zamanda, təhlil göstərdi ki, 2000–2018-ci illərdə AR CM-in istinad edilən maddəsi ilə məhkum olunan şəxslərin böyük əksəriyyətinə, yəni 2000–2004-cü illər ərzində təxminən 83–93%-nə, 2005–2018-ci illərdə isə, hər il 96%-dən az olmamaqla, azadlıqdan məhrum etmə növündə cəza təyin edilmişdir. Məhkəmələr tərəfindən göstərilən kateqoriya şəxslərə belə yanaşma, AR CM-in 234.1-ci maddəsinin ilkin redaksiyasının sanksiyasında yalnız yeganə cəzanın, yəni üç ilədək azadlıqdan məhrum etmə cəzasının nəzərdə tutulması ilə əlaqədar olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli “Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə” Sərəncamının icrası ilə bağlı 20 oktyabr 2017-ci il tarıxli Qanunla AR CM-ə edilmiş çoxsaylı dəyişikliklərdən biri də əvvəllər, yəni 31 may 2011-ci il tarixli qanunla ləğv edilmiş azadlığın məhdudlaşdırılması növündə cinayət-hüquqi xarakterli tədbirin yenidən, lakin fərqli məzmun və redaksiyada cəza sisteminə qaytarılması, onun AR CM-in Xüsusi hissəsinin yüzdən çox maddəsinin, o cümlədən 234.1-ci maddənin sanksiyasına daxil edilməsi olmuşdur. Məhz bundan sonra

AR CM-in 234.1-ci maddəsi ilə təqsirləndirilən şəxslərə məhkəmələr tərəfindən azadlıqdan məhrum etmə növündə cəzanın tətbiqinin azalması tendensiyası müşahidə olunmuşdur. Belə ki, 2019–2023-cü illərdə müvafiq göstərici ardıcıl olaraq aşağı enmiş, 2023-cü ildə isə ümumən 27% azalaraq, cəmi 70% təşkil etmişdir. Eyni zamanda, qeyd olunan illərdə narkotik vasitələrin qeyri-qanuni dövriyyəsi ilə tərsirləndirilən şəxslərə azadlığın məhdudlaşdırılması növündə cəzanın tətbiqinin artdığı da qeydə alınmışdır. Belə ki, müvafiq əməllərə görə 2020-ci ildə məhkum edilən şəxslərin 32,5 %-nə, 2022-ci ildə 28,2 %-nə, 2023-cü ildə isə 28,8 %-nə azadlığın məhdudlaşdırılması cəzası təyin olunmuşdur ki, onların da böyük hissəsini AR CM-in 234.1-ci maddəsi ilə cinayət məsuliyyətinə cəlb edilmiş şəxslər təşkil etmişdir. Lakin, 2019–2023-cü illərdə ölkə üzrə ümumi cəza tətbiqi təcrübəsində AR CM-in 234.1-ci maddəsi ilə tərsirləndirilən şəxslərə azadlıqdan məhrum etmə cəzasının təyin olunma faizi azalsa da, narkotik vasitələrin qeyri-qanuni dövriyyəsi ilə bağlı həmin cəzaya məhkum olunanların sayı xeyli artmışdır. Belə ki, əgər 2019-cu ildə müvafiq cinayət əməllərinə görə məhkəmələr tərəfindən 2200 nəfər azadlıqdan məhrum edilmisdisə, 2021-ci ildə həmin göstərici demək olar ki, iki dəfə artaraq 4312 nəfər, 2022–2023-cü illərdə isə daha min nəfər artaraq, 5300 nəfərdən çox olmuşdur.

Aparılan təhlilin nəticələri narkotik vasitələrin qeyri-qanuni dövriyyəsinin Azərbaycan Respublikasında hələ də problem olaraq qaldığını göstərir. Buna görə də bu sahədə kompleks tədbirlərin həyata keçirilməsinin fəal şəkildə davam etdirilməsi zəruridir. Ədalət naminə qeyd edilməlidir ki, Azərbaycan Respublikasında yuxarıda göstərilən artımların obyektiv səbəblərindən biri də son beş, yəni 2019–2023-cü illərdə aidiyyəti dövlət strukturları, xüsusilə daxili işlər orqanları tərəfindən narkotik vasitələrin qeyri-qanuni dövriyyəsi ilə bağlı mübarizə işinin daha səmərəli təşkili, bu vacib sahəyə diqqətin nəzərəçarpacaq dərəcədə artırılması ilə bağlıdır. Yuxarıdakı statistika, yəni narkotik vasitələrin qeyri-qanuni dövriyyəsi ilə əlaqədar məhkum olunmuş şəxslərin say artımı, ey-

ni zamanda, son illərdə Azərbaycan Respublikasının azadlıqdan məhrum etmə yerlərində saxlanılanların sayının artmasını şərtləndirən səbəblərdən biri olduğunu göstərir.

Narkotiklərlə mübarizə işində, o cümlədən hüquq pozuntularının, cinayətlərin qarşısının alınması məqsədilə istifadə edilən tədbirlərdən biri də narkomaniyaya düçar olmuş şəxslərin könüllü və ya məcburi qaydada müalicəyə cəlb olunmasıdır. Cinayət əməllərinə görə, xüsusilə AR CM-in 234.1-ci maddəsi ilə təqsirləndirilən şəxslərə cəza təyin edilərkən AR CM-in 93.1 və 93–1-ci maddələrinə uygun olaraq narkomaniyadan müalicəyə ehtiyacı olan məhkumlara məhkəmənin ittiham hökmü ilə tibbi xarakterli məcburi tədbir, yəni müalicə tətbiq edilir. Eyni zamanda, Azərbaycan Respublikasının 28 iyun 2005-ci il tarixli "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Qanununun 26-cı maddəsində də cinayət törətmiş və narkomanlıq xəstəliyinə düçar olan şəxslərin qanunvericiliklə müəyyən edilmiş qaydada məcburi müalicəyə cəlb edilməsi nəzərdə tutulmuşdur. Habelə, cinayət törətmiş və narkomaniyadan müalicəyə ehtiyacı olan məhkumlara tibbi xarakterli məcburi tədbirin tətbiq edilməsinin əhəmiyyəti Azərbaycan Respublikası Ali Məhkəməsinin "Məhkəmələr tərəfindən tibbi xarakterli məcburi tədbirlərin tətbiqi təcrübəsi haqqında" 08 noyabr 2012-ci il tarixli 8 nömrəli Plenum Qərarının 21-ci bəndində də xüsusi olaraq vurğulanmışdır. Tibbi xarakterli məcburi tədbirlər narkomaniyadan əziyyət çəkən şəxslərin müalicə olunması, onların səhhətinin və psixoloji vəziyyətinin yaxşılaşdırılması, ixtisaslaşdırılmış tibbi yardım və sosial qayğı göstərməklə, normal həyat tərzinə qaytarılması, gələcəkdə insan psixikasına təsir göstərən maddələrdən sui-istifadənin və yeni cinayətlər törədilməsinin qarşısının alınması məqsədi daşıyır. Eyni zamanda, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 9 fevral 2006-cı il tarixli 39 nömrəli Qərarı ilə təsdiq edilmiş "Narkotik vasitələrin və psixotrop maddələrin tibbi məqsədlərlə istifadə edilməsi qaydası və şərtləri, habelə narkomanlıq xəstəliyinə düçar olan şəxslər barəsində tibbi tədbirlərin tətbiq edil-

məsi Qaydası"nın 2.3-cü bəndinə əsasən, tətbiq edilən məcburi müalicə, cəza və ya inzibati tənbeh xarakteri daşımır, həmin xəstəliyin doğurduğu fəsadların qarşısının alınmasından əlavə, narkomanlıqdan əziyyət çəkənlərin ətrafındakı insanların hüquqlarının qorunmasına, digər şəxslərin hüquqlarının pozulması hallarına yol verilməməsinə xidmət edir.

Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin (bundan sonra AR CİM) 17-ci maddəsinin tələblərinə uyğun olaraq cəza təyin edilməklə yanaşı narkomaniyadan tibbi xarakterli məcburi tədbirlər tətbiq edilmiş şəxslərin müalicəsi cəza müddəti ərzində cəzanı icra edən müəssisə və ya orqan tərəfindən həyata keçirilir. Azadlıqdan məhrum etmə növündə cəzaya məhkum edilməklə yanaşı, narkomaniyadan müalicə məqsədi ilə barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş şəxslərin müalicəsi onların cəza çəkdikləri müddətdə cəzaçəkmə müəssisələri tərəfindən təşkil edilir. Həmin vəzifənin yerinə yetirilməsi ilə bağlı AR CİM-in 17, 17–1 və 93.2-ci maddələrinin tələblərinə uyğun olaraq azadlıqdan məhrum edilmiş məhkumlara tibbi xidmət göstərmək məqsədilə təşkil edilmiş Ədliyyə nazirliyinin Penitensiar xidmətinin müalicə müəssisəsinin nəzdində narkologiya şöbəsi yaradılmışdır. Barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş məhkumlar cəza çəkdikləri cəzaçəkmə müəssisəsindən növbə ilə müalicə müəssisəsinin narkologiya şöbəsinə göndərilir və onlarla Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 28 yanvar 2016-cı il tarixli 14 nömrəli Qərarı ilə təsdiq edilmiş "Cəzaçəkmə müəssisələrində cəza çəkən narkoloji xəstə məhkumların məcburi müalicəsinin aparılması Qaydaları"na uyğun olaraq zəruri tibbi prosedurlar həyata keçirilirdi. Lakin 2013-cü ilin sonunda müalicə müəssisəsinin narkologiya şöbəsinin fəaliyyəti dayandırılmış, məcburi müalicənin keçirilməsi vəzifəsi müvəqqəti olaraq cəzaçəkmə müəssisələrinin nəzdində fəaliyyət göstərən tibb-sanitariya hissələrinə həvalə edilmişdir. Həmin vaxtdan xeyli müddət keçməsinə, narkomaniyadan məcburi müalicə tətbiq edilmiş məhkumların sayının, xüsusilə 2019–2023-cü illərdə xeyli artmasına

baxmayaraq, müalicə müəssisəsindəki narkologiya şöbəsinin fəaliyyəti hələ də bərpa olunmamışdır. Belə ki, 2019-cu ildə narkomaniyadan məcburi müalicəyə cəlb edilməli azadlıqdan məhrum olunmuş məhkumların ümumi sayı təxminən üç minə yaxın olmuşdusa, 2022–2023-cü illərdə onların sayı iki dəfədən çox artaraq altı mini ötmüşdür. Eyni zamanda, qeyd olunmalıdır ki, cəzaçəkmə müəssisələrinin tibb-sanitariya hissələri məcburi müalicə ilə əlaqədar məhkəmə qərarlarının icrası vəzifəsini həyata keçirsələr də, bu qanunvericiliyin tələblərinə zidd sayılır. Çünki, cəzaçəkmə müəssisələrinin tibb-sanitariya hissələri stasionar tipli ixtisaslaşdırılmış müalicə müəssisəsi hesab olunmur, habelə, onlar tərəfindən aparılan müalicə proseduru kifayət qədər fərqlidir.

Azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaya məhkum edilməklə yanaşı, şəxsə narkomaniyadan müalicə məqsədi ilə tibbi xarakterli məcburi tədbirlər təyin olunduğu təqdirdə, müalicə AR CİM-in 17-1-ci maddəsinə uyğun olaraq ölkənin Səhiyyə Nazirliyinin İxtisaslaşdırılmış tibb müəssisəsi, yəni Respublika Narkoloji Mərkəzi publik hüquqi şəxsi (bundan sonra Narkoloji Mərkəz) tərəfindən həyata keçirilir. Qanunvericiliyə uyğun olaraq məhkəmə bu barədə qanuni qüvvəyə minmiş qərarın surətini icra olunması üçün Narkoloji Mərkəzə, habelə həmin qərarın tələblərinin yerinə yetirilməsinə nəzarət edilməsi məqsədilə məhkuma təyin olunmuş cəzanın icrasının həyata keçirən, 2017-ci ildə Ədliyyə nazirliyinin nəzdində yaradılmış Probasiya xidmətinin aidiyyəti yerli probasiya qurumuna göndərir. Narkoloji Mərkəzdə müalicə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 26 yanvar 2006-cı il tarixli 20 nömrəli Qərarı ilə təsdiq edilmiş "İxtisaslaşdırılmış tibb müəssisələrində məcburi müalicənin Şərtləri və Qaydaları"na uyğun olaraq aparılır. Eyni zamanda, göstərilən məhkumların Narkoloji Mərkəzdə müalicəsi prosesinə, yəni məhkəmə qərarının tələblərinin yerinə yetirilməsinə icra məmuru (probasiya üzrə) tərəfindən nəzarət edilməsi mexanizmi ilə bağlı Azərbaycan Respublikasının Nazirlər Kabineti 17 noyabr 2021-ci il tarixli 354 nömrəli Qərarla müvafiq Qayda (bundan sonra Qay-

da) təsdiq etmişdir.

Əvvəllər, yəni 2020-ci ilə kimi azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaya məhkum edilməklə yanaşı, narkomaniyadan müalicə məqsədilə barəsində tibbi xarakterli məcburi tədbirlər təyin olunmuş məhkumların Narkoloji Mərkəzdə müalicəsinin təşkili səmərəli qaydada həyata keçirilmişdir. Həmin məhkumların sayı bir qədər də çox olmadığına görə bu şəxslərin müalicəsi üçün Narkoloji Mərkəzdə yaradılmış müvafiq xüsusi şöbə mövcud tələbatı tamlıqla ödəmişdir. Lakin, sonralar, yəni AR CM-in 234.1-ci maddəsinin sanksiyasına azadlığın məhdudlaşdırılması növündə cəza əlavə edildikdən sonra Narkoloji Mərkəzə müalicəyə göndərilməli məhkumların sayı kəskin şəkildə artmağa başlamışdır. Belə ki, əgər 2019-cu ilin əvvəlinə barəsində narkomaniyadan müalicə məqsədi ilə tibbi xarakterli məcburi tədbirlər tətbiq edilmiş və probasiya qurumlarının qeydiyyatında olan məhkumların sayı cəmi 55 nəfər olmuşdusa, 2020–2023-cü illər ərzində həmin say ardıcıl olaraq hər il və dəfələrlə artmışdır. Müalicəyə göndərilməli məhkumların sayında kifayət qədər böyuk artım Narkoloji Mərkəzdə belə xəstələr üçün nəzərdə tutulmuş şöbənin qəbul imkanlarının məhdud olması səbəbindən ciddi problemlər yaratmışdır. Zəruri tələbatla əlaqədar Narkoloji Mərkəz tərəfindən müvafiq şöbənin çarpayı fondu bir qədər artırılsa da, vəziyyət dəyişməmisdir. Nəticədə Narkoloji Mərkəz məcburi müalicə tətbiq olunmuş məhkumların ardıcıl olaraq qəbulundan imtina etmək, habelə həmin şəxslər üçün gözləmə növbəsinin tətbiqi məcburiyyətində qalmışdır. Problemin ciddiliyinə, onun həlli üçün zəruri tədbirlər görulməsinin vacibliyinə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) “Azərbaycan Respublikasında insan hüquqlarının qorunması haqqında” 2023-cü il üzrə illik məruzəsində da toxunulmuş, kifayət qədər müvafiq məhkumun gözləmə növbəsində olduğu qeyd edilmişdir.

Yuxarıda istinad olunan artımın digər səbəblərindən biri də 20 oktyabr 2017-ci il tarixli Qanunla AR CM-ə əlavə edilmiş yeni 74–1-ci maddənin, yəni narkomaniya xəstəliyi ilə əlaqədar cina-

yət məsuliyyətindən azad etmə institutunun hələ də fəaliyyətə başlamamasıdır. Həmin maddəyə əsasən AR CM-in 234.1-ci maddəsində nəzərdə tutulmuş cinayəti törətmiş, əməlində başqa cinayət tərkibi olmayan və narkomaniya xəstəliyinə düçar olmuş şəxs barəsində məhkəmə tərəfindən məhkəmə arasdırması dayandırılmaqla, stasionar qaydada həyata keçirilən tibbi xarakterli məcburi tədbirlər tətbiq edilir. Xəstənin tam sağalması nəticəsində tibbi xarakterli məcburi tədbirlər ləğv edildikdə, məhkəmə həmin şəxsi cinayət məsuliyyətindən azad edir. Yəni, bu halda təqsirləndirilən şəxsə cəza təyin olunmur və o, məhkumluq həyatını yaşamaq məcburiyyətinə məruz qalmır. Qanunvericiliyə görə AR CM-in yeni 74-1-ci maddəsi, narkomaniya xəstəliyi ilə bağlı tibbi xarakterli məcburi tədbirlərin həyata keçirildiyi stasionar tipli xüsusi tibb müəssisəsinin fəaliyyətə başladığı gündən qüvvəyə minməli idi. Azərbaycan Respublikası Prezidentinin 7 noyabr 2017-ci il tarixli 1668 nömrəli Fərmanı ilə həmin tibb müəssisəsinin təşkil edilməsi üçün zəruri tədbirlər görülməsi Azərbaycan Respublikasının Daxili işlər nazirliyinə tapşırılmışdır. Lakin səkkiz ilə yaxın müddət keçməsinə baxmayaraq, ölkə başçısının tapşırığı, maliyyə vəsaitinin ayrılmaması səbəbindən icra edilməmiş və nəticədə ölkədə məhkumların sayının, xüsusi ilə AR CM-in 234.1-ci maddəsi ilə məhkum olunan şəxslərin sayının azalması məqsədini güdən müvafiq qanun norması hələ də qüvvəyə minməmişdir.

Azadlıqdan məhrum etmə cəzası ilə bağlı olmayan cəzaya məhkum edilməklə barəsində tibbi xarakterli məcburi tədbirlər tətbiq olunmuş məhkumların müalicəsinin təşkilində yaranmış problemlə əlaqədar həmin şəxslərə təyin edilmiş cəza müddəti başa çatsa da, məhkəmənin müvafiq qərarı icra olunmadığı səbəbindən onları probasiya qeydiyyatından çıxarmaq mümkun olmamışdır. Yaranmış belə vəziyyət məhkəmələr, habelə probasiya qurumları tərəfindən birmənalı qəbul olunmadığından mövcud problemə aydınlıq gətirilməsi məqsədilə Şirvan Apellyasiya Məhkəməsi AR CİM-in 17.1, 17–1.1, 17–1.5 və 17–1.6-cı maddələrinin AR CM-in 93-1.1-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə

dair ölkənin Konstitusiya Məhkəməsinə müraciət etmişdir. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi 28 iyul 2023-cü il tarıxi Plenumunda problemlə əlaqədar konstitusiya işinə baxmış və müvafiq qərar qəbul etmişdir. Həmin qərarda azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaya məhkum edilməklə yanaşı, alkoqolizm və ya narkomaniyadan müalicə məqsədi ilə barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş məhkumların müalicəsinin cəza müddəti başa çatdıqdan sonra da Səhiyyə nazirliyinin tabeliyində olan ixtisaslaşdırılmış tibb müəssisələri tərəfindən həyata keçirilməsinin istisna olunmadığı vurğulanmış, eyni zamanda, həmin şəxslərin, xəstəliyin ağırlıq dərəcəsindən asılı olaraq ixtisaslaşdırılmış tibb müəssisələrində ambulator qaydada müalicə olunmasının mümkünlüyü də təsbit edilmişdir. Bu qərarda barəsində tibbi xarakterli məcburi tədbirlər tətbiq edilmiş məhkumların müalicəsi ilə əlaqədar yaranmış problemin həlli məqsədilə zəruri tədbirlərin görülməsi Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tövsiyə edilmişdir. Əlavə olaraq qeyd olunmalıdır ki, cəza müddəti başa çatmış, lakin məcburi müalicəni gözləyən məhkumlarla əlaqədar digər bir problem də yaranmışdır. Belə ki, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 9-cu maddəsinə uyğun olaraq məhkum olunmaqla əlaqədar şəxsin ölkədən getmək hüququna müvəqqəti olaraq qoyulmuş məhdudiyyət onun cəzadan azad edilməsindən sonra götürülür. Bu zaman sabiq məhkum istənilən vaxt maneəsiz olaraq ölkə hüdudlarını tərk edə bilər. Eyni zamanda, qanunvericiliyə əsasən məhkum olunmuş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər cəza müddəti başa çatdıqdan sonra, bir qayda olaraq Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarılmaya məruz qalırlar. Belə olan təqdirdə cəzadan azad edilmiş məhkumlar barədə məhkəmənin məcburi müalicə ilə bağlı qərarı icra edilməmiş qalır, ölkə hüdudlarını tərk etmiş həmin şəxsləri müalicəyə cəlb etmək çətinlik yaradır, qanuni əsaslar olmadığından onların yerlərinin müəyyən edilməsi ilə əlaqədar barələrində axtarış elan olunması də imkan xaricində olur.

İxtisaslaşdırılmış tibb müəssisəsində narkomaniyadan stasionar qaydada, habelə gələcəkdə ambulator qaydada müalicə keçən məhkumların istər cəzalarının icrası, istərsə müalicə müddətində qarşılaşdıqları sosial və psixoloji problemlərin həlli, onlara qayğı göstərilməsi müalicənin müsbət yekunlaşması və həmin şəxslərin uğurlu reabilitasiyası üçün xüsusi əhəmiyyət kəsb edir. Bu iş hazırda probasiya qeydiyyatında olan digər məhkumlar da daxil olmaqla, hüquqşünaslıq ixtisasına malik icra məmuruna (probasiya üzrə) həvalə edilmiş və sosial yönümlü tədbirlər məhkumun islah prosesi çərçivəsində həyata keçirilir. Təcrübədə cəzasının icrası həvalə edilmiş məhkumların sayının, bununla əlaqədar iş yükünün kifayət qədər çox olması səbəbindən sosial dəstəyin ardıcıl qaydada göstərilməsi və səmərəli şəkildə həyata keçirilməsi icra məmuru (probasiya üzrə) üçün ciddi çətinliklər yaradır, bu səbəbdən də vacib olan belə tədbirlər bir çox hallarda formal xarakter daşıyır. Eyni zamanda, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliyinin Sosial Xidmətlər Agentliyi tərəfindən sözügedən şəxslərə sosial qayğı və ya xidmətin göstərilməsi ilə əlaqədar qanunvericilikdə heç bir müddəa nəzərdə tutulmamışdır. Nəticədə, sosial problemlər həllini tapmadığından məcburi müalicənin uğursuz nəticələnməsi, həmin şəxslər tərəfindən yeni cinayətlərin törədilməsi hallarına rast gəlinir.

Narkoloji Mərkəzdə məcburi müalicənin təşkili ilə bağlı prosesə nəzarətin həyata keçirilməsi işində də müəyyən çətinliklər mövcuddur. Belə ki, məhkəmə qərarının tələblərinin yerinə yetirilməsinə nəzarət edilməsi ilə bağlı Qaydanın 3.1.2-ci bəndinə əsasən icra məmurunun (probasiya üzrə) üzərinə üç ayda bir dəfədən az olmayaraq tibb müəssisəsinə baş çəkmək, məhkumla, müəssisənin rəhbərliyi və müalicə həkimi ilə görüşüb söhbətlər aparmaq, bu barədə protokol tərtib etmək, habelə ayda bir dəfədən az olmayaraq Narkoloji Mərkəzin rəhbərliyi və ya müalicə həkimi ilə əlaqə saxlayaraq məhkəmə qərarının icrası, məcburi müalicə təyin edilmiş şəxsin vəziyyəti barədə məlumat almaq və bu barədə protokol tərtib etmək vəzifələri qoyulmuşdur. İlk baxış-

dan nəzarətlə bağlı başçəkmənin həyata keçirilməsi və bu zaman tələb olunan zəruri hərəkətlərin yerinə yetirilməsi proseduru asan görunsə də, təcrubədə müəyyən problemlər qarşıya çıxmışdır. Narkoloji Mərkəz yalnız Bakı şəhərində fəaliyyət göstərdiyi üçün ölkənin ərazisindəki altmışdan çox rayon və şəhər probasiya qurumlarının icra məmurları başçəkməni həyata keçirmək üçün demək olar ki, hər ay ölkənin paytaxtına xidməti ezamiyyətə gəlməli, Narkoloji Mərkəzdə müəyyən olunmuş iş rejiminə əməl etməklə öz vəzifələrini yerinə yetirməyə çalışmalı, müvafiq şəxslərlə görüşlər keçirməli və aidiyyəti sənədləri tərtib etməlidirlər. Hazırda Narkoloji Mərkəzdə müalicəyə cəlb olunan məhkumların kifayət qədər az sayda olmasına baxmayaraq, başçəkmələr zamanı müxtəlif obyektiv səbəblərdən (müdiriyyətin, həkimlərinin vəzifələrinin icrası ilə əlaqədar məşğulluğu, məhkumların müalicə prosedurlarında və reabilitasiya tədbirlərində iştirakı, onların qohumları ilə görusdə olması, eyni gündə digər icra məmurlarının (probasiya üzrə) da başçəkmə ilə bağlı müalicə müəssisəsinə gəlməsi və digər hallar) həvalə olunmuş vəzifələri yerinə yetirmək, xüsusilə nəzərdə tutulan görüşləri gün ərzində tamlıqla və keyfiyyətlə həyata keçirmək müəyyən çətinliklər yaradır, bəzən isə vaxt baxımından başçəkmə günü imkan xaricində olur. Belə vəziyyət başçəkmənin müddətinin uzanmasına səbəb olur, nəticə etibarı ilə icra məmurunun (probasiya üzrə) heç də az olmayan digər xidməti vəzifələrinin, is fəaliyyəti ilə əlaqədar planlaşdırdığı tədbirlərin vaxtında və səmərəli icrasına maneçilik yaradır. Gələcəkdə müalicəyə cəlb olunmasını gözləyən məhkumların böyuk hissəsinin Narkoloji Mərkəzə yerləşdirilməsi təqdirində isə, başçəkmələrin sayının artması ilə bağlı qeyd olunan proseduranın müddətinın daha da uzanması və çətinləşməsi gözləniləndir. Belə ki, bir qayda olaraq ölkə üzrə rayon və şəhər probasiya qurumlarının hər birinin qeydiyyatında, orta hesabla məcburi müalicəyə göndərilməni gözləyən iyirmi və daha çox məhkum olur. Qeyd edilənlərə istinadən, Narkoloji Mərkəzə məcburi müalicə ilə bağlı məhkəmə qərarının icrasına nəzarət məqsədilə başçəkmənin kim tərəfindən və

necə icra olunması məsələsinin yenidən nəzərdən keçirilməsi məqsədəuyğun olardı. Ədliyyə Nazirliyinin Probasiya xidməti istinad olunan işdəki çətinliyi nəzərə alaraq, müvafiq Qaydanın tələblərinə zidd olsa da, başçəkməni müvəqqəti olaraq Narkoloji Mərkəzin yerləşdiyi inzibati ərazi vahidində fəaliyyət göstərən Bakı şəhər probasiya idarəsinə həvalə etmişdir. Lakin belə yanaşma həmin probasiya qurumunun aidiyyəti əməkdaşlarının onsuz da kifayət qədər böyuk olan iş yükünün xeyli artmasına səbəb olmuş, bununla əlaqədar təcrubədə başçəkmələr, bir çox hallarda, tələb olunan səviyyədə aparılmır. Eyni zamanda, istinad edilən Qaydada məhkumların Narkoloji Mərkəzə göndərilməsi və müalicə başa catdıqdan sonra daimi yaşayış yerinə qayıtması ilə əlaqədar yol xərclərinin kimin hesabına ödənilməsi ilə bağlı müddəa nəzərdə tutulmamışdır. Hazırda yol xərci məhkum və yaxud onun qohumları tərəfindən ödənilir. Lakin bir sıra hallarda xəstəxanaya göndərilmə zamanı məhkumun özünün nəqliyyat xərclərini ödəmək imkanı olmadıqda, habelə onun qohumları bundan imtina etdikdə, məsələnin həlli yollarını tapmaq icra məmurunun (probasiya üzrə) üzərinə düşür, nəticədə Narkoloji Mərkəzə yerləşdirilmədə, habelə müalicəsi başa çatmış məhkumların geriyə qayıtmasında çətinliklər yaşanır.

2018-ci ilin sonundan başlayaraq azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum edilməklə haqqında tibbi xarakterli məcburi tədbirlər tətbiq edilimiş şəxslərin müalicəsinin aparılması prosesində AR CM-in 52–1-ci maddəsinin tələblərinə uyğun olaraq məhkumlara tətbiq olunmuş elektron nəzarət vasitəsinin daşınması və həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət göstərilməsi ilə əlaqədar həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi, Narkoloji Mərkəzdə daxili iş rejimi ilə müəyyən olunmuş təhlükəsizlik qaydaları ilə ziddiyyət təşkil edirdi. Yaranmış problem Ədliyyə nazirliyinin təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 10 aprel 2018-ci il tarıxli 144 nömrəli Qərarı ilə təsdiq olunmuş “Məhkum edilmiş və ya barəsində qətimkan tədbiri seçilmiş şəxslərə elektron nəzarət

vasitələrinin tətbiqi Qayda"larına 18 may 2023-cü il tarixli 160 nömrəli Qərarla edilmiş dəyişikliklə aradan qaldırılmış, Narkoloji Mərkəzdə müalicənin aparıldığı müddətdə məhkumun üzərindən elektron nəzarət vasitəsinin müvəqqəti olaraq çıxarılması təsbit edilmişdir.

Araşdırılan məsələni yekunlaşdıraraq yuxarıda göstərilənlərə, habelə cəzanı icra edən müəssisə və orqanlarda uzun müddətli iş təcrübəmizə istinadən bildirmək istərdik ki, Azərbaycan Respublikasında narkomaniyadan müalicə məqsədi ilə tibbi xarakterli məcburi tədbirlərin tətbiqi ilə əlaqədar məhkəmə qərarlarının icrasının təşkili üçün müvafiq qanunvericilik bazası formalaşdırılmış, tələb olunan infrastrukturun təşkili və aidiyyəti məhkəmə qərarlarının icrasının təmini məqsədilə zəruri tədbirlər görülmüşdür. Eyni zamanda, təcrübədə müşahidə olunan problem və çətinliklərin aradan qaldırılması, bu sahədə fəaliyyətin səmərəliyinin artırılması və təkmilləşdirilməsi məqsədilə əlavə qanunveriçilik, təşkilati, struktur, kadr və bir sıra digər yönümlü tədbirlərin görulməsi məqsədəuyğun olardı. Bununla əlaqədar hazırda həyata keçirilməsi aktuallıq kəsb edən, ilk növbədə icra olunmalı tədbirləri təklif edirik.

1. Cəzaçəkmə müəssisələrində məcburi müalicə tətbiq olunmuş məhkumların sayının artması tendensiyası, habelə bu sahədə qanunvericiliyin tələblərinə riayət edilməsinin vacibliyi nəzərə alınmaqla, müalicə müəssisəsinin narkologiya şöbəsinin fəaliyyətinin təxirəsalınmadan bərpa edilməsi və həmin şöbənin müalicəyə qəbuletmə resurslarının artırılması zəruridir.

2. Azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəza ilə yanaşı tibbi xarakterli məcburi tədbirlər tətbiq edilmiş narkomanların müalicəsinin qanunvericiliyin tələblərinə uyğun, vaxtında və səmərəli təşkili məqsədilə Narkoloji Mərkəzin məhkumların müalicəyə qəbul imkanlarının genişləndirilməsi, habelə onların yaşayış yerlərinə yaxın ərazilərdə müalicəsinin aparılması üçün regionlarda ixtisaslaşdırılmış müalicə müəssisəsinin filiallarının yaradılması daha məqsədəuyğun olardı. Qeyd olunmalıdır ki, ölkə üz-

rə narkoloji müəssisələrin sayının artırılması Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) tərəfindən də tövsiyə edilmişdir.

3. Azərbaycan Respublikasının Konstutisiya Məhkəməsinin Plenumunun 28 iyul 2023-cü il tarixlı Qərarına uyğun olaraq cəzadan azad edilmiş, lakin barəsində təyin edilmiş tibbi xarakterli məcburi tədbirlərlə bağlı məhkəmə qərarı icra olunmamış şəxslərin xəstəliyin ağırlıq dərəcəsindən asılı olaraq ixtisaslaşdırılmış tibb müəssisələrində ambulator qaydada müalicəsinin aparılmasının hüquqi tənzimlənməsi və təşkili məqsədilə müvafiq qanunvericiliyə, ilk növbədə Azərbaycan Respublikasının Cinayət, Cinayət-Prosessual, Cəzaların İcrası, İnzibati xətalar məcəllələrinə, "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Qanuna, habelə məsələ ilə bağlı Nazirlər Kabinetinin müvafiq qərarlarına və digər aidiyyəti normativ aktlara dəyişikliklər edilməlidir. Eyni zamanda, Azərbaycan Respublikasının Ali Məhkəməsinin 08 noyabr 2012-ci il tarixli 8 nömrəli Plenum Qərarına da aidiyyəti dəyişikliklər edilməsi məqsədəuyğun olardı.

4. Barəsində narkomaniyadan müalicə məqsədi ilə tibbi xarakterli məcburi tədbirlər tətbiq edilmiş şəxslərin müalicəsi ləğv edilənədək, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 9-cu maddəsinə onların ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılmasını nəzərdə tutan yeni normanın əlavə olunmasına ehtiyac vardır.

5. İxtisaslaşdırılmış tibb müəssisəsində narkomaniyadan məcburi müalicə ilə bağlı məhkəmə qərarının tələblərinin yerinə yetirilməsinə nəzarət işinin səmərəliyinin artırılması, icra məmurlarının (probasiya üzrə) fəaliyyətinin daha səmərəli təşkili, onların xidməti iş yükünun optimallaşdırılması, bu sahədə ezamiyyə xərclərinə qənaət edilməsi, daha işlək mexanizmin yaradılması məqsədilə müvafiq vəzifənin sonunculardan alınmaqla, bilavasitə Probasiya xidmətinə həvalə olunması üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 17 noyabr 2021-ci il tarixli 354 nömrəli

qərarı ilə təsdiq edilmiş Qaydanın 3.2.2-ci bəndinə müvafiq dəyişikliklər olunması, habelə Narkoloji Mərkəzə müalicəyə göndərilən və müalicə başa çatdıqdan daimi yaşayış yerinə qayıdan məhkumların yol xərclərinin dövlət hesabına ödənilməsi ilə əlaqədar həmin Qaydaya yeni normanın əlavə edilməsi məqsədəuyğun olardı.

6. Barəsində azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzalar tətbiq edilmiş şəxslərin, o cümlədən narkomaniyadan məcburi müalicə təyin olunmuş məhkumların reabilitasiyası, onların sosial və psixoloji müşayiəti, qarşıya çıxan sosial problemlərin həlli ilə bağlı tədbirlərin daha səmərəli həyata keçirilməsi üçün beynəlxalq təcrubə nəzərə alınmaqla, qanunvericiliyə dəyişikliklər edilməsi, Probasiya xidmətinin strukturunda sosial işçilərdən və psixoloqlardan ibarət xüsusi qurumun təşkil olunması kifayət qədər vacib məsələdir.

7. Cinayət Məcəlləsinin 74–1-ci maddəsinin, yəni narkomaniya xəstəliyi ilə əlaqədar cinayət məsuliyyətindən azad etmə institutunun fəaliyyətə başlamasının təmini məqsədilə qanunvericilikdə nəzərdə tutulmuş xüsusi tibb müəssisəsinin qısa müddətdə təşkil edilərək istismara verilməsi üçün zəruri tədbirlər görülməsi, onun Əsasnaməsinin, iş qaydasının layihələrinin hazırlanması, strukturunun və ştat vahidlərinin sayının müəyyən olunması böyük əhəmiyyət kəsb edir.

8. Tibbi xarakterli məcburi tədbirlər tətbiq edilmiş məhkumlar barədə məhkəmə qərarlarının icrasına monitorinqin həyata keçirilməsi, bu sahədə aidiyyəti dövlət orqanları tərəfindən məlumat mübadiləsinin təşkili, habelə müalicənin nəticələrinin effektivliyinin müəyyən olunması məqsədilə təhlillər aparılması üçün Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli Sərəncamına uygun olaraq yaradılmış "Cəza çəkən məhkumlar və həbs edilmiş şəxslər" informasiya sistemində xüsusi bölmə yaradılması məqsədəuyğun olardı.

9. Azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaların icrasının, habelə tibbi xarakterli məcburi tədbirlər tətbiq edilmiş

şəxslər barədə məhkəmə qərarlarının tələblərinin yerinə yetirilməsinə nəzarətin həyata keçirilməsinin səmərəliyinin artırılması, bu sahədə işi digər ölkələrdə mövcud təcrübəyə uyğun təşkili məqsədilə Probasiya xidmətinin rayon (şəhər) qurumlarında işləyən icra məmurlarının (probasiya üzrə) məqbul iş yükünün normativinin, yəni bir əməkdaşa həvalə olunan məhkumların maksimal sayının müəyyənləşdirilməsi və ştat vahidlərinin sayının onlara uyğunlaşdırılması kifayət qədər vacibdir.

Göstərilənlər təkliflərdən əlavə, beynəlxalq təcrubəyə istinadən narkomaniya xəstəliyinə düçar olmuş şəxslərin müalicəsi və reabilitasiyası ilə bağlı yeni, innovativ üsul və metodların müəyyən edilməsi, onların tətbiqi, narkomaniyadan tibbi xarakterli məcburi tədbirlərin icrası prosesinə ictimai nəzarətin həyata keçirilməsinə, habelə reabilitasiya tədbirlərində iştiraka aidiyyəti qeyri-hökumət təşkilatlarının nümayəndələrinin cəlb olunması sözügedən sahədə işin daha effektiv təşkilinə zəmin yarada bilərdi. Buna görə də qeyd olunan məsələlərə də diqqət yetirilməsi əhəmiyyət kəsb edir.

Sonluqda qeyd etmək istərdik ki, Azərbaycan Respublikasında narkomaniyadan müalicə məqsədi ilə tətbiq olunmuş tibbi xarakterli məcburi tədbirləri nəzərdə tutan məhkəmə qərarlarının icrasında mövcud olan problem və çətinliklərin aradan qaldırılması, bu sahədə fəaliyyətin beynəlxalq təcrubə nəzərə alınmaqla müasir tələblər səviyyəsində qurulması, işin səmərəliyinin artırılması yuxarıda göstərilən məsələlərin həllinə zəmin yaratmaqdan əlavə, ölkədə residiv cinayətkarlıqla mübarizəyə, habelə cəzanı icra edən müəssisə və orqanlarının işinin daha effektiv təşkilinə dəstək olardı. Eyni zamanda, verilmiş təkliflərin müsbət qəbulu, Azərbaycan Respublikasında azadlıqdan məhrum etmə yerlərində saxlanılan şəxslərin sayının azalmasına da köməklik göstərə bilərdi.

***İstinad edilmiş mənbə:***

***Danish Scientific Journal. Denmark. 2024. № 88. Səh. 19–25.***

## Azərbaycan Respublikasında azadlıqdan məhrum edilmiş şəxslərin xarici aləmlə əlaqələri, onların inkişaf perspektivləri

Azadlıqdan məhrum etmə növündə həbsin və cəzanın yaratdıqları məhdudiyyətlərin kifayət qədər ciddiliyi və mənfi fəsadları ümumbəllidir. Bu tədbirlər həbs edilmiş şəxsin və məhkumun cəmiyyətdən təcrid edilməsi, qanunla müəyyən edilmiş qapalı müəssisələrdə yerləşdirilməsi ilə müşayiət olunmaqla yanaşı, xüsusi əhəmiyyətli bir çox insan hüquq və azadlıqlarına müdaxilə edir, onları məhdudlaşdırır, bəzi hallarda isə, tamlıqla qadağan edir. Qeyd olunan hüquqlar arasında azadlıqdan məhrum edilmiş şəxslərin xarici aləmlə əlaqələrinin (bundan sonra məhkumların əlaqələri) məhdudlaşdırılması diqqəti xüsusi ilə cəlb edir. Məhkumların əlaqələrinin saxlanılması ilkin olaraq onlar, qohumları və ümumilikdə, cəmiyyət üçün kifayət qədər əhəmiyyət kəsb edir. Belə ki, sözügedən əlaqələr cəza çəkən şəxslərin islahına yönəlmiş vacib alətlərdən biri olmaqla:

- məhkumların sosial faydalı, xüsusilə ailə üzvləri, yaxınları, habelə onlar üçün maraq kəsb edən digər şəxslərlə ünsiyyətlərinin saxlanmasına və möhkəmləndirilməsinə, habelə müsbət yönumlü yeni təmasların yaranmasına xidmət edir;
- cəmiyyətdən təcrid edilmə faktının ciddi mənfi nəticələri olmadan qəbuluna, cəzanın çəkilməsi şəraitinə daha asan uyğunlaşmaya dəstək olur, məhkumların fiziki və psixoloji durumunun sabitliyinə, onların gələcəyə inam hissinin formalaşmasına və güclənməsinə müsbət təsir göstərir;
- məhkumları cinayətə sövq etmiş kriminal meyllərdən imtinaya yönəltməklə, onların gələcək reabilitasiyasına əsaslar yaradır;
- məhkumlar tərəfindən cəzanın çəkilməsi dövründə, habelə sonradan azadlıqda yeni cinayətlərin törədilməsi riskinin azadılmasına, ümumən residiv cinayətkarlığın profilaktikasına əlavə imkanlar təqdim edir;
- məhkumların cəzadan azad edildikdən sonra cəmiyyətə daha

asan qayıdışına, sosial uyğunlaşmasına əlverisli şərait yaradır, azadlıq şəraitində onlar üçün müsbət perspektivlərin formalaşmasına yardımçı olur.

Eyni zamanda, həbs edilmiş şəxslər üçün də, istər istintaq dövründə, istərsə məhkəmə hökmunün qüvvəyə mindiyi dövrədək qohum və digər şəxslərlə əlaqələrin saxlanılmasının əhəmiyyətli olması, fikrimizcə, cəmiyyətdə müsbət qəbul edilməklə böyük müzakirələr doğurmur.

Aparılmış araşdırma göstərir ki, həbs edilmiş şəxslərin, məhkumların əlaqələri uzun inkişaf yolu keçmişdir. Azadlıqdan məhrum etmə cəza sisteminə daxil edildikdən sonra, ilk zamanlarda həmin məcburiyyət tədbiri tətbiq edilmiş şəxslərin azad cəmiyyət, xüsusilə yaxın qohumları ilə əlaqələrinə kifayət qədər sərt məhdudiyyətlər, bir sıra ölkələrdə isə, ümumiyyətlə qadağalar qoyulmuşdu. Belə ki, 1786-ci və 1816-ci illərdə ABŞ-ın Pensilvaniya və Nyu-York ştatlarlarının Filadelfiya və Oborn səhərlərində fəaliyyətə başlamış klassik üslublu həbsxanalarda tətbiq edilmiş qaydalara əsasən, məhkumlar həmin müəssisələrdə təklikdə, habelə sükutun hökm sürdüyü bir şəraitdə saxlanılırdılar. Onlara, hətta bir-biri ilə danışmaga icazə verilmirdi, belə pozuntulara yol verən məhkumlar ciddi tənbeh tədbirlərinə məruz qalırdılar. Sözügedən saxlanma şəraiti məhkumların psixoloji və psixi vəziyyətinə mənfi təsir göstərir, bir çox hallarda onların özlərinə qapanmasına, depressiyalara və ruhi xəstəliklərə tutulmasına səbəb olurdu.

XVIII əsrin ikinci yarısından başlayaraq bir çox dövlətlərin cəzanın təyin edilməsi və icrası sahəsindəki qanunvericiliklərində humanistləşmə ideyaları təşəkkül tapmaga başlamışdır. Həmin ideyaların müəllifləri arasında dünyada həbsxana islahatçıları kimi tanınan ingilis penoloqları Con Hovardı və Yeremiy Bentamı xüsusilə qeyd etmək lazımdır. Onlar azadlıqdan məhrum etmə yerlərində saxlanma şəraitinin humanistləşdirilməsi, burada mövcud sərt qadağanların yumşaldılması, saxlanılan şəxslərə insani münasibət göstərilməsi ilə bağlı təkliflər irəli sürmüşlər. Eyni zamanda, XIX əsrin ikinci yarısından başlayaraq dövlətlər arasında

həyata keçirilən beynəlxalq penitensiar əməkdaşlıq da cəzaların icrası üzrə daha humanist sistemin təşkilini təşviq etmiş, bu sahədə qabaqcıl təcrübələr nəzərə alınmaqla, məhkumların hüquq və azadlıqlarına qoyulmuş bir sıra lüzumsuz qadağaların ləğvi və məhdudiyyətlərin aradan qaldırılması daim müzakirə predmeti olmuşdur. Məhz bu əməkdaşlıq nəticəsində həyata vəsiqə almış məhkumlarla rəftara dair beynəlxalq aktlar dövlətlərin cəza-icra siyasətinin humanistləşdirilməsinə, məhkumların hüquq və azadlıqlarının dairəsinin genişləndirilməsinə, onların müdafiəsinin ön plana çəkilməsinə təkan vermiş, cəzanın icrası və çəkilməsi qaydaları, o cümlədən məhkumların azadlıqla əlaqələri ardıcıl olaraq müsbət dəyişikliklərə məruz qalmışdır. İlkin olaraq, məhkumların yazışmalarına, bir müddət sonra qısamüddətli, daha sonralar isə, yaxın qohumlarla birlikdə yaşamaq hüququ ilə uzunmüddətli görüşlərə icazə verilmişdir. Dünyada insan hüquq və azadlıqlarına dəyər verilməsi, hörmətlə yanaşılması, onların etibarlı müdafiəsinin təmini ilə bağlı aparılan islahatlar nəticəsində məhkumların əlaqələrinin digər növlərinin də tətbiqinə başlanılmış, onların bir hissəsi artıq hüquqlar kimi təsbit edilmişdir.

Məhkumlarla rəftara həsr olunmuş beynəlxalq aktlar, ilk növbədə BMT-nin Məhbuslarla davranışın minimal standart qaydalarının (Nelson Mandela Qaydaları) 58, 62-ci və Avropa Penitensiar Qaydalarının 24, 99-cu qaydaları, istər həbs yerlərində saxlanılan şəxslərin, istərsə də azadlıqdan məhrum edilmiş məhkumların əlaqələrinin saxlanılmasını, müvafiq təmaslar üçün zəruri imkanların təqdim edilməsini vacib hesab edirlər. Qeyd olunan beynəlxalq aktlar azadlıqdan məhrum etmə yerlərinin müdiriyyətindən qapalı müəssisələrdə saxlanılan şəxslər üçün azadlıqdakı həyat arasındakı fərqlərin azaldılmasını və imkan daxilində, cəmiyyətdəki yaşayışın müsbət cəhətlərinə yaxın olmasını tövsiyə edir, habelə müxtəlif, o cümlədən texniki vasitələrdən də istifadə etməklə həbs edilmiş şəxslərin, məhkumların xarici aləmlə təmaslarının kifayət qədər və tez-tez həyata keçirilməsi məqsədilə bütün mümkün imkanlardan yararlanmağa çağırırlar.

Azərbaycanın da son yüz ildəki, yəni 1920-ci ildən sonra başlayaraq formalaşmış, ilkin olaraq islah-əmək, sonralar cəzaların icrası qanunvericiliyi məhkumların azad cəmiyyətlə əlaqələrinin saxlanılmasını zəruri hesab etmiş, onun çərçivəsini və növlərini, ölkədə həyata keçirilən islah-əmək və cəza-icra siyasətinə uyğun olaraq qəbul edilmiş normativ-hüquqi aktlarda təsbit etmişdir. Vaxt ötdükcə, bütün dünyada olduğu kimi, Azərbaycanda da, məhkumların əlaqələrinin təcridən humanistləşdirilməsi, onların beynəlxalq təcrübəyə uyğunlaşdırılması və hüdudlarının genişləndirilməsi prosesi müşahidə edilmişdir. Hal-hazırda Azərbaycan Respublikasının cəzaların icrası qanunvericiliyinə uyğun olaraq məhkumların xarici aləmlə əlaqələrinin mövcud növləri aşağıdakılardır:

1) yazışmalar;

2) cəzaçəkmə müəssisəsinin ərazisində təqdim edilən görüşlər: qısamüddətli (dörd saatadək) və uzunmüddətli (bir gundən üç günədək);

3) telefon danışıqları və videogörüslər (on beş dəqiqəyədək);

4) həvəsləndirmə tədbiri qaydasında tətbiq edilən:

a) tərbiyə müəssisələrində cəza çəkən məhkumların müşayiət ilə müəssisənin hüdudlarından kənarda idman, mədəni-kütləvi və digər tədbirlərə tamaşa məqsədilə gün ərzində müəssisənin hüdudlarından kənara çıxması;

b) məntəqə tipli cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumların istirahət və bayram günlərinin müəssisənin ərazisindən kənarda keçirməsi.

5) cəzaçəkmə müəssisələrinin hüdudlarından kənara qısa müddətli səfərlər (yalnız ölkə daxilində):

a) müstəsna hallarla bağlı, məntəqə tipli cəzaçəkmə müəssisələrində, ilk dəfə qəsdən törədilmiş böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayətlərə görə, habelə ehtiyatsızlıqdan törədilmiş cinayətlərə görə məhkum olunmuş, ümumi rejimli cəzaçəkmə müəssisələrində və tərbiyə müəssisələrində saxlanılan məhkumlara yaxın qohumlarının ölümü və ya həyatı üçün təhlükə yaradan

ağır xəstəliyi ilə əlaqədar, həmçinin məhkumlara və ya onların ailəsinə təbii fəlakətlə və digər fövqəladə hadisə nəticəsində əhəmiyyətli maddi zərər vurulduqda (yeddi günədək);

b) cəzaçəkmə müəssisələrində uç yaşınadək uşaqlarını öz yanında saxlayan qadınlara məzuniyyətləri vaxtı övladlarını qohumlarının, himayəçilərinin yanına və ya uşaq evlərinə düzəltmək üçün (on beş günədək);

c) saxlanma şəraiti yaxşılaşdırılmış bir qrup məhkumlara ildə bir dəfə əmək məzuniyyəti zamanı (yeddi günədək);

d) məntəqə tipli cəzaçəkmə müəssisələrində cəza çəkən və müsbət xarakterizə olunan məhkumlara əmək məzuniyyəti müddətində.

6) məhkum qadınların hamiləliyə və ya doğuşa görə, habelə uşaqları üç yaşına çatanadək cəzaçəkmə müəssisəsindən kənarda yaşaması.

Qüvvədə olan qanunvericiliyə əsasən əlaqələrin bir hissəsi, yəni yazışmalar, görüşlər, telefon danışıqları və videogörüşlər məhkumların bilavasitə hüquqlarıdır. Digərləri, yəni tərbiyə müəssisəsinin nümayəndəsinin müşayiəti ilə idman, mədəni-kütləvi və digər tədbirlərə tamaşa məqsədilə gün ərzində müəssisənin hüdudlarından kənara çıxmaq, məntəqə tipli cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumların istirahət və bayram günlərini müəssisənin ərazisindən kənarda keçirmək, müstəsna hallarla əlaqədar qısa müddətli səfərlər və məhkum qadınların cəzaçəkmə müəssisəsindən kənarda yaşaması imtiyaz xarakterli imkanlardır, yəni onlar qanunvericiliklə müəyyən olunmuş qaydada bir qrup məhkuma müxtəlif əsaslarla və şərtlərlə, bir çox hallarda isə, yalnız həvəsləndirmə tədbiri qismində azadlıqdan məhrum etmə yerlərinin müdiriyyətinin qərarı əsasında təqdim oluna bilər. Qeyd etməliyik ki, məhkum əlaqələrinin göstərilən növləri eyni zamanda, əcnəbi və vətəndaşlığı olmayan şəxslərə də aiddir.

Əvvəllər, ilk növbədə Azərbaycan SSR-nin 20 may 1925-ci il tarixli İslah-Əmək Məcəlləsinə (bundan sonra İƏM) uyğun olaraq məhkumların əlaqələrində, yəni yazışmalarında və görüşlərində,

cəzanın çəkildiyi müəssisənin növündən, habelə qanunvericiliyə əsasən xüsusi işlərə dair məhkəmələrin yanında cəzanın çəkilməsi rejiminin müəyyən olunması və planlaşdırılmış qaydada dəyişdirilməsi məqsədilə fəaliyyət göstərən Bölüşdürmə komissiyalarının məhkumlara təyin etdiyi dərəcədən asılı olaraq məhdudiyyətlər müəyyən olunmuşdu. Həmin məhdudiyyətlər yazışmaların və görüşlərin sayı ilə əlaqədar idi. Eyni zamanda, istinad edilən məcəlləyə əsasən cəzanın çəkilməsi rejiminin pozulmasına görə məhkumlara yazışma və görüş hüquqlarının iki aya qədər müddətə məhdudlaşdırılması və ya həmin hüquqlardan məhrum etmə növündə tənbeh tədbirləri tətbiq edilə bilərdi. Cərimə təcridxanasına keçirilmiş məhkumların da tənbehin təyin edildiyi müddətdə yazışma və görüş hüquqlarından istifadə etməsinə qadağalar qoyulmuşdu.

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 29 iyul 1961-ci il tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan SSR Daxili İşlər Nazirliyinin islah-əmək koloniyaları və həbsxanaları haqqında Əsasnamə"də də 1925-ci ilin İƏM-i ilə məhkumların əlaqələrində müəyyən olunmuş məhdudiyyətlər ümumən saxlanılmış, yalnız məhkumların yaxın qohumları və digər şəxslərlə yazışma hüququndan məhrum edilməsi növündə tənbeh tədbiri ləğv edilmişdir. Eyni zamanda, həmin Əsasnamə ilə xüsusi rejimli cəzaçəkmə müəssisəsində, həbsxanada ümumi saxlanma şəraitində cəza çəkən məhkumların uzunmüddətli, həbsxanada ciddi saxlanma şəraitində olan məhkumların isə, yaxın qohumları və digər şəxslərlə ümumən görüşləri qadağan edilmişdi.

23 dekabr 1970-ci il tarixli Azərbaycan SSR İƏM-in ilkin redaksiyasında da əvvəlki qanunvericilik aktları ilə müqayisədə məhkumların əlaqələri ilə bağlı böyük dəyişikliklər müşahidə edilməmişdir. Yeni məcəllədə yazışmalarda, görüşlərdə olan məhdudiyyətlər saxlanılmış, yalnız xüsusi rejimli cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumlara da uzunmüddətli görüs hüququ verilmişdir. Sözügedən İƏM-in qüvvədə olduğu ilk otuz ilə yaxın müddətdə ona məhkumların əlaqələri ilə bağlı cəmi bir dəyişiklik edilmişdi. Belə ki, 28 mart 1977-ci il tarixli qanunla İƏM-ə əlavə edilmiş

yeni 44-1-ci maddədə bir qrup məhkumun müstəsna hallarda, cəzaçəkmə müəssisəsinin hüdudlarından kənara qısa müddətli səfərlərinə icazə verilməsi təsbit edilmişdir. Aparılmış arasdırma göstərdi ki, qanunda müvafiq imkanın nəzərdə tutulmasına və tələb edilən müstəsna halların olmasına baxmayaraq, təcrübədə məhkumların qısa müddətli səfərlərinə çox nadir hallarda icazə verilirdi.

Qeyd olunmalıdır ki, Azərbaycanın sabiq SSRİ dövlətinin tərkibində olduğu müddətdə azadlıqdan məhrum edilmiş məhkumların əlaqə hüquqlarından biri, yəni görüş hüququ qanunvericilikdə öz əksini tapsa da, təcrübədə onun həyata keçirilməsində müəyyən problemlər də var idi. Belə ki, qanunvericiliyə əsasən bir sıra hallarda, yəni əvvəllər azadlıqdan məhrum etmə növündə cəza çəkmiş bir qrup məhkum, ölüm cəzası bağışlanma qaydasında azadlıqdan məhrum etmə ilə əvəz olunan şəxslər, eyni zamanda, Azərbaycanda müvafiq növlü cəzaçəkmə müəssisələri təşkil edilmədiyi səbəbindən məhkəmə hökmü ilə xüsusi təhlükəli residivst hesab olunmuş məhkumlar, hüquqmühafizə orqanlarının sabiq əməkdaşları da cəzalarını çəkmək üçün respublikanın hüdudlarından kənara göndərilirdilər. Habelə, məhkəmə tərəfindən cəzanın çəkilməsi üçün təyin olunmuş müəssisənin növündən və rejimindən asılı olmayaraq, əmək fəaliyyətinə yararlı hesab olunan bir qrup məhkum sabiq SSRİ-nin müxtəlif regionlarında həyata keçirilən və xüsusi əhəmiyyət kəsb edən irimiqyaslı obyektlərin inşasında çalışmaq, habelə sabiq dövlətin şimal ərazilərindəki meşələrdə ağac emalı ilə bağlı işlərdə iştirak etmək üçün digər respublikalarda təşkil edilmiş xüsusi təyinatlı cəzaçəkmə müəssisələrinə göndərilirdilər. Qeyd olunan hallarda cəzaçəkmə müəssisələrinin məsafə baxımından Azərbaycan SSR-dən kifayət qədər uzaqlarda, bəzi hallarda isə, yaşayış məntəqələrindən xeyli kənarda və nəqliyyat vasitələri üçün keçilməz ərazilərdə yerləşməsi, habelə müvafiq səfərlər üçün heç də az olmayan maliyyə vəsaiti tələb edildiyi səbəblərindən məhkumların qohumları ilə görüşləri demək olar ki, mümkünsüz olurdu.

Məhkumların əlaqələrinin nəzərəçarpacaq dərəcədə humanist-

ləşdirilməsi, onların dairəsinin genişləndirilməsi XX əsrin 90-cı illərinin sonuna, yəni Azərbaycan Respublikasının öz dövlət müstəqilliyini bərpa etdikdən sonrakı dövrə təsadüf edir. Ölkənin yeni Konstitusiyasının qəbulu və qanunvericilik aktlarının əsas qanunun müddəalarına uyğunlaşdırılması ilə əlaqədar qəbul edilmiş 7 fevral 1997-ci il tarixli qanunla Azərbaycan Respublikasının İslah-Əmək Məcəlləsinə edilmiş əsaslı və çoxsaylı dəyişikliklərlə azadlıqdan məhrum edilmiş məhkumların cəzalarının icrası qaydalarında, o cümlədən əlaqələrinin həyata keçirilməsində mövcud olmuş bir sıra məhdudiyyətlər və qadağalar aradan qaldırılmışdır. Belə ki, ilk növbədə yetkinlik yaşına çatmayanlara, həbsxanada cəza çəkənlərə uzunmüddətli, habelə həbsxanada ciddi saxlanma şəraitində cəza çəkən məhkumlara isə, qısamüddətli görüşlərin verilməsi nəzərdə tutulmuşdur. Eyni zamanda, görüşlərin (qısa və uzunmüddətli) sayı xeyli artırılmış, cəzanın çəkilməsi qaydalarının pozulmasına görə tətbiq edilən növbəti görüşdən məhrum etmə növündə tənbeh tədbiri ləğv edilmişdir. Habelə, yazışmalarda, yəni məktub və teleqramların göndərilməsində mövcud olmuş məhdudiyyətlər də qanundan çıxarılmış, bütün məhkumlara, yeni əlaqə növü, yəni telefon danışıqlarından istifadə etmək hüququ verilmişdir. Belə ki, 1970-ci il tarıxli İƏM-in ilkin redaksiyasına əsasən əgər ümumi, ciddi, xüsusi rejimli cəzaçəkmə müəssisələrində məhkumların yaxın qohumlarla və digər şəxslərlə görüşlərinin ümumi sayı il ərzində müvafiq olaraq beş (üç qısa və iki uzunmüddətli), üç (iki qısa və bir uzunmüddətli) və iki (bir qısa və bir uzunmüddətli) təşkil edirdisə, edilmiş dəyişikliklərdən sonra görüşlərin sayı artaraq, ümumi rejimli cəzaçəkmə müəssisəsində əlli iki (qırx səkkiz qısa və dörd uzunmüddətli), ciddi rejimli müəssisədə on dörd (on iki qısa və iki uzunmüddətli), xüsusi rejimli müəssisədə isə, altı (dörd qısa və iki uzunmüddətli) olmuşdur. Eyni zamanda, istinad olunan məcəllənin ilkin redaksiyasına əsasən əgər ciddi və xüsusi rejimli cəzaçəkmə müəssisələrində, həbsxanada ümumi saxlanma şəraitində məhkumların yaxın qohumlara və digər şəxslərə göndərə biləcəkləri məktubların sayı məhdudlaş-

dırılmaqla müvafiq olaraq bir ayda iki və ya bir, həbsxanada ciddi saxlanma şəraitində məhkumlar üçün isə iki ayda bir məktub olmuşdusa, dəyişikliklərdən sonra cəza çəkən şəxslərin məhdudiyyətsiz sayda məktub və ya teleqram göndərmək hüququ təsbit edilmişdir. Habelə, cəzaçəkmə müəssisələrində uşaqlarını öz yanında saxlayan qadınlara məzuniyyətləri vaxtı övladlarını qohumlarının, himayəçilərinin yanına və ya uşaq evlərinə düzəltmək, ümumi rejimli cəzaçəkmə müəssisələrində və tərbiyə müəssisələrində saxlanma şəraiti yaxşılaşdırılan məhkumlara isə ildə bir dəfə məzuniyyətləri zamanı cəzaçəkmə müəssisələrinin hüdudlarından kənara səfər etmək imkanı verilmişdir. AR İƏM-ə edilmiş dəyişikliklərlə məhkumların cəzalarını, onlara məhkəmə tərəfindən təyin olunmuş cəzaçəkmə müəssisəsinin növündən asılı olmayaraq, yalnız ölkə hüdudlarında, habelə yaşayış yerlərinə yaxın ərazidə çəkməsi müddəaları qanunvericilikdə öz əksini tapmış, bu da öz növbəsində həmin şəxslərə əlaqə hüquqlarından, xüsusilə görüşlərdən kifayət qədər rahat və tamlıqla istifadə etmək imkanı yaratmışdır. Bu məqsədlə ölkədə qanunvericilikdə nəzərdə tutulan, lakin əvvəllər mövcud olmayan və yuxarıda sadalanan müvafiq növlü və rejimli cəzaçəkmə müəssisələri də istifadəyə verilmişdir.

Azərbaycanda ölüm cəzasının mövcud olduğu müddətdə bu müstəsna cəzaya məhkum edilmiş şəxslərin əlaqələrinə də kifayət qədər sərt qadağalar qoyulmuşdu. Belə ki, qeyd olunan məhkumların cəzalarının icra olunmasına və yaxud ali qanunvericilik orqan tərəfindən əfvetmə qaydasında ölüm cəzasının azadlıqdan məhrum etmə ilə əvəz edilməsi ilə bağlı qərarın qəbuluna kimi onlara hökm çıxarmış məhkəmənin icazəsi ilə yaxın qohumları ilə yalnız bir dəfə qısamüddətli görüş imkanı verilirdi. Qeyd olunmalıdır ki, sabiq SSRİ dövründə, habelə müstəqilliyin bərpasından sonrakı ilkin dövrdə, yəni ölüm cəzası ləğv edilənə kimi, sözügedən cəzaya məhkum edilmiş şəxslərin saxlanma və cəzalarının icrası qaydaları qanunvericilik aktları ilə, o cümlədən İƏM-lə tənzimlənməmişdi. Müstəsna cəza təyin edilmiş məhkumların saxlanması şəraitini nizamlayan sabiq SSRİ, sonradan isə Azərbay-

can Respublikasının Daxili işlər nazirliklərinin əmrləri ilə təsdiq edilmiş qaydalara uyğun olaraq bu kateqoriyadan olan məhkumların yalnız hökmlə və saxlanma şəraiti ilə bağlı aidiyyəti dövlət orqanlarına müraciətləri istisna olmaqla, yaxın qohumları və digər şəxslərlə yazışmalarına, habelə görüşlərinə və telefon danışıqlarına qadağa qoyulmuşdu.

10 fevral 1998-ci il tarıxli qanunla Azərbaycan Respublikasında ölüm cəzasının ləğvindən və ömürluk azadlıqdan məhrum etmənin cəza sisteminə daxil edilməsindən sonra 25 iyun 1998-ci il tarixli qanunla AR İƏM-ə əlavə edilmiş yeni normaya, yəni 33-1-ci maddəyə əsasən həmin kateqoriyalı məhkumlara il ərzində iki qısamüddətli görüş, dörd telefon danışığı, yaxın qohumlarla və digər şəxslərlə məhdudiyyətsiz sayda yazışmaq hüququ verilmişdir.

2000-ci ilin 1 sentyabrından qüvvəyə minmiş Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin (bundan sonra AR CİM) ilkin redaksiyasında məhkumların əlaqələri ilə bağlı iki yenilik yer almışdır. Belə ki, əcnəbi, vətəndaşlığı olmayan və ya qaçqın statusuna malik olan məhkumlara şəxsi məsələlər üzrə mənsub olduqları dövlətlərinin Azərbaycan Respublikasındakı diplomatik və konsulluq nümayəndəlikləri ilə və ya onlara himayədarlığı öz üzərinə götürmüş milli, yaxud beynəlxalq təşkilatlarla qısa müddətdə əlaqəyə girmək, ömürlük azadlıqdan məhkum edilmiş məhkumlara isə, uzunmüddətli görüş hüququ verilmişdir. Eyni zamanda, yeni məcəllədə cəzasını müxtəlif rejimdə çəkməli olan məhkumların bir cəzaçəkmə müəssisəsinin ərazisində, lakin ayrılıqda və bir-birindən təcrid edilməklə saxlanılmasının mümkünlüyü təsbit edilmişdir. Bu yeni normaya istinadən, habelə Azərbaycan Respublikasının Prezidentinin 17 avqust 2006-cı il tarixli "Ədliyyə orqanlarının inkisafı haqqında" Fərmanına uyğun olaraq ölkənin cəza-icra sistemində həyata keçirilmiş islahatlar çərçivəsində həbs edilmiş şəxslərin istintaq və məhkəmə baxışı müddətində yaşayış yerlərinə daha yaxın ərazilərdə saxlanılması, habelə məhkum edildikdən sonra cəzalarını ailə üzvlərinin və ya qohumlarının yaşadıqları inzibati ərazi vahidlərinin yaxınlığında

çəkmələri üçün ölkənin regionlarında bir neçə yeni qarışıq rejimli cəzaçəkmə müəssisəsi – penitensiar komplekslər istifadəyə verilmişdir. Yeni tipli müəssisələrin nəzdində həbs edilmiş şəxslərin saxlanması üçün ayrıca istintaq təcridxanaları da insa edilmişdir. Penitensiar komplekslər həbs edilmiş şəxslərin, məhkumların hüquq və azadlıqlarının, habelə qanuni maraqlarının etibarlı qaydada təmin edilməsi, onların beynəlxalq standartlara uyğun şəraitdə saxlanması ilə yanaşı, istər məhkumların, istərsə onların qohumlarının görüş hüququndan daha dolgun və səmərəli şəkildə istifadə etmələrinə əlverişli imkanlar yaratmışdır.

AR CİM-i qüvvəyə mindikdən sonra da Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq aktlar nəzərə alınmaqla, cəzaların icrası qaydalarının beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə davam etdirilən humanisləşdirilmə prosesi məhkumların əlaqə hüquqlarına da toxunmuşdur. Belə ki, 24 iyun 2008-ci il tarixli qanunla AR CİM-ə edilmiş dəyişikliklərlə məhkumların yazışmalarında daim mövcud olmuş senzura ləğv edilmişdir. Yazışmalar üzərində nəzarətə yalnız hazırlanan cinayətlərin qarşısını almaq, cinayət təqibini, cəzanın çəkilməsi qaydasını, habelə şəxslərin həyat və təhlükəsizliyini təmin etmək məqsədilə və əsaslı məlumatlar olduğu hallarda cəzaçəkmə müəssisəsinin müdiriyyətinin əsaslandırılmış qərarı ilə yol verilməsi nəzərdə tutulmuşdur. Sözügedən qanunla yetkinlik yaşına çatmayan məhkumlara müəssisə nümayəndəsinin müşayiəti ilə Tərbiyə müəssisəsinin hüdudlarından kənarda idman, mədəni-kütləvi və digər tədbirlərə bir dəfə tamaşa etməyə icazə vermək növündə yeni həvəsləndirmə tədbiri ilə bağlı məcəlləyə yeni 124-1-ci maddə əlavə edilmişdir. İstinad olunan qanunla, habelə 16 oktyabr 2012-ci il tarixli digər qanunla AR CİM-ə edilmiş dəyişikliklərlə məhkumların telefon danışıqlarının sayı (iki dəfə və daha çox) və müddəti (on dəqiqədən on beş dəqiqəyədək) artırılmışdır. Belə ki, əvvəllər məhkumların ayda bir, ömürlük azadlıqdan məhrum edilmiş məhkumların isə, iki ayda bir dəfə telefon danışığı hüquqları olmuşdusa, dəyişikliklərdən sonra həmin hüquqlar bütün məhkumlar üçün həftədə iki

dəfə, ömürlük cəzaya məhkum edilmiş şəxslər üçün isə həftədə bir dəfə müəyyən edilmişdir. Eyni zamanda, ömürlük azadlıqdan məhrum edilmiş məhkumların görüşlərinin sayı da iki dəfə artırılmışdır. Hal-hazırda sözügedən məhkumlar il ərzində altı qısamüddətli, iki uzunmüddətli görüş, həftədə bir dəfə telefon danışığı və ya videogörüş, habelə məhdudiyyətsiz yazışma hüquqlarına malikdirlər.

31 may 2011-ci il tarixli qanunla aparılmış dəyişikliyə görə AR CİM-ə məntəqə tipli cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumlara istirahət və bayram günlərini müəssisənin ərazisindən kənarda keçirməyə icazə vermək növündə yeni həvəsləndirmə tədbiri əlavə edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin “Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə” 10 fevral 2017-ci il tarixli Sərəncamının ikinci bəndinin, habelə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan ədliyyəsinin inkişafına dair 2019–2023-cü illər üçün Dövlət Proqramı”nın üçüncü və altıncı bəndlərində nəzərdə tutulmuş cəzaların icrası və qətimkan tədbirlərinin tətbiqi zamanı müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi, habelə məhkumların hüquqlarının daha effektiv təmini məqsədilə cəzaçəkmə müəssisələrində saxlanılan şəxslərin təmaslarının elmi-texniki tərəqqinin müasir məhsulu olan internet vasitəsi ilə məsafədən və onlayn qaydada həyata keçirilməsi üçün 5 noyabr 2022-ci il tarixli qanunla məhkumlara videogörüş hüququ verilmişdir. Belə ki, AR CİM-in 84-cü maddəsinə edilmiş dəyişikliklərə uyğun olaraq müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum edilmiş şəxslər telefon danışığı əvəzinə həftədə iki dəfə, ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum edilmiş şəxslər isə həftədə bir dəfə, müddəti on beş dəqiqə olmaqla videogörüş vasitəsi ilə qohumları və digər şəxslər-

lə əlaqə saxlamaq hüququna malikdirlər.

Eyni zamanda, qeyd edilməlidir ki, əvvəllər AR İƏM-də, sonralar isə AR CİM-də məhkumların bir sıra əlaqə növlərinin sayının onların cəza müddətindəki davranışından asılı olaraq həvəsləndirmə qaydasında da artırılması nəzərdə tutulmuşdur. Belə ki, hazırda AR CİM-in 105-ci maddəsinə uyğun olaraq nümunəvi davranışa, əməyə və təhsilə vicdanlı münasibətə, özfəaliyyət təşkilatlarında və tərbiyə tədbirlərində fəal iştiraka görə cəzaçəkmə müəssisəsinin müdiriyyəti tərəfindən məhkumlara digər həvəsləndirmə tədbirləri ilə yanaşı, əlavə telefon danışığına və ya videogörüşə, qısamüddətli və ya uzunmüddətli görüşə icazə vermək növündə tədbirlər də tətbiq edilə bilər. Eyni zamanda, həmin maddəyə, habelə AR CİM-in 113, 115, 117, 121, 122 və 124-cü maddələrinə əsasən bütün növ cəzaçəkmə müəssisələrində məhkumlar cəzanın icrası qaydalarını pozmadıqda, əməyə və təhsilə vicdanla yanaşdıqda, habelə cəza müddətinin qanunla müəyyən olunmuş bir hissəsini çəkdikdən sonra onların saxlanma şəraiti yaxşılaşdırıla bilər. Bu halda, cəzaçəkmə müəssisəsinin növündən və rejimindən asılı olaraq, bütün məhkumlar əlavə qısamüddətli və ya uzunmüddətli görüşlərdən, ömürlük azadlıqdan məhrum etmə cəzasını çəkən məhkumlar isə, əlavə olaraq telefon danışığı və ya videogörüşdən də istifadə edə bilərlər.

Azadlıqdan məhrum edilmiş digər kateqoriyalı, yəni cinayət törətməkdə ittiham edilərək barəsində qətimkan tədbiri qismində həbs seçilmiş şəxslərin həbs yerlərində saxlandığı müddətdəki əlaqələrinə gəldikdə qeyd edilməlidir ki, bu sahədəki fəaliyyəti tənzimləyən qanunvericilikdə də uzun müddət sərt məhdudiyyətlər və qadağalar olmuşdur. Belə ki, Azərbaycan SSR-nin 16 iyun 1923-cü il, 8 dekabr 1960-cı il tarixlı Cinayət-Prossesual məcəllələrinə, sabiq SSRİ-nin 11 iyul 1969-cu il tarixli qanunu ilə təsdiq edilmiş “İlkin həbs yerlərində saxlanılma haqqında Əsasnamə”yə, habelə Azərbaycan Respublikasının Ədliyyə nazirinin 7 dekabr 2002-ci il tarixli əmri ilə təsdiq olunmuş “Həbsdə saxlanılma yerlərində şəxslərin saxlanılmasına dair” Müvəqqəti Əsasnaməyə uy-

ğun olaraq, həbs edilmiş şəxslərin müdafiəçiləri istisna olmaqla, yaxın qohumlarla, digər şəxslərlə yazışma, görüş və telefon danışıqları hüquqları olmamışdır. Həmin şəxslər yalnız cinayət prosesini həyata keçirən orqanın və azadlıqdan məhrum etmə cəzasına məhkum edildikdən sonra isə, hökm qanuni qüvvəyə minənədək olan dövrdə yalnız müvafiq məhkəmənin icazəsi ilə yazışmadan və qısamüddətli görüşdən istifadə edə bilərdilər. Belə vəziyyət 2012-ci ilin 22 may tarixli "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildikdən sonra əsaslı şəkildə dəyişmişdir. Bu mütərəqqi qanunla həbs edilmiş şəxslərin hüquqları kifayət qədər genişləndirilmiş, saxlanma şəraiti isə əhəmiyyətli dərəcədə humanistləşdirilmişdir. Yeni qanunla əvvəlki qanunvericiliklə müəyyən edilmiş çoxsaylı qadağalar ləğv edilmiş, digər yeni hüquqlarla yanaşı, həbs edilmiş şəxslərin saxlanma müddətində məhdudiyyətsiz və senzurasız yazışma, ailə üzvləri və digər şəxslərlə qısamüddətli görüş (ayda dörd dəfə dörd saatadək), telefon danışıqları (həftədə iki dəfə on beş dəqiqəyədək) hüquqları da təsbit edilmişdir. Eyni zamanda, qanunda hazırlanan cinayətlərin qarşısını almaq, cinayət təqibini və şəxslərin təhlükəsizliyini təmin etmək məqsədi ilə cinayət prosesini həyata keçirən orqanın və ya həbs yerində rejimi təmin etmək zərurəti yarandığı hallarda isə, həbs yerlərinin müdiriyyətinin əsaslandırılmış qərarı ilə həbs edilmiş şəxslərin yazışma, görüş, telefon danışıqlarından istifadə etmək hüququnun müəyyən müddətə məhdudlaşdırılması və yaxud yazışmalarının senzuradan keçirilməsi nəzərdə tutulmuşdur. Belə qərar qəbul edildikdə, həbs edilmiş şəxs həmin hüquqlardan yalnız müvafiq qərarı qəbul etmiş orqanın yazılı razılığı olduqda istifadə edə bilər. Əlaqə hüquqların məhdudlaşdırılmasına dair qərardan məhkəməyə, həbs yerinin müdiriyyətinin qərarından isə, yuxarı vəzifəli şəxsə şikayət edilə bilər. Aparılan araşdırma göstərdi ki, təcrübədə istər həbs edilmiş, istərsə məhkumların əlaqə hüquqlarının yuxarıda göstərilən əsaslarla məhdudlaşdırılmasından çox nadir hallarda istifadə olunur.

Yuxarıda göstərilənlərə istinadən qeyd etmək istərdik ki, Azərbaycan Respublikasında azadlıqdan məhrum edilmiş şəxslərin xarici aləmlə əlaqələrinin dairəsi ardıcıl olaraq, xüsusilə son otuz ilə yaxın müddətdə nəzərəçarpacaq dərəcədə genişləndirilməklə xeyli humanistləşdirilmiş, hal-hazırda onlar həbs edilmiş şəxslərin, məhkumların hüquq və azadlıqlarının etibarlı təminatı, səmərəli islahı, habelə cəza çəkildikdən sonra azad cəmiyyətə uğurlu reinteqrasiyası və daha asan adaptasiyası üçün əlverişlı imkanlar yaratmışdır. Eyni zamanda, həbs edilmiş şəxslərin, məhkumların azad cəmiyyətlə əlaqələrinin inkişafı, onların təmaslarının yeni növlərinin tətbiqi, ünsiyyətlərinin dairəsinin genişləndirilməsi ilə əlaqədar görülmüş tədbirlərlə artıq kifayətlənmək, fikrimizcə, düzgun olmazdı. Hesab edirik ki, dünya dövlətlərinin qabaqcıl təcrübəsindən bəhrələnməklə, məhbuslarla rəftara həsr olunmuş beynəlxalq aktların, İşgəncələrin, qeyri-insani və ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması üzrə Avropa Komitəsinin (CPT) illik məruzələrindəki tövsiyələrində, habelə İnsan hüquqları üzrə Avropa Məhkəməsinin aidiyyəti qərarlarında azadlıqdan məhrum edilmiş şəxslərin əlaqələri, onların təkmilləşdirilməsi və yeni növlərinin tətbiqinin vacibliyi ilə bağlı yer almış mövqelərə daha da yaxınlaşmaq üçün bu sahədə islahatları davam etdirmək, növbəti humanist addımlar barədə düşünmək lazımdır. Bu məqsədlə aşagıda göstərilən təklifləri nəzərdən keçirilməsi üçün təqdim edirik.

**1.** Məhkumların əlaqə hüququnun kifayət qədər vacib və əhəmiyyətli olduğunu nəzərə alaraq, onun əsas hüquqlar sırasına daxil olunmasını məqsədəuyğun hesab edirik. Belə ki, yaxın qohumlarla və digər şəxslərlə görüşmək, yazışmaq, telefonla danışmaq və videogörüş keçirmək CİM-in 81, 83 və 84-cü maddələrində məhkumların hüquqları kimi təsbit edilmişdir. Habelə, "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda həbs edilmiş şəxslərin yaxın qohumlarla və ya digər şəxslərlə görüşmək, telefon danışıqlarından istifadə etmək hüquqları 15-ci maddədə nəzərdə tutulmuş əsas hüquqlar sırasına daxil edilmişdir. Qeyd

olunanlara istinadən, CİM-in 10-cu maddəsinə aşagıdakı redaksiyada yeni 10.2.1-1-ci maddənin əlavə olunması təklif edilir:

"10.2.1-1. bu Məcəllə ilə müəyyən edilmiş hallarda və qaydada xarici aləmlə əlaqə saxlamaq, yəni yaxın qohumlarla, onlar üçün maraq kəsb edən digər şəxslərlə yazışmaq, görüşmək, telefon ilə danışmaq və videogörüşlər keçirmək;".

**2.** AR CİM-in 110-cu və 126-cı maddələrində nəzərdə tutulmuş tənbeh tədbiri kimi intizam və ya cərimə təcridxanalarında, kamera tipli otaqlarda və birnəfərlik kameralarda saxlanılan məhkumların telefon danışıqlarına, videogörüşlərinə, qısamüddətli görüşlərinə qoyulmuş məhdudiyyətlərin də ləğv edilməsi məqbul olardı. Fikrimizcə, cəzanın çəkilməsi rejimi ilə bağlı pozuntuya yol vermiş məhkumun yaxın qohumlarla əlaqələrinə, qısa müddət ərzində olsa da, qadaga qoyulmasının həmişə müsbət nəticə verəcəyinə ümid bəsləmək düzgun deyildir. Əksinə, məhz bu hallarda telefon danışığı və görüş vasitəsi ilə məhkumlara, xüsusilə yetkinlik yaşına çatmayan məhkumlara valideynləri, yaxın qohumları tərəfindən tərbiyəvi təsir göstərilməsi, onların gələcəkdə yol verilə biləcək pozuntulardan çəkindirilməsi kimi imkanlardan faydalanmaq daha məqsədəuyğun olardı. Eyni zamanda, qeyd etmək istərdik ki, "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununun 40-cı maddəsinə uyğun olaraq tənbeh tədbiri qismində cərimə təcridxanasına yerləşdirilmiş həbs edilmiş şəxslərin telefon danışıqlarına ümumiyyətlə, yazışmalarına və görüşlərinə isə, bilavasitə onlarla bağlı yol verilmiş hüquq pozuntuları istisna olmaqla, qadağalar tətbiq edilməmişdir.

3. Hazırda ən sərt cəza növü tətbiq olunmuş, yəni ömürlük azadlıqdan məhrum edilmiş məhkumlara qısa və uzunmüddətli görüşlərdən ay ərzində ən azı bir dəfə istifadə etmək imkanının verilməsi məqsədilə mövcud sayın il ərzində on ikiyə çatdırılması, habelə bu məhkumların telefon danışıqlarının sayının azadlıqdan məhrum edilmiş digər məhkumlara təqdim olunan telefon danışıqlarının sayına bərabərləşdirilməklə həftədə iki dəfə müəyyən

edilməsi məqsədəuyğun olardı.

**4.** Məhkumlara artıq təqdim olunduğu nəzərə alınaraq, həbs edilmiş şəxslərə də, yaxın qohumları ilə telefon danışığı əvəzinə videogörüş keçirmək hüququnun verilməsini məqsədəuyğun hesab edirik. Bu məsələyə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) "Azərbaycan Respublikasında insan hüquqlarının qorunması haqqında" 2024-cü il üzrə illik məruzəsində da toxunulmuş və bununla bağlı "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq dəyişikliklər olunması təklif edilmişdir.

**5.** Məhkumların əlaqə imkanlarının artırılmasına yönəlmiş həvəsləndirmə tədbirlərinin dairəsinin genişləndirilməsini də münasib addım hesab edirik. Bu məqsədlə qadın məhkumlara dövlət sosial müəssisələrində, yəni körpələr evində, uşaq evlərində, internatlarda saxlanılan yetkinlik yaşına çatmayan uşaqlarına baş çəkmək üçün cəzaçəkmə müəssisəsinin əməkdaşlarının, habelə tərbiyə müəssisələrində cəza çəkən məhkumlara isə, istirahət və ya bayram günlərində valideynlərinin və ya onları əvəz edən şəxslərin müşayiəti ilə gün ərzində müəssisənin hüdudlarından kənara çıxmaga icazə vermək növündə yeni həvəsləndirmə tədbirlərini müəyyən edilməsi, fikirimizcə, müsbət qiymətləndirilərdi. Eyni zamanda, yetkinlik yaşına catmayan məhkumlara müəssisənin hüdudlarından kənarda idman, mədəni-kütləvi və digər tədbirlərə bir dəfə tamaşa məqsədilə təqdim olunan həvəsləndirmə tədbirinin ümumi rejimli cəzaçəkmə müəssisələrindəki bir qrup yetkinlik yaşına çatmış məhkumlara da tətbiq edilməsi təqdirəlayiq olardı.

**6.** CİM-in 89-cu maddəsinə uyğun olaraq azadlıqdan məhrum edilmiş şəxslərə təqdim olunan qısa müddətli səfərlərin dairəsinin genişləndirilməsini, yəni mövcud əsaslara digər müstəsna halların, yəni məhkumun nikaha girmək, təhsil almaq, uşağının dünyaya gəlməsi ilə bağlı, habelə övladının hərbi xidmətə yola salınması, yaxın qohumların toy mərasimlərində, cəzadan azad edilməkdən bir müddət əvvəl şəxsi xarakterli ailə və sosial problemlərin

həllində iştirakının da daxil olunması, əlavə islah və azad cəmiyyətə reinteqrasiyanın daha bir səmərəli vasitəsi kimi istifadə edilə bilərdi. Habelə, düşünürük ki, qısa müddətli səfərlərin bir sıra ağır cinayətlərə görə ilk dəfə məhkum edilmiş və ümumi rejimli cəzaçəkmə müəssisələrində saxlanılan məhkumlara, habelə həbs edilmiş şəxslərə də şamil edilməsi məqbul olardı.

**7.** Beynəlxalq aktlar, o cümlədən Avropa Şurasının Nazirlər Komitəsinin 24 sentyabr 1982-ci il tarixli (82) 16 nömrəli Tövsiyəsi, habelə bir sıra Avropa ölkələrində tətbiq olunduğu nəzərə alınaraq, cəzaçəkmə müəssisələrində saxlanılan məhkumlara (ömürlük azadlıqdan məhrum edilmiş şəxslər istisna olmaqla), əmək fəaliyyəti ilə bağlı olmayan ailə və sosial xarakterli qısa müddətli məzuniyyətlərin, yəni tibbi müayinədən keçmək, müalicə almaq, nikaha girmək, hüquqlarının məhkəmədə müdafiəsi üçün, habelə ailə üzvlərinin, azad edilməkdən bir müddət əvvəl özlərinin əhəmiyyətli sosial problemlərinin həllində bilavasitə iştirakı ilə əlaqədar təqdim olunması, fikrimizcə müsbət qəbul edilməlidir.

**8.** AR CİM-in 81.4-cü maddəsinin digər redaksiyada verilməsini və yaxud ləğv olunmasını məqsədəuyğun hesab edirik. Həmin maddədə qeyd olunur ki, məhkumların digər şəxslərlə görüşlərinə cəzaçəkmə müəssisəsinin müdiriyyəti tərəfindən sonuncuların cəza çəkən şəxslərə müsbət təsir göstərə biləcəyi halda şərait yaradılır. Məsələnin belə qoyuluşunu düzgun hesab etmirik. Belə ki, görüşlər zamanı digər şəxslərin məhkumlara müsbət təsir göstərə bilə və ya bilməyəcəklərinin müəyyənləşdirilməsi mexanizmi qanunvericiliklə müəyyən edilməmiş, hazırda görüşə icazəni rəsmiləşdirən şəxslərin mülahizəsindən asılıdır. Qeyd olunanlar nəticə etibarı ilə cəza çəkənlərin görüş hüquqlarının pozulmasına, cəzaçəkmə müəssisəsinin müdiriyyəti tərəfindən isə sui-istifadələrə yol verilməsinə şərait yarada bilər. Əlavə olaraq, görüşlərin sayının kifayət qədər çox olması baxımından belə müəyyənləşdirmə, hər bir halda vaxt tələb edəcəyi və işçi heyətinin xidmət yükünün artacagı səbəbindən da arzu olunan sayılmamalıdır.

**9.** Bir müddət əvvəl məhkumların yeni əlaqə növü kimi tətbiqi-

nə başlanmış “videogörüşlər” anlayışını, qanunda verilmiş hüquqi ifadə baxımından tam uğurlu hesab etmirik. Məhkumların hüquqları sırasına daxil edilmiş belə “görüş” növü istər mahiyyət, istər ayrılan vaxt, həm də təqdimetmə proseduru ilə digər görüş növlərindən xeyli fərqlənir. Eyni zamanda, AR CİM-in 84-cü maddəsində “videogörüş” telefon zənglərinə alternativ və ya əvəz kimi verilmişdir. Habelə, cəmiyyətdə “videogörüş” ifadəsi, əksəriyyət hallarda zəng bağlantısı ilə həyata keçirildiyindən “görüntülü zəng” və yaxud “videozəng” kimi qəbul edilir. Qeyd olunanları nəzərə alaraq, AR CİM-in müvafiq maddələrində “videogörüşlər” sözlərinin “videozənglər” sözü ilə əvəz olunmasını daha məqsədəmüvafiq hesab edirik.

**10.** Məhkumların telefon danışıqlarının həyata keçirilməsi mexanizminin təkmilləşdirilməsinə də ehtiyac duyulur. Hazırda həmin mexanizm cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydaları ilə tənzimlənir, məhkumun yazılı müraciətini, bu barədə qeydiyyatın aparılmasını və müdiriyyət tərəfindən müvafiq rəsmiləşdirilməni nəzərdə tutur. Eyni zamanda, telefon danışıqlarının təqdim edilməsinin təşkili üçün hər gün cəzaçəkmə müəssisələrində müvafiq sayda işçi heyəti ayrılır. Bu sahədə beynəlxalq təcrubə nəzərə alınmaqla, cəzaçəkmə müəssisələrinin ərazisində taksofonların quraşdırılması, məhkumlara istifadəsi qanunla müəyyən olunmuş müvafiq vaxtı (hazırda on beş dəqiqə) nəzərdə tutan danışıq kartlarının verilməsi telefon danışıqlarının təqdimetmə mexanizmini sadələşdirməklə, bu məqsədlər üçün müvafiq yazışmalardan, işçi heyətini isə iş yükündən azad olunmasına zəmin yarada bilərdi. Belə təcrübənin tətbiqi ilə bağlı təhlükəsizliyin, rejim tələblərinin təmin edilməsi, habelə cinayətlərin və digər hüquqpozmaların törədilməsinin qarşısının alınması məqsədilə bir sıra Avropa ölkələrinə istinadən məhkumlara əvvəlcədən məlumat verilməklə, telefon danışıqlarının audio yazılışlarının aparılması və zəruri hallarda isə, onların nəzarətdən keçirilməsi təcrübəsi tətbiq oluna bilərdi.

**11.** Hal-hazırda dünyada insanlar arasında təmasların saxlanıl-

masının əsas növlərindən birinə çevrilmiş internetdən məhkumlara da, müxtəlif şərtlər və istisnalarla istifadəyə icazə verilməsinin nəzərdən keçirilməsini də təklif edirik. Belə icazə məhkumları eyni zamanda, kömputer biliklərini mənimsəməyə, istifadə qaydalarını öyrənməyə həvəsləndirməklə yanaşı, onların asudə vaxtlarının daha səmərəli təşkilinə, ölkədə və dünyada baş verən hadisələr barədə operativ məlumat almağa, cəza çəkənləri maraqlandıran məsələlərə qısa müddətdə aydınlıq gətirməyə, onlayn təhsilə cəlb edilməyə və müxtəlif islah yönümlu digər tədbirlərin həyata keçirilməsinə əlverişli imkanlar yarada bilərdi. Yuxarıda göstərildiyi kimi internetdən artıq məhkumlara videogörüşlərin təqdim olunması işində istifadə edilir.

Həbs edilmiş şəxslərin və məhkumların xarici aləmlə əlaqələrinin genişləndirilməsi ilə bağlı yuxarıdakı təkliflərin bir hissəsi onların hüquqları ilə yox, imtiyazları ilə, yəni azadlıqdan məhrum etmə yerlərinin müdiriyyətinin icazəsi ilə əlaqədardır. Buna görə də qanunvericiliklə müəyyən olunmuş mövcud imkanlardan, habelə gələcəkdə müsbət qəbul oluna biləcək yeniliklərdən müvafiq müəssisələrinin rəhbərləri tərəfindən daha fəal və geniş istifadə olunması arzu ediləndir. Düşünürük ki, məhz belə yanaşma nəticəsində sözügedən imtiyazlar əlavə müsbət stimul rolunu oynamaqla, azadlıqdan məhrum edilmiş şəxsləri rejim qaydalarına riayət etməyə və qanuna itaətli davaranışa həvəsləndirə bilərdi.

Verilmiş təkliflərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinə, “Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa, habelə istintaq təcridxanalarının və cəzaçəkmə müəssisələrinin Daxili intizam qaydalarına, bir sıra digər normativ aktlara dəyişikliklər edilməsi zərurəti yaranacaqdır.

***İstinad edilmiş mənbə:***

***Slovak international scientific journal. Slovakia. 2025. № 94, pp. 62–69.***

## Azərbaycan Respublikasında qadınlara cinayət cəzalarının təyin edilməsinin və onların cəzalarının icrasının xüsusiyyətləri

Azərbaycan Respublikasının qüvvədə olan Cinayət və Cəzaların İcrası məcəllələri beynəlxalq təcrübəyə, milli mənəvi dəyərlərə və mentalitetə istinadən qadınların fizio-psixoloji xüsusiyyətlərini, o cümlədən onların hamiləliyi və yetkinlik yaşına çatmayan uşaqlara malik olması ilə bağlı halları nəzərə alaraq, kişilərlə müqayisədə onlara cəzaların təyini və icrası ilə əlaqədar bir sıra fərqli yanaşmalar nəzərdə tutmuşdur. Qeyd olunmalıdır ki, cinayət törətmiş qadınlara cəzaların təyin edilməsinə və onların cəzalarının icrasına daha humanist münasibət yalnız XX əsrdən başlayaraq təşəkkül tapmağa başlamışdır. Azərbaycanın Çar rusiyasının tərkibində olduğu müddətdə cinayət cəzalarının təyin edilməsi və cəzalarının icrası ilə bağlı müvafiq qanunvericilikdə kişilərlə müqayisədə qadınlar üçün, demək olar ki, heç bir güzəşt və ya imtiyaz nəzərdə tutulmamışdı. Sözügedən məsələ ilə bağlı XIX əsrin sonunda tanınmış rus hüquqşünas alim Çernet M.N. "Çar həbsxanasının tarixi" adlı beş cildlik mükəmməl əsərinin milli azlıqlara mənsub şəxslərın, yetkinlik yaşına çatmayanların və qadın məhkumların həbsxanalarda saxlanmasına həsr olunmuş hissəsində qeyd edirdi ki, "hər il Çar Rusiyasının həbsxanalarına on minlərlə qadının daxil olmasına baxmayaraq, qanunvericilik üçün azadlıqdan məhrum etmə yerlərində "qadın məsələsi", ümumiyyətlə yox idi. Həmin məsələ ilə rus ədəbiyyatı da məşğul olmurdu. Həbsxanada kişilərin və qadınların bərabərləşdirilməsi, reallıqda qadınlar üçün yeni, əlavə çətinliklər yaradırdı...".

Azadlıqdan məhrum etmə yerlərində məhkum qadınlara fərqli rəftarla bağlı məsələ ilkin olaraq dünya dövlətlərinin beynəlxalq penitensiar əməkdaşlığı çərçivəsində 1895-ci ildə Parişdə keçirilən beşinci həbsxana konqresinin gündəliyinə daxil edilmiş və müzakirə predmeti olmuşdur. Müzakirələr zamanı qadınların fizioloji və psixoloji xüsusiyyətlərindən irəli gələrək, azadlıqdan məhrum etmə yerlərində rejimin təmin edilməsi, əməyin təşkili,

tənbeh tədbirlərinin tətbiqi zamanı sözügedən şəxslərə fərqli münasibət göstərilməsinin çox vacib olduğu qeyd olunmuşdur. Həmin həbsxana konqresindən sonra da məhkum qadınların hüquq və azadlıqlarının müdafiəsi, onlara seçkili münasibət göstərilməsi, kişilərlə müqayisədə qanunvericilikdə əlavə güzəştlərin nəzərdə tutulması ilə bağlı məsələlər cəzaların icrası, məhkumlarla rəftara həsr olunmuş beynəlxalq səviyyədə keçirilən tədbirlərdə daim gündəmdə olmuşdur. Azadlıqdan məhrum edilmiş qadınların xüsusi qayğıya ehtiyacı olan şəxslər qrupuna aid edilməsi, onların spesifik ehtiyacları, şəxsi problemləri nəzərə alınaraq, məhkumlarla rəftara həsr olunmuş, ilk novbədə BMT, Avropa Şurası tərəfindən qəbul edilmiş beynəlxalq aktlara sözügedən məhkumların saxlanma şəraiti, əməyə cəlb olunması, onlara tibbi yardım göstərilməsi və digər məsələlərlə əlaqədar ayrı qaydalar və ya fəsillər daxil edilmişdir. İnsan hüquq və azadlıqlarına, habelə həbs edilmiş və məhkum qadınlarla rəftar, onların cəzalarının icrası xüsusiyyətlərinə həsr olunmuş beynəlxalq aktlardakı prinsipləri, qaydaları müasir dövrün tələbləri nəzərə alınmaqla təkmilləşdirmək, yenilərini əlavə etmək, habelə onları bir yerdə cəmləşdirmək məqsədilə BMT-nin Baş məclisi 21 dekabr 2010-cu il tarixli 65/229 nömrəli qətnamə ilə "Məhkum qadınlarla və azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəza növləri tətbiq edilmiş qadın hüquqpozucuları ilə rəftara dair qaydalar (Banqkok Qaydaları)" qəbul etmişdir.

Müvafiq statistik rəqəmlərə və elmi araşdırmalara istinadən Azərbaycanda, o cümlədən müstəqillik bərpa edildikdən sonrakı dövrdə də, qadınlar tərəfindən törədilmiş ictimai təhlükəli əməllər ümumi cinayətkarlıqda istər say, istərsə faiz hesabı ilə çox da böyuk yer tutmamışdır. Azərbaycanın Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən son otuz, yəni 1993–2023-cü illərdə qadınlar tərəfindən törədilmiş cinayətlərin sayı ölkədə ümumi qeydə alınmış ictimai təhlükəli əməllərin il ərzində orta hesabla cəmi 7,6 %-ni təşkil etmişdir. 1993–2000-ci illərdə müvafiq göstərici 6,8 % olmuş, say hesabı ilə ən az cinayət hadisəsi 727 olmaqla 1993-

cü ildə, ən çox cinayət hadisəsi isə 1296 olmaqla, 1998-ci ildə qeydə alınmışdır. 2001–2010-cu illərdə müvafiq göstərici artmaqla orta hesabla 13,1 % təşkil etmiş, sayca ən az cinayət hadisəsi 2001-ci ildə 1693, ən çox cinayət isə 2006-cı ildə 2675 olmuşdur. 2011–2020-ci illər ərzində sözügedən rəqəmlər müvafiq olaraq 4,8 %, 971 cinayət (2014-cü il) və 2074 cinayət (2011-ci il) təşkil etmişdir. 2001–2010-cü illərdə qadın cinayətkarlığı üzrə faiz göstəriciləri təhlili aparılan digər illərlə müqayisədə yüksək olmuş, 2011-ci ildən başlayaraq isə, qeydə alınmış cinayətlər istər say, istərsə faiz nisbəti ilə ardıcıl olaraq azalmışdır. 2021–2023-cü illərdə qadın cinayətkarlığı üzrə faiz göstəriciləri digər illərlə müqayisədə azalmaqla, müvafiq olaraq 3,8 %, 3,4 % və 3,5 % olmuşdur.

Araşdırılması aparılan illərdə yetkinlik yaşına çatmayan qızlar tərəfindən törədilmiş cinayətlərin sayı da həmin yaş həddində olan oğlanlarla müqayisədə dəfələrlə az olmuşdur. Son otuz ilə yaxın, yəni 1995–2023-cü illərdə yetkinlik yaşına çatmayan qızların cinayətlərinin sayı il ərzində yeddi–otuz bir arasında olmuş, həmin illərdə on səkkiz yaşına çatmayan şəxslər tərəfindən törədilmiş ictimai təhlükəli əməllərin orta hesabla 3,4 %-ni təşkil etmişdir. 2002-ci ildə sözügedən şəxslər tərəfindən törədilmiş 31, 2016-cı ildə isə, cəmi 7 cinayət hadisəsi qeydiyyata alınmışdır. 2023-cü ildə yetkinlik yaşına çatmayan qızlar tərəfindən 15 cinayət hadisəsi törədilmişdir ki, bu da həmin yaşda olan şəxslərin cinayətlərinin cəmi 3,0 %-i civarındadır.

Azərbaycan Respublikasında qadınlar tərəfindən törədilən cinayətlərin sayının o qədər də böyuk olmadığı səbəbindən cəza təyin olunmuş qadınların sayı da kifayət qədər azlıq təşkil etmişdir. Ölkədə 1993–2023-cü illərdə məhkəmələr tərəfindən cəzaların təyin edilməsi ilə bağlı statistikanın təhlili göstərdi ki, məhkum olunmuş şəxslərin orta hesabla cəmi 6,3 %-i qadınlar olmuşdur. Məhkum etmə təcrübəsi ilə bağlı qadınların sayı üzrə ən yüksək göstərici 2002-ci ildə 11,7 % olmuş, 2022-ci ildə isə, cəmi 3,8 % təşkil etmişdir. Qadınlar tərəfindən törədilmiş cinayətlərin növləri ilə bağlı statistikaya əsasən qeydə alınmış ictimai təhlükəli əməl-

lər arasında, bir qayda olaraq, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi, dələduzluq, oğurluq, xuliqanlıq, yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması halları daha çox olmuşdur.

Araşdırılan otuz il ərzində yetkinlik yaşına çatmayan qızların məhkumluğu ilə bağlı təhlil göstərdi ki, onların sayı yetkinlik yaşına çatmayan oğlanlarla müqayisədə kifayət qədər az və orta hesabla təxminən hər il cəmi 1–3 % arasında olmuşdur.

Azərbaycan Respublikasının 2000-ci ilin 1 sentyabrından qüvvədə olan Cinayət Məcəlləsinə (bundan sonra AR CM) uyğun olaraq ölkə vətəndaşı olan qadınlara hazırda cəza sisteminə daxil olan on iki məcburiyyət tədbirindən ikisinin, yəni Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma və ömürlük azadlıqdan məhrum etmə növündə cəzaların tətbiqinə qadağa qoyulmuşdur. “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında“ Azərbaycan Respublikasının 10 oktyabr 2006-cı il tarixli qanunu qəbul edildikdən bir müddət sonra AR CM-in ümumi və xüsusi hissələrinin təkmilləşdirilməsi ilə əlaqədar ölkənin hüquqmühafizə orqanlarının nümayəndələrinin, müxtəlif instansiya məhkəmələrinin sədrlərinin və hakimlərinin, habelə ölkədə cinayət hüququ sahəsində tanışmış alimlərin iştirakı ilə keçirilən müzakirələrdə gender bərabərliyinə istinadən qadınlara da ömürlük azadlıqdan məhrum etmə növündə cəzanın tətbiqinin mümkünlüyü ilə əlaqədar də müzakirələr aparılsa da, məsələ sonluqda müsbət rəy almamışdır. Fikrimizcə, qeyd olunan ciddi məsələyə belə ehtiyatlı yanaşma Azərbaycan Respublikasında qadınlara, onların hüquqlarının müdafiəsinə olan mövcud pozitiv münasibətin, hörmət və ehtiramın bariz nümunələrindən biri kimi qiymətləndirilməlidir. Cəza sisteminə daxil edilmiş digər on, istər əsas, istərsə əlavə cəzalar, məhkəmələr tərəfindən qadınlara təyin edilə bilər. Eyni zamanda, cinayət qanununa əsasən xüsusi hallar mövcud olduqda, yəni pensiya yaşına çatmış, hamilə, himayəsində üç yaşınadək uşağı olan qadınlara ictimai işlər növündə cəza təyin oluna bilməz. Habelə qeyd olunmalıdır ki, Azərbaycan Respubli-

kasının hüdudlarından kənara məcburi çıxarma növündə əlavə cəza əcnəbilər və ya vətəndaşlığı olmayan qadınlara tətbiq edilə bilər.

Azərbaycan SSR-nin 1922, 1927-ci il tarixli Cinayət Məcəllələrindən fərqli olaraq, 9 dekabr 1960-cı il tarixli Cinayət Məcəlləsində qadınlara cəza təyini ilə bağlı müəyyən güzəştlər nəzərdə tutulmuşdu. Belə ki, məcəllənin ilkin redaksiyasına əsasən müstəsna cəza tədbiri – ölüm cəzası, cinayətin törədildiyi vaxt, habelə hökm çıxarılarkən hamilə olan qadınlara tətbiq edilə bilməzdi. 1996-cı ilin may ayında AR CM-ə edilmiş dəyişikliklə qadınlara ölüm cəzasının tətbiqi, ümumiyyətlə ləğv edilmişdir. Habelə, sabiq cinayət qanununda sürgün etmə cəzasının hamilə və öhdəsində səkkiz yaşına kimi uşağı olan qadınlara təyin olunmasına qadağa qoyulmuşdu.

Azadlıqdan məhrum edilmiş qadın məhkumlara cəzaçəkmə müəssisəsinin növünün müəyyən edilməsində də müəyyən fərqlər vardır. Ümumqəbul edilmiş qaydaya əsasən bütün dünyada, o cümlədən Azərbaycan Respublikasında da məhkum qadınlar cəzalarını məhkum kişilərdən ayrı, onlar üçün nəzərdə tutulmuş ümumi və ciddi rejimli cəzaçəkmə müəssisəsində çəkirlər. Məhkum kişilərdən fərqli olaraq, cinayətlərin xüsusi təhlükəli residivi zamanı məhkum qadınlar cəzalarını xüsusi rejimli cəzaçəkmə müəssisəsi əvəzinə ciddi rejimli cəzaçəkmə müəssisələrində çəkirlər. Habelə, yetkinlik yaşına çatmayan, o cümlədən əvvəllər azadlıqdan məhrum etmə növündə cəza çəkmiş qızlar məhkum oğlanlardan fərqli olaraq cəzalarını yalnız onlar üçün nəzərdə tutulmuş ümumi rejimli tərbiyə müəssisələrində çəkirlər. Eyni zamanda, ölkənin Cəzaların İcrası Məcəlləsinin (bundan sonra AR CİM) 118-ci maddəsinə uyğun olaraq məhkum qadınlar məntəqə tipli cəzaçəkmə müəssisələrində məhkum kişilərlə eyni müəssisədə, lakin ayrılıqda saxlanıla bilərlər.

Sonuncu qəbul edilən AR CM-ə bir sıra dövlətlərin təcrübəsinə istinadən, əvvəllər sabiq məcəllədə mövcud olmayan, hamilə və azyaşlı uşaqları olan qadınlar tərəfindən cəzanın çəkilməsinin tə-

xirə salınması ilə bağlı yeni hüquq institutu əlavə edilmişdir. Belə ki, məcəllənin 79-cu maddəsinin ilkin redaksiyasına əsasən, şəxsiyyət əleyhinə ağır və ya xüsusilə ağır cinayət törətməyə görə beş ildən çox müddətə azadlıqdan məhrum edilmiş şəxslər istisna olmaqla, hamilə və ya səkkiz yaşına qədər uşağı olan qadınların uşaq səkkiz yaşına çatanadək cəzalarının çəkilməsi təxirə salına bilərdi. Ölkədə gender bərabərliyi barədə qanunun qəbulundan sonra, 1 oktyabr 2007-ci il tarıxli qanunla AR CM-ə edilmiş dəyişikliklə müvafiq maddənin uşağını təkbaşına böyüdən kişilərə də tətbiq olunması nəzərdə tutulmuşdur. Habelə, Azərbaycan Respublikası Prezidentinin "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 10 fevral 2017-ci il tarixli Sərəncamının icrası ilə bağlı həyata keçirilmiş kompleks təşkilati, institutsional, praktiki tədbirlərlə yanaşı, qanunvericiliyin humanistləşdirilməsi ilə bağlı AR CM-ə edilmiş çoxsaylı dəyişikliklər çərçivəsində məcəllənin 79-cu maddəsində nəzərdə tutulmuş uşaqların yaş həddi səkkizdən on dördə kimi artırılmışdır.

Statistik rəqəmlərə istinadən Azərbaycan Respublikasında məhkum kişilərlə müqayisədə, məhkum qadınlar sayca kifayət qədər azlıq təşkil edirlər. Göstərilənlər həm cəmiyyətdən təcrid edilmə ilə bağlı olmayan cəzalara, həm də azadlıqdan məhrum etməyə məhkum edilmiş qadınlara aiddir.

Məhkum kişilərlə müqayisədə məhkum qadınlara təyin edilmiş cəmiyyətdən təcrid edilmə ilə bağlı olmayan cərimə, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, ictimai işlər, islah işləri, azadlığın məhdudlaşdırılması, o cümlədən əlavə cəzaların icrası, habelə şərti məhkum etmə, cəzanın çəkilməsinin təxirə salınması, cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə ilə bağlı probasya nəzarətinin həyata keçirilməsi ilə əlaqədar cəzaların icrası qanunvericiliyində demək olar ki, böyük fərqlər müəyyən edilməmişdir. Yalnız islah işləri

cəzasının çəkilməsi dövründə məhkum qadınların hamiləliyə, doğuşa görə, yaxud övladlığa götürməyə və ya qismən ödənişli sosial məzuniyyətdə olma vaxtının cəzanın icrası müddətinə hesablanması nəzərdə tutulmuşdur. Habelə, ictimai işlər və ya islah işləri növündə cəza çəkən məhkum qadınlar, hamiləlik və ya doğuşa görə işdən azad olunduqları andan cəzanın çəkilməsinin təxirə salınması barədə ərizə ilə məhkəməyə müraciət etmək hüququna malikdirlər. Həmin müraciətə Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi (bundan sonra AR CPM) ilə müəyyən olunmuş qaydada baxılır.

Azərbaycan Respublikasında cəmiyyətdən təcrid edilmə ilə bağlı olmayan cəzalar təyin edilmiş, barələrində şərti məhkum etmə, cəzanın çəkilməsinin təxirə salınması tətbiq olunmuş, habelə cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmış və probasiya qeydiyyatında olan məhkum qadınların sayı ilə bağlı Avropa Şurası tərəfindən 1992-ci ildən başlayaraq dərc olunan azadlıqdan məhrum etmə ilə bağlı olmayan cinayət statistikası üzrə illik SPACE II-nin son illər üzrə hesabatları öyrənilmişdir. Müəyyən edilmişdir ki, ölkədə 2017-ci ilin sonundan fəaliyyətə başlamış Ədliyyə Nazirliyinin Probasiya Xidmətinin 2019–2021-ci illərin sonunda qeydiyyatında olmuş məhkumların ümumi sayının müvafiq olaraq 11,2 %, 11,7 % və 15,4 %-ni qadınlar təşkil etmişdir. 2023-cü ildə isə probasiya qeydiyyatında olmuş qadın məhkumların sayı azalmış və ümumi sayda cəmi 5,7 %-ə bərabər olmuşdur. Probasiya qeydiyyatında olan qız məhkumların sayı da, ümumi say və məhkum oğlanlarla müqayisədə nəzərəçarpacaq dərəcədə az olmuşdur.

Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadınlar hərbi xidmətə çağırış üzrə müddətli həqiqi hərbi xidmət keçməkdən azad edildiklərindən, habelə kontrakt (bağlaşma) əsasında sıravi və gizir, o cümlədən zabit vəzifələrində hərbi qulluq keçən qadınların sayı xeyli az olduğundan, sözügedən şəxslərə hərbi xidmət üzrə məhdudlaşdırma və intizam xarakterli hərbi hissədə saxlama növündə cəzaların tətbiqi barədə rəsmi statistikaya, habelə məsələ

ilə əlaqədar dövrü mətbuatda dərc olunmuş yazılara rast gəlinmir. Məhz bu baxımdan hərbi qulluqçulara tətbiq edilən hər iki cəzanın qadınlara təyini ilə əlaqədar məhkəmə təcrübəsi ilə bağlı fikir söyləmək imkan xaricindədir. Eyni zamanda, qeyd olunmalıdır ki, həmin cəzaların icrası ilə əlaqədar AR CİM-ə qadın məhkumlarla bağlı güzəştlər daxil edilməmişdir.

Müəyyən müddətə azadlıqdan məhrum etmənin məhkum qadınlara tətbiq olunan ən sərt cəza növü olduğu, habelə həmin dövlət məcburiyyət tədbirinin şəxsin cəmiyyətdən təcrid edilməklə qapalı müəssisələrdə yerləşdirilməsi ilə müşayiət olunması, əhəmiyyətli bir çox insan hüquq və azadlıqlarını məhdudlaşdırması, bəzi hallarda isə, tamlıqla qadağan etdiyi nəzərə alınaraq, sözügedən cəzanın icrası ilə bağlı cəzaların icrası qanunvericiliyində, xüsusilə hamilə və üç yaşına çatmayan uşağı olan məhkum qadınlarla bağlı bir sıra güzəşt və imtiyazlar nəzərdə tutulmuşdur. Qeyd olunmalıdır ki, tarixə istinadən, əvvəllər müvafiq güzəşt və imtiyazların dairəsi çox kiçik olmuşdur. Zaman keçdikcə, qanunvericiliyin humanistləşdirilməsi nəticəsində onların sayı artmış və dairəsi genişlənmişdir. Belə ki, Azərbaycanın 1920-ci ildən sonra formalaşmış, ilkin olaraq islah-əmək, sonralar cəzaların icrası qanunvericiliyi məhkum qadınların cəzalarının icrasına fərqli yanaşmanı, onun çərçivəsini və növlərini, ölkədə həyata keçirilən islah-əmək və cəza-icra siyasətinə uyğun olaraq qəbul edilmiş normativ-hüquqi aktlarda təsbit etmişdir. Belə ki, Azərbaycan SSR-nin 1925-ci il tarixli İslah-Əmək Məcəlləsinə (bundan sonra İƏM) uyğun olaraq, hamiləliyin beş ayından başlayaraq məhkum qadınlar yaşayış yerindən kənarda məcburi işlərə, yəni islah işlərinə, yalnız onların razılığı ilə cəlb edilə bilərdilər. Azadlıqdan məhrum edilmiş qadınlar hamiləliyin beş ayından başlayaraq, habelə yanında südəmər uşaqları olan məhkum qadınlar cəzaçəkmə müəssisəsində ağır və saglamlıq üçün zərərli olan işlərə cəlb edilə bilməzdilər. Eyni zamanda, südəmər uşaqları olan azadlıqdan məhrum edilmiş, əmək fəaliyyəti məşğul olan məhkum qadınlara digər məhkumlarla müqayisədə iş vaxtı istirahət üçün əlavə fasilə-

lərin təqdim olunması, habelə həmin şəxslərə ilin aprel-oktyabr aylarında hər gün dörd saatdan az olmayaraq gəzinti verilməsi nəzərdə tutulmuşdu. Digər məhkumlar üçün isə, gəzinti müddəti cəmi bir saat müəyyən edilmişdi. Sözügedən məcəllə ilə müqayisədə 23 dekabr 1970-ci il tarixli İƏM-də hamilə və azyaşlı uşaqları yanında olan məhkum qadınların cəzalarının icrası ilə əlaqədar xeyli humanistləşmə müsahidə edilmişdir. Məcəllənin ilkin redaksiyasında hamilə, süd əmizdirən və iki yasınadək uşağı olan məhkum qadınlara cəzaçəkmə müəssisəsindən kənarda yaşamağa icazə verilməsi, onlara tənbeh, təhlükəsizlik tədbirlərinin tətbiqində, habelə əməyin təşkilində müəyyən güzəştlər nəzərdə tutulmuşdu. Eyni zamanda, göstərilən məhkum qadınlar üçün yeməyin xüsusi norması müəyyən olunmuş, onlara həkim komissiyasının qərarına əsasən ərzaq məhsullarından ibarət əlavə bağlama və sovqat almağa da icazə verilə bilərdi. Habelə, məcəlləyə zəruri hallarda iki yaşınadək uşaqların yerləşdirilməsi məqsədilə nəzdində uşaq evləri olan xüsusi çəzaçəkmə müəssisələrinin təşkili ilə əlaqədar yeni norma daxil edilmişdi. Lakin buna baxmayaraq, Azərbaycan SSR-nin məhkum qadınlar üçün nəzərdə tutulmuş cəzaçəkmə müəssisəsində müvafiq uşaq evi yaradılmamışdı. Sabiq SSRİ-nin Daxili işlər nazirliyinin əmrinə əsasən nəzdində uşaq evi olan xüsusi cəzaçəkmə müəssisəsi Tbilisi şəhərində fəaliyyət göstərirdi və Azərbaycan, Gürcüstan, Ermənistan respublikalarında azadlıqdan məhrum etmə yerlərində iki yaşınadək uşaqları olan məhkum qadınlar uşaqları ilə birlikdə cəzalarını çəkmək üçün həmin müəssisəyə göndərilirdilər.

Hamilə və yanında azyaşlı uşaqları olan məhkum qadınların cəzalarının icrası ilə əlaqədar köklü dəyişikliklər XX əsrin 90-cı illərinin sonuna, yəni Azərbaycan Respublikasının öz dövlət müstəqilliyini bərpa etdikdən sonrakı dövrə təsadüf edir. Yeni konstitusiyanın qəbulu və qanunvericilik aktlarının Əsas Qanunun müddəalarına uyğunlaşdırılması ilə əlaqədar ölkədə aparılan islahatlar çərçivəsində qəbul edilmiş 7 fevral 1997-ci il tarixli qanunla İƏM-ə edilmiş əsaslı və çoxsaylı dəyişikliklərlə azadlıqdan məh-

rum edilmiş məhkumların, o cümlədən məhkum qadınların cəzalarının icrası qaydaları kifayət qədər humanistləşdirilmiş, yeni güzəştlər nəzərdə tutulmuş, bir sıra məhdudiyyətlər və qadağanlar aradan qaldırılmışdır. Eyni zamanda, məhkum qadınlara uşaqlarını artıq uç yaşınadək cəza çəkdikləri cəzaçəkmə müəssisəsində saxlamaq hüququ verilmişdir. Qeyd edilməlidir ki, cəzaların icrası qanunvericiliyinin təkmilləşdirilməsi, məhkum qadınlara imtiyazların verilməsi prosesində məhkumlarla rəftara həsr olunmuş beynəlxalq aktların tövsiyələri, ilk növbədə BMT-nin Məhbuslarla davranışın minimal standart qaydaları və Avropa Penitensiar Qaydaları nəzərə alınmışdır.

Azərbaycan Respublikasının 2000-ci ilin 1 sentyabrından qüvvəyə minmiş yeni CİM-lə və ötən müddət ərzində həmin məcəlləyə edilmiş dəyişikliklərlə, azadlıqdan məhrum etmə cəzasını çəkən məhkumların, o cümlədən qadın məhkumların saxlanma şəraiti yenidən xeyli humanistləşdirilmişdir. Qeyd olunanlara istinadən, azadlıqdan məhrum etmə növündə cəzanın icrası ilə əlaqədar məhkum kişilərlə müqayisədə məhkum qadınlar üçün qüvvədə olan qanunvericilikdə nəzərdə tutulan güzəşt və imtiyazlara ətraflı toxunmaq istərdik. Yuxarıda qeyd edildiyi kimi, azadlıqdan məhrum edilmiş məhkum qadınlar zorakılıq hallarının qarşısının alınması, habelə psixoloji problemlər baxımından cəzalarını kişilərdən ayrı, onlar üçün müəyyən olunmuş cəzaçəkmə müəssisələrində çəkirlər. Azərbaycan Respublikasında azadlıqdan məhrum etmə cəzasını çəkən qadınların sayı ilə bağlı qeyd olunmalıdır ki, Avropa Şurası tərəfindən 1983-cü ildən dərc olunan azadlıqdan məhrum etmə ilə bağlı cinayət statistikasi üzrə illik SPACE I hesabatlarına istinadən 1993-cü ildən sonra ölkədə məhkum qadınların sayı ümumi məhkumların sayının təxminən 2,5–3 %-ni təşkil etmişdir. Həmin göstərici istər say, istərsə faiz hesabı ilə bir çox dövlətlərlə müqayisədə, habelə dünya üzrə ümumi orta göstəricidən xeyli azdır. Belə ki, azadlıqdan məhrum etmə cəzasının təyini, həbsxanalarda vəziyyət ilə bağlı arasdırmalar aparmaqla tanınan, müstəqil qeyri-hökumət qurumu olan Beynəlxalq Həbsxa-

na İslahatı təşkilatının Tailandın Ədliyyə institutu ilə əməkdaşlıq çərşivəsində 2015-ci ildən həyata keçirdiyi araşdırmalar nəticəsində hər il dərc olunan “Həbsxana sistemində qlobal trendlər” adlı məcmuənin 2024-cü il üzrə buraxılışında dünyanın azadlıqdan məhrum etmə yerlərində saxlanılan qadınların sayının təxminən 741 min nəfər olduğu və onların ümumi məhkumların sayının 6,2 %-ni təşkil etdiyi göstərilmişdir. Azərbaycan Respublikasında azadlıqdan məhrum edilmiş məhkum qadınların sayının az olması ilə əlaqədar onların cəzalarının çəkməsi üçün cəmi iki cəzaçəkmə müəssisəsi fəaliyyət göstərir. Onlardan biri 2008-ci ilin aprel ayında Naxçıvan Muxtar Respublikasında fəaliyyətə başlamış yeni penitensiar kompleksin nəzdində təşkil edilmiş müəssisədir. İkincisi isə, Bakı şəhərində uzun illər fəaliyyət göstərmiş sabiq müəssisənin əvəzinə 2022-ci ilin aprelində ölkənin paytaxtında istifadəyə verilmiş yeni penitensiar kompleksin nəzdindəki müasir cəzaçəkmə müəssisəsidir. Hər iki penitensiar kompleksdə cəzalarının çəkilməsi ümumi və ciddi rejimli cəzaçəkmə müəssisələrində təyin edilmiş məhkum qadınlar bir müəsisədə, lakin ayrılıqda və bir-birindən təcrid edilməklə saxlanılırlar. Eyni zamanda, yetkinlik yaşına çatmayan məhkum qızların sayı çox az, yəni il ərzində cəmi bir və ya bir neçə nəfər olduğundan, onlar üçün ayrıca tərbiyə müəssisəsinin təşkil edilməsi məqsədəmüvafiq hesab olunmamışdır. Məhkum qızlar cəzalarını yetkinlik yaşına çatmış məhkum qadınların cəzaçəkmə müəssisələrində, lakin ayrılıqda, onlar üçün yaradılmış xüsusi sahələrdə çəkirlər. Qeyd olunmalıdır ki, sözügedən penitensiar komplekslərdə hər iki kateqoriyaya mənsub məhkum qadınların cəzalarını milli qanunvericiliyin, habelə məhkumlarla rəftara həsr olunmuş beynəlxalq aktların, o cümlədən “Banqkok qaydaları”nın tələblərinə uygun, sanitariya və gigiyena qaydalarına cavab verən bir şəraitdə çəkmələri üçün zəruri imkanlar yaradılmışdır.

Bir çox dövlətlərdən fərqli olaraq Azərbaycan Respublikasında cəzaçəkmə müəssisələrində təhlükəsizlik tədbirləri və onların tətbiqinin əsaslarını müəyyənləşdirən AR CİM-in 78-ci maddəsinə

əsasən məhkum qadınlar cəzaçəkmə müəssisəsindən qaçdıqda, onlara qarşı odlu silah tətbiq edilməsinə yol verilmir. Cəzanın icrası qaydalarını pozan məhkum qadınlara cərimə təcridxanasına keçirilmə növündə tənbeh tədbiri yalnız on günədək müddətə tətbiq oluna bilər, kişi məhkumlar üçün isə, həmin müddət daha çox, yəni on beş gün təşkil edir. Eyni zamanda, cəzanın icrası qaydalarının qərəzli pozulması hallarında məhkum qadınların tənbeh tədbiri qaydasında, gündəlik gəzinti vaxtı istisna olmaqla, daim bağlı olan kamera tipli otaqlara keçirilməsi də nəzərdə tutulmamışdır. Məhkum kişilər isə, sözügedən otaqlara bir aydan altı ay müddətinədək keçirilə bilərlər. Məhkum qadınlar, habelə həbsxanada öz sərtliyi ilə seçilən, hüquqların kifayət qədər məhdudlaşdırıldığı ciddi saxlanma şəraitinə də keçirilə bilməzlər. Bir qrup məhkum kişilər, yəni əvvəllər həbsxanada cəza çəkmiş, cəzaçəkmə müəssisələrində törədilmiş cinayətlərə görə məhkum olunmuş və ya tənbeh tədbiri qismində iki aydan altı ayadək həbsxanada ciddi saxlanma şəraitində cəza çəkirlər.

Azadlıqdan məhrum edilmiş qadınlar üçün nəzərdə tutulmuş digər güzəşt və imtiyazlar hamilə və cəzaçəkmə müəssisəsinin uşaq evlərində üç yaşınadək uşağı olan qadınlara aiddir. Belə münasibət hamilə qadınların, cəzaçəkmə müəssisəsində onların azyaslı uşaqlarının hüquqlarının müdafiəsi və qanuni maraqlarının təmin edilməsi ilə bağlıdır. Azərbaycan Respublikasında məhkum qadınların cəzaçəkmə müəssisələrində saxlanılan uşaqlarının sayı ilə əlaqədar rəsmi statistika aparılmadığından, müvafiq müəssisələrdə əvvəllər çalışmış sabiq əməkdaşlarla, məhkumların islah edilməsində və penitensiar müəssisələrin fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsində iştirak edən və qadınların cəzaçəkmə müəssisələrinə mütamadi başçəkmələr həyata keçirmiş ictimai komitənin üzvləri ilə aparılmış şifahi sorğularla, habelə ölkənin kütləvi-informasiya vasitələrindəki, internet resurslarındakı, internet telekanallarındakı aidiyyəti məlumatların təhlili ilə müəyyən edilmisdır ki, 1993-cü ildən sonrakı otuz ildən artıq bir müddət ərzində cəzaçəkmə müəssisələrinin uşaq evlərində saxlanılan üç

yaşınadək uşaqların maksimal sayı yeddidən çox olmamuşdur. “Həbsxana sistemində qlobal trendlər” məcmuəsində 2024-cü il ərzində dünya həbsxanalarında təxminən on doqquz min azyaşlı uşağın məhkum anaları ilə birlikdə saxlandığı göstərilmişdir. İndi isə sözügedən, yəni hamilə və yanında üç yaşına çatmayan uşağını saxlayan məhkum qadınlar üçün AR CİM-də təsbit edilmiş cəzanın icrası xüsusiyyətlərini nəzərdən keçirək.

1) İlk növbədə, digər məhkumlarla müqayisədə belə məhkumlar üçün cəzaçəkmə müəssisələrində yaxşılaşdırılmış maddi-məişət şəraiti yaradılır.

2) Məhkum qadınların uşaqlarının yerləşdirilməsi üçün cəzaçəkmə müəssisələrinin ərazisində digər məhkumlardan təcrid olunmaqla, ayrı binalarda uşaq evləri təşkil olunur. Həmin evlər qanunvericiliklə nəzərdə tutulmuş uşaqların normal inkişafı və yaşayışı üçün zəruri maddi-məisət şəraiti ilə təmin edilir, məhkum qadınlar asudə vaxtlarında uşaqları ilə məhdudiyyətsiz görüş hüququna malikdirlər, habelə onlara uşaqları ilə birgə yaşamağa icazə verilə bilər.

3) Hamilə, habelə cəzaçəkmə müəssisəsində uşaq evlərində uşaqları olan məhkum qadınlar üçün yeməyin xüsusi, daha yüksək kaloriliyə malik normaları müəyyən edilmişdir. Belə ki, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 25 sentyabr 2001-ci il tarixli 154 nömrəli qərarı ilə təsdiq edilmiş “Məhkumların yemək və maddi-məişət normaları”na əsasən cəzaçəkmə müəssisəsində cəza çəkən məhkumlar, o cümlədən qadınlar üçün gündəlik ərzaq normasının qida dəyəri 3305 kilokalori olduğu halda, hamilə və ya üç yaşına çatmamış uşağı olan məhkum qadınlar üçün nəzərdə tutulmuş qidanın dəyəri 3873 kilokaloriyə, Tərbiyə müəssisəsində saxlanılan yetkinlik yaşına çatmayan qız məhkumlar üçün isə 3746 kilokaloriyə bərabərdir. Məhkum qadınların cəzaçəkmə müəssisəsindəki uşaqları dövlət hesabına və ümumi körpələr evində, bağça-körpələr evində, habelə uşaq evlərində uşaqlar üçün müəyyən olunmuş normalara uyğun təmin olunurlar.

4) “Sosial sığorta haqqında” 18 fevral 1997-ci il tarixli Azər-

baycan Respublikasının qanunu ilə müəyyən edilmiş qaydada məhkum qadınlar hamiləliyə, doğuşa və uşağa qulluğa görə qanunvericiliklə müəyyən olunmuş məbləğdə müavinətlə təmin edilirlər.

5) Məhkum hamilə qadınlar doğuş və doğuşdan sonrakı müddətdə xüsusi tibbi yardım almaq hüququna malikdirlər.

6) Hamiləliyi dörd aydan çox və cəzaçəkmə müəssisələrinin uşaq evlərində uşaqları olan məhkum qadınlara yalnız könüllülük əsasında işləməyə icazə verilir. Belə qadınlar hamiləliyə və doğuşa görə qanunvericilikdə müəyyən edilmiş müddətə işdən azad edilirlər, şəxsi hesablarına bütün tutulmalı məbləğlərdən asılı olmayaraq, onlara hesablanmış aylıq əmək haqqının, pensiyanın və digər gəlirlərin ən azı altmış faizi keçirilir.

7) Hamilə və cəzaçəkmə müəssisələrinin uşaq evlərində uşaqları olan məhkum qadınların bağlama, sovqat və ya banderol almalarına məhdudiyyət qoyulmamışdır. Həmin məhkumlar cəzaçəkmə müəssisələrinin Daxili intizam qaydaları ilə dövriyyəsinə icazə verilən ərzaq, geyim və digər əşyaları poct göndərişləri, habelə qohumları və digər şəxslərin onlara gətirdikləri sovqatlar vasitəsi ilə əldə edə bilərlər.

8) Əməyə vicdanla yanaşan və cəzanın çəkilməsi rejiminin tələblərinə riayət edən, habelə cəza müddətinin ən azı üçdə birini çəkmiş məhkum qadınlara cəzaçəkmə müəssisəsinin müdiriyyətinin əsaslandırılmış və Ədliyyə nazirliyi ilə razılaşdırılmış qərarı ilə hamiləliyə və ya doğuşa görə qanunla müəyyən edilmiş qaydada, işdən azad edildikləri vaxt ərzində, habelə uşaq üç yaşına çatanadək cəzaçəkmə müəssisəsindən kənarda yaşamağa icazə verilə bilər. Bu zaman məhkum qadınlar cəzaçəkmə müəssisəsinin ərazisinin yaxınlığında yaşamaqla, müdiriyyətin daimi müşahidəsi altında olur, onlar xüsusi geyim əvəzinə adi həyatda iştifadə olunan paltar geyinə bilərlər. Həmin qadınlar məhdudiyyətsiz nağd puldan istifadə edə, qohumları, həkim və başqa şəxslərlə görüşə, pul baratları, bağlama, sovqat və banderol ala bilərlər. Eyni zamanda, sözügedən məhkum qadınlar hüdudları cəzaçəkmə müəs-

sisəsinin müdiriyyəti tərəfindən müəyyən edilən ərazi daxilində sərbəst gediş-gəliş hüququndan istifadə edə bilərlər, əmək haqqından, pensiyadan, digər gəlirlərdən qanunvericiliklə, habelə icra vərəqələri də daxil olmaqla, tutulmalı bütün məbləğlərdən asılı olmayaraq, onlara müvafiq gəlirlərinin ən azı altmış beş faizi verilir.

9) Məhkum qadınların cəzaçəkmə müəssisələrinin uşaq evlərində olan uşaqları, ananın razılığı ilə onların qohumlarına, habelə qəyyumluq və himayəçilik orqanlarının qərarı ilə digər şəxslərə verilə, uşağın üç yaşı tamam olduqdan sonra müvafiq uşaq müəssisələrinə göndərilə bilərlər. Bu məqsədlə məhkum qadınlara öz məzuniyyətləri vaxtı övladlarını qohumlarının, himayəçilərinin yanına və ya uşaq evlərinə düzəltmək üçün cəzaçəkmə müəssisələrinin hüdudlarından kənara (yalnız ölkə daxilində) on beş günədək qısa müddətli səfər etməyə icazə verilə bilər.

10) Cəzaçəkmə müəssisəsində saxlanılan uşaqların üç yaşı tamam olduqda, məhkumun cəza müddətinin başa çatmasına bir ildən çox qalmamışsa və məhkum analıq borcunu vicdanla yerinə yetirirsə, cəzaçəkmə müəssisəsinin müdiriyyəti uşağın uşaq evində saxlanma müddətini məhkum qadının cəza müddətinin sonuna kimi artıra bilər.

11) AR CM-in 79-cu maddəsinə əsasən şəxsiyyət əleyhinə ağır və ya xüsusilə ağır cinayət törətməyə görə beş ildən artıq müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslər istisna olmaqla, cəzaçəkmə müəssisələrində cəza çəkən hamilə və ya üç yaşına qədər uşağı olan məhkum qadınların müraciətinə əsasən, onların cəzalarının çəkilməsi məhkəmə tərəfindən uşaq on dörd yaşına çatanadək təxirə salına bilər.

12) Hamilə və ya cəzaçəkmə müəssisəsinin uşaq evində uşaqları olan məhkum qadınlar, səhhətləri ilə əlaqədar digər şəxslərin qulluğuna ehtiyacı olan qadınlar, yetkinlik yaşına çatmayan qızlar cəza çəkməkdən azad edilməkdən əvvəl cəzaçəkmə müəssisəsinin müdiriyyəti onların qohumlarını və ya digər şəxsləri xəbərdar edir. Qeyd olunan məhkumlar cəzaçəkmə müəssisələrindən azad

edilən zaman yaşayış yerinə qohumlarının, himayəçilərinin və ya digər şəxslərin, yaxud cəzaçəkmə müəssisəsinin işçilərinin müşayiəti ilə gedirlər.

Yetkinlik yaşına çatmayan məhkum qızlarla əlaqədar azadlıqdan məhrum etmə cəzasının icrasına gəldikdə qeyd olunmalıdır ki, cəzaların icrası qanunvericiliyi onların cəza çəkməsinin xüsusiyyətlərini məhkum oğlanlarla eyni və fərqlər nəzərdə tutulmayan qaydada müəyyən etmişdir.

Yuxarıda göstərilənlərə istinadən qeyd etmək istərdik ki, Azərbaycan Respublikasında qadınlara, xüsusilə hamilə və uşağı olan qadınlara cinayət cəzalarının təyin edilməsi, habelə həmin məhkumların cəzalarının icrası qaydaları ölkədə uğurla həyata keçirilən məhkəmə-hüquq islahatları nəticəsində ardıcıllıqla xeyli humanistləşdirilmişdir. Azadlıqdan məhrum edilmiş məhkum qadınların son otuz ilə yaxın müddətdə saxlanma şəraiti, tibbi təminatı kifayət qədər yaxşılaşdırılmış, məhkum kişilərlə müqayisədə məhkum qadınlar üçün cəzaların icrası qanunvericiliyində əlavə təminatlar, bir sıra güzəşt və imtiyazlar nəzərdə tutulmuşdur. Cəzaların, ilk növbədə azadlıqdan məhrum etmə cəzasının icrası ilə bağlı milli qanunvericilik hazırda qadın məhkumların hüquq və azadlıqlarının etibarlı təmin olunması, səmərəli islahı, habelə cəza çəkildikdən sonra qadınların azad cəmiyyətə normal qayıdışı, uğurlu reinteqrasiyası və daha asan adaptasiyası üçün əlverişlı imkanlar yaratmışdır. Eyni zamanda, mövcud vəziyyətlə qənaətlənmək, fikrimizcə, düzgun olmazdı. Hesab edirik ki, dünya dövlətlərinin qabaqcıl təcrübəsindən bəhrələnməklə, məhbuslarla rəftara həsr olunmuş beynəlxalq aktlara, o cümlədən məhkum qadınlarla davranışa dair Banqkok qaydalarına, İşgəncələrin, qeyri-insani və ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması üzrə Avropa Komitəsinin (CPT) illik məruzələrindəki tövsiyələrinə istinadən bu sahədə islahatları davam etdirmək, yeni humanist addımlar barədə düşünmək yaxşı olardı. Bu məqsədlə, habelə cəzaların icrası ilə bağlı sahədə uzun illik fəaliyyətimiz zamanı qarsılaşdığımız problemləri, məhkum qadınların cəzalarının icrası, onların cə-

zaçəkmə müəssisələrində azyaşlı uşaqlarının saxlanması ilə bağlı müxtəlif dövlətlərdə aparılmış elmi araşdırmalar nəticəsində irəli sürülmüş təklifləri də nəzərə alaraq, Azərbaycan Respublikasının Cinayət, Cinayət-Prossesual, Cəzaların İcrası məcəllələrinə, habelə bir sıra digər normativ-hüquqi aktlara aşagıda göstərilən dəyişikliklərin edilməsini məqsədəuyğun hesab edirik.

**I. Cinayət Məcəlləsi üzrə:**

1. Cərimə cəzasının yalnız müstəqil əmək haqqı və ya həmin cəzanın icrasına yönəldilə bilən əmlakı olanlarla yanaşı, digər yetkinlik yaşına çatmayan qızlara da təyin edilməsini nəzərdə tutmaq (85-ci maddə).

2. Yetkinlik yaşına çatmayan qızlara ictimai işlər növündə cəzanın müddətini onların yaşından asılı olaraq fərdiləşdirilmiş qaydada, yəni on beş yaşınadək məhkumlar üçün altmış saatdan yüz altmış saatadək, on altı yaşınadək məhkumlar üçün səksən saatdan iki yüz qırx saatadək, digər on səkkiz yaşınadək məhkumlar üçün isə, yüz iyirmi saatdan üç yüz saatadək təyin etmək (85-ci maddə).

3. Hamilə və üç yaşına qədər uşağı olan qadınlara islah işlərinin təyin olunmasını qadağan etmək. Yetkinlik yaşına çatmayanların, o cümlədən məhkum qızlara islah işləri növündə cəzanın təyini zamanı onların əmək haqqından və ya digər gəlirlərindən dövlət nəfinə tutulmaların yuxarı həddini on faizədək nəzərdə tutmaq, habelə cəzanın icrasından qərəzli boyun qaçıran həmin kateqoriyalı məhkumların cəzalarını yalnız azadlığın məhdudlaşdırılması növündə cəza ilə əvəz etmək (49, 85-ci maddələr).

4. Azadlığın məhdudlaşdırılması növündə cəzanın, törədilmiş cinayətin ağırlıq dərəcəsindən, yəni təsnifatından asılı olmayaraq, yuxarı həddini qadınlar üçün üç il alti ayadək, üç yaşına kimi uşağı olan qadınlar üçün iki il altı ayadək, yetkinlik yaşına catmayan qızlar üçün isə bir ilədək müəyyən etmək (52-1, 85-ci maddələr).

5. Mülkiyyət əleyhinə olan, habelə iqtisadi fəaliyyət sahəsinə aid cinayətlər törətmiş hamilə və üç yaşına qədər uşağı olan qadınların yalnız vurulmuş ziyanı ödəməklə, yəni dövlət büdcəsinə

əlavə ödənişlər etmədən, cinayət məsuliyyətindən azad edilməsini nəzərdə tutmaq və yaxud həmin ödənişlərin məbləğini ən azı iki dəfə azaltmaq (73-1.2, 73-1.3, 73-2.2-ci maddələr).

6. İqtisadi fəaliyyət sahəsində cinayətlərə görə azadlıqdan məhrum edilmiş və üç yaşına qədər uşağı olan məhkum qadınlar barədə cəzadan şərti olaraq vaxtından əvvəl azad etməni, törədilmiş cinayətin agırlığı nəzərə alınmaqla, təyin edilmiş cəza müddətinin müvafiq olaraq ən azı üçdə bir hissəsi və yarısı çəkildikdən sonra tətbiq etmək (76-cı maddə).

**II. <u>Cinayət-Prosessual Məcəlləsi üzrə:</u>**

1. Cərimənі qanunda nəzərdə tutulmuş müddətdə ödəyə bilməyən yetkinlik yaşına çatmayan məhkumun əvəzinə, onun razılığı ilə valideynləri və yaxud qanuni nümayəndələri tərəfindən ödənilməsinə icazə vermək (519-cu maddə). Bu zaman AR CİM-in 23-cü maddəsinə də dəyişiklik edilməsi zərurəti yaranacaqdır.

2. Hamilə və üç yaşına qədər uşağı olan qadın cəriməni üzrlü səbəbdən qanunvericilikdə nəzərdə tutulmuş bir ay müddətində ödəyə bilmədikdə, məhkumun ərizəsinə əsasən cərimənin ödənilməsini bir ildən üç il müddətədək təxirə salmaq (510-cu maddə). Rusiya Federasiyasının, Belarus Respublikasının cəzaların icrası qanunvericiliyində müvafiq təxirə salınma bütün məhkumlar üçün beş ilədək müddətdə müəyyən olunmuşdur.

3. Qadınlara, o cümlədən yetkinlik yaşına çatmayan qızlara cəza təyini zamanı AR CM-in 58.3-cü maddəsində nəzərdə tutulmuş təqsirkarın şəxsiyyətinin, habelə cəzanın şəxsin islah olunmasına və onun ailəsinin həyat şəraitinə təsirinin daha ətraflı, tam və dolğun nəzərə alınması məqsədilə məhkəmələrə, 20 yanvar 2010-cu il tarixli Avropa Probasiya Qaydalarında nəzərdə tutulmuş, son illərdə Avropa ölkələrində geniş tətbiq olunan məhkəməyədək məruzənin təqdim olunması ilə bağlı yeni müddəalar əlavə etmək və yaxud müvafiq normaları probasiya fəaliyyəti ilə əlaqədar qəbul edilməsi gözlənilən qanunda nəzərdə tutmaq. Məhkəməyədək məruzənin hazırlanması vəzifəsi, onu tətbiq edən ölkələrin təcrübəsinə istinadən Ədliyyə nazirliyinin Probasiya xidmətinə həvalə edi-

lə bilərdi.

**III. <u>Cəzaların İcrası Məcəlləsi üzrə</u>:**

1. Məhkum qadınların müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasının icrası qayda və şərtlərini tənzimləyən normaları ardıcıllıqla cəmləşdirməklə, xüsusi fəsildə vermək. Belə ki, Gürcüstanın cəzaların icrasını tənzimləyən qanunvericiliyinə istinad olunan şəxslərlə əlaqədar ayrı fəsil daxil edilmişdir.

2. Cəzaçəkmə müəssisəsində məhkum qadınların azyaşlı uşaqlarının saxlanma yaşını bir il artırmaqla, dörd yaşadək nəzərdə tutmaq. Belə ki, Almaniyada, Meksikada məhkum qadınlar azyaşlı uşaqlarını altı yasadək, Kanadada isə dörd yaşınadək cəzaçəkmə müəssisəsində saxlaya bilərlər. Habelə, Rusiya Federasiyasının Cəzaların İcrası Məcəlləsinə 13 iyun 2023-cü il tarıxli qanunla edilmiş dəyişikliklə cəzaçəkmə müəssisəsində azyaşlı uşaqlarının saxlanma müddəti dörd yaş müəyyən edilmişdir.

3. Azadlıqdan məhrum edilmiş məhkum qadınların cəzaçəkmə müəssisəsində saxlanılan azyaşlı uşaqlarının hüquqi statusunu müəyyən edən normaları məhkumların hüquqi vəziyyətinin əsaslarına əlavə etmək (9-cu maddə).

4. Cəzanın icrası qaydasının qərəzli pozulmasına görə hamilə və cəzaçəkmə müəssisələrinin uşaq evlərində uşaqları olan məhkum qadınların həbsxanaya keçirilməsinə qadağa qoymaq və yaxud müvafiq müddətin yuxarı həddini üç ayadək müəyyən etmək (70-ci maddə).

5. Cəzaçəkmə müəssisəsində üç yaşınadək uşaqları ilə birlikdə yaşamağa icazəni müdiriyyətinin səlahiyyətindən çıxararaq, məhkum qadınların hüquqları sırasına əlavə etmək (92-ci maddə).

6. Cəzaçəkmə müəssisələrində hamilə və yetkinlik yaşına çatmayan qızlara qarşı xüsusi vasitə qismində istifadə oluna bilən rezin dəyənəyin tətbiqini qadağan etmək. Bu məqsədlə AR CİM-ə, habelə Ədliyyə nazirliyinin kollegiyasının 29 sentyabr 2018-ci il tarixli qərarı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının penitensiar sistemində təhlükəsizlik tədbirləri və onların tətbiq edilmə qaydaları haqqında Təlimat"a müvafiq dəyişiklik etmək (78-ci

maddə).

7. Cəzaçəkmə müəssisələrinin uşaq evlərində uşaqları olan məhkum qadınlara övladlarını qohumlarının, himayəçilərinin yanına və ya uşaq evlərinə düzəltmək üçün cəzaçəkmə müəssisələrinin hüdudlarından kənara (yalnız ölkə daxilində) on beş günədək qısa müddətli səfərlərə icazəni, onların məzuniyyətlərindən asılı olmayaraq verilməsini nəzərdə tutmaq (89-cu maddə).

8. Azadlıqdan məhrum edilmiş şəxslərə təqdim olunan qısa müddətli səfərlərin hamilə və ya üç yaşına qədər uşağı olan məhkum qadınlara münasibətdə dairəsini genişləndirmək, yəni mövcud əsaslara digər müstəsna halları, yəni həmin məhkumların nikaha girmək, təhsil almaq, cəzadan azad edilməkdən bir müddət əvvəl şəxsi xarakterli ailə və sosial problemlərin həllində iştiraklarını da daxil etmək (89-cu maddə).

9. Hamilə və üç yaşınadək uşağı olan məhkum qadınlar üçün nəzərdə tutulmuş güzəşt və imtiyazların, yəni hamilə və üç yaşınadək uşağı olan yetkinlik yaşına çatmayan qızlara da şamil edilməsini qanunda təsbit etmək (92-ci maddə).

10. Cəzaçəkmə müəssisələrinin uşaq evlərində saxlanılan uşaqların maddi-məişət, xüsusilə qida, paltar, ayaqqabı, gigiyenik vasitələrlə təminatının dövlət hesabına həyata keçirilməsi ilə bağlı məsələni məcəlləyə daxil etmək (92-ci maddə). Habelə, məhkumların yemək və maddi-məişət normalarının qəbul edilməsindən iyirmi beş ilə yaxın müddət keçdiyi nəzərə alınaraq, hamilə və cəzaçəkmə müəssisələrinin uşaq evlərində uşaqları olan məhkum qadınlar, habelə yetkinlik yaşına çatmayan məhkum qızlar üçün müəyyən edilmiş qidaların çeşidliyinə, geyim əşyalarının miqdarına və istifadə müddətlərinə yenidən baxılmaqla, onların təkmilləşdirilməsi ilə bağlı Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarına dəyişikliklər etmək.

11. Cəzaçəkmə müəssisəsində saxlanılan məhkum qadınların azyaşlı uşaqlarının normal inkişafı məqsədilə və analarının razılığı ilə, iki yaşından sonra həmin uşaqların gün ərzində ölkənin sosial xidmət müəssisələri işçilərinin müşayiəti ilə cəzaçəkmə mü-

əssisəsindən kənarda gəzintiyə çıxarılmasını, müvafiq yas həddinə uyğun olan əyləncə xarakterli müxtəlif tədbirlərdə iştirakını nəzərdə tutmaq (92-ci maddə).

12. Məhkum qadınlara cəzaçəkmə müəssisələrindəki uşaq evlərində saxlanılan uşaqları ilə birlikdə ayda bir dəfədən az olmayaraq gün ərzində müəssisənin hüdudlarından kənara çıxmaga icazə vermək növündə yeni həvəsləndirmə tədbirini qanunda təsbit etmək (105-ci maddə).

13. Məhkum qadınlara dövlət sosial müəssisələrində, yəni körpələr evində, uşaq evlərində, internatlarda saxlanılan yetkinlik yaşına çatmayan uşaqlarına baş çəkmək üçün cəzaçəkmə müəssisəsinin əməkdaşlarının müşayiəti ilə gün ərzində müəssisənin hüdudlarından kənara çıxmaga icazə vermək növündə yeni həvəsləndirmə tədbiri müəyyən etmək (105-ci maddə).

14. Hamilə və cəzaçəkmə müəssisələrinin uşaq evlərində uşaqları olan məhkum qadınların tənbeh qaydasında cərimə təcridxanasına keçirilməsini qadağan etmək (107-ci maddə). Belə ki, Azərbaycan Respublikasının qüvvədən düşmüş 1970-ci il tarixli İƏM-in 67-ci maddəsində müvafiq norma var idi. Habelə, Rusiya Federasiyası, Belarus Respublikası, Ukrayna, Qazaxıstan, Gürcüstan, Özbəkistan, Moldova, Tacikistan, Qırğızıstan, Türkmənistan dövlətlərinin cəzaların icrasını tənzimləyən qanunvericiliklərində də sözügedən məhkum qadınların cərimə təcridxanasına keçirilməsinə qadağa qoyulmuşdur. Məhbuslarla rəftara həsr olunmuş beynəlxalq aktlar da, müvafiq məhkum qadınların cərimə təcridxanasına keçirilməsindən imtina edilməsini tövsiyə edirlər.

15. Məntəqə tipli çəzaçəkmə müəssisələrində cəza çəkən bir qrup digər məhkumlarla yanaşı, hamilə və ya üç yaşına kimi uşağı olan qadınların da müdiriyyətin icazəsi ilə sutkada on iki saatdan artıq olmayan müddətdə müəssisədən kənarda, yaxud müəssisəyə yaxın ərazidə yaşamaqlarına icazə verilməsini nəzərdə tutmaq (119-cu maddə).

16. Tərbiyə müəssisələrində məhkum qızlara istirahət və ya bayram günlərində valideynlərinin və ya onları əvəz edən şəxslə-

rin müşayiəti ilə gün ərzində müəssisənin hüdudlarından kənara çıxmaga icazə vermək növündə yeni həvəsləndirmə tədbiri nəzərdə tutmaq (124-1-ci maddə).

17. Yetkinlik yaşına çatmayan qız məhkumlara tətbiq edilən intizam təcridxanasına keçirmək növündə tənbeh tədbirinin müddətini yeddi gündən üç günədək azaltmaq (125-ci maddə).

18. Beynəlxalq aktlar, o cümlədən Avropa Şurasının Nazirlər Komitəsinin 24 sentyabr 1982-ci il tarixli (82) 16 nömrəli Tövsiyəsi, habelə bir sıra Avropa ölkələrində tətbiq olunduğu nəzərə alınaraq, hamilə və cəzaçəkmə müəssisələrinin uşaq evlərində uşağı olan məhkum qadınlara əmək fəaliyyəti ilə bağlı olmayan ailə və sosial xarakterli, yəni tibbi müayinədən keçmək, müalicə almaq, hüquqlarının məhkəmədə müdafiəsi üçün, habelə ailə üzvlərinin, azad edilməkdən bir müddət əvvəl özlərinin əhəmiyyət kəsb edən problemlərinin həllində bilavasitə iştirakı ilə əlaqədar qısa müddətli məzuniyyətlər təqdim edilməsi ilə bağlı yeni norma əlavə etmək.

19. Cəzaçəkmə müəssisələrindəki uşaq evlərində saxlanılan uşaqların xüsusi tibbi-sanitariya təminatı, onların inkişafının daim nəzarətdə saxlanması məqsədilə həmin müəssisələrin ştat cədvəlinə həkim-pediatr vəzifəsini daxil etmək.

Fikrimizcə, qadınlara cinayət cəzalarının təyini, onların icrası ilə bağlı Cinayət, Cinayət-Prossesual, Cəzaların İcrası məcəllələrinin, digər qanunvericilik aktlarının humanistləşdirilməsi prosesinin davam etdirilməsi, istər ölkə vətəndaşları, istərsə də beynəlxalq təşkilatlar tərəfindən müsbət qarşılanmaqla, müvafiq şəxslərə xüsusi münasibət sərgiləyən Azərbaycan dövlətinin sözügedən sahələrdəki siyasətinə sadiqliyinin göstəricisi kimi qəbul ediləcəkdir. Verilmiş təkliflərin müsbət qəbulu ilə bağlı Azərbaycan Respublikasının yuxarıda göstərilən məcəllələrinə və digər bir neçə normativ-hüquqi aktlara dəyişikliklər edilməsi zərurəti yaranacaqdır.

***İstinad edilmiş mənbə:***

***Norwegian journal of development of the international science. Norway. 2025. № 156. Səh. 49–58.***

## Azərbaycan Respublikasında yetkinlik yaşına çatmayanlara cinayət cəzalarının təyin edilməsinin və onların cəzalarının icrasının xüsusiyyətləri

Azərbaycan Respublikasında uşaqlara həssas münasibətin, onlara qayğı göstərilməsinin, hüquqlarının təmin edilməsinin xüsusi əhəmiyyət kəsb etdiyi nəzərə alınaraq, həmin postulatlar ölkənin Konstitusiyasında təsbit edilmişdir. Əsas Qanunun 17-ci maddəsində qeyd olunur ki, uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Həmin borcun yerinə yetirilməsinə, habelə uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarət edir. Təsadüfi deyildir ki, müstəqilliyinin bərpasından sonra Azərbaycan Respublikasının qoşulduğu ilk insan hüquq və azadlıqlarına həsr edilmiş beynəxalq aktlardan biri də uşaq hüquqları ilə bağlı olmuşdur. Belə ki, Azərbaycan Republikası 21 iyul 1992-ci ildə Birləşmiş Millətlər Təşkilatının (bundan sonra–BMT) 20 noyabr 1989-cu il tarixli “Uşaq hüquqları haqqında” Konvensiyasına qoşulmuş, sonradan onun iki əlavə protokolunu da ratifikasiya etmişdir. İstinad olunan konvensiyanın, habelə ölkənin yeni Konstitusiyasının müddəaları nəzərə alınaraq, 19 may 1998-ci il tarixdə “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikasının Qanunu da qəbul edilmişdir. Həmin Qanun uşaqlarla əlaqədar dövlət siyasətinin əsas prinsiplərini, onların müdafiəsi sahəsində dövlət orqanlarının, digər hüquqi və fiziki şəxslərin vəzifələrini müəyyən etmişdir. Eyni zamanda, uşaqların hüquq və azadlıqlarının daha səmərəli müdafiəsi, qanuni maraqlarının təmini, onlara tərbiyəvi təsir göstərilməsi, davranışlarına nəzarət edilməsi, qanunazidd əməllərinin qarşısının alınması, habelə digər əhəmiyyətli məsələlərin həllinə yönəlmiş çoxsaylı qanunvericilik aktları da qəbul edilmişdir. Onlara 22 iyun 1999-cu il tarixli “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında”, 31 may 2002-ci il tarixli “Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında”, 24 may 2005-ci il tarixli “Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq

pozuntularının profilaktikası haqqında", 5 mart 2013-cü il tarixli "Uşaqların icbari dispanserizasiyası haqqında", 30 oktyabr 2018-ci il tarixli "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının qanunlarını misal göstərmək olar. Eyni zamanda, uşaq problemlərinin ailə və qadın problemləri ilə birbaşa əlaqəli olduğu baxımından, habelə onların kompleks şəkildə həlli məqsədilə Azərbaycan Respublikası Prezidentinin 6 fevral 2006-cı il tarixli Fərmanı ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır. Azərbaycan Respublikasında uşaqların yaşamaq, həyat və sağlamlığın qorunması, inkişaf etmək, tərbiyə almaq, azadlıq və şəxsi toxunulmazlıq, habelə digər hüquqlarının təmini məqsədilə kompleks tədbirlər həyata keçirilmiş və onlar hazırda ardıcıl şəkildə davam etdirilməkdədir. Uşaqların mənafeləri üstün tutulmaqla, onların müdafiəyə daha çox ehtiyac duyduqları, fizio-psixoloji xüsusiyyətləri, Azərbaycan xalqının milli mənəvi dəyərləri və mentaliteti, habelə beynəlxalq təcrübə nəzərə alınmaqla, ölkədə qəbul edilmiş qanunvericilik aktlarında sözügedən şəxslərlə bağlı müddəalar, müvafiq hüquq normaları yetkinlik yaşına qədəm qoymuş şəxslərlə müqayisədə daha humanist şəkildə təsbit edilmişdir. Qeyd olunanlar hüquq pozuntularına, xüsusilə cinayət əməllərinə yol vermiş uşaqlara da aiddir. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi (bundan sonra–AR CM), Cinayət-Prosessual Məcəlləsi (bundan sonra–AR CPM) və Cəzaların İcrası Məcəlləsi (bundan sonra–AR CİM) yuxarıda qeyd olunanlara istinadən, sözügedən şəxslərin məsuliyyətə cəlb olunması, onlarla bağlı cinayət icraatı, cəzaların təyini və icrası ilə əlaqədar bir sıra fərqli yanaşmalar nəzərdə tutmuşdur. Həmin qanunvericilik aktlarında uşaq hüquqpozucularının əməllərinin qiymətləndirilməsi zamanı digər hallarla yanaşı, onların kifayət qədər əqli yetkinliyə çatmadıqları və həyat təcrübələrinin az olması da nəzərə alınmışdır. Eyni zamanda, qeyd olunan qanunvericilik aktlarının qəbulu zamanı uşaq hüquqları ilə bağlı Konvensiyanın, habelə BMT-nin 14 dekabr 1990-cı il tarixli "Yetkinlik yaşına çatmayanların cinayətkarlığının qarşısının alın-

masının rəhbər prinsipləri (Ər-Riyad rəhbər prinsipləri)"nin, "Yetkinlik yaşına çatmayanlar barədə ədalət mühakiməsinin aparılması ilə bağlı minimal standart qaydaları (Pekin qaydaları)"nın tövsiyələrinə də istinad edilmişdir. Bir sıra dünya ölkələrində olduğu kimi, Azərbaycan Respublikasının cinayət qanununda ictimai təhlükəli əməli törətmiş, on altı yaşı tamam olmuş şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi təsbit edilmişdir. Lakin siyahısı AR CM-lə qəti müəyyən edilmiş bir qrup cinayətlərə görə on dörd yaşı tamam olmuş şəxslər də cinayət məsuliyyətinə cəlb edilə bilərlər. Cinayət qanununa əsasən on dörd yaşından on səkkiz yaşına qədər olan uşaqlar yetkinlik yaşına catmayanlar hesab edilirlər. 2000-ci ilin 1 sentyabrından qüvvəyə minmiş Azərbaycan Respublikasının Cinayət, Cinayət-Prosessual, Cəzaların İcrası məcəllələrində sözügedən şəxslərlə əlaqədar cinayət məsuliyyətinin, icraatın, cəzaların təyini, habelə cəzaların icrası xüsusiyyətlərinə ayrıca bölmə və ya fəsillər həsr edilmişdir. Məhz bu baxımdan Azərbaycan Respublikasında on dörd yaşından on səkkiz yaşınadək uşaqların, yəni yetkinlik yaşına çatmayanların cinayətkarlığı, həmin şəxslərə cəzaların təyin edilməsi və cəzalarının icrasının xüsusiyyətləri ilə bağlı məsələlər xüsusi maraq doğurduğundan, onlar tərəfimizdən arasdırma predmeti seçilmişdir.

İlkin olaraq, sözügedən şəxslərin Azərbaycanda cinayətkarlığı ilə əlaqədar rəsmi statistik rəqəmlərə istinadən qeyd edə bilərik ki, dövlət müstəqilliyinin bərpasından sonrakı dövrdə yetkinlik yaşına çatmayanlar tərəfindən, habelə onların iştirakı ilə (bundan sonra–yetkinlik yaşına çatmayanlar) törədilmiş ictimai təhlükəli əməllər ümumi cinayətkarlıqda istər say, istərsə faiz hesabı ilə çox da böyük yer tutmamışdır. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin (bundan sonra–AR DSK) məlumatlarına əsasən son otuz iki, yəni 1993–2024-cü illərdə yetkinlik yaşına çatmayanlar tərəfindən törədilmiş cinayətlərin sayı, ölkədə ümumi qeydə alınmış ictimai təhlükəli əməllərin il ərzində orta hesabla təxminən 2,5 %-ni təşkil etmişdir. 1993–2000-ci illərdə müvafiq göstərici 4,3 % olmuş, say hesabı ilə ən az cinayət hadisəsi

821 (1993-cü il), ən çox cinayət hadisəsi isə 915 olmaqla (1998-ci il) qeydə alınmışdır. 2001–2010-cu illərdə orta göstərici azalmaqla 2,7 % təşkil etmiş, sayca ən az cinayət hadisəsi 375 (2002-ci il), ən çox cinayət isə, 525 (2005-ci il) olmuşdur. 2011–2020-ci illər ərzində müvafiq rəqəmlər yenidən aşağı düşmüş, müvafiq olaraq 1,8 %, 323 cinayət (2019–2020-ci illərdə) və 548 cinayət (2013-cü il) təşkil etmişdir. Beləliklə, 1993–2000-ci illərdə yetkinlik yaşına çatmayanların cinayətkarlığı üzrə faiz göstəriciləri təhlili aparılan digər illərlə müqayisədə yüksək olmuş, 2001-ci ildən başlayaraq qeydə alınmış cinayətlər, bir neçə il istisna olmaqla, ümumən istər say, istərsə faiz hesabı ilə azalmağa başlamışdır. Azərbaycan Respublikasında digər illərlə müqayisədə 2021–2024-cü illərdə sözügedən şəxslərin cinayətkarlığı üzrə istər say, istərsə faiz göstəricilərinın artması müşahidə edilməmiş, onlar 364 (2023-cü il) və 251 (2021-ci il) arasında olmaqla, ölkədə qeydə alınmış cinayətlərin ümumi sayında hər il təxminən bir və ya daha az faiz təşkil etmişdir. 1993–2024-cü illərdə yetkinlik yaşına çatmayanlar tərəfindən il ərzində törədilmiş ağır və xüsusilə ağır cinayətlər, ümumi sayın təxminən 9–43 %-i civarında olmuş, ən yüksək göstərici 2001-ci ildə, ən aşağı göstərici isə, 2018-ci ildə qeydə alınmışdır.

Təhlili aparılan illərdə yetkinlik yaşına çatmayanlarla bağlı qeydə alınmış cinayətlərin böyük əksəriyyəti oğlanlar tərəfindən törədilmişdir. AR DSK-nın məlumatlarına istinadən 1995–2024-cü illərdə cinayət törətmiş yetkinlik yaşına çatmayanların cəmi 1,4 %-dən (2016-cı il) 7,2 %-dək (2002-ci il) qızlar olmuşdur. Yetkinlik yaşına çatmayanlar tərəfindən törədilmiş cinayətlərin strukturunda bir qayda olaraq, qəsdən sağlamlığa ağır zərər vurma, oğurluq, soyğunçuluq, xuliqanlıq, narkotik maddələrin qeyri-qanuni dövriyyəsi ilə bağlı ictimai təhlükəli əməllər üstünlük təşkil etmişdir.

1993–2024-cü illərdə cinayət törətmiş yetkinlik yaşına çatmayanların sayı ilə əlaqədar təhlil göstərdi ki, ən yüksək göstərici 1993-cü ildə (1018 nəfər), ən aşağı say isə, 2019-cu ildə (387 nə-

fər) qeydə alınmışdır. 2001–2010-cu illərdə həmin göstəricilər 554 nəfər (2005-ci il) və 412 nəfər (2003-cü il), 2011–2020-ci illərdə 514 nəfər (2013-cü il) və 387 nəfər (2019-cu il) təşkil etmişdir. 2021–2024-cü illərdə ölkədə cinayət məsuliyyətinə cəlb edilmiş yetkinlik yaşına çatmayanların sayı 349 (2021-ci il) 494 (2023-cü il) arası olmuşdur. Beləliklə, nəzərdən keçirilən illərdə ölkədə sözügedən şəxslərin ümumi say artımına baxmayaraq, onlar tərəfindən törədilmiş cinayətlərin sayı ilə yanaşı, məsuliyyətə cəlb edilmiş yetkinlik yaşına çatmayanların sayı da azalmış və təxminən iki dəfə aşağı düşmüşdür. Bu da ilk növbədə Azərbaycan Respublikasında sözügedən şəxslərlə bütün sahələrdə, o cümlədən, hüquq pozuntularının profilaktikası istiqamətində uğurla həyata keçirilən dövlət siyasətinin məntiqi nəticəsidir.

Azərbaycan Respublikasında ictimai təhlükəli əməllər törətmiş yetkinlik yaşına çatmayanların cinayət icraatının qanunvericilikdə təsbit edilmiş xüsusiyyətlərinə ölkədə aparılmış elmi araşdırmalarda, habelə, işıq üzü görmüş hüquq ədəbiyyatında kifayət qədər aydınlıq gətirildiyindən, təkrarçılığa yol verilməməsi məqsədilə həmin proses üzərində ətraflı dayanmağı məqsədəuyğun hesab etmirik. Qısa olaraq vurğulamaq istərdik ki, AR CPM-i, yetkinlik yaşına çatmayanların müdafiəyə daha çox ehtiyacı olduğu baxımından, habelə humanizm, ədalət prinsiplərini rəhbər tutaraq, onlar barəsində cinayət mühakimə icraatının xüsusiləşdirilmiş prosedurunu nəzərdə tutmuşdur.

Ölkənin cinayət qanununun Ümumi hissəsinin təhlili göstərir ki, haqqında cinayət icraatı aparılan şəxslərin səmimi peşmanlıqla, zərərçəkmiş şəxslə barışmaqla, mülkiyyət əleyhinə, habelə iqtisadi fəaliyyət sahəsində olan cinayətlərə görə, habelə şəraitin dəyişməsi, narkomaniya xəstəliyi ilə əlaqədar cinayət məsuliyyətindən azad etmə institutlarının (AR CM-in 72, 73, 73–1, 73–2, 74, 74-1-ci maddələri) tətbiqi ilə bağlı yetkinlik yaşına çatmayanlar üçün hər hansı bir güzəşt nəzərdə tutulmamışdır. Eyni zamanda, yetkinlik yaşına çatmayanların müddətin keçməsi ilə bağlı cinayət məsuliyyətindən azad edilməsi üçün tələb edilən vaxt, yetkinlik

yaşına çatmışlar üçün AR CM-in 75-ci maddəsində müəyyən edilmiş müddətlərin yarısını təşkil edir. Habelə, AR CM-in 88-ci maddəsinə uyğun olaraq, ilk dəfə böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətmiş şəxslərin tərbiyəvi xarakterli məcburi tədbirlər təyin edilməklə islah olunması mümkün hesab olunduğu hallarda, cinayət məsuliyyətindən azad edilmə institutu yalnız yetkinlik yaşına çatmayanlara tətbiq edilə bilər.

AR CM-in 85-ci maddəsinin ilk redaksiyasına əsasən yetkinlik yaşına catmayanlara həmin məcəllənin 42-ci maddəsində nəzərdə tutulmuş və əsas cəza növü kimi tətbiq edilən doqquz cəzadan yalnız dördü, yəni cərimə, ictimai işlər, islah işləri və müəyyən müddətə azadlıqdan məhrum etmə təyin edilə bilərdi. Azərbaycan Respublikasının 20 oktyabr 2017-ci il tarixli qanunu ilə AR CM-ə edilmiş dəyişikliklə cəza sisteminə fərqli məzmunda qaytarılmış azadlığın məhdudlaşdırılmasının yetkinlik yaşına catmayanlara da tətbiqi nəzərdə tutulmuş, beləliklə də, sözügedən şəxslərə təyin edilə bilən əsas cəzaların sayı artaraq beş olmuşdur. Yetkinlik yaşına catmayanlara ən sərt cəzanın, yəni ömürlük azadlıqdan məhrum etmənin tətbiqinə cinayət qanunu ilə birbaşa qadağan qoyulmuşdur. Eyni zamanda, yalnız hərbi qulluqçulara tətbiq edilən cəzalarla bağlı qeyd edilməlidir ki, intizam xarakterli hərbi hissədə saxlama cəzasının, AR CM-in 54-cü maddəsinin məzmunu və təyini şərtlərinə istinadən, hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisələrinin yetkinilk yaşına çatmayan kursantlarına tətbiq edilməsinə cinayət qanunu yol vermir. Habelə, 20 oktyabr 2017-ci il tarixli qanunla AR CM-in 50-ci maddəsinə əlavə edilmiş yeni normaya uyğun olaraq, hərbi xidmət üzrə məhdudlaşdırma cəzasının sözügedən kursantlara tətbiq olunmasına da qadağa qoyulmuşdur. Bu da bizə göstərilən dəyişikliyə kimi, hərbi xidmət üzrə məhdudlaşdırma cəzasının yetkinilk yaşına çatmayan kursantlara tətbiqinin istisna olunmadığı qənaətinə gəlməyə əsas verir.

AR CM-i yaşı on səkkizdən yuxarı olan şəxslərlə müqayisədə yetkinlik yaşına catmayanlara müvafiq cəza növlərinin təyin edil-

məsinə fərqli yanaşaraq, onların hər biri üçün kifayət qədər az məbləğ və qısa müddətlər müəyyən etmişdir. Belə ki, cərimə cəzasının maksimal məbləği altı yüz manatadək müəyyən olunmuşdur. Lakin həmin cəza, yalnız müstəqil əmək haqqı və ya cərimənin icrasına yönəldilə bilən əmlakı olan yetkinlik yaşına çatmayana tətbiq edilə bilər. Eyni zamanda, hesab edirik ki, Cinayət Məcəlləsinin 44-cü maddəsinə uyğun olaraq cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) bir mislindən on mislinədək miqdarda, yaxud cinayətin predmetinin dəyərinin yüz faizinədək miqdarında təyin edilə bilən cərimə növləri, AR CM-in 85.2-ci maddəsində bilavasitə nəzərdə tutulmadığından, yetkinlik yaşına çatmayanlara tətbiq edilə bilməz. Belə yanaşma, Azərbaycan Respublikası Ali Məhkəməsinin "Məhkəmələr tərəfindən cinayət cəzalarının təyin edilməsi təcrübəsi haqqında" 25 iyun 2003-cü il tarixli, "Yetkinlik yaşına çatmayanların cinayətləri barədə işlər üzrə məhkəmə təcrübəsi haqqında" 30 iyun 2008-ci il tarixli Plenum qərarlarında birbaşa göstərilməsə də, həmin qərarlarda yetkinlik yaşına çatmayanlara cəzaların AR CM-in 85-ci maddəsinin tələbləri nəzərə alınmaqla tətbiq edilməsinin vacibliyi öz əksini tapmışdır.

İctimai işlər cəzası sözügedən şəxslərə səksən saatdan üç yüz iyirmi saatadək təyin edilir. Eyni zamanda, qeyd olunmalıdır ki, AR CM-in 47-ci maddəsində ictimai işlər növündə cəzanın gün ərzində icrası müddəti yetkinlik yaşına çatmışlar üçün dörd saat müəyyən edilmişdir. Həmin müddət on altı yaşından on səkkiz yaşına kimi olan məhkumlara da aiddir. Lakin AR CM-in 85.3-cü maddəsində ictimai işlərin gün ərzində icra müddəti on beş yaşınadək şəxslər üçün gündə iki saatdan, on beş yaşından on altı yaşınadək şəxslər üçün isə, üç saatdan artıq olmamaqla təsbit edilmişdir. Habelə, cinayət qanununun tələbinə əsasən, bütün yetkinlik yaşına çatmayanlara yalnız onların bacardıqları, yəni yerinə yetirə biləcəkləri ictimai işlər təqdim edilməlidir.

AR CM-in 85-ci maddəsində yetkinilk yaşına çatmayanlara islah işləri cəzasının iki aydan bir ilədək, azadlığın məhdudlaşdırıl-

masının iki aydan iki ilədək, nəhayət, müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasının bütün hallarda, habelə cinayətlərin və ya hökmlərin məcmusu da daxil olmaqla, on ilədək müddətə təyin edilməsi nəzərdə tutulmuşdur. Ölkənin qüvvədə olan cinayət qanunu ilə müqayisədə Azərbaycan SSR-nin 1960-cı ilin Cinayət Məcəlləsində yetkinlik yaşına çatmayanlara tətbiq olunan cəzalardan yalnız azadlıqdan məhrum etmə cəzası ilə bağlı güzəşt, yəni onun on ilədək müddətə təyin edilməsi nəzərdə tutulmuşdu. Sözügedən şəxslərə tətbiq edilən cərimə, azadlıqdan məhrum etmədən islah işləri, müəyyən fəaliyyətlə məşgul olma hüququndan məhrum etmə cəzalarının təyini şərtləri, məbləği və müddəti yetkinlik yaşına çatmış şəxslərlə eyni olmuşdur.

Ölkənin cinayət qanununda yetkinlik yaşına çatmayan şəxslərə müvafiq cəza növlərinin təyini ilə əlaqədar normalarda onların yaş həddi, habelə cinsi ilə bağlı hər hansı əlavə fərqli yanaşma və ya istisna nəzərdə tutulmamışdır. Lakin buna baxmayaraq, on beş yaşınadək şəxslərə ictimai işlər və islah işləri növündə cəzaların təyin edilməsinin ölkə Konstitusiyasının 12-ci maddəsinin I hissəsinə, 17-ci maddəsinin IV və V hissələrinə, 26-cı maddəsinin II hissəsinə, 71-ci maddəsinin I və II hissələrinə, 149-cu maddəsinin I və III hissələrinə uyğunluğunun yoxlanılması ilə əlaqədar Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) ölkənin Konstitusiya Məhkəməsinə sorğu vermişdir. Sorğuda Əsas Qanunun 17-ci maddəsinin beşinci hissəsində təsbit edilmiş, on beş yaşına çatmamış uşaqların işə götürülməsinə qadağan qoyulması nəzərə alınaraq, müvafiq yaşdakı yetkinlik yaşına çatmayanlara ictimai işlər və islah işləri növündə cəzaların tətbiqini nəzərdə tutan AR CM-in 85.3-cü və 85.4-cü maddələrinin hüquqa və haqq-ədalət meyarlarına cavab verməməklə, Konstitusiyanın müvafiq normasının, eləcə də qeyd olunan digər maddələrinin tələbləri ilə ziddiyyət təşkil etdiyi qeyd olunmuşdur. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu məsələ ilə bağlı konstitusiya işinə baxılması prosesində BMT-nin aidiyyəti beynəlxalq aktlarını, milli qanunvericiliyi ətraflı təhlil

edərək, 23 aprel 2021-ci il tarixli Qərarında məhkumun əmək fəaliyyəti ilə bağlı olan ictimai işlər və islah işləri növündə cəzaların on beş yaşınadək şəxslərə tətbiqinin Azərbaycan Respublikası Konstitusiyasının 17-ci maddəsinin V hissəsi ilə ziddiyyət təşkil etmədiyini və onların təyininin mümkün olduğunu göstərmişdir. Eyni zamanda, qərarda qeyd olunmuşdur ki, azadlıqdan məhrum etməyə alternativ olan hər iki cəzanın tətbiq edilməsində məqsəd cinayət əməli törətmiş yetkinlik yaşına çatmayanlarda şəxsi məsuliyyət hissini inkişaf etdirmək, onları cəmiyyətə qaytarmaq və cəmiyyətdə faydalı rol oynamaqla, düzgün inkişaflarına kömək etməkdir. Fikrimizcə, müvafiq alternativ cəzaların on beş yaşınadək şəxslərə təyin edilməsinin AR CM-də nəzərdə tutulması, onlar barəsində azadlıqdan məhrum etmə cəzasının tətbiqinə qənaətli yanaşma imkanlarının artırılması ilə də bağlıdır.

Azərbaycan Respublikasının cinayət qanunvericiliyində yetkinlik yaşına çatmayanlara əlavə cəzaların təyin edilməsi ilə bağlı hər hansı bir müddəa nəzərdə tutulmamış, eyni zamanda, bunu qadağan edən hər hansı bir norma da öz əksini tapmamışdır. Habelə, Azərbaycan Respublikası Ali Məhkəməsinin cəzaların təyini və bir sıra cinayət isləri üzrə məhkəmə təcrübəsi ilə əlaqədar Plenumun qərarlarının təhlili bizə əlavə cəza qismində cərimə, müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, habelə nəqliyyat vasitəsini idarə etmə hüququndan məhrum etmənin tətbiqinin mümkün oldugu qənaətinə gəlməyə əsaslar yaradır. Lakin, bu zaman AR CM-də təsbit edilmiş müəyyən istisnalar da nəzərə alınmalıdır. Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun yuxarıda göstərilən 30 iyun 2008-ci il tarixli Qərarının 16-cı bəndinin 4 aprel 2025-ci il tarixli qərarına uyğun olaraq yenilənmiş redaksiyasına əsasən, yetkinlik yaşına çatmayanlara təyin edilməsinə yol verilən cəzalar sırasında yalnız cərimənin AR CM-in 43-cü maddəsində həm əsas, həm də əlavə cinayət-hüquqi xarakterli tədbir kimi təsbit edildiyi əsas götürülərək, onun sözügedən şəxslərə əlavə cəza qismində təyin edilməsi məqbul hesab olunmuşdur. Bu zaman yetkinlik yaşına çatmayanlara cərimə, yal-

nız məhkumun müstəqil əmək haqqı və ya bu cəzanın icrasına yönəldilə bilən əmlakı olduğu təqdirdə, habelə cinayət qanunu ilə müəyyən edilmiş məbləğdə təyin edilə bilər. Fikrimizcə, sözügedən şəxslərə əlavə cəza kimi yalnız cərimənin təyin edilməsi ilə bağlı Ali Məhkəmənin qeyd olunan mövqeyi ilə birmənalı razılaşmağı düzgün hesab etmirik. Belə ki, həmin plenum qərarının istinad olunan bəndinin əvvəlki redaksiyasında yetkinlik yaşına çatmayanlara müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmənin əlavə cəza kimi tətbiqinin mümkünlüyü də qeyd olunmuşdu, lakin yuxarıda göstərilən dəyişikliklə həmin müddəa qərardan çıxarılmışdır. Belə yanaşmaya baxmayaraq, hesab edirik ki, müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmənin yetkinlik yaşına çatmayana, onun hər hansı fəaliyyətlə məşğul olması ilə bağlı cinayət törətdiyi zaman əlavə cəza kimi tətbiqi mümkündür. Belə ki, AR CM-in 46-cı və 85-ci maddələrində həmin cəzanın sözügedən şəxslərə təyin edilməsinə heç bir qadağa qoyulmamışdır.

Nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə növündə əlavə cəzanın yetkinlik yaşına çatmayanlara tətbiqinin mümkünlüyü Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun "Yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulmasına dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında" 15 noyabr 2013-cü il tarixlı Qərarının 22-ci bəndində vurğulanmışdır. Belə ki, həmin bənddə göstərilir ki, yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması ilə bağlı AR CM-in 263, 263-1, 264 və 351-ci maddələrində nəzərdə tutulmuş cinayətləri törətməkdə təqsirləndirilən şəxslərin sürücülük hüququnun olmaması və ya yetkinlik yaşına çatmaması, onların barəsində müvafiq əlavə cəzanın, yəni nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmənin tətbiqinə mane olmur. Daha iki əlavə cəzanın, yəni xüsusi və ya hərbi rütbədən, fəxri addan yaxud dövlət təltifindən məhrum etmənin və Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarmanın yetkinlik yaşına çatmayanlara tətbiqinə gəldikdə, vurğulamaq istərdik ki, bəzi

istisnalar nəzərə alınmaqla, onlar da sözügedən şəxslərə məhkəmə tərəfindən təyin edilə bilər. Belə ki, xüsusi və ya hərbi rütbədən, fəxri addan yaxud dövlət təltifindən məhrum etmə cəzasının yetkinlik yaşına çatmayanlara, fikrimizcə, yalnız dövlət təltifindən məhrum etmə hissəsində tətbiqi mümkün ola bilər. Çünki, təcrübədə yetkinlik yaşına çatmayan şəxsin göstərdiyi şücaətə və qəhrəmanlığa görə ölkənin medal və ya ordeni ilə təltif edilməsi istisna deyildir, habelə, bununla əlaqədar qanunvericilikdə yaş həddi ilə bağlı qadağalar da nəzərdə tutulmamışdır. Eyni zamanda, düşünürük ki, AR CM-in 48-ci maddəsi xüsusi və ya hərbi rütbədən, habelə hər hansı fəxri addan məhrum edilməsinin tətbiqini yaş həddi ilə məhdudlaşdırmasa da, müvafiq şəxslərə yuxarıda qeyd olunan rütbə və ya adların verilməsi demək olar ki, imkan xaricindədir. Habelə, Azərbaycan Respubikasının hüdudlarından kənara məcburi çıxarma növündə əlavə cəza, yalnız yetkinlik yaşına çatmayan əcnəbi və ya vətəndaşlığı olmayan şəxslər barəsində tətbiq edilə bilər. Belə ki, AR CM-in 52-ci maddəsində həmin cəzanın təyin edilməsinin yaşla əlaqələndirilməsi ilə bağlı hər hansı bir norma yoxdur. Yekun olaraq qeyd olunur ki, Azərbaycan Respublikasında yetkinlik yaşına çatmayanlara cinayət qanununda nəzərdə tutulmuş beş əsas cəza növündən başqa, müəyyən şərtlərlə, yuxarıda göstərilən beş əlavə cəzanın da tətbiqini mümkün sayırıq.

Azərbaycan Respublikasının cinayət qanunu yetkinlik yaşına çatmayanlara cəzaların təyin edilməsinə də fərqli yanaşma nümayiş etdirmişdir. Belə ki, məhkəmə sözügedən şəxslərə cəza təyin edərkən AR CM-in 58-ci maddəsində göstərilmiş, yəni törədilmiş cinayətin xarakteri və ictimai təhlükəlilik dərəcəsi, təqsirkarın şəxsiyyəti ilə bağlı, o cümlədən cəzanı yüngülləşdirən və ağırlaşdıran, habelə təyin olunmuş cəzanın şəxsin islah olunmasına və onun ailəsinin həyat şəraitinə təsiri ilə əlaqədar hallardan əlavə, AR CM-in 86-cı maddəsinə uyğun olaraq, həmin şəxslərin həyat və tərbiyə şəraitini, psixi inkişaf səviyyəsini, şəxsiyyətinin digər xüsusiyyətlərini və onlara kənar şəxslərin təsirini də nəzərə almalıdır. Eyni zamanda, AR CM-in 59-cu maddəsinə əsasən, cəza tə-

yini zamanı cinayətin yetkinlik yaşına çatmayan şəxs tərəfindən törədilməsi məhkəmə tərəfindən yüngülləşdirici hal kimi qəbul edilməlidir. Bu zaman, əgər cəzanı ağırlaşdıran hallar yoxdursa, AR CM-in 60-cı maddəsinə uyğun olaraq, təyin olunan cəzanın müddəti və ya həcmi həmin məcəllənin Xüsusi hissəsinin müvafiq maddəsində nəzərdə tutulmuş daha ciddi cəza növünün son həddinin dörddə üçündən artıq ola bilməz. Habelə, böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayətə görə tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq edilməklə, cəzadan azad olunmaq imkanının AR CM-in 89-cu maddəsində yalnız yetkinlik yaşına çatmayanlara aid edilməsi, dövlət tərəfindən sözügedən şəxslərə göstərilən seçkili və humanist münasibətin daha bir gözəl təzahürüdür.

Cinayət qanunvericiliyində yetkinlik yaşına çatmayanlarla bağlı digər bir fərqli yanaşma onların azadlıqdan məhrum etmə cəzasının çəkilməsi yeri ilə bağlıdır. Belə ki, AR CM-in 55-ci və 85-ci maddələrinə uyğun olaraq azadlıqdan məhrum etmə cəzası təyin edilmiş və hökm qanuni qüvvəyə minənədək on səkkiz yaşına çatmayan oğlan və qızlar cəzalarını tərbiyə müəssisələrində çəkirlər. Məhkəmənin hökmü ilə yetkinlik yaşına çatmayan qızlar, habelə azadlıqdan məhrum etməyə ilk dəfə məhkum olunmuş yetkinlik yaşına çatmayan oğlanlar cəzalarını çəkmək üçün ümumi rejimli, əvvəllər azadlıqdan məhrum etmə növündə cəza çəkmiş yetkinlik yaşına çatmayan oğlanlar isə, möhkəm rejimli tərbiyə müəssisələrinə göndərilirlər. Sözügedən şəxslər müvafiq yaş dövründə qəsdən cinayət, o cümlədən, xüsusilə ağır cinayət törətdikdə, hökm çıxarılan vaxt yetkinlik yaşına çatdıqda və bu zaman azadlıqdan məhrum etmə cəzasına məhkum edildikdə, Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun "Azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxslər üçün cəzaçəkmə müəssisəsinin növünün məhkəmələr tərəfindən təyin edilməsi təcrübəsi haqqında" 4 iyul 2025-ci il tarixli Qərarının 14-cü bəndinə əsasən onlar cəzalarını çəkmək üçün ümumi rejimli cəzaçəkmə müəssisəsinə, ehtiyatsızlıqdan törədilmiş cinayətlərə görə beş ildən artıq olmayan müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum olun-

duqda isə, məntəqə tipli cəzaçəkmə müəssisəsinə göndərilirlər.

Yetkinlik yaşına çatmayanlara cəza təyini ilə bağlı məhkəmə təcrübəsinin təhlillindən əvvəl cinayət törətməkdə təqsirli hesab edilən sözügedən şəxslərin həbs yerlərində saxlanılmasına qısa toxunmaq istərdik. İlkin qeyd olunmalıdır ki, qanunvericiliklə həmin şəxslər barədə həbs qətimkan tədbirinin tətbiq edilməsinə bir qayda olaraq, sonuncular tərəfindən yalnız az ağır zorakı, habelə ağır və ya xüsusilə ağır cinayətlərin törədilməsi zamanı yol verilir. Barəsində həbs qətimkan tədbiri seçilmiş yetkinlik yaşına çatmayanların istintaq təcridxanalarında saxlanma xüsusiyyətləri də, digər həbs edilmiş şəxslərlə müqayisədə öz humanistilyi ilə diqqəti cəlb edir. Sözügedən şəxslərə fərqli yanaşma "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının 22 may 2012-ci il tarixli Qanununun 30-cu maddəsində öz əksini tapmışdır. İlkin olaraq yetkinlik yaşına çatmayan oğlanlar və qızlar həbs yerlərində bir-birindən, habelə yetkinlik yaşına çatan şəxslərdən ayrı saxlanılırlar. Sözügedən şəxslərə həbs yerlərində yaxşılaşdırılmış maddi-məişət şəraiti yaradılır və onlar xüsusi yemək norması ilə təmin edilirlər. Belə ki, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin "Tutulmuş və ya həbs edilmiş şəxslərin yemək və maddi-məişət normalarının təsdiq edilməsi haqqında" 18 fevral 2013-cü il tarixli 22 nömrəli Qərarına əsasən istintaq təcridxanalarında saxlanılan yetkinlik yaşına çatmayanlar üçün müəyyən edilmiş gündəlik ərzaq normasının qida tutumu 4328 kilokalori təşkil edir. Bu da öz növbəsində həmin müəəsisələrdə saxlanılan hamilə və ya yanında üç yaşınadək uşağı olan qadınlar istisna olmaqla, digər şəxslərin gündəlik ərzaq normasının qida tutumu ilə müqayisədə 353 kilokalori çoxdur. İstintaq təcridxanalarında saxlanılan yetkinlik yaşına çatmayanlar digər şəxslərdən fərqli olaraq hər gün üç saatdan az olmamaqla, təmiz havada gəzintidən istifadə etmək hüququna malikdirlər. Onlara asudə vaxtlarında, istintaq təcridxanalarının Daxili İntizam Qaydalarına riayət etməklə, televiziya proqramlarına baxış, orta təhsillərini davam etdirmək və idmanla

məşğul olmaq üçün şərait yaradılır. Eyni zamanda, istinad edilən qanunla istintaq təcridxanalarında pozuntulara yol vermiş yetkinlik yaşına çatmayan şəxslər barəsində kifayət qədər sərtliyi ilə xarakterizə olunan, cərimə təcridxanasında yerləşdirilmə növündə tənbeh tədbirinin tətbiqinə qadağa qoyulmuşdur.

Yetkinlik yaşına çatmayanların məhkum edilməsi və bu zaman onlara cəzaların təyin olunması ilə əlaqədar AR DSK-nın məlumatlarına istinadən, 1993–2024-cü illərdə, yəni otuz iki il ərzində Azərbaycan Respublikasının məhkəmələri tərəfindən cəmi 10642 yetkinlik yaşına çatmayan məhkum edilmişdir ki, bu da orta hesabla il ərzində 332 nəfər təşkil edir. Ümumi məhkum olunanların təxminən 2,2 %-i qızlar olmuşdur. Araşdırılması aparılan illərdə məhkum olunan yetkinlik yaşına çatmayan oğlanların il üzrə orta sayı 327 nəfər təşkil etmiş, 1993-cü ildə onların sayı daha yüksək, yəni 689, 2020-ci ildə daha az, yəni cəmi 201 nəfər olmuşdur. Müvafiq illərdə məhkum edilmiş qızların ən yüksək sayı 17 (1998-ci il), ən az sayı isə, 1 nəfər (2018-ci il) təşkil etmişdir. 2023–2024-cü illərdə ölkədə məhkəmələr tərəfindən yetkinlik yaşına çatmayan 586 oğlan və 9 qız məhkum edilmişdir. Sözügedən şəxslərə 1993–2024-cü illərdə, yetkinlik yaşına çatmış şəxslərdən fərqli olaraq, məhkəmələr tərəfindən tətbiq edilmiş cəzalar arasında say və ya faiz hesabı ilə bir qayda olaraq, azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzalara, habelə şərti məhkum etməyə daha çox rast gəlinmişdir. Eyni zamanda, 1993–2000-ci illərdə yetkinlik yaşına çatmayanlarla bağlı ümumi məhkumetmə təcrübəsində digər cəzalarla müqayisədə azadlıqdan məhrum etmənin tətbiqinə üstünlük verilmiş, həmin cəza üzrə göstərici 23–37 % arasında olmuşdur. 2000–2014-cü illərdə şərti məhkum etmə institutu birinciliyi ələ almış, onun tətbiqi həmin illərdə 30–53 % arası təşkil etmişdir. 2015–2017-ci illərdə azadlıqdan məhrum etmə cəzasının tətbiqi yenidən artaraq, 30–34 %-lə ilk sırada yerləşmiş, 2018-ci ildə isə, şərti məhkum etmə 38,2 %-lə yenidən birinci olmuşdur. 2019–2024-cü illərdə yetkinlik yaşına çatmayanlara azadlığın məhdudlaşdırılmasının daha intensiv tətbiqi müşahidə

olunmuş, həmin illərdə ümumi məhkum olunan sözügedən şəxslərin 39–51,7 %-nə həmin cəza növü təyin edilmişdir. Xüsusilə, 2021–2024-cü illərdə yetkinlik yaşına çatmayanlar barədə azadlığın məhdudlaşdırılması cəzasının tətbiqi ardıcıl artmaqla, ümumi sayın müvafiq olaraq 43,6 %, 49,2 %, 49,4 % və 51,7 %-ni təşkil etmişdir. İstinad olunan son dörd ildə cəza tətbiqi təcrübəsində azadlıqdan məhrum etmə və şərti məhkum etmə institutu ikinci-üçüncü yerlərdə olmuşlar. Sözügedən şəxslərə məhkəmələr tərəfindən, habelə digər cəza növləri, yəni islah işləri, cərimə və ictimai işlər də tətbiq edilmişdir.

Yetkinlik yaşına çatmayanlara təyin edilmiş cəzaların icrası ilə əlaqədar qeyd edilməlidir ki, digər məhkumlarla müqayisədə, cəmiyyətdən təcrid edilmə ilə bağlı olmayan cərimə, islah işləri, azadlığın məhdudlaşdırılması, əlavə cəzaların icrası, habelə şərti məhkum etmə, cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə ilə bağlı probasiya nəzarətinin həyata keçirilməsini tənzimləyən qanunvericilikdə, yəni AR CİM-də, demək olar ki, fərqlər nəzərdə tutulmamışdır. Bu da ilk növbədə, həmin dövlət məcburiyyət tədbirlərinin, cinayət qanununun müvafiq insitutlarının məhkumların hüquq və azadlıqları üçün kifayət qədər ciddi və çox da böyük olmayan məhdudiyyətlər yaratmadığı ilə bağlıdır. Göstərilən yanaşmaya Azərbaycan SSR-nin 1925-ci, 1970-ci il tarixli İslah-Əmək məcəllələrində (bundan sonra–AR İƏM), habelə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1 fevral 1984-cü il tarixli Fərmanı ilə təsdiq edilmiş “Məhkumlara islah-əmək təsiri tədbirləri ilə bağlı olmayan cinayət cəzalarının icrası qaydası və şərtləri haqqında Əsasnamə”də də rast gəlinmişdir. Lakin, hazırda sözügedən şəxslərin ictimai işlər cəzasının icrasında müəyyən fərqlər də mövcuddur. 14–16 yaş arasında olan məhkumların gün ərzində ictimai işlərin yerinə yetirilməsinə cəlb olunması müddətlərinin az olması ilə bağlı məsələyə yuxarıda aydınlıq gətirilmişdir. Eyni zamanda, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 17 oktyabr 2017-ci il tarixli 438 nömrəli qərarı ilə təsdiq edilmiş “İctimai işlər cəzasına məhkum olunmuş və ictimai işlər növündə inzi-

bati tənbeh tədbiri tətbiq edilmiş şəxslərin cəlb ediləcəyi işlərin növləri və belə işlərin keçiriləcəyi yerlərin müəyyənləşdirilməsi Qaydası", yetkinlik yaşına çatmayan məhkumların cəlb ediləcəkləri işlərin növünü və keçiriləcəyi yerlərin seçilməsi zamanı, sözügedən şəxslərin təhsilinin, əsas iş yerinin, cinsi mənsubiyyətinin, fiziki sağlamlığının, yaş dövrünə uyğun psixoloji cəhətlərinin və həyatı qavrama baxışlarının nəzərə alınmasını da tələb edir. Eyni zamanda, istinad edilən Qaydada, yetkinilk yaşına çatmayan məhkumlar tərəfindən həyata keçirilən ictimai işlərin icrası prosesinin digər şəxslərin kənardan sərbəst şəkildə görə bilmədiyi, onlar tərəfindən foto və video çəkilişlərinin aparılmasının mümkün olmadığı yerlərə və işlərə üstünlük verilməsinin vacibliyi də vurğulanmışdır. Sözügedən şəxslərə qanunvericilikdə, o cümlədən müvafiq qərarda göstərilən münasibət, sözsüz ki, milli qanunvericiliyin, habelə beynəlxalq aktların tələb və tövsiyələrinin nəzərə alınması ilə bağlıdır.

Azərbaycan Respublikasında cəmiyyətdən təcrid edilmə ilə bağlı olmayan cəzalar təyin edilmiş, barələrində şərti məhkum etmə, habelə cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmış və probasiya qeydiyyatında olan yetkinlik yaşına çatmayan məhkumların sayına aydınlıq gətirilməsi məqsədilə Avropa Şurasının azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzalarla bağlı cinayət statistikası üzrə SPACE II hesabatları öyrənilmişdir. Müəyyən edilmişdir ki, ölkədə 2017-ci ilin sonundan fəaliyyətə başlamış Ədliyyə nazirliyinin Probasiya Xidmətinin qeydiyyatında 2019–2023-cü illərin əvvəllərində, müvafiq olaraq 2019-cu ildə 117, 2020-ci ildə 176, 2021-ci ildə 138, 2022-ci ildə 102, 2023-cü ildə isə, cəmi 70 sözügedən məhkum olmuşdur ki, bu da həmin illərdə ölkədə probasiya nəzarətində olan ümumi məhkumların sayının təxminən bir və ya daha az faizini təşkil etmişdir. 2020-ci illə müqayisədə 2021–2023-cü illərdə probasiya qeydiyyatında olmuş yetkinlik yaşına çatmayan məhkumların sayı müvafiq illər üzrə 21,6 %, 42,1 % və 2,5 dəfə azalmışdır. Bu da ilk növbədə, məhkum edilmiş yetkinlik yaşına çatmayanların ümumi sayının

azalması, habelə Azərbaycan Respublikasının Milli Məclisinin "8 Noyabr–Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında" 5 noyabr 2021-ci il tarixli qərarının icrası ilə əlaqəlidir. Belə ki, göstərilən amnistiya aktı yetkinlik yaşına çatmayan 65 məhkuma tətbiq edilmişdir ki, onların da böyük əksəriyyətini cəmiyyətdən təcrid edilmə ilə bağlı olmayan cəzalara məhkum edilmiş şəxslər təşkil etmişdir.

Qüvvədə olan cəzaların icrası qanunvericiliyində yetkinlik yaşına çatmayanlar barədə azadlıqdan məhrum etmə cəzasının icrası qayda və şərtləri, onların hüquqi vəziyyəti, islah etmə tədbirlərinin tətbiqi prosesi, məhkumların islahında ictimaiyyətin iştirakı formaları, cəzadan azad edilməklə bağlı normalar digər məhkumlarla müqayisədə kifayət qədər fərqli olmaqla, öz humanistliyi, nəzərəçarpacaq güzəştlərlə diqqəti cəlb edir. Qeyd olunan fərqli yanaşma dairəsinin kifayət qədər genişləndirilməsi XX əsrin 90-cı illərinin sonuna, yəni Azərbaycanın öz müstəqilliyinin bərpasından sonrakı dövrə təsadüf edir. Sabiq cəzaların icrası qanunvericiliyində, xüsusilə 1970-ci il tarixli AR İƏM-də azadlıqdan məhrum etmə cəzasını çəkən yetkinlik yaşına çatmayan məhkumlar üçün bir sıra güzəstlər nəzərdə tutulmuşdu. Belə ki, onlar yaşayış sahəsinin, qısa müddətli görüşlərin, əmək haqqından şəxsi hesaba keçirilən məbləğin bir qədər çox olması, yeməyin və xüsusi paltarın ödənişsiz verilməsi, qidalanmanın fərqli normalarla təşkili, bağlama və sovqatların alınması hüququnun yaranması uçün təyin edilmiş cəza müddətinin yarısının çəkilməsinə ehtiyac olmadığı ilə əlaqədar olmuşdur. Habelə, tənbeh tədbiri qismində intizam təcridxanasına keçirilmiş sözügedən məhkumların, cəzaçəkmə müəssisələrində pozuntulara görə cərimə təcridxanasına, yaxud karserə yerləşdirilmiş yetkinlik yaşına çatmış məhkumlarla müqayisədə, saxlanma şəraiti də bir qədər humanist olmuşdur. Belə ki, AR İƏM-də tənbeh tədbirinin tətbiqi müddətində yetkinlik yaşına çatmayanlara gecə vaxtı yataq ləvazimatlarının verilməsi və gündəlik bir saatlıq gəzintinin təqdim olunması nəzərdə tutulmuşdu. Eyni zamanda, sabiq qanunvericilikdə digər məhkumlara şamil

olunan bir sıra sərt məhdudiyyətlərin yetkinlik yaşına çatmayanlara da tətbiqi təsbit edilmişdi. Belə ki, AR İƏM-ə uyğun olaraq yetkinlik yaşına çatmayan məhkumların da bütün yazışmaları, o cümlədən yaxınlarına göndərdikləri və aldıqları məktublar senzuradan keçirilirdi, yəni müdiriyyət tərəfindən oxunurdu. Onların yaxın qohumları və digər şəxslərlə görüşləri Tərbiyə müəssisəsinin nümayəndəsinin iştirakı ilə təqdim edilirdi. Habelə, digər məhkumlardan fərqli olaraq, yetkinlik yaşına çatmayanlara yaxın qohumlarla birlikdə yaşamaq hüququ ilə verilən uzun müddətli görüşlər qadağan edilmişdi. Buna görə də Azərbaycan SSR-nin digər cəzaçəkmə müəssisələrindən fərqli olaraq, ölkədə fəaliyyət göstərən yeganə Tərbiyə müəssisəsinin ərazisində uzun müddətli görüşlərin keçirilməsi üçün müvafiq infrastruktura malik ayrı bina inşa edilməmişdi. Eyni zamanda, əmək fəaliyyəti ilə məşğul olan həmin məhkumlara məzuniyyət verilməsi, onların işlədikləri müddətin əmək stajına daxil edilməsi də qadağan edilmişdi. Rejim qaydalarının pozulmasına görə sözügedən məhkumlara yetkinlik yaşına çatmayan məhkumlar kimi mühafizə qurğuları müstəsna olmaqla, Tərbiyə müəssisəsinin ərazisinin və binalarının səhmana salınması üçün əlavə növbətçilik, habelə növbəti qısa müddətli görüş, bağlama və ya sovqat almaq, müəssisədə fəaliyyət göstərən ticarət köşkündən bir ay ərzində ərzaq məhsulları və ən zəruri mallar əldə etmə hüquqlarından məhrum etmə kimi tənbeh tədbirləri tətbiq oluna bilərdi. İntizam təcridxanasına keçirilmiş yetkinlik yaşına çatmayanlara digər məhkumlar kimi görüş, yazışma, telefon danışıqları, sovqat və banderol almaq, ərzaq məhsulları və ən zəruri mallar əldə etmək, stolüstü oyunlardan, habelə tütün məlumatlarından istifadə qadağan olunmuşdu. Əlavə olaraq, sözügedən məhkumlara, yetkinlik yaşına çatmış məhkumlar üçün nəzərdə tutulmayan tənbeh tədbiri, yəni kinoya, konsertə getməkdən, idman oyunlarında iştirak etməkdən bir dəfə məhrum etmə növündə tədbir tətbiq edilə bilərdi.

Azərbaycan Respublikasının yeni Konstitusiyasının qəbulu və qanunvericilik aktlarının onun müddəalarına uyğunlaşdırılması ilə

əlaqədar ölkədə aparılan hüquqi islahatlar çərçivəsində qəbul edilmiş 7 fevral 1997-ci il tarixli qanunla AR İƏM-ə edilmiş əsaslı və çoxsaylı dəyişikliklərlə azadlıqdan məhrum edilmiş məhkumların, o cümlədən yetkinlik yaşına çatmayanların cəzalarının icrası qaydaları kifayət qədər yumşaldılmış, yeni hüquqlar, güzəştlər nəzərdə tutulmuş, bir sıra məhdudiyyətlər və qadağanlar ləğv edilmişdir. Qeyd edilməlidir ki, cəzaların icrası qanunvericiliyinin təkmilləşdirilməsi, yetkinlik yaşına çatmayanlara yeni hüquq və imtiyazların verilməsi məhkumlarla davranışa həsr olunmuş beynəlxalq aktların, xüsusilə BMT-nin Məhbuslarla davranışın minimal standart qaydalarının və Avropa Penitensiar Qaydalarının tövsiyələri nəzərə alınmaqla həyata keçirilmişdir.

Cəzaların icrasını tənzimləyən AR CİM-lə, habelə həmin məcəllənin qüvvəyə mindiyi vaxtdan ötən iyirmi beş il ərzində ona edilmiş dəyişikliklərlə azadlıqdan məhrum etmə cəzasını çəkən bütün məhkumların, o cümlədən yetkinlik yaşına çatmayanların hüquq və azadlıqlarının, qanuni maraqlarının dairəsi bir qədər də genişləndirilmiş, cəzalarının icrası qaydaları, saxlanma şəraiti yenidən xeyli yaxşılaşdırılmışdır. Qeyd olunanlara istinadən, azadlıqdan məhrum etmə növündə cəzanın icrası prosesində yetkinlik yaşına çatmayanlar üçün qüvvədə olan qanunvericilikdə nəzərdə tutulmuş fərqli, güzəştli müddəalara ətraflı toxunmaq istərdik. Belə ki, yetkinlik yaşına çatmayan məhkumlar (oğlanlar və qızlar):

– yaxşılaşdırılmış maddi-məişət şəraitində cəza çəkirlər, onlar yeməyin xüsusi, daha yüksək kalorili normaya uyğun qidalanırlar. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 25 sentyabr 2001-ci il tarixli 154 nömrəli Qərarına uyğun olaraq sözügedən məhkumların gündəlik ərzaq normasının qida tutumu 3746 kilokalori müəyyən edilmişdir ki, bu da ağır və zərərli əmək şəraitində işləyən, müalicə müəssisələrində müalicə keçən, hamilə və yanında üç yaşına çatmamış uşağı olan məhkum qadınlar istisna olmaqla, digər yetkinlik yaşına çatmış məhkumlar üçün nəzərdə tutulmuş gündəlik ərzaq normasının qida tutumu ilə müqayisədə 441 kilokalori çoxdur;

– ümumi rejimli Tərbiyə müəssisəsində cəza çəkdikləri müddətdə, eyni rejimli cəzaçəkmə müəssisəsindəki yetkinlik yaşına çatmış məhkumlardan il ərzində iki dəfə çox, yəni səkkiz uzun müddətli görüş hüququna malikdirlər;

– ümumi təhsilə və peşə təhsilinə icbari qaydada cəlb edilirlər;

– əməyə cəlb olunduqda, onlar üçün əmək qanunvericiliyinə uyğun olaraq qısaldılmış iş vaxtı müəyyən edilir. Yəni, həftə ərzində 16 yaşınadək məkumlar 24 saatdan, 16 yaşdan 18 yaşadək olan məhkumlar isə 36 saatdan artıq olmamaq şərti ilə, əməyə cəlb edilə bilərlər;

– aldıqları əmək haqqının, məhkəmə qərarı ilə müəyyən edilmiş və digər bütün tutulmalı məbləğlərdən asılı olmayaraq, ən azı 65 %-nin şəxsi hesablarına keçirilməsi hüququna malikdirlər;

– həvəsləndirmə qaydasında yaxşılaşdırılmış saxlanma şəraitinə ümumi rejimli Tərbiyə müəssisəsində cəza müddətinin dörddə birini, möhkəm rejimli müəssisədə isə, cəza müddətinin üçdə birini çəkdikdən sonra keçirilə bilərlər. Yetkinlik yaşına çatmış məhkumlar üçün sözügedən müddətlər daha çox, yəni müvafiq olaraq cəza müddətinin ücdə birini və ya yarısını təşkil edir. Yaxşılaşdırılmış saxlanma şəraitinə keçirilmiş bütün məhkumlar, o cümlədən yetkinlik yaşına çatmayanlar, AR CİM-də onlar üçün nəzərdə tutulmuş hüquq və imtiyazlardan əlavə istifadə etmək imkanı əldə edirlər;

– ümumi rejimli Tərbiyə müəssisəsində saxlanılma şəraiti yaxşılaşdırıldıqda, hər il əmək məzuniyyəti vaxtı müdiriyyətin qərarı ilə valideynlərinin və ya himayəçilərinin müşayiəti ilə, lakin ölkə daxilində olmaqla, müəssisənin hüdudlarından kənara, yola sərf olunan iki gün nəzərə alınmamaqla, yeddi günədək qısa müddətli səfərlər edə bilərlər;

– nümunəvi davranışa, əməyə və təhsilə vicdanlı münasibətə, özfəaliyyət təşkilatlarında və tərbiyə tədbirlərində fəal iştiraka görə AR CİM-in 105-ci maddəsində azadlıqdan məhrum edilmiş bütün məhkumlara tətbiq edilməsi üçün nəzərdə tutulmuş həvəsləndirmə tədbirlərindən əlavə, gecə vaxtı istisna olmaqla, gün ərzin-

də səkkiz saatadək Tərbiyə müəssisəsi nümayəndəsinin müşayiəti ilə cəzaçəkmə yerinin hüdudlarından kənarda keçirilən idman, mədəni-kütləvi və digər tədbirlərə bir dəfə tamaşa etmək imkanından bəhrələnə bilərlər. Bu zaman məhkumlara onlara məxsus mülki paltarları verilir;

– cəzanın çəkilməsi yerlərindən qaçış zamanı, onlara qarşı odlu silah tətbiqinə qadağan qoyulmuşdur. Eyni zamanda, Ədliyyə nazirliyinin Kollegiyasının 28 sentyabr 2018-ci il tarixli qərarı ilə təsdiq olunmuş ”Azərbaycan Respublikasının penitensiar sistemində təhlükəsizlik tədbirləri və onların tətbiq edilmə qaydaları haqqında Təlimat”a uyğun olaraq, vətəndaşların, əməkdaşların həyat və sağlamlığına hücum və təhlükə yaradan hərəkətlərlə bağlı hallar istisna olmaqla, sözügedən məhkumlara qarşı xüsusi vasitələrin, yəni rezin dəyənəyin, əl qandalının, gözyaşardıcı qazın, yayındırıcı təsir göstərən işıq-səs vasitələrinin və xidməti itlərin tətbiqinə də qadağan qoyulmuşdur;

– cəzanın icrası qaydalarını pozduqda, onlar barədə intizam təcridxanasına keçirilmə növündə tənbeh tədbiri yalnız yeddi günədək tətbiq oluna bilər. AR CİM-də yetkinlik yaşlı məhkumlar üçün eyni saxlanma səraitinə malik cərimə təcridxanasına keçirilmə tənbehinin müddəti on beş günədək, qadınlar üçün isə, on günədək nəzərdə tutulmuşdur. İntizam təcridxanasına keçirilmiş məhkumlar hər gün iki saat gəzinti hüququna malikdirlər, onların bir təqvim ili ərzində sözügedən yerdə saxlanma müddəti otuz gündən çox ola bilməz (yetkinlik yaşlı məhkumlar üçün müvafiq müddətlər bir saat və altmış gün təşkil edir). Habelə, cərimə təcridxanasına keçirilmiş yetkinlik yaşlı məhkumlardan fərqli olaraq, intizam təcridxanasında keçirilmə tənbehinin çəkilməsi dövründə onların yaxın qohumları ilə qısa müddətli görüş hüquqları saxlanılır;

– cəzanın icrası qaydalarının qərəzli pozulması hallarında yetkinlik yaşına çatmış məhkumlar kimi, tənbeh tədbiri qaydasında kamera tipli otaqlara, habelə məhkəmənin qərarına əsasən üç ilədək müddətə həbsxanaya keçirilmirlər;

– cəza çəkməkdən azad edilməkdən əvvəl Tərbiyə müəssisəsi-

nin müdiriyyəti onların qohumlarını və ya himayəçilərini, habelə, əlaqə saxladıqları şəxsləri xəbərdar edir. Sözügedən məhkumlar cəzanı çəkməkdən azad edildikdən sonra, yaşayış yerinə qohumlarının, və ya digər şəxslərin, yaxud Tərbiyə müəssisəsinin işçilərinin müşayiəti ilə qayıdırlar;

– cəzanı çəkməkdən azad edildikdən sonra, valideynlərinin olmaması və ya valideyn himayəsindən məhrum edilmələri ilə əlaqədar yaşayış yerləri olmadıqda, internat məktəblərinə göndərilir və tam dövlət təminatına götürülürlər.

AR CİM-ə əsasən yetkinlik yaşına çatmayan məhkumların on səkkiz yaşı tamam olduqda, onlar bir qayda olaraq, tərbiyə müəssisələrindən cəzaçəkmə müəssisələrinə keçirilirlər. Bu da öz növbəsində qanunvericilikdə nəzərdə tutulmuş digər hallarla yanaşı, Tərbiyə müəssisəsində məhkumların sayının azalmasına, az da olsa, təsir göstərir. Lakin həmin məhkumlar müəssisə müdiriyyətinin təqdimatına və məhkəmənin qərarına əsasən iyirmi yaşınadək tərbiyə müəssisələrində saxlanıla bilərlər. Belə saxlanılma həmin məhkumlarla aparılan islah-tərbiyə prosesinin uğurla yekunlaşması, onların təhsillərinin, o cümlədən peşə təhsilinin tam başa çatdırılması baxımından əhəmiyyət kəsb edir. On səkkiz yaşından sonra tərbiyə müəssisələrində saxlanılan məhkumlara yetkinlik yaşına çatmayan məhkumlar üçün müəyyən edilmiş cəzanın icrası şərtləri, yemək normaları və maddi-məişət təminatı aid edilir, onların əmək şəraiti əmək qanunvericiliyinə əsasən müəyyən olunur. Tərbiyə müəssisələrində saxlanılmış məhkumlar cəzanın icrası qaydalarını pozduqda, onlar müəssisənin müdiriyyətinin təqdimatı və məhkəmənin qərarı ilə ümumi rejimli cəzaçəkmə müəssisəsinə keçirilirlər.

Eyni zamanda, AR CİM-də yetkinlik yaşına catmayanların islah edilməsi prosesində ictimaiyyətin, ictimai təşkilatların iştirakı formaları fərqli və daha geniş nəzərdə tutulmuşdur. Belə ki, yetkinlik yaşına catmış məhkumların cəza çəkdikləri müəssisələrindən fərqli olaraq, Tərbiyə müəssisəsinin nəzdində müdiriyyətə tədris-tərbiyə prosesinin təşkilində, onun maddi-texniki bazasının

möhkəmləndirilməsində, məhkumların sosial müdafiəsinə dair məsələlərin həllində, cəza çəkməkdən azad olunanlara əmək və məişət şəraitinin yaradılmasında kömək göstərilməsi məqsədi ilə dövlət müəssisə, idarə və ya təşkilatlarının, ictimai birliklərin, digər müəssisələrin nümayəndələrindən və fiziki şəxslərdən ibarət Himayəçilik Şurası, məhkumlara göstərilən tərbiyəvi təsirin səmərəliliyini artırmaq və müəssisənin müdiriyyətinə islah işində kömək etmək üçün isə, məhkumların valideynlərindən və ya digər yaxın qohumlarından ibarət Valideynlər komitəsi yaradılır. İctimai əsaslarla fəaliyyət göstərən hər iki qurumun işinin təşkili və fəaliyyət qaydası, müvafiq olaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı və Ədliyyə nazirliyinin təsdiq etdiyi Əsasnamə ilə tənzimlənir.

Azadlıqdan məhrum etmə yerlərində, yəni istintaq təcridxanalarında və tərbiyə müəssisələrində saxlanılan yetkinlik yaşına çatmayan şəxslərin sayı ilə bağlı Avropa Şurasının 2002–2006-cı, 2009–2016-cı, 2018–2024-cü illərin əvvəlinə olan məlumatları özündə əks etdirən cinayət statistikasına dair SPACE I hesabatlarının Azərbaycan Respublikası üzrə təhlili göstərdi ki, həmin illərdə ölkədə 26-dan (2011-ci ildə) 111 nəfərə kimi (2006-cı ildə) sözügedən həbs edilmiş şəxs və məhkum olmuşdur. 2016–2023-cü illər ərzində həmin göstəricilər azalaraq, 51-dən 80-dək təşkil etmişdir. Belə ki, 2018-ci ilin əvvəlinə azadlıqdan məhrum etmə yerlərində yetkinlik yaşına çatmayanların sayı 75, 2019-cu ilin müvafiq dövründə 71, 2020-ci ildə 57, 2021-ci ildə 52, 2022-ci ildə 54, 2023-cü ildə isə, cəmi 56 nəfər olmuşdur. Lakin 2024-cü ilin əvvəlinə sözügedən şəxslərin sayı bir qədər artaraq, 72 nəfər təşkil etmişdir ki, bu da ölkənin azadlıqdan məhrum etmə yerlərində saxlanılan şəxslərin ümumi sayının 0,3 %-dən də azdır. Yuxarıda göstərilən yetkinlik yaşına çatmayanların böyük hissəsini həbs yerlərində saxlanılan oğlanlar təşkil etmişdir. Təhlili aparılan illərdə azadlıqdan məhrum etmə yerlərində yetkinlik yaşına çatmayan cəmi bir və ya bir neçə qız olmuş, 2024-cü ilin əvvəlinə olan dövrdə isə, istər istintaq təcridxanalarında, istərsə cəzaçəkmə

müəssisələrində, ümumiyyətlə qızlar olmamışdır. Beləliklə, istinad edilən illərdə digər dünya dövlətlərindən fərqli olaraq, Azərbaycan Respublikasının azadlıqdan məhrum etmə yerlərində saxlanılan yetkinlik yaşına çatmayanların, xüsusilə qızların sayı daim kifayət qədər az olmuşdur ki, bu da dövlət tərəfindən sözügedən şəxslərə göstərilən qayğının və humanist münasibətin bariz nümunəsi kimi qəbul edilməlidir. Eyni zamanda, azadlıqdan məhrum etmə yerləri ilə bağlı araşdırmalar aparan beynəlxalq qeyri-hökumət təşkilatlarının məlumatlarının təhlili göstərdi ki, son illərdə, xüsusilə 2018–2023-cü illərdə dünyanın həbs yerlərində saxlanılan yetkinlik yaşına çatmayanların sayının artması tendensiyası mövcud olmuşdur. Belə ki, 2015-ci ildən başlayaraq Beynəlxalq Həbsxana İslahatı təşkilatının Tailandın Ədliyyə institutu ilə birgə əməkdaşlıq çərşivəsində apardığı araşdırmalar əsasında hər il dərc olunan "Həbsxana sistemində qlobal trendlər" adlı məcmuədə 2019-cu ildə dünyanın azadlıqdan məhrum etmə yerlərində saxlanılan yetkinlik yaşına çatmayanların təxminən 250 min olduğu, sonrakı illərdə onların sayının 4,4 %-dək artdığı, nəhayət, 2024-cü ilin əvvəlinə 261 mindən çox olduğu göstərilmişdir. Lakin, həmin məcmuənin 2025-ci ilin may ayındakı buraxılışındakı məlumata əsasən, sözügedən şəxslərin sayı 2024-cü il ərzində 8 %-dək azalaraq, 240 min nəfər təşkil etmişdir.

Azərbaycan Respublikasının cinayət qanununda təsbit edilmiş xəstəliyə görə, zərərçəkmiş şəxslə barışmaqla, cinayət nəticəsində vurulmuş ziyanı və ya əldə edilmiş gəliri tamamilə ödəməklə bağlı cəza çəkməkdən azad etmə ilə əlaqədar institutlar (AR CM-in 78, 80–1-ci maddələri) yetkinlik yaşına çatmayanlara digər şəxslərlə müqayisədə fərqlər qoyulmadan tətbiq edilir. Eyni zamanda, AR CM-in 90, 91 və 92-ci maddələrinə uyğun olaraq, yetkinilk yaşına çatmayan məhkumlara cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə institutunun tətbiqi, habelə ittiham hökmünün icrası, məhkumluğun odənilməsi (şərti məhkum etməyə görə məhkumluq istisna olmaqla) müddətləri digər məhkumlarla müqayisədə kifayət qədər qısa müəyyən edilmişdir. Habelə, 20 oktyabr

2017-ci il tarixli qanunla AR CM-ə əlavə edilmiş yeni 90-1-ci maddəyə uyğun olaraq, böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayətlərə görə azadlıqdan məhrum etmə növündə cəza çəkən yetkinlik yaşına çatmayanlar, təyin edilmiş cəza müddətinin ən azı dörddə bir hissəsini çəkdikdən sonra cəzalarının çəkilməmiş hissəsi, məhkəmə qərarına əsasən, daha yüngül cəza növü ilə əvəz edilə bilər. Göstərilən dəyişikliyə kimi AR CM-in 77-ci maddəsinə uyğun olaraq, sözügedən məhkumların cəzasının daha yüngül cəza növü ilə əvəz edilməsi imkanının yaranması üçün müəyyən olunmuş vaxt, yetkinlik yaşına çatmış məhkumlarla eyni olmaqla, cəza müddətinin ən azı üçdə bir hissəsini təşkil edirdi.

Eyni zamanda, qeyd olunmalıdır ki, digər məhkumlar kimi, yetkinlik yaşına catmayanların əfv edilməsi ilə əlaqədar məsələ də Azərbaycan Respublikasının Prezidentinin daim diqqətində olmuşdur. Belə ki, 1995–2025-ci illər ərzində dövlət başçısı tərəfindən imzalanmış əfvetmə ilə bağlı 71 fərman və sərəncamın iyirmi üçündə bağışlanan məhkumlar arasında yetkinlik yaşına çatmayanlar da olmuşdur. Ümumiyyətlə, qeyd olunan dövrdə 60-dan çox sözügedən məhkum əfv edilmiş və onlar Tərbiyə müəssisəsində cəzalarını çəkməkdən azad edilmişlər.

Azərbaycan Respublikasında azadlıqdan məhrum edilmiş yetkinlik yaşına çatmayan məhkumların sayının az olması ilə əlaqədar onların cəzalarının çəkməsi üçün cəmi iki Tərbiyə müəssisəsi təşkil olunmuş və onlar yalnız oğlanlar üçün nəzərdə tutulmuşdur. Onlardan biri 2008-ci ilin aprel ayında Naxçıvan Muxtar Respublikasında istismara verilmiş, ölkənin ilk penitensiar kompleksinin ərazisindəki müəssisədir. İkincisi isə, Bakı şəhərində uzun illər fəaliyyət göstərmiş sabiq müəssisənin əvəzinə 2022-ci ilin aprelində ölkənin paytaxtında istifadəyə verilmiş, digər yeni penitensiar kompleksin nəzdindəki müasir Tərbiyə müəssisəsidir. Eyni zamanda, yetkinlik yaşına çatmayan məhkum qızların sayının daim çox cüzi, yəni il ərzində cəmi bir və ya bir neçə nəfər olduğu səbəbindən, onlar üçün ayrıca Tərbiyə müəssisəsinin yaradılması məqsədəmüvafiq hesab edilməmişdir. Məhkum qızlar cəzalarını

yetkinlik yaşına çatmış məhkum qadınlar üçün nəzərdə tutulmuş cəzaçəkmə müəssisələrində, lakin ayrılıqda, onlar üçün yaradılmış xüsusi sahələrdə (binalarda) çəkirlər. Sözügedən iki penitensiar kompleksdəki tərbiyə müəssisələrində yetkinlik yaşına çatmayan oğlanların, habelə məhkum qadınlar üçün cəzaçəkmə müəssisələrində qızların cəzalarını milli qanunvericiliyin, məhkumlarla davranışa həsr olunmuş beynəlxalq aktların tələblərinə uyğun qaydada çəkmələri, vicdanlı və layiqli vətəndaş kimi yetişməsi, təhsil və peşə vərdişləri əldə etməsi üçün bütün zəruri şərait yaradılmışdır.

Yuxarıda göstərilənlərə istinadən qeyd edilməlidir ki, Azərbaycan Respublikasında yetkinlik yaşına catmayanlara cinayət cəzalarının təyini, habelə həmin məhkumların cəzalarının icrası qaydaları ölkədə uğurla həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində xeyli humanistləşdirilmişdir. Sözügedən məhkumların saxlanma şəraiti, maddi-məişət, yemək təminatı kifayət qədər yaxşılaşdırılmış, yetkinlik yaşına çatmış şəxslərlə müqayisədə cəzaların icrası qanunvericiliyində onlar üçün əlavə güzəşt və imtiyazlar nəzərdə tutulmuşdur. Cəzaların, xüsusilə azadlıqdan məhrum etmə cəzasının icrası ilə bağlı milli qanunvericilik yetkinlik yaşına çatmayan məhkumların hüquq və azadlıqlarının etibarlı təmini, səmərəli islahı, habelə cəzanı çəkdikdən sonra azad cəmiyyətə layiqli, qanuna itaətli vətəndaş kimi qayıdışı, uğurlu reinteqrasiyası və daha asan adaptasiyası üçün əlverişli imkanlar yaratmışdır. Eyni zamanda, Azərbaycan Respublikasında uşaqlarla bağlı dövlət siyasətinin daim diqqətdə saxlanılmasını, ardıcıl olaraq humanistləşdirilməsini, habelə bu sahədə həyata keçirilən işlərin dairəsinin genişləndirilməsi tendensiyasını nəzərə alaraq, yetkinlik yaşına çatmayanlara cəzaların təyini, onların cəzalarının icrası ilə əlaqədar qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı məsələlərin aktual olaraq daim gündəmdə saxlanılması, habelə əlavə tədbirlərin görülməsi, fikrimizcə, xüsusi əhəmiyyət kəsb edir. Dünya dövlətlərinin təcrübəsindən bəhrələnməklə, hüquqpozucuları ilə, o cümlədən yetkinlik yaşına çatmayanlarla davranışa həsr olunmuş və yuxarıda istinad edilən beynəlxalq aktların tövsiyələ-

rinin milli qanunvericilikdə daha geniş təsbit edilməsi prosesinin davam etdirilməsi məqsədilə, tərəfimizdən əvvəllər verilmiş təklifləri də nəzərə alaraq, sözügedən şəxslərə cəzaların təyini, onların cəzalarının, xüsusilə azadlıqdan məhrum etmənin icrası ilə bağlı Azərbaycan Respublikasının Cinayət, Cinayət-Prossesual, Cəzaların İcrası məcəllələrinə, habelə bir sıra digər normativ hüquqi aktlara aşağıda göstərilən dəyişikliklər edilməsi məqsədəuyğun hesab edilir.

**I. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi üzrə:**

1) AR CM-dəki yetkinlik yaşına çatmayanın asudə vaxtının məhdudlaşdırılması və davranışı ilə bağlı xüsusi tələblər müəyyən edilməsi növündə tərbiyəvi xarakterli məcburi tədbiri (88-ci maddə), iki ilədək müddətə təyin oluna bilən yeni əsas cəza növü kimi müəyyən etmək məqsədəuyğun olardı. Təklif olunan cəza növünə oxşar dövlət məcburiyyət tədbiri, Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyasının 17 fevral 1996-cı il tarixli qərarı ilə təsdiq edilmiş model Cinayət Məcəlləsinin 90-cı maddəsində asudə vaxtın məhdudlaşdırılması kimi nəzərdə tutulmuş və üzv dövlətlərə tövsiyə edilmişdi. Bir sıra dövlətlərdə yetkinlik yaşına çatmayanlara təklif olunan cəzaya oxşar cinayət-hüquqi xarakterli tədbir tətbiq edilməkdədir. Ölkədə ictimai işlər, azadlığın məhdudlaşdırılması cəzaları təyin olunmuş, habelə şərti məhkum edilmiş və ya cəzadan şərti olaraq vaxtından əvvəl azad olunmuş məhkumlara elektron nəzarət vasitələrinin tətbiqi təcrübəsini nəzərə alaraq, həmin vasitələrdən təklif olunan yeni cəza növünün icrası prosesində də istifadə edilməsi, yetkinlik yaşına çatmayan həmin məhkumlara nəzarətin daha səmərəli həyata keçirilməsinə əlverişli imkanlar yarada bilərdi.

2) Cərimə cəzasının yalnız müstəqil əmək haqqı və ya həmin cəzanın icrasına yönəldilə bilən əmlakı olanlarla yanaşı, digər yetkinlik yaşına çatmayanlara da təyin edilməsi ilə əlaqədar müvafiq maddəyə dəyişiklik edilməsi məqbul hesab olunur (85-ci maddə). Təklif edilən yeni yanaşma məhkəmələr tərəfindən yetkinlik yaşına çatmayanlara cərimə cəzasının daha geniş tətbiqinə zəmin ya-

rada bilərdi.

3) Yetkinlik yaşına çatmayanlara:

- ictimai işlər növündə cəzanın müddətini, onların yaşından asılı olaraq fərdiləşdirilmiş qaydada, yəni on beş yaşınadək məhkumlar üçün altmış saatdan yüz altmış saatadək, on altı yaşınadək məhkumlar üçün səksən saatdan iki yüz qırx saatadək, on səkkiz yaşınadək məhkumlar üçün isə, yüz iyirmi saatdan üç yüz iyirmi saatadək müəyyən etmək daha məqsədəuyğun olardı (85-ci maddə);

- islah işləri növündə cəzanın tətbiqi zamanı məhkumun əmək haqqından və ya digər gəlirlərindən dövlət nəfinə tutulmaların yuxarı həddini on faizədək azaltmaq, habelə onlar cəzanın icrasından qərəzli boyun qaçırdıqda, cəzanın çəkilməmiş hissəsini yalnız azadlığın məhdudlaşdırılması növündə cəza ilə əvəz edilməsi daha məqbul hesab edilir (85-ci maddə);

- azadlığın məhdudlaşdırılması növündə cəzanın qanunla nəzərdə tutulmuş yuxarı həddini törədilmiş cinayətin ağırlıq dərəcəsindən asılı olaraq, yəni böyük ictimai təhlükə törətməyən cinayətlərə görə bir ilədək, az ağır cinayətlərə görə bir il altı ayadək, ağır cinayətlərə görə isə, iki ilədək müəyyən etmək daha yaxşı olardı (85-ci maddə).

4) Mülkiyyət əleyhinə olan, habelə iqtisadi fəaliyyət sahəsinə aid cinayətlər törətmiş yetkinlik yaşına çatmayanların yalnız vurulmuş ziyanı ödəməklə, yəni dövlət büdcəsinə əlavə ödənişlər etmədən, cinayət məsuliyyətindən azad edilməsini nəzərdə tutmaq və yaxud həmin ödənişlərin məbləğini ən azı iki dəfə azaltmaq daha məqsədəuyğundur (73-1.2, 73-1.3, 73-2.2-ci maddələr).

5) Yetkinlik yaşına çatmayanlara şərti məhkum etmənin tətbiqi zamanı, sınaq müddətini, törədilmiş cinayətin ağırlıq dərəcəsindən asılı olmayaraq, iki ilədək müddətə təyin olunması təklif edilir (70-ci maddə).

**II. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi üzrə:**

1) Cəriməni üzrlü səbəblərdən qanunvericilikdə nəzərdə tutulmuş müddətdə, yəni bir ay ərzində ödəyə bilməyən yetkinlik yaşı-

na çatmayanların:

- ərizələrinə əsasən təyin olunmuş pul məbləğinin ödənilməsini bir ildən iki elədək müddətə təxirə salınması müsbət qəbul edilərdi (510-cu maddə). Belarus Respublikasının, Rusiya Federasiyasının müvafiq qanunvericiliklərində cərimənin ödənişinin təxirə salınma müddəti bütün məhkumlar üçün beş ilədək müəyyən olunmuşdur;

- razılığı ilə, müvafiq pul məbləğinin valideynləri və yaxud qanuni nümayəndələri tərəfindən ödənilməsinə icazə verilməsi məqsədəmüvafiq olardı (519-cu maddə). Müvafiq müddəa Belarus Respublikasının, Rusiya Federasiyasının cinayət-prosessual qanunvericiliklərində öz əksini tapmışdır.

2) Yetkinlik yaşına çatmayanlara cəza təyini zamanı AR CM-in 58-ci və 86-cı maddələrində nəzərdə tutulmuş halların tam şəkildə nəzərə alınması məqsədilə, müvafiq məlumatların ətraflı və dolğun şəkildə əldə edilməsi üçün 20 yanvar 2010-cu il tarixli Avropa Probasiya Qaydalarında nəzərdə tutulmuş, son illərdə Avropa dövlətlərində geniş istifadə olunan məhkəməyədək məruzənin məhkəmələrə təqdim olunması ilə bağlı qanunvericiliyə yeni müddəalar əlavə etmək və yaxud müvafiq normaları probasiya fəaliyyəti ilə əlaqədar yaxın gələcəkdə qəbul edilməsi gözlənilən qanun layihəsinə daxil etmək kifayət qədər faydalı olardı. Məhkəməyədək məruzənin hazırlanması vəzifəsinin icrası, onu tətbiq edən ölkələrin təcrübəsinə istinadən Ədliyyə nazirliyinin Probasiya Xidmətinə həvalə oluna bilərdi.

**III. Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi üzrə:**

1) Tərbiyə müəssisələrində yetkinlik yaşına çatmayanlara qarşı xüsusi vasitələrin tətbiqi ilə bağlı Ədliyyə nazirliyinin "Azərbaycan Respublikasının penitensiar sistemində təhlükəsizlik tədbirləri və onların tətbiq edilmə qaydaları haqqında Təlimat"ında nəzərdə tutulmuş əlavə qadağanları qanunda təsbit etmək zəruri hesab olunur (78-ci maddə).

2) Yetkinlik yaşına çatmayanlara istirahət və ya bayram günlərində valideynlərinin və ya onları əvəz edən şəxslərin müşayiəti ilə gün ərzində müəssisənin hüdudlarından kənara çıxmaga icazə

vermək növündə yeni həvəsləndirmə tədbirini nəzərdə tutmaq məqbul olardı (124-1-ci maddə).

3) İntizam təcridxanasına keçirilmə növündə tənbeh tədbirinin tətbiqi müddətini yeddi gündən üç günədək azaltmaq, habelə həmin tənbeh tədbirinin icrası müddətində məhkumların telefon danışıqlarına və videogörüşlərinə qoyulmuş qadağanları ləğv etmək, fikrimizcə, müsbət qəbul edilərdi (125–126-cı maddələr). Belə ki, intizam təcridxanasında saxlanılma dövründə valideynlərlə, yaxud məhkuma yaxın digər şəxslərlə ünsiyyət imkanının artırılması, ilk növbədə həmin şəxslər tərəfindən yetkinlik yaşına çatmayanlara tərbiyəvi təsir göstərilməsi, onların yeni pozuntulardan çəkindirilməsi baxımından kifayət qədər səmərəli ola bilərdi. Eyni zamanda, müvafiq təmasların mümkünlüyü, təhbeh tədbirinin icrası müddətində sözügedən məhkumların Tərbiyə müəssisəsində yol verilə biləcək sui-istifadələrdən müdafiəsi ilə bağlı da böyük əhəmiyyət kəsb edərdi.

Müasir dövrdə insanlar arasında ünsiyyətin saxlanılmasının əsas növlərindən biri olan internetdən yetkinlik yaşına catmayan məhkumlara, müxtəlif şərtlər və istisnalarla, istifadəyə icazə verilməsinin nəzərdən keçirilməsini də təklif edirik. Fikrimizcə, belə icazə, sözügedən məhkumları eyni zamanda, kompüter biliklərini mənimsəməyə, istifadə qaydalarını öyrənməyə həvəsləndirməklə yanaşı, asudə vaxtlarının daha səmərəli təşkilinə, onları maraqlandıran məsələlərə qısa müddətdə aydınlıq gətirməyə, onlayn təhsilə cəlb edilməyə, müxtəlif tərbiyə və islah yönümlu tədbirlərin həyata keçirilməsinə əlverişli imkanlar yarada bilərdi. Bu məqsədlə cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydalarına müvafiq dəyişikliklər etmək lazımdır. Qeyd olunmalıdır ki, 5 noyabr 2022-ci tarixli qanunla AR CİM-ə edilmiş dəyişikliyə uyğun olaraq cəzaçəkmə müəssisələrində, o cümlədən Tərbiyə müəssisəsində məhkumlara videogörüşlərin təqdim olunması işində internetdən istifadə edilir.

Habelə, "Məhkumların yemək və maddi-məişət normaları"nın qəbul edilməsindən xeyli müddət keçdiyi nəzərə alınaraq, yetkinlik yaşına çatmayan məhkumlar üçün müəyyən edilmiş qidaların

çeşidliyinə, geyim əşyalarının müasirliyinə, onların miqdarına və istifadə müddətlərinə yenidən baxılmaqla, həmin normaların təkmilləşdirilməsi ilə bağlı Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 25 sentyabr 2001-ci il tarixli müvafiq qərarına dəyişikliklər etmək də məqsədəuyğun olardı.

Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin ”Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə” 10 fevral 2017-ci il tarixli Sərəncamında verilmiş tövsiyələrə, habelə ölkənin Ali Məhkəməsinin Plenumunun 30 iyun 2008-ci il tarixli müvafiq Qərarına uyğun olaraq, məhkəmələr tərəfindən yetkinilk yaşına çatmayanlara böyük ictimai təhlükə törətməyən və az ağır, habelə müəyyən istisnalarla, agır cinayətlərlə əlaqədar cəza təyini zamanı azadlıqdan məhrum etməyə alternativ olan cəzaların, habelə şərti məhkum etmə institutunun tətbiqinə daha çox üstünlük verilməsini də məqsədəuyğun hesab edirik.

Düşünürük ki, yetkinlik yaşına çatmayanlara cinayət cəzalarının təyini, onların icrası ilə bağlı Azərbaycan Respublikasının Cinayət, Cinayət-Prossesual, Cəzaların İcrası məcəllələrinin, habelə digər aidiyyəti qanunvericilik aktlarının təkmilləşdirilməsi prosesinin davam etdirilməsi, Azərbaycan dövlətinin sözügedən şəxslərlə bağlı həyata keçirdiyi humanist siyasətin səmərəli davamı kimi qiymətləndirilə bilərdi.

***İstifadə olunmuş mənbə:***

***Yournal Annali d’Italia. İtaly. 2025. № 71, pp. 21–32.***

## Azərbaycan Respublikasında əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə cinayət cəzalarının təyin edilməsinin və onların cəzalarının icrasının xüsusiyyətləri

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra ümummilli lider Heydər Əliyevin, sonradan ölkə prezidenti İlham Əliyevin rəhbərliyi ilə aparılmış köklü islahatlar nəticəsində dövlətin taleyüklü problemləri, habelə hökuməti və onun vətəndaşlarını narahat edən bir çox siyasi, sosial, humanitar və digər problemlər öz həllini tapmış, iqtisadi sahədə nəzərəçarpacaq uğurlar əldə olunmuş, düşünülmüş, çoxvektorlu və balanslandırılmış xarici siyasətlə Azərbaycan adını dünyanın sivil, hüquqi, demokratik dövlətləri sırasına yazmış, beynəlxalq aləmdə tanınan və nüfuza malik bir ölkəyə çevrilmişdir. Bu da öz növbəsində dünya dövlətlərinin, onların vətəndaşlarının Azərbaycan Respublikasına cəlbedici bir məkan kimi marağının artmasını şərtləndirmişdir. Qeyd olunanlarla bağlı Azərbaycana səfər edən xarici ölkə vətəndaşlarının sayı ilbə-il artmağa başlamışdır. Dövlət Statistika Komitəsinin (bundan sonra AR DSK) məlumatına əsasən 2000-ci ildən Azərbaycana gələn əcnəbi və vətəndaşlığı olmayan şəxslərin sayında ardıcıl olaraq artım müşahidə olunmuş və tezliklə bir milyonu ötmüşdur. Sonralar, yəni 2011-ci ildən sonra da, yalnız koronavirus (COVİD–19) pandemiyası dövrü, yəni 2020–2021-ci illər istisna olmaqla, ölkəyə səfər edən əcnəbi və vətəndaşlığı olmayan şəxslərin sayı artmaqda davam etmiş, hər il təxminən 2–3 milyon arasında olmuşdur. 2024-cü il ərzində müxtəlif məqsədlər, yəni turizm, təhsil, əmək fəaliyyəti, müalicə və digər məsələlərlə bağlı Azərbaycan Respublikasına 2,6 milyondan artıq əcnəbi və vətəndaşlığı olmayan şəxslər gəlmişdir. 2025-ci ilin ilk dörd ayı ərzində dünyanın yüzdən çox ölkəsindən 735,8 mindən artıq əcnəbi və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına səfər etdikləri qeydə alınmışdır. Əcnəbi və vətəndaşlığı olmayan şəxslərlə bağlı yuxarıda göstərilən statistik rəqəmlər, əhalisinin sayı on milyondan bir qədər artıq olan Azərbaycan dövləti üçün heç də

az deyildir. Azərbaycan Respublikasına səbəblərindən asılı olmayaraq gələn əcnəbi və vətəndaşlığı olmayan şəxslərin yüksək səviyyədə qəbulu, yerləşdirilməsi, onların ölkənin qədim tarixi, zəngin mədəniyyəti, urək açan incəsənəti, füsunkar təbiəti, gözəl adət-ənənələri, özünəməxsus mətbəxi ilə tanış olmaları məqsədilə zəruri turizm infrastrukturu yaradılmış, sözügedən şəxslərin təhlükəsizliyinin təmin edilməsi üçün aidiyyəti dövlət orqanları tərəfindən ardıcıl müvafiq tədbirlər görülür.

Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkə ərazisində olduqları müddətdə hüquq və azadlıqlarının müdafiəsi, habelə vəzifələrinin müəyyənləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının 13 mart 1996-cı il tarixli "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında" Qanunu qəbul edilmişdir. Sonradan aidiyyəti beynəlxalq aktların tövsiyələri nəzərə alınmaqla, ölkədə miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi işinin təkmilləşdirilməsi, miqrasiya proseslərinin və bu sahədə yaranan münasibətlərin daha səmərəli tənzimlənməsi, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında hüquqi vəziyyəti ilə bağlı normaları özündə daha geniş ehtiva edən müasir və mükəmməl yeni qanunvericilik aktı, yəni 2 iyul 2013-cü il tarixli Miqrasiya Məcəlləsi qəbul edilmişdir. Həmin məcəlləyə əsasən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycanda olarkən, qanunlarda və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa hal nəzərdə tutulmayıbsa, Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər bütün hüquqlardan istifadə edir və vəzifələri yerinə yetirməlidirlər. Sözügedən şəxslər Azərbaycan Respublikasının konstitusiyasının, qanunlarının və digər qanunvericilik aktlarının tələblərini pozmamalı, Azərbaycan xalqının adət və ənənələrinə hörmət etməlidirlər. İstinad edilən qanunda qeyd olunur ki, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər onların sosial və əmlak vəziyyətindən, irqi və milli mənsubiyyətindən, cinsindən, dilindən, dinə münasibətindən, fəaliyyət növündən və xarakterindən, habelə digər hallardan asılı olmayaraq, Azərbaycan Respublikasında qa-

nun və məhkəmə qarşısında bərabərdirlər. Eyni zamanda, həmin şəxslərin ölkəyə səfərləri və daimi yaşamaları ilə əlaqədar Azərbaycanda milli təhlükəsizliyin, ictimai asayışin, vətəndaşların hüquq və azadlıqlarının qorunmasının təmini də yaddan çıxmamışdır. Sözügedən şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində yol verilmiş hüquq pozuntularına, o cümlədən cinayət əməllərinə müvafiq qanunvericiliyə, yəni dövlətin aidiyyəti qanunlarına, habelə Cinayət Məcəlləsinə (bundan sonra AR CM) uyğun olaraq hüquqi qiymət verilir. AR DSK-nın məlumatlarına əsasən, hər il Azərbaycanda əcnəbi və vətəndaşlığı olmayan şəxslər, habelə onların iştirakı törədilmiş təxminən dörd yüz və ya daha çox cinayət hadisəsi qeydiyyata alınır. Belə ki, 2019–2023-cü illərdə sözügedən şəxslər, habelə onların iştirakı ilə hər il orta hesabla 461 cinayət qeydiyyata alınmışdır. 2020-ci ildə müvafiq cinayətlərin sayı 430, 2022-ci ildə isə, 505 olmuşdur. 2024-cü ilin birinci yarısında əcnəbi və vətəndaşlığı olmayan şəxslər, habelə onların iştirakı ilə törədilmiş ictimai təhlükəli əməllərin sayı 257 təşkil etmişdir ki, bu da 2023-cü ilin müvafiq dövrünün göstəricisi ilə müqayisədə 50,1 % çoxdur. Sözügedən şəxslərlə bağlı qeydə alınmış cinayətlər arasında, bir qayda olaraq qaçaqmalçılıq (AR CM-in 206-cı maddəsi), qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma (AR CM-in 234-cü maddəsi), Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə (AR CM-in 318-ci maddəsi) ilə əlaqədar ictimai təhlükəli əməllərə daha çox rast gəlinir. Cinayətlər törətmiş əcnəbi və vətəndaşlığı olmayan şəxslərin böyük əksəriyyəti Azərbaycan Respublikası ilə həmsərhəd olan dövlətlərin, yəni Rusiya Federasiyasının, İran İslam Respublikasının, Gürcüstanın və Türkiyənin vətəndaşlarıdır. Cinayət məsuliyyətinə cəlb edilənlər arasında bir sıra Avropa, Asiya, yaxın Şərq, Afrika, Amerika dövlətlərinin də vətəndaşları olmuşdur.

Qeyd olunmalıdır ki, ölkə vətəndaşları ilə müqayisədə əcnəbi və vətəndaşlığı olmayan şəxslərin cinayət məsuliyyətinə cəlb edil-

məsi, onlar barədə ibtidai istintaqın aparılması, təqsirkar hesab edlmiş şəxslərə cəzaların tətbiq edilməsi ilə bağlı milli qanunvericilikdə, az da olsa, bir sıra fərqli yanaşmalar vardır. Onlar ilk növbədə, əcnəbi və vətəndaşlığı olmayan şəxslərin tutulmaları, yaxud həbs edilmələri ilə bağlı, bu hərəkətlərə səbəb olan hallar və onların hüquqları barədə dərhal məlumatlandırılmaqla, vətəndaşları olduqları və ya daimi yaşadıqları dövlətlərin Azərbaycan Respublikasındakı diplomatik nümayəndəliklərinə və ya konsulluqlarına, yaxud onlara himayədarlığı öz üzərinə götürmüş milli, yaxud beynəlxalq təşkilatlara bu barədə dərhal məlumat vermək, müvafiq proseslər zamanı ana dilindən istifadə etmək, aidiyyəti sənədləri ana dilində və ya bildikləri başqa dildə almaq, tərcüməci xidməti ilə təmin edilmə hüquqları ilə əlaqədardır. Beynəlxalq müqavilələrlə müəyyən edilmiş imtiyaz və immunitetə malik olan əcnəbi və vətəndaşlığı olmayan şəxslər barəsində ölkə ərazisində cinayət icraatının xüsusiyyətləri, beynəlxalq normalara cavab verən Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra AR CPM) 436–441-ci maddələrinin tələblərinə uyğun həyata keçirilir.

22 may 2012-ci il tarixli "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən həbs yerlərində saxlanılan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər ölkə konstitusiyası və qanunları ilə müəyyən edilmiş məhdudiyyətlər nəzərə alınmaqla, Azərbaycan Respublikasının vətəndaşları üçün təsbit olunmuş hüquq və azadlıqlardan istifadə edir, vəzifələr daşıyırlar. İstinad edilən qanuna, əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin həbs yerlərində saxlanması ilə əlaqədar artıq yuxarıda qeyd olunan, yəni öz dövlətlərinin Azərbaycan Respublikasındakı diplomatik nümayəndəlikləri və ya konsulluqları ilə və ya onlara himayədarlığı öz üzərinə götürmüş milli, yaxud beynəlxalq təşkilatlarla təxirə salınmadan əlaqəyə girmək, həbsdə saxlama zamanı öz hüquq və vəzifələri, daxili intizam qaydaları, o cümlədən rejimin tələbləri, təkliflərin, ərizələrin və şikayətlərin verilməsi qaydaları ilə yazılı

şəkildə, onlara aydın olan dildə tanış olmaq, bu barədə yazılı məlumatı özündə saxlamaq hüquqları istisna olmaqla, digər xüsusi normalar daxil edilməmişdir.

Əcnəbi və vətəndaşlığı olmayan şəxslərə təyin edilə bilən cəzalara gəldikdə qeyd etmək lazımdır ki, onlara 2000-ci ilin 1 sentyabrından qüvvəyə minmiş AR CM-in 42-ci maddəsində hazırda nəzərdə tutulmuş on iki cəzadan yalnız azadlığın məhdudlaşdırılmasının tətbiqinə qadağan qoyulmuşdur. Eyni zamanda, AR CM-də birbaşa göstərilməsə də, hərbi xidmət üzrə məhdudlaşdırma, intizam xarakterli hərbi hissədə saxlama növündə cəzaların da əcnəbi və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ordusunda və digər silahlı birləşmələrində hərbi qulluq keçmələri ilə bağlı mövcud məhdudiyyətlər nəzərə alınmaqla, onlara tətbiq edilməsi imkan xaricindədir. Habelə, təcrübədə xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum etmə növündə əlavə cəzanın, yalnız fəxri addan və dövlət təltifindən məhrum etmə hissəsində tətbiq edilməsi mümkün ola bilər. Digər cəza növləri əcnəbi və vətəndaşlığı olmayan şəxslərə fərq qoyulmadan, törədilmiş əmələ görə AR CM-in xüsusi hissəsinin müvafiq maddəsinin sanksiyasına uyğun həddə və miqdarda tətbiq edilir.

Ölkənın cinayət qanununda, yəni AR CM-in 52-ci maddəsində yalnız əcnəbi və vətəndaşlığı olmayan şəxslərə tətbiqi nəzərdə tutulan bir əlavə cəza növü – Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma (bundan sonra ölkədən məcburi çıxarma) nəzərdə tutulmuşdur. Qanunvericiliyə uyğun olaraq, həmin cəza, əsas cəza çəkildikdən sonra icra edilir. Ölkədən məcburi çıxarma cəzası tətbiq edildiyi iyirmi beş il ərzində əhəmiyyətli dəyişikliklərə məruz qalmışdır. Belə ki, 2 iyul 2001-ci il tarixli qanunla AR CM-in 52-ci maddəsinə edilmiş dəyişikliklə, müvafiq normanın ilkin redaksiyasından fərqli olaraq, həmin cəzanın törədilmiş cinayətin kateqoriyasından asılı olmayaraq, bütün əcnəbilərə, habelə vətəndaşlığı olmayan şəxslərə də tətbiqi imkanları nəzərdə tutulmuşdur. Azərbaycan Respublikasının Miqrasiya Mə-

cəlləsinin qəbulu ilə əlaqədar 03 dekabr 2013-cü il tarixli qanunla AR CM-in 52-ci maddəsinə yenidən xeyli dəyişikliklər edilmişdir. Belə ki, ilkin olaraq ölkədən məcburi çıxarma cəzasının bir ildən artıq azadlıqdan məhrum edilmiş bütün əcnəbi, habelə vətəndaşlığı olmayan şəxslərə də tətbiqinın məcburiliyi təsbit edilmişdir. Eyni zamanda, ölkədən məcburi çıxarma cəzası məhkəmə tərəfindən bir ildən artıq olmayan müddətə azadlıqdan məhrum etmə cəzasına və ya azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzaya məhkum edilən əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslərə də AR CM-in 58.3-cü maddəsində göstərilmiş hallar, yəni törədilmiş cinayətin xarakteri və ictimai təhlükəlilik dərəcəsi, təqsirkarın şəxsiyyəti, o cümlədən cəzanı yüngülləşdirən və ağırlaşdıran hallar, habelə təyin olunmuş cəzanın şəxsin islah olunmasına və onun ailəsinin həyat şəraitinə təsiri nəzərə alınmaqla təyin edilə bilər. Əlavə olaraq ölkədən məcburi çıxarma cəzasının tətbiq edilmədiyi şəxslərin dairəsi də genişləndirilmişdir. AR CM-in 52-ci maddəsi ilə əvvəllər müəyyən edilmiş məhkumların siyahısına məcburi çıxarılması milli təhlükəsizliyin təmin edilməsi mənafeyinə zidd olan şəxslər də əlavə olunmuşdur. Öz növbəsində orqanizmin funksiyalarının 61–80 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş, habelə himayəsində Azərbaycan Respublikasının vətəndaşı olmayan yetkinlik yaşına çatmayan uşağı olan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər ölkədən məcburi çıxarma cəzasının tətbiq edilməməsi ilə əlaqədar malik olduqları hüququ itirmişlər. Habelə, AR CM-in sözügedən maddəsinə, barəsində ölkədən məcburi çıxarma cəzası tətbiq edilmiş şəxsin Azərbaycan Respublikasına yenidən gəlmək hüququnun, onun məhkumluğu ödənilənədək və ya götürülənədək məhdudlaşdırılmasını nəzərdə tutan yeni norma əlavə edilmişdir. Beləliklə, ölkədən məcburi çıxarma cəzası demək olar ki, Azərbaycan Respublikasının məhkəmələri tərəfindən hazırda əksəriyyət əcnəbilər və ya vətəndaşlığı olmayan məhkumlara tətbiq edilir.

Ölkənin cinayət qanununda nəzərdə tutulmuş cinayət məsuliyyətindən azad etmə institutları, yəni səmimi peşmanlıqla, zərər-

çəkmiş şəxslə barışmaqla, vurulmuş ziyanı ödəməklə, şəraitin dəyişməsi, müddətin keçməsi ilə bağlı normalar (AR CM-in 72, 73, 73–1, 73–2, 74, 75-ci maddələri) əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslərə də istisnalar olmadan tətbiq edilir. Habelə, sözügedən şəxslərə cəzaçəkmə müəssisəsinin növünün müəyyən edilməsində, o cümlədən cəzanın təyini ilə bağlı müddəalarda da (AR CM-in 56 və 58-ci maddələri) istisnalar yoxdur.

Ölkə məhkəmələri tərəfindən hər il məhkum edilmiş əcnəbi və vətəndaşlığı olmayanların sayı, həmin şəxslər tərəfindən, habelə onların iştirakı ilə Azərbaycan Respublikasının ərazisində törədilmiş cinayətlərin sayından asılı olaraq dəyişir. Misal üçün, ölkənin AR DSK-nın məlumatlarına uyğun olaraq son altı, yəni 2019–2024-cü illərdə Azərbaycan məhkəmələri tərəfindən məhkum edilən əcnəbi və vətəndaşlığı olmayan şəxslərin sayı aşağıdakı kimi olmuşdur: 2019-cu ildə–224, 2020-ci ildə–97, 2021-ci ildə–121, 2022-ci ildə–77, 2023-cü ildə–149, 2024-cü ilin birinci yarısında–87. Sözügedən şəxslərə məhkəmələr tərəfindən tətbiq edilmiş cəzalar arasında bir qayda olaraq, müəyyən müddətə azadlıqdan məhrum etmə kifayət qədər üstünlük təşkil edir. Eyni zamanda, əcnəbi və vətəndaşlığı olmayan şəxslərə cərimə, ictimai işlər, islah isləri cəzalarının da təyin olunması halları da müşahidə edilir. Qeyd olunmalıdır ki, hazırda Azərbaycan Respublikasında ən sərt cəza, yəni ömürlük azadlıqdan məhrum etmə tətbiq edilmiş məhkumlar arasında əcnəbi vətəndaşlar da vardır.

Azərbaycan vətəndaşı olan məhkumlarla müqayisədə əcnəbi və vətəndaşlığı olmayan şəxslərə təyin edilmiş cəmiyyətdən təcrid edilmə ilə bağlı olmayan cərimə, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, ictimai işlər, islah işləri, o cümlədən əlavə cəzaların icrası, habelə şərti məhkum etmə, cəzanın çəkilməsinin təxirə salınması, cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə ilə əlaqədar probasiya nəzarətinin həyata keçirilməsini tənzimləyən cəzaların icrası qanunvericiliyində demək olar ki, fərqlər yoxdur. Yalnız nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə cəzasının icrası qay-

dasında xüsusi bir müddəa nəzərdə tutulmuşdur. Belə ki, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin (bundan sonra AR CİM) 154.4-cü maddəsinə əsasən, əsas cəzanı icra edən cəzaçəkmə müəssisəsinin müdiriyyəti və ya icra məmuru (probasiya uzrə) Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq, nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etməyə məhkum olunmuş əcnəbi və ya vətəndaşlığı olmayan şəxs barəsində məhkəmənin qanuni qüvvəyə minmiş hökmünün surətini və nəqliyyat vasitəsini idarəetmə hüququ verən sənədi məhkumun vətəndaşı olduğu və ya daimi yaşadığı dövlətin Azərbaycan Respublikasındakı diplomatik və konsulluq nümayəndəliklərinə və ya həmin dövlətə göndərməklə dərhal məlumat verməlidir.

Azərbaycan Respublikasında cəmiyyətdən təcrid edilmə ilə bağlı olmayan cəzalar təyin edilmiş, barələrində şərti məhkum etmə, cəzanın çəkilməsinin təxirə salınması tətbiq olunmuş, habelə cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş və probasiya qeydiyyatında olan əcnəbi və vətəndaşlığı olmayan məhkumların sayına aydınlıq gətirilməsi məqsədilə Avropa Şurası tərəfindən 1992-ci ildən başlayaraq hər il dərc olunan azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzalarla bağlı cinayət statistikası üzrə SPACE II hesabatları öyrənilmişdir. Müəyyən edilmişdir ki, ölkədə 2017-ci ilin sonundan fəaliyyətə başlamış Ədliyyə Nazirliyinin Probasiya Xidmətinin qeydiyyatında 2019–2023-ci illərin əvvəlində, müvafiq olaraq 2019-cu ildə 37, 2020-ci ildə 89, 2021-ci ildə 64, 2022-ci ildə 49, 2023-cü ildə isə cəmi 29 sözügedən məhkum olmuşdur. 2020-ci illə müqayisədə 2021–2023-cü illərdə probasiya qeydiyyatındakı həmin məhkumların sayı müvafiq olaraq, 28 %, 45 % və 3,1 dəfə azalmışdır ki, bu da onlara ilk növbədə, məhkəmələr tərəfindən azadlıqdan məhrum etmə növündə cəzanın daha çox təyin olunması, habelə əfvetmə və amnistiya aktlarının tətbiqi ilə əlaqədardır.

Müəyyən müddətə və ömürlük azadlıqdan məhrum etmə cəzalarına məhkum edilmiş əcnəbi və vətəndaşlığı olmayan şəxslərin

cəzalarının icrası ilə bağlı qeyd edilməlidir ki, həmin məhkumlar Azərbaycan Respublikasının Cinayət, Cinayət-Prosessual və Cəzaların İcrası məcəllələri və digər qanunvericilik aktları ilə müəyyən edilmiş məhdudlaşdırmalar istisna edilməklə, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyətinə dair qanunvericiliklə və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilmiş hüquqlardan istifadə edir və vəzifələr daşıyırlar. Sözügedən məhkumlar çəzaçəkmə müəssisələrinə qəbul edildikdən sonra qısa müddətdə şəxsi məsələlər üzrə öz dövlətlərinin Azərbaycan Respublikasındakı diplomatik və konsulluq nümayəndəlikləri ilə və ya onlara himayədarlığı öz üzərinə götürmüş milli, yaxud beynəlxalq təşkilatlarla əlaqəyə girmək hüquqlarından istifadə edə bilərlər. Eyni zamanda, cəzaçəkmə müəssisənin müdiriyyəti tərəfindən də əcnəbi və ya vətəndaşlığı olmayan məhkumların razılığı ilə, onların vətəndaşları olduqları dövlətlərin Azərbaycan Respublikasındakı diplomatik və ya konsulluq nümayəndəliklərinə, habelə müvafiq beynəlxalq təşkilatlara dərhal məlumat verilir. Müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən əcnəbi və ya vətəndaşlığı olmayan şəxslərlə bağlı qanunvericilikdə müəyyən istisnalar da nəzərdə tutulmuşdır. Belə ki, azadlıqdan məhrum edilmiş əcnəbi və vətəndaşlığı olmayan şəxslər, ölkə vətəndaşlarından fərqli olaraq cəzalarını yaşadıqları yerlər nəzərə alınmadan Azərbaycanın müvafiq cəzaçəkmə müəssisələrində çəkməlidirlər. Əvvəllər, yəni Azərbaycan SSR-nin 1970-ci il tarixli İslah-Əmək Məcəlləsinin 6-cı maddəsinə uyğun olaraq, əcnəbi və vətəndaşlığı olmayan şəxslər cəzalarını onlar üçün nəzərdə tutulmuş xüsusi islah-əmək müəssisələrində çəkirdilər. Azərbaycan SSR-də sözügedən şəxslər üçün müvafiq islah-əmək müəssisəsi olmadığından, onlar cəzalarını çəkmək üçün sabiq SSRİ-nin Rusiya Federasiyasının Mordoviya Respublikasında fəaliyyət göstərən müəssisəyə göndərilirdilər. Azərbaycan Respublikası müstəqiliyinə yenidən qovuşduqdan sonra İslah-Əmək Məcəlləsinə 7 fevral 1997-ci il tarixli Qanunla edilmiş əhəmiyyət-

li dəyişikliklərdən biri də həmin məcəllənin 6-cı maddəsindən azadlıqdan məhrum edilmiş məhkumların, o cümlədən əcnəbi və vətəndaşlığı olmayan şəxslərin cəzalarını çəkmək üçün digər ölkələrə göndərilməsini nəzərdə tutan müddəanın çıxarılması ilə bağlı olmuşdur. Sözügedən maddənin yeni redaksiyasına, habelə AR CİM-in 65-ci maddəsinə əsasən Azərbaycan Respublikasının ərazisində törədilmiş cinayətlərə görə azadlıqdan məhrum edilmiş bütün şəxslər, o cümlədən əcnəbi və vətəndaşlığı olmayan şəxslər də cəzalarını Azərbaycan Respublikasının hüdudlarında çəkirlər. Eyni zamanda, qeyd olunan sonuncu maddəyə uyğun olaraq, əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər, cinayətlərin xüsusi təhlükəli residivinə görə, ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya və ya cəzalarının bir hissəsini həbsxanada çəkməyə məhkum olunan Azərbaycan Respublikasının vətəndaşları kimi cəzalarını çəkmək üçün, həbs edilənədək yaşadıqları yerdən asılı olmayaraq, ölkə ərazisindəki müvafiq cəzaçəkmə müəssisələrinə göndərilirlər. Digər bir fərq, əcnəbi və vətəndaşlığı olmayan məhkumların azadlıqdan məhrum etmə yerlərinə qəbulundan sonra hüquq və vəzifələri, o cümlədən təyin edilmiş cəzanın icrası qaydası və şərtləri barədə məlumat almaq, habelə cəzaçəkmə müəssisələrinin Daxili intizam qaydaları ilə tanış olmaq üçün onlara müvafiq şəraitin yaradılması, bu məqsədlər üçün tərcüməçi xidmətindən istifadə etmək hüquqları ilə bağlıdır.

Ölkədən məcburi çıxarma növündə cəzanın icrası qaydasının AR CİM-də təsbit olunan ilkin mətni ölkənin Miqrasiya Məcəlləsinin qəbulundan sonra əsaslı dəyişikliklərə məruz qalmaqla, yeni redaksiyada verilmiş və ətraflı tənzimlənmişdir. Belə ki, AR CİM-in 166-cı maddəsinin hazırkı redaksiyasına uyğun olaraq ölkədən məcburi çıxarmaya məhkum edilmiş şəxs barəsində əsas cəzanı icra edən cəzaçəkmə müəssisəsi və ya icra məmuru (probasiya üzrə) əsas cəza müddətinin sonuna iki ay qalmış, əsas cəza növü kimi cərimə cəzası təyin edildikdə isə, cəzanın icraya yönəldilməsinə dair göstəriş daxil olduqdan dərhal sonra, ölkənin Miqrasiya Xidmətinə hökmün surətini, məhkum, onun mənsub olduğu

dövlət, cəzanın icrası (cəzanın çəkilmə yeri, məhkumun yerdəyişmələri, vaxtından əvvəl azad edilməsi və digər zəruri hesab olunan məsələlər ilə əlaqədar), cinayət nəticəsində vurulmuş ziyanın ödənilməsi vəziyyəti barədə məlumatları təqdim edir. Əcnəbi və ya vətəndaşlığı olmayan şəxs əsas cəzasını çəkib qurtardığı və ya digər əsaslara görə cəzadan azad olunduğu gün, əsas cəzanı icra edən cəzaçəkmə müəssisəsinin nümayəndəsinin və ya icra məmurunun (probasiya üzrə) müşayiəti ilə Miqrasiya Xidmətinə təhvil verilir. Şəxsiyyətini təsdiq edən sənədi olmayan əcnəbi və ya vətəndaşlığı olmayan şəxs Miqrasiya Xidmətinə əsas cəzanı icra edən müəssisə və ya icra məmuru (probasiya üzrə) tərəfindən təqdim olunan azadetmə haqqında fotoşəkilli sənəd əsasında təhvil verilir. Ölkədən məcburi çıxarma növündə cəzaya məhkum edilmiş şəxsin şəxsiyyətinin dəqiqləşdirilməsinə ehtiyac yarandıqda, əsas cəzanı icra edən müəssisə və ya icra məmuru (probasiya üzrə) tərəfindən verilən məlumat əsasında Miqrasiya Xidməti zəruri tədbirləri görür.

Qanunvericiliyə uyğun olaraq ölkədən məcburi çıxarma növündə cəzaya məhkum olunmuş şəxslər 48 saat ərzində Azərbaycan Respublikasının ərazisindən çıxarılmalıdırlar. Əgər məcburi çıxarılmanın tətbiqi ilə bağlı sənədləşmə yubandıqda və ya çıxarılma haqqında qərarın vaxtında icrasına mane olan digər üzrlü səbəblər olduqda, şəxsin saxlandığı yer üzrə birinci instansiya məhkəməsi Miqrasiya Xidmətinin əsaslandırılmış təqdimatı əsasında çıxarılma müddətinin uzadılması məsələsinə baxır. Ölkədən məcburi çıxarma cəzasının icrasından yayınmaqla, hökmün icrasından boyun qaçırıldıqda və ya belə boyun qaçırmanı ehtimal etməyə kifayət qədər əsaslar olduqda, əcnəbi və ya vətəndaşlığı olmayan şəxs AR CPM-də təsbit edilmiş qaydada tutulur və hökmün icrası təmin edilir. Qanunvericiliklə müəyyən olunmuş müddətdə məhkumun ölkədən məcburi çıxarılması mümkün olmadıqda, əcnəbi və ya vətəndaşlığı olmayan şəxslər məhkəmənin qərarı ilə Miqrasiya Məcəlləsi ilə müəyyən olunmuş qaydada və vaxtda Miqrasiya Xidmətinin müvəqqəti yerləşdirmə mərkəzlərində sax-

lanılırlar. Ölkədən məcburi çıxarılan şəxs barədə Miqrasiya Xidməti tərəfindən Dövlət Sərhəd Xidmətinə əvvəlcədən yazılı məlumat göndərilir. Bilavasitə ölkədən məcburi çıxarılma zamanı məhkum Azərbaycan Respublikasının sərhəd nəzarət məntəqələrinədək Miqrasiya Xidmətinin əməkdaşları tərəfindən müşayiət olunur və dövlət sərhədinin buraxılış məntəqələrində Dövlət Sərhəd Xidmətinin əməkdaşlarına təhvil verilir. Ölkədən məcburi çıxarmanın xərclərini məhkumun özü və ya onun mənsub olduğu dövlətin diplomatik və konsulluq nümayəndəlikləri ödəyirlər. Həmin ödəmə mümkün olmadığı hallarda, Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarma xərcləri Azərbaycan Respublikasının Miqrasiya Xidməti tərəfindən həyata keçirilir. Ölkədən məcburi çıxarma cəzasının tətbiqindən irəli gələn digər məsələlər AR CİM-də nəzərdə tutulan müddəalara zidd olmamaq şərti ilə, Miqrasiya Məcəlləsinə uyğun olaraq həll edilir.

Azərbaycanın azadlıqdan məhrum etmə yerlərində əcnəbi və vətəndaşlığı olmayan şəxslərin sayı ilə bağlı Avropa Şurasının son iyirmi ildəki cinayət statistikası üzrə SPACE I hesabatlarının təhlili göstərdi ki, 2005-ci ildə müvafiq say 384 nəfər təşkil etmişdir. 2006–2010-cu illərdə həmin sayda xeyli artım baş vermiş, 2010-cu ildə 943 nəfərə çatmışdır. Lakin, sonrakı illərdə ardıcıl olaraq azalma müşahidə edilmiş, 2016-cı ildə sözügedən məhkumların sayı 526 nəfər, 2018–2023-cü illərdə isə, ümumən 424–474 arasında olmuşdur. Bütün arasdırılan illər ərzində əcnəbi və vətəndaşlığı olmayan məhkumların təxminən 2–3 %-ni qadınlar təşkil etmiş, lakin onların arasında yetkinlik yaşına çatmayan şəxslər olmamışdır. Qeyd olunmalıdır ki, azadlıqdan məhrum etmə yerləri ilə bağlı araşdırmalar aparan beynəlxalq təşkilatların, qeyri-hökumət təşkilatlarının, habelə bir sıra ölkələrin həbsxana xidmətlərinin məlumatlarının təhlili göstərdi ki, son illərdə dünyanın həbs yerlərində əcnəbi və ya vətəndaşlığı olmayan şəxslərin sayının ardıcıl olaraq artması tendensiyası müşahidə edilir. Belə ki, Birləşmiş Millətlər Təşkilatı hələ 2013-cü ildə azadlıqdan məhrum edilmiş sözügedən məhkumların sayının artmasını, onla-

rın həbsxanalarda saxlanılan şəxslərin ümumi sayının yüksək olmasına təsir etdiyini qeyd etmişdir. Penal Reform İnternational (PRİ) təşkilatının məlumatına əsasən 2020-ci ildə beş yüz minə yaxın sözügedən şəxs öz ölkələrindən kənarda həbs yerlərində olmuşdur. Qeyd olunan ilin yanvar ayında Avropada azadlıqdan məhrum etmə yerlərində saxlanılan şəxslərin 15 %-ni əcnəbi vətəndaşlar təşkil etmiş, əksəriyyət dövlətlərdə isə, onların umumi saydakı payı iki faizdən yetmiş faizə kimi dəyişmişdir. İstinad olunan dövrlərdən ötən müddət ərzində dünyada əcnəbi və ya vətəndaşlığı olmayan şəxslərin azadlıqdan məhrum etmə yerlərindəki say artımı davam etmişdir. Belə ki, SPACE I hesabatına əsasən 2023-cü ilin əvvəlinə Avropa Şurasına üzv olan dövlətlərin azadlıqdan məhrum etmə yerlərində saxlanılan şəxslərinin orta hesabla 25 %-ni əcnəbilər və ya vətəndaşlığı olmayanlar təşkil etmişdir. Həmin ildə Yunanıstan, Kipr, Belçika, Sloveniya, İspaniyanın azadlıqdan məhrum etmə yerlərində saxlanılanların, müvafiq olaraq 58,2 %-i, 57,5 %-i, 42 %-i, 35 %-i və 30,9 %-i sözügedən şəxslər olmuşdur. Habelə, Prison Watch təşkilatının məlumatına əsasən, 2025-ci ilin əvvəlində dünyanın həbs yerlərində 537 mindən artıq əcnəbi və ya vətəndaşlığı olmayanlar saxlanılmış, həmin şəxslər Avstriyanın, Kiprin, Yunanstanın, İsveçrənin, Birləşmiş Ərəb Əmirliklərinin azadlıqdan məhrum etmə yerlərində ümumi sayın yarıdan çoxunu, yəni müvafiq olaraq 53–88 %-ni təşkil etmişlər. Artım tendensiyasının qarşısının alınması, habelə azadlıqdan məhrum etmə yerlərində onların sayının azaldılması və sərf olunan maliyyə vəsaitinə qənaət edilməsi məqsədilə hazırda dünyada, habelə Avropada əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslərə alternativ cəzaların geniş tətbiqinə, qısa müddətli hökmlərin qəbuluna, onların cəzalarını çəkmək məqsədilə vətəndaşı olduqları dövlətlərə verilməsinə, habelə əsas cəza kimi ölkə hüdudlarından kənara məcburi çıxarmanın tətbiqinə daha çox üstünlük verilir.

Azərbaycan Respublikasının cinayət qanununda nəzərdə tutulmuş cəzadan azad etmə institutları, yəni cəzadan şərti olaraq vax-

tından əvvəl azad etmə, cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz etmə, xəstəliyə görə cəzanı çəkməkdən azad etmə, hamilə qadınlar və azyaşlı uşaqları olan şəxslər tərəfindən cəzanın çəkilməsinin təxirə salınması, ittiham hökmünün icrası müddəti ilə əlaqədar cəza çəkməkdən azad etmə, zərərçəkmiş şəxslə barışmaqla, cinayət nəticəsində vurulmuş ziyanı və ya əldə edilmiş gəliri tamamilə ödəməklə bağlı cəza çəkməkdən azad etmə ilə bağlı normalar (AR CM-in 76–80, 80–1-ci maddələri) əcnəbilər və ya vətəndaşlığı olmayan məhkumlara da istisnalar olmadan tətbiq edilir.

Azərbaycan Respublikasında humanizm prinsiplərinə əsaslanmaqla mütamadi qəbul edilən amnistiya və əfvetmə institutları bir qayda olaraq əcnəbilərə və vətəndaşlığı olmayan məhkumlara da tətbiq olunur. Belə ki, “28 may–Respublika günü münasibətilə amnistiya elan edilməsi haqqında” Azərbaycan Respublikasının Milli Məclisinin 20 may 2016-cı il tarixli qərarı yeddi dövlətin 55 əcnəbi vətəndaşına və vətəndaşlığı olmayan bir məhkuma şamil edilmişdir. Habelə, son, yəni ölkə Prezidentinin təşəbbüsü əsasında Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilmiş “8 noyabr–Zəfər günü münasibətilə amnistiya elan edilməsi haqqında” 5 noyabr 2021-ci il tarixli qərar müxtəlif cəzalara məhkum edilmiş 83 əcnəbi vətəndaşa da şamil olunmuş, onların böyük hissəsi təyin edilmiş cəzanın çəkilməmiş hissəsindən azad edilmişdir. Habelə, Azərbaycan Respublikasının Prezidentinin 2023–2025-ci illərdə imzaladığı üç əfvetmə sərəncamının təhlili göstərdi ki, həmin humanist aktlar ölkə vətəndaşları ilə yanaşı əcnəbi və vətəndaşlığı olmayan 38 məhkuma da tətbiq olunmuş, onların böyük əksəriyyəti azadlıqdan məhrum etmə cəzasını çəkməkdən azad edilmişlər. Sözügedən illərdə əfv olunmuş məhkumların 21 nəfəri Azərbaycan Respublikası ilə həmsərhəd olan Rusiya Federasiyasının, Türkiyənin, Gürcüstanın (hər birindən 7 nəfər), 6 nəfəri isə, Əfqanıstan vətəndaşları olmuşdur.

Beynəlxalq konvensiyalara və ikitərəfli müqavilələrə uyğun olaraq azadlıqdan məhrum edilmiş əcnəbi və vətəndaşlığı olma-

yan məhkumların cəzalarının qalan hissəsinin çəkilməsi üçün vətəndaşları olduqları ölkələrə verilməsi ilə bağlı da Azərbaycan Respublikasında ardıcıl tədbirlər həyata keçirilir. Azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxslərin cəzanın qalan hissəsinin çəkilməsi üçün öz dövlətlərinə verilməsi Azərbaycan Respublikasının qoşulduğu "Məhkum olunmuş şəxslərin verilməsi haqqında" 1983-cü il 21 mart tarixli Avropa Konvensiyasına, "Azadlıqdan məhrum etməyə məhkum olunmuşların cəzanın qalan hissəsini çəkmək üçün təhvil verilməsi haqqında" 6 mart 1998-ci il tarixdə Moskva şəhərində imzalanmış konvensiyaya, "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" 7 oktyabr 2002-ci il tarixdə Kişinyov şəhərində imzalanmış konvensiyaya və bir sıra dövlətlərlə bağlanmış ikitərəfli müqavilələrə əsasən həyata keçirilir. Belə ki, təkcə 2018–2022-ci illər ərzində ölkənin Ədliyyə Nazirliyi tərəfindən qadınlar da daxil olmaqla, azadlıqdan məhrum etmə cəzasını çəkən 136 əcnəbi məhkum vətəndaşı olduqları ölkələrə təhvil verilmişdir. Həmin məhkumların böyük hissəsini İran İslam Respublikasının vətəndaşları təşkil etmişlər. Eyni zamanda, məhkumun cəmiyyətdən təcrid edilməsi ilə əlaqədar olmayan cəzalara məhkum edilmiş, şərti məhkum olunmuş, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş, cəzasının çəkilməsi təxirə salınmış əcnəbi və vətəndaşlığı olmayan məhkumların cəzalarının icrası və nəzarətin həyata keçirilməsi məqsədilə öz dövlətlərinə verilməsi, müvafiq hüquqi baza formalaşdırılmadığından hələ həyata keçirilmir.

Ümumbəllidir ki, əcnəbi və vətəndaşlığı olmayan şəxslər digər ölkələrdə azadlıqdan məhrum etmə növündə cəzanın çəkilməsi prosesində bir sıra, ilk növbədə cəzaçəkmə müəsissəsində normal ünsiyyətlə, habelə yaxın qohumlarla təmas hüququnun həyata keçirilməsi ilə bağlı çətinliklərlə üzləşirlər. Bununla əlaqədar Azərbaycan Respublikasında əcnəbi və vətəndaşlığı olmayan şəxslərin cəza çəkdikləri penitensiar müəssisələrin müdiriyyəti sözügedən məhkumları daim diqqətdə saxlamaqla, onların ehtiyaclarının öyrənilməsi, ailələri, vətəndaşı olduqları ölkənin diplomatik nüma-

yəndəlikləri ilə əlaqələrinin saxlanması və digər məsələlərin həlli ilə bağlı qanunvericilik çərçivəsində zəruri tədbirlər görürlər. Cəzaçəkmə müəssisələrində cəza çəkən əcnəbi və vətəndaşlığı olmayan şəxslərə, onlarla birlikdə saxlanılan azərbaycanlı məhkumlar tərəfindən də milli qonaqpərvərlik ənənəsinə istinadən müsbət, qayğılı münasibət göstərilir, ötən müddət ərzində azadlıqdan məhrum etmə yerlərində müvafiq məhkumlarla əlaqədar siyasi, irqi, milli, etnik, mədəni, dini və digər zəmində hər hansı münaqişə, konflikt və digər ciddi pozuntu qeydə alınmamışdır. Əcnəbi və vətəndaşlığı olmayan məhkumlar tərəfindən də Azərbaycan Respublikasının cəzaların çəkilməsi yerlərində milli qanunvericiliyə, o cümlədən cəzaların icrası qaydalarına ümumən riayət edilmiş, qanunun kobud pozulması ilə müşayiət olunan hallara, yəni azadlıqdan məhrum etmə və ya həbs yerindən, yaxud mühafizə altından qaçma, cəzaçəkmə müəssisələrinin və ya istintaq təcridxanalarının normal fəaliyyətini pozma, kütləvi iğtişaş, insanların girov götürülməsi, xuliqanlıq əməlləri ilə bağlı ciddi hadisələrə yol verilməmişdir. Sözügedən məhkumlar cəzaçəkmə müəssisələrində keçirilən islah yönümlü, tərbiyə xarakterli, habelə dövlət və milli bayramlara həsr olunmuş tədbirlərdə həvəslə iştirak etmiş, onların bir hissəsi cəza müddəti ərzində müstəqil olaraq azərbaycan dilini öyrənmiş və sərbəst danışmağa başlamışlar.

Cəzanın icrasına nəzarət, habelə məhkumların islahında iştirak etmək məqsədilə cəzaçəkmə müəsisələrinə baş çəkən Ədliyyə Nazirliyinin Cəzaların icrasına nəzarət baş idarəsi, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman), onun milli preventiv mexanizm funksiyalarını həyata keçirən Milli preventiv qrupun, ədliyyə nazirinin yanında fəaliyyət göstərən İctimai Komitənin nümayəndələrinin, habelə Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı nümayəndəliyi tərəfindən başçəkmələr zamanı digər məsələlərlə yanaşı, əcnəbi və vətəndaşlığı olmayan məhkumlar qəbul edilir, onların saxlanılması, hüquq və azadlıqlarının təmin olunması, ehtiyaclarının öyrənilməsi ilə bağlı məsələlərə diqqət verilir, ailələri ilə əlaqələrinin saxlanması ilə

əlaqədar, xüsusilə şəhərlərarası telefon danışıqlarının haqqının ödənilməsi, müvafiq dildə ədəbiyyatla təmin edilməsi ilə bağlı humanitar yardımlar göstərilir.

Azərbaycan Respublikasının cəza-icra sistemində 1993–2023-cü illər ərzində uğurla həyata keçirilmiş kompleks tədbirlər nəticəsində nəzərəçarpacaq müsbət dəyişikliklər baş vermiş, əcnəbi və vətəndaşlığı olmayan şəxslər də daxil olmaqla, həbs edilmiş şəxslərin və məhkumların insan hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı beynəlxalq aktların tələblərinə cavab verən yeni hüquqi statusları müəyyən edilmiş, humanistləşdirmə yolu ilə onların çərçivəsi ardıcıl olaraq genişləndirilmişdir. Penitensiar müəssisələrdə cəzanın insan şəxsiyyətinə hörməti təmin edən bir mühitdə çəkilməsi üçün şərait yaradılmış, yeni istintaq təcridxanaları, özündə müxtəlif rejimli və növlü cəzaçəkmə müəssisələrini cəmləşdirən beş müasir penitensiar kompleks istifadəyə verilmişdir. Sözügedən şəxslərin yemək və əşya təminatının yeni, yaxşılaşdırılmış normaları müəyyən olunmuş, yeməyə və xüsusi geyimə görə məhkumların əmək haqqından və digər gəlirlərindən tutulmalar ləğv edilmiş, vicdan və dini etiqad hüququnun təmin olunması məqsədilə tədbirlər görülmüş, tibbi xidmət əsaslı şəkildə yaxsılaşdırılmışdır.

Beləliklə, yuxarıda göstərilənlərə istinadən qeyd etmək istərdik ki, Azərbaycan Respublikasında ölkə vətəndaşları ilə yanaşı, əcnəbi və vətəndaşlığı olmayan şəxslərə də cinayət cəzalarının təyin edilməsi, cəzaların icrası qaydaları, cəzanın çəkilməsi şəraiti ardıcıllıqla xeyli humanistləşdirilmişdir. Lakin, beynəlxalq təşkilatların arasdırmalarına, penitensiar sahədə uzun müddətli fəaliyyətimiz dövründə müşahidələrimizə əsaslanaraq qeyd etmək istərdik ki, əcnəbi və vətəndaşlığı olmayan şəxslərlə bağlı, digər dünya ölkələrində olduğu kimi, Azərbaycan Respublikasında da cəzaların icrası və çəkilməsi prosesində müəyyən çətinliklər və həllini gözləyən problemlər mövcuddur. Göstərilənlər azadlıqdan məhrum edilmiş sözügedən məhkumlara islah etmə vasitələrinin tətbiqi, onların milli, mədəni ənənələrinin, vicdan və dini etiqad azad-

lıqlarının həyata keçirilməsi ilə əlaqədar ehtiyaclarının ödənilməsi, təhsil, məlumat, hüquqi yardım almaq hüquqları, ən əsası isə, ana dilləri ilə bağlıdır. Belə ki, AR CİM-i göstərilən məsələlərin hüquqi tənzimlənməsi zamanı məhkumların qanun qarşısında bərabərliyi prinsipinə riayət etməklə, əcnəbi və vətəndaşlığı olmayan şəxslərlə bağlı bir sıra xüsusiyyətləri tam nəzərə almamış və mümkün fərqli yanaşmaları təsbit etməmişdir. Misal üçün, sözügedən məhkumların ümumi ya peşə təhsili almaq kimi hüquq, bir sıra hallarda isə, müxtəlif vəzifələrin necə həyata keçirilməsi, tərbiyə işinin aparılması prosesində televiziya, kinofilmlərə baxışlardan onlara münasibətdə necə istifadə edilməsi və bir sıra digər əhəmiyyətli məsələlər qanunda öz tənzimini, yəni konkret icra mexanizmini tapmamışdır. Belə yanaşma digər ölkələrdə də mövcuddur. Fikrimizcə, onlar məhkumlarla davranışa həsr edilmiş beynəlxalq aktlarda, ilk növbədə BMT-nin Məhbuslarla davranışın minimal standat qaydalarında (Nelson Mandela qaydalarında), bir sıra digər sənədlərində, habelə Avropa Penitensiar Qaydalarında, Avropa Şurasının Nazirlər Komitəsinin 10 oktyabr 2012-ci il tarixli "Əcnəbi məhkumlarla əlaqədar" R (2012)12 nömrəli sənədindəki tövsiyələrin sözügedən şəxslərlə davranışın xüsusiyyətlərinin, bir qayda olaraq ümumi səkildə verilməsi, onların təcrübədə yaşanan bir sıra problemlərin səmərəli həlli yollarını özündə ehtiva etməməsi ilə əlaqədardır. Qeyd olunmalıdır ki, göstərilənlər, xüsusilə əcnəbi və vətəndaşlığı olmayan şəxslərlə ünsiyyət, onların ehtiyaclarının və problemlərinin nəzərə alınmasının vacibliyi, habelə hüquqi tənzimini tapmamış digər məsələlər azadlıqdan məhrum etmə yerlərinin müdiriyyəti, habelə işçi heyəti üçün də çətinliklər və əlavə xidmət yükü yaradır.

Yuxarıdakıları nəzərə alaraq, əcnəbi və vətəndaşlığı olmayan şəxslərə cəzaların tətbiq edilməsində, onların, xüsusilə azadlıqdan məhrum etmə cəzasının icrası prosesində müşahidə olunan mövcud problemlərinin həlli məqsədilə, bir sıra dünya dövlətlərinin qabaqcıl təcrübəsindən bəhrələnməklə, məhbuslarla davranışa həsr olunmuş beynəlxalq aktlara, İşgəncələrin, qeyri-insani və lə-

yaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması üzrə Avropa Komitəsinin (CPT) illik məruzələrindəki tövsiyələrinə istinadən, habelə əvvəllər tərəfimizdən verilmiş təklifləri də nəzərə alaraq, Azərbaycan Respublikasının Cinayət, Cəzaların İcrası məcəllələrinə aşagıda göstərilən dəyişikliklərin edilməsini məqsədəuyğun hesab edirik.

**I. Cinayət məcəlləsi üzrə:**

1. Azadlığın məhdudlaşdırılması növündə cəzanın əcnəbi və vətəndaşlığı olmayan şəxslərə tətbiq edilməsi ilə əlaqədar mövcud qadağanı ləğv etmək və həmin cəzanı sözügedən şəxslərə də təyin olunmasını cinayət qanununda nəzərdə tutmaq vacibdir. Belə ki, 2011-ci ilin may ayında cəza sistemindən çıxarılmış, lakin 2017-ci ilin oktyabrında yeni məzmun və fərqli icra edilmə şərtləri ilə AR CM-ə qaytarılmış azadlığın məhdudlaşdırılması cəzasının dərhal məhkəmələr tərəfindən fəal tətbiqinə başlanmış, nəticədə son altı il ərzində onun təyin edilməsi faiz hesabı ilə 3,5 dəfə artmışdır. Əgər, 2018-ci il ərzində ölkənin məhkəmələri tərəfindən məhkum edilmiş şəxslərin 8,2 %-i barədə azadlığın məhdudlaşdırılması tətbiq olunmuşdusa, 2020-ci ildə həmin göstərici 27,8 %, 2022-ci ildə isə, 28,5 % təşkil etmişdir. 2023-cü ilin yekunlarına əsasən məhkəmələr tərəfindən azadlığın məhdudlaşdırılması cəzasının təyini yenə yüksək qalaraq 27,3 % olmuş, 2024-cü ildə isə, həmin göstərici artaraq, ümumi məhkum edilmiş şəxslərin 28,8 %-ni təşkil etmişdir. Beləliklə, istinad olunan cəza növünün tətbiqi son illərdə xeyli artmaqla, birmənalı olaraq ölkədə azadlıqdan məhrum etmə cəzasının real alternativinə çevrilmişdir. Bəs niyə görə həmin cəza əcnəbi və vətəndaşlığı olmayan şəxslərə, xüsusilə də, azadlıqdan məhrum etmə əvəzinə təyin edilməsin?! Həmin cəzanın sözügedən şəxslərə tətbiqinin səmərəli olmaması ilə bağlı əsaslı sübutlar varmı? Fikrimizcə, məhkəmələri, habelə əcnəbi və vətəndaşlığı olmayan şəxsləri, xüsusilə məhkum edildikləri maddənin sanksiyasında yalnız müvafiq iki cəzanın, yəni azadlığın məhdudlaşdırılması və azadlıqdan məhrum etmə nəzərdə tutulduğu təqdirdə, daha yüngül cəzaya məhkum olunmaq imkanından

məhrum etmək, hec də ədalətli hesab oluna bilməz. Eyni zamanda, azadlığın məhdudlaşdırılmasının icrası ilə əlaqədar qaydalara, habelə artıq ölkədə formalaşmış təcrübəyə istinadən qeyd edə bilərik ki, sözügedən cəzanın icrasının təşkili və çəkilməsi ilə əlaqədar istər icra məmuru (probasiya üzrə), istərsə əcnəbi və vətəndaşlığı olmayan məhkumlar üçün hər hansı çətinliyin yaranacağı da gözlənilən deyil. Nəhayət, dunyanın bir çox dövlətlərində elektron nəzarət vasitəsinin tətbiqi ilə müşayiət olunan, o cümlədən azadlığın məhdudlaşdırılmasına oxşar cəzalar əcnəbi və vətəndaşlığı olmayan məhkumlara da heç bir istisna qoyulmadan təyin edilir. Sözüdedən qadağanın son nəticədə ölkədə azadlıqdan məhrum edilmiş şəxslərin sayının artmasına zəmin yaratması da ümumbəllidir.

2. İslah işləri cəzasının icrası ilə bağlı təcrübədə rast gəlinən mövcud probemləri, xüsusilə işsiz olan məhkumların haqqı ödənilən əmək fəaliyyəti ilə təmin olunması ilə bağlı çətinlikləri nəzərə alaraq, onun əcnəbi və vətəndaşlığı olmayan şəxslərə təyin edilməsini məqsədəuygun hesab etmirik, buna görə də cinayət qanununa, yəni AR CM-in 49-cu maddəsinə müvafiq qadağanı daxil etmək lazımdır.

3. Əcnəbi və vətəndaşlığı olmayan şəxslərə təyin edilən cəzaların, o cümlədən azadlıqdan məhrum etmənin icrası prosesində yaşanan və yuxarıda göstərilən problemləri nəzərə alaraq, sözügedən məhkumların sayının azaldılması, cəzalarını çəkmək üçün vətəndaşları olduqları dövlətlərə verilməsi ilə bağlı uzunmüddətli və mürəkkəb prosedurlardan qaçılması, onların cəzalarının icrasına ayrılan maliyyə vəsaitinə qənaət edilməsi məqsədilə, Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarmanı əsas cəza növü kimi də nəzərdə tutmaq, onu ilk dəfə böyük ictmai təhlükə törətməyən, az agır, xüsusi hallarda isə, agır cinayətlərə görə təyin edilməsi kifayət qədər yaxşı olardı. Hazırda Çin Xalq Respublikası, Almaniya, İsveç, İsveçrə, Latviya, Finlandiya və digər bir neçə digər dövlətlərdə əcnəbi və vətəndaşlığı olmayan məhkumlarla yaşana bilən problemlərdən yayınmaq, habelə onların

sayını azaltmaq məqsədilə sözügedən şəxslər barədə ölkədən məcburi çıxarmadan əsas cəza növü qismində fəal şəkildə istifadə edilir. Eyni zamanda, ölkədən məcburi çıxarma növündə cəzanın, müvafiq hallarda məhkəmə tərəfindən əcnəbi və vətəndaşlığı olmayan məhkumlarla əlavə cəza kimi təyin edilməsinin saxlanılması da məqsədəuyğun hesab olunur. Habelə, cinayət törətməyə görə ölkədən məcburi çıxarılmış şəxslərin yenidən Azərbaycana qayıdışı ilə əlaqədar cinayət qanununda nəzərdə tutulmuş mövcud şərtlərin də sərtləşdirilməsi də vacibdir. Hesab edirik ki, ölkədən məcburi çıxarma növündə cəza ilə bağlı verilmiş təklifimiz, yuxarıda sadalanan məsələlərin həllindən əlavə, dövlətin milli təhlükəsizliyinin təmin olunmasına, sözügedən şəxslər tərəfindən Azərbaycanda yeni cinayətlərin törədilməsinin qarşısının alınmasına, habelə azadlıqdan məhkum etmə yerlərində məhkumların ümümi sayının azalmasına və cəzaçəkmə müəssisələrinin yüklənməsi probleminin həllinə də müəyyən köməklik göstərə bilərdi.

**II. Cəzaların İcrası Məcəlləsi üzrə:**

1. Azadlıqdan məhrum edilmiş əcnəbi və vətəndaşlığı olmayan məhkumlara islah etmə vasitələrinin daha səmərəli tətbiq edilməsi məqsədilə, cəzanın icrası prosesində onların hüquqlarının, azadlıqlarının, qanuni maraqlarının həyata keçirilməsi, habelə tərbiyə işinin keyfiyyətlə aparılması, ictimai faydalı əməyə, ümumi təhsilə, peşə təhsili və peşə hazırlığına cəlb etmə və digər məsələlər ilə əlaqədar uzərlərinə qoyulmuş vəzifələrinin icrası xüsusiyyətlərini özündə ehtiva edən yeni normalarının işlənib hazırlanmasını və məcəllənin müvafiq maddələrinə əlavə edilməsini əhəmiyyətli hesab edirik. Həmin normalar, istər cəzaçəkmə müəssisələrinin müdiriyyətinin və əməkdaşlarının, istərsə də əcnəbi və vətəndaşlığı olmayan məhkumların azadlıqdan məhrum etmə cəzasının icrası və çəkilməsi prosesində qarşısına çıxan çətinliklərin aradan qaldırılmasına zəmin yarada bilərdi.

2. Azadlıqdan məhrum etmə yerlərində həbsdə saxlanılan, habelə çəza çəkən əcnəbi və ya vətəndaşlığı olmayan məhkumlarla:

– ehtiyaclarının öyrənilməsi əsasında müxtəlif yönümlü xüsusi

reabilitasiya proqramlarının həyata keçirilməsi;

– onların asudə vaxtının daha səmərəli və maraqlı keçməsi məqsədilə dil öyrənmə kurslarının təşkili, həbslə, cəzanın icrası və çəkilməsi ilə bağlı qanunvericiliyi, istintaq təcridxanalarının, cəzaçəkmə müəssisələrinin Daxili intizam qaydalarını özündə cəmləşdirən və bir neçə xarici dildə (ingilis, alman, ispan, çin, ərəb, fransız, rus) olmaqla, məlumat kitabçalarının paylanması, habelə televiziya verilişlərinə digər dillərdə baxışların təşkili, həbs edilmiş şəxslər, məhkumlar üçün nəzərdə tutulmuş kitabxanalarda xüsusi bölmənin yaradılması, qanunvericilik çərçivəsində digər dövlətlərdə yaşayan yaxınları ilə telefon danışıqlarının, videogörüşlərin haqqı ödənilmədən təqdim olunması;

– cəzanın çəkilməsi prosesində müvafiq məhkumların daim diqqətdə saxlanması, onların sosial müşayiətinin təşkili, zəruri hallarda hüquqi yardım göstərilməsi, problemlərin müəyyən edilməsi və həllinə dəstək verilməsi məqsədilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin strukturunda sözügedən şəxslərlə iş üzrə xüsusi qrupun yaradılması məqsədəuyğun olardı.

Eyni zamanda, azadlıqdan məhrum etmə əlaqədar olmayan cəzalara məhkum edilmiş, şərti məhkum olunmuş, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş, cəzasının çəkilməsi təxirə salınmış əcnəbi və vətəndaşlığı olmayan məhkumların cəzalarının icrası və nəzarətin həyata keçirilməsi məqsədilə vətəndaşı olduqları dövlətlərə verilməsi ilə bağlı təcrübənin reallaşdırılması üçün, 11 oktyabr 2019-cu ildə Aşqabad şəhərində qəbul edilmiş "Azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaların icra üçün verilməsi üzrə Müstəqil Dövlətlər Birliyinin iştirakçı dövlətlərinin Konvensiyası"na qoşulmaqla onu ratifikasiya etmək, habelə digər dövlətlərlə cinayət işləri üzrə qarşılıqlı hüquqi yardımla bağlı mövcud müqavilələrə sözügedən məsələ ilə əlaqədar əlavələrin edilməsi məqsədəuyğun olardı.

Nəhayət, azadlıqdan məhrum edilmiş əcnəbi və vətəndaşlığı olmayan şəxslərlə davranışla bağlı yuxarıda göstərilən beynəlxalq

aktların təkmilləşdirilməsini də məqsədəuyğun hesab edirik. Habelə, bir qrup həbs edilmiş və məhkumlarla əlaqədar, yəni qadın və yetkinlik yaşına çatmayan, habelə uzun müddətli azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə, habelə ölüm cəzası tətbiq edilmiş şəxslərlə davranışla bağlı beynəlxalq standartları özündə cəmləşdirən BMT-nin xüsusi aktlarının qəbul edildiyini nəzərə alaraq, azadlıqdan məhrum edilmiş əcnəbi və vətəndaşlığı olmayan şəxslərlə davranışla bağlı məsələləri, onların problemlərinin həlli üzrə tövsiyələri özündə ətraflı əks etdirən yeni beynəlxalq aktın hazırlanması da məqbul olardı. Düşünürük ki, BMT-nin sözügedən yeni beynəlxalq aktının həyata vəsiqə alması dünya dövlətləri tərəfindən müsbət qarşılanmaqla, milli qanunvericilik aktlarının təkmilləşdirilməsinə, azadlıqdan məhrum edilmiş əcnəbi və vətəndaşlığı olmayan şəxslərlə əlaqədar mövcud normaların yenilənməsinə və daha təkmil olmasına töhfə verə bilərdi.

***İstifadə olunmuş mənbə:***

***İnternational independent scientific journal. Poland. 2025. № 75, pp. 7–15.***

# II HİSSƏ
# CƏZA-İCRA SİSTEMİ, CƏZALARIN İCRASI QANUNVERİCİLİYİ, TARİXİ VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ YOLLARI

## Heydər Əliyev və Azərbaycan Respublikasının cəza-icra sistemi

Azərbaycan Respublikası Prezidentinin 29 sentyabr 2022-ci il tarixli fərmanı ilə Azərbaycan xalqının Ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibəti ilə Azərbaycan Respublikasında 2023-cü il "Heydər Əliyev ili" elan edilmişdir. Xalq qarşısında dövlət quruculuğundakı böyük xidmətlərinə, çətin sınaqlar dövründə ölkənin suverenliyinin saxlanmasında, iqtisadiyyat və təhlükəsizlik sahələrində görünməmiş çağırışların qarşısının alınmasında, həyatın bütün sahələrində ardıcıl inkişafın təmin edilməsindəki xidmətlərinə görə Heydər Əliyevin adı çağdaş tariximizə qızıl hərflərlə yazılmışdır.

Müstəqilliyimizin ilk illərində dövlətin taleyuklü problemlərinin həlli ilə əlaqədar görülən genişmiqyaslı tədbirlərlə, o cümlədən ölkədə qanunçuluğun möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi ilə yanaşı, Heydər Əliyev tərəfindən cəza siyasətinin humanistləşdirilməsinə, yeni və müasir hüquq təsisatlarının yaradılmasına, əfvetmə və amnistiya aktlarının humanist məzmun və daimi xarakter almasına xüsusi diqqət verilmişdir. Ümummilli liderin şəxsi təşəbbüsü ilə 10 fevral 1999-cu ildə ölkə parlamenti tərəfindən tarixi qərar qəbul edilərək, Şərqdə ilk olaraq olüm cəzası ləğv edilmişdir.

Müstəqil Azərbaycan Respublikasında digər hüquqmühafizə strukturları ilə yanaşı, cəzaların və digər cinayət-hüquqi tədbirlərin icrasını həyata keçirən, habelə həbs edimiş şəxslərin saxlanmasını təmin edən əhəmiyyətli bir dövlət qurumunun–cəza-icra sisteminin işinin yenidən təşkili, aparılmış ilkin islahatlar, onların

müsbət nəticələri ilk növbədə, Heydər Əliyevin nəhəng fəaliyyətinin və böyük səylərinin bəhrəsi kimi qəbul edilir. Ümummilli lider digər sahələrdə olduğu kimi cəza-icra sisteminin islahatına da, ilkin olaraq müvafiq sahədə qanunvericiliyin təkmilləşdirilməsi və humanistləşdirilməsi ilə başlanmasını məqsədəuyğun hesab etmişdir. Bu məqsədlə Heydər Əliyev 26 fevral 1997-ci ildə, onun tapşırığı ilə hazırlanmış və Milli Məclis tərəfindən 7 fevral 1997-ci il tarixdə qəbul edilmiş Azərbaycan Respublikasının İslah-Əmək Məcəlləsinə əlavələr və dəyişikliklər edilməsi barədə qanunu imzalamışdır. Bu normativ-hüquqi aktda Ümummilli liderin rəhbərliyi ilə ərsəyə gəlmiş ölkənin yeni Konstitusiyasının müddəaları, habelə insan hüquq və azadlıqlarının müdafiəsinə həsr olunmuş beynəlxalq aktların tələbləri nəzərə alınmışdır. Sözügedən qanunun giriş hissəsində qeyd olunmuşdur ki, bu normativ-hüquqi akt, cinayətə görə cəzanın icrasının daha təsirli olması, məhkumların insan hüquqlarının qorunması, dövlətimizin bu sahədəki qanunvericiliyinin məhkumların saxlanması şəraiti ilə əlaqədar ümumi qəbul olunmuş beynəlxalq normalara uyğunlaşdırılması məqsədilə qəbul edilir. İslah-Əmək Məcəlləsinə edilmiş çoxsaylı köklü və mütərəqqi dəyişikliklər onun əksəriyyət maddələrini əhatə etməklə, əsasən üç istiqamətə yönəlməsi ilə nəzəri cəlb edir. İlkin olaraq, məhkumların hüquqi vəziyyəti nəzərəçarpacaq dərəcədə genişləndirilmiş, onlara yeni hüquqlar, azadlıqlar və imtiyazlar verilmişdir. İkincisi, məcəllədə öz əhəmiyyətini itirmiş, müasir dövrün tələbləri ilə uzlaşmayan normalar, habelə islah işinə qulluq etməyən, məhkumların ləyaqətini alçaldan qadağa və məhdudiyyətlər ləğv olunmuşdur. Üçüncüsü, ilk dəfə olaraq cəzanı icra edən müəssisə və orqanların işçi heyətinin hüquqi statusu, yəni onların hüquqları, vəzifələri, sosial müdafiəsi, onlara qarşı tələblər, məsuliyyət və digər əhəmiyyətli məsələlər birbaşa qanunda öz əksini tapmışdır.

İslah-Əmək Məcəlləsinə edilmiş əsaslı dəyişikliklərə baxmayaraq, Ümummilli lider cəzaların icrasını tənzimləyən yeni, müasir və vahid qanunun hazırlanmasını daha məqsədəuyğun hesab edə-

rək, aidiyyəti üzrə tapşırıq vermişdir. Mövcud qabaqcıl təcrubəyə, cəza çəkən şəxslərlə davranışla bağlı beynəlxalq aktların tövsiyələrinə əsaslanmaqla hazırlanmış Azərbaycan Respubılikasının Cəzaların İcrası Məcəlləsi (bundan sonra AR CİM) 14 iyul 2000-ci ildə qəbul edilmiş, Heydər Əliyev tərəfindən imzalanaraq və həmin ilin 01 sentyabrından qüvvəyə minmişdir. İlk dəfə olaraq bir qanunda dövlətimizin məhkəmələri tərəfindən tətbiq edilən bütün cəza növlərinin icrasının ümumi müddəaları və prinsipləri, məhkumlara islah edilmə vasitələrinin tətbiqi, cəzaların icrası və çəkilməsi qaydaları və şərtləri, məhkumların hüquqi vəziyyəti, cəzanı icra edən müəssisə və orqanların fəaliyyət qaydası, məhkumların islah edilməsində dövlət orqanlarının, ictimai birliklərin və vətəndaşların iştirakı, məhkumların cəza çəkməkdən azad edilməsi və belə şəxslərə yardım edilməsi qaydaları öz əksini tapmışdır. Yeni məcəllə, ilk növbədə cəmiyyətin və vətəndaşların təhlükəsizliyinin təmin edilməsinə yönəlməklə, beynəlxalq qanunvericiliyin, yəni insan hüquq və azadlıqlarının müdafiəsinə, habelə hüquqpozucuları ilə rəftara həsr olunmuş aktların müddəalarını nəzərə almışdır. Eyni zamanda, məcəllə məhkumlarla rəftarda işgəncə və ya digər qəddar, qeyri-insani hərəkətlərə və yaxud ləyaqətin alçaldılmasına yol verilməməsi, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdəki normaların milli qanunvericiliklə müqayisədə ustunlüyünə əsaslanır. İyirmi ildən çox bir müddətdə fəaliyyət göstərən AR CİM-ə dəyişikliklər edilməsinə baxmayaraq, öz aktuallığını və əhəmiyyətini qoruyub saxlamış, qarşısına qoyulmuş vəzifələri hazırda uğurla yerinə yetirməkdə davam edir.

Ümummilli lider cəza-icra qanunvericiliyinin təkmilləşdirilməsi ilə yanası, istintaq təcridxanalarında və islah-əmək müəssisələrində qanunçuluğun möhkəmləndirilməsi, cəzaların icrası qaydalarının təmin edilməsi və bu sahədə hüquqi islahatlar ilə bağlı əlavə tədbirlərin həyata keçirilməsini vacib hesab edərək, 11 fevral 1999-cu il tarixdə xüsusi fərman imzalamışdır. Həmin sənəddə müstəqillik illərində müvafiq müəssisələrdə görulmuş işlərə, əldə

olunmuş bir sıra müsbət nəticələrə toxunulmaqla, cəzanı icra edən müəssisə və orqanların fəaliyyətində olan noqsanlar, mövcud problemlər göstərilmiş, onların aradan qaldırılmasının və zəruri tədbirlərin görülməsinin vacibliyi qeyd edilmişdir. İlk növbədə, istintaq təcridxanalarının və islah-əmək müəssisələrinin işinin təkmilləşdirilməsi sahəsində kompleks tədbirlərin həyata keçirilməsi üçün ölkə başçısının yanında Azərbaycan Respublikasının Baş nazirinin sədrliyi ilə xüsusi komissiya yaradılmışdır. Komissiyaya islah-əmək müəssisələrində və istintaq təcridxanalarında fəaliyyətin beynəlxalq standartlara uyğun təşkil edilməsi məqsədilə qanunvericilik, təşkilati və digər tədbirlərin həyata keçirilməsini nəzərdə tutan Proqram hazırlayaraq, dövlət başçısına təqdim edilməsi barədə tapşırıq verilmişdi. Habelə, istintaq təcridxanalarının və islah-əmək müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, onların müasir nəzarət, mühafizə, mühəndis-texniki qurğularla və digər xüsusi vasitələrlə təchiz olunması ilə bağlı tapşırıqlar verilmişdir. Eyni zamanda, cəza çəkmə yerlərində məhkumların saxlanılması şəraitinin daha da yaxşılaşdırılması ilə əlaqədar işlərin davam etdirilməsi, məhkumların azadlıqdan məhrum etmə yerlərində ictimai faydalı əməklə təmin edilməsi məqsədilə yeni istehsal sahələrinin yaradılması, əməkdaşların sosial müdafiəsinin gücləndirilməsi, onların əmək haqqlarının artırılması və əlavə ödənişlər müəyyən edilməsi üçün də vəzifələr müəyyən edilmişdir. Komissiya tərəfindən hazırlanmış müvafiq Tədbirlər Proqramı ölkə başçısı ilə razılaşdırılmaqla, Nazirlər Kabinetinin 26 may 1999-cu il tarixli Sərəncamı ilə təsdiq olunmuş və icraya yönəldilmişdir.

İstinad edilən fərman və Tədbirlər Proqramı cəza-icra sistemində aparılan islahatların hüquqi bazasını əsaslı şəkildə möhkəmləndirmiş, azadlıqdan məhrum etmə yerlərinin fəaliyyətinin nəzərəçarpacaq şəkildə təkmilləşdirilməsi üçün əlverişli zəmin yaratmışdır. Həyata keçirilmiş kompleks tədbirlər nəticəsində cəzaların icrası qanunvericiliyinin təkmilləşdirilməsi, azadlıqdan məhrum etmə yerlərində məhkumların hüquq və azadlıqlarının tə-

min olunması işi davam etdirilmiş, cəza çəkənlərin sosial, maddi-məişət şəraiti yaxşılaşdırılmış, onlar üçün tibb xidmətinin keyfiyyəti artırılmışdır. Eyni zamanda, əməkdaşların sosial müdafiəsi gücləndirilmiş, onların peşə hazırlığının və ixtisaslarının artırılması məqsədilə Təlim-Tədris Mərkəzi yaradılmışdır. Qeyd olunan proqramın icra prosesində olmasına baxmayaraq, Heydər Əliyev islahatları davam etdirmək, islah-əmək müəssisələrində və istintaq təcridxanalarında saxlanılma şəraitinin və tibbi xidmətin yaxşılaşdırılması məqsədilə əlavə qanunvericilik, təşkilati və digər tədbirlərin həyata keçirilməsi ilə bağlı qərar qəbul etmiş və bu məqsədlə 9 oktyabr 1999-cu il tarixli Fərman imzalamışdır. Fərman məhkəmələrin, istintaq təcridxanalarının və islah-əmək müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi ilə əlaqədar tədbirlərlə yanaşı, dövlət başçısının əhəmiyyətli bir tapşırığı, yəni ölkədə cəza-icra sisteminin yeni tipli-qarışıq rejim növlərini nəzərdə tutan islah-əmək müəssisəsinin yaradılması ilə bağlı diqqəti cəlb edir. Qeyd olunmalıdır ki, sözügedən yenilik sonrada yeni qanuna, yəni AR CİM-ə daxil edilmişdir. Yeni növ cəzaçəkmə müəssisəsinin yaradılması, məhkumların cəzalarını yasayış yerinə yaxın olan ərazidə çəkmələrinə, onlara ailə üzvləri tərəfindən rahat baş çəkilməsinə əlverişli şərait yaratmaqla yanaşı, zamanın tələblərinə cavab verməyən köhnə müəssisələr əvəzinə, regionlarda yeni və müasir cəzaçəkmə müəssisələrinin inşasını şərtləndirmişdir.

Eyni zamanda, Ümummilli lider Azərbaycan Respublikasında vahid islah-əmək siyasətinin həyata keçirilməsi, istintaq təcridxanalarının fəaliyyətinin Avropa standartlarına uyğunlaşdırılması, azadlıqdan məhrum etmə bağlı prosessual məcburiyyət tədbirinin və cəzanın icrasının bir mərkəzdən idarə edilməsi məqsədilə 9 oktyabr 1999-cu il tarixli digər fərman imzalamışdır. Həmin fərmana uyğun olaraq Daxili İşlər Nazirliyinin istintaq təcridxanaları bütün ştat vahidləri və balanslarında olan əmlakla birlikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinə verilmişdir. Bu addım istintaq təcridxanalarının fəaliyyətinin təkmilləşdirilməsinə və yaxsılaşdırılmasına, yeni və müasir müəssisələrin inşasına, onla-

rın fəaliyyətini nizamlayan mütərəqqi qanunun qəbuluna təkan vermişdir.

Heydər Əliyev məhkəmə qərarlarının icrasının daha səmərəli təşkili, habelə cəzaların icrası sisteminin fəaliyyətinin təkmilləşdirilməsi, onun işinə effektiv nəzarətin həyata keçirilməsinin təmini məqsədilə "Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları haqqında" Qanunu və onun tətbiq edilməsi barədə 05 yanvar 2000-ci il tarixli Fərmanı imzalamışdır. Həmin normativ aktlarla azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaların icrası məhkəmə icraçılarına həvalə edilmiş, müvafiq məhkəmə qərarlarının, habelə istinad olunan cəzaların icrasının təşkili və nəzarətin həyata keçirilməsi məqsədilə Ədliyyə Nazirliyinin müstəqil qurumu-Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları Baş idarəsi yaradılmışdır.

Ümummilli lider cəza-icra sisteminin fəaliyyəti ilə bilavasitə əlaqədar olan normativ aktlardan əlavə, bir sıra digər, o cümlədən insan hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı imzaladığı sənədlərdə də həbs edilmiş şəxslərin və məhkumların saxlanma şəraitinin yaxşılaşdırılması, onların beynəlxalq tələblərə uyğun saxlanması üçün tədbirlərin görülməsini də nəzərdə tutmuşdur. Belə ki, 1998-ci il 22 fevral tarixli "İnsan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində tədbirlər haqqında" Fərmanı, habelə dövlət başçısının 18 iyun 1998-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" qeyd olunanlara bariz nümunələrdir.

Heydər Əliyev cəzaçəkmə yerlərindən azad edilmiş məhkumlara qayğı göstərilməsi, onların sosial adaptasiyası, azad cəmiyyətə asan reinteqrasiyası məsələlərinə də xüsusi diqqət ayırırdı. Qeyd olunanlar ilk növbədə, Ümummilli liderin təşəbbüsu ilə 1995-ci ildən başlayaraq ölkədə mütamadi qəbul edilən əfv və amnistiya aktlarının icrası nəticəsində cəzaçəkmə müəssisələrindən azad edilən şəxslərə aiddir. Belə ki, bir qayda olaraq ölkə başçısının əfvetmə aktlarında cəzadan azad edilən məhkumların sosial adaptasiyasına və reabilitasiyasına yönəlmiş tədbirlərinin həyata keçirilməsi, onlara zəruri yardım göstərilməsi ilə bağlı müxtəlif

dövlət strukturlarına konkret tapşırıqları öz əksini tapmışdır. Amnistiya aktlarının qəbulu ilə bağlı cəzaçəkmə müəssisələrindən azad edilən məhkumlara da qayğı göstərilməsi də gündəmdə olmuşdur. Belə ki, Ümummilli liderin təşəbbüsü ilə Respublika günü münasibəti ilə 1996-cı ilin 22 mayında qəbul edilmiş amnistiya qərarının icrası ilə əlaqədar tədbirlər barədə dövlət başçısı 24 may 1996-cı il tarixli xüsusi Sərəncam imzalamışdır. Sərəncamla amnistiya aktına əsasən azad olunan şəxslərin vaxtında qeydiyyata alınması daxili işlər orqanlarına həvalə olunmuş, azad edilmiş, lakin himayəsinə götürə biləcəyi qohumları olmayan əlillərin, qocaların aidiyyəti sosial müəssisələrə qəbulu, müalicəyə ehtiyacı olanlara tibbi yardım göstərilməsi, yetkinlik yaşına çatmayanların tədrisə, ictimai faydalı əməyə cəlb olunması, yaxud valideyinlərinin, qəyyumluq və himayəçilik orqanlarının nəzarətinə verilməsi, zərurət olduqda isə uşaq evlərinə, internat məktəblərinə yerləşdirilməsi kimi məsələlərinin həlli isə aidiyyəti dövlət qurumlarına və rayon (şəhər) icra hakimiyyəti orqanlarına tapşırılmışdır. Eyni zamanda, tərbiyə müəssisəsindən azad edilmiş yetkinlik yaşına çatmayanların hüquqazidd əməllərinin profilaktikası və qarşısının alınması, habelə onlarla tərbiyə işinin aparılması məqsədi ilə respublikanın hüquq-mühafizə orqanlarına, təhsil müəssisələrinə, gənclər təşkilatlarına və əmək kollektivlərinə birgə zəruri tədbirlər hazırlayıb həyata keçirmələri ilə əlaqədar tapşırıqlar verilmişdir. Habelə, Ümummilli lider "Dövlət müstəqilliyi günü münasibəti ilə amnistiya haqqında" Milli Məclisin 1997-ci il 17 oktyabr tarixli qərarının icra edilməsinın təmini, bu zaman cəzaçəkmə müəssisələrindən azad olunmuş şəxslərin sosial reabilitasiya məsələlərinin həlli məqsədilə zəruri tədbirləri nəzərdə tutan və oxşar məzmunlu 21 oktyabr 1997-ci il tarixli Sərəncam imzalamışdır. Qeyd etmək istərdik ki, amnistiya və əfvetmə aktları əsasında azadlıqdan məhrum etmə yerlərindən azad edilən şəxslərin sosial adaptasiyası, onlara zəruri yardım göstərilməsi ilə bağlı Heydər Əliyev tərəfindən müəyyən edilən və həyata keçirilən tədbirlər sonralar AR CİM-də, habelə 2007-ci ilin 31 mayında qəbul edil-

miş "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikasının Qanununa daxil edilmişdir.

Müstəqil Azərbaycan Respublikasının dunya dövlətləri birliyinə inteqrasiyası, beynəlxalq təşkilatlarla əməkdaşlığa başlaması prosesində Ümummilli lider tərəfindən cəzaların icrası, həbs edilmiş şəxslərin və məhkumların hüquq və azadlıqlarının müdafiəsi sahəsindəki əməkdaşlığa xüsusi diqqət verilmişdir. Onun tapşırığı ilə BMT, Avropa Şurası, ATƏT, Beynəlxalq Qırmızı Xaç Komitəsi və digər beynəlxalq strukturlarla səmərəli əməkdaşlıq əlaqələri qurulmuş, xarici dövlərlərin cəza-icra fəaliyyəti ilə əlaqədar qabaqcıl təcrübəsinin öyrənilməsinə və tətbiqinə başlanılmışdır.

Heydər Əliyev cəzaları icra edən müəssisə və orqanların fəaliyyətinin səmərəli təşkili və cəza-icra sisteminin islahatının uğurla həyata keçirilməsinin təmini məqsədilə maliyyə təminatı məsələsini də diqqətdə saxlamış, bu sahəyə dövlət büdcəsindən ayrilan vəsait ilbə-il artırılmışdır. Bu ənənə hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə də davam etməkdədir.

Yuxarıda göstərilən tədbirlərdən əlavə, azadlıqdan məhrum etmə yerlərində məxfiçilik rejiminin aradan qaldırılması, cəza-icra sistemində şəffaflığın təmini, ictimai təşkilatların məhkumların islahı prosesində iştiraka cəlb edilməsi, əfvetmə və amnistiya aktlarının ictimaiyyətin, hüquq müdafiəçilərinin iştirakı və təntənəli şəkildə icrası olunması da Ümummilli liderin uğurla həyata keçirdiyi cəza-icra siyasətinin təqdir edilən nəticələrindəndir.

Əsası Heydər Əliyev tərəfindən qoyulmuş dövlətin cəza-icra sistemindəki islahatlar, müasir dövrün tələblərinə uyğun olaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir və bu sahədə böyük nailiyyətlər və müsbət nəticələr əldə edilmişdir. Fikrimizcə, ölkənin cəza-icra sisteminin mövcud vəziyyətini daha dəqiq və aydın şəkildə xarakterizə edən bir sıra nəticələrlə bölüşmək istərdik. Belə ki, son otuz il ərzində (1993–2023-cü illər) Azərbaycan Respublikasında:

– cəzaların icrası ilə əlaqədar mütərəqqi, hüquqpozucuları ilə davranışa həsr edilmiş beynəlxalq aktların tələblərinə cavab verən müasir qanunvericilik bazası formalaşdırılmışdır;

– struktur dəyişiklikləri aparılmış, qanunvericilikdə nəzərdə tutulan cəzaların və cinayət-hüquqi xarakterli digər tədbirləri icra edən müəssisə və orqanlar, habelə qarışıq rejimli müəssisələri təşkil edilmiş və uğurla fəaliyyət göstərirlər, onların işini təşkil edən və fəaliyyətlərinə nəzarəti həyata keçirən xüsusi strukturlar – Ədliyyə Nazirliyinin Penitensiar və Probasiya xidmətləri yaradılmışdır;

– həbs edilmiş şəxslərin və məhkumların əsas insan hüquq və azadlıqlarının müdafiəsinə həsr olunmuş beynəlxalq aktların tələblərinə cavab verən hüquqi statusları müəyyən edilmiş, humanistləşmə yolu ilə onların çərçivəsi ardıcıl olaraq genişləndirilmişdir;

– azadlıqdan məhrum etmə yerlərində saxlanılan şəxslərin vicdan və dini etiqad azadlığının həyata keçirilməsi məqsədilə istintaq təcridxanalarında və cəzacəkmə müəssisələrində ibadət və dini ayinlərin icrası üçün zəruri şərait yaradılmış, Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsi ilə dövlət qeydiyyatına alınmış dini birliklərlə işguzar qarşılıqlı əməkdaşlıq əlaqələri qurulmuşdur;

– həbs edilmiş şəxslər və məhkumlar, xususilə qadın və yetkinlik yaşına çatmayan məhkumlar üçün normal saxlanma şəraiti yaradılmışdır. Bakı şəhərinin ərazisində və regionlarda yeni və müasir istintaq təcridxanası, penitensiar kompleks kimi qeyd olunan qarışıq rejimli üç müəssisə inşa edilərək, istifadəyə verilmiş, digər oxşar müəssisələrin tikintisi davam etdirilir;

– həbs edilmiş şəxslər və azadlıqdan məhrum edilmiş şəxslərə göstərilən tibbi xidmət əsaslı şəkildə yaxşılaşdırılmış, vərəm xəstəliyi, xüsusilə onun təhlukəli multirezistent növü, habelə digər infeksion xəstəliklərlə ilə mübarizə işində beynəlxalq təşkilatlar tərəfindən də təqdir edilən müsbət nəticələr əldə olunmuşdir. Habelə, vaxtında həyata keçirilmiş kompleks tədbirlər sayəsində azadlıqdan məhrum etmə yerlərində sanitariya-epidemioloji və-

ziyyəti etibarlı şəkildə nəzarətdə saxlamaq və COVİD-19 infeksiyasının mənfi nəsicələrinin qarşını almaq mümkün olmuşdur;

– cəza-icra sisteminin infrastrukturu, maddi-texniki bazası nəzərəçarpacaq dərəcədə yeniləşdirilmiş, inkişaf etdirilmiş və möhkəmləndirilmiş, qətimkan tədbirlərinin və cəzaların icrası prosesində qabaqcıl informasiya texnologiyalarından və elektron nəzarət vasitələrindən geniş istifadəyə başlanılmışdır;

– həbs edilmiş şəxslərin və məhkumların sayının azadılması məqsədilə ardıcıl tədbirlər görülür, cinayət qanunvericiyinin humanistləşdirilməsi və dekriminallaşdırılması aparılır, 1995–2023-cü illərdə ümumən 140 mindən artıq şəxsi əhatə etmiş 12 amnistiya qərarı və 69 əfvetmə aktı qəbul edilmiş, habelə məhkəmələr tərəfindən cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmə institutu geniş tətbiq olunmaqdadır;

– penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyasına və reabilitasiyasına yardım məqsədilə müvafiq dövlət qurumlarına vəzifələr tapşırılmış sahə yaradılmış və onlar tələb edilən səviyyədə fəaliyyət göstərir;

– qanunvericiliyin ictimaiyyətin məhkumların islah edilməsində istirakı, cəzaları icra edən müəssisə və orqanların işinə ictimai nəzarətin həyata keçirilməsi ilə əlaqədar tələbləri həyata keçirilməklə, həmin fəaliyyətin səmərəli və işlək modeli yaradılmış, dövlət və qeyri-hökumət təşkilatlarının cəzaların icrası prosesinə cəlb edilməsinin müxtəlif formalarından uğurla istifadə edilir;

– cəzaları icra edən müəssisə və orqanların işçi heyətinin mükəmməl hüquqi statusu müəyyən edilmiş, onların təminatının, sosial müdafiəsinin gücləndirilməsi və əmək haqqlarının artırılması məqsədilə ardıcıl tədbirlər görulmüşdür;

– əməkdaşların obyektiv, şəffaf prosedurlar və müsabiqə yolu ilə qulluğa qəbulunu təmin edən təcrübə formalaşdırılmış, xarici olkədə Penitensiar xidmət üçün ixtisaslı kadrların hazırlanması həyata keçirilir. Ədliyyə Akademiyasında, Penitensiar Xidmətin Təlim Mərkəzində xüsusi proqramlara uyğun olaraq ilkin hazılıq, habelə əməkdasların ixtisasartırma, peşə hazırlığı kursları təşkil

edilir.

Cəza-icra sistemində həyata keçirilən islahatların dərinləşdirilməsi, onun fəaliyyətinin təkmilləşdirilməsinin davam etdirilməsi hazırkı vaxtda da dövlətin əsas məqsədlərindən biri olaraq qalır. Məhz buna görə və cəza-icra sisteminin infrastrukturunun, onun idarəetmə mexanizminin təkmilləşdirilməsi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 10 fevral 2017-ci il tarixdə “Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prossesual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə” Sərəncam imzalamışdır. Cəza təyini sahəsində dövlət siyasətinin humanistləşdirilməsindən əlavə, həmin Sərəncamın əsas məqsədləri sırasına cəza-icra sisteminin institusionallaşmasının davam etdirilməsi, cəzanı icra edən müəssisə və orqanların fəaliyyətinin təkmilləşdirilməsi, onların maddi-texniki bazasının möhkəmləşdirilməsi, cəzanın icrası prosesində müasir vasitə və texnologiyalardan istıfadə edilməsi, bu sahədə korrupsiyanı istisna edən şəraitin tam təmin olunması daxildir. Sözügedən sərəncam uzun müddətə hədəflənməklə, hüquq-mühafizə orqanları, o cümlədən cəzaları icra edən müəssisə və orqanları üçün özünəməxsus “yol xəritəsi” rolunu oynayır. Fikrimizcə, mühüm əhəmiyyət kəsb edən bu sənədin tələblərinin və tövsiyələrinin icrası və proqnozlaşdırılan nəticələri, Heydər Əliyevin cəza-icra sistemindən gözləntilərinin birmənalı olaraq gerçəkləşməsinə kömək edəcəkdir.

Azərbaycan Respublikasının müstəqil cəza-icra sisteminin təşkil edilməsində və inkişafında Ümummmili liderin rolunu yekunlaşdırmaqla qeyd etmək istərdik ki, ölkədə müstəqilliyin ilk illərində böyük çətinliklərin və problemlərin mövcudluğuna, ərazisinin iyirmi faizinin işğalına, bir milyondan çox qaçqın və məcburi köçünlərin olmasına baxmayaraq, Heydər Əliyev onun vaxtında islahatına başlamış, cəzaların icrasını təmin edən dövlət strukturunun uzunmüddətli inkişaf strategiyasına əvəzedilməz töhfələr vermiş, sözügedən sistemdə müasirliyin, humanistliyin, mədəniliyin

və insanlığın əsasını qoymuş, bununla da tarixdə silinməz iz buraxmışdır. Eyni zamanda, qeyd olunmalıdır ki, hazırda ictimaiyyət və beynəlxalq təşkilatlar tərəfindən təqdir edilən cəza-icra sistemindəki uğurlu islahatlar, sözsüz ki, Ümummilli liderin elmi əsaslarla söykənməklə həyata keçirdiyi dövlət siyasətinin, habelə onun böyük əməyinin və bu sahədəki problemlərin həllinə verdiyi diqqətin məntiqi nəticələridir.

Sonluqda əminliklə qeyd istərdik ki, bundan sonra da, Azərbaycan Respublikasının cəza-icra sisteminin fəaliyyətinin beynəlxalq standartlara uyğun təşkili, yeni, əhəmiyyətli nəticələrə nail olunması məqsədilə, aidiyyəti strukturlar, xüsusilə Ədliyyə Nazirliyi Ümummilli liderin dəyərli fikirlərinə dəfələrlə müraciət edəcək, onun gələcək nəsillərə miras qoyduğu zəngin irsindən bəhrələnəcəklər. Fikrimizcə, cəza-icra sistemində yeni uğurlar və nailiyyətlər, Heydər Əliyev tərəfindən başlanmış işin davamı ilə əlaqədar layiqli addım və Azərbaycan xalqının böyük oğlunun əziz xatirəsinə gözəl töhfə olardı.

***İstinad edilmiş mənbə:***

***Journal Sciences of Europe. Czech Republic, 2023. № 120, pp. 27–31.***

## Cəzaların icrasını tənzimləyən qanunvericilik və onun vəzifələri

Azərbaycan Respublikasının islah-əmək qanunvericiliyi məhkəmə tərəfindən təyin edilən cinayət cəzasının çəkilməsi qaydalarını müəyyən edən İslah-Əmək Məcəlləsindən və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarından ibarətdir. İslah-Əmək Məcəlləsinin 2-ci maddəsinə əsasən, cəzanın çəkilməsi və azadlıqdan məhrum etməyə və azadlıqdan məhrum olunmadan islah işlərinə məhkum edilmiş şəxslər barəsində islah-əmək təsiri tədbirlərinin görülməsi qaydası və şərtləri, habelə cəzanın bu növləri barəsindəki hökmləri icra edən müəssisələrin və orqanların fəaliyyət qaydası, məhkumların islah edilməsində və yenidən tərbiyə olunmasında ictimaiyyətin iştirakı qaydası Azərbaycan Respublikasının İslah-Əmək Məcəlləsi və başqa qanunları ilə müəyyən edilir. İntizam batalyonuna göndərmə və cinayət cəzasının digər növlərinin icrası və çəkilməsi qaydası Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunur.

Yuxarıdakılara istinadən Azərbaycan Respublikasında cəzaların icrasını tənzimləyən qanunvericilik sistemi aşağıdakı qanun və normativ-hüquqi aktlardan ibarətdir:

- SSR İttifaqı və müttəfiq respublikaların islah-əmək qanunvericiliyinin Əsasları;
- İslah-Əmək Məcəlləsi;
- Azərbaycan Respublikası Silahlı Qüvvələrində İntizam batalyonu haqqında Əsasnamə;
- Məhkumlara islah-əmək təsiri tədbirləri ilə bağlı olmayan cinayət cəzalarının icrası qaydası və şərtləri haqqında Əsasnamə;
- Tərbiyə-əmək profilaktoriyası haqqında Əsasnamə.

İslah-əmək qanunvericiliyinin Əsasları SSR Ali Sovetinin 11 iyul 1969-cu il tarixli Qanunu ilə təsdiq olunmuş və 1 noyabr 1969-cu ildən qüvvəyə minmişdir. Bu Əsaslarda cinayət cəzalarının icrasının və çəkilməsinin prinsipləri, onların ümumi qaydaları təsbit edilmişdir. Həmin Əsaslarda azadlıqdan məhrum etmə, sür-

gün, köçürmə, azadlıqdan məhrum etmədən islah işləri cəzalarının icrasının ümumi əsasları təsbit edilmişdi. Digər cəzaların icrası qaydası və şərtləri SSR İttifaqının və müttəfiq respublikaların qanunvericiliyi, intizam batalyonuna göndərilməyə məhkum olunmuş şəxslərin cəzalarının icrası qaydası və şərtləri isə, SSR İttifaqının qanunu ilə müəyyən olunmalı idi.

Yuxarıda qeyd olunan islah-əmək qanunvericiliyinin Əsaslarına uyğun olaraq keçmiş SSRİ-yə daxil olan müttəfiq respublikalarda 1970-1971-ci illərdə yeni İslah-Əmək məcəllələri qəbul olunmuşdur. Hal-hazırda dövlətimizin qüvvədə olan İslah-Əmək Məcəlləsi respublikamızın Ali Soveti tərəfindən 1970-ci il 23 dekabr tarixdə təsdiq edilmiş və bu qanun 1971-ci ilin iyunun 1-dən qüvvəyə minmişdir. Doqquz bölmədən, iyirmi üç fəsildən, 135 maddədən ibarət olan İslah-Əmək Məcəlləsində Cinayət Məcəlləsinin 21-ci maddəsində nəzərdə tutulmuş azadlıqdan məhrum etmə, azadlıqdan məhrum etmədən islah işləri, sürgün, köçürmə cəzalarının çəkilməsi, bu cəza növlərinə məhkum edilmiş şəxslər barəsində islah-əmək təsiri tədbirlərinin görülməsi qaydası və şərtləri, cəzanın bu növləri barəsindəki hökmləri icra edən müəssisələrin və orqanların fəaliyyət qaydası, məhkumların islah edilməsində, yenidən tərbiyə olunmasında ictimaiyyətin iştirakı qaydaları öz əksini tapmışdır.

İslah-Əmək Məcəlləsinin qəbul olunduğu vaxtdan ötən müddət ərzində bu qanuna müxtəlif illərdə çoxsaylı dəyişiklik və əlavələr edilmişdir. Məsələn, Məcəlləyə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1977-ci il 28 mart tarixli Fərmanı ilə "Məhkumu məcburi əməyə cəlb etməklə azadlıqdan şərti məhrum etməyin və məhkumu məcburi əməyə cəlb etməklə azadlıqdan məhrum etmə yerlərindən şərti azad etməyin icra qaydası və şərtləri" adı altında yeni – üçüncü – A bölməsi əlavə edilmişdir ki, o da, 82-1-82-5-ci maddələri əhatə edən on beşinci-A fəslindən ibarətdir. Beləliklə, 1977-ci ilin martından Azərbaycan Respublikasının İslah-Əmək Məcəlləsi artıq beş cəza növünün icrası qaydalarını və şərtlərini tənzimləmişdir. Ümumiyyətlə, İslah-Əmək Məcəlləsinin qəbul

olunmasından ötən müddət ərzində 70-dən çox maddəyə müxtəlif xarakterli dəyişiklik və əlavələr edilmişdir. Məsələn, ömürlük azadlıqdan məhrum etmə cəzasının cəza sisteminə daxil edilməsi ilə əlaqədar, bu kateqoriyalı məhkumların saxlanılması rejimini müəyyən etmək məqsədilə İslah-Əmək Məcəlləsinə 33-1-ci maddə əlavə olunmuşdur.

Bundan əlavə, Məcəlləyə yeni maddələr əlavə edilmiş, dövrün tələbləri ilə uzlaşmayan maddələr isə çıxarılmışdır. Belə ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsindən sürgün və köçürmə kimi cəza növlərinn çıxarılması ilə əlaqədar, İslah-Əmək Məcəlləsinin həmin cəzaların icrası qaydası və şərtlərinə həsr olunmuş 83-95-ci maddələri əks etdirən 16, 17-ci fəsilləri əhatə edən dördüncü və beşinci bölmələri qüvvəsini itirmişdir.

Ədalət naminə qeyd etmək lazımdır ki, sürgün və köçürmədən cinayət cəzaları kimi respublikanın məhkəmə təcrübəsində çox nadir hallarda istifadə olunurdu. İslah-Əmək Məcəlləsinin 6-cı maddəsinin keçmiş redaksiyasına uyğun olaraq, sürgünə məhkum edilmiş şəxslərin cəza çəkdikləri yerlərin siyahısı SSRİ Nazirlər Soveti və Azərbaycan SSR Nazirlər Soveti tərəfindən müəyyən olunmalı idi. Lakin qanunda olan həmin göstərişə baxmayaraq, təcrübədə bu hüquq SSRİ-nin Daxili İşlər Nazirliyi tərəfindən həyata keçirilirdi. Azərbaycan SSR-in məhkəmələri tərəfindən sürgün cəzasına məhkum olunan şəxslər, respublikamız müstəqillik əldə edənə kimi respublikadan kənarda, o cümlədən SSRİ Daxili İşlər Nazirliyinin 31 mart 1982-ci il tarixli əmri ilə təsdiq edilmiş Təlimata əsasən Qazaxıstan SSR-nin Daxili İşlər Nazirliyinin sərəncamına göndərilir və bu respublikanın müəyyən olunmuş ərazisində cəza çəkirdilər.

Əvvəllər İslah-Əmək Məcəlləsinin 2-ci maddəsinin dördüncü hissəsində göstərilirdi ki, cinayət cəzalarının (intizam batalyonuna göndərmə istisna olmaqla) başqa növlərini icra və çəkilmə qaydası şərtləri SSR İttifaqının qanunvericiliyi və Azərbaycan SSR-in qanunvericiliyi ilə müəyyən olunmalıdır. Qanundakı bu göstərişə baxmayaraq, İslah-Əmək Məcəlləsində öz əksini tapmamış digər

cəzaların icrası mexanizmini göstərən yeni hüquqi sənəd uzun müddət qəbul olunmamış və məsələ əvvəllər qüvvədə olan müvafiq nazirliklərinin normativ aktlarlına uyğun tənzimlənirdi. Bu hüquqi boşluq, yalnız SSRİ Ali Sovetinin Rəyasət Heyəti tərəfindən 15 mart 1983-cü il tarixdə “Məhkumlara islah-əmək təsiri tədbirləri ilə bağlı olmayan cinayət cəzalarının icrası qaydası və şərtləri haqqında Ümumittifaq Əsasnamə“sinin qəbul olunması ilə aradan qaldırıldı. Bu Əsasnaməyə uyğun olaraq “Məhkumlara islah-əmək təsiri tədbirləri ilə bağlı olmayan cinayət cəzalarının Azərbaycan SSR-də icrası qaydası və şərtləri haqqında” yeni Əsasnamə hazırlanaraq, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1 fevral 1984-cü il tarixli Fərmanı ilə təsdiq edilmişdir. Həmin Əsasnamədə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 27-30, 32-33-cü maddələrində nəzərdə tutulmuş, müvafiq olaraq vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, vəzifədən çıxartma, cərimə, ictimai məzəmmət, əmlak müsadirəsi, rütbə və ya fəxri adlardan, habelə dövlət mükafatlarından məhrum etmə cəzalarının, bəzi keçmiş SSRİ respublikalarının Cinayət məcəllələrində olmayan, lakin respublikamızın Cinayət Məcəlləsinin 34-cü maddəsində öz əksini tapmış valideynlik hüququndan məhrum etmə cəzasının icrası qaydası və şərtləri göstərilmişdir. Beləliklə, Əsasnamədə Cinayət Məcəlləsində göstərilən digər yeddi cəza növünün icra mexanizmi təsbit edilmişdir.

Azərbaycan SSR İslah-Əmək Məcəlləsinin ilkin redaksiyasının 2-ci maddəsinin 3-cü hissəsində Cinayət Məcəlləsinin 31-ci maddəsində nəzərdə tutulan intizam batalyonuna göndərmə cəzasının çəkilməsi qaydasının və şərtlərinin SSR İttifaqının qanunvericiliyi ilə tənzimlənməsi göstərilmişdi. Lakin, İslah-əmək qanunvericiliyinin Əsaslarının 1969-cu ildə qəbul olunmasına baxmayaraq, intizam batalyonuna göndərmə cəzasının icrası qaydası və şərtləri haqqında SSR İttifaqı səviyyəsində yeni normativ sənəd qəbul olunmadığından, bu cəza növü 1966-cı ildə SSRİ Ali Soveti Rəyasət Feyətinin Fərmanı ilə qüvvəyə minmiş sabiq Əsasnaməyə

uyğun icra olunurdu. Yeni Əsasnamənin qəbul olunması zəruriliyi yaransa da, uzun müddət bu məsələ həll olunmamışdı. Yalnız SSRİ Ali Soveti Rəyasət Heyətinin 21 aprel 1983-cü il tarixli Fərmanı ilə təsdiq edilmiş yeni Əsasnamədə bu cəza növünü islah-əmək qanunvericiliyinin əsaslarının tələblərinə uyğun icrası öz əksini tapmışdır. Həmin Əsasnamə mətbuatda çap olunmamış, lakin SSRİ Müdafiə Nazirliyinin müvafiq əmri ilə elan olunmuşdu.

Dövlətimiz öz müstəqilliyini elan etdikdən, özünün ordusunu yaratdıqdan sonra, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 31-ci maddəsində təsbit olunan cinayət etmiş hərbi qulluqçuları intizam batalyonuna göndərmə cəzasının icrası qaydasını və şərtlərini nizamlayan yeni qanunverici sənədə ehtiyac yaranmışdı. Bu problem Azərbaycan Respublikası Prezidentinin 23 iyul 1992-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Silahlı Qüvvələrində İntizam batalyonu haqqında Əsasnamə"nin qəbul edilməsilə həll olundu. Bu Əsasnamə intizam batalyonuna göndərmə cəzasının icra qaydası və şərtlərini, həmin cəzanı icra edən orqanın fəaliyyəti ilə bağlı məsələləri tənzimləyir. Sənədin qəbul olunması ilə əlaqədar, respublikamızda Müdafiə Nazirliyinin tərkibində ilk dəfə olaraq intizam batalyonu yaradıldı, bu qurum xususi hərbi hissə kimi fəaliyyət göstərməyə başladı. SSRİ qurumu dağılana kimi, respublikamızın ərazisində yerləşən hərbi hissələrdə müddətli xidmət edən və etdiyi cinayətə görə intizam batalyonuna göndərilməyə məhkum olunmuş şəxslər Zaqafqaziya hərbi dairəsinin tabeliyində olan və Tbilisi şəhərində yerləşən xüsusi hərbi hissəyə göndərilirdilər.

Keçmiş SSRİ-nin digər respublikalarında olduğu kimi, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1982-ci il 4 noyabr tarixli Fərmanı ilə Cinayət Məcəlləsində dəyişikliklər edilmiş və cəza növlərini müəyyən edən 21-ci maddəyə yeni cəza növü - Tərbiyə-əmək profilaktoriyasına göndərmə cəzası əlavə olunmuşdur. Cinayət Məcəlləsinə bu Fərmanla əlavə olunmuş yeni 31-1-ci maddəyə əsasən, məhkəmə avaralığa və dilənçiliyə, yaxud tufeyli həyat sürməyə görə bir ildən iki ilədək müddətə azadlıqdan məh-

rum etmə cəzası, aliment verməkdən və ya uşaqlarını saxlamaqdan qəsdən boyun qaçırmağa görə bir ilədək müddətə azadlıqdan məhrum etmə cəzası təyin edərkən, işin hallarını və müttəhimin şəxsiyyətini nəzərə alaraq, azadlıqdan məhrum etmə cəzası əvəzinə eyni müddətə Tərbiyə-əmək profilaktoriyasına göndərmə növündə cəza tətbiq edə bilərdi. Bu cəzanın icrasını tənzimləmək məqsədi ilə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1 mart 1983-cü il tarixli Fərmanı ilə "Tərbiyə-əmək profilaktoriyası haqqında Əsasnamə" təsdiq olunmuşdur.

Yuxarıda sadalanan normativ aktlarda Cinayət Məcəlləsinin 21-ci maddəsinə daxil olan bütün cəzaların icrası qayda və şərtləri nəzərdə tutulmuşdur. Lakin məlumdur ki, Cinayət Məcəlləsində cəza növləri sırasına daxil olmayan, xüsusi olaraq nəzərdə tutulmuş hallarda tətbiqinə yol verilən, müstəsna cəza tədbiri-ölüm cəzası da mövcuddur. Əfsuslar olsun ki, istər keçmiş SSRİ-də, istərsə hal-hazırda respublikamızda bu cəza növünün icrası qaydası və şərtləri qanunvericilik səviyyəsində tənzimlənmir. Həmin cəzanın icrası qaydası və şərtləri SSRİ Daxili İşlər Nazirliyinin məxfi əmrləri ilə müəyyən olunmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsinə əsasən, cəzaların icrasını tənzimləyən qanunvericilik sisteminə yuxarıda qeyd olunan normativ-hüquqi aktlardan başqa, Azərbaycan Respublikası Prezidentinin bu sahənin fəaliyyəti ilə əlaqədar fərmanları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları və mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktları da daxildir. Ölkə Konstitusiyasının istinad edilən maddəsinin 2-ci hissəsinə əsasən, Azərbaycan Respublikasının bu sahə ilə əlaqədar tərəfdar çıxdığı beynəlxalq müqavilələr, sazişlər də cəzaların icrasını tənzimləyən qanunvericilik sisteminin tərkib hissəsi hesab edilir.

Cəzaların icrasını tənzimləyən qanunvericiliyin vəzifələri məzmun etibarı ilə cəzanın məqsədlərilə demək olar ki, üst-üstə düşür. Bunlar məhkumu islah etmək və yenidən tərbiyələndirmək, məhkum və başqa şəxslər tərəfindən yeni cinayət törədilməsinin

qarşısını almaq kimi vəzifələrdir. Göstərilənlər cəzaların icrasını tənzimləyən qanunvericiliyi cinayət qanunvericiliyi ilə sıx bağlılığını göstərir. Lakin İslah-Əmək Məcəlləsinin 1-ci maddəsinə əsasən, cəzaların icrasını tənzimləyən qanunvericiliyin əsas vəzifəsi cəzaların icrası qaydası və şərtlərini tənzimlənməkdir. Bundan əlavə, arzu edilən daha bir nəticənin əldə olunması, yəni cinayətkarlığın kökünün kəsilməsinə kömək edilməsi cəzalarının icrasını tənzimləyən qanunvericiliyin qarşısında qoyulmuş əlavə vəzifədir.

***İstinad edilmiş mənbə:***

***Cəza və onun icrası. Bakı, "Hüquq ədəbiyyatı nəşriyyatı, 1999. Səh. 13–19.***

## Yeni İslah-Əmək (Cinayət-İcra) Məcəlləsi haqqında

1995-ci ilin noyabr ayının 12-də ümumxalq səsvermə (referendum) yolu ilə qəbul olunmuş Azərbaycanın ilk müstəqil Konstitusiyasında respublikamız demokratik və hüquqi dövlət elan edilmişdir. Hüquqi dövlətin əsas göstəricilərindən biri mükəmməl qanunların mövcudluğu və onlara hörmət edilməsidir. Bu göstəricinin özülü artıq Konstitusiyada qoyulmuş və onun möhkəmləndirilməsi məqsədi ilə ölkəmizdə hüquq sahəsində islahatların keçirilməsinə başlanmışdır. Lakin, bu çətin işin məqsədyönlü, ardıcıl və planlı aparılması zərurəti yaranmışdır. Bununla əlaqədar Azərbaycan Respublikası Prezidenti H. Əliyev cənabları "Azərbaycan Respublikasının Prezidentinin yanında hüquqi İslahat Komissiyasının yaradılması haqqında" 21 fevral 1996-cı il tarixli Sərəncam imzalamışdır. Hüquqi islahat komissiyasının yaradılmasında məqsəd Azərbaycan Respublikası Konstitusiyasının müddəalarının həyata keçirilməsi, demokratik təsisatların və qanunun aliliyi prinsipinin möhkəmləndirilməsi, hüquqi islahatların aparılması sahəsində qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin qarşılıqlı fəaliyyətinin təmin edilməsi olmuşdur. Azərbaycan Prezidenti H.Əliyev cənablarının sədrliyi ilə 1995-ci ilin mart ayının 4-də keçirilən bu komissiyanın ilk iclasında yeni Konstitusiyaya uyğun qanunların işlənib hazırlanmasının vacibliyi vurğulanmış və məhkəmə, hüquqmühafizə orqanlarının islahatı ilə əlaqədar qanunların hazırlanmasının və qəbul edilməsinin böyük əhəmiyyət kəsb etdiyi xüsusi ilə qeyd edilmişdir. Bu iclasda bir neçə qanunun, o cümlədən İslah-Əmək Məcəlləsinin layihələrinin hazırlanması və onların müzakirəyə çıxarılmasına ciddi ehtiyac olduğu bildirilmişdir.

Bununla əlaqədar, yəni İslah-Əmək (bu hüquq sahəsini alimlər cinayət-icra sahəsi də adlandırırlar və bir neçə ölkənin Konstitusiyasında bu anlayışdan istifadə olunur) Məcəlləsinin yeni layihəsinin hazırlanması üzrə öz fikirlərimizi bildirmək istərdik. Öncə bu sahənin işini tənzimləyən və hal-hazırda qüvvədə olan qanunveri-

cilik sistemi ilə qısa şəkildə tanış olmaq daha məqsədəuyğun olardı.

Hazırda Azərbaycan Respublikasının islah-əmək qanunvericiliyi sistemi aşağıda qeyd olunan normativ-hüquqi aktlardan ibarətdir:

– SSR İttifaqı və müttəfiq respublikaların islah-əmək qanunvericiliyinin Əsaslarından;

– İslah-Əmək Məcəlləsindən;

– Azərbaycan Respublikası Silahlı Qüvvələrində İntizam batalyonu haqqında Əsasnamədən;

– Məhkumlara islah-əmək təsiri tədbirləri ilə bağlı olmayan cinayət cəzalarının icrası qaydası və şərtləri haqqında Əsasnamədən;

– Tərbiyə-əmək profilaktoriyası haqqında Əsasnamədən.

İslah-əmək qanunvericiliyinin Əsasları SSR Ali Sovetinin 11 iyul 1969-cu il tarixli Qanunu ilə təsdiq olunmuş və 1 noyabr 1969-cu ildən qüvvəyə minmişdir. Bu Əsaslarda cinayət cəzalarının icrasının və çəkilməsinin prinsipləri, onların ümumi qaydaları təsbit edilmişdir. Həmin Əsaslara uyğun Azərbaycan SSR-nin 1970-ci ilin dekabrında İslah-Əmək Məcəlləsi qəbul edilmiş və bu qanunvericilik aktı 1971-ci ilin iyunun 1-dən qüvvəyə minmişdir. Sonrakı illərdə, xüsusilə 1982-1983-cü illərdə cəzaların icrasının nizamlayan yuxarıda sadalanan digər normativ-hüquqi aktlar qəbul olunmuş, müstəqillik illərində, yəni 1992-2000-ci illərdə həmin qanunvericilik təkmilləşdirilmişdir.

Təhlil göstərdi ki, Cinayət Məcəlləsində nəzərdə tutulmuş bütün cəzaların icrası mexanizmlərini tənzimləyən normativ aktlar müxtəlif illərdə və səviyyələrdə qəbul olunmuşdur. Vaxt ötdükcə cəzaların icrasını tənzimləyən bu normativ aktlar köhnəlmiş, bir çox institutlar, normalar demək olar ki, işləmir, təcrübədə öz həllini gözləyən problemlər qarşıya çıxmış və buna görə də onların günün tələbləri səviyyəsində işlənib hazırlanmasına ehtiyac yaranmışdır.

Fikrimizcə, Azərbaycanın yeni İslah-Əmək (yaxud Cəza-icra)

Məcəlləsi aşağıda göstərilən tələblər gözlənilməklə işlənib hazırlanmalıdır:

– layihə Konstitusiyamıza zidd olmamalı, qüvvədə olan qanunların tələbləri gözlənilməli, xalqımızın adət və ənənələri, müsəlman dünyasına, dinimizə, psixologiyamıza xas olan xüsusiyyətlər nəzərə alınmalıdır;

– layihə birinci növbədə cəmiyyətimizin və vətəndaşların təhlükəsizliyinin təmin olunmasına yönəlməlidir;

– məcəllə, cinayət qanununun cəza institutu qarşısında qoyduğu əsas vəzifələri-sosial ədalətin bərpası, məhkumun islahı, yeni cinayətlərin baş verməsinin (istər məhkum tərəfindən, istər digər şəxslər tərəfindən) qarşısının alınması vəzifəsinin yerinə yetirilməsini təmin etməlidir;

– burada Cinayət Məcəlləsində nəzərdə tutulmuş bütün cəzaların icra qaydası və şərtləri öz əksini tapmalıdır. Bu tələb müstəsna cəza tədbiri-ölüm cəzasına da aiddir;

– respublikamızın qoşulduğu, qəbul etdiyi insan və vətəndaş hüquqlarının, azadlıqların gözlənilməsinə, xüsusilə cinayət törətməklə əlaqədar məcburi dövlət təsiri tədbirlərinə məruz qalmış şəxslərlə davranışa həsr olunmuş beynəlxalq konvensiyaların, sazişlərin müddəaları nəzərə alınmalı və lazımi hallarda, onlara üstünlük verilməlidir;

- cəzaların icrası sahəsində dövlətimizin, keçmiş SSRİ-nin tərkibinə daxil olan respublikaların, digər dünya ölkələrinin təcrübəsi, görkəmli alimlərin, praktiki işçilərin təklifləri, tövsiyələri bir daha nəzərdən keçirilməlidir;

– qüvvədə olan islah-əmək qanunvericiliyində hal-hazıra kimi öz aktuallığını itirməmiş, təcrübədə özünü müsbət göstərmiş, islah işinə xidmət edən normaların saxlanması məqsədə müvafiq olardı;

– dövlətimizdəki iqtisadi vəziyyətlə hesablaşmaq vacibdir. İslah-Əmək (Cəza-icra) Məcəlləsi qarşısında yerinə yetirilməsi maliyyə imkanları baxımından mümkün olmayan problemlər qoyulması, qanunun tam həcmdə işləməsinə ciddi maneçilik yarada

bilər;

– respublikamızda mövcud və perspektiv kriminogen vəziyyətlə, cinayətkarlığın dinamikası, strukturu, məhkumların tərkibi ilə hesablaşmaq lazımdır.

Ən nəhayət, onu da qeyd etmək istərdik ki, yeni İslah-Əmək Məcəlləsi yalnız öz nizamasalma predmetinə aid olan, yəni cəzaların icrası ilə əlaqədar qarşıya çıxan ictimai münasibətləri tənzimləməlidir.

Məhz buna görə də cəza-icra sahəsində qarşıya çıxan digər münasibətlərin nizamlanması üçün İslah-Əmək Məcəlləsi qəbul edildikdən sonra digər bir neçə qanunun qəbul olunması da günün vacib məsələlərindən olacaq. Fikrimizcə, bu qanunlar aşağıda göstərilənlər ola bilər:

– "Cəzanı icra edən orqanlar və müəssisələr haqqında" və ya "Pentensiar sistem haqqında";

– "Cəzadan azad olunmuş şəxslərin sosial adaptasiyası və onların davranışına nəzarət haqqında";

– "Cinayət törətməkdə şübhəli sayılanların və müttəhimlərin ilkin həbs yerlərində saxlanması haqqında".

Yuxarıda qeyd olunan tələblər baxımından hal-hazırda Müstəqil Dövlətlər Birliyinin Parlamentlərarası Assambleyasında işlənib hazırlanan Cinayət-İcra Məcəlləsinin model layihəsi diqqəti cəlb edir. Respublikamızın Milli Məclisinin aparatının, Ədliyyə Nazirliyinin elmi və praktiki əməkdaşlarının, (o cümlədən, müəllifin bilavasitə iştirakı ilə) Sankt-Peterburq şəhərində işlənib hazırlanmış qanun layihəsi dövlətimizin müstəqil İslah-Əmək (Cəza-icra) məcəlləsinin hazırlanması işində istifadə olunmağa layiqdir. MDB-yə daxil olan dövlətlərin və Ukrayna Respublikası nümayəndələrindən ibarət yaradılmış İşçi qrupunda bu sahədə tanınmış alimlər, prokurorluq, ədliyyə, daxili işlər orqanlarının əməkdaşları, bir neçə ölkənin qanunverici orqanlarının deputatları, aparıcı mütəxəsisləri, elmi-tədqiqat, ali təhsil müəssisələrinin işçiləri gərgin çalışmışlar. Qanun layihəsi işlənib hazırlanan dövrdə Rusiya, Ukrayna, Belarus, Qazaxıstan respublikalarında praktiki ola-

raq model layihədən o qədər də fərqlənməyən Cinayət-İcra məcəllələrinin layihələri hazırlanmış və bu ölkələrin qanunverici orqanlarına təqdim edilmişdir. Moldova Respublikasında isə artıq Cinayət-İcra Məcəlləsi qəbul edilmişdir.

Parlamentlərarası Assambleyada hazırlanmış Cinayət-İcra Məcəlləsinin model layihəsində bu dövlətlərarası strukturun 17 fevral 1996-cı il tarixli umumi iclasında qəbul edilmiş Cinayət Məcəlləsinin model layihəsində nəzərdə tutulmuş bütün cəzaların, o cümlədən ölüm cəzasının icrası qaydası və şərtləri qanunvericilik səviyyəsində öz həllini tapmışdır.

Layihədə hal-hazırda qüvvədə olan Azərbaycanın Cinayət Məcəlləsində nəzərdə tutulmamış: ictimai işlər, həbs, yetkinilk yaşına çatmayan şəxslərin asudə vaxtına məhdudiyyət qoyulması, azadlığın məhdudlaşdırılması, hərbi xidmət üzrə məhdudlaşdırma kimi yeni cəza növləri daxil edilmişdir. Bundan əlavə, tətbiq edilməsi nəzərdə tutulan azadlıqdan məhrum etmənin daha bu növünün-müddətsiz, yəni ömürlük azadlıqdan məhrum etmə cəzasının da icra mexanizmi işlənib hazırlanmışdır. Şərh olunan qanun layihəsində penitensiar sahədə əvvəllər qəbul olunmuş beynəlxalq müqavilələrdən, habelə digər aktlardan, xüsusilə BMT-nin hələ 1955-ci ilin 30 avqust tarixində İsveçrənin Cenevrə şəhərində qəbul olunan "Məhbuslarla davranışın minimal standart qaydaları" adlanan sənəddən irəli gələn tələblər nəzərə alınmışdır. Burada artıq öz məzmununu, səmərəliyini itirmiş, mövcud şəraitin tələbləri ilə uyğunlaşmayan, təcrübədə özünü doğrultmayan normalar ləğv edilmiş, saxlanılması o qədər vacib olmayan lüzumsuz qadağaların aradan götürülməsi, məhkumların hüquq və imtiyazların dairəsinin artırılması, onların şəxsi təhlükəsizliyinin təmin olunması, cəzanı icra edən orqan və müəssisələrin səlahiyyətlərinin genişləndirilməsi nəzərdə tutulmuşdur. Sənəddə uzun illər təcrübədə müvafiq fəaliyyət sahəsində çalışan işçi heyətinin qarşılaşdığı və qanunvericilkdə həlli göstərilməyən bir sıra vacib suallar, problemlər öz cavabını tapmışdır.

Model məcəllədə azadlıqdan məhrum etmə cəzasına daha ge-

niş yer verilmişdir. Belə məhkumların bir cəzaçəkmə müəssisəsi çərçivəsində müxtəlif şəraitlərdə (adi, yüngülləşdirilmiş, ciddi) saxlanılması nəzərdə tutulmuşdur. Məhkumların saxlanma şəraitinin dəyişməsi onların cəza müddəti ərzində davranışından, əməyə münasibətindən və islah yoluna qədəm qoymasından daha çox asılı olacaqdır. Layihədə müəyyən müddətə azadlıqdan məhrum edilmiş şəxslərə məzuniyyət verilməsi, onların islah-əmək müəsisəsində işlədikləri vaxtın iş stajına hesablanması, həyatlarının sığorta edilməsi, müvafiq yaşa çatdıqda pensiya ödənilməsi və digər yeni imtiyazlar öz əksini tapmışdır. Qeyd olunanları nəzərə çatdırmaqla, məqsədimiz heç də tövsiyə xarakteri daşıyan layihənin hərtərəfli ideal olmasını göstərmək deyildir. Lakin, buna baxmayaraq, layihədən istifadə olunması Azərbaycan Respublikasının yeni Cinayət-İcra (Cəza-icra) Məcəlləsinin hərtərəfli, demokratik, hüquqi dövlət səviyyəsində hazırlanması işinə müəyyən köməklik göstərmiş olardı.

***İstinad edilmiş mənbə:***

***"Qanunçuluq" jurnalı. Bakı, 1996. № 10, Səh. 22–28.***

# Humanizmin yeni nümunəsi

Azərbaycan Respublikasının Prezidenti möhtərəm H.Əliyev cənabları dövlətimizin qanunverici orqanı olan Milli Məclis tərəfindən 7 fevral 1997-ci il tarixdə qəbul olunmuş "Azərbaycan Respublikasının İslah-Əmək Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi haqında" Azərbaycan Respublikasının Qanununun tətbiqi barədə 26 fevral 1997-ci il tarixli Fərman imzalamış, Nazirlər Kabineti, Ədliyyə və Səhiyyə nazirlikləri qarşısında müvafiq vəzifələr müəyyən etmişdir. Bu qanunun giriş hissəsində onun qəbul olunma məqsədi aydın şəkildə göstərilmiş və qeyd olunmuşdur ki, bu sənəd cinayətə görə cəzanın icrasının daha da təsirli olmasına, məhkumların insan hüquqlarının qorunmasına, dövlətimizin bu sahədəki qanunvericiliyinin məhkumların saxlanması şəraiti haqqında ümumi qəbul olunmuş beynəlxalq normalara uyğunlaşdırılmasına yönəlmişdir. Məlum olduğu kimi, hazırda Azərbaycan Respublikasının İslah-Əmək Məcəlləsi islah-əmək təsiri ilə bağlı olan cinayət cəzalarının, azadlıqdan məhrum etmə, azadlıqdan məhrum etmədən islah işləri, məhkumu mütləq əməyə cəlb etməklə azadlıqdan məhrum etmə yerlərindən şərti azad etmənin icrası qaydalarını və şərtlərini tənzimləyir.

Qanunun təhlili göstərir ki, 1971-ci ilin iyun ayının 1-dən qüvvəyə minmiş, müxtəlif illərdə dəyişikliklər, əlavələr edilmiş qüvvədə olan İslah-Əmək Məcəlləsinə yeni yeddi maddə, bir bölmə, bir fəsil əlavə olunmuş, 12 maddəyə müxtəlif əlavələr edilmiş, 37 maddə isə çıxarılmışdır. Beləliklə, qanuna edilmiş əlavə və dəyişikliklər praktiki olaraq, İslah-Əmək Məcəlləsinin əksəriyyət maddələrini əhatə etmiş, dövlətimizin yeni Konstitusiyasının, qəbul edilmiş yeni qanunlarının tələbləri nəzərə alınmışdır. Yeni qanunun cəzaların icrası sahəsində əsasən üç istiqamətə yönəlməsi daha qabarıq nəzərə çarpır. Əvvəla, məcəllədə öz əhəmiyyətini, vacibliyini itirmiş, mövcüd şəraitin tələbləri ilə uzlaşmayan, təcrübədə özünü doğrultmayan normalar ləğv edilmiş, islah işinə qulluq etməyən lüzumsuz qadağalar aradan götürülmüşdür. İkin-

cisi, cəza çəkənlərin hüquq, azadlıqları və onlara şamil edilə biləcək imtiyazlar xeyli artırılmışdır. Üçüncüsü, cəzanı icra edən müəssisə və orqanların işçi heyətinin hüquqi vəziyyəti birbaşa qanunda öz əksini tapmışdır.

Fikrimizcə, İslah-Əmək Məcəlləsinə edilmiş dəyişikliklərin və əlavələrin qeyd olunan ardıcıllıqla nəzərdən keçirilməsi yeni qanunun mahiyyətini və əhəmiyyətini daha düzgün dərk etməyə əlverişli zəmin yaradar. Göstərildiyi kimi, yeni qanunla əvvəllər məcəllədə mövcud olan bir çox qadağalar ləğv edilmişdir. İlk növbədə məhkumların mövcud sosial əlaqələrinin, ailənin saxlanmasına qulluq edən qadağaların ləğvi qeyd olunmalıdır. Əvvəla onu qeyd edək ki, möhkəmləndirilmiş, ciddi, xüsusi rejimli islah-əmək müəssisələrində, həbsxanada saxlanan şəxslərin yazışmalarında, daha dəqiq, onların məktub və teleqramlar göndərməsində olan məhdudiyyətlər aradan götürülmüşdür. Məlumat üçün bildiririk ki, əvvəllər qeyd olunan rejimli müəssisələrdə saxlanılan məhkumlar ay ərzində qohumlarına, tanışlarına, müvafiq olaraq ən çoxu üç, iki, bir məktub (teleqram), həbsxanada ciddi rejimdə saxlanılan şəxslər isə, iki ayda cəmi bir məktub (teleqram) göndərmək hüququna malik idilər. Sabiq normalara əsasən həbsxanada, tərbiyə-əmək müəssisələrində cəza çəkən şəxslərə uzun müddətli, həbsxananın ciddi rejimində saxlanılanlara isə, habelə qısa müddətli görüşlər də təqdim olunmurdu. Hal-hazırda tərbiyə-əmək müəssisəsində, həbsxananın ümumi rejimində cəza çəkənlərə uzunmüddətli görüşlərin təqdim olunmasına icazə verilmiş, həbsxanda ciddi rejimdə saxlanılanlara (bu iki aydan altı aya qədər müddəti əhatə edir) isə, müdiriyyətin qərarı ilə ildə iki qısamüddətli görüş verilməsi nəzərdə tutulmuşdur.

İslah-Əmək Məcəlləsinin 46-cı maddəsinə uyğun olaraq, əvvəllər islah-əmək koloniyalarında saxlanan məhkumlara yalnız müəyyən olunmuş cəza müddətinin yarısı çəkildikdən sonra və rejimdən asılı olaraq ildə ən çoxu üç bağlama və ya sovqat almağa icazə verilirdi, həbsxanalarda cəza çəkən şəxslər isə, bu hüquqdan tam məhrum olunmuşdular. Qeyd olunan maddəyə edilmiş dəyişikliklərlə əlaqədar, islah-əmək müəssisəsinin növündən və reji-

mindən asılı olmayaraq, cəza çəkmə yerlərində saxlanılan bütün məhkumlara bağlama, sovqat almaq hüququ verilmişdir. Bu hüququn həyata keçirilməsi üçün cəzanı çəkməyə başlamaq kifayətdir və heç bir müddət tələb olunmur. Bundan əlavə, qeyd etmək istərdik ki, islah-əmək müəssisələrində, həbsxanada cəza çəkən məhkumlara təqdim olunan görüşlərin, xüsusilə qısa müddətli görüşlərin, verilən sovqat və bağlamaların sayı bir neçə dəfə (ümumi rejimli islah-əmək müəssisəsində 16, möhkəmləndirilmiş rejimdə 12, ciddi rejimdə 6, xüsusi rejimdə 4 dəfə) artırılmışdır. İslah-Əmək Məcəlləsində nəzərdə tutulmuş bir sıra hallarda uzun müddətli görüşlərin müəssisələrin hüdudlarından kənarda keçirilməsinə də icazə verilmişdir. Məcəllədəki cəzanın çəkilməsi rejimi tələblərinin pozulmasına görə tətbiq edilə bilən tənbehlərin siyahısından məhkumu növbəti görüşdən, sovqat almaq hüququndan məhrum etmə və bir ay müddətinədək yeyinti məhsulları əldə olunmasının qadağan etmə tədbirlərinin qanundan çıxarılması sözsüz ki, məhkumun xarici aləmlə əlaqələrinin möhkəmlənməsini nəzərdə tutur.

Əvvəllər cəzanın çəkilməsi rejimi tələblərinin pozulmasına görə tənbeh tədbiri kimi tətbiq edilən islah-əmək müəssisələrində saxlanılan məhkumlar on beş günədək müddətə işə və təlimə çıxarılmaqla, yaxud da çıxarılmamaqla, cərimə təcridxanasına, tərbiyə-əmək müəssisələrində isə, on günədək intizam təcridxanasına, həbsxanalarda saxlanılan məhkumlar on beş günədək müddətə işə və təlimə çıxarılmaqla karserə keçirildikdə, bu şəxslərə yataq ləvazimatı verilmir, onların siqaret çəkməsi qadağan edilmişdi. Bundan əlavə, cərimə təcridxanasına, karserə salınmış şəxslər gündəlik gəzintiyə də çıxarılmırdılar. Hal-hazırda bu məhdudiyyətlər ləğv olunmuşdur. Cərimə təcridxanasına, kamera tipli binalara, həbsxanada karserə və ciddi rejimə keçirilə bilən məhkumların siyahısı məhdudlaşdırılmış və bu otaqlara birinci qrup əlillərin keçirilməsi qadağan olunmuşdur. Yeni qanunla bir təqvim ili ərzində intizam təcridxanasında, cərimə təcridxanasında, kamera tipli binalarda məhkumların maksimum saxlanma müddəti də konkret olaraq müəyyən olunmuş və onlar müvafiq olaraq, qırx, altmış sutka və altı ay təşkil edir. Bu müddətlərin əvvəllər müəyyən olunmaması,

təcrübədə müxtəlif qanun pozuntuları üçün zəmin yaradırdı.

İslah-Əmək Məcəlləsinin 50-ci maddəsinə uyğun olaraq, əvvəllər azadlıqdan məhrum etmə növündə cəza çəkən məhkumlara məzuniyyət hüququ verilmir və onların cəza çəkdikləri dövrdə işlədikləri vaxt əmək stajına daxil edilmirdi. Yeni qanunla edilmiş dəyişikliklə əlaqədar bu qadağalar aradan götürülmüş, məhkumlara hər il ödənişli məzuniyyət hüququ verilmiş və onların azadlıqdan məhrum etmə yerlərində cəza çəkdikləri dövrdə işlədikləri vaxtın ümumi əmək stajına daxil edilməsi nəzərdə tutulmuşdur. Lakin, müvafiq maddədə düzgün olaraq göstərilir ki, əgər məhkum sistematik olaraq əmək vəzifələrini yerinə yetirməzsə, məhkəmənin qərarı ilə işləmə müddəti ümumi əmək stajından çıxarıla bilər.

İslah-əmək Məcəlləsindəki yeniliklərə əsasən məhkumlara yeni hüquq və imtiyazlar da verilmişdir. Məcəllənin 41-ci maddəsinin yeni redaksiyasına uyğun olaraq, azadlıqdan məhrum etmə yerlərində məhkumlara müəyyən olunmuş qaydada il ərzində 6 dəfədən çox olmayaraq telefonla danışmaq, sığorta agentlikləri ilə sığorta müqavilələri bağlanmaq, respublikamızın ərazisində işləyən sertifikat, istiqraz vərəqləri və digər qiymətli kağızlar əldə etmək, tibbi məsləhət, müalicə almaq üçün pullu səhiyyə xidməti sisteminə müraciət etmək, xalqımıza xas olan xüsusiyyət kimi bığ saxlamaq hüquqları da verilmişdir. İslah-Əmək Məcəlləsinin 49-cu maddəsinə uyğun olaraq məhkumlara müdiriyyərin icazəsi ilə fərdi əməklə məşğul olmaq hüququ verilmiş, əmək haqqından tutulan məbləğlərdən asılı olmayaraq, cəza çəkənlərin müəssisədə adına açılmış şəxsi hesabına qazancından keçirilən məbləğlərin miqdarı orta hesabla iki dəfə artırılmışdır. Bundan əlavə, müəssisələrin saxlanması üçün məhkumların qazancından tutulan məbləğ də əmək haqqının yarısından otuz faizədək endirilmişdir. Bütün bunlar işləyən məhkumun, habelə onun ailəsinin maddi vəziyyətini nəzərəçarpacaq dərəcədə yaxşılaşdıracaqdır.

Dəyişikliklərlə məhkumların vicdan və dini etiqad azadlığına da təminat verilmişdir. Cəza çəkənlər istədikləri dinə etiqad etmək və ya etməmək hüququna malikdirlər. Koloniya-məntəqələrdə cəza çəkən və əməyə mütləq cəlb edilməklə şərti məhkum edil-

miş şəxslərin xahişi ilə onlara cəza çəkdikləri rayonun (şəhərin) inzibati ərazi hüdudları daxilində ibadətgahlara getmək hüququ verilmiş, azadlıqdan məhrum etmə cəzasını çəkən şəxslərin (karserlərdə, cərimə və intizam təcridxanalarında saxlanılan məhkumlardan başqa) xahişi ilə isə, onların yanına din xadimlərinin dəvət olunması nəzərdə tutulmuşdur. İslah-əmək müəssisələrində qanunvericilik ilə müəyyən olunmuş qaydada dini mərasimləri icra etməyə, dini ləvazimat və ədəbiyyatdan istifadəyə də icazə verilmişdir. Göstərilənlərdən əlavə, məhkumlara müdiriyyət tərəfindən onların hüquq və vəzifələrinin, əmək və istirahət şəraitlərini tam həcmdə izah olunması, cəzanın icrasını tənzimləyən qanunverici aktlarla və islah-əmək müəssisəsinin Daxili İntizam Qaydaları ilə tanış olmaqları üçün şərait yaradılması, cəza çəkənlərə öz hüquqi vəziyyətləri ilə bağlı daha yaxından məlumat almağa imkan verir.

İslah-Əmək Məcəlləsinə edilmiş dəyişikliklərlə məhkumlara şəxsi təhlükəsizlik hüququ verilmişdir. Həyatına, sağlamlığına, yaxud şəxsiyyətinə qarşı cinayət törədilməsi təhlükəsi yaranmış məhkumlar bu barədə müdiriyyətə müraciət etdikdə, ərizəni almış şəxs məhkumun təhlükəsiz yerə keçirilməsi üçün təxirəsalınmaz tədbir görməli, lazım gəldikdə, müəyyən olunmuş qaydada sonrakı cəza çəkmə yeri barəsində məsələni həll etməlidir. Qanunla məcəlləyə əlavə edilmiş islah-əmək müəssisələrinə yeni qəbul olunmuş məhkumların iki həftəyədək digər məhkumlardan ayrı saxlanması da cəza çəkənlərin təhlükəsizlik hüququnun təmin olunması tədbiri kimi qəbul olunmalıdır. Məhz bu tələb, cəza çəkmə yerinin rəhbərliyini məhkumun müvafiq müəssisədə saxlanmasının mümkünlüyünü ciddi şəkildə yoxlamağa məcbur edəcəkdir.

Şərh edilən qanunda respublikamızın ərazisində cinayət törətdiklərinə görə azadlıqdan məhrum edilmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər də yaddan çıxmamışdır. Məcəllədə bu şəxslərin cəza çəkmə yerlərinin Azərbaycan Respublikası hüdudlarından kənara dəyişdirilməsi, əcnəbilərin şəxsi məsələlər üzrə öz dövlətlərinin diplomatik və konsulluq nümayəndələri, müxtəlif milli, beynəlxalq təşkilatlara əlaqəyə girmələri ilə əlaqədar məsələlər öz həllini tapmışdır.

Əvvəllər qanunvericilik səviyyəsində tənzimlənməyən, təcrübədə birmənalı izah olunmayan bir məsələnin həlli xüsusilə qeyd olunmalıdır. İslah-Əmək Məcəlləsinin ilkin redaksiyasında rejimin qərəzli pozulması sözü (ifadəsi) işlədilsə də, qanunda onun hüququ anlayışı verilməmişdi. Bu da öz növbəsində təcrübədə müxtəlif yanaşmalara səbəb olmaqla müəyyən çətinliklər yaradırdı. Yeni qanunda bu problem öz həllini tapmışdır. Belə ki, məcəllənin 23-cü maddəsinə əlavə edilmiş qeyddə göstərilir ki, rejimin qərəzli pozulması dedikdə, məhkumun əməkdən əsassız imtinası, alkoqol, narkotik və digər məstedici vasitələr qəbul etməsi, saxlaması, əldə etməsi, habelə il ərzində hər biri üçün yazılı sürətdə tənbeh edilmiş üç dəfədən çox rejimi pozması başa düşülür. Məcəllədə bu anlayışın qanunla dəqiq müəyyənləşdirilməsi təqdirə layiqdir və təcrübədə böyük əhəmiyyət kəsb edəcəkdir.

Yuxarıda qeyd olunduğu kimi, Azərbaycan Respublikasının İslah-Əmək Məcəlləsinə yeni doqquzuncu bölmə, iyirmi dördüncü fəsil, yeddi: 11-1, 41-2, 75-1, 131-134-cü maddələr əlavə olunmuşdur.

Həmin Məcəllənin 11-1-ci maddəsi, cəzanın icrası üzərində yerli icra hakimiyyəti orqanlarının müşahidəsi və ictimai müşahidə məsələlərini tənzimləyir. Bu maddəyə əsasən yerli icra hakimiyyətlərinin başçıları bilavasitə və ya ictimai birlikləri cəlb etməklə, habelə müşahidə komissiyasının vasitəsi ilə öz ərazilərində yerləşən islah-əmək müəssisələri, xüsusi komendatlıqlar və cinayətə görə cəzanı icra edən digər orqanların fəaliyyətini müşahidə etmək hüququna malikdirlər. Bundan əlavə, yerli icra hakimiyyəti orqanlarının nəzdində fəaliyyət göstərən müşahidə komissiyasının üzvləri və icra hakimiyyəti başçısı tərəfindən müvəkkil edilmiş digər şəxslər islah-əmək müəssisələrinin rəhbərliyi ilə razılaşdırılmış qaydada, cəza çəkmə yerlərində məhkumlarla görüşmək, onların şikayətlərini qəbul etmək və onların baxılmasında iştirak etmək, məxfi-operativ sənədlər istisna olmaqla, bu iş üçün lazım olan sənədlərlə tanış olmaq hüququna malikdirlər.

İslah-Əmək Məcəlləsinə əlavə olunmuş 41-2-ci maddə, islah-əmək müəssisələrində xüsusi şərait rejiminin tətbiq olunması qay-

dasını nizamlayır. Azadlıqdan məhrum etmə yerlərində ictimai təhlükəsizliyə qarşı, məhkumların və işçi heyətinin sağlamlığı üçün təhlükə yaradan kütləvi ixtişaşlar baş verdikdə, islah-əmək müəssisəsinin istehsalat sahəsində, müxtəlif obyektlərində işlərin otuz gün müddətində məhdudlaşdırılması və ya dayandırılması nəzərdə tutulmuş, bu tədbirlərin tətbiq olunması və uzadılması qaydaları təsbit olunmuşdur.

Məcəllənin yeni 75-1-ci maddəsi hamilə qadınların, süd əmizdirən anaların və üç yaşınadək uşaqları olan qadınların azadlıqdan məhrum etmə cəzasını çəkməsinin xüsusiyyətlərini göstərmişdir. Bu maddəyə əsasən islah-əmək müəssisələrində zəruri hallarda uşaq evlərinin təşkil olunması, hamilə, üç yaşınadək uşaqları olan qadınların belə yerlərə göndərilməsi nəzərdə tutulmuşdur. Əlavə olaraq bildirilir ki, qanuna edilmiş əlavəyə əsasən uşaq evlərində olan qadınlara qanunvericiliyə uyğun olaraq, uşağa qulluğa görə müavinət almaq hüququnun verilməsi, məhkum qadınlara və onların uşaqlarına dövlət tərəfindən göstərilən qayğı kimi qiymətləndirilməlidir.

İslah-Əmək Məcəlləsinə əlavə edilmiş yeni doqquzuncu bölmə və iyirmi dördüncü fəsilin adları eynidir və "Cəzanın icrasını, şərti məhkum edilmişlər və şərti azad olunmuşlar üzərində nəzarəti həyata keçirən islah-əmək müəssisəsi və orqanlarının işçi heyəti" adlanır. Buraya daxil edilmiş 131–134-cü maddələr ilk dəfə olaraq qanunvericilk səviyyəsində işçi heyətinə qarşı qoyulan tələbləri göstərir, onların məsuliyyət, hüquqi vəziyyət, sosial müdafiəsi məsələlərini tənzimləyir. Yeni fəsildə işçi heyətinin, yəni cəzanı icra edən müəssisə və orqanlarının əməkdaşlarının, habelə onların ailə üzvlərinin dövlət tərəfindən müdafiə olunması, qeyd olunan müəssisələrdə çalışanların şəxsiyyətinin toxunulmazlığının, şərəf və ləyaqətinin qanunla qorunması, işçilərin öz vəzifələrini yerinə yetirməsinə maneçilik törədən hərəkətlərin qanunla təqib olunmasının təsbiti diqqətə layiqdir. Pensiya təminatı sayəsində əməkdaşlara verilmiş yeni imtiyazlar da sözsüz ki, böyük əhəmiyyət kəsb edir. Belə ki, bilavasitə islah-əmək müəssisələrində, istintaq təcridxanalarında və azadlıqdan məhrum etmə yerlərinin müalicə müəssisələrində işləyən əməkdaşlara pensiya təyin edilərkən, işlə-

dikləri illərin hesablanması üç iş günü, dörd iş günü kimi, yoluxucu xəstə məhkumların saxlanması və müalicəsi üçün nəzərdə tutulmuş islah-əmək müəssisələrində işləyən əməkdaşlara isə, iki iş günü üç iş günü hesablanacaqdır.

Beləliklə, Azərbaycan Respublikasının İslah-Əmək Məcəlləsinə 07 fevral 1997-ci il tarixdə edilmiş dəyişiklik və əlavələrin təhlili göstərir ki, yeni qanun həqiqətən özünün giriş hissəsində bəyan etdiyi məqsədlərin yerinə yetirilməsinə qulluq edir və dövlət başçısı, möhtərəm Prezidentimiz H.Əliyev cənablarının rəhbərliyi altında respublikamızda həyata keçirilən hüquq islahatları sahəsində atılan vacib addım kimi qəbul olunmalıdır. Yeni qanun Azərbaycan Respublikası Konstitusiyasının müddəalarının həyata keçirilməsinə, demokratik təsisatların və qanunun aliliyi prinsiplərinin möhkəmləndirilməsinə, 1995-ci ilin ikinci yarısında ölkə Prezidenti H.Əliyev cənablarının əfv fərmanları ilə bünövrəsi qoyulan və dövlətimizdə ardıcıl həyata keçirilən cinayət, cəza-icra siyasətinin humanistləşməsinə bariz sübutdur. Əminik ki, insan hüquqlarının, o cümlədən, cəza çəkən şəxslərin hüquqlarının təmin olunması naminə İslah-Əmək Məcəlləsinə edilmiş dəyişikliklər və əlavələr təkcə respublikamızda deyil, dünyanın müxtəlif ölkələri, beynəlxalq təşkilatlar, bütün insanpərvər, demokratik ictimaiyyət tərəfindən müsbət addım, humanizmin yeni nümunəsi kimi qəbul ediləcək və dövlətimizin qısa bir müddət ərzində mötəbər təşkilat olan Avropa Şurasına həqiqi üzv kimi qəbul olunması işində vacib amillərdən biri kimi rol oynayacaqdır.

***İstinad edilmiş mənbə:***

***“Qanunçuluq” jurnalı. Bakı, 1997. № 3, Səh. 20–25.***

## Cəzaların İcrası Məcəlləsinin yeni layihəsi haqqında

Azərbaycan Respublikasında cəzaların icrası qaydalarını tənzimləyən qanunvericilik aktı kimi hazırlanmış Cəzaların İcrası Məcəlləsinin yeni layihəsi cəzaların çəkilməsi qaydalarını və şərtlərini müəyyən etməklə müstəqil Azərbaycan Respublikasında həyata keçirilən hüquqi islahatların tərkib hissəsi kimi qiymətləndirilməlidir. Yeni Məcəllə ümumən cəmiyyətin təhlükəsizliyinin təmin edilməsinə xidmət etməklə, cəzaların icrası mərhələsində cinayətkarlıqla mübarizə işinin hüquqi bazasını daha da möhkəmləndirmək məqsədi daşıyır.

Yeni Məcəllə cəzaların icrası üçün məhkumların hüquq və azadlıqlarına daha az məhdudiyyətlər qoymaqla, onların lazımi səviyyədə islah edilməsini şərtləndirən qaydaları müəyyən etməyə yönəlmişdir.

Öncə yeni Məcəllənin qəbul olunmasının vacibliyini göstərən səbəblərə toxunmaq istərdik. Fikrimizcə, yeni Cəzaların İcrası Məcəlləsinin qəbul edilməsi aşağıdakı amillərlə əlaqədardır.

1. Qüvvədə olan və cəzaların icrasını nizamlayan qanunvericilik aktları, yəni İslah-Əmək Məcəlləsi, "Məhkumlara islah-əmək təsiri tədbirləri ilə bağlı olmayan cinayət cəzalarının icrası qaydası və şərtləri haqqında" Əsasnamə, "Tərbiyə-əmək profilaktoriyası haqqında" Əsasnamə və "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam batalyonu haqında" Əsasnamə dövlətimizin Əsas Qanunu həyata vəsiqə almamışdan əvvəl qəbul olunmuşdur. Göstərilən normativ-hüquqi aktlara son illərdə çoxsaylı əlavə və dəyişikliklər edilməsinə baxmayaraq, ümumilikdə cəzaların icrasını tənzimləyən qanunvericilik müasir tələblərə cavab vermir.

2. Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin birinci hissəsinin 6-cı bəndinə əsasən, məhkəmə qərarlarının, o cümlədən məhkəmə hökmlərinin icrası qaydasını Azərbaycan Respublikasının Milli Məclisi müəyyənləşdirməlidir. Hal-hazırda qüvvədə olan və cəzaların icrasını tənzimləyən qanunvericilik aktlarından yalnız biri - İslah-Əmək Məcəlləsi qanunverici orqan

– Ali Sovet tərəfindən 1970-ci ilin dekabr ayında qəbul olunmuşdur. Digər üç sənədin ikisi: "Tərbiyə-əmək profilaktoriyası haqqında" Əsasnamə (1983) və "Məhkumlara islah-əmək təsiri tədbirləri ilə bağlı olmayan cinayət cəzalarının icrası qaydası və şərtləri haqqında" Əsasnamə (1984) Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fərmanları ilə, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam batalyonu haqqında" Əsasnamə (1992) isə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə təsdiq edilmişdir. Buna görə də qeyd olunan normativ-hüquqi aktları Konstitusiyaya tam uyğunlaşdırmaq zərurəti yaranmışdır.

3. Azərbaycan Respublikasının 1999-cu il dekabrın 30-da qəbul edilən yeni Cinayət Məcəlləsində cəza sistemi kifayət qədər dəyişikliklərə məruz qalmışdır. Cinayət Məcəlləsindən ictimai məzəmmət, vəzifədən çıxartma, valideyinlik hüquqlarından məhrum etmə və tərbiyə-əmək profilaktoriyasına göndərmə kimi cəza növləri çıxarılmış, məhkumu mütləq əməyə cəlb etməklə azadlıqdan məhrum olunmağa şərti məhkum etmə və məhkumu azadlıqdan məhrumetmə yerlərindən əməyə mütləq cəlb etməklə şərti azad etmə institutları ləğv olunmuşdur. Yeni cinayət qanununda ictimai işlər, azadlığın məhdudlaşdırılması, hərbi xidmət üzrə məhdudlaşdırma və nəqliyyat vasitəsini idarə etmə hüququndan məhrum etmə kimi yeni cəza növləri öz əksini tapmışdır. Bundan əlavə, əvvəllər mövcud olmuş və yeni Cinayət Məcəlləsində saxlanılmış digər cəza növləri, yəni cərimə, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum etmə, əmlak müsadirəsi, intizam batalyonuna göndərmə, müəyyən müddətdə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə cəzaları məzmun etibarı ilə müxtəlif dəyişikliklərə məruz qalmışdır. Buna görə də cəza sisteminə daxil edilmiş yeni cəza növlərinin icra mexanizmini tənzimləyən hüquqi normaların müəyyən olunması, həmçinin digər cəza növlərinin icrası qaydalarının təkmilləşdirilməsi zərurəti yaranmışdır.

Yeni Məcəllənin layihəsinin təhlili onun qüvvədə olan norma-

tiv-hüquqi aktlardan kəskin şəkildə fərqləndiyini göstərir. Fikrimizcə, həmin fərqlər aşağıdakılardır:

1. Layihədə Azərbaycan Respublikasının Cinayət Məcəlləsində öz əksini tapmış bütün cəzaların icra qaydası və şərtləri təsbit olunmuş və məcəllə vahid qanunverici akt kimi tərtib edilmişdir.

2. Layihə Azərbaycan Respublikasının Konstitusiyasına, qəbul olunmuş digər yeni qanunlara və Konstitusiya Məhkəməsinin qərarlarına uyğun şəkildə işlənib hazırlanmışdır.

3. Layihədə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq aktlar, habelə BMT və Avropa Şurasının məhkumlarla rəftara həsr olunmuş sənədləri – 1955-ci il tarixli "Məhbuslarla rəftarın minimal standart qaydaları"nın, 1987-ci il tarixli "Avropa Penitensiar Qaydaları"nın, həmçinin Rusiya Federasiyası, Ukrayna, Belarus, Qazaxıstan, Moldova kimi dövlətlərin cəzaların icrası sahəsindəki qanunvericiliyin müsbət cəhətləri nəzərə alınmışdır. Layihədə MDB-nin Parlamentlərarası Assambleyasında Azərbaycan Respublikasının nümayəndə heyətinin fəal iştirakı ilə işlənib hazırlanmış və 1996-cı il noyabrın 2-də qəbul edilmiş Cəza-İcra Məcəlləsinin modelindən də istifadə olunmuş, habelə Avropa Şurasının son illər respublikamızda cəzaların icrası sisteminin islahatı ilə bağlı verdiyi tövsiyələr nəzərdən qaçırılmamışdır. Buna misal kimi, cəzaların icrasına nəzarət vəzifəsinin prokurorluq orqanlarından alınıb məhkəməyə verilməsi, məhkumların sağlamlığının tam təmin olunması, onlar üçün normal maddi-məişət şəraitinin yaradılması, ictimaiyyətin məhkumların islahı prosesində iştirakının genişləndirilməsi və s. kimi məsələlərin nəzərə alınmasını göstərmək olar.

4. Layihədə məhkumların hüquq və azadlıqlarının təmin olunması mexanizminə xüsusi diqqət yetirilmiş, yeni Məcəlləyə məhkumların islahına xidmət etməyən, öz aktuallığını itirmiş normalar daxil edilməmişdir.

5. Layihədə cəzaların icrası haqqında qanunvericiliyin hüquqi tənzimləmə predmetinə daxil olmayan maddələr, yəni İslah-Əmək Məcəlləsində öz əksini tapmış və işçi heyətinin statusunu müəy-

yənləşdirən müddəalar təsbit edilməmişdir.

Yeni Məcəllə iki hissədən, Ümumi və Xüsusi hissədən ibarətdir. Məcəllənin ümumi hissəsində əsas müddəalar, cəzaların icrası haqqında qanunvericiliyin məqsəd və vəzifələri, prinsipləri, zamana və məkana görə qüvvəsi, cəzaların icrasının əsasları, məhkumların islah olunmasının əsas vasitələri təsbit olunmuşdur.

Cəzaların icrası haqqında qanunvericilik sisteminə ilk dəfə olaraq Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr də daxil edilmişdir. Burada Məcəllənin müddəaları ilə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin müddəaları arasında uyğunsuzluq yarandıqda, beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş normaların tətbiqinin vurğulanması xüsusilə diqqətə layiqdir. Məcəllənin əsas vəzifələri sırasına məhkumların hüquq və azadlıqlarının qorunması vəzifəsinin daxil edilməsi layihənin ümumbəşəri dəyərlərə xüsusi diqqət yetirdiyinə bariz misaldır. Həmçinin, ilk dəfə olaraq qanunvericilik səviyyəsində məhkumların şəxsi maraqlarının təmin olunması və onlara ədalətli münasibəti bərqərar etmək üçün Məcəllədə cəzanın icrasının aşağıdakı əsas prinsipləri müəyyən edilmişdir: qanunçuluq, humanizm, demokratizm, məhkumların qanun qarşısında bərabərliyi, cəzanın icrası zamanı məhkumlara fərdi yanaşılması, məcburetmə vasitələrindən məqsədəuyğun istifadə edilməsi, qanuna itaətin həvəsləndirilməsi və cəzanın islahedici təsirinin artırılması. Bu prinsiplər Azərbaycan dövlətinin penitensiar, yəni cəzaların icrası sahəsindəki siyasətinin əsas istiqamətlərini müəyyənləşdirir.

Layihədə ilk dəfə olaraq məhkumların islah edilməsi məfhumuna aydınlıq gətirilərək müəyyən olunmuşdur ki, məhkumların islahı onlarda qanuna itaətin, insana, əməyə, cəmiyyətə, birgəyaşayış qaydalarına və ənənələrinə hörmət və ehtiramın formalaşdırılmasıdır. Bu anlayış təcrübədə böyük əhəmiyyət kəsb edəcəkdir. Çünki islah edilmənin dəqiq müəyyənləşdirilməsi qanunvericilikdə nəzərdə tutulmuş həvəsləndirmə tədbirlərinin və cəzadan azad etmənin müxtəlif institutlarının düzgün tətbiq edilməsinə əlverişli

zəmin yaradacaqdır. Bundan əlavə, məhkumların islah olunmasının əsas vasitələrinin dairəsi genişləndirilmiş, buraya ictimai-təsir kimi yeni əsas islah vasitəsi daxil edilmişdir.

Layihədə cəzaların icrasının əsasları da genişləndirilmişdir. Belə ki, yeni Məcəlləyə görə, cəzaların icrasının və məhkumlara dövlət məcburetmə tədbirlərinin tətbiqinin hüquqi əsasını təkcə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü yox, həmçinin məhkəmənin bu hökmü dəyişən qərardad və ya qərarı, habelə amnistiya və əfvetmə aktları təşkil edir.

Cəzaların icrası prosesində məhkumların hüquqi vəziyyəti, yəni onların hüquq və vəzifələrinin məcmuyu xüsusi əhəmiyyət kəsb etdiyinə görə cəzaların icrasını tənzimləyən əvvəlki normativ-hüquqi aktlardan fərqli olaraq, layihədə bu instituta müstəqil fəsil həsr olunmuş və məhkumların əsas hüquq və vəzifələri dəqiq müəyyənləşdirilmişdir. Məhkumların şəxsi təhlükəsizlik hüququnun, vicdan və dini etiqad azadlığının təmin olunması, cəza çəkənlərin müraciətləri və onlara baxılması qaydaları daha əhəmiyyətli olduğundan bu hüquqlara xüsusi diqqət verilmiş və onların hər biri ayrıca maddədə təsbit edilmişdir. Ümumi hissədə ilk dəfə olaraq cəzaları icra edən bütün müəssisə və orqanlar konkret şəkildə göstərilmiş, bu strukturların fəaliyyətinə nəzarətin həyata keçirilməsi mexanizminə tam aydınlıq gətirilmişdir. Layihədə azadlıqdan məhrum etmə yerlərinə, xüsusilə kütləvi informasiya vasitələrinin baş çəkilməsi proseduru, məhkumlarla görüşməsi və onların öz professional vəzifələrinin yerinə yetirməsi ilə əlaqədar məsələlər öz həllini tapmışdır.

Məcəllənin Xüsusi Hissəsində müxtəlif cəza növlərinin icrasını həyata keçirən müəssisə və orqanların vəzifələri, onların səlahiyyətləri, cəzadan yayınmanın nəticələri, məhkumlara tətbiq edilən həvəsləndirmə və tənbeh tədbirləri, cəza çəkməkdən azad etmənin əsasları və qaydaları təsbit olunmuşdur.

Layihədə, həmçinin məhkumun cəmiyyətdən təcrid olunması ilə bağlı olmayan cəzaların, yəni cərimə, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum et-

mə, ictimai işlər, islah işləri, azadlıqdan məhdudlaşdırılmasının icrası mexanizmləri tamlıqla öz əksini tapmışdır. Burada ictimai işlər, azadlığın məhdudlaşdırılması kimi yeni cəza növlərinin icra mexanizmi diqqəti xüsusilə cəlb edir. Həmin cəzalar elə tənzim olunmuşdur ki, təcrübədə həmin cəzaları icra edən orqanlar üçün icra prosesində heç bir problem yaranmayacaqdır.

Layihədə hərbi qulluqçulara tətbiq olunan cəzaların, yəni hərbi xidmət üzrə məhdudlaşdırma və intizam xarakterli hərbi hissədə saxlamanın icrasına ayrıca bölmə həsr edilmişdir. Göstərilən cəzaların icra mexanizmi işlənərkən hərbi xidmət keçmənin xüsusiyyətləri və bu sahə üzrə Azərbaycan Respublikasının mövcud qanunvericiliyi nəzərə alınmışdır.

Cəzaların İcrası Məcəlləsinin müstəqil bir bölməsi əlavə cəzaların icrasını tənzimləyir. Burada nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə, xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum etmə və əmlak müsadirəsi kimi cəzaların icra mexanizmi təsbit olunmuş, hər üç cəzanın icrasında iştirak edən subyektlərin, yəni cəzanı icra edən orqanların, habelə məhkumların hüquq və vəzifələri aydın şəkildə verilmişdir.

Layihədə ilk dəfə olaraq yetkinlik yaşına çatmayanların azadlıqdan məhrum etmə növündə cəzalarının icrası xüsusiyyətləri ayrıca fəsildə nəzərdə tutulmuşdur. Bu fəsildə tərbiyə müəssisələrinin növləri, orada cəzaların icrası qaydaları, tədris-tərbiyə prosesinin təşkili, yetkinlik yaşına çatmayanların islah edilməsi işində ictimayyətin iştirakı formaları hərtərəfli şərh edilmişdir. Məsələnin belə qoyuluşu bu kateqoriyalı məhkumlara xüsusi diqqətin təzahürü kimi qiymətləndirilməlidir.

Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin layihəsində azadlıqdan məhrum etmə cəzasının icrasına xüsusi yer ayrılmışdır. Ən əvvəl onu qeyd etmək lazımdır ki, İslah-Əmək Məcəlləsindən fərqli olaraq, azadlıqdan məhrum etmə cəzasını çəkən məhkumların islahına yalnız əməklə nail olunması ideyasına son qoyulmuşdur. Əvvəllər məhkumun əməyindən alınan gəlir, onun əməyinin istismarı cəza-icra siyasətinin əsaslarından birini

təşkil edirdi. Nəticədə, məhkuma insan kimi yox, yalnız ucuz işçi qüvvəsi və gəlir mənbəyi kimi baxılırdı. Məhkumun şəxsiyyəti, onun hüquqları əhəmiyyət kəsb etməyən amillər kimi arxa plana keçirilmişdi. Əlbəttə, layihə məhkumların faydalı əməklə məşğul olmasını istisna etmir, lakin əmək artıq islahın əsas məqsədi, məzmunu deyildir. Məhz qeyd olunanlar nəzərə alınaraq, azadlıqdan məhrum etmə növündə cəzanı icra edən müəssisələr layihədə əvvəlkindən fərqli olaraq islah-əmək yox, islah müəssisələri adlandırılmışdır.

Layihədə islah müəssisələrinin növləri, məhkumların cəza yerlərinə göndərilməsi və qəbulu, onların yerlərinin dəyişdirilməsi, ayrı-ayrılıqda saxlanması məsələlərinin tənzimlənməsi diqqəti cəlb edir. İslah müəssisələrində məhkumlara təsir vasitələri olan rejim, tərbiyə işi, əməyin təşkili, orta təhsil və peşə təhsili problemlərinin həlli yolları aydın şəkildə verilmişdir.

Müxtlif rejimli (ümumi, xüsusi, ciddi) islah müəssisələrində cəzaların icrası qaydaları Məcəllədə kifayət qədər öz əksini tapmışdır. Ömürlük azadlıqdan məhrum etmə cəzasının icra mexanizmi təkmilləşdirilmiş, müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasının icra qaydaları və şərtləri daha da humanistləşdirilmişdir. Buna sübut kimi islah müəssisələrinin saxlanması üçün məhkumların əmək haqqından otuz faiz məbləğində pul tutulmasının ləğvini, onların əməyinin tamamilə əmək qanunvericiliyinə uyğun müəyyən olunmasını, məhkumlara tətbiq oluna bilən həvəsləndirmə tədbirlərinin siyahısının xeyli genişləndirilməsini, ərzaq məhsulları və ya ən zəruri mallar əldə etmək üçün xərcləməyə icazə verilən məbləğin miqdarının artırılmasını, qadağaların sayının azaldılmasını, imtiyazların dairəsinin genişləndirilməsini misal göstərmək olar.

Layihədə ən ağır cəza növünə - ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxslər də yaddan çıxmamış, onların saxlanma rejiminin humanistləşdirilməsi nəzərdə tutulmuşdur. Belə ki, Məcəllədə həmin cəzanı çəkən məhkumlara təqdim olunan görüşlərin, verilən sovqat, bağlama və ya banderolların sa-

yı artırılmış, əvvəlkindən fərqli olaraq, onlar üçün müəyyən olunmuş müddətdən sonra yaxşılaşdırılmış saxlanma şəraitinin tətbiqi qərara alınmışdır.

Layihənin son iki bölməsində cəza çəkməkdən azad etmə, cəzadan azad edilən şəxslərə yardım göstərilməsi və onlara nəzarət qoyulması, həmçinin ilk dəfə olaraq, şərti məhkum olunmuş şəxslərə nəzarətin həyata keçirilməsi qaydaları təsbit olunmuş, habelə bu funksiyanı həyata keçirəcək orqanların və məhkumların hüquq və məsuliyyət məsələləri göstərilmişdir.

Fikrimizcə, layihə konseptual baxımdan günün tələblərinə cavab verir, qanunvericilik texnikası qaydalarına uyğun hazırlanmış və cəzaların icrası mexanizmləri anlaşılan tərzdə verilmişdir. Sözsüz ki, Cəzaların İcrası Məcəlləsinin qəbul olunması ölkəmizdə bu sahədə aparılan islahatların müvəffəqiyyətlə həyata keçirilməsinə kömək göstərəcək və cəzaların icrasının hüquqi bazasını daha da möhkəmləndirəcəkdir.

***İstinad edilmiş mənbə:***

***"Cəmiyyət və cəza" jurnalı. Bakı, 2000. № 1, Səh. 22–25.***

## Azərbaycan Respublikasının cəzaların icrası qanunvericiliyinin inkişafı

Azərbaycan Respublikasının cəzaların icrası qanunvericiliyi mürəkkəb və çətin inkişaf yolu keçmişdir. Belə ki, dövlətimizin uzun illər boyu xarici təcavüzlərə məruz qalması, işğal edilməsi onun müstəqil qanunvericilik sisteminin, eləcə də cəzaların icrası qanunvericiliyinin formalaşmasına və inkişafına maneələr yaratmışdır. Buna görə də müstəqil cəzaların icrası qanunvericiliyi olmayan Azərbaycanın özünün cəzaların icrası sahəsində formalaşmış qanunvericiliyi 1920-ci ildən sonrakı dövrü əhatə edir. Ondan əvvəlki dövrlərdə cəzaların icrası əsasən Çar Rusiyasında mövcud olmuş qanunvericilik aktları əsasında həyata keçirilmişdir.

1920-ci ildən başlayaraq bu günə qədər respublikamızın cəzaların icrası qanunvericiliyi öz inkişafında üç əsas mərhələdən keçmişdir:

– birinci mərhələ:1920 – 1970-ci illərdəki cəzaların icrası qanunvericiliyi;

– ikinci mərhələ: 1971 – 2000-ci illərdəki cəzaların icrası qanunvericiliyi;

– üçüncü mərhələ: 2000-ci il 01 sentyabr tarixindən sonra cəzaların icrası qanunvericiliyi.

Birinci dövr ərzində respublikamızın ilk İslah-Əmək Məcəlləsi (25 may 1925-ci il) qəbul edilmişdir. Həmin Məcəllə ilə yalnız azadlıqdan məhrum etmə və məcburi işlər (hal-hazırdakı islah işləri cəzası) növündə cəzaların icrası tənzimlənirdi. Bu dövrdə cəzaların icrası ilə bağlı bir sıra əsasnamələr də qəbul edilmişdir. Misal üçün: "SSRİ DİN-in İslah-əmək düşərgələri və koloniyaları haqqında" Əsasnamə (10 iyul 1954-cü il); "SSRİ DİN-in İslah-əmək koloniyaları və həbsxanaları haqqında" Əsasnamə (08 dekabr 1958-ci il); "Azərbaycan SSR DİN-in İslah-əmək koloniyaları və həbsxanaları haqqında" Əsasnamə (29 iyul 1961-ci il) və s. Qeyd edilməlidir ki, 1920–1970-ci illərdə, xüsusilə repressiya illəri dövründə cəza-icra fəaliyyəti qanunvericilik aktları ilə deyil,

sabiq SSRİ Xalq Daxili İşlər Komissarlığının, sonra isə Daxili İşlər Nazirliyinin normativ aktları ilə tənzimlənirdi.

İkinci dövr, Azərbaycanın ikinci İslah-Əmək Məcəlləsinin qəbul edilməsi ilə (23 dekabr 1970-ci il) başlanır. Sayca ikinci Məcəllədə artıq dörd cəza növünün – azadlıqdan məhrum etmə, azadlıqdan məhrum etmədən islah işləri, sürgün və köçürmə cəzalarının icrası qaydası və şərtləri göstərilmişdi. Bu dövrdə digər cəzaların icrası qanun qüvvəli olmayan normativ hüquqi aktlarla tənzimlənirdi. Bunlar Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin fərmanları ilə təsdiq edilmiş "Tərbiyə-Əmək Profilaktoriyası haqqında" Əsasnamə (01 mart 1983-cü il); "Məhkumlara islah-əmək təsiri tədbirləri ilə bağlı olmayan cəzaların icrası qaydası və şərtləri haqqında" Əsasnamə (01 fevral 1984-cü il); "Azərbaycan Respublikasının Silahlı Qüvvələrində İntizam Batalyonu haqqında" Əsasnamə (23 iyul 1992-ci il) idi. Qeyd etmək lazımdır ki, tutulmuş və ya həbs edilmiş şəxslərin həbs yerlərində saxlanılması ilə əlaqədar yaranan hüquqi münasibətlər, Azərbaycan Respublikasının yeni Cinayət-Prosessual Məcəlləsi qəbul edilənə kimi sabiq SSRİ-nin 11 iyul 1969-cu il tarixli Qanunu ilə təsdiq edilmiş "İlkin həbs yerlərində saxlanma haqqında Əsasnamə" və Azərbaycan SSR-nin 08 dekabr 1960-ci il tarixli Cinayət-Prosessual Məcəlləsinin 433–443-cü maddələri ilə tənzimlənirdi.

Nəhayət, Azərbaycan Respublikasında cəzaların icrası qanunvericiliyinin üçüncü inkişaf dövrü dövlətimizin ilk milli Cəzaların İcrası Məcəlləsinin qəbul edilməsindən (14 iyul 2000-ci il) bu günədək olan dövrü xarakterizə edir. İlk dəfə olaraq Cəzaların İcrası Məcəlləsində dövlətimizdə tətbiq ebilən bütün cəza növlərinin icrası qaydasını və şərtlərini tənzimləyən normalar cəmlənmişdir. Yeni Məcəllənin müsbət cəhətlərindən biri də ondan ibarətdir ki, o, heç bir kənar təsirə məruz qalmamış və beynəlxalq penitensiar qanunvericiliyin, o cümlədən insan hüquq və azadlıqlarının müdafiəsinə həsr olunmuş aktların tələblərini maksimum nəzərə almışdır. Belə ki, yeni Məcəllə məhkumların hüquqi vəziyyətini təsbit etməklə, habelə hüquqi nizamasalma predmetini genişləndirməklə

öz sələflərindən əhəmiyyətli dərəcədə fərqlənir. Burada cəzaların icrası qanunvericiliyinin məqsədi (məhkumların islah edilməsi, həm məhkumlar, həm də digər şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısının alınması) haqqında Azərbaycan Respublikasının cəza-icra siyasətinin mühüm müddəaları əks olunmuşdur.

Qısaca olaraq 2000-ci il Cəzaların İcrası Məcəlləsinin əvvəlki məcəllələrdən fərqli cəhətləri üzərində dayanaq.

Azərbaycan Respublikasının yeni Cəzaların İcrası Məcəlləsi ilk növbədə xüsusi dəyərlərə, yəni insan amilinə, onun hüquq və azadlıqlarına hörmət edilməsinə əsaslanır. Burada, demək olar ki, əksər normalarda BMT-nin insan hüquqlarına həsr edilmiş Konvensiyalarının, BMT və Avropa Şurası tərəfindən qəbul edilmiş sahəvi aktların (misal üçün, 1955-ci il tarixli "Məhbuslarla minimal standart davranış qaydaları"nın, 2006-cı il tarixli "Avropa Penitensiar Qaydaları"nın və s.) tələblərindən irəli gələrək, bütün məsələlərə xüsusi diqqətlə yanaşılmış, respublikanın cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumlarla davranış qaydaları beynəlxalq standartlara uyğunlaşdırılmışdır. Qeyd edilən bu cəhət Azərbaycan Respublikası CİM-in bir çox maddələrində özünü aşkar surətdə büruzə verir.

Yeni Məcəllə məhkumların yazışma hüququndakı məhdudiyyətləri ləğv etməklə yanaşı, həm də onların görüşlərinin sayını, ərzaq məhsulları və ən zəruri mallar əldə etmək üçün xərcləmək hüququna malik olduqları pul məbləğini, alınan bağlama, sovqat və banderolların sayını əhəmiyyətli dərəcədə artırmış, rejim qaydalarının pozulmasına görə qadın məhkumların, yetkinlik yaşına çatmayan məhkumların cərimə və intizam təcridxanalarına salınması müddətlərini xeyli azaltmışdır. Bütün bu və digər yeniliklər yeni qanunla cəzaçəkmə rejiminin daha da humanistləşdirilməsini nümayiş etdirir.

Təcrübədə elə hallara rast gəlinir ki, ayrı-ayrı cəza növlərinin icrası zamanı müəyyən obyektiv və subyektiv səbəblərdən qanunçuluğun tələbləri pozulur. Belə arzuolunmaz neqativ halları aşkar

etmək və onların qarşısını almaq məqsədi ilə yeni Məcəlləyə müvafiq icra hakimiyyəti orqanlarının nəzarəti, məhkəmə nəzarəti və ictimai nəzarət institutları daxil edilmişdir.

Beləliklə, 2000-ci il CİM-i keçmiş məcəllələrdən fərqli olaraq aşağıdakı müsbət cəhətləri vardır:

– yeni Məcəllə respublikamızın Konstitusiyasını əsas götürmüş, qüvvədə olan qanunlarımızın tələblərini gözləyir, xalqımızın adət və ənənələrinə, müsəlman dünyasına, dinimizə, psixologiyamıza xas olan xüsusiyyətləri nəzərə almışdır;

– Məcəllə, ilk növbədə cəmiyyətin və vətəndaşların təhlükəsizliyinin təmin edilməsinə yönəlmişdir;

– Məcəllə, cinayət qanununun cəza institutu qarşısında duran əsas məqsədlərə – məhkumların islah edilməsinə, həm məhkumlar, həm də digər şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısının alınmasına nail olunmasını təmin edir;

– burada Cinayət Məcəlləsində nəzərdə tutulmuş bütün cəza növlərinin və cinayət-hüquqi xarakterli digər tədbirlərin icrası qaydası və şərtləri öz ətraflı və dəqiq əksini tapmışdır;

– Məcəllədə Azərbaycan Respublikasının tərəfdar çıxdığı insan və vətəndaş hüquqlarının, azadlıqlarının gözlənilməsinə, xüsusilə, cinayət törətməklə əlaqədar məcburi dövlət təsiri tədbirlərinə məruz qalmış şəxslərlə davranışa həsr olunmuş beynəlxalq konvensiyaların, sazişlərin müddəaları nəzərə alınmış, lazımi hallarda onlara üstünlük verilir və s.

Beləliklə, Azərbaycan Respublikasının CİM-i dövlətimizdə həyata keçirilən islahatların nəticəsi olmaqla, müasir dövrün tələblərinə cavab verir və hal-hazırda cəza-icra siyasətinin müvəffəqiyyətlə həyata keçirilməsini təmin edir. Azərbaycan Respublikasının yeni Cəzaların İcrası Məcəlləsinin normaları əsasında ölkəmizdə cəza-icra islahatının inkişafına kömək edən çoxsaylı normativ hüquqi aktlar qəbul edilmişdir.

Yuxarıda göstərilənlər nəzərə alınmaqla, müasir cəza-icra qanunvericiliyinə daxil olan əsas normativ aktlar aşağıdakılar hesab edilir: "İcra məmurları haqqında", "Ədliyyə orqanlarında qulluq

keçmə haqqında”, “Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında”, “Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında” qanunlar, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamları, Azərbaycan Respublikasının Ədliyyə və Müdafiə nazirliklərinin normativ aktları (təlimatlar, əmrlər, sərəncamlar). Eyni zamanda, Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələr də dövlətimizin cəzaların icrası qanunvericiliyinin tərkibinə daxildir.

Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi qüvvəyə mindiyi vaxtdan ötən dövr ərzində, yəni 2000-2020-ci illərdə Milli Məclis tərəfindən qəbul edilmiş 44 qanunla 187 müxtəlif dəyişikliklərə məruz qalmışdır. Nəticədə Məcəllədən 1 fəsil (VIII fəsil), 19 maddə (52–64, 160–165-ci maddələr) çıxarılmış, yeni bölmə (VIII), üç fəsil (VII-I, XXII, XXIII fəsillər) və 21 maddə (15-1–15-2, 17-1, 51-1–51-7, 69-1, 91-1 124-1 və 183-190-cı maddələr) əlavə edilmişdir. 2020-ci ilin 01 aprel tarixinə Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi struktur baxımından iki hissədən (Ümumi və Xüsusi hissələr), 8 bölmədən, 23 fəsildən və 192 maddədən ibarət olmuşdur.

***İstinad edilmiş mənbə:***

***Azərbaycan Respublikasının Cəza-icra hüququ. Dərs vəsaiti. Bakı, 2022. Səh. 28–38.***

## Azərbaycan Respublikasının cəzaların icrası qanunvericiliyinin inkişaf perspektivləri

14 iyul 2000-ci ildə qəbul edilmiş və həmin ilin 01 sentyabrından qüvvəyə minmiş Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi müstəqil dövlətin cəzaların icrası qanunvericiliyinin əsasını qoymaqla, onun formalaşmasının hüquqi bazasını yaratdı. Cəzaların İcrası Məcəlləsi Azərbaycan Respublikasının Konstitusiyasına uyğun, 2 noyabr 1996-cı il tarixdə Müstəqil Dövlətlər Birliyinin (bundan sonra MDB) Parlamentlərarası Assambleyası tərəfindən qəbul edilmiş Cəza-İcra Məcəlləsinin modeli əsasında, hüquqpozucuları ilə rəftara həsr olunmuş beynəlxalq aktların tələbləri və tövsiyələri nəzərə alınmaqla qəbul edilmişdir. Bu məcəllədə Rusiya Federasiyasının Cəza-İcra Məcəlləsinin bir sıra müddəaları da nəzərə alınmışdır. Məhz buna görə də hazırda Rusiyanın Cəza-İcra Məcəlləsinin müddəaları, habelə bir sıra MDB ölkələri daxil olmaqla Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin müddəaları ilə oxşardır. Eyni zamanda, bəzi cəzaların icrası mexanizmlərində fərqlər də mövcuddur.

Cəzaların İcrası Məcəlləsindən sonra penitensiar sistemdə qulluq keçməyə həsr olunmuş xüsusi bölməsi olan "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Qanun, habelə "Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları haqqında" və "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" qanunlar qəbul edilmişdir. Ölkənin ali qanunvericilik orqanı - Milli Məslis tərəfindən "Cinayət törətməkdə şübhəli və təqsirləndirilən şəxslərin ilkin həbs yerlərində hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Qanun birinci oxunuşda qəbul edilmişdir. Azərbaycan Respublikasının Prezidenti, Nazirlər Kabineti, müvafiq nazirliklər tərəfindən yuxarıda göstərilən qanunların, ilk növbədə Cəzaların İcrası Məcəlləsinin müddəalarının həyata keçirilməsinin tənzimlənməsi ilə əlaqədar çoxsaylı normativ-hüquqi aktlar qəbul edilmişdir.

Eyni zamanda, qüvvədə olan cəzaların icrası qanunvericiliyin

təkmilləşdirilməsi prosesi davam etdirilmişdir. Ölkənin Cəzaların İcrası Məcəlləsinə, onun qəbulundan keçən yeddi il ərzində səkkiz müxtəlif əlavə və dəyişikliklər edilmişdir. Onlar əsas etibarı ilə təcrübədə yaranan problemlərin həlli, habelə Cəzaların İcrası Məcəlləsinin müddəalarının yeni qəbul edilən digər qanunlarla uyğunlaşdırılması ilə bağlıdır. Təhlil göstərir ki, iyirmidən çox dəyişikliyə məruz qalmiş Rusiya Federasiyasının Cəza-İcra Məcəlləsinə də oxşar əlavə və dəyişikliklər edilmişdir.

Bəllidir ki, qanunvericiliyin təkmilləşdirilməsi daimi və fasiləsiz bir prosesdir. Lakin bu prosesin isiqamətlərini və gələcək perspektivlərini müəyyənləşdirən özünə məxsus qanunauyğunluqları və xüsusiyyətləri vardır. Qeyd olunanlara əsaslanaraq, fikrimizcə yaxın gələcəkdə Azərbaycan Respublikasının cəzaların icrası qanunvericiliyinin inkişafı aşagıda göstərilən üç əsas istiqamətdə davam etdirilməlidir:

– onun formalaşmasının tam başa çatdırılması;

– onun hüquqpozucuları ilə rəftara həsr olunmuş beynəlxalq aktların tələbləri və tövsiyələrinə uyğunlaşdırılmasının təmin edilməsi;

– cəzaların, o cümlədən azadlıqdan məhrum etmə növündə cəzanın icrası və çəkilməsi qayda və şərtlərinin humanistlşdirilməsi.

Fikrimizcə, cəzaların icrası qanunvericiliyinin göstərilən inkişaf istiqamətləri bu və ya digər formada MDB-yə daxil olan dövlətlər üçün də aktuallıq kəsb edir. Lakin qeyd olunmalıdır ki, cəzaların icrası qanunvericiliyi cəmiyyətin sosial-siyasi, iqtisadi vəziyyətini, burda hakim olan əxlaqi, etik və hüquqi dəyərlər kimi kompleks sosial amilləri, cəzaların icrası sisteminin fəaliyyətini və onun tendensiyalarını nəzərə almadan inkişaf edə və öz vəzifəsini uğurla yerinə yetirə bilməz.

Düşünürük ki, qanunvericiliyin formalaşdırılmasının başa çatdırılması üçün istər işçi heyətinin, istərsə cinayət törətməkdə təqsirləndirilən şəxslərin və məhkumların hüquq və qanuni maraqlarına toxunan, penitensiar müəssisələrin fəaliyyətinin səmərəli təşkili ilə bağlı bir sıra vacib məsələlərin tənzimlənməsi, habelə Cəza-

ların İcrası Məcəlləsində nəzərdə tutulmuş tələblərinin tam şəkildə həyata keçirilməsi məqsədilə “Penitensiar Xidmət haqqında”, “Məhkumların islah edilməsində ictimaiyyətin iştirakı və ictimai təşkilatların cəzaları icra edən müəssisə və orqanların fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsi haqqında” və “Əfv haqqında” qanunların qəbulu vacib hesab edilir.

“Penitensiar Xidmət haqqında” Qanun penitensiar müəssisələrin dövlət idarəçiliyi sistemində yerini, statusunu, belə müəssisələrlə bağlı ümumi tələbləri, onların digər orqanlarla qarşılıqlı münasibətini, normal fəaliyətinin təminatlarını və bir sıra digər məsələlərin həlli qaydasını müəyyən etməlidir. Hazırda göstərilən məsələlərin bir hissəsi Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarında, digərləri isə Nazirlər Kabinetinin normativ aktlarında, habelə idarədaxili aktlarda öz əksini tapmışdır. Eyni zamanda, bir sıra digər məsələlərin hüquqi tənzimlənməsi açıq qalmışdır. Hesab edirik ki, həllini gözləyən məsələlər təklif olunan qanunda öz cavablarını tapa bilərdi.

Hazırda məhkumların islah edilməsində ictimaiyyətin iştirakı və ictimai təşkilatların cəzaları icra edən müəssisə və orqanların fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsi prosesini Azərbaycan Respublikasının Ədliyyə Nazirinin 2008-ci il 25 aprel tarixdə təsdiq etdiyi Qaydalar tənzimləyir. Bu Qaydalar Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin, qeyri-hökumət təşkilatlarının və insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində təcrübəsi olan, habelə penitensiar sahədə ixtisaslaşan hüquq müdafiəçilərinin bilavasitə iştirakı ilə hazırlanmışdır. Bu sahədə qabaqcıl xarici, o cümlədən Rusiya Federasiyasının təcrübəsi də ətraflı öyrənilmişdir. Həmin Qaydalar Avropa Şurasının ekspertləri tərəfindən bəyənilmiş, hazırda uğurla tətbiq edilir və gözlənilən faydanı gətirir. Lakin düşünürük ki, dövlət orqanları və ictimaiyyət arasındakı münasibətlərin tənzimlənməsi sahəsində özünə yer almış təcrübəyə əsaslanmaqla xüsusi qanunun qəbulu zəruridir. Belə yanaşma Azərbaycan Respublikasının Cəzaiarın İcrası Məcəlləsinin 20-ci maddəsindən irəli gəlməklə, Avropa Şu-

rasının ekspertlərinin tövsiyələrinə də uyğundur. Hesab edirik ki, qüvvədə olan Qaydalar, habelə əldə olunmuş müsbət təcrübənin nəticələri təklif olunan qanun layihəsinin hazırlanması üçün yaxşı baza ola bilərdi.

Digər dövlətlərdə olduğu kimi, Azərbaycan Respublikasında da məhkumların əfv edilməsi ölkə başçısının, yəni Prezidentin Konstitutsiyada nəzərdə tutulmuş müstəsna hüququdur. Əfvetmə ilə bağlı prosedurun müəyyənləşdirilməsi və xüsusi komissiyanın fəaliyyətinin təşkili məqsədilə Azərbaycan Respublikasının Prezidenti 18 iyun 2001-ci il tarixli Fərmanı ilə müvafiq Əsasnamə təsdiq etmişdir. Qeyd olunmalıdır ki, Azərbaycan Respublikasının Prezidenti humanizm və mərhəmət prinsirlərinə əsaslanmaqla, bu hüquqdan tez-tez istifadə edir və hər il heç də az olmayan sayda məhkumları əfv etməklə, onları cəza çəkməkdən azad edir. Lakin hesab edirik ki, insanların, o cümlədən məhkumların marağına toxunan istənilən, hətta müstəsna hüquq qanun çərçivəsində həyata keçirilməlidir. Xarici təcrübənin öyrənilməsi göstərir ki, bir sıra dövlətlərdə əfvin həyata keçirilməsi qaydası xüsusi qanunda göstərilmişdir. Rusiya Federasiyasında da əfvin xüsusi qanunla həyata keçirilməsinin tərəfdarları heç də az deyildir. Əfv məsələlərini tənzimləyən hazırda quvvədə olan hüquqi baza, Azərbaycanda toplanmış təcrübə göstərilən qanunun hazırlanması üçün yaxşi əsaslar yaradır. Əlbəttə, mövcud beynəlxalq təcrübə, habelə Rusiya Federasiyası alimlərinin təklifləri, onların müvafiq qanunla bağlı hazırladıqları layihələr burada böyük köməklik göstərə bilərdi.

Fikrimizcə, qeyd edilənlərdən əlavə “Həbs edilmiş şəxslərin və məhkumların müşayiəti edilməsi haqqında” Qanunun qəbul edilməsi vacibdir. Bu qanun həbs edilmiş şəxslərin və məhkumların daşınması zamanı yaranan ictimai mübasibətləri tənzimləməklə yanaşı, müşayiəti həyata keçirən və müşayiət olunan şəxslərin hüquqi statusunu, yəni onların hüquq və azadlıqlarını, habelə vəzifə və məsuliyyətini müəyyənləşdirməlidir.

Qanunvericiliyin hüquqpozucuları ilə rəftara həsr olunmuş

beynəlxalq aktların tələbləri və tövsiyələrinə uyğunlaşdırılması, cəzaların, habelə azadlıqdan məhrum etmə növündə cəzanın icrası və çəkilməsi qayda və şərtlərinin humanistlşdirilməsinin davam etdirilməsi istiqamətləri bir-birilə sıx əlaqəlidir. Hər iki istiqamət Azərbaycanda həyata keçirilən hüquq islahatlarının əsas hədəfləridir. Belə ki, Azərbaycan Respublikasının Prezidentinin 17 avqust 2006-ci il tarixli "Ədliyyə orqanlarının inkişafı haqqında" Fərmanında digər məsələlərlə yanaşı məhkumların saxlanma şəraitinin humanistləşdirilməsi, onların beynəlxalq tələblərə uyğunlaşdırılması, onların cəmiyyətə reinteqrasiya olunması prosesinə kömək göstərilməsi ilə bağlı vəzifələri də müəyyən etmişdir. Oxşar tələblər Azərbaycan Respublikasının Prezidentinin 28 dekabr 2006-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"ndan irəli gəlir. Bu Plan qanunvericiliyin humanistləşdirilməsi istiqamətində tədbirlərin davam etdirilməsini, saxlanma rejiminin və şəraitinin beynəlxalq təcrübəyə uyğunlaşdırılmasını, bu məqsədilə yeni penitensiar müəssisələrin inşa edilməsi işinin davam etdirilməsini, azadlıqdan məhrum edilmiş şəxslərin islah edilməsinə ictimaiyyətin, qeyri-hökumət təşkilatlarının cəlb edilməsi və ictimai nəzarət mexanizmlərinin tətbiq olunmasını, bu sahədə qabaqcıl təcrübənin öyrənilməsini, cəza çəkən şəxslərin hüquqi maarifləndimə işinin təkmilləşdirilməsi ilə əlaqədar tədbirləri nəzərdə tutur.

Yuxarıda göstərilən sənədlərdən irəli gələrək, Ədliyyə Nazirliyinin təşəbbüsü ilə Cəzaların İcrası Məcəlləsinə əlavə və dəyişikliklər edilməsi məqsədilə qanun layihəsi hazırlanmışdır. Layihə əsasən müəyyən müddətə azadlıqdan məhrum etmə, habelə ömürlük azadlıqdan məhrum etmə cəzasının çəkilmə şərtlərinin yaxşılaşdırılması ilə bağlıdır. Azadlıqdan məhrum edilmiş şəxslərə psixoloji yardım almaq hüququnun, eləcə də, Rusiya Federasiyasında olduğu kimi bütün məhkumların ali təhsil almaq imkanın verilməsi, habelə məhkumların telefon danışıqlarının sayının artırılması, məhkumların məktublarının oxunmasının (senzuranın) ləğv

edilməsi, onlar üçün cəzanın çəkilməsi planının tərtib edilməsi və s. nəzərdə tutulur. Eyni zamanda, yuxarıda göstərilən qanunvericiliyin inkişafının sonuncu iki istiqaməti arasında müəyyən fərqlər də vardır. Belə ki, əgər cəzaların icrası şərtlərinin humanistləşdirilməsi onların həyata keçirilməsi prosesində yaranmış suallara cavab olmaqla, ilkin olaraq onların müəyyən edilməsi, razılaşdırılması və sonra isə yeni normaların qəbulundan sonra tətbiq edilməsi zərurətini ehtiva edirsə, qanunvericiliyin beynəlxalq aktların tələblərinə uyğunlaşdırılması isə həmişə belə uzun prosedurları nəzərdə tutmur. O, cəzaların icrası şərtlərinin humanistləşdirilməsindən fərqli olaraq daha çox vaxt və az olmayan maliyyə vəsaiti tələb edir. Göstərilən fərqlərə baxmayaraq, onların hər ikisi əsas və biri-birini əvəz edən istiqamətlərdir.

Cəzaların icrası qanunvericiliyinin inkişafının bütün istiqamətləri cəza-icra hüququ elminin inkişafı ilə sıx bağlıdır. Yalnız elm, cəzaların icrası təcrübəsini təhlil etməklə əsaslandırılmış və düzgün ölçülmüş yol göstərə bilər. Fikrimizcə, cəza-icra hüququ elmi MDB dövlətlərinin penitensiar xidmətlərini hazırda narahat edən bəzi aktual məsələlərə cavab tapmaqda kömək etməlidir. Birincisi, son illər azadlıqdan məhrum etmə növündə cəzanın icrasının təşkilinin optimal modelinin seçilməsi məsələsi fəal müzakirə edilir. Ümumbəllidir ki, azadlıqdan məhrum etmə növündə cəzanın cəzaçəkmə müəssisələrində icrası heç də həmişə əməkdaların təhlükəsizliyini təmin etmir, məhkumların bağlı kameralarda saxlanması onu həll etməklə yanaşı, məhdud məkanda olmaq və hərəkət imkanının azalması ilə bağlı digər psixoloji problemi yaradır. Yuxarıdakıları nəzərə almaqla, MDB və Avropa ölkələrində azadlıqdan məhrum edilmiş şəxslərin saxlanmasının movcud modellərinin birləşdirilməsini, yəni məhkumları kameralarda yerləşdirmək, eyni zamanda onların davranışları nəzərə alınmaqla, kameradan kənarda kifayət qədər vaxt keçirmək, habelə müəssisə daxilində sərbəst hərəkət etmək imkanının verilməsi təkifinin nəzərdən keçirilməsini məqsədəuyğun hesab edirik. Lakin bu addımın səmərəliyini və ehtimal olunan nəticələrini çox ciddi şəkildə təhlil et-

mək lazımdır.

İkincisi, məhkumların ictimai faydalı əməklə təmin edilməsi ilə bağlı məsələlər də hələ açıqdır. Hesab edirik ki, bu məsələyə yenidən baxılması vaxtı gəlib çatmışdır. Burada əsas məsələ bazar iqtisadiyyatı şəraitində, məhdud məkanda işin necə təşkil edilməsi və hansı fəaliyyətin ictimai faydalı hesab olunması ilə bağlıdır. Düşünürük ki, artıq təsərrüfat hesablı istehsal prinsipindən, habelə özünü təmin etməkdən imtina vaxtı çatmışdır. Dövlət Avropa ölkələrinin təcrübəsinə istinad etməklə dövlət məsuliyyəti üzərinə götürməli, tələb olunan maliyyə vəsaiti ayırmalı və məhkumların əməyindən gəlir alınmaması prinsipinə ciddi riayət etməlidir. Habelə, elə mexanizmlər müəyyənləşdirilməli və elə şərtlər təklif edilməlidir ki, onlar işəgötürənləri maraqlandırmaqla yanaşı, məhkumların əməyə həvəsləndirilməsinə imkan versin.

Üçüncüsü, məhkumlarla tərbiyə işinin təşkili, onun məzmunu, habelə üsulları yeni baxış və yanaşma tələb edir. Fikrimizcə, fərdi işə daha çox diqqət yetirilməli və onun yeni üsulları axtarılmalıdır. Məhkumlarda tərbiyə prosesinə fəal cəlb edilməyə maraq yaratmaq məqsədilə əlavə stimullar axtarmaq lazımdır.

Beləliklə, MDB-yə daxil olan dövlətlərdə cəzaların icrası qanunvericiliyinin təkmilləşdirilməsi və yuxarıda göstərilən problemlərin uğurlu həlli məqsədilə bu sahədə mövcud əməkdaşlığın fəallaşdırılması və onların yeni növlərinin tətbiq olunması vacibdir.

***İstinad edilmiş mənbə:***

***"Cinayət-İcra Məcəlləsinin 10 illiyi" mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materiallarının toplusu (rus dilində). 22-23 noyabr 2007 il. Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası, Ryazan, 2007. I Hissə, Səh. 30–36.***

## Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi: dəyişikliklər və təkmilləşdirilmə perspektivləri

Hal-hazırda Azərbaycan Respublikasının cəza-icra qanunvericiyinin əsas mənbəyi 14 iyul 2000-ci il qəbul edimiş və həmin ilin 1 sentyabrından qüvvəyə minmiş Cəzaların İcrası Məcəlləsidir (bundan sonra AR CİM). AR CİM-in layihəsi ölkənin 12 dekabr 1995-ci il tarixlı yeni Konstitusiyasının müddəalarına riayət edilməklə, Müstəqil Dövlətlər Birliyinin Parlamentlərarası Assambleyasının 2 noyabr 1996-ci il tarixli qərarı ilə iştirakçı dövlətlər üçün nəzərdə tutulmuş Cəza-icra məcəlləsinin modeli əsasında hazırlanmışdır. Cəzaların icrası ilə bağlı digər qanunvericilik aktları, o cümlədən Azərbaycan Respublikasının Prezidentinin fərman və sərəncamları, ölkənin Konstitusiya Məhkəməsinin qərarları, eyni zamanda, hüquqpozucuları ilə davranışa həsr edilmiş belnəlxalq aktların tövsiyələri də nəzərə alınmışdır. Qanun layihəsinin hazırlanması prosesində ölkədəki kriminogen vəziyyətə, cinayətkarlığın strukturuna və dinamikasına, məhkumların tərkibinə, habelə müvafiq müddətdə dövlətin maliyyə imkanlarına da diqqət ayrılmışdır. Qeyd etmək istərdik ki, AR CİM ilk növbədə, cəmiyyətin və ölkə vətəndaşlarının təhlükəsizliyinin, cinayət cəzalarının icrasının məqsədlərinə nail olunmasına hesablanmışdır. Sözügedən məcəllə özünün sabiq sələfindən, yəni 23 dekabr 1970-ci il tarixli İslah-Əmək Məcəlləsindən nəzərəçarpacaq dərəcədə fərqlənir. AR CİM-də cəzaların icrası qanunvericiliyinin prinsipləri, ilk növbədə humanizm, məhkumların qanun qarşısında bərabərliyi, qanuna itaətin həvəsləndirilməsi, cəzaların icrasının fərdiləşdirilməsi prinsipləri daha dolğun şəkildə realizə edilmişdir. Məcəllədə məhkumların hüquqlarına, azadlıqlarına və qanuni maraqlarına, onların həyata keçirimə mexanizmlərinə, azadlıqdan məhrum etmə yerlərində işgəncə və ya digər qəddar, qeyri-insani hərəkətlərə və yaxud ləyaqətin alçaldılmasından müdafiə təminatına böyük diqqət verilmiş, beynəlxalq normaların milli qanunvericiliyə münasibətdə üstünlüyü elan edilmişdir.

AR CİM-in qəbuluna kimi ölkənin yeni Konstitusiyasının qüvvəyə minməsi ilə əlaqədar Azərbaycan Respublikasının sabiq İslah-Əmək Məcəlləsinə dəyişikliklər olunmuş, öz aktuallığını itirməyən və məhkumların islahına yönəlmiş həmin müddəalarının böyük hissəsi yeni məcəlləyə daxil edilmişdir. AR CİM-i bütün cəza növlərinin icrası və çəkilməsi, habelə cinayət-hüquqi xarakterli digər tədbirlərin tətbiqi qaydalarını və şərtlərini tənzimləyir, məhkumların islah edilmə vasitələrini müəyyənləşdirir və məhkumların hüquq və azadlıqlarını, qanuni mənafelərini müdafiə edir. Sözügedən məcəllə ilə Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (bundan sonra AR CM) nəzərdə tutulmuş cəzaların icrasının ümumi müddəaları və prinsipləri, digər cinayət-hüquqi xarakterli tədbirləri, məhkumlara islah edilmə vasitələrinin tətbiqini, cəzaların icrası və çəkilməsi qaydalarını və şərtlərini, məhkumların hüquqi vəziyyətini, cəzanı icra edən müəssisə və orqanların fəaliyyət qaydasını, məhkumların islah edilməsində müvafiq icra hakimiyyəti orqanlarının, digər müəssisə, idarə, təşkilatların, ictimai birliklərin və vətəndaşların iştirakını, məhkumların cəza çəkməkdən azad edilməsi və həmin şəxslərə yardım edilməsi qaydalarını müəyyənləşdirir.

Qəbul edilməsindən sonrakı müddət ərzində digər qanunvericilik aktları kimi AR CİM-də təkmilləşdirilməyə və müasirləşməyə məruz qalmışdır. Təhlil göstərdi ki, 1 may 2024-cü il tarixinə kimi Azərbaycan Respublikasının 50 müxtəlif məzmunlu qanunları ilə AR CİM-in 106 maddəsinə iki yüzdən çox dəyişiklik edilmişdir. Məcəlləyə 46 yeni maddə və ya digər maddələrin hissələri əlavə edilmiş, 24 maddə və ya onların hissələri çıxarılmış, 14 maddə isə yeni redaksiyada verilmişdir. AR CİM-dən bir fəsil çıxarılmış, yeni bir bölmə və üç fəsil əlavə olunmuşdur. Məcəlləyə dəyişikliklər edilməsinin əsasları, ilk növbədə, hüquqpozucuları ilə davranışa həsr edilmiş beynəlxalq aktların tövsiyələri nəzərə alınmaqla, ölkədə həyata keçirilən humanistləşdirilmə, AR CM-ə daxil edilmiş yeni cəza növlərinin icrası, hüquqi şəxslərə təyini nəzərdə tutulmuş tədbirlər də daxil olmaqla, digər cinayət-hüquqi xarakterli tədbirlərin tətbiqi mexanizmlərinin müəyyən edilməsi zərurəti, cəza siste-

mindən əmlak müsadirəsinin və azadlığın məhdudlaşdırılmasının çıxarılması, habelə məcəllənin yeni qəbul edilmiş və ya dəyişikliklər edilmiş qanunlara, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin qərarlarına uyğunlaşdırılması olmuşdur.

1 may 2024-cü il tarixə AR CİM-i iki hissədən (Ümumi və Xüsusi), səkkiz bolmədən, 23 fəsildən və 184 maddədən ibarət olmuşdur. Məcəlləyə ən böyük dəyişikliklər 24 iyun 2008-ci və 1 dekabr 2017-ci tarixli qanunlarla edilmişdir. Sonuncu qanun Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncamının icrası ilə əlaqədar hazırlanmış və qəbul edilmişdir.

İndi isə, AR CİM-ə iyirmi üç ildən artıq müddətdə edilmiş, kifayət qədər aktuallıq kəsb edən dəyişikliklərin bir neçəsini nəzərdən keçirək. Birincisi, məhkumların hüquqi vəziyyəti humanistləşdirilməklə, xeyli genişləndirilmişdir. Məhkumların əsas hüquqlarına: ödənişsiz psixoloji yardım almaq, bədən tərbiyəsi və idmanla məşğul olmaq, cəzanın icrası və çəkilməsi ilə əlaqədar barəsində qəbul edilən qərarlara dair öz rəyini bildirmək və ya onlardan şikayət etmək kimi üç yeni hüquq, vəzifələrə isə - qanunda nəzərdə tutulmuş hallarda məcburi dövlət daktiloskopik və məcburi dövlət genom qeydiyyatından keçmək əlavə edilmişdir.

Ölkədə Probasiya xidmətinin yaradılması ilə əlaqədar probasiya nəzarətinin anlayışı verilmiş, ona məruz qalacaq şəxslərin dairəsi müəyyən olunmuş, yenidən cəza sisteminə qaytarılan, lakin daha ciddi məzmunla və elektron nəzarət vasitələrinin tətbiqi ilə müşayiət edilən azadlığın məhdudlaşdırılması cəzasının icrası qaydası tənzimlənmişdir. Habelə, elektron nəzarət vasitələrinin tətbiqi xüsusiyyətləri və onun tətbiq edilə biləcəyi şəxslərin dairəsi müəyyənləşdirilmişdir.

Azərbaycan Respublikasının İnsah hüquqları üzrə müvəkkilinın (Ombudsmanın)və onun Milli preventiv qrupunun cəzaçəkmə müəssislərinə baş çəkməsi zamanı onlara verilmiş səlahiyyətləri

artırılmışdır. Əlavə olaraq, məhkumlarn cəzaçəkmə müəssisələrindən istintaq hərəkətlərinin aparılması və ya cinayət işlərinə məhkəmədə baxılması ilə bağlı iştirakı üçün istintaq təcridxanalarına keçirilməsi qaydası, onların bu zaman hüquqi vəziyyəti tənzimlənmişdir. Məhkumların məntəqə tipli cəzaçəkmə müəsisəsinə göndərilməsi, onların üzrlü səbəblər olmadan cəzanın çəkilməsi yelərinə gəlməkdən yayınması ilə bağlı görülməli tədbirlər müəyyən edilmişdir. Habelə, dəfələrlə cəzaların, xüsusilə azadlıqdan məhrum etmə cəzasının çəkilməsi şərtləri dəyişdirilmişdir. Ümumi, ciddi, xüsusi rejimli cəzaçəkmə müəssisələrində, tərbiyə müəssisələrində, həbsxanalarda cəza çəkən məhkumların görüşlərinin, onlara təqdim edilən sovqat və bağlamaların, telefon danışıqlarının vaxtı və sayı, habelə qida məhsulları və ən zəruri mallarının əldə edilməsi ilə bağlı xərcləməyə icazə verilən pulun məbləği də artırılmışdır. Butun tipli cəzaçəkmə müəssisələrində və intizam xarakterli hərbi hissədə cəza çəkən məhkumlara videogorüş hüququ verilmişdir.

Azadlıqdan məhrum etmə cəzasını çəkən məhkumların yazışmasındakı senzura ləğv edilmişdir. Məhkumların yazışmalarına nəzarət yalnız müstəsna, yəni əsaslı məlumatlar olduğu hallarda, yəni hazırlanan cinayətlərin qarşısını almaq, cinayət təqibini, cəzanın çəkilməsi qaydasını və şəxslərin həyat və təhlükəsizliyini təmin etmək məqsədilə və cəzaçəkmə müəssisəsi müdiriyyətinin əsaslandırılmış qərarı ilə həyata keçirilə bilər. Cəzaçəkmə müəssisələrində, müalicə müəssisələrində, həbsxanada, habelə istintaq təcridxanalarında təsərrüfat və məişət xidməti işi üçün saxlanıla bilən şəxslərin sayı on faizədək artırılmışdır. Eyni zamanda, əvvəllər məhkum edilmiş və yenidən yeddi ildən artıq olmayan müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxslərin müstəsna hallarda, onların razılığı ilə təsərrüfat və məişət xidməti işi üçün müalicə müəssisələrində saxlanılmasına icazə verilmişdir.

2008-ci ildə AR CM-ə dəyişkiliklər edilməsi və cəzaçəkmə müəssisələrində və ya istintaq təcridxanalarında həmin müəssisələrinin Daxili intizam qaydaları ilə nəzərdə tutulmuş və dövriyyəsi qadağan olunmuş əşyaların saxlanmasına görə cinayət məsuliyyətinin müəyyən olunması (AR CM-in 317-1, 317-2-ci maddələri)

ilə əlaqədar, sözügedən əməllərin istər məhkumlar, istərsə digər şəxslər tərəfindən törədildiyi aşkar olunduğu ilə bağlı müdiriyyətinin zəruri hərəkətlərinin yeni qaydası təsbit edilmişdir. Azadlıqdan məhrum etmə yelərində saxlanması, isifadəsi, abunə yazılması və yayılması qadağan edilən ədəbiyyatın siyahısı genişləndirilmiş, onlara ekstremizmi, terroru, milli, dini və irqi ədavəti qızışdıran nəşrlər də daxil edilmişdir. Azadlıqdan məhrum edilmiş məhkumların saxlanmasına, yəni onlara verilən yemək, paltar və ayaqqabıya görə əmək haqqından və digər gəlirlərdən məcburi tutulmalar ləğv edilmiş, habelə məhkumların şəxsi hesabına bütün məcburi tutulmalardan sonra köçürülən pulun məbləği artırılmışdır.

Azadlıqdan məhrum edilmiş məhkumlara əlavə videogörüş hüququnun verilməsi, xüsusi rejimli cəzaçəkmə müəssisəsində saxlanılan məhkumlara ay ərzində əlavə bir saatlıq gəzinti təqdim olunması növündə yeni həvəsləndirmə təbirləri müəyyən olunmuşdir. Eyni zamanda, dəyişikliyə uyğun olaraq, tərbiyə müəssisəsində cəza çəkən məhkumlara, tərbiyə müəssisəsi nümayəndəsinin müşayiəti ilə müəssisənin hüdudlarından kənarda idman, mədəni-kütləvi və digər tədbirlərə bir dəfə tamaşa etməyə icazə vermək növündə yeni həvəsləndirmə tədbiri də tətbiq edilə bilər. Habelə, AR CİM-ə məntəqə tipli cəzaçəkmə müəssisəsində cəza çəkən məhkumlara bir ay müddətində müəssisədən kənara çıxmağın və ya üç ay ərzində istirahət və bayram günlərini cəzaçəkmə müəssisəsindən kənarda keçirməyin qadağan edilməsi növündə yeni tənbeh tədbirləri əlavə olunmuşdur. Müalicə müəssisələrinə və cəzaçəkmə müəssisələrinin tibb-sanitariya hissələrinə keçirilmiş məhkumların burada saxlanılma vaxtı, özünə xəsarət yetirmə və özünü xəstəliyə vurma halları istisna olmaqla, cərimə təcridxanalarında, kamera tipli otaqlarda və birnəfərlik kameralarda saxlanılma növündə tənbehin çəkilmə müddətinə hesablanmağa başlanılmışdır.

Azərbaycan Respublikasının 10 fevral 2017-ci il tarixli sərəncamında verilmiş tapşırığa əsasən ictimai işlər növündə cəzanın icrası qaydası təkmilləşdirilmiş, sözügedən islərin həyata keçirilməsi prosesində məhkumlara yeni vəzifələr, yəni ictimai işlərin yerinə yetirilməsi zamanı elektron nəzarət vasitəsinin gəzdirilməsi

və ona xidmət göstərilməsi həvalə edilmişdir.

Azərbaycan Respublikasının hüdudlarından məcburi çıxarma cəzasının icrası qaydası dəyişdirilmiş, xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum etmənin realizə olunması proseduru təkmilləşdirilmişdir. Məntəqə tipli cəzaçəkmə müəssisələrində cəzanın icrası qaydası humanistləşdirilmiş, bu müassisələrdə saxlanılan məkumların kommunal, tibbi-sanitariya, yemək və digər təminatlarının dövlət hesabına keçirilməsinə başlanılmışdır. Həmin cəzaçəkmə müəssisələrində cəza çəkən və əmək fəaliyyəti ilə məşğul olan məhkumlara nümunəvi davranışa, əməyə və təhsilə vicdanlı münasibətə, təlim-tərbiyə tədbirlərində fəal iştiraka görə müdiriyyətinin qərarı ilə əmək məzuniyyətini cəzaçəkmə müəssisəsinin hüdudlarından kənarda (yalnız Azərbaycan Respublikasının ərazisi hüdudlarında) keçirməyə icazə verilməsi nəzərdə tutulmuşdur.

Ciddi rejimli cəzaçəkmə müəssisəsində cəza çəkən məhkumlara cəza müddətinin ən azı üçdə iki hissəsini çəkdikdən sonra məhkəmənin qərarı ilə ümumi rejimli cəzaçəkmə müəssisəsinə keçirilmək imkanı verilmişdir. Ömürlük azadlıqdan məhrum edilmiş məhkumların da saxlanılması şərtləri də nəzərəçarpacaq dərəcədə humanistləşdirilmiş, onlar üçün nəzərdə tutulmuş görüşlərin, sovqatların, bağlamaların, banderolların, telefon danşıqlarının sayı və müddəti, habelə qida məhsulları və ən zəruri mallar əldə edilməsi ilə bağlı xərclənməyə icazə verilən pulun məbləği də artırılmış, həmin məhkumlara televiziya verilişlərinə baxmaq hüququ verilmişdir.

Müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə cəzalarını çəkən şəxslərin məcburi dövlət sosial sığortasına cəlb edilməsi, onlara əmək pensiyasının, sosial müavinətin təyin edilməsi, həmçinin qadın məhkumların hamiləliyə və doğuşa görə müavinətlə təmin olunması şərtləri və qaydası dəyişdirilmiş, bu sahədə cəzaçəkmə müəssisəsinin müdiriyyətinin vəzifələri konkretləşdirilmişdir. Habelə, azadlıqdan məhrum etmə yerlərindən azad edilmiş məhkumların sosial adaptasiyasını həyata keçirilməsində iştirak edən cəzaçəkmə müəssisəsinin müdiriyyətinin və aidiyyəti dövlət orqanlarının vəzifələri təkmilləşdirilmişdir.

AR CM-ə yeni cinayət-hüquqi xarakterli tədbirlərin daxil edilməsi ilə əlaqədar xüsusi müsadirə növündə cinayət-hüquqi tədbirinin, habelə hüquqi şəxslər barəsində tətbiq edilən xüsusi müsadirə, cərimə, müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, hüquqi şəxsi ləğv etmə növündə cinayət-hüquqi tədbirin icrası qaydaları müəyyən edilmişdir. Qeyd olunanlara uyğun olaraq cəzaların icrası qanunvericiliyinin vəzifələri və tənzimlənmə predmeti genişləndirilmiş, iki fəsilin və bir neçə maddənin adları dəyişdirilmişdir.

Qeyd olunmalıdır ki, AR CİM-in iyirmi ildən artıq müddət əvvəl qəbul edilməsinə baxmayaraq, o, umumən müasir tələblərə cavab verir və qarşısına qoyulmuş vəzifələri uğurla yerinə yetirməkdə davam edir. Eyni zamanda, fikrimizcə, ona yeni dəyişikliklər edilməsi yolu ilə təkmilləşdirilməsinin davam etdirilməsi zəruridir. Hesab edirik ki, məcəllənin humanistləşdirilməsini davam etdirmək, onu hüquqpozucuları ilə davranışa həsr olunmuş beynəlxalq aktların, İşgəncələrə dair Avropa Komitəsinin tövsiyələrinə, İnsan hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarına, habelə cəzaların icrası ilə əlaqədar xarici dövlətlərin müsbət təcrübəsinə tamlıqla uyğunlaşdırması ilə bağlı işi davam etdirmək lazımdır.

Yuxarıda göstərilənlərə əsasən, cəzaları icra edən müəssisə və orqanlarda uzun müddətli fəaliyyətimizə istinadən, habelə sözügedən sahədə tərəfimizdən əvvəllər verilmiş təklifləri nəzərə alaraq, AR CİM-ə aşagıda göstərilən dəyişliklərin edilməsini məqsədəuyğun hesab edirik.

Birincisi, məcəllənin humanistləşdirilməsi məqsədilə:

– ömürlük azadlıqdan məhrum etmə cəzası müəyyən müddətə azadlıqdan məhrum etmə ilə əvəz edilmiş məhkumlar istisna olmaqla, xüsusi rejimli cəzaçəkmə müəssisəsində cəza çəkən və təyin olunmuş müddətin ən azı yarısını çəkmiş məhkumların ciddi rejimli cəzaçəkmə müəssisəsinə keçirilməsi imkanını nəzərdə tutmaq (AR CİM-in 70-ci maddəsi);

– inflasiyanı, məhkumların əldə etməsinə icazə verilən qida məhsullarının və ən zəruri malların ardıcıl olaraq qiymətlərinin artmasını nəzərə alaraq, bütün növlü cəzaçəkmə müəssisələrində

və intizam xarakterli hərbi hissədə məhkumlara xərclənməyə icazə verilən pulun məbləğini artırmaq. Sözügedən məbləğlə bağlı məcəllənin müvafiq normalarının tez-tez dəyişdirilməsinə yol verməmək məqsədilə xərclənməsinə icazə verilən pulun məbləğini, hər il Milli Məclis tərəfindən təsdiq edilən yaşayış minimumuna uyğunlaşdırmaq (AR CİM-in 80, 105, 113, 117, 121, 122, 124, 141-ci maddələri);

– məhkumların cəzaçəkmə müəssisəsinin hüdudlarından kənara səfərlərinə əsas verən müstəsna halların siyahısı genişləndirmək, mövcud müstəsna hallara yeni, yəni yaxın qohumların nikah və toy mərasimlərində, uşağının dünyaya gəlməsi, habelə övladının hərbi xidmətə yola salınması ilə bağlı halları əlavə etmək, habelə müvafiq imkanı ilk dəfə ağır cinayətlər törətmiş və cəzalarını umumi rejimli cəzaçəkmə müəssisəsində çəkən məhkumlara da şamil etmək (AR CİM-in 89-cu maddəsi);

– azadlıqdan məhrum etmə cəzasını çəkən məhkumların, onlarla işləyən işçi heyətinin sağlamlağına təhdid yaradan sosial əhəmiyyətli xəstəliklərin (vərəm, hepatit, HİV, QİCS və digərləri) profilaktikası və vaxtında müəyyən edilməsi məqsədilə bütün məhkumların illik məcburi klinik müayinələrinin kecirilməsini, yəni icbari dispanserizasiyasını təşkil etmək (AR CİM-in 93-cü maddəsi);

– məlumat almaq hüququnun təmin edilməsi və tərbiyə işinin distant rejimdə həyata keçirilməsi məqsədilə kamera tipli otaqlarda, həbsxanada ciddi saxlanma şəraitində, habelə cəzaçəkmə müəssisələrində cəzanın icrası qaydalarını qərəzli pozmaga görə ümumi, ciddi, xüsusi rejimli cəzaçəkmə müəsisələrindən həbsxanaya keçirilmiş məhkumlara tətbiq edilmiş qadağanı ləğv etməklə, onlara qısadılmış vaxt ərzində televiziya verilişlərinə baxmağa icazə vermək (AR CİM-in 102-ci maddəsi);

– azadlıqdan məhrum etməyə, o cümlədən ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxslərin ali və xüsusi orta təhsil almaq hüquqları ilə bağlı qaydanı konkretləşdirmək (AR CİM-in 104-cü maddəsi);

– azadlıqdan məhrum edilmiş məhkumlara həvəsləndirmə tədbirlərinin aşağıdakı yeni növlərini nəzərdə tutmaq:

1) qadın məhkumlara cəzaçəkmə müəssisəsinin əməkdaşlarının müşayiəti ilə dövlət sosial müəssisələrində saxlanılan yetkinlik yaşına çatmayan uşaqlarına baş çəkmək üçün müəssisənin hüdudlarından kənara çıxmaga icazə vermək (AR CİM-in 105-ci maddəsi);

2) tərbiyə müəssisələrində cəza çəkən məhkumlara istirahət və ya bayram günlərində valideynlərinin və ya onları əvəz edən şəxslərin, yaxud digər yaxın qohumlarının müşayiəti ilə müəssisənin hüdudlarından kənara çıxmaga icazə vermək (AR CİM-in 124-1-ci maddəsi);

3) intizam xarakterli hərbi hissədə cəza çəkən şəxslərə, əlavə videogörüş hüququ vermək (CİM-in 148-ci maddəsi).

– intizam xarakterli hərbi hissədə cəzanın çəkilməsi vaxtının müddətli həqiqi hərbi xidmət müddətinə hesablamaq (AR CİM-in 158-ci maddəsi).

İkincisi, məcəllənin bir sıra müddəalarının dəqiqləşdirilməsi üçün təklif edirik:

– Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin Plenumunun 28 iyul 2023-cü il tarixli Qərarına uyğun olaraq azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaya məhkum edilməklə yanaşı, barəsində alkoqolizm və ya narkomaniyadan müalicə təyin edilmiş şəxslərə tibbi xarakterli məcburi tədbirlərin tətbiqi qaydalarına müvafiq dəyişikliklər etmək (AR CİM-in 17-1-ci maddəsi);

– qarışıq rejimli cəzaçəkmə müəssisəsi kimi xarakterizə olunan penitensiar kompleksə (hazırda Azərbaycan Resplikasında bu növlü beş müəssisə fəaliyyət göstərir) hüquqi anlayış vermək və həmin cəzaçəkmə müəssisəsində cəzanın çəkilməsi qaydalarını konkretləşdirmək (AR CİM-in 72-ci maddəsi);

– xüsusi rejimli cəzaçəkmə müəssisələrində, ömürlük azadlıqdan məhrum edilmiş məhkumlar da daxil olmaqla həbsxanalarda, penitensiar kompleklərdə, cərimə və intizam təcridxanalarında, kamera tipli otaqlarda və birnəfərlik kameralarda saxlanılan şəxslərin bədən tərbiyəsi və idmanla məşgul olmaq hüququnun təmin olunması, idman yarışlarının keçirilməsinin ümumi qaydalarını müəyyən etmək (AR CİM-in 91-1-ci maddəsi).

Üçüncüsü, cəzaçəkmə müəssisələrində cəza çəkən şəxslərlə aparılan tərbiyə isinin məzmununu və əsas formalarını dəyişdirmək, bu sahədə məhkumlarla, onların şəxsiyyəti, sosial pozğunluq dərəcəsi, habelə, ehtiyacları nəzərə alınmaqla hazırlanmış müxtəlif fərdi reabilitasiya proqramlarının həyata keçirilməsinə başlamaq (AR CİM-in 102-ci maddəsi).

Dördüncüsü, beynəlxalq təcrübə nəzərə alınmaqla:

– Azərbaycan Respublikasının 26 may 2006-cı il tarixli "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Qanununun 33-cü maddəsinə istinadən, məhkumların sosial, məişət, ailə problemlərinin həlli, sosial faydalı əlaqələrinin saxlanması və bərpası, azadlığa hazırlığa kömək göstərilməsi, həyatı dəyərlərin istiqamətlərinin dəyişdirilməsi, ictimai nəzarətin səviyyəsinin yüksəldilməsi, habelə məhkumların islahına və azad cəmiyyətə reinteqrasiyasına dəstək olan digər əhəmiyyətli problemlərin həllinə yardım məqsədilə, cəzaçəkmə müəssisələrinin ştat cədvəlinə sosial işçiləri də daxil etmək, onların statusunu və fəaliyyət istiqamətlərini müəyyənləşdirmək;

– cəzaçəkmə müəssisələrində məhkumların əməyə cəlb edilməsinın yeni mexanizmini işləyib hazırlamaq və cəza çəkən şəxslərin əməyə həvəs göstərmələri məqsədilə əlavə stimullar tətbiq etmək. Bunun üçün cəzaçəkmə müəssisələrində haqqı ödənilən işlərə bərabər tutulan ictimai faydalı fəaliyyət növlərinin siyahısını hazırlamaq, onların ödənilməsini və müvafiq müddətin məhkumun ümumi iş stajına daxil edilməsini nəzərdə tutmaq. Haqqı ödənilən işlərə bərabər tutulan ictimai faydalı fəaliyyət növlərinə, peşə təhsilinə cəlb edilməni, peşə hazırlığı keçməyi, xarici dillərin və ya kömputer biliklərinin öyrənilməsini, cəzaçəkmə müəssisəsinin abadlaşdırılması işində istirakı, kolleclərdə, ali təhsil müəssisələrində qiyabi təhsili və digər ictimai faydalı işləri də aid etmək olar. Qeyd etmək istərdik ki, sözügedən təklifi cəzaçəkmə müəssisələrində məhkumların sayca çox olması və ya yüklənməsi şəraitində həyata keçirilməsi kifayət çətin ola bilər.

Beşincisi, təcrübədə rast gəlinən çətinliklərin aradan qaldırılması və yaranan problemlərin həlli məqsədilə, cərimə, nəqliyyat vasitəsini idarə etmək hüququndan məhrum etmə, müəyyən vəzifə

tutmaq və ya müəyyən fəaliyyətlə məşgul olma hüququndan məhrum etmə, islah işləri, Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma, azadlığın məhdudlaşdırılması, xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum etmə növündə cəzaların icrası, cəzasının çəkilməmiş hissəsi daha yüngül cəza ilə əvəz edilmiş, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş və ya cəzasının çəkilməsi təxirə salınmış məhkumlara nəzarətin həyata keçirilməsi qaydalarının təkmilləşdirilməsini davam etdirmək. Sözügedən cəzaların icrası mexanizmlərinin və institutların səmərəliyinin artırılması ilə əlaqədar verilmiş təkliflərin realizə edilməsi üçün AR CM-in 44-46, 48,49, 51-1, 52, 70, 76, 77, 79-cu maddələrinə, habelə Azərbaycan Respublikasının Cinyət-Prossesual və Cəzaların İcrası məcəllərinin aidiyyəti maddələrinə də dəyişikliklərin edilməsi zəruridir.

Hesab edirik ki, AR CİM-in təkmilləşdirilməsi ilə əlaqədar təqdim etdiyimiz təkliflərin qəbulu, ölkənin cəza-icra qanunuvericiliyinin ardıcıl olaraq humanistləşdirilməsi ənənəsini davam etdirəcək, demək olar ki, bütün cəza növlərinin icrası mexanizmlərinin daha işlək olmasına, məhkumların islah edilməsi işinin daha səmərəli təşkilinə, cəzaları icra edən müəssisə və orqanların fəaliyyətinin keyfiyyətinin və effektivliyinin artmasına zəmin yaradacaqdır.

***İstinad edilmiş mənbə:***

***"Cəza-icra hüququ" jurnalı, Rusiya Federasiyası, 2024. T. 19 (1–4), № 4. C. 632–641.***

## Azərbaycan Respublikasının cinayət və cəza-icra qanunvericiliyinin Konsitusiya Məhkəməsinin nəzarəti kontekstində təkmilləşdirilməsi

Müasir konstutusiyalar və bütövlükdə, konstitusiya hüququ, cəmiyyətin ədalət modeli olmaqla, dövlət, cəmiyyət və şəxsiyyət arasında inkişaf edən münasibətləri sabit və balanslaşdırılmıs şəkildə əks etdirirlər. Konstitusion dəyərlərin və prinsiplərin müdafiəsi konstitusiya ədliyyəsi vasitəsi ilə həyata keçirilir. Müasir demokratik və hüquqi dövləti, konstitusiya nəzarəti orqanı olmadan təssəvvür etmək çətindir. Bu orqanlar hüquq sistemində, o cümlədən Azərbaycan Respublikasında konstitusiyanın müdafiəsi, insan və vətəndaşların konstitusion hüquq və azadlıqlarının üstünlüyünun təmin edilməsi ilə bağlı vacib funksiyanı yerinə yetirirlər. Ölkə Prezidenti İ.Əliyevin qeyd etdiyi kimi, "... ötən illər ərzində Konstitusiya Məhkəməsi səmərəli fəaliyyəti ilə və qəbul etdiyi qərarlarla Azərbaycan Respublikası Konstitusiyasının aliliyinin təmin edilməsinə, insan hüquq və azadlıqlarının müdafiəsinə, milli qanunvericiliyin, dinamik dəyişən ictimai münasibətlərə uyğun olaraq, Konstitusiyanın müddəaları nəzərə alınmaqla təkmilləşdirilməsinə, cəmiyyətdə hüquq mədəniyyətinin və müxtəlif sahələrdə hüququn tətbiqi təcrübəsinin daha da inkişaf etməsinə dəyərli töhfə vermişdir".

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi 1998-ci ildən fəaliyyət göstərir. Hazırki vaxta kimi Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi tərəfindən 577 qərar və 167 qərardad qəbul edilmişdir. Qeyd olunmalıdır ki, Konstitusiya Məhkəməsinin qərardadlarından fərqli olaraq, qərarları ən yüksək hüquqi qüvvəyə malikdir. Sözügedən qərar və qərardadlarda insan hüquq və azadlıqlarına həsr olunmuş beynəlxalq aktların, o cümlədən "İnsan hüquq və əsas azadıqlarının müdafəsi haqqında" Konvensiyanın tələbləri, İnsan hüquqları üzrə Avropa Məhkəməsinin hüquqi presedentləri, habelə digər dövlətlərin konstitusiya mühakiməsi üzrə təcrübəsi nəzərə alınmaqla, Azərbaycan Respublikasının əsas qanununun aliliyinin təmin ediməsinə yönəlmiş əhəmiyyətli hüquqi mövqelər əks olunmuş və

onlar da hüquqi dövlət quruculuğu işinə böyük töhfə vermiş və bütün hüquq sahələrinin inkişafına təsir göstərmişlər.

Konstitusiya nəzarəti orqanlarının funksiya və səlahiyyətləri onların fəaliyyətinin məqsədləri ilə müəyyən edilir. Bu zaman nəzərə almaq lazımıdır ki, "... konstitysiya mühakiməsinin məqsədi, dövlətin bütün ərazisində ictimai münasibətlərin bütün subyektlərinin fəaliyyətində konstitusiyanın aliliyinin müdafəsi və birbaşa fəaliyyətinin təmin edilməsidir". Lakin Konstitusiya Məhkəməsi öz əsas funksiyaları ilə yanaşı, özünün bir sıra qərarlarında hüquqi müəyyənliyin müdafiəsi baxımından cinayət və cəza-icra hüquqları bağlı məsələlərə də baxmışdır.

Konstitusiya Məhkəməsinin əksəriyyət qərarları yerli və appelyasiya məhkəmələri tərəfindən verilmiş sorgular və müraciət əsasında qəbul edilmişdir ki, onlar konstitusiya nəzarəti orqanına hüquqi müəyyənliyin müdafiəsi prinsipinə istinadən cinayət mühakiməsində hüquq normalarının tətbiqi ilə bağlı vahiq təcrübənin formalaşdırlması məqsədi daşımışdır. Onlardan 80-ə yaxın qərar cinayət və cəza-icra hüququ sahələri ilə əlaqədardır. Konstitusiya Məhkəməsi cinayət qanunvericiliyi ilə bağlı məsələlərə baxarkən Cinayət Məcəlləsinin (bundan sonra AR CM) 75 maddəsini, onlardan 39-u Ümumi hissəyə, 36-ı isə Xüsusi hissəyə aid olmaqla, konstitisiya analizindən keçirmişdir. AR CM-in Ümumi hissəsi ilə əlaqədar cinayətdə iştirakçılıq, cinayətlərin məcmuyu, cinayətlərin residivi, şərti məhkum etmə, cəzanın çəkilməsinin təxirə salınması, məhkumluq institutları, cəzadan azad etmənin əsasları və digər məsələlərə baxılmışdır. Habelə, cəzaların təyin edilməsinin ümumi əsasları, amnistiyanın tətbiqi, yetkinlik yaşına çatmayan şəxslərin cinayət məsuliyyəti və onlara cəzanın təyini məsələləri də şərhetmə predmeti olmuşdur. Hüquqtətbiqetmə təcrübəsində yaranmış ehtiyacla əlaqədar cinayətlərin residivinə (AR CM-in 18-ci maddəsi), cəzaçəkmə müəssisəsinin növünün müəyyən edilməsinə (AR CM-in 56-cı maddəsi), səmimi peşmanlıqla bağlı cinayət məsuliyyətindən azad etməyə (AR CM-in 72-ci maddəsi) və məhkumluğa (AR CM-in 83-cü maddəsi) aid məsələlər dəfələrlə müzakirə və baxış predmeti olmuşdur. Konstitusiya Məhkəməsində əmlak

müsadirəsindən əlavə, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum etmə və cəza sistemindən 31 may 2011-ci il tarixli qanunla çıxarılmış, AR CM-in 53-cü maddəsinin redaksiyasında nəzərdə tutulmuş azadlığın məhdudlaşdırılması növündə cəzalarla bağlı məsələlərə də baxılmışdır.

Qeyd olunmalıdır ki, Konstitusiya Məhkəməsində baxılmış CM-in Xüsusi hissəsinə aid olan məsələlər, bir qayda olaraq iqtisadi fəaliyyət sahəsində olan, narkotik maddələrin qeyri-qanuni dövriyyəsi, habelə ictimai təhlükəsizlik əleyhinə yönəlmiş, hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan, qulluq mənafeyi və hərbi xidmət əleyhinə olan cinayətlərlə bağlı olmuşdur. Təcrübədə daha tez-tez tətbiq edilən oğurluq (AR CM-in 177-ci maddəsi), dələduzluq (AR CM-in 179-cu maddəsi), xuliqanlıq (AR CM-in 221-ci maddəsi), narkotik vasitələrin qeyri-qanuni dövriyyəsi (AR CM-in 234-cü maddəsi), hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması ilə bağlı (AR CM-in 263, 264-cü maddələri) cinayətlərlə əlaqədar cinayət qanunvericiliyinin normaları xüsusi diqqətlə nəzərdən keçirilmişdir. Sözügedən hüquqpozmalar hər il ölkədə qeydıə alınan ictimai təhlükəli əməllərin əhəmiyyətli hissəsini təşkil edirlər. Belə ki, Azərbaycanın Dövlət Statistika Komitəsinin hüquqpozmalara dair 2023-cü il üçün məlumatlarının təhlili göstərdi ki, ölkə məhkəmələri tərəfindən məhkum edilmiş şəxslərin 46,3 %-i narkotik vasitələrin qeyri-qanuni dövriyyəsi, 15,7 %-i oğurluğla, 5,6 %-i dələduzluqla, 4,4 %-i hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozulması, 3,3 %-i xuliqanlıq cinayətləri ilə bağlı olmuşdur. Həmin göstəricilər təsdiq edir ki, Konstitusiya Məhkəməsi dövlətin daha əhəmiyyətli sosial həyat sahələrinin konstitusiyalaşdırmasını təmin edir.

Konstitusiya Məhkəməsi, habelə cəzaların icrası qanunvericiliyi sahəsində də bəzi hüquqi müəyyənliyi təmin etmişdir. Onun bir neçə qərarı azadlıqdan məhrum etmədən islah işlərinə məhkum edilmiş şəxslərin çəkdikləri cəza müddətinin məzuniyyətə hüquq

verən əmək stajına daxil edilməsi, məhkumların islah-əmək müəssisəsində cəza çəkmə dövründə işlədikləri vaxtın onların ümumi iş stajına hesablanmasını nəzərdə tutan müddəanın azadlıqdan məhrum etmə yerlərindən 1997-ci il fevralın 7-nə qədər, yəni Azərbaycan Respublikasının İslah-Əmək Məcəlləsinə böyük dəyişikliklər edilənə kimi azad edilmiş şəxslərə də şamil olunması ilə əlaqədar olmuşdur. Konstitusiya Məhkəməsinin qərarları daha həssas kateqoriyalı şəxslərin, yəni məhkumların xeyrinə çıxarılmışdır. Konstitusiya Məhkəməsinin Cəzaların İcrası Məcəlləsinin 17, 180, 183-cü maddələrində nəzərdə tutulmuş azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaya məhkum edilmiş şəxslərin cəza müddəti başa çatdıqdan sonra alkoqolizm və ya narkomaniyadan müalicə məqsədi ilə barəsində tibbi xarakterli məcburi tədbirlərlər tətbiqi, şərti məhkum edilmiş şəxslərin müddətli hərbi qulluğa çagırılması ilə bağlı onlara nəzarətin həyata keçirilməsi qaydası və xüsusi müsadirə ilə əlaqədar qərarları xüsusilə qeyd edilməlidir. Həmin qərarlar məhkumların vəziyyətini xeyli yaxşılaşdırmış və hüquqtətbiqetmə təcrübəsinə vahidlik gətirmişdir.

Konstitusiya Məhkəməsinin qərarları cinayət mühakiməsi və cəzaların icrası prosesində ortaya çıxan çətinliklərin həllinə əvəzolunmaz komək göstərmiş, istər cinayət, istər cəzaların icrası qanunvericiliklərinin təkmilləşdirilməsinə töhfə vermişdir. Konstitusiya Məhkəməsinin qərarlarındakı formalaşmış hüquqi mövqelər müvafiq orqanlar tətəfindən qəbul edilmiş, tövsiyələr isə Azərbaycan Respublikasının Cinayət və Cəzaların İcrası məcəllələrinə dəyişikliklər edilməsi ilə həyata keçirilmişdir. Belə ki, 23 iyul 2004-cü il tarixli “Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 48-ci maddəsinin Azərbaycan Respublikası Konstitusiyasına uyğunluğunun yoxlanılmasına dair” və 25 iyul 2013-cü il tarixli “V.Qurbanovun şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Hərbi kollegiyasının 13 sentyabr 2012-ci il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair” qərarlarına uyğun olaraq Azərbaycan Respublikasının Milli Məclisi xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum etmə cəzasının

təyini və icrası ilə bağlı Cinayət və Cəzaların İcrası məcəllərinə dəyişikliklər etmişdir. Konstitusiya Məhkəməsinin qərarları əsasında ölkənin Cinayət Məcəlləsinin, Cəzaların İcrası Məcəlləsinin təkmilləşdirilməsi ilə əlaqədar onlara dəyişikliklər edilməsi ilə bağlı nümunələrin siyahısını yenə davam etdirmək olar.

Umumbəllidir ki, konstitusiya normaları və prinsipləri ən çox umumi və fundamental münasibətləri tənzimləyir və bütün hüquq sahələri üçün məcburi xarakter daşıyırlar. Məhz qeyd edilənlər məhkəmə icraatının müxtəluf növlərində (inzibati, cinayət, cinayət-prosessual, habelə heç də az olmayan dərəcədə cəza-icra sahəsində) normativ şərhlərə olan tələbatın səbəbi kimi çıxış edir.

Cinayət və cəza-icra hüquqlarının konstitusiyalaşdırılması, insan və vətəndaş hüquq və azadlıqlarının maddi-hüquqi və prosessual təminatı baxımından həmişə səmərəli və faydalı ola bilər. Öz növbəsində, məhkəmə təcrübəsində konstitusiyada göstərilmiş prinsiplərə riayət edilməsi ədalət mühakiməsinin vahidliyinə, ədalətliyinə, habelə dövlətin və cəmiyyətin konstitusiya əsaslarının güclənləndirilməsinə və davamlığına xidmət edir. Qeyd olunanlarla bağlı, Konstitusiya Məhkəməsinə müraciət hüququna malik olan subyektlərə hüquqtətbiqetmə fəaliyyətində, o cümlədən cinayət və cəzaların-icrası qanunvericilikləri ilə əlaqədar yaranan problemlərin, çətinliklərin, kolliziyaların vaxtında həll edilməsi məqsədilə, qanunvericilikdə dəyişiklikləri gözləmədən ölkənin konstitusiya nəzarəti orqanının topladığı təcrübədən daha fəal istifadə etməyi təklif edirik.

***İstinad edilmiş mənbə:***

***"Rusiya Federasiyasının cəza-icra sistemi: cinayət cəzalarının icrası məsələləri, probasiya tədbirlərinin həyata keçirilməsi, dövlət orqanları və vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq" mövzusunda Beynəlxalq konfrans iştirakşılarının çıxışlarının və məruzələrinin tezislərinin toplusu (rus dilində). Beynəlxalq konfrans iştirakçılarının çıxış və məruzələrinin tezislərinin toplusu. Rusiya, Ryazan Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası, 2024. Tom 1, Səh. 127–131.***

## "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu – təqsirsizlik prezumpsiyasının həyata keçirilməsinin fundamental əsası kimi

Azərbaycan Respublikasının Milli Məclisi 22 may 2012-ci il tarixdə "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Qanunu qəbul etmiş və bu normativ-hüquqi akt həmin ilin 07 iyulundan qüvvəyə minmişdir. Bu yeni qanun cinayət mühakimə icraatının vəzifələrinin həyata keçirilməsini təmin etmək məqsədi daşımaqla, tutulmuş və ya həbs edilmiş şəxslərin həbs yerlərində saxlanılması ilə əlaqədar yaranan hüquqi münasibətləri tənzimləyir. Azərbaycan Respublikasının yeni Cinayət-Prosessual Məcəlləsi qəbul edilənə kimi göstərilən hüquqi mübasibətlər sabiq SSRİ-nin 11 iyul 1969-cu il tarixli Qanunu ilə təsdiq edilmiş "İlkin həbs yerlərində saxlanma haqqında Əsasnamə" və Azərbaycan SSR-nin 08 dekabr 1960-cı il tarixli Cinayət-Prosessual Məcəlləsinin 433-443-cü maddələri ilə tənzimlənirdi.

Müstəqil Azərbaycan Respublikasında həbs yerlərində saxlanma il bağlı müvafiq münasibətlərin tənzimlənməsini həyata keçirən xüsusi qanunun qəbulu çoxdan gözlənilirdi. Belə normativ hüquqi aktın qəbulunun vacibliyi "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikasının 14 iyul 2000-ci il tarixli Qanununda nəzərdə tutulmuşdu. Həmin qanunun 8-ci maddəsində göstərilirdi ki, həbsdə saxlanılma yerlərində şəxslərin saxlanılmasına dair yeni Qanun qəbul edilənədək, müvafiq məsələlər 2000-ci il sentyabrın 1-dək qüvvədə olan Cinayət-Prosessual Məcəlləsinin 433-443-cü maddələrinə uyğunlaşdırılmış qaydada Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən qəbul edilmiş müvəqqəti

Əsasnaməyə uyğun həyata keçirilməlidir. Sözügedən müvəqqəti Əsasnamə Azərbaycan Respublikasının Ədliyyə nazirinin 07 dekabr 2002-ci il tarixli 35 nömrəli əmri ilə təsdiq edilmiş və dövlət qeydiyyatına alınmışdır. Müvəqqəti Əsasnamə ümumi məsələlərlə yanaşı həbs yerlərinin növlərini, həbs edilmiş şəxslərin hüquq və azadlıqlarını, onların yazışma, ərizə, şikayətlərinin göndərilməsi, görüşlərin təqdim edilməsi qaydalarını, onlara tətbiq edilən həvəsləndirmə və tənbeh tədbirlərini, habelə həbs yerlərindən azad edilmənin əsaslarını müəyyən etmişdi. Bu normativ-hüquqi aktda həbs yerlərində maddi-məişət, tibbi təminat, təhlükəsizlik tədbirlərinin tətbiqi məsələlərinə çox qısa şəkildə toxunulmuş, bir sıra məsələlər tamlıqla, ətraflı tənzimlənməmiş və açıq qalmışdı.

Qeyd etmək lazımdır ki, yeni qanunun hazırlanması prosesində müstəqil ekspertlər, hüquq müdafiəçiləri, qeyri-hökumət təşkilatlarının nümayəndələri, yerli hüquqşunaslarla yanaşı ATƏT-in Azərbaycan Respublikasındakı Ofisi də fəal iştirak etmişdir. Qanun layihəsinin beynəlxalq normalara, o cümlədən Avropa Penitensiar Qaydalarına, habelə Avropa Şurasının 27 sentyabr 2006-ci il tarixli “Həbsdə saxlanmanın tətbiqi, onun həyata keçirilməsi şərtləri və zorakılığın qarsının alınması ilə əlaqədar tədbirlər haqqında” R (2006)13 nömrəli Tövsiyəsinə uyğunluğunu müəyyən etmək məqsədilə xarici mütəxəssislər cəlb edilməklə onun müstəqil ekspertizası keçirilmişdir. Qanun layihəsində Azərbaycan Respublikasına İşgəncələrə qarşı Avropa Komitəsinin (CPT) səfərlərinin nəticələri ilə əlaqədar hesabatlarında verilmiş tövsiyələr də nəzərə alınmışdır.

Yeni qanunun qəbulunun surətləndirilməsinin vacibliyi Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı”nda da nəzərdə tutulmuşdu.

Yeni qanun qabaqcıl ideyaları özündə əks etdirməklə, tutulmuş və həbs edilmiş şəxslərin hüquqi vəziyyətini əhəmiyyətli dərəcədə humanistləşdirmiş, bununla da həbsdə saxlanılan və azadlıqdan

məhrum edilmiş şəxslərin hüquqi statusları arasında uzun müddət movcud olmuş ədalətsizliyi aradan qaldırmışdır. Qanundakı yeniliklərlə tutulmuş və həbs edilmiş şəxslərə əvvəllər qanunvericilikdə nəzərdə tutulmamış yeni hüquq və azadlıqlar təqdim etdilmişdir. Belə ki, hazırda tutulmuş və həbs edilmiş şəxslər aşağıdakı yeni hüquq və azadlıqlara malikdirlər:

– müvəqqəti saxlanma və istintaq təcridxanalarına gətirildikdən dərhal sonra yaxın qohumlarına və ya əlaqə saxlanması onun üçün qanuni maraq doğuran digər şəxslərə telefonla bu barədə məlumat vermək;

– öz qohumları və digər şəxslərlə məhdudiyyətsiz və senzura tətbiq edilmədən yazışmaq;

– psixoloji yardım almaq;

– idmanla məşğul olmaq;

– şəxsi təhlükəsizliyi təmin edilməklə saxlanılmaq;

– həbs yerinin müdiriyyəti tərəfindən barəsində çıxarılmış qərardan şikayət etmək.

Həbs edilmiş şəxslərin aşağıdakı əlavə hüquqları da vardır:

– yaxın qohumları və ya əlaqə saxlaması onun üçün qanuni maraq doğuran digər şəxslərlə ayda dörd dəfə dörd saatadək müddətə ləyaqətli şəraitdə və nəzarət altında görüşmək;

– həftədə iki dəfə 15 dəqiqəyədək müddətdə telefonla danışmaq;

– televiziya verilişlərinə baxmaq;

– könüllü qaydada ictimai faydalı əməklə məşgul olmaq;

– nikah bağlamaq və ya nikahı pozmaq, habelə digər ailə-hüquq münasibətlərində iştirak etmək və s.

Qeyd olunmalıdır ki, müvafiq hüquq və azadlıqlar "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Qanunun, həbs yerlərinin Daxili İntizam Qaydalarının tələbləri nəzərə alınmaqla həyata keçirilir.

Göstərilənlərdən əlavə, həbs edilmiş şəxslərin gəzinti vaxtları kifayət qədər artırılmış, həbs yerinin müdiriyyəti vasitəsilə ticarət şəbəkəsindən ərzaq məhsulları və ən zəruri mallar əldə etməklə

bağlı xərclənməyə icazə verilən pulun məbləğindəki, yetkinlik yaşına çatmayanlar, ağır xəstəlikdən əziyyət çəkənlər (bu barədə tibbi rəy olduqda), birinci və ikinci qrup əlillər, hamilə qadınlar, habelə yanında 3 yaşınadək uşağı olan qadınlara gətirilən bağlama, sovqat və banderolun sayındakı məhdudiyyətlər ləğv edilmişdir. Yetkinlik yaşına çatmayanlar həbs yerlərində təhsillərini davam etdirmək hüququ əldə etmiş, cərimə təcridxanasına keçirilən şəxslərin dairəsi məhdudlaşdırılmış, habelə belə yerlərdə saxlanma müddəti azaldılmışdır. Belə ki, cərimə təcridxanasına keçirilməyə yalnız dairəsi Qanunun 40-cı maddəsində göstərilmiş konkret pozuntulara görə yol verilir və müvafiq müddət yeddi gündən çox ola bilməz. Yetkinlik yaşına çatmayanların, hamilə qadınların, habelə yanında üç yaşınadək uşağı olan qadınların cərimə təcridxanasına keçirilməsi qadağan edilmişdir.

Qeyd edilməlidir ki, bu qanun tutulmuş və həbs edilmiş şəxslərin hüquq və azadlıqlarının sərhədini genişləndirməklə yanaşı, cinayət mühakiməsinin maraqlarını da nəzərə almışdır. Cinayət təqibini və şəxslərin təhlükəsizliyini təmin etmək məqsədi ilə cinayət prosesini həyata keçirən orqanın və ya həbs yerində rejimi təmin etmək zərurəti yarandıqda, həbs yerinin müdiriyyətinin əsaslandırılmış qərarı ilə tutulmuş və ya həbs edilmiş şəxslərin müdafiəçi və ya qanuni əsaslarla hüquqi yardım göstərən digər şəxslərlə yazışmaları istisna olmaqla, onların aldıqları və göndərdikləri digər yazışmalar məhdudlaşdırıla və ya senzuradan keçirilə bilər. Həmin qərardan qanunla müəyyən edilmiş qaydada məhkəməyə, həbs yerinin müdiriyyətinin qərarından isə, yuxarı vəzifəli şəxsə şikayət edilə bilər. Göstərilən əsaslarla məhdudiyyətlər görüş və telefon danışıqlarına da tətbiq edilə bilər. Bu qərarlardan da məhkəməyə və yuxarı vəzifəli şəxsə şikayət edilə bilər. Belə olan hallarda yazışmalar, görüş və telefon danışıqları cinayət prosesini həyata keçirən orqanın və ya həbs yerinin müdiriyyətinin razılığına əsasən verilir.

Yeni qanunda tutulmuş və həbs edilmiş şəxslərin işgəncə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftardan və yaxud cəzalardan

müdafiəsinə, tibbi təminatına və həbs edilmiş şəxslərin istintaq hərəkətlərinin aparılması və şəxsin məhkəmə icraatında iştirakının təmin edilməsi ilə əlaqədar istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi məsələlərinə xüsusi diqqət ayrılmışdır. Eyni zamanda, ixtisaslaşdırılmış tibbi yardım almaq, işgəncəyə və qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalmamaq, habelə etik davranış qaydalarına uyğun rəftar olunmaq tutulmuş və həbs edilmiş şəxslərin qanunda göstərilmiş əsas hüquqları sırasına daxil edilmişdir.

Tutulmuş və həbs edilmiş şəxslər həbs yerlərinə qəbul edildikdə, habelə saxlanma yerindən getməmişdən əvvəl və geri qayıtma zamanı dərhal tibbi müayinədən keçirilirlər. Tutulmuş və ya həbs edilmiş şəxslər həbs yerlərinə qəbul edildikdən dərhal sonra onların müşahidə olunan bədən xəsarətləri və həbs yerinə daxil olanadək məruz qaldıqları hər hansı işgəncə və qeyri-insani və ya ləyaqəti alçaldan rəftar barədə şikayətləri, habelə nəzərə çarpan belə hallar həbs yerinin müdiriyyəti tərəfindən qeydiyyata alınmalı və müvafiq araşdırma aparılması üçün dərhal ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilməlidir. Qanun habelə, tutulmuş və həbs edilmiş şəxslərin həbs yerlərindən azad edilməsi zamanı da onların tibbi müayinədən keçirilməsini nəzərdə tutmuşdur.

Qanunla həbs edilmiş şəxslərin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsinin xüsusi qaydası müəyyən edilmişdir ki, bu da və onların hüquq və azadlıqlarının müdafəsinin və qanunçuluğun əlavə təminatı kimi çıxış edir. Qanunun 8-ci maddəsinə əsasən istintaq hərəkətlərinin aparılması və ya məhkəmə icraatında iştirak məqsədilə istintaq təcridxanasından aparılmış həbs edilmiş şəxs gün ərzində geri qaytarılmalıdır. Məsəfə baxımından şəxsin geri qaytarılması mümkün olmadıqda, həbs edilmiş şəxs məhkəmənin əsaslandırılmış qərarı ilə bir ay ərzində on gündən artıq olmayan müddətə müvəqqəti saxlama yerində saxlanıla bilər. Həmin müddət həbs edilmiş şəxsin vəsatəti əsasında məhkəmənin əsaslandırılmış qərarı ilə uzadıla bilər.

“Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında” Qanunun 49-50-ci maddələrində öz əksini tapmış iki yeniliyə də diqqəti cəlb etmək istərdik. Həmin maddələrdəki normalarda həbs yerlərinin fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsi, habelə qanunun tələblərinin pozulmasına görə məsuliyyət nəzərdə tutulmuşdur.

Qanunun xüsusi əhəmiyyət kəsb etdiyi nəzərə alınaraq, Azərbaycan Respublikası Prezidentinin 06 iyul 2012-ci il tarixli Fərmanı ilə müvəqqəti saxlanma yerlərinin və istintaq təcridxanalarının Daxili İntizam Qaydalarının, habelə qanunda göstərilmiş digər normativ hüquqi aktların qəbulu ölkənin Nazirlər Kabinetinə tapşırılmışdır. Həmin Fərmana uyğun olaraq Nazirlər Kabineti 18 fevral və 18 aprel 2013-cü il tarixli qərarları ilə tutulmuş və həbs edilmiş şəxslərin yeni yemək və maddi-məişət normalarını, habelə həmin şəxslərə tibbi və psixoloji yardımın göstərilməsi, onların tibb müəsisələrində saxlanması qaydalarını təsdiq etmişdir. Tutulmuş və həbs edilmiş şəxslər üçün yeni yemək normları öz müxtəlifliyinə (assortimentinə) və kaloriliyinə görə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 25 sentyabr 2001-cü il tarixli qərarda nəzərdə tutulmuş normalardan xeyli üstündür. Eyni zamanda, yetkinlik yaşına çatmayanlar, hamilə qadınlar, habelə yanında üç yaşınadək uşağı olan qadınlar üçün yaxşılaşdırılmış xüsusi yemək və maddi-məişət normaları müəyyən edilmişdir.

Sözügedən yeni qanun beynəlxalq standartlara cavab verməklə, ölkənin Konstitusiyasında nəzərdə tutulmuş insan hüquqlarının müdafiəsi baxımından xüsusi əhəmiyyət kəsb edən prinsipin, yəni təqsirsizlik prezumpsiyasının tam təmin edilməsinə qulluq etməklə yanaşı, Azərbaycan Respublikasının əsas qanununun preambulasında göstərilmiş hüquqi dövlət quruculuğu niyyətinin həyata keçirilməsində növbəti vacib addımdır. Həmin qanun tutulmuş və həbs edilmiş şəxslərin hüquq və azadlıqlarının etibarlı müdafiəsinin fundamental hüquqi bazası kimi çıxış edir.

Qeyd edilənlərlə yanaşı, fikrumizcə, tutulmuş və həbs edilmiş şəxslərin yazışma, telefon danışıqları, görüşlərin məhdudlaşdırıl-

masının müddətlərinin dəqiqləşdirilməsi, yetkinlik yaşına çatmış şəxslərə qanunla qadağan edilməyən təhsil hüququnun verilməsi imkanının nəzərdən keçirilməsi və onun icrası mexanizminin müəyyən olunması məqsədəuyğun olardı. Eyni zamanda, həbs edilmiş şəxslərin hüquqi statusunun daha da humanistləşdirilməsi məqsədilə göstərilən qanuna birinci və ikinci qrup əlillərin cərimə təcridxanasına keçirilməsinə qadağa qoyulması, habelə onlara azadlıqdan məhrum edilmiş məhkumlar üçün Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində nəzərdə tutulduğu kimi ailə vəziyyəti ilə əlaqədar müstəsna hallarda həbs yerlərinin hüdudlarından kənara qısa müddətli səfərlərə icazə verilməsi ilə bağlı qanuna müvafiq dəyişikliklərin edilməsini təklif edirik.

***İstinad edilmiş mənbə:***

***"Elmi-publisistik xəbərlər" jurnal (rus dilində). Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası, Ryazan, 2014. № 7, Səh. 80–87.***

# III HİSSƏ
# MƏHKUMLARIN SOSİAL ADAPTASİYASI, CƏZALARIN İCRASI SAHƏSİNDƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ, İŞÇİ HEYƏTİNİN STATUSU VƏ PEŞƏ İMİCİ

## Müasir dövrdə məhkumların sosial adaptasiyasının bəzi problemləri

1995-ci ildə dövlətimizin həyatında baş vermiş və tarixə daxil olan ən əhəmiyyətli hadisə müstəqil, suveren Azərbaycanın ilk Konstitusiyasının ümumxalq səsvermə yolu ilə qəbul olunmasıdır. Əsas qanunumuzda insan və vətəndaş hüquqlarının, azadlıqların təmin olunması dövlətimizin ən ali məqsədi kimi bəyan edilmişdir. Respublikamızın ərazisində ən yüksək hüquqi qüvvəyə malik olan bu sənədin dövlətin əsaslarına həsr olunmuş 2-ci fəslinin "Sosial inkişaf və dövlət" başlığı altında 16-cı maddəsində göstərilir ki, Azərbaycan dövləti xalqın və hər bir vətəndaşının rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır. Belə qayğı azadlıqdan məhrum edilmə cəzasına məhkum olunmuş şəxslərin cəza müddətləri qurtardıqdan sonra cəmiyyətə uyğunlaşma prosesi zamanı böyük əhəmiyyət kəsb edir. Hüquq elmində bu prosses, sosial adaptasiya adlanır. Sosial adaptasiya azadlıqdan məhrum olunan şəxsin cəza çəkmə yerlərində hökmdə nəzərdə tutulmuş müddət qaldıqdan sonra azad insanlar cəmiyyətinə, yeni sosial mühitə öyrəşməsi, burada hakim olan qaydaları, normaları, qanunları qəbul etməsi və öz davranışını onlara uyğun qurması kimi çətin bir dövrü əhatə edir. Sosial adaptasiya azadlıqdan məhrum edilmə cəzasının icrası ilə əlaqədar islah-əmək müəssisələrinin müdiriyyəti tərəfindən məhkumla keçirilən islah və yenidən tərbiyələndirmə işinin nəticələrini möhkəmlətmək, bu cəzanın məhkumlara göstərdiyi mənfi təsiri aradan qaldırmaq zərurətindən irəli gəlir. Azadlqdan məhrum olunmuş şəxsin hökmə uyğun olaraq cəmiyyətdən təcrid olunması, islah-

əmək müəssisəsi kimi qapalı ərazidə yerləşdirilməsi onun mövcud sosial əhəmiyyətli əlaqələrinin kəsilməsinə, cəmiyyətdə gedən proseslərdə iştirakdan kənarlaşmasına gətirib çıxarır. İslah-əmək müəssisələrində cəza çəkən şəxs öz arzusundan asılı olmayaraq müxtəlif xarakterə, yaşa, sosial pozğunluq dərəcələrinə malik olan şəxslərlə bir yerdə yaşamağa məcbur olur və belə həyat tərzi, bütün cəza müddətində hamı üçün qanunla müəyyən olunan formada və şəraitdə keçir. Kiçik detallara kimi qanunvericiliklə tənzimlənən, daima müdiriyyətin nəzarəti altında keçən belə yaşayış müstəqil qərar qəbul etmə, qayğı və digər sosial faydalı vərdişlərin zəifləməsi, şəxsi məsuliyyət hissinin kütləşməsi və s. digər neqativ proseslər ilə nəticələnir. Bütün bunlar məhkumun psixologiyasına, psixikasına və nəhayət, şəxsiyyətinə müəyyən mənfi təsir göstərir. Məhkumun, xüsusi ilə ilk dəfə azadlıqdan məhrum olunmuş şəxsin islah-əmək müəssisələrindəki mühitə öyrənməsi prosesi müəyyən çətinliklər doğursa da, cəza çəkənin sonradan azad həyat tərzinə yenidən uyğunlaşması istər məhkumun özü, istərsə cəmiyyət üçün daha böyük problemlər yaradır. Məhz bu problemin həllini hüquq elmi sosial adaptasiyanın düzgün və vaxtında həyata keçirilməsində görür. Azadlıqdan məhrum etmə cəzasının məhkumlara göstərdiyi neqativ təsirin nəticələrini aradan qaldırmaq, onları bir qədər zərərsizləşdirmək üçün qüvvədə olan İslah-Əmək Məcəlləsi müəyyən tədbirlərin həyata keçirilməsini nəzərdə tutmuşdur. Qanun məhkumun sosial əlaqələrinin saxlanması üçün ona ailəsi, qohumları, digər şəxslərlə görüşməyə, yazışma aparmağa, bağlama, sovqat, banderol, pul baratları almağa, yeyinti məhsulları və ən zəruri predmetlər əldə etməyə, ictimai həyatdan geri qalmamaq üçün gündəlik informasiya vasitələrindən (qəzet, radio, televizor) istifadəyə icazə verir.

Azərbaycan Respublikasının İslah-Əmək Məcəlləsi cəza çəkən məhkumlarda kollektivçilik vərdişlərini inkişaf etdirmək, onların faydalı təşəbbüskarlığını həvəsləndirmək, sosial fəallığını artırmaq, müxtəlif problemlərin həllində iştiraka cəlb etmək məqsədi ilə azadlıqdan məhrum etmə yerlərində məhkumların özfəaliyyət

təşkilatlarının yaradılmasını və fəaliyyət göstərməsini nəzərdə tutur.

Lakin yuxarıda qeyd olunanlar, təcrübədə həmişə istənilən nəticəni vermir. İslah-əmək müəssisəsində cəza çəkən məhkumun qanunla ona verilmiş müxtəlif imtiyazlardan, imkanlardan istifadə etməyə tam hüququ olsa da, real həyatda bu onun istəyindən, törətdiyi cinayətdən, ictimai təhlükəli hərəkətin hansı nəticələr verməsindən, bir çox hallarda isə, onun davranışından daha çox asılıdır. Misal üçün, təcrübə göstərir ki, ailə zəminində cinayət törətmiş, bir neçə dəfə məhkum olunmuş və bir sıra digər şəxslərin sosial əlaqələri daha tez pozulur, belə məhkumlarla əlaqə saxlayanların, onlarla görüşə gələnlərin, yazışma aparanların sayı ya çox az və yaxud heç olmur. Bundan əlavə, cəza çəkənlərlə digər şəxslər arasındakı əlaqələrin böyük əksəriyyəti müdiriyyətin nəzarəti altında keçdiyindən, münasibətlər çox vaxt quru və rəsmi xarakter daşıyır. Bu məsələnin vacibliyi nəzərə alınaraq, qüvvədə olan Azərbaycan Respublikası İslah-Əmək Məcəlləsində məhkumların cəzadan azad olunduqdan sonrakı sosial adaptasiyası probleminin həllinə yönəlmiş normalar öz əksini tapmışdır. Həmin maddələrin təhlili məhkumun sosial adaptasiyasının əsasən iki formada aparılmasını göstərir. Sosial adaptasiya ilkin cəzadan azad edilmişlərə yardım göstərilməsi, onların işə düzəldilməsi və məişət şəraiti ilə təmin olunması, ikincisi isə, bu şəxslər üzərində müşahidə və nəzarət qoyulması istiqamətində aparılır.

İslah-Əmək Məcəlləsinin 115-ci maddəsində azadlıqdan məhrum etmə yerlərindən azad edilmiş şəxslərə maddi yardım göstərilməsi məsələsi öz əksini tapmışdır. Belə ki, azadlıqdan məhrum etmə yerlərindən azad edilən şəxslər yaşayış və ya iş yerinə pulsuz gedişlə, habelə müəyyən edilmiş normalar üzrə yol üçün yeyinti məhsulları və pul ilə təmin olunurlar. Mövsümə görə lazımi geyimi, ayaqqabısı və onların əldə etmək üçün vəsaiti olmadıqda, azad edilənlər geyim və ayaqqabı ilə pulsuz təmin olunurlar. Lazımi hallarda azad olunanlara xüsusi fonddan birdəfəlik pul müavinəti də verilə bilər. Bu məsələlərin həlli Nazirlər Kabineti tərəfin-

dən müəyyən edilən qaydada islah-əmək müəssisələrinin müdiriyyəti tərəfindən həyata keçirilir.

Cəza çəkməkdən azad edilmiş şəxslərin işə düzəldilməsi və onlara məişət şəraitinin yaradılması İslah-Əmək Məcəlləsinin 116-cı maddəsi ilə tənzimlənir. Həmin maddədə göstərildiyi kimi, cəzadan azad edilmiş şəxslər işə düzəlməyə yardım göstərilməsi üçün müraciət etdikləri gündən ən çoxu on beş gün müddətində, yerli xalq deputatları Sovetlərinin İcraiyyə Komitələri tərəfindən işlə təmin olunmalıdırlar. Cəzadan azad edilmiş şəxslərə zəruri hallarda bu orqan tərəfindən mənzil sahəsinin verilməsi də nəzərdə tutulmuşdur. Cəzadan azad olunan şəxslərin işə düzəldilməsi yerli Xalq Deputatları Sovetləri İcraiyyə Komitələrinin göndərişi məcburi icra olunmaqla, müəssisə, idarə və təşkilat rəhbərliyi tərəfindən həyata keçirilməlidir.

Qanuna əsasən azad olunarkən əlilliyi olan və yaşı ötmüş şəxslər onların xahişi ilə əlillər və qocalar evinə yerləşdirilməlidirlər. Valideyinləri olmayan həddi-buluğa çatmamışlar, zəruri hallarda həddi-buluğa çatmamışların işlərinə baxan komissiyalar tərəfindən internatlara göndərilir və ya himayəçiliyə verilir. Qeyd olunan tədbirlərin müvəffəqiyyətlə həyata keçirilməsi üçün məhkumun azadlığa çıxmasına ən azı üç ay qalmış islah-əmək müəssisələrinin müdiriyyəti dövlət strukturları, ərazi polis orqanları ilə yazışmalar vasitəsi ilə sıx əlaqə saxlamalı və qanunda göstərilən problemlərin həllini təmin etməlidir. Sabir SSRİ qurumunun süqutuna qədər bu probelmlərin həlli o qədər böyük problemlər doğurmur, qeyd olunan tədbirlər vaxtında müxtəlif orqanların əlaqələri çərçivəsində həyata keçirilirdi.

Sosial adaptasiya cəza çəkmədən azad edilmiş şəxslər üzərində müşahidə qoyulması yolu ilə də həyata keçirilir. İslah-Əmək Məcəlləsinin 117-120-ci maddələrində cəza çəkməkdən şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxslər üzərində müşahidə aparılması nəzərdə tutulmuşdur. Bu şəxslər üzərində müşahidə qoyulmasının və onlarla tərbiyə işinin aparılmasının məqsədi məhkumların islah olunmasının nəticələrini möhkəmləndirmək, onları ictimai

faydalı əməyə cəlb etməkdir.

Azadlıqdan məhrum etmə yerlərindən azad edilmiş şəxslər üzərində qanunla müəyyən olunan hallarda inzibati nəzarət qoyulması da sosial adaptasiya tədbirləri sırasına daxildir. Belə ki, İslah-Əmək Məcəlləsinin 121-ci maddəsi inzibati nəzarət institutunun azadlıqdan məhrum etmə yerlərindən azad edilmiş şəxslərin davranışı üzərində müşahidə qoymaq, onlar tərəfindən yeni cinayətlər törədilməsinin qarşısını almaq və lazımi tərbiyəvi təsir göstərmək kimi əsas vəzifələrini müəyyən etmişdir. Bu vəzifələr öz növbəsində məhkumun sosial adaptasiyasına yönələn tədirlərin həyata keçirilməsini də təmin edir.

Sosial adaptasiya məsələlərinin həllinin vacibliyini nəzərə alaraq, İslah-Əmək Məcəlləsi dövlət orqanları və strukturlarının vəzifələrini müəyyən etməklə kifayətlənməmiş və bu işə ictimaiyyətin də cəlb olunmasını zəruri hesab etmişdir. Ümumiyyətlə, ictimaiyyətin azadlıqdan məhrum etmə cəzasının icrasında iştirakı islah-əmək qanunvericiliyin əsas prinsiplərindən biri hesab olunur və bu prinsip İslah-Əmək Məcəlləsinin 9-cu maddəsində öz əksini tapmışdır. İctimaiyyətin məhkumların islahında və yenidən tərbiyə olunmasındakı iştirakının formaları və qaydaları da İslah-Əmək Məcəlləsi və digər qanunverici aktlarla müəyyən edilmişdir. Belə ki, İslah-Əmək Məcəlləsinin 8-ci bölməsi tamamilə bu məsələyə həsr olunmuşdur. Məcəllənin 124-130-cu maddələrinin təhlili göstərir ki, məhkumların islah olunması və yenidən tərbiyələndirilməsində ictimaiyyətin iştirakı istər cəza çəkmə prossesini, istərsə də sonrakı müddəti əhatə edir. İslah-Əmək Məcəlləsinin 129-cu maddəsində islah-əmək müəssisələri üzərində əmək kollektivlərinin və ictimai təşkilatlarının hamilik işinin vəzifələri təsbit olunmuşdur. Azadlıqdan məhrum etmə yerlərindən azad edilən şəxslərə işə düzəlməkdə və məişət şəraitinin yaradılmasında yardım göstərilməsi burada əsas vəzifələrdən biri hesab olunur.

Bütün qeyd olunanlara baxmayaraq, son illərin təcrübəsi sosial adaptasiyanın həyata keçirilməsi işində müxtəlif obyektiv və subyektiv səbəblər üzündən müəyyən durğunluq yarandığını göstərir.

Müstəqilliyini elan etdikdən sonra ölkəmizdə gedən siyasi, iqtisadi dəyişikliklər, islahatlar sosial adaptasiya sahəsindən də yan keçməmiş və bu yolda bir sıra maneələr yaratmışdır. Respublika iqtisadiyyatının çətin vəziyyətində, zavod və fabriklərin böyük fasilələrlə işləməsi, yaxud dayanması şəraitində, əhalinin bir hissəsinin işsiz qalması, qaçqınlar problemi fonunda cəzaçəkmə müəssisələrindən azad olunmuş məhkumların müvafiq işlə və ya yaşyış yeri ilə təmin olunması böyük çətinliklər doğurur, bir çox hallarda, demək olar ki, imkan xaricində olur. Ağır maliyyə vəziyyəti əmək kollektivlərinə, təşkilatlara islah-əmək müəssisələrini hamiçiliyə götürməyə, adaptasiya problemlərinin həllində qanun tərəfindən onlar qarşısında qoyulmuş vəzifələri yerinə yetirməyə imkan vermir. Qeyd olunanlar mövcud İslah-Əmək Məcəlləsində sosial adaptasiyanın həllinə yönəlmiş normaların tam şəkildə işləməsi yolunda ciddi maneçilik yaratmış, bəzi hallarda bu normalar demək olar ki, işləmir. Nəticədə, məhkumların sosial adaptasiyası cəmiyyət üçün arzu olunan tərzdə və istiqamətdə getmir, belə şərait məhkumu yenidən cinayətə aparır, residiv cinayətkarlığın səviyyəsinin artması üçün əlverişli zəmin yaranır. Bütün bunlar cinayət qanununun cəza institutu qarşısında qoyduğu yeni cinayətlərə yol verilməməsi kimi məsul və sosial faydalı vəzifənin yerinə yetirilməməsinə gətirib çıxarır.

Bundan əlavə, mövcud şəraitdə qanunla sosial adaptasiyanın əsas məsələlərinin həllini həyata keçirən orqanın, yəni Xalq Deputatları Sovetlərinin də ləğv edilməsi bu istiqamətdə problemlər yaratmışdır. Doğrudur, qeyd olunan orqanın səlahiyyətlərinin icrası digər dövlət strukturuna həvalə olunmuşdur. Yeni Konstitusiyanın keçid müddəalarının 6-cı maddəsinə uyğun olaraq, əsas qanun qüvvəyə mindiyi gündən, yəni 27 noyabr 1995-ci il tarixdən respublikamızda yerli Xalq Deputatları Sovetlərinin səlahiyyətlərinə xitam verilmiş və bu səlahiyyətlərin həyata keçirilməsi yerli icra hakimiyyəti orqanlarına tapşırılmışdır. Məhz buna görə də, Azərbaycan Prezidenti H. Əliyev əfv fərmanlarında, habelə 22 may 1996-cı il tarixli Milli Məclisin amnistiya haqqında qərarının

icrası ilə əlaqədar görülməli olan əlavə tədbirlər haqqında 21 may 1996-cı il tarixli Sərəncamında cəzadan azad olunan şəxslərin sosial adaptasiya məsələlərinin həllini yerli icra hakimiyyəti orqanlarına tapşırmışdır. Lakin, sosial adaptasiyanın həlli ilə məşğul olan orqanların dəyişməsinə, bu barədə Konstitusiyada göstəriş olmasına baxmayaraq, bu sahənin işini tənzim edən qanunvericiliyə müvafiq dəyişikliklər edilməmişdir.

Fikrimizcə, sosial adaptasiya məsələsinin həllinin yeni Konstitusiyada nəzərdə tutulmuş, yaxın gələcəkdə təşkil olunacaq yerli özünüidarə orqanlarının, yəni bələdiyyələrin səlahiyyətləri sırasına daxil edilməsi daha məqsədəuyğun olardı. Çünki, Konstitusiyanın 144-cü maddəsinin 7-ci bəndinə əsasən, yerlərlərdə sosial-müdafiə və sosial-inkişaf proqramlarının qəbulu və icra olunması bələdiyyələrin səlahiyyətlərinə daxil edilmişdir. Məhz qeyd olunan bu proqramlarda sosial adaptasiya problemləri öz həllini tapmalıdır.

Lakin qeyd olunanlarla yanaşı, ötən ilin ortalarından başlayaraq sosial adaptasiya probleminə dövlət qayğısının artması müşahidə olunur. Bu qayğının Azərbaycan dövlətinin başçısı H. Əliyev cənabları tərəfindən daha düzgün və məqsədyönlü həyata keçirilməsi xüsusilə qeyd olunmalıdır. Belə ki, 1995-1996-cı illərdə Azərbaycan Prezidenti H. Əliyev cənabları humanizm prinsiplərini rəhbər tutaraq, ona Konstitusiya ilə verilmiş müstəsna səlahiyyətindən istifadə edərək cinayət törətdiklərinə görə azadlıqdan məhrum olunmuş şəxslərin bağışlanması istiqamətində bir neçə dəfə qərar qəbul etmiş və qeyd olunan qısa dövrdə onun imzaladığı əfv fərmanları ilə 1500 məhkum cəza çəkmədən azad edilmiş, ölüm cəzasına məhkum edilmiş 12 məhkumun cəzası isə, azadlıqdan məhrum etmə cəzası ilə əvəz olunmuşdur. Azadlığa buraxılan şəxslərin gələcək həyat perspektivləri, yəni sosial adaptasiya problemi dövlət başçısının diqqətindən yayınmamış və əfvetmə haqında Fərmanlarda bu istiqamətdə tədbirlər görülməsi zəruri hesab edilmişdir. Belə ki, Azərbaycan Prezidentinin “Ölüm cəzasına və azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş bir sı-

ra şəxslərin müstəqil Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi münasibəti ilə əfvi haqqında” 27 dekabr 1995-ci il tarixli, “Azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş bir sıra şəxslərin əfv edilməsi haqqında” 19 mart 1996-cı il tarixli Fərmanlarında azad olunan şəxslərin sosial adaptasiyasına yönəlmiş reabilitasiya tədbirlərinin həyata keçirlməsi haqqında müxtəlif dövlət strukturlarına göstərişlər verilmişdir. Belə ki, yuxarıda qeyd olunan 27 dekabr 1995-ci il tarixli Fərmanla səhhətinə görə müalicə müəssisəsində saxlanılan 25 məhkuma azad edildikdən sonra müvafiq tibbi yardım göstərilməsi Azərbaycan Respublikası Səhiyyə Nazirliyinə, yetkinlik yaşına çatmayan 10 nəfərin davranışına nəzarət edilməsi, onların tərbiyəsi və profilaktik işin aparılması yerli icra hakimiyyəti orqanlarına, bu şəxslərin tədrisə və ictimai faydalı əməyə cəlb olunması üçün tədbirlər görülməsi Təhsil Nazirliyinə, Gənclər və İdman Nazirliyinə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırılmışdır.

Azərbaycan Prezidentinin 19 mart 1996-cı il tarixli Fərmanı ilə əfv olunmuş məhkumların arasında olan 16 qadının sosial müdafiəsi, ictimai-faydalı əməyə cəlb edilməsi, onlarla profilaktiki iş aparılması respublikanın Əmək və Əhalinin Sosial Müdafiəsi, Gənclər və İdman Nazirliklərinə, İşgüzar Qadınlar Assosiasiyasına, yerli icra hakimiyyəti orqanlarına tapşırılmışdır. Bu Fərmanla əlilliyinə, səhhətinə və yaşı 65-dən yuxarı olduğuna görə əfv edilmiş 33 məhkumun sosial müdafiəsinin və onlara lazımi tibbi yardım göstərilməsinin təmin edilməsi ölkənin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə həvalə olunmuşdur.

1996-cı ilin may ayının 22-də respublikamızın qanunverici orqanı olan Milli Məclis tərəfindən Azərbaycan Prezidenti H. Əliyev cənablarının təşəbbüsü ilə Respublika günü münasibəti ilə qəbul olunan amnistiya haqqında qərarda da cəzaçəkmə yerlərindən azad olunmuş şəxslərin də sosial adaptasiya məsələləri yaddan çıxmamışdır. Qeyd olunan humanist aktın icrası üzrə “Respublika günü münasibəti ilə amnistiya ilə əlaqədar bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidenti 24 may 1996-cı il tarixli

xüsusi Sərəncam imzalamışdır. Bu sərəncamla amnistiya aktı ilə əlaqədar islah-əmək müəssisələrindən azad olunan şəxslərin vaxtında qeydiyyata alınması daxili işlər orqanlarına tapşırılmış, azad edilmiş, lakin himayəsinə götürə biləcəyi qohumları olmayan əlillərin, qocaların əlillər və qocalar evlərinə yerləşdirilməsi, müalicəyə ehtiyacı olanlara tibbi yardım göstərilməsi, onların tibb müəssisələrində müalicə olunması, yetkinlik yaşına çatmayanların tədrisə, ictimai faydalı əməyə cəlb edilməsi, yaxud valideyinlərinin, qəyyumluq və himayəçilik orqanlarının nəzarətinə verilməsi, zərurət olduqda uşaq evlərinə, internat məktəblərinə, texniki peşə məktəblərinə yerləşdirilməsi məsələlərinin həlli isə rayon (şəhər) icra hakimiyyəti orqanlarına tapşırılmışdır. Bu sərəncamla yetkinlik yaşına çatmayanların tərbiyə edilməsi, onlarla profilaktik iş aparılması və hüquqa zidd əməllərdən çəkindirilməsi məqsədi ilə respublikamızın hüquq-mühafizə orqanlarının, təhsil müəssisələrinin, gənclər təşkilatlarının və əmək kollektivlərinin bu sahədə qarşılıqlı fəaliyyət göstərmələri və müvafiq tədbirlər hazırlaıyıb həyata keçirmələri üzrə də tapşırıqlar verilmişdir.

Azərbaycan Respublikası öz müstəqilliyini elan etdiyi gündən demokratik quruluşa təminat vermək, qanunların aliliyi gözlənilən hüquqi dövlət qurmaq, ümumbəşəri dəyərlərə sadiq qalaraq digər xalqlarla dostluq, sülh, əmin-amanlıq yolunu seçmişdir. Nəticədə ölkəmiz qısa bir müddətdə dünyanın ən nüfuzlu təşkilatı olan Beynəlxalq Millətlər Təşkilatının üzvlüyünə qəbul olunmuş və bununla beynəlxalq hüququn müstəqil subyektinə çevrilmişdir. Avropada yaşamağımız bizə bu qitənin mötəbər təşkilatı olan Avropa Şurasına qəbul olunmağımız üçün geniş imkanlar açmışdır. Azərbaycan Prezidenti H. Əliyevin son üç ildə apardığı uzaqgörən, ağıllı, bütün dünya ictimaiyyəti tərəfindən bəyənilən xarici və daxili siyasəti nəticəsində 1996-cı ilin iyun ayının sonunda Azərbaycan Respublikası bu təşkilata xüsusi dəvət edilmiş qonaq statusu ilə qəbul olunmuşdur. Göstərilənlərlə əlaqədar son vaxtlar dövlətimiz qeyd olunan beynəlxalq təşkilatlar tərəfindən işlənib hazırlanan, dünya ölkələrinin əksəriyyəti tərəfindən qəbul edilən

müxtəlif məzmunlu konvensiyalara, sazişlərə qoşulmuş və bu proses çox intensiv şəkildə davam edir. Həmin beynəlxalq sazişlərin böyük əksəriyyəti insan hüquqlarının müdafiəsi məsələsinə həsr olunmuş və aydındır ki, burada cəzalara məhkum olunmuş şəxslərin də hüquqları yaddan çıxmamışdır. Məhkumların hüquqlarının qorunmasına yönəlmiş beynəlxalq sənədlər çoxdur, lakin onlardan ən böyük əhəmiyyət kəsb edən, maraq doğuran cəza çəkənlərlə davranışa həsr olunan BMT-nin 30 avqust 1955-ci il tarixdə Cenevrə şəhərində qəbul olunan "Məhbuslarla davranışın minimal standartlar qaydaları" adlanan sənəddir. Qaydalar BMT-nin cinayətkarlığın qarşısının alınmasına və cinayətkarla davranışa həsr olunan birinci konqresdə bəyənilmişdir. Məlumat üçün bildiririk ki, bu Qaydalar ümumdünya nüfuzlu təşkilat tərəfindən tövsiyə olunan, məhbuslarla davranışın ümumi prinsiplərini və müsbət təcrübəsini özündə cəmləşdirən, tələb olunan minimal şəraiti özündə əks etdirən, bu qəbildən olan şəxslərin hüquqlarının qorunmasına yönəlmiş vacib beynəlxalq sənəd hesab olunur. Qaydalarda məhbuslarla davranışdan əlavə digər problemlərə də toxunulmuşdur. Bu məsələlərdən biri də sosial adaptasiya məsələsidir. Bu qaydaların "Xarici aləmlə münasibət və azad olunduqdan sonra qayğı" bölməsində həmin problemlərin həllinə diqqətlə yanaşmaq tövsiyə olunur. Belə ki, Qaydaların 79-cu maddəsində məhbus və onun ailəsi arasındakı müsbət, hər iki tərəfin maraqlarına qulluq edən əlaqələrin saxlanmasına və möhkəmləndirilməsinə xüsusi diqqət göstərilməsi vacib bilinir. Bundan əlavə, Qaydaların sonrakı 80-81-ci maddələrində, cəza müddətinin əvvəlindən başlayaraq, cəza çəkən şəxsə onu gözləyən gələcək haqqında düşünməyin vacibliyinin çatdırılması, islah müəssisəsindən kənarda yerləşən və onun ailəsinin maraqlarını qoruya bilən, azad olunduqdan sonra həyata qoşulmağa qayğı göstərən şəxslərlə, təşkilatlarla əlaqələrin saxlanması və möhkəmləndirilməsinə kömək göstərilməsi xüsusi ilə vurğulanır. Burada azad olunan məhkumlara lazımi sənədlərin alınmasına, müvafiq yaşayış yeri və iş tapmasına, ilk vaxtlarda paltar, yemək və s. problemlərin həlli üçün

müəyyən maliyyə vəsaiti ilə təmin edilməsinə, ümumiyyətlə, bu şəxslərin cəmiyyətdə öz yerini tapmağa köməklik göstərən hakimiyyət və digər orqan, müəssisələrin qayğısının zəruriliyi, bu strukturların nümayəndələrinin azadlıqdan məhrum etmə yerlərində saxlanılanlara baş çəkmək, onlarla gələcək həyatın perspektivləri haqqında məsləhətləşmə aparmaq imkanına malik olmaları və nəhayət, bu təşkilatların fəaliyyətinin maksimum səmərəli olması üçün, onların imkan daxilində mərkəzləşməsi və ya bir-biri ilə əlaqəli işləməsi daha məqsədəuyğun hesab olunur.

Azərbaycan Respublikasının qeyd olunan bu sənədi rəsmi qəbul etməməsi yəqin ki, müvəqqəti xarakter daşıyır və əmin olmaq istərdik ki, bu məsələ tezliklə müsbət həll olunacaqdır. Fikrimizcə, müasir dövrün tələblərinə uyğun sosial adaptasiya özünün həllini yeni hazırlanan Cəza-İcra Məcəlləsində, müstəqil fəsildə və yaxud, bu problemə həsr olunmuş yeni qanunda tapmalıdır. Hər iki təqdirdə qanun bu işdə iştirak edən dövlət və ictimai təşkilatların hüquq və vəzifələrini, onların məsuliyyətini müəyyən etməlidir. Bundan əlavə, ictimai əsaslarla sosial adaptasiya problemlərinin həllinə könüllü köməklik göstərən digər müəssisə, təşkilatlara imtiyazların verilməsi, cəzadan azad olunan şəxsi ilk vaxtlarda müvafiq iş və mənzil şəraiti ilə təmin etmək mümkün olmadıqda, onların müvəqqəti yerləşdirilməsi üçün adaptasiya mərkəzlərinin yaradılması, bu fəaliyyətin maliyyələşdirilməsi məsələləri, bu istiqamətdə yaradıla bilən ictimai fondların təşkili və s. qanunvericilikdə öz həllini tapmalıdır. Bir sözlə, sosial adaptasiyanı tənzimləyən hüquqi normalar cəmiyyətimiz üçün vacib olan bu problemin hərtərəfli həllini əhatə etməlidir. Sosial-adaptasiyanın istər Cəza-İcra Məcəlləsində, istərsə ayrıca qanunla həlli təqdirində hal-hazırda qüvvədə olan müxtəlif qanunverici aktlarda mövcud olan azadlıqdan məhrum olunmuş şəxslər üçün müəyyən olunmuş məhdudiyyətlərin (mənzil hüququnun itirilməsi, qeydiyyatdan çıxarılma və qeydiyyata alınma, nikahın pozulması, müəyyən vəzifə tutma və s.) ləğv olunması ilə bir vaxtda həyata keçirilməsi daha məqsədəuyğun olardı. Belə ki, qeyd olunan məhdudiyyətlərin

qalması sosial adaptasiyanın arzu olunan formada həyata keçirilməsinə ciddi maneələr yarada bilər. Bundan əlavə, azadlıqdan məhrum etmə yerlərində məhkumlar üçün qoyulmuş, hal-hazırda öz əhəmiyyətini itirmiş, islah işinə xidmət etməyən, məhkumun azad edildikdən sonra yeni mühitə uyğunlaşmasına maneçilik törədən qadağaların ləğvi də sosial adaptasiyanın müvəffəqiyyətlə həyata keçirilməsi prossesinə böyük köməklik göstərə bilərdi. Fikrimizcə, sosial adaptasiyanın yuxarıda göstərilən yolla və formada həll olunması, bu problemə hamı tərəfindən diqqət, qayğı göstərilməsi respublikamızda cinayətkarlığın səviyyəsinin aşağı düşməsi, residiv cinayətkarlığın profilaktikası üçün əlverişli zəmin yarada bilərdi.

***İstinad edilmiş mənbə:***

***"Qanunçuluq" jurnalı. Bakı, 1996. № 8, Səh. 3–10.***

## Beynəlxalq penitensiar əməkdaşlıq

Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra qısa müddətdə dünya dövlətləri birliyinə-Birləşmiş Millətlət Təşkilatına (bundan sonra - BMT) qəbul edilmiş, bununla da beynəlxalq hüququn tam bərabər subyekti olmuşdur. Qeyd edilənlərin məntiqi ardıcıllığı olaraq son bir neçə ildə ölkəmizin BMT, habelə digər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş müxtəlif müqavilələrə, konvensiyalara və digər beynəlxalq aktlara qoşulması, habelə müvafiq qurumlar tətəfindən birgə əməkdaşlıq çərçivəsində qəbul edilmiş tövsiyə xarakteri daşıyan sənədlərin tələblərinin qəbulu və riayət olunması prosesi gedir. Beynəlxalq aktlara qoşulma dövlət üzərinə müxtəlif öhdəliklər qoymaqla yanaşı, bu sənədlərdə əks edilmiş məsələlərin müzakirəsində işrirak etmək hüququ və digər dövlətlərlə həmin sahədə əməkdaşlığa imkan verir. BMT çərçivəsində qəbul edilmiş sənədlərin əsas hissəsi insan hüquq və azadlıqlarının müdafiəsi ilə bağlıdır. Burada dövlət məcburiyyət tədbirlərinə məruz qalmış şəxslər də yaddan çıxmamışdır. Bu sahədə, yəni hüquqpozucuları ilə rəftar və cəzaların icrası sahəsindəki aktlar dövlətlərarası əməkdaşlıq nəticəsində həyata vəsiqə almışdır. Hüquqpozucuları ilə rəftar və cəzaların icrası sahəsindəki beynəlxalq əməkdaşlığı, **penitensiar əməkdaşlıq** da adlandırmaq olar. Beynəlxalq əməkdaşlığın bu sahəsinə qoşulmaq Azərbaycan üçün ölkədə həyata keçirilən hüquqi islahatlar, habelə yeni cəzaların icrası qanunvericiliyinin hazırlanması ilə əlaqədar xüsusi əhəmiyyət kəsb edir. Bu məqsədlə, yəni beynəlxalq aktların tələblərinə cavab verən qanunvericilik aktlarının, hüquqpozucuları ilə rəftar və cəzaların icrası sahəsindəki əməkdaşlığın tarixinin və təcrübəsinin öyrənilməsini məqsədəuyğun hesab edirik. Həmin sahədə, o cümlədən penitensiar sahədə əməkdaşlıq dünya dövlətlərinin cinayətkarlıqla mübarizə sahəsindəki əməkdaşlığının tərkib hissəsidir. Belə birgə əməkdaşlıq nəticəsində məhkumlarla rəftara, cəzaların icrası və penitensiar sahəyə dair çoxsaylı beynəlxalq aktlar qəbul edilmişdir.

Qeyd etmək lazımdır ki, sözügedən sahədəki əməkdaşlıq yüz əlli ildən artıq bir tarixə malik olmaqla, öz inkişafında üç əsas mərhələ keçmişdir. Birinci mərhələ 1846-1857-ci illəri əhatə edir. Bu dövrdə sivil beynəlxalq penitensiar hüququn və əməkdaşlığın əsası qoyulmuşdur. Qeyd olunan müddət ərzində müxtəlif maraqlı ölkələrin razılaşması nəticəsində 1846, 1847 və 1857-ci illərdə (Frankfurt və Brüsseldə) həbsxana problemlərinə həsr olunmuş ilk üç beynəlxalq konqres keçirilmişdir. Bu konqreslərdə milli və beynəlxalq penitensiar problemlərlə tanışlıq prosesi getmiş, qarşılıqlı əlaqələrin təşkili üzrə strukturlar (Həbsxana hərəkatı Komitəsi) yaradılmış, cəzaların icrası üzrə bir sıra problemlər nəzərdən keçirilmiş və onların həlli yolları araşdırılmışdır.

Penitensiar əməkdaşlığın inkişafının ikinci mərhələsi 1872-ci ildən başlayan və 1950-ci ilədək olan dövrü əhatə edir. Penitensiar sahədə yaşanan problemlərin beynəlxalq səviyyədə baxılmasının vacibliyini dərk edən bir sıra dövlətlər öz səylərini birləşdirmək təşəbbüsü irəli sürmüşlər. Belə əməkdaşlıq müntəzəm olaraq dünyanın müxtəlif ölkələrində keçirilmiş penitensiar sahədə mövcud problemlərin müzakirəsinə, onların həlli yollarının müəyyən olunmasına, qabaqcıl təcrübənin təşviqinə həsr edilmiş 12 beynəlxalq konqres vasitəsilə davam etdirilmişdir. Birinci konqres 1872-ci ildə Londonda, sonrakılar 1878-ci ildə Stokholmda, 1885-ci ildə Romada, 1890-cı ildə Peterburqda, 1895-ci ildə Parisdə, 1900-cü ildə Brüsseldə, 1905-ci ildə Budapeştdə, 1910-cu ildə Vaşinqtonda, 1925-ci ildə Londonda, 1930-cu ildə Praqada, 1936-cı ildə Berlində, 1950-ci ildə Haaqada baş tutmuşdur. Bu konqreslərdə penitensiar siyasətin və təcrübənin bir sıra problemləri, o cümlədən penitensiar müəssisələrin fəaliyyətində və məhkumların islah edilməsində ictimaiyyətin iştirakı, məhkumların ictimai faydalı əməyə cəlb olunması, cəzanın çəkilməsi rejiminin təşkili, cəzaların icrasının mütərəqqi sistemi və digər məsələlər müzakirə obyekti olmuşdur. Konqreslərdə penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsinə yönəlmiş bir sıra aktlar, yəni iştirakçı dövlətlər üçün tövsiyə xarakteri daşıyan qətnamələr qəbul olunmuşdur. Pe-

nitensiar əməkdaşlığın ikinci mərhələsi, habelə iştirakçı dövlətlər tərəfindən razılaşmaya əsasən daimi fəaliyyət göstərən müvafiq əməkdaşlıq strukturunun yaradılması ilə diqqəti cəlb edir. Belə ki, 1872-ci ildə tərkibi iştirakçı dölətlərin nümayəndələrindən ibarət olan Beynəlxalq Penitensiar Komissiya fəaliyyətə başlamış, sonradan bu qurum Beynəlxalq cinayət və penitensiar komissiya adlandırılmışdır.

Penitensiar əməkdaşlığın üçüncü mərhələsi ikinci dünya müharibəsindən sonrakı dövrə təsadüf edir. Bu mərhələdə BMT özünün Baş Məclisi vasitəsi ilə cəzaların icrası, o cümlədən penitensiar sahədə dövlətlər arasında əməkdaşlığın prinsiplərini müəyyənləşdirməyə, müxtəlif, o cümlədən məhkumlarla davranışa dair aktları qəbul etməyə başlanmışdır. Lakin bu sənədlər milli qanunvericilik kimi hüquqi qüvvəyə malik deyildir və onların icra edilməməsinə görə dövlətlərin məsuliyyətini nəzərdə tutan müvafiq sanksiyalar müəyyən olunmamışdır. Bu sənədlər yalnız mənəvi-siyasi qüvvəyə malik normalardan ibarətdir. Lakin qeyd edilənlərə baxmayaraq, beynəlxalq aktların tələbləri bir qayda olaraq, üzv dövlətlər tərəfindən hörmətlə qarşılanır, onlara riayət olunur. Belə yanaşma beynəlxalq təşkilatlar, xüsusilə İnsan Hüquqları üzrə Avropa Məhkəməsi, İşgəncələrə qarşı Avropa Komitəsi tərəfindən tərtib edilmiş sənədlərdə (qərarlarda, hesabatlarda və s.) göstərilən qaydalara istinad edilməsi ilə bağlıdır.

Məhbuslarla rəftara dair sənədlər beynəlxalq penitensiar əməkdaşlıq sahəsində aşağıdakı əsas vəzifələri müəyyən etmişdir:

– cəzaların icrası problemləri üzrə dövlətlərin vahid mövqeyini əks etdirən beynəlxalq-hüquqi aktlar sisteminin hazırlanması;

– cəza-icra, penitensiar sistemin işçi heyətinin, bu sahə üzrə alim və müəllimlərin hazırlanması və ixtisaslarının artırılması sisteminin yaradılması;

– cəza-icra, penitensiar sahədə qabaqcıl təcrübənin qarşılıqlı mübadiləsi;

– məhkumlarla rəftarın qabaqcıl forma və üsullarının işlənib hazırlanması;

– cəzaların icrasının təşkili üzrə daha humanist sistemin təşkili.

BMT-nin himayəsi altında beynəlxalq penitensiar əməkdaşlıq hər beş ildə bir dəfə təşkil olunan cinayətkarlığın qarşısının alınması və hüquqpozucuları ilə davranışa həsr olunmuş konqreslər çərçivəsində həyata keçirilir. Ötən dövr ərzində, yəni 1955-1995-ci illərdə doqquz belə konqres keçirilmişdir. Birinci konqres 1955-ci ildə Cenevrədə (İsveçrə) təşkil olunmuşdur. Digər konqreslər 1960-cı ildə Londonda (Böyük Britaniya), 1965-ci ildə Stokholmda (İsveç), 1970-ci ildə Kiotoda (Yaponiya), 1975-ci ildə Cenevrədə (İsveçrə), 1980-ci ildə Karakasda (Venesuela), 1985-ci ildə Milanda (İtaliya), 1990-cı ildə Havanada (Kuba), 1995-ci ildə Qahirədə (Misir Ərəb Respublikası) keçirilmişdir.

Birinci konqresdə Məhbuslarla minimal standart davranış qaydalarının yeni mətninə baxılmış, penitensiar müəssisələrin işçi heyətinin statusu və məhbusların əməyinin təşkili məsələləri müzakirə edilmişdir.

İkinci konqresdə qısa müddətli azadlıqdan məhrum etmə, yetkinlik yaşına çatmayan cinayətkarlarla rəftar, məhbusların azadlığa hazırlanması və penitensiar müəssisələrdən azad edilmədən sonra yardım göstərilməsi məsələləri müzakirə predmeti olunmuşdur.

Üçüncü konqresin gündəliyinə məhkumun cəmiyyətdən təcrid edilməsi ilə bağlı olmayan tədbirlərin tətbiqi, gənclər üçün nəzərdə tutulan profilaktik və islah tədbirləri məsələləri daxil edilmişdir.

Dördüncü konqres penitensiar təcrübənin nailiyyətləri nəzərə alınmaqla, Məhbuslarla minimal standart davranış qaydalarının tətbiqi və təkmilləşdirilməsinə həsr olunmuşdur.

Beşinci konqresdə cəmiyyətdən təcrid edilmə ilə bağlı olmayan tədbirlərin tətbiqi və həbsxanada cəza çəkən məhkumlarla rəftar məsələlərinə baxılmışdır.

Altıncı konqresdə ölüm cəzası, habelə azadlıqdan məhrum etməyə real alternativ olan cəmiyyətdən təcrid edilmə ilə bağlı olmayan təıdbirlərin tətbiqi müzakirə predmeti olmuşdur.

Yeddinci konqresdə cinayət mühakiməsi sahəsində BMT-nin standartlarının hazırlanması və tətbiqi məsələləri müzakirə edilmişdir.

Səkkizinci konqresdə yetkinlik yaşına çatmayan məhbuslarla rəftarın standartlaşdırılıması və penitensiar işin digər məsələlərinə baxılmışdır.

Doqquzuncu konqresdə Məhbularla davranışın minimal standart qaydalarının təcrübədə tətbiqinə xüsusi diqqət verilmişdir. Bu məsələ ilə bağlı qəbul edilmiş qətnamədə BMT-yə, üzv ölkələr üçün həmin qaydaların şərhinə və tətbiqinə həsr edilmiş praktiki vəsaitin hazırlanması tövsiyə edilmişdir.

Cəzaların icrası, habelə penitensiar sahədə beynəlxalq əməkdaşlıq Avropa Şurası çərçivəsində də həyata keçirilir. Bu əməkdaşlıq nəticəsində göstərilən sahələrdə problemlərə həsr olunmuş çoxsaylı aktlar qəbul edilmişdir. Beynəlxalq penitensiar əməkdaşlıq sayəsində qəbul edilmiş, məhkumlarla davranışa həsr olunmuş aktlar müxtəlif əsaslara görə təsnifləşdirilir. İlkin olaraq tətbiq olunan subyektlərə görə bu aktlar ümumi tətbiq olunan, müxtəlf kateqoriyalı məhkumlara və işçi heyətinə görə fərqləndirilir. Bu aktlar, ixtisaslaşmaya (ümumi və xüsusi), icra məcburiliyinə, əhatə dairəsinə (universal və regional), müxtəlif cəza növlərinə məhkum olunmuş məhkumlara aidiyyətinə və s. əlamətlərə görə də fərqləndirilir. BMT və Avropa Şurası tərəfindən müxtəlif illərdə qəbul edilmiş, məhkumlarla davranışa həsr olunmuş aktlar arasında öz vacibliyi və əhəmiyyəti ilə nəzəri cəlb edən sənədlərin bir hissəsi aşağıdakılardır:

– “Məhbuslarla minimal standart davranış qaydaları” (BMT, 1955);

– “Bütün şəxslərin işgəncə və digər qəddar, qeyri-insani və yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsi haqqında” Bəyənnamə (BMT, 1975).

– “İşgəncələrə və digər qəddar, insanlıqdan kənar, yaxud ləyaqəti alçaldan davranış və cəza növləri əleyhinə” Konvensiya (BMT, 1984);

– “Ölüm cəzasına məhkum edilmiş şəxslərin müdafiəsinin təmin edilməsi üsulları” (BMT, 1984);

– “Yetkinlik yaşına çatmayanlar barəsində ədalət mühakiməsinin həyata keçirilməsinə dair minimal standart qaydalar “ (“Pekin qaydaları”, BMT, 1985).

– “Həbslə bağlı olmayan tədbirlərlə əlaqədar minimal standart Qaydalar” (“Tokio qaydaları”, BMT, 1990);

– “Hər hansı formada saxlanmağa, yaxud həbsə məruz qalmış bütün şəxslərin müdafiəsi üzrə əsas prinsiplər məcmusu” (BMT, 1988);

– “BMT-nin azadlıqdan məhrum edilmiş yetkinlik yaşına çatmayanların müdafiəsi üzrə Qaydaları” (1990) ;

– “Məhbuslarla davranışın əsas prinsipləri” (BMT, 1990);

– “İşgəncələrin və qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəzaların qarşısının alınması üzrə Avropa Konvensiyası” (Avropa Şurası, 1987).

– Avropa Penitensiar Qaydaları (Avropa Şurası, 1987) və s.

Göstərilən və digər aktlar arasında Məhbuslarla minimal standart davranış qaydaları əhəmiyyətli yer tutur. Bu sənəd XX əsrin 30-cu illərinin əvvəlində Millətlər Liqasının Beynəlxalq Cinayət və Penitensiar Komissiyası tərəfindən hazırlanmış, 1934-cü ildə qəbul edilərək üzv ölkələrin hökumətlərinə tövsiyə edilmişdir. Müharibədən sonrakı dövrdə həmin qaydalara yenidən baxılması zərurəti yaranmış və nəticədə həmin vacib sənədin yeni mətni hazırlanmışdır. BMT-nin Cinayətkarlığın qarşısının alınması və məhbuslarla rəftara dair birinci konqresində həmin qaydaların yeni mətninə baxılmış və 30 avqust 1955-ci il tarixdə bəyənilmişdir. Müvafiq sahədə nəzəriyyənin inkişafı və təcrübənin nəticələri nəzərə alnmaqla, müxtəlif illərdə həmin qaydalara əlavə və dəyişikliklər edilmişdir. Qeyd olunan sənədin giriş hissəsində göstərilir ki, həmin qaydalar məhbuslarla rəftarın prinsiplərini və təcrübəsini əks etdirir. Qaydalar özündə BMT tərəfindən məqbul hesab edilən minimal şərtləri ehtiva edir, məhbusları, xüsusilə penitensiar müəssisələrdə intizamın və qayda-qanunun təmin edilməsi ilə

bağlı tətbiq olunan tədbirlər zamanı cəza çəkən şəxsləri pis rəftardan müdafiəsini təmin etməildir. Digər sözlə, onlar milli qanunvericiliyin hazırlanması zamanı nəzərə alınması və istifadəsi məqsədilə tövsiyə olunan cəza-icra qanununun səmərəli və mütərəqqi bir modelidir. Hazırda fəaliyyətdə olan mətn giriş hissəsindən, 95 bənddən və Minimal Qaydaların icrasının 13 prosedurunu ehtiva edən Əsaslardan ibarətdir. Qaydalar strukturuna görə iki əsas hissəyə bölünmüşdür: bütün məhbuslara tətbiq edilən ümumi müddəlar və xüsusi kateqoriyalara (mülki işlər üzrə məhkum edimişlər, rühi xəstələr və digər) tətbiqi nəzərdə tutulan müddəalar.

Beynəlxalq penitensiar əməkdaşlıq BMT çərçivəsindən kənarda da həyata keçirilir. Bu sahəyə müxtəlif beynəlxalq qeyri-hökumət təşkilatları öz töhfələrini verirlər, bu sahədəki fəaliyyətdən digər nüfuzlu beynəlxalq təşkilat - Avropa Şurası da kənarda qalmamışdır. Həmin təşkilatın nüfuzu son illərdə artmış, BMT ilə yanaşı Avropa Şurası dünyada əhəmiyyətli beynəlxalq amilə çevrilmişdir. Azərbaycan Respublikasına bu təşkilatda xüsusi dəvət edilmiş üzv stastusu verilməsi, gələcəkdə tam hüquqlu üzv qismində Avropa Şurasına qəbul edilmə prespektivləri baxımından, bu çərçivədə beynəlxalq penitensiar əməkdaşlıq da maraq doğurur. Avropa Şurası nəzdində belə əməkdaşlığın əvvəli 1957-ci ildən, yəni Cinayətkarlıq Problemləri üzrə Avropa Komitəsinin (CPAK) yaradılmasından sonra başlanmışdır.

1968-ci ildə CPAK-a BMT-nin Məhbuslarla minimal standart davranış qaydalarının gələcəkdə Avropada səmərli tətbiqi məqsədilə onların müasir penitensiar siyasətin tələblərinə uyğunlaşdırması təklif edilmişdir. Penitensiar sahədə ekspertlər qrupu öz işini yekunlaşdırdıqdan sonra 1975-ci ilin yanvarında Avropa Şurasının Nazirlər Komitəsi Məhbuslarla minimal standart davranış qaydalarının Avropa versiyasını nəzərdə tutuan mətni ilə bağlı qərar qəbul etmişdir. Sonradan bu qaydalara yenidən baxılmış, onların yeni mətni 12 fevral 1987-ci tarixdə Nazirlər Komitəsi tərəfindən təsdiq edilmiş və Avropa Penitensiar qaydaları adlandırılmışdır. Bu qaydalar Nazirlər Komitəsinin üzv ölkələrə Tövsiyələrin-

dən, Preambuladan, beş hissədən, yüz bənddən və onlara izahlardan ibarətdir. Qaydaların birinci hissəsində əsas prinsiplər nəzərdən keçirilir, ikinci hissə penitensiar müəssisələrin idarə edilməsinə aydınlıq gətirir, üçüncü hissə işci heyətinə, dördüncüsü azadlıqdan məhrum etmə yerlərində saxlanmanın məqsəd və rejiminə, sonuncu hissə isə, xüsusi kateqoriyalı məhbuslara həsr olunmuşdur.

Hazırda Azərbaycan Respublikası insan, o cümlədən məhkumların hüquqlarının və azadlıqlarının müdafiəsinə həsr olunmuş bir sıra beynəlxalq aktlara hələ qoşulmamışdır. Lakin özünü demokratik və hüquqi dövlət elan etmiş ölkə üçün bu məsələ müəyyən vaxt tələb edir və əmin olmaq istərdik ki, Azərbaycan yaxın gələcəkdə beynəlxalq penitensiar sahədə əməkdaşlığa qoşulmaqla bu sahədə zəruri fəallıq göstərəcəkdir.

***İstinad edilmiş mənbə:***

***"Beynəlxalq hüquq" elmi-təcrübi jurnal. Bakı, 1998. № 2, Səh. 32–37.***

## Cəzaları icra edən müəssisə və orqanların işçi heyətinin statusu

Cəzaların qarşısında duran məqsədlərə nail olunması – məhkumların islah edilməsi, həm məhkumlar, həm də digər şəxslər tərəfindən yeni cinayətlər törədilməsinin qarşısının alınması cəzaları icra edən müəssisə və orqanların fəaliyyətinin səmərəliliyindən də asılıdır. Bu baxımdan cəzaları icra edən müəssisə və orqanların işçi heyəti ilə əlaqədar bir sıra tələblər irəli sürülməklə yanaşı, onların hüquqi statusu da qanunla dəqiq müəyyən edilmişdir. Müvafiq işçi heyətinin statusunu tənzimləyən qanunvericiliyin bir sıra əsas və vacib məqamlarına toxunmaq istərdik. Cəzaları icra edən müəssisə və orqanların işçi heyəti dedikdə, müvafiq qanunvericiliyə uyğun olaraq Penitensiar və Probasiya xidmətlərində çalışan bütün işçilər başa düşülür. Onların fəaliyyəti və bu orqanlarda qulluq keçmənin əsasları Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi, Azərbaycan Respublikasının Əmək Məcəlləsi, "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "İcra haqqında", "İcra məmurları haqqında" Azərbaycan Respublikasının qanunları və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə müəyyən edilir. Ədliyyə orqanlarında, o cümlədən cəzanı icra edən müəssisə və orqanlarda qulluq, dövlət qulluğunun xüsusi növü hesab edilir. Cəzaları icra edən müəssisə və orqanların işçi heyətinə cəza-icra sisteminin xüsusi rütbəli işçi heyəti və digər işçiləri aiddir. Qanunvericiliyə əsasən cəza-icra sisteminin işçi heyətinə (hərbi qulluqçular istisna olmaqla) işə qəbul üçün yaş, təhsil, cins, sağlamlıq vəziyyəti və fiziki inkişaf, ümumi mədəniyyət və dünyagörüşü, hüquqi mədəniyyət, təşkilati, pedaqoji və digər sosial faydalı bacarıqlar, mənəvi və emosonial-iradəvi keyfiyyətlər və digər tələblər qoyulur. 26 may 2006-ci il tarixli "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Qanuna uyğun olaraq irqindən, milliyətindən, dinindən, dilindən, cinsindən, sosial mənşəyindən, əmlak

vəziyyətindən, yaşayış yerindən, əqidəsindən, həmkarlar ittifaqlarına və ya digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq müvafiq vəzifənin tələblərinə uyğun peşə hazırlığına malik olan, Azərbaycan Respublikasının dövlət dilini sərbəst bilən Azərbaycan Respublikasının vətəndaşlarının ədliyyə orqanlarında qulluq etmək hüquqları vardır. Sözügedən qanunla ədliyyə orqanlarına qulluğa qəbulla bağlı müəyyən məhdudiyyətlər də qoyulmuşdur. Belə ki, ikili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, barəsində cinayət işinin icraatina bəraətverici əsaslar olmadan xitam verilmiş, tibbi rəyə əsasən fiziki və əqli pozuntulara görə ədliyyə orqanlarında işləməyə qadir olmayan, habelə məhkəmə, prokurorluq, ədliyyə, digər hüquq mühafizə və ya başqa dövlət orqanlarında əvvəllər yol verdiyi kobud nöqsanlara, yaxud qulluqla bir araya sığmayan hərəkətlərə görə bu orqanlardan xaric edilmiş şəxslər ədliyyə orqanlarına qulluğa qəbul edilmirlər. Ədliyyə orqanlarına qulluğa qəbul üçün müraciət etmiş və sənədləri qəbul edilmiş namizədlər aşkarlıq şəraitində, şəffaflıq təmin edilməklə müsabiqə və ya müsahibədən keçirlər. Böyük (baş ədliyyə müşaviri, ədliyyə polkovniki və tibb xidməti polkovniki istisna olmaqla) və orta xüsusi rütbələr nəzərdə tutulan vəzifələrə şəxslər, bir qayda olaraq, müsabiqə əsasında qəbul edilirlər. Müsabiqə ixtisas imtahanından və söhbətdən ibarətdir. Ali hüquq təhsili tələb olunmayan böyük və orta xüsusi rütbələr nəzərdə tutulmuş vəzifələrə, həmçinin sıravi və kiçik rəis heyəti vəzifələrinə şəxslər müsahibə əsasında qəbul edilirlər. Müsabiqənin və müsahibənin keçirilməsi qaydaları Ədliyyə Nazirliyi tərəfindən müəyyən edilmişdir. İlk dəfə ədliyyə orqanlarına qəbul edilən şəxslər üçün, bir qayda olaraq altı aylıq stajorluq müddəti müəyyən edilir. Stajorluq müddəti bitdikdən sonra stajor barəsində müsbət rəy olduğu halda, onun üç aylıq sınaq müddəti ilə vəzifəyə təyin edilməsi məsələsi həll olunur. Sınaq müddəti başa çatdıqdan sonra attestasiyadan müvəffəqiyyətlə keçmiş işçi müvafiq

vəzifəyə təyin olunmaqla ədliyyə orqanlarında daimi qulluğa qəbul edilir.

Ədliyyə orqanlarında işə ilk dəfə qəbul olunmuş ədliyyə işçisi işə başlamamışdan əvvəl Azərbaycan Respublikasının dövlət bayrağı önündə, ədliyyə orqanlarında qulluq keçərkən Azərbaycan Respublikasına sadiq olacağı, Azərbaycan Respublikasının Konstitusiyasına dönmədən əməl edəcəyi, dövlət sirrini və xidməti sirri qoruyacağı, hüquq və vəzifələrini qərəzsiz, vicdanla, qanuna tam uyğun həyata keçirəcəyi, ədliyyə işçisinin şərəf və ləyaqətini uca tutacağı barədə and içir.

Ədliyyə orqanlarına qulluğa qəbul edilən dövlət qulluqçusunun və ya əvvəllər dövlət qulluğunda işləmiş şəxsin malik olduğu ixtisas dərəcəsinin xüsusi rütbələrə uyğunlaşdırılması həyata keçirilərkən onun barəsində stajorluq və sınaq müddətləri müəyyən edilmir. Tutduqları vəzifəyə və ədliyyə orqanlarında stajına uyğun olaraq ədliyyə orqanlarının işçiləri üçün xüsusi rütbələr müəyyən edilir.

Orta və böyük xüsusi rütbə ədliyyə orqanlarına ilk dəfə daimi qulluğa qəbul edilənlərə Azərbaycan Respublikasının və Naxçıvan MR ədliyyə nazirləri, habelə onların səlahiyyət verdiyi digər rəhbər işcilər tərəfindən verilir. Xüsusi rütbələr fərdi qaydada, təhsili, olduqları xüsusi rütbədə qulluq müddəti və əmək stajı, tutduqları vəzifədə xüsusi rütbə hədləri, həmçinin yuxarıda sözügedən qanunda nəzərdə tutulan digər şərtlər nəzərə alınmaqla ardıcıl qaydada verilir.

Qanunvericiliklə ədliyyə orqanlarında qulluqla bir araya sığmayan fəaliyyət növləri müəyyən edilmişdir. Belə ki, ədliyyə orqanlarının işçisi heç bir seçkili və ya digər təyinatlı vəzifə tuta bilməz, elmi, pedaqoji və yaradıcılıq fəaliyyətindən başqa, heç bir sahibkarlıq, kommersiya və digər ödənişli fəaliyyətlə, həmçinin siyasi fəaliyyətlə məşğul ola və siyasi partiyalara üzv ola bilməz. Eyni zamanda, ədliyyə orqanları işçisinə aşağıdakılar qadağan edilir:

– "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Res-

publikası Qanununun 9-cu maddəsində nəzərdə tutulmuş korrupsiya hüquqpozmaları və korrupsiyaya şərait yaradan hüquqpozmaları törətməyə;

– qanunvericiliklə müəyyən edilmiş hallardan başqa, dövlət orqanının və ya yerli özünüidarə orqanının işləri üzrə üçüncü şəxslərin vəkili olmağa;

– işdən və ya pensiyaya çıxdıqdan sonra Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş müddət ərzində öz qulluq fəaliyyətinə aid olan dövlət sirri və ya qanunla mühafizə edilən digər sirr olan məsələlər barədə informasiyadan üçüncü şəxslərin xeyrinə istifadə etməyə;

– işlədiyi ədliyyə orqanı rəhbərinə bildirmədən xarici ölkənin vəsaiti hesabına xaricə getməyə;

– tətillərdə və dövlət orqanlarının işini pozan digər hərəkətlərdə iştirak etməyə;

– dini təbliğ etmək üçün ədliyyə işçisinin statusundan istifadə etməyə və ədliyyə orqanlarının tabeliyindəki obyektlərdə dini mərasimlərin keçirilməsinə rəsmi xarakter verməyə.

Ədliyyə orqanlarında işçilərin tutduqları vəzifələrə uyğunluğunun müəyyənləşdirilməsi, onların potensial imkanlarından istifadə etmək mümkünlüyünün aşkara çıxarılması, peşə səriştəliliyinin artırılmasının stimullaşdırılması, ixtisaslarının və peşə hazırlıqlarının yüksəldilməsi və ya təkrar hazırlıq keçmələrinin zərurət dərəcələrinin müəyyənləşdirilməsi, habelə kadrların irəli çəkilməsi proqramının həyata keçirilməsi məqsədilə onların beş ildə bir dəfədən çox olmayaraq attestasiyası keçirilir. Attestasiya zamanı işçilərin xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticələri nəzərə alınır. Ədliyyə orqanları işçilərinin fəaliyyətinin qiymətləndirilməsi "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada həyata keçirilir. Qanunvericiliyə əsasən yalnız müvafiq vəzifələrdə ən azı bir il çalışan ədliyyə orqanları işçilərinin attestasiyası keçirilə bilər.

Ədliyyə orqanlarını ixtisaslı kadrlarla təmin etmək, işçilərin nəzəri və peşə hazırlığını artırmaq məqsədilə ədliyyə orqanlarının

təhsil müəssisələrindən, ixtisasartırma kurslarından, məşğələlərdən, seminarlardan, konfranslardan, xarici dövlətlərin və beynəlxalq təşkilatların müvafiq təhsil sistemindən və digər tədbirlərdən istifadə edilməsi nəzərdə tutulmuşdur.

Qanunvericilik ədliyyə orqanları işçilərinin hüquqi və sosial müdafiəsini və maddi təminatını da nəzərdə tutmuşdur. Ədliyyə orqanlarının işçisi "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Qanunda nəzərdə tutulmuş hallardan başqa, vəzifə səlahiyyətlərinin icrasından kənarlaşdırıla, ədliyyə orqanlarından xaric edilə bilməz və onun qulluq keçməsinə xitam verilə bilməz. Qanunla səlahiyyət verilmiş şəxslərdən başqa, ədliyyə orqanları işçisinin qanuni fəaliyyətinə məhdudiyyət qoyulması, təsir və müdaxilə edilməsi yolverilməzdir.

Ədliyyə işçilərinin əmək haqqı vəzifə maaşından, xüsusi rütbələrə, qulluq illərinə, elmi dərəcəyə görə əlavələrdən və qanunvericiliklə nəzərdə tutulan digər ödənişlərdən ibarətdir. Ədliyyə orqanları işçilərinin vəzifə maaşının məbləği Nazirlər Kabineti tərəfindən müəyyən edilir. Ədliyyə işçiləri üçün elmi dərəcəyə görə əlavələrin miqdarı Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı ilə müəyyən edilir. Onlara ədliyyə orqanlarında qulluq stajına görə Azərbaycan Respublikası daxili işlər orqanlarının əməkdaşlarına fasiləsiz xidmət illərinə görə ödənilən haqqın məbləğlərinə və hesablanması qaydasına uyğun olaraq əlavə haqq verilir.

Ədliyyə orqanlarının işçilərinə əməyin ödənilməsi üçün nəzərdə tutulmuş vəsaitlər hüdudunda qulluqda fərqləndiklərinə, xüsusi əhəmiyyətli işləri keyfiyyətlə yerinə yetirdiklərinə görə Ədliyyə Naziri və onun səlahiyyət verdiyi aidiyyəti rəhbər işçilər tərəfindən vəzifə maaşlarının 25 faizindən çox olmamaq şərtilə əlavələr təyin edilə bilər. Ədliyyə işçilərinin mükafatlandırılması məqsədilə hər il növbəti il üçün təsdiq olunan dövlət büdcəsində bu orqanlarda müəyyən olunmuş aylıq əməkhaqqı fondunun (vəzifə maaşına əlavələr istisna olmaqla) üç misli həcmində əlavə vəsaitlər nəzərdə tutulur.

Ədliyyə orqanları işçilərinin həyatı və sağlamlığı dövlət büdcəsi vəsaiti hesabına "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq məcburi sığorta edilir, işçilər (pensiyaya çıxmış işçilər də daxil olmaqla) və onların ailə üzvləri pulsuz dövlət tibb xidməti ilə təmin olunurlar.

Ədliyyə işçilərinin müalicə olunmaları ilə əlaqədar ildə bir dəfə onlara iki aylıq əməkhaqqı həcmində müavinət verilir. Habelə, hər il məzuniyyətlə bağlı onlara iki aylıq əməkhaqqı həcmində müavinət ödənilir. Başqa yerə daimi işə keçirilmiş ədliyyə orqanı işçisinin və onun ailə üzvlərinin yeni qulluq keçmə yerinə köçmə pulu və birdəfəlik kompensasiya dövlət büdcəsinin vəsaiti hesabına Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı ilə müəyyən edilmiş qaydada ödənilir.

Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası ədliyyə nazirliklərinin mərkəzi aparatında, penitensiar və tibb xidmətlərində, regional qurumlarında qulluq keçən xüsusi rütbəsi olan ədliyyə işçiləri, habelə icra məmurları xüsusi geyim forması ilə təmin olunurlar. Xüsusi geyim formasının və fərqlənmə nişanlarının təsviri Azərbaycan Respublikası Prezidentinin 28 sentyabr 1999-cu il tarixli Sərancamı ilə təsdiq edilmişdir. Ədliyyə orqanları işçilərinə pulsuz geyim formalarının verilmə qaydaları, normaları və onlardan istifadə müddətləri Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 27 iyul 2000-ci tarixli qərarı ilə təsdiq edilmişdir.

Ədliyyə işçilərinin ayrı-ayrı kateqoriyalarına xidməti vəzifələrini yerinə yetirərkən qanunvericiliklə müəyyən edilmiş qaydada və hallarda xidməti silah saxlamaq, gəzdirmək və təyinatı üzrə tətbiq etmək hüququ verilir.

Xidməti vəzifələrinin nümunəvi icrasına, uzunmüddətli qüsursuz fəaliyyətinə və digər xidmətlərinə görə ədliyyə orqanları işçisi barəsində qanunvericilikdə nəzərdə tutulmuş pul və qiymətli hədiyyə ilə mükafatlandırma, əvvəllər verilmiş intizam tənbehinin vaxtından əvvəl götürülməsi, fəxri fərman ilə təltif edilmə, növbə-

dənkənar və ya vaxtından əvvəl xüsusi rütbə verilməsi, “fəxri ədliyyə işçisi” adının verilməsi, döş nişanı ilə təltif edilmə, habelə digər həvəsləndirmə tədbirləri tətbiq oluna bilər.

Eyni zamanda, “Ədliyyə orqanlarında qulluq keçmə haqqında” Qanun ilə nəzərdə tutulmuş tələblərin pozulmasına, habelə “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsi ilə müəyyən edilmiş maliyyə xarakterli tələblərə əməl edilməməsi və ya həmin Qanunun 9-cu maddəsində göstərilən hüquqpozmalara yol verilməsi hallarında (onlar inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda) ədliyyə işçisi barəsində irad tutma, töhmət, şiddətli töhmət, tutduğu vəzifəyə tam uyğun olmaması barədə xəbərdarlıq, aşağı vəzifəyə keçirmə, xüsusi rütbənin bir pillə aşağı salınması, vəzifədən azad etmə, ədliyyə orqanlarından xaric etmə növlərində intizam tənbehləri tətbiq oluna bilər. Qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada xüsusi rütbədən məhrum edilməklə, ədliyyə orqanlarından xaric etmə növündə intizam tənbehi də tətbiq oluna bilər.

Ədliyyə orqanları işçisinin ədliyyə orqanlarında qulluqda olmasının yaş həddi altmış yaşdır. Qulluq keçən qadınlar öz arzuları ilə qeyd olunan yaş həddindən beş il az olmaqla xidmət edə bilərlər. Azərbaycan Respublikasının Prezidenti tərəfindən rəhbər vəzifələrə təyin olunan şəxslər üçün yaş həddi müəyyən edilmir. Yaş həddinə çatmış ədliyyə orqanlarının digər işçilərinin qulluqda olma müddəti Ədliyyə Nazirliyinin aidiyyəti rəhbər vəzifəli şəxsi tərəfindən, hər dəfə bir ildən çox olmayaraq uzadıla bilər. 65 yaşına çatmış işçilərin ədliyyə orqanlarında qulluqda olma müddətinin uzadılmasına yol verilmir.

Yaş həddinə çatanadək ədliyyə orqanlarında xüsusi rütbələr nəzərdə tutulmuş vəzifələrdə azı 35 il qulluq stajı olan ədliyyə işçilər (xüsusi rütbələrdən məhrum edilmiş ədliyyə işçiləri istisna olmaqla) “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq pensiya hüququna malikdirlər və onların qulluq keçməsinə öz xahişləri ilə xitam verilə bilər.

Pensiyaya çıxması, struktur və ştat dəyişiklikləri, səhhəti və

əlilliyinin müəyyən edilməsi ilə bağlı ədliyyə orqanlarında qulluq keçməsinə xitam verilmiş ədliyyə orqanlarının işçisinə vəzifə maaşının altı misli məbləğində birdəfəlik müavinət verilir. Pensiyaya çıxması ilə əlaqədar verilmiş müavinətdən vergi tutulmur. Ədliyyə orqanlarında qulluq etmiş şəxslərin, ədliyyə işçilərinin və onların ailə üzvlərinin pensiya təminatı "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

Ədliyyə işçilərinə qoyulmuş tələblərdən əlavə, Penitensiar Xidmətə qulluğa qəbulun, qulluq keçmənin, yaş həddinin, verilən təminatların bir sira fərqli və əlavə xususiyyətləri vardır. Həmin xüsusiyyətlər "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Qanunla, yəni onun penitensiar xidmətdə qulluq keçmənin xüsusiyyətlərinə dair fəslindəki müddəalar ilə tənzimlənir. Penitensiar Xidmətin işçiləri qanunvericiliyə əsasən xüsusi rütbəsi olan əməkdaşlara, mülki işçilərə və hərbi qulluqçulara bölünür. Xüsusi rütbəsi olan əməkdaşlar sıravi heyətdən, kiçik, orta, böyük və ali rəis heyətindən, mülki işçilər isə, dövlət qulluqçularından və dövlət qulluqçuları olmayan işçilərdən ibarətdir.

Hərbi qulluqçular cəzaçəkmə müəssisələrinin mühafizəsi və bu müəssisələrdə saxlanılan şəxslərin müşayiəti üçün təskil edilmiş Penitensiar Xidmətin xüsusi qurumlarında xidmət keçirlər.

Penitensiar Xidmətin sıravi və kiçik rəis heyəti vəzifələrində qulluğa ən azı tam orta və ya orta ixtisas təhsilli, orta və böyük rəis heyəti vəzifələrinə isə yalnız ali təhsilli şəxslər qəbul edilirlər. Penitensiar Xidmətdə qulluğa qəbul edilən səxslərin fiziki hazırlığı və sağlamlıq vəziyyəti Ədliyyə Nazirliyinin müəyyən etdiyi qaydada yoxlanılır. Qulluğa qəbul edilməmişdən əvvəl namizədlər Ədliyyə Nazirliyinin müəyyən etdiyi qaydada ilkin hazırlıq kursları keçirlər. Bu kursları müvəffəqiyyətlə başa vurmuş şəxslərin ədliyyə orqanlarında qulluğa qəbulu ilə bağlı qərar qəbul edilir.

Penitensiar Xidmətin əməkdaşlarının təminat xərclərinə tutduğu vəzifəyə görə vəzifə maaşı, xüsusi rütbəyə və qulluq illərinə

görə haqq, məharət dərəcəsinə görə verilən əlavə, ərzaq payı və ya ərzaq payı əvəzinə verilən pul kompensasiyası, digər müavinət və ödənişlər daxildir. Bu işçilərinin vəzifə maaşları penitensiar müəssisələrin növündən, Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş işlərin (vəzifələrin) xüsusiyyətindən və ağırlığından asılı olaraq artırılır.

Penitensiar Xidmətin əməkdaşları dövlət büdcəsi vəsaiti hesabına imtiyazlı ödəmə şərtilə ölkə daxilində sanatoriya-kurort müəssisələrinə yollayış ala bilərlər. Xidməti vəzifələrini icra edərkən həlak olan (vəfat edən) əməkdaşların dəfni dövlət büdcəsi vəsaiti hesabına həyata keçirilir və bu zaman Ədliyyə Nazirliyi tərəfindən təsdiq edilmiş qaydada onların şərəfinə ehtiram göstərililr.

Penitensiar Xidmətin əməkdaşları və onların ailə üzvləri barədə məlumatların məxfiliyinin qorunması üçün Ədliyyə Nazirliyinin qərarı ilə rabitə sorğu xidmətinə və ya digər məlumat-sorğu xidmətlərinə bu şəxslərin telefon nömrələri, yaşayış yeri barəsində və ya hər hansı digər məlumatların verilməsi müvəqqəti və ya daimi olaraq qadağan edilə bilər. Penitensiar Xidmətin əməkdaşlarının xidmət keçməsi haqqında məlumatlar yalnız penitensiar orqanın rəhbərinin icazəsi ilə verilə bilər.

Penitensiar Xidmətin əməkdaşının qulluqda olmasının yaş həddi digər ədliyyə işçilərdən fərqli olmaqla, aşağıdakı kimi müəyyən edilmişdir:

– sıravi və kiçik rəis heyəti vəzifələri üçün müəyyən edilmiş xüsusi rütbələrdə olan əməkdaşlara – 50 yaş (bu xüsusi rütbələrdə olan əməkdaşlar göstərilən yaş həddinə çatdıqda qulluq illərinə görə pensiya hüququ əldə etmirlərsə, onlar ədliyyə orqanlarında qulluğunu davam etdirirlər);

– orta və böyük rəis heyəti vəzifələri üçün müəyyən edilmiş xüsusi rütbələrdə olan əməkdaşlara – 55 yaş;

– ədliyyə general-mayoru və ədliyyə general-leytenantı xüsusi rütbələrdə olan əməkdaşlara – 60 yaş, ədliyyə general-polkovniki xüsusi rütbədə olan əməkdaşlara – 65 yaş.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə tə-

yin olunan şəxslər üçün yaş həddi müəyyən edilmir. Müəyyən olunmuş yaş həddinə çatmış Penitensiar Xidmətin əməkdaşının qulluqda olma müddəti hər dəfə bir ildən çox olmayaraq müddətə Ədliyyə Naziri və ya həmin xidmətin rəhbəri tərəfindən beş ildən çox olmamaq şərtilə uzadıla bilər.

Penitensiar Xidmətdə qulluq etmiş əməkdaşların və onların ailə üzvlərinin pensiya təminatı "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir. Penitensiar Xidmətin əməkdaşlarına pensiya təyin edildikdə, penitensiar müəssisələrdə mülki işçi qismində işlədikləri müddət qulluq illərinə hesablanır. Bilavasitə cəzaçəkmə müəssisələrində, istintaq təcridxanalarında və azadlıqdan məhrum edilmiş şəxslər üçün nəzərdə tutulmuş müalicə müəssisələrində işləyən penitensiar xidmətin əməkdaşlarına pensiya təyin edilərkən işlədikləri illərin hesablanması üç iş günü dörd iş günü kimi, yoluxucu xəstəliyi olan məhkumların saxlanması və müalicəsi üçün nəzərdə tutulmuş müalicə müəssisələrində və cəzaçəkmə müəssisələrinin yoluxucu xəstəliyi olan məhkumların saxlanması və müalicəsi üçün nəzərdə tutulmuş şöbələrində işləyənlərə isə iki iş günü üç iş günü kimi hesablanır.

Cəzaları icra edən müəssisə və orqanların işçi heyətinin gündəlik fəaliyyəti cinayət törətmiş şəxslərin saxlanıldığı bir mühitdə həyata keçirildiyi üçün onların təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə bir sıra vasitələr müəyyən edilmişdir. Bu vasitələri iki qrupa bölmək olar:

1) cinayət-hüquqi xarakterli tədbirlər. Onlara aiddir:

– bilavasitə işçi heyətin təhlükəsizliyinə zərər vurmağa yönəlmiş hərəkətlərə görə cinayət məsuliyyəti müəyyən edən normalar (Azərbaycan Respublikası CM-in 304, 316, 317-ci maddələri və s.);

– şəxsiyyətin həyatı, sağlamlığı və ləyaqəti əleyhinə cinayətlərə görə məsuliyyət müəyyən edən normalar (Azərbaycan Respublikası CM-in XVIII və XIX fəsilləri);

– hüquq-mühafizə və nəzarət orqanlarının vəzifəli şəxsləri ba-

rəsində zorakı hərəkətlərə görə məsuliyyət müəyyən edən normalar (Azərbaycan Respublikası CM-in 315-ci maddəsi).

2) cəza-icra xarakterli tədbirlər. Onlara aiddir:

– məhkumlara göstərilən tərbiyəvi təsir tədbirləri;

– texniki-nəzarət vasitələrinin tətbiqi;

– təhlükəsizlik tədbirləri;

– profilaktik tədbirlər;

– məhkumlara tətbiq edilən tənbeh tədbirləri;

– digər tədbirlər.

Azərbaycan Respublikasının CİM-i və "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin olunması haqqında" Qanunda işçi heyətin təhlükəsizliyinin təmin edilməsi cəzaçəkmə müəssisələrində və istintaq təcridxanalarında baş verən hüquq pozuntularının vaxtında qarşısının alınması məqsədi ilə işçi heyətin təhlükəsizlik tədbirlərindən istifadə etməsi əsaslarını və qaydasını da dəqiq müəyyən etmişdir. Təhlükəsizlik tədbirlərindən istifadə mexanizmi Ədliyyə Nazirliyinin müvafiq əmri ilə tənzimlənmişdir.

"Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Qanun və digər hüquqi-normativ aktlar cəzaları icra edən müəssisə və orqanların işçi heyətinin hüquqi statusunun, təhlükəsizliyinin təmin edilməsini nəzərdə tutmaqla yanaşı, eyni zamanda onların fəaliyyətinə nəzarət institutunu da müəyyən etmişdir. Burada məqsəd işçi heyətinin öz fəaliyyətində qanunçuluğun tələblərinə dönmədən riayət olunmasını təmin etməkdir.

***İstinad edilmiş mənbə:***

***Azərbaycan Respublikasının Cəza-icra hüququ. Dərs vəsaiti. Bakı, 2022. Səh. 321–332.***

## Cəza-icra sisteminin əməkdaşlarının peşə imicinin formalaşmasında ixtisaslaşdırılmış təhsil müəssisəsinin rolu

Cəza-icra sistemi üçün kadr hazırlığını həyata keçirən ixtisaslaşdırılmış təhsil müəssisəsi–qarşısında cinayət törətməyə görə cəza çəkən şəxslərlə ünsiyyət şəraitində qulluq keçməyə qadir olan əməkdaşların hazırlanması və onların şəxsiyyətinin tərbiyə edilməsi vəzifəsi duran xüsusiləşdirilmiş tədris ocağıdır. İxtisaslaşdırılmış təhsil müəssisəsində pedaqoji proses yalnız peşə biliklərinin əldə olunmasına deyil, həmçinin peşə dəyərlərinin formalaşmasına yönəlir. Cəza-icra sistemi üçün mütəxəssislərin hazırlanmasında iki əsas ideyanın vəhdəti–tələbənin, yaxud dinləyicinin şəxsiyyətinin tərbiyə olunması və ali təhsilli mütəxəssisin ali təhsil müəssisəsində mövcud əlverişli müəssisədaxili mədəniyyətlə uzlaşdırılması, müvafiq gələcək əməkdaşın layiqli simasının formalaşdırılmasının şərtidir. Son dövrlərdə cəza-icra sisteminin və onun əməkdaşının korporativ imicinin geniş müzakirə olunması bu fəaliyyət sahəsi üçün gələcək əməkdaşların hazırlığında iştirak edən hər bir şəxsi bu problemə diqqət yetirməyə sövq edir.

Bu gün tədqiqatçılar arasında "cazibə məharəti (sənəti)", "insanların işgüzar və şəxsiyyət keyfiyyətlərini aşkar edən böyüdücü şüşə", "insanın ümumi "Mən"i", "insanın könüllü surətdə qrup rolu sisteminə qoşulmağa hazır olması" imicinin müəyyən edilməsinə ümumi yanaşma, həmçinin cəza-icra sisteminin əməkdaşının imicinin formalaşması sahəsində sistemli yanaşma və xüsusi standartlar yoxdur. Çünki, birincisi, cəza-icra sistemi müəyyən qədər qapalıdır, əməkdaşların, eləcə də bütövlükdə sistemin imici üzərində iş, biznes və ya siyasət kimi irimiqyaslı deyil. İkincisi, müsbət imicin formalaşması üzrə iş hələ cəzaların icrası sistemində özünün layiqli yerini tapmamışdır. Üçüncüsü, bizim "imicmeykerin" (imicin yaradılması üzrə mütəxəssis) kim olması müəyyən suallar doğurur. Bundan başqa, öncədən peşəkar görünüşə "alışmağa" və onun qürur duyğusuna diqqət yetirməyə mane olan

amillər də mövcuddur. Təəssüf ki, dövrün reallıqları belədir, tələsik bir peşə seçimi, həmin peşəyə və onun məzmununa əsaslanmır. Bəzi hallarda, peşə seçiminin motivi işin özünə və ya cəmiyyətin xeyrinə xidmət etmək deyil, valideynin arzusunu yerinə yetirmək, dövlət hesabına təhsil almaq, müddətli hərbi xidmətdən yayınmaq, yaxud ondan möhlət almaq məqsədi güdür. Həmçinin, daha səthi motivasiya xarici üslub seçimlərinə əsaslana bilər. Misal üçün, insanı təhsil müəssisəsinin adı, nüfuzu və ya xüsusi geyim forması cəlb edə bilər. Peşəyə xudbin xüsusiyyətin, istehlakçı münasibətin müəyyənləşdirilməsi onun mənəvi dəyərini azaldır. Beləliklə, xüsusi təhsil alan insan peşənin ruhundan bəhrələnmiş şəxsiyyətə çevrilmir. Bu əsasda peşə imici tam ola bilməz. Belə vəziyyət əməkdaşı öz üzərində imic "maskası"nı gəzdirmək məcburuyyətində qoyur.

Fransız sosioloqu Z.J. Bodriyar “Simulyaklar və simulyasiyalar” adlı əsərində qeyd edirdi ki, müasir cəmiyyət simulyaklara əsaslanır, başqa sözlə, məzmununa görə konkret simalardan uzaqlaşır, bu simaların saxta, uydurulmuş surəti kimi çıxış edir və ətrafdakıların onlara etimad göstərməməsinə səbəb olur. İmicin əsl keyfiyyətdən məhrum olan maskaya çevrilməməsi naminə onun xarici görünüşü üçün əsas hazırlamaq lazımdır.

Biz ixtisaslaşlaşdırılmış təhsil müəssisəsinin imkanlarından istifadə edərək, cəza-icra sistemi üçün gələcək əməkdaşların müsbət peşə imicinin formalaşmasına təsir göstərən təcrübi imkanlardan birinə diqqət yetirmək istərdik. Hesab edirik ki, cəza-icra sisteminin əməkdaşının müsbət peşə imicinin formalaşması, bu prosesə təhsil müəssisəsinin bütün həlqələrinin – müəllimlərin, kafedraların, fakültələrin, müvafiq şöbə və xidmətlərin cəlb edilməsi ilə müşayiət olunan və kollektiv surətdə həll edilən bir vəzifədir. Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyasında əyani və qiyabi təhsil alan birinci kurs, o cümlədən əcnəbi mənşəli tələbələr arasında aparılmış sosioloji sorğunun nəticələri göstərir ki, iştirakçılarının yalnız 30 % -i "cəza-icra sistemi əməkdaşının peşə imici” barədə aydın təsəv-

vürə malikdir, bu məsələ ilə maraqlanır və öz üzərlərində çalışırlar. Sorğu iştirakçılarının 50 %-i hesab edir ki, cəza-icra sistemi əməkdaşının peşə imici "mücərrəd və uydurulmuş bir şeydir". Nəhayət, respondentlərin 20 %-i faizi "cəza-icra sisteminin əməkdaşının peşə imici barədə nə isə eşitdiklərini, lakin bu barədə dəqiq təsəvvürə malik olmadıqlarını” qeyd etmişlər. Respondentlər əsasən peşə imicini “zahiri görünüş”, “tərz”, “fərdilik”, “ad-san”, “nüfuz”, “şəxsiyyətin əks etdirilməsi” kimi qəbul edirlər. Ümumən, cəza-icra sistemi əməkdaşının peşə imici anlayışının müəyyən edilməsində respondentlər ciddi çətinliklər yaşayırlar. Onların cavablarında əməkdaşın “şux”, “fiziki cəhətdən güclü”, “səliqəli”, “intizamlı” kimi zahiri keyfiyyətləri, “ədalətli”, “iradəli”, “vicdanlı” və s. mənəvi-əxlaqi keyfiyyətləri qeyd olunur. Qeyd etmək lazımdır ki, respondentlərin 15-20 %-i “imic” anlayışına tərif verə bilməmişdir. Cəza-icra sistemi əməkdaşının müsbət peşə imicinin formalaşmasında mövcud olan çətinliklər barədə suala respondentlər əsasən aşağıdakı cavabları vermişlər: “bütövlükdə sistemin, xüsusilə əməkdaşın müsbət imicinin formalaşdırılması üzrə “təşkilati siyasətinin olmaması”, “aşağı mənəvi və maraq səbəbindən bu sahədə əməkdaşların zəif motivasiyası”, “bütün səviyyələrdə bayağı cari “kağız” işləri ilə məşğulluq”. Qeyd etmək lazımdır ki, sorğuda iştirak etmiş şəxslərin 95 %-nin fikrincə, imici peşə təhsili vasitəsilə inkişaf edirmək olar.

İxtisaslaşdırılmış ali təhsil müəssisəsinin vəzifəsi–cəza-icra sisteminin əməkdaşının peşə imicinə və peşə simasına xüsusi əhəmiyyət verməkdir. Bizim cəmiyyətdə əməkdaşın imicinin əsası nədir? Şübhəsiz ki, peşə imicinin əsası, özəyi əməkdaşın etik potensialıdır. İxtisaslaşdırılımış ali təhsil müəssisələrinin (o cümlədən Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyasının) məzunları cəmiyyətə xidmət üzrə əhəmiyyətli sosial missiyanı yerinə yetirmək üçün digər peşələrin nümayəndələri ilə müqayisədə daha yüksək imicə malik olmalıdırlar. Belə ali təhsil müəssisəsində mövcud olan mədəni mühit cəza-icra sisteminin gələcək əməkdaşının həyat tərzi, dav-

ranış və zahiri görünüş baxımından "inkişaf edən imicini" formalaşdırır. Əməkdaşların müsbət peşə imici bütün təhsil dövründə formalaşır, inkişaf edir və şəxsi keyfiyyətə çevrilir.

Cəza-icra sistemi üçün mütəxəssis hazırlığını həyata keçirən ixtisaslaşdırılmış təhsil müəssisəsinin imic strategiyası nədən ibarətdir? Fikrimizcə, cəza-icra sisteminin əməkdaşının peşə imicini mənəvi-əxlaqi keyfiyyətlər, peşə səlahiyyətləri və zabit mentaliteti olmadan təsəvvür etmək olmaz.

Müvafiq peşə üzrə ixtisaslaşdırılmış təhsil müəssisəsinin professor-müəllim heyəti peşə imicinin formalaşdırılmasında tədris məşğələlərinin imkanlarından istifadə edirlər. Məlumdur ki, tədris fənləri tələbələrin daxili aləminə təsir göstərməklə, təhsil və tərbiyənin harmonik səkildə birləşdirilməsi perspektivlərini eyni səviyyədə açıqlamır. "Peşə etikası və xidməti etiket", "İşgüzar ünsiyyət", "İmicologiya", "Mədəniyyətşünaslıq", "Ritorika" və digər xüsusi tədris fənlərinin tətbiq edilməsi, gələcək əməkdaşların yüksək əxlaqi və mədəni tərbiyəsinə, ictimai borca, mənəvi dəyərlərə layiqincə yanaşmasına, dünyagörüşünün formalaşmasına, seçmiş olduqları peşənin yüksək sosial dəyərini dərk etməsinə imkan verir. Misal olaraq, "Peşə etikası və xidməti etiket" fənnini nəzərdən keçirək. Bu fənnin Hüquq və İdarəetmə Akademiyasında tədris olunması cəza-icra sisteminin gələcək əməkdaşının müsbət peşə imicinin formalaşdırılmasında, onun peşəkar kadr kimi yetişməsində mühüm rol oynayır. Qeyd edilən tədris fənlərinin öyrənilməsi gedişində gələcək əməkdaşın peşə dəyərləri formalaşır. Təəssüflər olsun ki, həmin fənlərdə müasir dövrdə "şərəf", "ləyaqət" kimi peşə dəyərləri əvvəlki əhəmiyyətini itirmiş, eyni zamanda istinad olunan fənlər imicin struktur hissələri (komponentləri) haqqında təsəvvürləri formalaşdıır, cəza-icra sisteminin gələcək əməkdaşının şəxsi və peşə imicinin rolunu və əhəmiyyətini açıqlayır. Təhsil alanlar cəza-icra sisteminin əməkdaşının imici ilə bağlı mənəvi-etik tələblərlə, etik məcəllə, peşə və kommunikativ mədəniyyətlə tanış olurlar. Müvafiq fənlərlə tanışlıqdan sonra tələbələr, dinləyicilər peşə imicinin aşağıdakı anlayışlarını dərin-

dən dərk edirlər: “müvafiq peşə biliklərinə malik əməkdaşın xüsusi olaraq formalaşan siması”, “cəzaların icrası sahəsində peşəkar fəaliyyətə qadir şəxsiyyətin daxili və xarici keyfiyyətlərinin məcmusu”, “özünün peşə borcunu yerinə yetirməyə hazır olma” və s. Cəza-icra sistemi üçün mütəxəssis hazırlığını həyata keçirən ixtisaslaşdırılmış ali təhsil müəssisəsi müsbət peşə imicinin formalaşdırılması üçün çoxsaylı əlçatan üsullara malikdirlər. Kafedralar, şöbə və xidmətlər tələbələri, müdavimləri müxtəlif mədəni layihələrdə, treninq məşğələlərində, işgüzar oyunlarda iştiraka cəlb edirlər.

Misal üçün, Hüquq və İdarəetmə Akademiyasında “Yaxşı davranış məktəbi” layihəsinin köməyi ilə cəza-icra sisteminn gələcək əməkdaşının imic hazırlığı həyata keçirilir. Son on il ərzində Akademiyada realizə olunan daha bir layihə–“Mundir şərəfi” layihəsi xüsusilə diqqəti cəlb edir. Bu layihə əməkdaşların və bütövlükdə, cəza-icra sisteminin peşə imicinə marağı fəallaşdırmaq məqsədilə tələbələri, dinləyiciləri, müəllimləri, Akademiyanın digər işçilərini etiket, imicologiya, mədəniyyət sahəsində mütəxəssisləri birləşdirən imic əhatəsidir (burada “imic əhatəsi” dedikdə, özündə tədris auditoriyalarını, kabinetləri, müəllimləri, əsas xüsusi əlaqə kanallarını (görüşlərin keçirilmə yerləri, peşə birlikləri) ehtiva edən sosial mühit başa düşülür). Bu klubun işində digər dinləyicilərlə yanaşı Akademiyada təhsil alan əcnəbi vətəndaslar, o cümlədən Azərbaycan Respublikasından göndərilən dinləyicilər də fəal iştirak edirlər. İmic agentləri (kafedraların əməkdaşları, kurs rəhbərləri, şəxsi heyətlə iş üzrə şöbənin rəhbərliyi, Akademiyanın muzeyinin, kitabxanasının, klubunun, veteranlar təşkilatının rəhbərliyi) imic prosesinin hərəkətini tənzimləyir, gələcək peşəyə münasibəti formalaşdırırlar. Müəllim tələbə və dinləyicilərə fəal təsir göstərməklə imic hazırlığını həyata keçirir. Müəllim şəxsi davranışı, nüfuzu ilə təhsil alanlara nəciblik, humanistlik, ziyalılıq, daxili dözümlülük, mənəvi və mədəni üstünlük kimi keyfiyyətləri aşılayır. Bu keyfiyyətlər əməkdaşlara cəza-icra sistemində, hətta ən mürəkkəb xidmət şəraitində də öz simalarını qoruyub

saxlamağa kömək edir. Buna görə də cəza-icra sistemində imicmeykerlərin olmamasını düşünənlər yanılırlar. Akademik mühit, əmr və göstərişlərin sərt tələbləri ilə müşayət olunmaqla tərbiyəvi mühitə çevrilir və bu mühitdə cəza-icra sisteminin peşə imicinin tərkib hissəsi olan cəza-icra sisteminin gələcək mütəxəssislərinin əməkdaş (zabit) mentaliteti formalaşır.

Rəmzi hərəkətin forması sayılan mərasimin və onun insanın fəaliyyətində əhəmiyyəti həm milli, həm də xarici alimlərin marağına səbəb olmaqdadır. Fransız sosioloqu E. Dyurkheym, mərasimi fərdə yeni sosial rolun təhkim olunması və onun peşəkar qrupa daxil edilməsi vasitəsi kimi nəzərdən keçirmişdir. Görkəmli etnoqraf A.K. Bayburin hesab edirdi ki, mərasim "gündəlik həyatın görünməyən cəhətlərini işıqlandırmağa imkan verir, lakin mahiyyətcə aktual dəyərləri əks etdirir". Mərasim, ənənədə mərkəzi yer tutur və yaddaşın başlıca mexanizmi, özünəməxsus davranış proqramıdır. Cəza-icra sistemi üçün mütəxəssis hazırlığını həyata keçirən ixtisaslaşdırılmış təhsil müəssisəsinin imic strategiyasına münasibətdə təntənəli mərasimlər (tədris ilinin başlanmasına həsr olunmuş tədris məşğələlərinə sıra düzülüşləri, xidmətlə bağlı xüsusi andın qəbul edilməsi, mütəxəssislərin buraxılışı, təhsil müəssisəsinin bayrağı ilə vidalaşma və s.) təhsil müəssisəsinə, peşəyə sadiqlik, hörmət hisslərini tərbiyə edir və müsbət peşə imicinin formalaşmasına yönəlmişdir. Mərasimin emosional gücü xüsusi əhəmiyyət kəsb edir. Müdavim və dinləyicilər tərəfindən yaşanan ümumi hiss və əhval-ruhiyyə (bunlar gündəlik həyatda bəzən mövcud olmur) korporativ birliyin dərk olunmasına kömək edir.

İmic fəallığının vacib vasitələrindən biri də xüsusi geyim formasıdır ki, onun qüsursuz görünüşünə ixtisaslaşdırılmış təhsil müəssisəsində xüsusi diqqət yetirilir. Təhsil illəri ərzində tələbələr, dinləyicilər hər bir elementi müəyyən məna yükü daşıyan, ləyaqətin və intizamlılığın zahiri təcəssümü olan, ətrafdakılara əməkdaşın peşə borcunu mənəvi cəhətdən yerinə yetirməyə hazır olduğunu və onun daxili gücünü nümayiş etdirən geyim formasını daşıma qaydalarına yiyələnirlər.

Beləliklə, digər ixtisas təhsil müəssisələrindən fərqli olaraq cəza-icra sistemi üçün gələcək mütəxəssislərin imicinin formalaşdırılması üçün, bu prosesinin mürəkkəbliyi nəzərə alınmaqla, kompleks yanaşma və uzunmüddətli, sistemli iş tələb olunur. Hesab edirik ki, cəza-icra sistemi üçün mütəxəssislərin hazırlanması ilə bağlı ixtisaslaşdırılımış ali təhsil müəssisəsi olmayan ölkələrdə, o cümlədən Azərbaycan Respublikasında müvafiq əməkdaşların imicinin formalaşdırılmasının təməl daşı, onların ilkin icbari təlimini həyata keçirən Ədliyyə Akademiyasında qoyulmalı, sonradan bu proses əməkdaşın işlədiyi kollektivdə, habelə müntəzəm təşkil olunan peşə və ixtisas hazırlığı kurslarında davam etdirilməlidir. Bu prosesdə Azərbaycan Respublikası Ədliyyə nazirinin 29 noyabr 2007-ci il tarixli 41-T nömrəli əmri ilə təsdiq edilmiş "Ədliyyə orqanları işçilərinin etik davranış qaydaları"na istinad edilməsi xüsusi əhəmiyyət kəsb edə bilər. Eyni zamanda, Hüquq və İdarəetmə Akademiyasında əldə olunmuş müsbət təcrübədən də yararlanmaq məqsədəuyğun olardı.

***İsifadə edilmiş mənbə:***

***"Qanun" jurnalı. Bakı, 2019. № 4 (294), Səh. 40–44.***

# IV HİSSƏ
# AZƏRBAYCAN RESPUBLİKASININ CƏZA-İCRA SİSTEMİNİN İSLAHATLARI VƏ ONLARIN NƏTİCƏLƏRİ

## 1993–2000-ci illərdə Azərbaycan Respublikasının penitensiar sistemində həyata keçirilən islahatlar haqqında

Azərbaycan dövləti müstəqilliyini bərpa etdikdən sonra öz penitensiar sisteminin islahatını həyata keçirməyə başlamışdır. Son illər ərzində Azərbaycanda müstəqil penitensiar sistemin və onun fəaliyyətinin yenidən qurulması üzrə böyük işlər görülmüş, keçmiş SSRİ-nin məşhur "QULAQ" kimi tanınan bir sistemə xas olan, cəzanı insan şəxsiyyətindən üstün tutan köhnə təfəkkür və stereotiplərin aradan qaldırılması istiqamətində qəti addımlar atılmışdır.

1993-cü ilin yanvarında keçmiş SSRİ respublikaları arasında birinci olaraq Azərbaycan Respublikasında istintaq təcridxanaları istisna olmaqla, penitensiar sistem Daxili İşlər Nazirliyinin nəzdindən çıxarılaraq, Ədliyyə Nazirliyinin tabeçiliyinə verilmişdir. Bütün dünyada mövcud olan bu təcrübə Azərbaycanın penitensiar sisteminin fəaliyyətinin daha səmərəli təşkilinə müsbət təsir göstərmişdir. Həmin vaxtdan Ədliyyə Nazirliyinin Məhkəmə Qərarlarının İcrası Baş İdarəsi yaradılmış və bu quruma cinayət cəzalarının icrasından əlavə, məhkəmələrin mülki işlər üzrə qərarlarının, habelə icrası məhkəmə icraçılarına həvalə edilmiş digər qərarların icrasının təşkili işi də həvalə olunmuşdu.

SSRİ-nin süqutundan dərhal sonra Azərbaycan dövləti müxtəlif kateqoriyalı məhkumların yerləşdirilməsi kimi çətin bir problemlə üzləşmişdir. Belə ki, əvvəllər ölkəmizdə keçmiş SSRİ Daxili İşlər Nazirliyinin müəyyən etdiyi qaydalara əsasən respublikada məhkəmə, hüquq mühafizə orqanlarının sabiq əməkdaşları və

məhkəmələr tərəfindən xüsusi təhlükəli residivist hesab olunmuş şəxslər üçün nəzərdə tutulmuş penitensiar müəssisələr mövcud deyildi. Bu qəbildən olan məhkumlar, habelə bir sıra digər kateqoriyalı məhkumlar cəzalarını çəkmək üçün keçmiş SSRİ-nin müxtəlif şəhərlərinə göndərilirdilər. Bu təcrübə məhkumun ictimai-faydalı, o cümlədən ailə əlaqələrinin saxlanmasına mane olmuş, belə üzdəniraq qərəzli siyasətin nəticələri islah prosesinə və məhkumların sonrakı taleyinə neqativ təsir göstərmişdir.

1988-ci ilin əvvəllərindən başlayaraq, hal-hazırkı vaxta kimi davam edən qondarma Dağlıq Qarabağ problemi penitensiar sistemdən də yan keçməmiş və ona öz mənfi təsirini göstərmişdir. Belə ki, Dağlıq Qarabağda yerləşən Şuşa şəhərinin 1992-ci ilin may ayında erməni hərbi birləşmələri tərəfindən işğal olunmasından sonra, Azərbaycanda yeganə həbsxananın, habelə iki məntəqə tipli cəzaçəkmə müəssisəsinin fəaliyyəti məcburiyyət üzündən dayandırılmışdır.

Göstərilən mühüm problemin həlli üçün respublikada qısa müddət ərzində üç yeni növlü penitensiar müəssisə: xüsusi təhlükəli residivistlər üçün xüsusi rejimli koloniya, hüquq mühafizə orqanlarının sabiq əməkdaşlarının saxlanması üçün nəzərdə tutulmuş islah-əmək müəssisəsi, habelə qanunvericiliyin tələblərinə cavab verən yeni həbsxana təşkil edilmiş və istifadəyə verilmişdir. Bundan əlavə, ölkəyə qaytarılan azərbaycanlı məhkumların respublikada cəza çəkməsi ilə əlaqədar onların saxlanması, qanunda göstərilən normativlər üzrə yerləşdirilməsi və bu şəxslərin hüquqlarının təmin edilməsi üçün bir neçə yeni penitensiar müəssisə də təşkil edilmişdir.

Mürəkkəb iqtisadi vəziyyət, bazar münasibətlərinə keçid dövründə penitensiar sistemin islahatını aparan Azərbaycan Respublikası bütün bəşəriyyəti narahat edən digər kəskin problemə də xüsusi diqqət yetirmişdir. Bu problem ölüm cəzasının ləğvidir. 1993-cu ildən başlayaraq, ölkə Prezidenti H. Əliyev cənabları tərəfindən bu cəza növünün icrasına moratorium elan olunmuş, bir qrup şəxsin ölüm cəzası əfv qaydasında azadlıqdan məhrum etmə

cəzası ilə əvəz edilmişdir. 1996-cı ildə dövlət başçısının təşəbbüsü ilə cinayət qanununa əsaslı dəyişikliklər edilmiş, Cinayət Məcəlləsində müstəsna cəza tədbiri-ölüm cəzası nəzərdə tutulmuş maddələrin sayı kəskin surətdə azaldılmış və nəhayət, 1998-ci ilin fevral ayının 10-da bu cəza Şərq aləmində ilk dəfə olaraq Azərbaycanda ləğv edilmişdir.

Penitensiar sahədə həyata keçirilən siyasətə sadiq qalan Azərbaycan Respublikasında 1997-ci ilin fevral ayında cəzaların icrasını, islah-əmək müəssisələrinin fəaliyyətini tənzimləyən İslah-Əmək Məcəlləsinə əsaslı dəyişikliklər və əlavələr edilməsi haqqında qanun qəbul edilmişdir. Bu yeniliklər birmənalı olaraq cəzaların icrasının humanistləştməsinə yönəlmişdir. Bu qanunla məhkumların hüquq, azadlıq və imtiyazlar dairəsi xeyli genişləndirilmiş, köhnəlmiş, islah işinə xidmət etməyən, məhkumların ləyaqətini alçaldan qadağanlar və məhdudiyyətlər aradan götürülmüşdür. Bu qanunun qəbul olunmasının məqsədi onun giriş hissəsində aydın şəkildə bəyan olunmuş və göstərilmişdir ki, bu hüquqi sənəd məhkumların vətəndaş hüquqlarının qorunmasına və penitensiar müəssisələrdə saxlanma şəraitinin ümumi qəbul olunmuş beynəlxalq normalara uyğunlaşdırılmasına yönəlmişdir. Qanun hazırlanarkən BMT-nin "Məhkumlara davranışın minimal standart qaydaları", "Avropa Penitensiar Qaydaları", habelə törətdikləri cinayət əməllərinə görə dövlət məcburiyyət tədbirlərinə məruz qalmış şəxslərin saxlanmasına və onlarla davranışa həsr olunmuş digər beynəlxalq aktların tələb və tövsiyələri maksimal şəkildə nəzərə alınmışdır.

Son illərdə dövlətin və onun başçısının penitensiar sahəyə diqqətinin artması sayəsində bütün cəza çəkmə yerlərində mənəvi-psixoloji mühit müsbət istiqamətdə dəyişilmişdir. Əvvəllər unudulmuş əfvetmə institutu 1995-ci ilin əvvəlində Azərbaycan Prezidenti tərəfindən yenidən bərpa edilmişdir. Həmin ilin ikinci yarısından başlayaraq, 1999-cu ilə kimi dövlət başçısının bir neçə fərmanı ilə iki mindən artıq məhkum əfv olunaraq, cəzanı çəkməkdən azad olunmuşdur. Bu müsbət təcrübə hal-hazırda uğurla

davam etdirilir.

Azərbaycan Respublikası Prezidenti H. Əliyev cənablarının təşəbbüsü ilə Milli Məclis tərəfindən 1996-1998-ci illərdə qəbul edilmiş amnistiya haqqında dörd qərarın icrası nəticəsində qırx mindən çox şəxsin cinayət məsuliyyətindən və cəza çəkməkdən azad edilməsi, penitensiar sistemin saxlanmasına ayrılan vəsaitin bir neçə dəfə artırılması dövlət qayğısının təzahürü kimi qəbul olunmalıdır. Son illərdə respublikanın cəzaçəkmə müəssisələrində məhkumlar üçün normal yaşayış, sosial-məişət şəraitinin yaradılması, onların sağlamlıqlarının qorunmasına yönəlilmiş tədbirlər, kütləvi informasiya vasitələri ilə əlaqələrin genişləndirilməsi, penitensiar sahədə ötən dövrdən yadigar qalmış məxfilik pərdəsinin aradan götürülməsi, beynəlxalq təşkilatlarla əməkdaşlığın bünövrəsinin qoyulması və bu sahədə fəal iştirak islahatların ilkin nəticələridir.

1997-ci ildən başlayaraq Azərbaycan Respublikası Avropa Şurası ilə hüquqi əməkdaşlıq çərçivəsində penitensiar sahədə də ikitərəfli münasibətlərin bünövrəsini qoymuşdur. Həmin ildə respublikada bu mötəbər qurumun iştirakı ilə penitensiar sistemin fəaliyyətinə həsr olunmuş iki beynəlxalq seminar keçirilmiş, Avropa Şurasının, ATƏT-in, digər beynəlxalq təşkilatların nümayəndələri dəfələrlə Azərbaycanın cəzaçəkmə müəssisələrində olmuş, məhkumların saxlanma rejimi, yaşayış şəraiti və penitensiar müəssisələrin fəaliyyəti ilə yaxından tanış olmuşlar. Azərbaycanın cəzaçəkmə yerlərində vəziyyət, aparılan islahatlar ümumən müsbət qiymətləndirilmişdir.

1997-ci ilin sentyabr ayından Azərbaycan Respublikası Avropa Şurasının keçmiş SSRİ respublikaları üçün həyata keçirdiyi “Həbsxanaların yaxınlaşması” layihəsinin fəal iştirakçılarındandır. Qeyd olunan ildə Avropa Şurasının nümayəndələri və müxtəlif ölkələrin penitensiar sistemlərinin əməkdaşları ölkəmizdə səfərdə olmuş, cəzaları icra edən müəssisə və orqanların rəhbərliyi ilə görüşlər keçirmiş və təcrübə mübadiləsi aparmışlar. 1998-ci ildə bu layihə çərçivəsində Azərbaycanın cəzaçəkmə müəssisələri-

nin nümayəndə heyətləri Böyük Britaniya və İtaliyada işgüzar səfərlərdə olmuş, bu ölkələrin penitensiar sistemləri ilə yaxından tanış olmuş, faydalı fikir və təcrübə mübadiləsi aparmışlar. Son iki ildə Azərbaycan Respublikasının penitensiar sisteminin əməkdaşları Avropa Şurasının Finlandiya, Fransa, Hollandiya, Polşa, Macarıstan və digər ölkələrdə təşkil etdiyi və cəzaların icrasına həsr olunmuş beynəlxalq konfranslarda, seminarlarda fəal iştirak etmişlər.

1997-1998-ci illərdə məhkumlarla davranışa həsr olunmuş beynəlxalq sənədlər, o cümlədən BMT-nin "Məhkumlarla davranışın minimal standartlar qaydaları", Avropa Şurasının "Avropa Penitensiar Qaydaları" azərbaycan dilinə tərcümə edilmiş və nəşr olunaraq bütün respublikada yayılmış, habelə cəzaçəkmə müəssisələrində məhkumların istifadəsinə verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 fevral tarixli "İnsan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində tədbirlər haqqında" Fərmanında və onun 18 iyun 1998-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramın"nda məhkumların saxlanma şəraitinin yaxşılaşdırılması və cəza çəkənlərin beynəlxalq tələblərə uyğun saxlanması üçün zəruri tədbirlərin görülməsi nəzərdə tutulmuşdur.

1999-cu il fevral ayının 11-də Azərbaycan Respublikasının Prezidenti H. Əliyev ölkənin penitensiar sistemində baş verən müsbət dəyişiklikləri inkişaf etdirmək məqsədi ilə "İslah-əmək müəssisələrində və istintaq təcridxanalarında qanunçuluğun möhkəmləndirilməsi, cəzaların icrası qaydalarının təmin edilməsi və hüquqi islahatların həyata keçirilməsinə dair tədbirlər haqqında" Fərman imzalamışdır. Bu sənəd Azərbaycanın penitensiar sistemində aparılan islahatların hüquqi bazasını daha da möhkəmləndirmiş və cəzaçəkmə yerlərinin fəaliyyətinin təkmilləşdirilməsi üçün əlverişli zəmin yaratmışdır. Həmin fərmanla Azərbaycan Respublikası Prezidentinin yanında Azərbaycan Respublikasının Baş Naziri başda olmaqla, dövlət komissiyası yaradılmışdır. Ko-

missiyaya islah-əmək müəssisələrində və istintaq təcridxanalarında qanunvericilik, təşkilati və digər məsələləri nəzərdə tutan Tədbirlər Proqramı hazırlamaq, cəzaçəkmə yerlərinin beynəlxalaq standartlara uyğun təşkili və fəaliyyətinin təmin edilməsi üçün onların maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir nəzarət, mühafizə, mühəndis-texniki qurğularla və digər xüsusi vasitələrlə təchiz olunması üçün zəruri tədbirlər görülməsi, penitensiar müəssisələrin əməkdaşlarının sosial müdafiəsinin yaxşılaşdırılması, onların əmək haqqının artırılması, cəzaçəkmə yerlərində məhkumların saxlanılması şəraitinin daha da humanistləşdirilməsi sahəsində həyata keçirilən tədbirləri fəal şəkildə davam etdirmək tapşırılmışdır. Dövlət komissiyası tərəfindən hazırlanmış müvafiq Tədbirlər Proqramı Nazirlər Kabinetinin 26 may 1999-cu il tarixli 92s saylı Sərəncamı ilə təsdiq olunmuşdur. Bu Proqrama uyğun olaraq aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

**I. Qanunvericilik sahəsində tədbirlər.**

1. Yeni İslah-Əmək (Cəza-İcra) Məcəlləsinin, cəzaları icra edən müəssisə və orqanların, penitensiar sistemdə çalışan əməkdaşların statusu haqqında qanun layihələrinin hazırlanması və qəbul edilməsi.

**II. Əməkdaşların sosial müdafiəsi və kadr hazırlığı üzrə tədbirlər.**

1. İslah-əmək müəssisələri üçün ixtisaslı kadrların hazırlanması işinin Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasında və Müdafiə Nazirliyinin Bakı Ali Birləşmiş Komandanlıq Məktəbində həyata keçirilməsi.

2. İslah-əmək müəssisələrinin əməkdaşlarının peşə hazırlığının və ixtisaslarının artırılması üçün yeni Təlim-Tədris Mərkəzinin yaradılması.

3. İslah-əmək müəssisələrinin əməkdaşlarının əmək haqqının artırılması və müəyyən kateqoriyalı müəssisələrdə işləyən işçi heyəti üçün əlavə ödənişlərin müəyyənləşdirilməsi.

5. İslah-əmək müəssisələrinin fərqlənən əməkdaşları üçün fəxri adların, mükafatların və döş nişanlarının təsis edilməsi barədə

təkliflərin hazırlanması.

6. İslah-əmək müəssisələrində əməkdaşların xidmət vaxtı psixoloji yüngülləşməsi və istirahəti üçün ayrıca otaqların təşkil edilməsi.

7. İslah-əmək müəssisələrinin işçi heyətinin fəaliyyətinin beynəlxalq normalara uyğun təşkili üçün əməkdaşların və məhkumların say nisbəti normativlərinin yenidən müəyyən edilməsi.

**III. Məhkumların hüquqlarının təmin olunmasına və onların sosial müdafiəsinə yönəlmiş tədbirlər.**

1. İslah-əmək müəssisələrində məhkumlar üçün beynəlxalaq normalara uyğun sosial, yaşayış-məişət şəraitinin yaradılması istiqamətində aparılan tədbirlərin fəal şəkildə davam etdirilməsi.

2. Həbsxanada ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxslərin saxlanma şəraitinin yaxşılaşdırılması üçün beynəlxalq tələblərə uyğun binaların inşası.

3. İslah-əmək müəssisələrində saxlanılan şəxslərin normal həyat fəaliyyətini təmin edən gündəlik qidalanma normalarının yaş, sağlamlıq vəziyyəti və əməyin xarakterindən asılı olaraq yenidən müəyyənləşdirilməsi.

4. Cəzaçəkmə müəssisələrində məhkumlara fərdi və kollektiv istifadə üçün verilən əşyaların və onlara ticarət köşkləri vasitəsi ilə satılan malların çeşidinin genişləndirilməsi, saxlanması qadağan olunan əşya və predmetlərin siyahısının minimuma endirilməsi.

5. İslah-əmək müəssisələrində saxlanılan şəxslərin şəxsi gigiyena ləvazimatları ilə pulsuz təmin edilməsinin yeni normalarının müəyyənləşdirilməsi.

6. İslah-əmək müəssisələrində hamilə, südəmizdirən və azyaşlı uşağı olan qadınlara özlərinin və körpələrinin sağlamlıqlarını qorumağa imkan verən şəraitin yaradılması.

7. Məhkumların telefon danışıqları hüququnun həyata keçirilməsi üçün bütün müəssisələrin müvafiq rabitə vasitələri ilə təmin olunması işinin başa çatdırılması.

8. Məhkumların asudə vaxtının səmərli təşkili, onların psixi,

habelə fiziki sağlamlıqlarının saxlanması, gündəlik məşğulliyətini təmin etmək üçün islah-əmək müəssisələrində müxtəlif əyləncə yerlərinin, idman meydançalarının və qurğularının, klubların, kitabxanaların və istirahət guşələrinin istifadəyə verilməsi.

9. İslah-əmək müəssisələrində fəaliyyət göstərən tibb xidmətlərinin müasir diaqnostika və digər tibbi avadanlıqla, dərman preparatları ilə təmin edilməsi.

10. İslah-əmək müəssisələrində saxlanılan şəxslərin vicdan və dini etiqad azadlığının tam təmin edilməsi üçün müvafiq şəraitin yaradılması.

11. İslah-əmək müəssisələrində məhkumların sağlamlıqlarına nəzarət və şəxsiyyətlərini öyrənmək məqsədilə psixiatr və psixoloq xidmətlərinin təşkil edilməsi.

**IV. İslah-əmək müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi üçün nəzərdə tutulmuş təşkilati və digər tədbirlər.**

1. İslah-əmək müəssisələrinin beynəlxalq tələblərə uyğun yenidən qurulması üçün bu müəssisələrin yaşayış sahələrinin ərazisinin istehsalat sahələrinin hesabına genişləndirilməsi üçün müvafiq tədbirlərin görülməsi.

2. İslah-əmək müəssisələrinin normal fəaliyyəti üçün onların fasiləsiz enerji ehtiyatları ilə təmin edilməsi.

3. İslah-əmək müəssisələrinin müasir tipli mühafizə qurğuları, əməkdaşların qoruyucu və müdafiə vasitələri ilə təmin edilməsi.

4. İslah-əmək müəssisələrində saxlanılan şəxslər haqqında məlumatların operartiv qaydada cəmləşdirilməsi və ötürülməsi üçün mərkəzləşdirilmiş kompüter şəbəkəsinin yaradılması.

5. Respublikada penitensiar fəaliyyətə həsr olunmuş yeni ictimai-siyasi, elmi-təcrübi jurnalın təsis edilməsi.

6. Məhkumların verilməsi (ekstradasiya) haqqında Avropa Konvensiyasına, bu sahədə olan digər beynəlxalq sazişlərə Azərbaycan Respublikasının qoşulması və Azərbaycan Respublikası ilə digər dövlətlər arasında məhkumların verilməsi barədə ikitərəfli müqavilələrin bağlanması.

Penitensiar sistemin yaxın gələcəkdə yenidən və əsaslı şəkildə

təşkilini, onun beynəlxalq normalara və qabaqcıl dünya təcrübəsinə uyğunlaşdırılmasına təmin etmək məqsədi ilə Ədliyyə Nazirliyi tərəfindən hazırlanmış və icrası 1999-2014-cü illərdə nəzərdə tutulmuş "Azərbaycan Respublikasının penitensiar sisteminin islahatına dair" Dövlət Proqramının layihəsi baxılması və qəbul edilməsi üçün 1999-cu ilin fevral ayında Nazirlər Kabinetinə təqdim edilmişdir. Proqramda Azərbaycanda penitensiar sistemin yenidən qurulmasının əsas istiqamətləri müəyyənləşdirilmişdir. Onlar aşağıdakılardır:

- bütün cinayət cəzalarının icrası ilə məşğul olan vahid penitensiar sistemin yaradılması. Bu məqsədlə istintaq təcridxanalarının Daxili İşlər Nazirliyinin tabeçiliyindən çıxarılaraq, Ədliyyə Nazirliyinin tabeçiliyinə verilməsi;
- cəza çəkən şəxslərin yaşayış yerlərinə yaxın olması və həmçinin, onların ailələrinin, digər yaxın qohumlarının maraqlarını təmin etmək məqsədilə Azərbaycan Respublikasının müxtəlif regionlarında yeni penitensiar müəssisələrin inşa edilməsi;
- penitensiar sistemin işçi heyətinin statusunun və onların sosial-hüquqi müdafiəsinin müəyyən edilməsi;
- məhkumların sosial-hüquqi müdafiəsinin tam təmin olunması və onların hüquq və imtiyazlar dairəsinin daha da genişləndirilməsi, lüzumsuz qadağanların ləğv edilməsi;
- islah-əmək müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi;
- cəzanın çəkilməsi rejiminin və islah işinin müasir dövrün tələblərinə uyğun olmaqla yenidən qurulması;
- məhkumların faydalı əməyə cəlb olunması işinin yenidən təşkili;
- yetkinlik yaşına çatmayanların və qadın məhkumların cəzasının çəkilməsi qayda və şərtlərinin daha da humanistləşdirilməsi;
- istintaq təcridxanalarının işinin təkmilləşdirilməsi;
- məhkumların tibbi təminatınln müasir dövrün tələblərinə uyğun təşkil edilməsi;
- penitensiar sistemin və onun fəaliyyətinin yenidən qurulması-

nın hüquqi bazasının yaradılması;

- penitensiar hüquq elminin inkişaf etdirilməsi.

Yuxarıda göstərilən sənədlərdə nəzərdə tutulmuş tədbirlərin müvəffəqiyyətlə həyata keçirilməsi sözsüz ki, Azərbaycan Respublikasında beynəlxalq normaların tələblərinə cavab verən, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsini təmin edən, müasir və müstəqil penitensiar sistemin təşkil olunmasına əlverişli zəmin yaradacaqdır.

***İstinad edilmiş mənbə:***

***Cəza və onun icrası. Bakı, "Hüquq ədəbiyyatı" nəşriyyatı, 1999. Səh. 196–205.***

## 2000–2015-ci illərdə Azərbaycan Respublikasında penitensiar sistemin islahatının nəticələri və onun gələcək perspektivləri

Son on beş il ərzində (2000-2015-ci illər) Azərbaycan Respublikasının penitensiar sistemində (buraya istintaq təcridxanaları, cəzaçəkmə müəssisələri və onların fəaliyyətinin təminatı ilə bağlı sahələr daxildir) dövlət tərəfindən görülmüş kompleks qanunvericilik, təşkilatı və digər tədbirlər nəticəsində köklü və keyfiyyətli dəyişikliklər baş vermişdir. Fikrimizcə, onların əsasları aşağıdakılardır:

**1. Penitensiar sistemin fəaliyyətinin tənzimləyən məhbuslarla davranışa həsr olunmuş beynəlxalq normalara cavab verən müasir, mütərəqqi qanunvericilik bazası formalaşdırılmışdır.**

Yeni Cəzaların İcrası Məcəlləsi (14.07.2000-ci il), "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Qanun (26.05.2006-cı il), "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Qanun (31.05.2007-ci il), "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Qanun (22.05.2012-ci il), Nazirlər Kabinetinin iyirmidən çox qərar və sərəncamı, Ədliyyə Nazirliyinin qırxdan çox aidiyyəti normativ aktları qəbul olunmuşdur. Habelə, Azərbaycan Respublikasının Ədliyyə nazirinin 25 iyun 2008-ci il tarixli əmri ilə Penitensiar Xidmətin Əsasnaməsi təsdiq edilmişdir.

**2. İki Dovlət Proqramı:**

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26 may 1999-cu il tarixli 92s nömrəli Sərəncamı ilə təsdiq edilmiş "İslah-əmək müəssisələrində və istintaq təcridxanalarında qanunvericilik, təşkilati və digər məsələləri nəzərdə tutan Tədbirlər Proqramı";

- Azərbaycan Respublikası Prezidentinin 06 fevral 2009-cu il tarixli 132 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan ədliyyəsinin inkişafina dair 2009-2013-cü illər üçün Dövlət Proqra-

mı” uğurla həyata keçirilmişdir:

Nəticədə sistemin strukturu təkmilləşdirilmiş, penitensiar müəssisələrin fəaliyyəti nəzərəçarpacaq dərəcədə yaxşılaşdırılmış, həbs edilmiş şəxslərin və məhkumların hüquqi statusunun dairəsi genişləndirilmiş, onların hüquq və azadlıqlarının təminat etibarlığı artmış, psixoloji xidmət təşkil edilmiş, müasir elektron-informasiya texnologiyalarının tətbiqinə başlanılmış, işçi heyətinin sosial müdafiəsi gücləndirilmiş, kadrların hazırlanması və onları peşə hazırlığı sistemi yaxşılaşdırılmış, ictimaiyyətə məhkumların islahında iştiraka geniş imkanlar verilmiş, penitensiar müəssisələrin fəaliyyətinə ictimai nəzarət məqsədilə şəffaf və işlək mexanizm yaradılmış, beynəlxalq əlaqələr möhkəmləndirilmiş, xarici ölkələrin müsbət təcrübəsinin tətbiqinə başlanmışdır.

**3. Saxlanma şəraitinin, müvafiq infrastrukturun, habelə həbs edilmiş şəxslərin və məhkumların maddi-məişət təminatının yaxşılaşdırılması ilə əlaqədar kompleks tədbirlər görülmüşdür.**

2008-2012-ci illərdə Naxçıvan, Şəki şəhərlərində yeni, müasir penitensiar komplekslər, Bakı şəhərində isə istintaq təcridxanası istifadəyə verilmişdir. Fəaliyyət göstərən istintaq təcridxalarında və cəzaçəkmə müəssisələrində məhkum və həbs edilmiş şəxslərin maddi-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə təmir-tikinti, yenidənqurma işləri aparılmışdır. Məhkumların və həbs edilmiş şəxslərin yemək normaları xeyli yaxşılaşdırılmış, məhkumların əmək haqqlarından və digər qazancından onlara verilən yeməyə və xüsusi paltara görə tutulmalar ləğv edilmişdir.

**4. Maddi-texniki təminat bazası kifayət qədər möhkəmləndirilmiş, təhlükəsizlik, mühafizə, məhkum və həbs edilmiş şəxslərin müşayiəti sistemi təkmilləşdirilmişdir.**

Müəssisələrin, rejim obyektlərinin, mühafizə sisteminin təhlükəsizliyinin təmin edilməsi fəaliyyəti müasir innovativ texnologiyaların, texniki vasitə və avadanlıqların, o cümlədən videomüşahidənin tətbiqi ilə təkmilləşdirilmişdir.

Xüsusi kontingentin az yerli, təbii işıqlanma və havalandıma

sistemləri ilə təmin olunmuş xüsusi avtomibillərlə daşınmasına, habelə təhlükəsizlik baxımından həmin maşınların silahlı müşayətinə başlanmışdır.

**5. İctimai əməyə cəlb olunmuş məhkumların sayının artırılmasına yönəlmiş tədbirlər görülmüşdür.**

Müvafiq dövrdə yeni istehsal sahələrinin istifadəyə verilməsi, habelə fərdi əməyin həvəsləndirilməsi və bunun üçün zəruri şəraitin təşkili sayəsində işləyən məhkumların sayı 6,3 dəfəyədək artmışdır.

**6. Sağlamlığın qorunması və tibbi təminat nəzərəçarpacaq dərəcədə yaxsılaşdırılmışdır.**

Görülmüş tədbirlər və Beynəlxalq Qırmızı Xaç Komitəsi ilə əməkdaşlıq nəticəsində son o beş il ərzində penitensiar müəssisələrdə ümumi ölüm halları 2,7 dəfə, vərəmdən ölüm halları 18 dəfə azalmışdır. Azərbaycanın penitensiar sistemində vərəmlə mübarizə və ona nəzarətin təşkili işi İslah müəssisələri və həbsxanalarının beynəlxalq assosasiyaları (ICPA) tərəfindən ən yaxşılardan biri hesab edilməklə, nazirliyin səhiyyə xidməti 2013-cü ildə sözügedən təşkilatın mükafatına layiq görülmuş və digər ölkələrə müsbət təcrübə qismində tövsiyə edilmişdir.

7. **Büdcədən penitensiar sistemin fəaliyyətinin təmin edilməsinə yönəlmiş maliyyə vəsaitləri artırılmışdır.**

Son on beş ildə penitensiar sistemin maliyyələşdirilməsi ilbə-il artırılmış və nəticədə müvafiq olaraq 10 dəfədən çox olmuşdur. Belə ki, əgər 2000-ci ildə Penitensiar Xidmətə büdcədən 8,3 milyon manat ayrılmışdırsa, 2005-ci ildə bu rəqəm 16,9 milyon, 2010-cu ildə 73,8 milyon, 2015-ci ildə isə artıq 85,3 milyon manat olmuşdur.

Azərbaycan Respublikasında həbs edilmiş şəxslərin və məhkumların hüquqlarının, azadlıqlarının və qanuni manefelərinin təmin olunmasına cavab verən müasir, sivil penitensiar sistemin yaradılması və qeyd olunan şəxslərin sayının azaldılması ilə bağlı məqsədlərə nail olunması ilə əlaqədar təklif edirik:

- ölkənin regionlarında yeni penitensiar komplekslərin (qarışıq

rejimli müəssisələrinin) inşasını və onların istismara verilməsi ilə əlaqədar işləri davam etdirmək;

- azadlıqdan məhrum etmə cəzasının mərhələlərlə həbsxana modelinə uyğun icrasına keçmək;
- penitensiar müəssisələrin təşkilati strukturunu və idarə olunması formalarını təkmilləşdirmək;
- dünyada baş vermiş son hadisələr və məhkumların tərkibində dəyişikliklər nəzərə alınmaqla, azadlıqdan məhrum edilmiş şəxslərə daha səmərəli təsir üsullarını müəyyənləşdirmək, islah prosesində sosial xidmətlərin imkanlarından geniş istifadə etmək, sosial işçilər institutunu tətbiq etmək;
- penitensiar müəssisələrdə təhlükəsizliyin təmin olunması nəzərə alınmaqla, həbsdə saxlanma və cəzanın çəkilməsi şərtlərinin humanistləşdirilməsini davam etdirmək;
- qanunvericiliyə azadlıqdan məhrum etmə ilə bağlı olmayan prosessual qətimkan tədbirlərindən geniş istifadəyə imkan verən norma və mexanizmlər əlavə etmək;
- məhkumlarda əməyə marağın artmasına, habelə təşkilatların və ayrı-ayrı şəxslərin penitensiar müəssisələrdə istehsal prosesində iştiraka həvəsləndirilməsi ilə bağlı yeni model işləyib hazırlamaq və onu qəbul etmək;
- həbs edilmiş şəxslərlə və məhkumlarla bilavasitə işləyən əməkdaşların xidməti yükünü optimallaşdırmaq;
- penitensiar sistemdə xidmət etmənin nüfuzunun artırılmasına yönəlmiş tədbirləri davam etdirmək, əməkdaşlara yeni hüquqlar vermək, onlar üçün əlavə imtiyaz və güzəştlər nəzərdə tutmaq;
- probasiya xidmətini yaratmaq, onun tərkibində məhkəməyədək probasiyanı də nəzərdə tutmaq;
- zərurət yarandıqca müvafiq qanunvericilik aktlarına dəyişikliklər etmək, Cəzaların İcrası Məcəlləsinin yeni redaksiyasını və ya layihəsini hazırlamaq;
- müsbət təcrübəni nəzərə almaqla, Cinayət Məcəlləsinin humanistləşdirilməsini davam etdirmək məqsədilə burada həvəsləndirici normaları genişləndirmək, ona cinayət məsuliyyətindən və

cəzadan azad etmə ilə bağlı yeni institutlar əlavə etmək, şərti məhkum etmə və cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə institutlarının tətbiqi şərtlərini təkmilləşdirmək;

- penitensiar müəssisələrin səlahiyyətlərinin artırılması, onlara cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə və cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi ilə bağlı hüquqların verilməsi imkanlarını nəzərdən keçirmək;

- cəza-icra hüququnun inkişafını həvəsləndirmək, alimlərin səylərini yuxarıda göstərilən məqsədlərə nail olunmasının elmi müşayiətinə yönəltmək.

Yuxarıda göstərilən tədbirlərin həyata keçirilməsi heç də az olmayan maliyyə vəsaiti tələb edir, lakin əminik ki, Azərbaycan Respublikası iqtisadiyyatda müvahidə edilən böhran amillərinə, habelə ölkənin qanuni ərazisinin bir hissəsinin işğalı ilə bağlı böyük sayda qaçqınların təminatına yönəlmiş xərclərə baxmayaraq, ölkə Konstitusiyasının 12-ci maddəsində göstərilmiş alı məqsədin yerinə yetirilməsi, yəni öz vətəndaşları, o cümlədən azadlıqdan məhrum etmə yerlərində cəza çəkən şəxslər üçün layiqli həyat şəraitinin yaradılması üçün lazım olan hər bir tədbiri görəcəkdir.

***İstinad edilmiş mənbə:***

***"Cəza-icra hüququ" elmi jurnal (rus dilində). Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası, Ryazan, 2016. № 4, Səh. 5–7.***

## Azərbaycan Respublikasının cəza-icra sistemində 2016–2022-ci illərdə islahatların davam etdirilməsi, onların gələcək perspektivləri

Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra bir sıra dövlət idarəçiliyi sahələrində, o cümlədən cəza-icra sistemində islahatlar aparmağa başlamışdır. Ölkənin penitensiar sistemində, məhkəmə qərarlarının icrası sisteminin yenidən təşkili və 1993-ci lin yanvar ayında cəzaların icrasının Ədliyyə nazirliyinə həvalə edilməsi daxil olmaqla, kompleks qanunvericilik, təşkilati, struktur, kadr, texniki və digər tədbirlər, habelə onların nəticələri barədə əvvəllər tərəfimizdən məlumat verilmişdir. İndi isə, 2016–2022-ci illərdə həyata keçirilmiş, fikrimizcə, kifayət qədər diqqəti cəlb edən və maraq doğuran tədbirlərə toxunmaq istərdik.

İlk növbədə, müvafiq dövrdə ölkənin cinayət qanunvericiliyi xeyli humanistləşdirilmiş, cəza-icra fəaliyyətinin hüquqi bazası təkmilləşdirilmiş və möhkəmləndirilmişdir. Belə ki, cəza-icra sisteminin fəaliyyətinin modernləşdirilməsinin davam etdirilməsi, onun infrastrukturunun yeniləşdirilməsi və idarəetmə mexanizminin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti 10 fevral 2017-ci il tarixli "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncam imzalamışdır. Cəzaların tətbiqi sahəsində cinayət siyasətinin humanistləşdirilməsindən əlavə, həmin sərəncamın əsas hədəfləri, cəza-icra sistemində institusional tədbirlərin davam etdirilməsi, cəzaları icra edən orqan və müəssisələrin fəaliyyətinin təkmilləşdirilməsi, onların maddi-texniki bazasının gücləndirilməsi, cəzaların icrası prosesində müasir texnoloji vasitələrin tətbiq edilməsi, sözügedən sahədə korrupsiyanı istisna edən şəraitin tam təmin edilməsi olmuşdur. 2018-ci ilin dekabrında Azərbaycan ədliyyəsinin 2019-2023-cü illərdə inkişafı ilə bağlı yeni Dövlət proqramı qəbul edilmişdir. Bu vacib sənədin əsas isti-

qamətlərindən biri kimi cəza-icra sisteminin təkmilləşdirilməsinin davam etdirilməsi, məhkumların islahı ilə bağlı fəaliyyətin səmərəliyinin artırılması müəyyən edilmişdir.

Araşdırılan dövrdə ölkənin Milli Məclisi tərəfindən cəzaların icrası ilə bağlı münasibətləri tənzimləyən qanunvericilik aktlarına xeyli dəyişikliklər edilmişdir. Belə ki, ölkənin Cəzaların İcrası Məcəlləsinə (bundan sonra AR CİM) 19 müxtəlif dəyişiklik edilmiş, bir yeni bölmə və üç fəsil əlavə olunmuşdur. Əsas dəyişikliklər hüquqi şəxslərə tətbiq edilən cinayət-hüquqi tədbirlərin, habelə həmin xarakterli xüsusi müsadirənin icrası qaydalarının müəyyən edilməsi ilə bağlı olmuşdur. Bundan sonra ölkənin Cinayət Məcəlləsinə (bundan sonra AR CM) yenidən, lakin fərqli məzmunda daxil edilən azadlığın məhdudlaşdırılması növündə cəzanın icrası qaydası müəyyən edilmiş, probasiya nəzarətinin anlayışı verilmiş, onun tətbiq ediləcəyi şəxslərin dairəsi, elektron nəzarət vasitələrinin istifadəsi xüsusiyyətlərinə aydınlıq gətirilmişdir.

İctimai işlər növündə cəzanın icrası qaydası təkmilləşdirilmiş, cəzaçəkmə müəssisələrində və intizam xarakterli hərbi hissədə cəza çəkən məhkumlara videogörüş hüququ verilmişdir. Eyni zamanda, Ədliyyə nazirliyinin yeni strukturu–Probasiya Xidmətinin fəaliyyətinin təşkili, yəni rəhbərliyin səlahiyyətləri, əməkdaşların hüquq və vəzifələri, onların sosial müdafiəsi və maliyyələşdirmə qaydası ilə bağlı Azərbaycan Respublikasının "İcra məmurları haqqında" Qanununa dəyişikliklər edilmişdir. Müvafiq illərdə cəzaların icrası ilə bağlı AR CM, İnzibati Xətalar məcəlləsi və digər qanunvericilik aktları da müxtəlif dəyişikliklərə məruz qalmışdır.

Nəzərdən keçirilən illərdə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən cəza cəzalarının icrası prosesi və cəza çəkən şəxslərlə əlaqədar on müxtəlif qərar qəbul edilmişdir. Həmin normativ aktlarla ictimai işlərin növləri və onların keçiriləcəyi yerlərinin müəyyən edilməsi qaydaları, məhkumların peşə təhsilinin təşkili üzrə dövlət standartları, cəzaçəkmə müəssisələrinin nəzdindəki peşə təhsili müəssisələrinin Nümunəvi Nizamnaməsi təsdiq edilmişdir. Həbs edilmiş şəxslərə və məhkumlara tətbiq

edilən elektron nəzarət vasitələrinin siyahısı və onlardan istifadə edilməsi xüsusiyyətləri, cərimə və islah işləri növlərində cəzaların, habelə hüquqi şəxslərə tətbiq edilən cərimə növündə cinayət-hüquqi tədbirlərin icrası ilə əlaqədar Ədliyyə nazirliyinin sərəncamına daxil olan maliyyə vəsaitindən istifadə qaydası ilə bağlı məsələlər də özünün hüquqi tənzimini tapmışdır. Eyni zamanda, azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzalara məhkum edilməklə yanaşı, alkoqolizm və ya narkomaniyadan müalicə məqsədilə barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş, habelə inzibati həbs nəzərdə tutan inzibati xəta törətmiş, narkomaniyadan müalicəyə ehtiyacı olan şəxslərin ixtisaslaşdırılmış tibb müəssisəsində məcburi müalicəsi barədə məhkəmə qərarının tələblərinin yerinə yetirilməsinə icra məmuru tərəfindən nəzarət edilməsi ilə bağlı qaydalar müəyyən edilmiş, habelə cəzaçəkmə müəssisələrindən azad edilmiş şəxslər üçün nəzərdə tutulmuş Sosial adaptasiya mərkəzinin təşkili və fəaliyyəti ilə bağlı məsələlər hüquqi cəhətdən həll olunmuşdur. Öz növbəsində, Ədliyyə nazirliyinin Kollegiyası tərəfindən ictimai işlər, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, islah işləri, azadlığın məhdudlaşdırılması növündə cəzaların icrası, şərti məhkum edilmiş, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş, cəzasının çəkilməsi təxirə salınmış şəxslər üzərində probasiya nəzarətinin həyata keçirilməsi ilə əlaqədar qarşıya çıxan məsələlərin həllinin konkretləşdirilməsinə yönəlmiş yeni mexanizmlər təsdiq edilmişdir. Eyni zamanda, cəzaçəkmə müəssisələrində tərbiyə və psixoloji işin, əməliyyat-axtarış fəaliyətinin təşkili üzrə, penitensiar sistemində təhlükəsizlik tədbirləri və onların tətbiq edilmə qaydaları, Azərbaycan Respublikasına digər dövlətlərdən cəzanın çəkilməsi üçün məhkumların qəbulu qaydası və azadlıqdan məhrum etmə yerlərində fövqəladə hallarda görulməli tədbirlərlə əlaqədar ilə bağlı yeni normativ aktlar qəbul edilmişdir. Habelə, ölkənin Nazirlər Kabineti ilə razılaşdırılmaqla, Əmək və əhalinin sosial müdafiə nazirliyinin kollegiyası Sosial adaptasiya mərkəzinin Nizamnaməsini, müdafiə nazirliyi tərəfindən isə,

İntizam xarakterli hərbi hissənin yeni Əsasnaməsi təsdiq edilmişdir. Qeyd edilməlidir ki, ölkənin müxtəlif qanunvericilik aktlarında baş vermiş yeniliklərə uyğun olaraq müvafiq normativ aktlara, o cümlədən həbs yerlərinin və cəzaçəkmə müəssisələrinin Daxili intizam qaydalarına müvafiq dəyişikliklər edilmişdir.

İkincisi, cəza-icra sistemində struktur dəyişiklikləri baş vermişdir. Ölkə başçısının 10 fevral 2017-ci il tarixli Sərəncamına uyğun olaraq cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan cəzaların icrasına effektiv nəzarətin təşkil edilməsi və bu sahədə idarəetmənin səmərəliliyinin artırılması məqsədilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin nəzdində Probasiya xidməti yaradılmış və bu yeni təsisat 1 dekabr 2017-ci il tarixdən müstəqil fəaliyyətə başlamışdır. Ötən müddət ərzində yeni xidmətin əsasnaməsi, strukturu, ştat cədvəli təsdiq edilmiş, ölkənin səhər və rayonlarında icra xidməti birlikdə fəaliyyət göstərən şöbələr, Sumqayıt və Gəncə şəhərlərində probasiya üzrə müstəqil şöbələr, Bakı şəhərində isə, probasiya idarəsi yaradılmışdır. Probasiya xidmətinin strukturu təkmilləşdirilmiş, maddi-texniki bazası və kadr potensialı yaxılaşdırılmış, probasiya nəzarəti uğurla həyata keçirilməyə başlamış, əməkdaşların peşəkarlıq səviyyəsi artmış, maddi təminatı və sosial müdafiəsi gücləndirilmişdir. Beş illik fəaliyyət dövründə Probasiya xidmətinin yerli qurumları tərəfindən 45 mindən çox məhkum qeydiyyata alınmışdır.

Üçüncüsü, 2018-ci ilin aprelindən qətimkan tədbirinin və cəzaların icrası zamanı, habelə probasiya nəzarətinin həyata keçirilməsi prosesində elektron nəzarət vasitələrindən istifadəyə və elektron monitorinqin həyata keçirilməsinə başlanılmışdır. Qanunvericiliyə əsasən, elektron nəzarət vasitələri ictimai işlər və azadlığın məhdudlaşdırılması növündə cəzalara məhkum edilmiş, habelə şərti məhkum edilmiş, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxslərə tətbiq olunmuşdur. Elektron nəzarət vasitələri, habelə barəsində ev dustaqlığı növündə qətimkan tədbiri təyin edilmiş şəxslərə də tətbiq edilmişdir. 2018–2022-ci illərdə elektron nəzarət vasitələri umumən 15 mindən artıq ev dustaqlığı təyin

olunmuş şəxslərə və aidiyyəti məhkumlara tətbiq olunmuşdur.

Cəza-icra sisteminin infrastrukturunun təkmilləşdirilməsi, həbs edilmiş şəxslərin və məhkumların saxlanma şəraitinin yaxsılaşdırılması ilə bağlı tədbirlər davam etdirilmişdir. Azadlıqdan məhrum etmə yerlərində təmir-nikinti işləri aparılmış, müasir avadanlıqlar quraşdırılmış, müəssisələrdə sanitar-gigiyenik vəziyyət, yeməyin keyfiyyəti yaxşılaşdırılmış, məhkumların dini etiqad azadlığının təmin edilməsi, onların asudə vaxtlarının və istirahətlərinin həyata keçirilməsi məqsədilə əlavə imkanlar yaradılmışdır. 2022-ci ilin aprelində Bakı şəhərində qadın və yetkinlik yaşına çatmayan məhkumlar üçün nəzərdə tutulmuş müasir penitensiar kompleks, yəni qarışıq rejimli yeni cəzaçəkmə müəssisəsi istifadəyə verilmişdir.

Cəza-icra sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı tədbirlər görülmüş, təhlükəsizlik və mühafizə sistemləri təkmilləşdirilmişdir.

Beynəlxalq standartlar nəzərə alınmaqla, "Cəza çəkən məhkumlar və həbs edilmiş şəxslər" informasiya sisteminin təşkili ilə bağlı işlər yekunlaşma mərhələsindədir. Həmin sistem Penitensiar və Probasiya xidmətlərinin fəaliyyətinin daha səmərəli təşklili ilə yanaşı, onlar, habelə digər orqan və təşkilatlar arasında real vaxt rejimində qarşılıqlı məlumat mübadiləsini təmin edəcək və məhkumların şəxsi işlərinin elektron formatda aparılmasına imkanlar yaradacaqdır.

Cəzaçəkmə müəssisələrində yeni iş yerləri yaratmaqla məhkumların ictimai faydalı əməyə cəlb edilməsi və bu sahəyə sahibkarların cəlb edilməsi ilə bağlı tədbirlər görülmüşdür. Müsəssisələrdə iş adamlarının iştirakı ilə yeni kiçik istehsal sahələri yaradılmış, məhkumların fərdi əməklə məşgul olması geniş şəkildə təşviq edilmiş və bu məqsədlə zəruri imkanlar təqdim olunmuşdur. Cəzaçəkmə müəssisələrində istehsal edilən malların, habelə məhkumların əl işlərinin reklamı və onlayn qaydada satışının təşkili məqsədilə Ədliyyə Nazirliyinin rəsmi saytında "Həbsxana incəsənəti" adlı xüsusi bölmə yaradılmışdır.

Həbs yerlərində saxlanılan şəxslərin və məhkumların sağlamlıqlarının qorunması və onlara göstərilən tibbi xidmətin keyfiyyətinin artırılması ilə bağlı fəaliyyət gücləndirilmişdir. Profilaktik tədbirlərlə xəstəliklərin, o cümlədən vərəmlə, AİDS və digər infeksion xəstəliklərlə mübarizə işində müsbət nəticələr əldə olunmuşdur. Ümumdünya Səhiyyə Təşkilatinin tövsiyələrinin, hökumətin təsdiq etdiyi ölkə üzrə COVİD-19-la mübarizə uzrə planda nəzərdə tutulmuş tədbirlərin, koronavirus infeksiyası ilə mübarizə ilə əlaqədar Nazirlər Kabinetinin nəzdində fəaliyyət göstərən Əməliyyat qərargahının tələblərinin uğurla yerinə yetirilməsi, vaxtında həyata keçirilmiş kompleks profilaktik, sanitariya-gigiyenik, karantin, rejim, maarifləndirmə, məlumat və digər preventiv xarakterli tədbirlər, habelə işçı heyəti, həbs edilmiş şəxslər, cəzaçəkmə müəssisələrində məhkumlar arasında operativ qaydada peyvəndlənmə işinin aparılması sayəsində sanitar-epidemioloji vəziyyətə etibarlı şəkildə nəzarət edilmişdir. Nəticədə cəza-icra sisteminin müəssisələrində təhlükəli infeksiyanın geniş yayılmasının və mümkün mənfi fəsadlarının qarşısı alınmışdır.

Azadlıqdan məhrum etmə yerlərində vərəmlə mübarizədə və bu xəstəliyin səmərəli müalicəsi ilə əldə olunmuş müsbət təcrübə ilə tanış olmaq və təcrübə mübadiləsi aparmaq məqsədilə bir necə dövlətin nümayəndələri Azərbaycan Respublikasına səfərlər etmişlər. Qeyd olunan sahədə müsbət təcrübənin yayılması məqsədilə Ümumdünya Səhiyyə Təşkilati tərəfindən digər dövlətlərin cəza-icra sistemlərinin tibb işçilərinin təhsili üçün Ədliyyə Nazirliyinin vərəmin müalicəsi uzrə xüsusiləşdirilmiş müalicə müəssisəsinin yanında sertifikatlaşdırılmış treninq mərkəzi təşkil edilmişdir.

Cəza-icra sisteminin işçi heyətinin sosial müdafiəsi və maddi rifahı yaxşılaşdırılmışdır. 2018–2022-ci illərdə istər Penitensiar xidmətin, istərsə Probasiya xidmətinin işçi heyətinin ayliq vəzifə maaşları üç dəfə artırılmışdır. Qanunvericilikdəki dəyişikliyə uyğun olaraq 2021-ci ildən başlayaraq Probasiya xidmətinin işçilərinə cərimə və islah işləri növlərində cəzaların, habelə hüquqi şəxs-

lərə tətbiq edilən cərimə növündə cinayət-hüquqi tədbirlərin icrası ilə əlaqədar Ədliyyə nazirliyinin sərəncamına daxil olan maliyyə vəsaitindən yeni əlavə ödənişlərin verilməsinə başlanılmışdır.

Cəza-icra sisteminin işçi heyəti arasında əmək və xidməti intizamın möhkəmləndirilməsi, hüquq pozuntularının, sui-istifadələrin, habelə korrupsiya hallarının profilaktikası məqsədilə tədbirlər davam etdirilmişdir.

Təhlil edilən müddət ərzində ölkənin hökuməti tərəfindən cəza-icra sisteminin saxlanmasına dövlət büdcəsindən ayrılan maliyyə vəsaiti ilbə-il artmış, bu da öz növbəsində planlaşdırılmış tədbirlərin uğurla həyata keçirilməsinə əlverişli zəmin yaratmışdır. Belə ki, əgər 2016-cı ildə ölkənin Penitensiar xidmətinin fəaliyyəti üçün 78,6 milyon manat ayrılmışdısa, 2019-cu ildə (Probasiya xidməti üçün ayrılmış vəsait nəzərə alınmadan) həmin məbləğ müvafiq illə müqayisədə 34,7 % artaraq, 105,8 milyon manat təşkil etmişdir. 2022-ci ildə büdcədən ayırmalar 136,4 milyon manat təşkil etmişdir ki, bu da 2016 və 2019-cu illərlə müqayisədə müvafiq olaraq 74 % və 29 % çox olmuşdur. Həmin tendensiya 2022-ci ildə davam etmiş, ölkənin dövlət büdcəsində (Probasiya xidməti üçün ayrılan maliyyə nəzərə alınmadan), 143,8 milyon manat nəzərdə tutulmuşdur. Sözügeden illərdə Probasiya xidməti üçün ayrılan maliyyə vəsaiti də hər il artırılmışdır.

Məhkumlara humanist münasibət üzrə dövlət siyasəti uğurla davam etdirilmiş, müntəzəm olaraq əfv və amnistiya aktları qəbul edilmişdir ki, bu da öz növbəsində azadlıqdan məhrum etmə yerlərində və probasiya qeydiyyatında olan məhkumların sayının azalmasına zəmin yaratmışdır. Belə ki, 2016 və 2021-ci illərdə Milli Məclis tərəfindən qəbul edilmiş iki amnistiya haqqında qərarı ümumilikdə 28 mindən çox şəxsə tətbiq edilmiş, cəzaçəkmə müəssisələrindən 5600-dən artıq məhkum azad edilmişdir. 2016–2022-ci illərdə Azərbaycan Respublikasının Prezidenti əfvetmə ilə əlaqədar 2651 məhkumu əhatə edən səkkiz sərəncam imzalamış, onların böyük hissəsi azadlıqdan məhrum etmə növündə cəzanı çəkməkdən azad edilmişdir.

Azadlıqdan məhrum etmə yerlərindən azad edilmiş məhkumların sosial adaptasiyası ilə bağlı qanunvericiliyin müddəalarnın icrası ilə də bağlı zəruri tədbirlər görülmüşdür. 2020-ci ildə Əmək və əhalinin sosial müdafiəsi nazirliyinin Sosial xidmətlər agentliyinin nəzdində cəzaçəkmə müəssisələrindən azad edilmiş məhkumlar üçün yeni Sosial adaptasiya mərkəzi istifadəyə verilmişdir.

Cəza-icra sisteminin fəaliyyətində şəffaflığının təmin edilməsi, cəzaçəkmə müəssisələrinin fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsi, ictimaiyyətin məhkumların, xüsusilə qadın və yetkinlik yaşına çatmayan məhkumların islahında iştirakı diqqətdə saxlanlmışdır. Kütləvi-informasiya vasitələrinin, sosial şəbəkə səhifələrinin, rəsmi saytların, o cümlədən Ədliyyə nazirliyinin Facebook səhifəsi, habelə brifinqlər, dairəvi masalar, mətbuat konfransları, ictimai müzakirələr vasitəsi ilə ölkə əhalisinin cəzaların icrası ilə bağlı vəziyyət, bu sahədə yeni və mühüm dəyişikliklər barədə daim məlumatlandırılması aparılmışdır. 2006-cı ildə Ədliyyə naziri yanında tanınmış hüquq müdafiəçilərindən və insan hüquqlarının müdafiəsi sahəsində ixtisaslaşmış ictimai təşkilatların nümayəndələrindən ibarət olaraq təşkil edilmiş İctimai Komitə zəruri səlahiyyətlərə malik olmaqla, cəzaçəkmə müəssisələrinin fəaliyyətinə nəzarət, müəssisələrdəki vəziyyətdə yerində tanış olmaq ilə bağlı hüquqlarından istifadə üzrə başçəkmələrini davam etdirmişdir. Komitə məxfiliyi gözləməklə məhkumlarla, habelə COVİD-19-la bağlı pandemiya dövründə onlayn formatda görüşlər keçirmişdir. Keçirilmiş tədbirlərin nəticələri barədə, təkliflər daxil olmaqla, Ədliyyə nazirinə hesabatlar təqdim edilmişdir.

Cəzaların icrası ilə əlaqədar xarici dövlətlərlə, Beynəlxalq Qırmızı Xaç Komitəsi, İşgəncələrə qarşı Avropa Komitəsi (CPT) və digər beynəlxalq qeyri-hökumət və ictimai təşkilatlarla əməkdaşlıq davam etdirilmişdir. Avropa Birliyi, Avropa Şurası və digər təşklilatlarla birgə layihələr icra olunmuş, xarici ekspertlərin iştirakı ilə seminarlar, treninqlər keçirilmiş, qabaqcıl təcrübənin öyrənilməsi məqsədilə əməkdaşlar digər ölkələrə səfərlər etmişlər.

BMT, Avropa Şurası və digər beynəlxalq təşkilatlar tərəfindən təşkil edilən tədbirlərdə fəal iştirak edilmişdir. Cinayət statistikası ilə əlaqədar hər il Avropa Şurası tərəfindən dərc olunan SPACE I, SPACE II hesabatlarına daxil edilməsi məqsədilə ölkədə azadlıqdan məhrum etmə və məhkumun cəmiyyətdən təcrid edilməsi ilə əlaqədar olmayan cəzaların icrası məsələləri ilə bağlı məlumatlar vaxtında aidiyyəti üzrə təqdim edilmişdir.

Cinayət cəzaları və onların icrası məsələləri ilə aparılan bağlı elmi tədqiqatlar davam etdirilmiş, ölkədə, habelə xarici ölkələrdə Azərbaycan Respublikasının cəza-icra sisteminə və cəzaların icrasına həsr olunmuş məqalələr dərc edilmiş, cəza-icra hüququ üzrə dərsliklər və monoqrafiyalar işıq üzü görmüşdür.

2016–2022-ci illərdə cəza-icra sistemində görülmüş tədbirləri təhlil etməklə, qeyd edə bilərik ki, araşdırılan müddət ərzində Azərbaycan Respublikasında müasir cəza-icra sisteminin yaradılması, onun fəaliyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması ilə əlaqədar islahatlar uğurla davam etdirilmişdir.

Yuxarıda göstərilənləri, habelə son otuz il ərzində (1993–2022-ci illər) Azərbaycan Respublikasının cəza-icra sisteminin islahatı ilə bağlı görulmuş işləri yekunlaşdırmaqla, qeyd etmək istərdik ki, müvafiq dövrdə olkədə:

– cəza-icra fəaliyyətinin hüquqpozucuları ilə davranışa həsr edilmiş standartlar nəzərə almaqla müasir hüquqi bazası yaradılmış, bütün cəzaların və cinayət-hüquqi xarakterli digər tədbirlərin icrasını tənzimləyən vahid qanunvericilik akti-Cəzaların İcrası Məcəlləsi, habelə "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azalıqlarının təmin edilməsi haqqında" mükəmməl qanun qəbul edilmişdir;

– ölkənin Nazirlər Kabineti tərəfindən 29 may 1999-cu il tarixdə qəbul edilmiş "İslah-əmək müəssisələrində və istintaq təcridxanalarında qanunvericilik, təşkilatı və digər məsələlərlə ilə bağlı" xüsusi tədbirlər proqramı, habelə 2009 və 2018-ci illərdə ədliyyə orqanlarının inkişafı ilə bağlı Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmiş iki beş illik dövlət proqramla-

rında nəzərdə tutulmuş cəzaları icra edən müəssisə və orqanların fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı kompleks tədbirlər uğurla icra edilmişdir;

– struktur dəyişiklikləri aparılmaqla, qanunvericilikdə nəzərdə tutulmuş, cəzaları icra edən müəssisə və orqanların bütün, o cümlədən qarışıq müəssisə növləri, habelə onların fəaliyyətini təşkil edən xüsusi təsisatlar – Penitensiar və Probasiya xidmətləri təşkil edilmiş və onlar uğurla fəaliyyət göstərirlər;

– Müdafiə nazirliyinin müvafiq bölmələri tərəfindən yalnız hərbi qulluqçulara tətbiq edilən-hərbi xidmət üzrə məhdudlaşdırma və intizam xarakterli hərbi hissədə saxlama növündə cəzaların icrası təmin edilir;

– cəza-icra sisteminin infrastrukturu və maddi-texniki bazası yeniləndirilmış, inkişaf etdirilmiş və möhkəmləndirilmişdir;

– ardıcıllıqla tətbiq edilən müasir innovativ texnologiyalara və texniki vasitələrə istinadən azadlıqdan məhrum etmə yerlərinin mühafizə sistemi səmərəli fəaliyyət göstərir, təhlükəsizliyin təmini məqsədilə əlavə rejim qurğuları quraşdırılmış, həbs edilmiş şəxslərin və məhkumların etibarlı müşayiəti həyata keçirilir;

– qətimkan tədbirlərinin və cəzaların icrası prosesində qabaqcıl informasiya texnologiyaları və elektron nəzarət vasitələrinin geniş tətbiqinə başlanmışdır;

– həbs edilmiş şəxslərin və məhkumların, insan hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı beynəlxalq aktların tələblərinə cavab verən hüquqi statusları müəyyən edilmiş, humanistləşdirmə yolu ilə onların çərçivəsi genişləndirilmiş və etibarlı riayət edilməsi təmin olunmuşdur;

– həbs edilmiş şəxslər və məhkumlar, o cümlədən qadın və yetkinlik yaşına çatmayan üçün normal saxlanma şəraiti yaradılmış, Bakı şəhərində və regionlarda yeni müasir istintaq təcridxanası və üç penitensiar kompleks istifadəyə verilmiş, digər müvafiq komplekslərin inşası davam etdirilir;

– həbs edilmiş şəxslərin və məhkumların yemək və əşya təminatının yeni, yaxşılaşdırılmış normaları müəyyən olunmuş, yemə-

yə və xüsusi geyimə görə məhkumların əmək haqqından və digər gəlirlərindən tutulmalar ləğv edilmişdir;

– məhkumların vicdan və dini etiqad hüququnun təmini məqsədilə tədbirlər görülmüş, istintaq təcridxanalarında və cəzaçəkmə müəssislərində ibadət üçün zəruri şərait yaradılmış, Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi ilə əməkdaşlıq qurulmuş, dövlət qeydiyyatından keçmiş dini təşkilatlar və icmalarla qarşılıqlı əlaqələr həyata keçirilir;

– məhkumlara göstərilən islah təsirinin səmərəliyinin artırılması, onların psixoloji yardım almaq hüququnun təmin olunması məqsədilə Penitensiar xidmətdə ayrıca psixoloji qurum yaradılmış, bütün istintaq təcridxanalarında və cəzaçəkmə müəssisələrində əməkdaş-psixoloqlar fəalyyət göstərirlər;

– həbs edilmiş şəxslərin və məhkumların tibbi təminatı əsaslı şəkildə yaxsılaşdırılmış, müəyyən edilmiş hüquqi mexanizmə uyğun olaraq alkoqolizmdən və narkomaniyadan məcburi müalicə ilə bağlı məhkəmə qərarları icra edilir, beynəlxalq təşkilatlar tərəfindən təşviq edilən vərəmin, xüsusilə onun təhlükəli rezistent növünün, habelə digər infeksion xəstəlklərin müalicəsi ilə bağlı müsbət nəticələr əldə edilmişdir;

– beynəlxalq konvensiyalara və ikitərəfli müqavilələrə uyğun olaraq azadlıqdan məhrum edilmiş məhkumların cəzalarını çəkmək üçün Azərbaycan Respublikasına qəbulu, habelə əcnəbi məhkumların vətəndaşları olduqları dövlətlərə verilməsi həyata keçirilir;

– cəzaçəkmə müəssisələrindən azad edilən şəxslərin sosial adaptasiyasına və reabilitasiyasına dəstək göstərilməsi məqsədi ilə dövlət sistemi yaradılmış və tələb olunan səviyyədə fəaliyyət göstərir. Zəruri hallarda azad edilənlər Sosial adaptasiya mərkəzində müvəqqəti yaşayış yeri ilə təmin edilir, onlara minimal əmək haqqının dörd misli məbləğində müavinət verilir, şəxsiyyəti təsdiq edən sənədlərin əldə edilməsində, işlə təminatda, razılıqları ilə onlara tibbi, sosial, hüquqi, informasiya və digər köməklik göstərilir. Belə ki, təkcə 2020–2022-ci illərdə azadlıqdan məhrum etmə yer-

lərindən azad edilmiş iyirmi mindən artıq məhkuma 21,5 milyon manatdan çox məbləğdə birdəfəlik pul müavinəti verilmişdir;

– cinayət cəzalarını icra edən müəssisə və orqanların fəaliyyətinə dövlət nəzarəti müxtəlif formalarda, yəni istər məhkəmələr, aidiyyəti dövlət strukturlarının, Ədliyyə nazirliyinin xüsusi qurumu, yəni Cəzaların icrasına nəzarət üzrə müfəttişlik, istərsə də İnsan hüquqları uzrə müvəkkil (Ombudsman), onun, BMT-nin İşgəncələrə və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiyanın əlavə fakultətiv protokoluna uyğun olaraq yaradılmış Milli preventiv Qrupu tərəfindən həyata keçirilir;

– ictimaiyyətin məhkumların islahında iştirakı, cəzaları icra edən müəssisə və orqanların işinə ictimai nəzarətin həyata keçirilməsi ilə bağlı qanunvericiliyin müddəalarının reallaşdırılması məqsədilə səmərəli fəaliyyət modeli yaradılmış, dövlət və qeyri-hökumət təşkilatlarının cəzaların icrası prosesinə cəlb edilməsinin müxtəlif növlərindən istifadə edilir;

– cəzaların icrası fəaliyyətinin şəffaflığı təmin edilmiş, ölkə əhalisinin cəza-icra sistemi, onun işi barədə məlumatlandırılmasının müxtəlif formalarından istifadə edilir, cəzaları icra edən müəssisə və orqanların fəaliyyətinə könüllülərin cəlb edilməsi təcrübəsinə başlanmışdır;

– işçi heyətinin etibarlı hüquqi statusu müəyyən edilmiş, cəza-icra sisteminin əməkdaşlarının təminatının, sosial müdafiəsinin gücləndirilməsi və əmək haqqının artırılması ilə bağlı ardıcıl olaraq tədbirlər görülmüşdür;

– cəza-icra sisteminə namizədlərin Dövlət imtahan mərkəzinin nəzarəti, vahid test imtahanı və müsahibədən keçməklə işə qəbulu üzrə şəffaf və obyektiv bir təcrübə formalaşdırılmışdır. 2005-ci ildən başlayaraq Rusiya Federasiyasının Cəzaların İcrası Federal Xidmətinin xüsusiləşdirilmiş ali təhsil müəssisəsi olan Hüquq və İdarəetmə Akademiyasında Penitensiar xidmət üçün ixtisaslı kadrların hazırlanması həyata keçirilir. Ötən müddət ərzində iki yüzdən çox ölkə vətəndaşı həmin ali təhsil müəssisəsinin hüquq,

psixologiya və iqtisadiyyat fakültələrinin məzunu olmuşdur. Ədliyyə Akademiyasında, Penitensiar xidmətin Təlim mərkəzində əməkdaşların ilkin və peşə hazırlığı, ixtisasartırma kursları təşkil edilir;

– 2000-ci ildə təsis edilmiş, əsasən cəza-icra sisteminə, onun fəaliyyətinə, cəzaları icra edən müəssisə və orqanların aktual problemlərinə, bu sahədə qabaqcıl təcrübənin öyrənilməsinə həsr olunmuş ictimai-siyasi, elmi-təcrübi "Cəmiyyət və cəza" jurnalı fəaliyyətini uğurla davam etdirir;

– cəzaları icra edən müəssisə və orqanların maliyyələşdirilməsi nəzərəçarpacaq dərəcədə artırılmış, cəza-icra sisteminin saxlanmasına və fəaliyyətinin təkmilləşdirilməsinə budcədən ayırmalar ilbəil çoxalmışdır;

– cəzaların icrası, həbs edilmiş şəxslərin və məhkumların hüquq və azadlıqlarının müdafiəsi ilə əlaqədar beynəlxalq təşkilatlarla, xüsusilə BMT, Avropa İttifaqı, Avropa Şurası, ATƏT, BQXK və onun strukturları ilə, habelə xarici dövlətlərlə, qeyri-hökumət təşkilatları ilə müxtəlf formatlarda əməkdaşlıq əlaqələri qurulmuş və onlar ardıcıl olaraq genişləndirilmişdir. Cəza-icra fəaliyyətinin səmərəliyinin artırılması, qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı təkliflərin hazırlanması və onların realizə edilməsi ilə bağlı birgə layihələr uğurla icra edilmiş, xarici ekspertlərin iştirakı ilə çoxsaylı seminarlar, təlimlər keçirilmiş, qabaqcıl təcrubənin öyrənilməsi məqsədilə bir sıra dövlərlərə səfərlər təşkil edilmişdir. BMT-nin müqavilə orqanlarının, onun işgəncələrin qarşının alınması, insan hüquqları uzrə komitələrinin, habelə İşgəncələrə qarşı Altkomitənin (SPT), Avropa Şurası, İşgəncələrə qarşı Avropa Komitəsinin (CPT) Azərbaycanın dövrü məruzələrinə baxılması ilə bağlı, habelə azadlıqdan məhrum etmə yerlərinə başçəkmələr üzrə hesabatlarda verilmiş təkliflərin yerinə yetirilməsi ilə əlaqədar zəruri tədbirlər görülmüşdür. İnsan hüquq və azadlıqlarının müdafiəsinə, hüquqpozucuları ilə davranışa həsr edilmiş beynəlxalq aktlar azərbaycan dilinə tərcümə edilmiş, rəhbər tutulması üçün işçi heyətinə, məlumat məqsədilə isə xüsusi

kontingentə təqdim edilmişdir;

– cəzaların icrası sahəsində elmi tədqiqatlar aparılmış, cəzaları icra edən müəssisə və orqanların əməkdaşları xarici olkələrdə təşkil edilən və cəza-icra sisteminə həsr olunan müxtəlif beynəlxalq tədbirlərin iştirakçıları olmuş, azərbaycan dilində cəza-icra hüququ üzrə dərsliklər və ədəbiyyat dərc edilmişdir.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının cəza-icra sisteminin islahatı üzrə tədbirlər ölkə ərazisinin iyirmi faizinin zəbt edilməsi, bir milyondan çox qaçqın və məcburi köçkünün mövcudluğu şəraitində, 2020-ci ilin sonundan başlayaraq isə, işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa işləri ilə yanaşı həyata keçirilmişdir.

Yuxarıda göstərilənləri yekunlaşdırmaqla və istənilən fəaliyyətin təkmilləşdirilməsinin fasiləsiz bir proses olduğu nəzərə alınaraq, hesab edirik ki, ölkənin cəza-icra sisteminin islahatını davam etdirmək vacibdir və bunun üçün aşagıdakı təkliflərlə əlaqədar tədbirlərin görülməsi məqsədəuyğun olardı:

– cəza-icra qanunvericiliyinin təkmilləşdirilməsini davam etdirmək, ilk növbədə "Probasiya fəaliyyəti haqqında" qanunu qəbul etmək, məntəqə tipli cəzaçəkmə müəssisəsində cəzanın icrasının, habelə, cərimə, islah işləri, azadlığın məhdudlaşdırılması növündə cəzaların icrası, şərti məhkum edilmiş, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş, cəzasının çəkilməsi təxirə salınmış şəxslər üzərində probasiya nəzarətinin həyata keçirilməsi ilə bağlı, habelə aidiyyəti digər qanunvericilik aktlarına dəyişikliklər etmək;

– idarəetmənin, cəzaları icra edən müəssisə və orqanların fəaliyyətinin müasirləşdirilməsi məqsədilə əlavə tədbirlər görmək;

– fəaliyyətin səmərəli təşkili və etibarlı nəzarətin həyata keçirilməsi məqsədilə, qabaqcıl təcrübə nəzərə almaqla, Probasiya xidmətində struktur dəyişikliklərini davam etdirmək, iki və ya üç pilləli idarəetmə modelini tətbiq etmək;

– həbs edilmiş şəxslərin və cəzaçəkmə müəssislərində məhkumların saxlanma şəraitinin yaxsılaşdırılması ilə bağlı tədbirləri

davam etdirmək;

– infrastrukturun yenilənməsi, məhkumların cəzalarını daimi yaşayış yerlərinə yaxın müəssisələrdə çəkməsi ilə bağlı milli qanunvericiliyə və beynəlxalq aktların tövsiyələrinə riayət edilməsi məqsədilə inşası aparılan penitensiar kompleksləri, ömürlük azadlıqdan məhrum edilmiş və cəzanın çəkilməsi həbsxanada müəyyən edilmiş şəxslər üçün nəzərdə tutulmuş müəssisəni istismara vermək, habelə digər regionlarda, ilk növbədə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının birində müvafiq kompleks təşkil etmək;

– beynəlxalq təcrübə nəzərə alınmaqla, azadlıqdan məhrum etmə yerlərində əməyin təşkilinin yeni mexanizmini işləyib hazırlamaq, məhkumlar tərəfindən əməyə həvəs göstərilməsi məqsədilə əlavə stumullar müəyyən etmək;

– qanunvericiliyə uyğun olaraq məhkumların peşə hazırlığı keçməsi və peşə təhsili alması məqsədilə bütün cəzaçəkmə müəssisələrində zəruri şərait yaratmaq;

– məhkumlarla aparılan tərbiyə işinin yeni modelini hazırlamaq, cəza çəkənlərin şəxsiyyəti, sosial deformasiyası və ehtiyacları nəzərə alınmaqla, fərdi reabilitasiya proqramlarını hazırlamaq, psixoloqların sayının artırılması, cəzacəkmə müəssisələrində və Probasiya xidmətində sosial işçilər institutunun tətbiqi imkanlarını nəzərdən keçirmək;

– həbs edilmiş şəxslərin və məhkumların mühafizəsi və müşayəti işini müasirləşdirmək, həmin sahələrdə müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından istifadədən imtina etməklə, onları əməkdaşlarla əvəz etmək;

– həbs edilmiş şəxslərin və cəzaçəkmə müəssisələrində məhkumlara göstərilən tibbi xidmətin keyfiyyətinin yaxsılaşdırılması, tibb xidmətlərinin maddi-texniki bazasının təkmilləşdirilməsi, onların fəaliyyətində müasir profilaktika, müayinə, müalicə və reabilitasiya metodlarının tətbiq edilməsi məqsədilə əlavə tədbirlər görmək;

– AR CM-in 74-1-ci maddəsinin müddəalarının tətbiqinə baş-

lamaq məqsədilə qısa müddətdə narkomanlıqdan əziyyət çəkən və məhkəmə tərəfindən tibbi xarakterli məcburi tədbirlər tətbiq edilməklə, cinayət məsuliyyətindən azad edilmiş şəxslərin müalicəsi üçün xüsusi müəssisə–stasionarı inşa etmək;

– məhkumun cəmiyyətdən təcrid edilməsi ilə əlaqədar olmayan cəza ilə yanaşı narkomanlıqdan tibbi xarakterli məcburi tədbirlər tətbiq edilmiş məhkumların müalicəsinin vaxtında həyata keçirilməsi məqsədilə ölkənin Səhiyyə nazirliyinin xüsusiləşdirilmiş müalicə müəssisələrində əlavə yerlər yaratmaq;

– bilavasitə cəzaların icrası prosesində iştirak edən şəxslərin işinin səmərəliyinin artırılması və xidmət yükünün optimallaşdırılması məqsədilə bir əməkdas üçün iş yükünun məqbul normasını, məhkumların sayını qanunvericiliklə müəyyən etmək və ştat vahidlərini onlara uyğunlaşdırmaq;

– xarici ölkələrin təcrübəsinə istinadən Ədliyyə Akademiyasında xüsusi proqrama uyğun olaraq Penitensiar və Probasiya xidmətləri üçün ixtisaslı kadrların hazırlanmasına başlamaq;

– əməkdaşların fəaliyyətinin, xüsusilə xidməti sənədlərin və yazışmaların avtomatlaşdırılmasını və rəqəmsallaşdırılmasını davam etdirmək;

– hüquqpozucuları ilə davranışa həsr olunmuş beynəlxalq aktların tələbləri və qanunvericilikdə baş vermiş dəyişikliklər nəzərə alınmaqla, əməkdaşlar üçün yeni ilkin və ixtisasartırma proqramlarını hazırlamaq;

– işçi heyətinin sosial müdafiəsinin möhkəmləndirilməsi, onların əmək haqqlarının və əlavə ödənişlərin məbləğlərinin artırılması ilə bağlı tədbirləri davam etdirmək;

– xidməti vəzifələrin effektiv icrasını təmin etmək və işə nümunəvi münasibətin həvəsləndirilməsi məqsədilə əməkdaşların mükafatlandırılmasının yeni növlərini və onların karyera üzrə yüksəlişinin şəffaf mexanizmlərini müəyyən etmək;

– cəza-icra sisteminin normal fəaliyyətinin təmin edilməsi və nəzərdə tutulmuş tədbirlərin vaxtında icrası məqsədilə tələb edilən maliyyə vəsaitinin ayrılmasını davam etdirmək;

– cəzaların icrası ilə əlaqədar beynəlxalq əməkdaşlığı davam etdirmək, beynəlxalq təşkilatlar tərəfindən keçirilən və cəza-icra sisteminə həsr edilmiş tədbirlərdə fəal iştirak etmək, xarici dövlətlərin bu sahədə müsbət təcrübəsini öyrənmək və onları fəaliyyətdə tətbiq etmək;

– cəzaların icrası, cəza-icra sistemi sahələri ilə əlaqədar elmi tədqiqatların aparılmasına maraq yaratmaq, mütamadi cəza-icra hüququ ilə bağlı məqalələrlə çıxış etmək, yeni monoqrafiyalar, məlumat materialları, dərsliklər dərc etmək.

**Nəhayət sonuncu**. Son illərdə Azərbaycan Respublikasında həbs edilmiş şəxslərin və məhkumların sayının azalması ilə bağlı qanunvericiliyin humanistləşdirilməsi və dekriminallaşması ilə bağlı görülmüş kompleks tədbirlərə, 1995–2022-ci illərdə qəbul edilmiş, 140 min nəfərdən çox şəxs barəsində tətbiq edilmiş 12 amnistiya və 68 əvf aktlarına, habelə cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə institutundan geniş istifadəyə baxmayaraq, azadlıqdan məhrum edilmiş şəxslərin sayının ölkə əhalisinin yuz min nəfərinə nisbəti 31 yanvar 2021-ci il tarixli SPACE I–2021 statistik hesabatına əsasən hələ yüksək olaraq qalmaqdadır. Digər dövlətlərlə müqayisədə Azərbaycan Respublikasında məhkəmələr tərəfindən azadlıqdan məhrum etmə növündə cəzanın təyin edilməsi faizi də böyükdür. Belə ki, Dövlət Statistika Komitəsinin məlumatına əsasən 2021-ci ildə ümumən məhkum edilmiş şəxslərin 57,3 %-ni, 2022-ci ildə isə, 57,8 %-ni azadlıqdan məhrum etmə cəzası təyin edilmiş şəxslər təşkil etmişdir. Qeyd edilənlərlə bağlı həbs edilmiş şəxslərin və məhkumların sayının, habelə azadlıqdan məhrum etmə cəzasının tətbiqi faizinin azalması məqsədilə təklif edirik: birincisi, Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli sərəncamından irəli gələn tapşırıqların ciddi qaydada yerinə yetirmək və verilmiş tövsiyələrə riayət etmək; ikincisi, məhkəmə təcrübəsində məhkumun cəmiyyətdən təcrid edilməsi ilə əlaqədar olmayan cəzalardan, habelə AR CM-də cinayət məsuliyyətindən və cəzadan azad etmə ilə bağlı mövcud institutların təqdim etdiyi imkanlardan geniş istifadə etmək; üçün-

cüsü, cinayət, cinayət-prosessual qanunvericiliklərinin humanistləşdirilməsini davam etdirmək, eyni zamanda, onlara cinayət işləri üzrə, məhkəməyəqədər və məhkəmə baxışı zamanı, habelə cəzanın çəkilməsi prosesində də tətbiq edilə bilən mediasiya institutunu daxil etmək. Həbs edilmiş şəxslərin və məhkumların sayının aşagı düşməsi cəzaları icra edən müəssisə və orqanların fəaliyyətini daha səmərəli təşkil etməyə, işçi heyətinin xidmət yükünun azalmasına əlverişli imkanlar verə bilər, habelə, heç də az olmayan maliyyə vəsaitinə qənaət etməyə və həmin məbləğin cəza-icra sisteminin qarşısında duran daha əhəmiyyətli vəzifələrin həllinə yönəldilməsinə zəmin yarada bilərdi.

Verilmiş təkliflərin, habelə Azərbaycan Respublikasının cəz-icra sisteminin təkmilləşdirilməsi işinin davam etdirilməsi ilə bağlı digər zəruri tədbirlərin ardıcıl və uğurlu yerinə yetirilməsi məqsədilə on illik müddətə hesablanmış xüsusi dövlət proqramının qəbul edilməsini məqsədəuyğun hesab edirik.

***İstinad edilmiş mənbə:***

***Journal Scientific discussion. Czech Republic. 2023. V. 1 (77), pp. 35–42.***

## Cəzaçəkmə müəssisələrində məhkumların peşə təhsilinin təkmilləşdirilməsi – Azərbaycan Respublikasının cəza-icra sisteminin islahatının yeni istiqaməti kimi

Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikası otuz ildən artıq müddətdə özünün cəza-icra sisteminin islahatını həyata keçirir. Cinayət cəzaların icrasının Ədliyyə Nazirliyinə verilməsindən sonra ölkənin cəza-icra sisteminin yenidən təşkili ilə bağlı həyata keçirilmiş kompleks qanunvericilik, təşkilati, struktur, kadr, texniki və digər tədbirlər, onların nəticələri barədə tərəfimizdən əvvəllər məlumat verilmişdir. Cəzaçəkmə müəssisələrində məhkumların peşə təhsilinin cəzanı çəkmiş şəxslərin uğurlu sosial adaptasiyasında mühüm rolunu nəzərə alaraq, ölkənin cəza-icra sisteminin fəaliyyətinin təkmilləşdirilməsinin davam etdirilməsi məqsədilə ölkədəki cəzaçəkmə müəssisələrində zəruri şəraitin yaradılması ilə əlaqədar də tərəfimizdən təklif irəli sürülmüşdü. Məhkumların peşə təhsilinin təşkilinə göstərilən diqqətə, habelə müəyyən müsbət nəticələr əldə edilməsinə baxmayaraq, bu sahədə çətinliklər və həllini gözləyən problemlər yaranmışdı. İlkin olaraq, bir sıra cəzaçəkmə müəssisələrində məhkumların peşə təhsilinə cəlb edilməsi üçün müvafiq müəssisələr, yəni peşə təhsili müəssisələri (bundan sonra peşə məktəbləri) təşkil edilməmişdi. Cəzaçəkmə müəssisələrində fəaliyyət göstərən peşə məktəblərinin maddi-texniki bazası kifayət qədər köhnəlmiş və yenilənmə tələb edirdi, mütəxəssis hazırlığı ölkənin əmək bazarının tələblərinə cavab vermirdi. Cəzaçəkmə müəssisələrində əldə olunmuş müvafiq peşə və ya ixtisas, azadlığa çıxmış məhkumların qısa zaman ərzində məşğulluğunu tam təmin etmirdi. Eyni zamanda, 2007-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Qanununda nəzərdə tutulmuş, azadlıqdan məhrum etmə yerlərindən azad olunanların məşğulluğunun təmininə yönəlmiş tədbirlər heç də həmişə müsbət nəticələrlə yekunlaşmırdı. Bu da nəticə etibarı ilə ödənişli əmək fəaliyyətinin, bununla bağlı

maddi təminatın olmaması səbəbindən sabiq məhkumlar tərəfindən yeni cinayətlərin törədilməsinə əlverişli zəmin yaradırdı.

2018-ci ildə ”Peşə təhsili haqqında” Azərbaycan Respublikasının Qanununun qəbulundan sonra ölkənin Nazirlər Kabineti tərəfindən cəzaçəkmə müəssisələrinin nəzdində fəaliyyət göstərən peşə təhsili müəssisələrində tətbiq edilən dövlət standartları, həmin təhsil müəssisələrinin yeni nümunəvi nizamnaməsi təsdiq edilmişdir. Yuxarıda göstərilən qanunun və müvafiq normativ aktların müddəalarını nəzərə alaraq, Azərbaycan Respublikasının Prezidenti “Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə” 10 fevral 2017-ci il tarixli Fərmanda, habelə, “2019–2023-cü illər üçün Azərbaycan ədliyyəsinin inkişafına dair Dövlət Proqramı”nda nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsinin davam etdirilməsi məqsədilə və azadlıqdan məhrum etmə yerlərində peşə təhsilinin səviyyəsinin artırılması üçün “Cəzaçəkmə müəssisələrində peşə təhsilinin keyfiyyətinin yüksəldilməsi ilə bağlı tədbirlər haqqında” 2024-cü il 11 sentyabr tarixli Fərman imzalamışdır. Fərmanda qeyd olunur ki, cəzaçəkmə müəssisələrində peşə təhsilinin keyfiyyətlə həyata keçirilməsi, azadlıqdan məhrum etmə yerlərindən azad edilmiş şəxslərin sosial adaptasiyasının asanlaşdırılması, ölkədə əmək bazarının ixtisaslı işçi qüvvəsinə tələbatının davamlı təmin olunması ilə əlaqədar böyük əhəmiyyət kəsb edir. Xüsusi olaraq vurğulanır ki, cəzaçəkmə müəssisələrində peşə təhsilinin müasir standartlara, əmək bazarında mövcud və gələcəkdə təklif ediləcək iş yerlərinə uyğun qurulması, cəzaçəkmə müəssisələrindən azad edilmiş şəxslərin sosial mühitə uyğunlaşdırılmasında, hüquq və azadlıqlarının, qanuni mənafelərinin qorunmasında, onlar tərəfindən törədilə biləcək yeni cinayətlərin və onlara təsir göstərə bilən kriminogen amillərin qarşısının alınmasında vacib rol oynayacaqdır.

Sənədin icrasının təşkili məqsədilə ölkənin Nazirlər Kabinetinə, Azərbaycan Respublikasının Elm və Təhsil, Əmək və Əhali-

nin Sosial Müdafiəsi, Maliyyə və Ədliyyə nazirliklərinin təklifləri nəzərə alınmaqla, cəzaçəkmə müəssisələrində peşə təhsilinin səviyyəsinin yaxşılaşdırılması və mövcud infrastrukturun təkmilləşdirilməsi ilə əlaqədar xüsusi fəaliyyət planının layihəsini hazırlanaraq dövlət başçısına təqdim edilməsi tapşırılmışdı. Tapşırığa uyğun olaraq sözügedən planın layihəsini hazırlamaq üçün yuxarıda qeyd olunan dövlət qurumlarının nümayəndələrindən ibarət işçi qrupları yaradılmış, onların işinə müvafiq sahə üzrə ixtisaslı ekspertlər və mütəxəssislər, elmi təşkilatların əməkdaşları, o cümlədən vətəndaş cəmiyyəti institutlarının nümayəndələri cəlb olunmuşlar. Eyni zamanda, Azərbaycan Respublikasında 2023–2024-cü illərdə cinayətkarlığın vəziyyəti, məhkumların tərkibi, cəzaçəkmə müəssisələrindən azad edilmiş şəxslərin işlə təmin olunmasında yaranan çətinliklər təhlil edilmişdir. Həmçinin, bir sıra Avropa dövlətlərdə azadlıqdan məhrum etmə yerlərindən azad olunmuş məhkumların işlə təmin olunması sahəsindəki müsbət təcrübəsi öyrənilmişdir.

Cəzaçəkmə müəssisələrində peşə təhsilinin keyfiyyətinin yaxşılaşdırılması və müvafiq infrastrukturun təkmilləşdirilməsi ilə əlaqədar hazırlanmış və 2025–2030-cu illər üçün nəzərdə tutulmuş Fəaliyyət Planı (bundan sonra–Fəaliyyət Planı) Azərbaycan Respublikasının Prezidentinin 25 iyun 2025-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir. Fikrimizcə, Fəaliyyət Planı dövlət başçısının yuxarıda qeyd olunan fərmanının icrası üçün nəzərdə tutulmuş xüsusi "yol xəritəsi" kimi qəbul edilməlidir. Fəaliyyət Planında cəzaçəkmə müəssisələri üçün aşagıda göstərilən beş əsas məqsəd müəyyən olunmuşdur:

– peşə təhsilinin əmək bazarının tələblərinə uyğunlaşdırılması;

– peşə təhsili ilə bağlı mövcud infrastrukturun təkmilləşdirilməsi;

– əmək bazarının tələblərinə uyğun yeni peşə təhsili infrastrukturunun formalaşdırılması;

– peşə təhsilinə cəlb edilmiş və azad edilmiş şəxsləri işlə təmin etmiş sahibkarlar (işəgötürənlər) üçün dəstək mexanizminin for-

malaşdırılması;

– peşə təhsili sahəsində normativ hüquqi bazanın modernləşdirilməsi.

Fəaliyyət Planının icrası çərçivəsində cəzaçəkmə müəssisələrində mövcud infrastrukturun yenilənməsi, müasir peşə məktəblərinin inşası, yeni istehsal sahələri və xidmət sektorlarının yaradılması, habelə məhkumların əmək fəaliyyətinə cəlb olunması ilə bağlı kompleks tədbirlər nəzərdə tutulmuşdur. Məhkumların peşə təhsilinin səmərəli təşkili və səviyyəsinin yüksəldilməsi üçün məhkumları peşə təhsilinə cəlb etmək məqsədilə onların bilik və bacarıqlarının qiymətləndirilməsi mexanizminin formalaşdırılması və tətbiqi, habelə təlim prosesinə nəzarət mexanizminin təkmilləşdirilməsi üzrə tədbirlərin də həyata keçirilməsi planlaşdırılmışdır. Təhsil prosesində iştirak etmək üçün karyera üzrə məsləhətçilər, psixoloqlar və göstərilən sahədə zəruri bilik, bacarıq və səriştələrə malik mütəxəssislər cəlb olunacaqlar.

Cəzaçəkmə müəssisələrindəki peşə məktəblərində müasir standartlara cavab verən, yüksək ixtisaslı pedaqoji kadrların formalaşdırılması, onların bilik və peşəkarlıq səviyyəsinin artırılması, həmçinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər də görüləcəkdir. Cəzanın çəkilməsi dövründə peşə təhsili almış məhkumların azad edildikdən sonra məşğulluq imkanlarının genişləndirilməsi, o cümlədən sahibkarlar (işəgötürənlər) və digər maraqlı şəxslər tərəfindən cəzaçəkmə müəssisələrinin ərazisində yeni istehsal sahələrinin və xidmət sektorlarının yaradılmasını nəzərdə tutan mövcud normativ-hüquqi bazanın təkmilləşdirilməsi də nəzərdə tutulmuşdur. Peşə təhsili almış məhkumların cəzadan azad olunduqdan sonra əmək bazarına daha asan çıxışını təmin etmək məqsədilə, sözügedən şəxslər, onların təhsili, ixtisası və konkret peşə məktəbində təhsilin tamamlanmasını təsdiqləyən sənədlə bağlı zəruri məlumatları özündə cəmləşdirəcək vahid informasiya sistemi də təşkil ediləcəkdir. Fəaliyyət Planında onun icrasına nəzarət qaydası da müəyyən edilmişdir. Ədliyyə Nazirliyinə qeyd ounan planın icra vəziyyəti barədə Azərbaycan Respublikası

Prezidentinə hər il məlumat vermək tapşırılmışdır. Planda nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqi və qiymətləndirilməsi işi Azərbaycan Respublikasının Prezidentinin 20 aprel 2016-cı il tarixli sərəncamı ilə yaradılmış, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə həvalə edilmişdir. Sözügedən Planının məzmunu barədə qısa məlumatı yekunlaşdıraraq, qeyd edilməlidir ki, təhlil edilən sənəd kifayət qədər əhatəli şəkildə hazırlanmış, konkret tədbirlər müəyyənləşdirilmiş, icraya cavabdeh orqan və qurumlar müəyyən edilmiş, mümkün risklər, onların qarşısının alınması yolları göstərilmiş, gözlənilən nəticələr qeyd olunmuş və onlar mərhələli şəkildə həyata keçiriləcəkdir.

Eyni zamanda, fikrimizcə, Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanın mahiyyətinə uyğun və sözügedən Planın səmərəli icrasına dəstək ola bilən aşağıdakı əlavə tədbirlərin həyata keçirilməsi də məqsədəuyğun olardı. Birincisi, məhkumlarda peşə təhsili almağa maraq yaratmaq və onları belə fəaliyyətə sövq etmək məqsədilə, Azərbaycan Respublikasının "Peşə təhsili haqqında" Qanununun 10-cu maddəsinə əsaslanaraq, təhsil müddətində müdavimlərə təqaüd verilməsinin mümkünlüyünü nəzərdən keçirilməsini təklif edirik. Fikrimizcə, belə yanaşma cəzaçəkmə müəssisələrində məhkumları peşə təhsilinə cəlb etmək üçün stimul rolunu oynaya bilər. İkincisi, cəzaçəkmə müəssisələrinin peşə məktəblərində təhsil müddətinin məhkumların ümumi iş stajına daxil edilməsi məqsədəuyğun olardı. Üçüncüsü, hüquqpozucuları ilə davranışa həsr edilmiş beynəlxalq sənədlərin, o cümlədən Avropa Şurasının Nazirlər Komitəsinin “Həbsxanalarda ömürlük və digər uzun müddətli azadlqdan məhrum etmə cəzalarının icrasının həyata keçirilməsi haqqında” R (2003)23 tövsiyəsinə istinadən, ömürlük azadlıqdan məhrum edilmiş məhkumların arzularına uyğun olaraq peşə təhsilinə cəlb olunmaları və həmin təhsilin bilavasitə cəzaçəkmə müəssisəsinin ərazisində həyata keçirilməsi ilə bağlı ölkənin Cəzaların İcrası Məcəlləsinə dəyişiklik edilməsi məqsədəuyğun olardı. Təklif etdiyimiz norma Moldova Respublikasının İcra Məcəlləsinin 241-ci maddəsinin və Rusiya Federasi-

yasının Cinayət-İcra Məcəlləsinin 108-ci maddəsinin redaksiyalarında öz əksini tapmışdır. Dördüncüsü, hesab edirik ki, ölkənin penitensiar sisteminin yeni növlü müəssisələrində, yəni penitensiar komplekslərdə (qarışıq tipli cəzaçəkmə müəssisələrində) peşə təhsilinin təşkili qaydasını və onun həyata keçirilməsi mexanizmini müəyyənləşdirmək vacibdir. Nəhayət, cəzaçəkmə müəssisələrindəki peşə təhsili müəssisələrində işə ixtisaslı pedaqoji kadrları cəlb etmək və kollektivdə qalmasını təmin etmək məqsədilə, onların əmək haqqına əlavə ödənişlərin nəzərdə tutulması məqsədəuyğun olardı.

Düşünürük ki, Azərbaycan Respublikası Prezidentinin 11 sentyabr 2024-cü il tarixli Fərmanında nəzərdə tutulmuş və onun icrasına dair Fəaliyyət Planında göstərilmiş vəzifələrin uğurla həyata keçirilməsi, yaxın gələcəkdə cəzaçəkmə müəssisələrində peşə təhsilinin müasir tələblər səviyyəsində təşkilinə, müvafiq infrastrukturun təkmilləşdirilməsinə, məhkumların əldə etdikləri ixtisas və peşələrin ölkənin əmək bazarının tələblərinə uyğunlaşmasına kömək edəcək, azadlıqdan məhrum etmə cəzasının çəkilməsi dövründə müxtəlif peşələr üzrə təhsil almış məhkumların azadlığa qovuşduqdan sonra məşğulluq imkanlarını genişləndirəcək və eyni zamanda, təkrar cinayətlərin, yəni onların residivi hallarının qarşısının alınması işində müsbət rol oynayacaqdır.

***İstifadə olunmuş mənbə:***

***"Cinayət, cəza, islah" VII Beynəlxalq Penitensiar Forum. İştirakçıların çıxışlarının və məruzələrinin tezislərinin toplusu (rus dilində). Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası, Ryazan, 2025. Tom 1, Səh. 131–135.***

## Məcmuənin (dərginin) hazırlanmasında istifadə edilmiş kitab və məqalələrin siyahısı

**1.** M. Hümbətov. Cəza və onun icrası. Bakı, "Hüquq ədəbiyyatı" nəşriyyatı. 1999, 206 s.
**2.** M.H. Hümbətov. Cinayət cəzaları, onların icrası və problemləri. Bakı, "Hüquq Yayın Evi" nəşriyyatı. 2021, 336 s.
**3**. Quluyev Cabir, Hümbətov Musa, Mustafayev Novruz. Azərbaycan Respublikasının Cəza-icra hüququ. Dərs vəsaiti. Bakı, "Hüquq Yayın Evi" nəşriyyatı. 2022, 576 s.
**4.** Müasir dövrdə məhkumların sosial adaptasiyasının bəzi problemləri. // "Qanunçuluq" jurnalı. Bakı, 1996. № 8, Səh. 3–10.
**5.** Yeni İslah-Əmək (Cinayət-İcra) Məcəlləsi haqqında. // "Qanunçuluq jurnalı". Bakı, 1996. № 10, Səh. 22–28.
**6**. Cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə və cəzanı daha yüngül cəza ilə əvəz etmənin bəzi problemləri. // "Qanunçuluq" jurnalı. Bakı, 1997. № 1-2, Səh. 62–65.
**7.** Hümanizmin yeni nümunəsi. // "Qanunçuluq" jurnalı. Bakı, 1997. № 3, Səh. 20–25.
**8.** Beynəlxalq penitensiar əməkdaşlıq. // "Beynəlxalq hüquq" jurnalı. Bakı, 1998. № 2, Səh. 32–37.
**9.** Azərbaycan Pespublkasında ömürlük azadlıqdan məhrum etmə cəzası və onun icrasının bəzi problemləri. // "Qanunçuluq" jurnalı. Bakı, 1999. № 3, Səh. 13–18.
**10.** Azərbaycan Pespublkasında azadlıqdan məhrum etmə cəzasının müddəti və onun bəzi problemləri. // "Hüquqi dövlət və qanun" jurnalı. Bakı, 1999. № 5, Səh. 36–38.
**11.** Azərbaycan Pespublkasında məhkumlara islah-əmək təsiri tədbirləri ilə bağlı olmayan cinayət cəzalarının icrasının bəzi problemləri. // "Qanun" jurnalı. Bakı, 1999. № 5–6, Səh. 56–61.
**12.** Tərbiyə-əmək profilaktoriyasına göndərmə növündə cəzanın icrası və onun gələcək perspektivləri. // "Qanunçuluq" jurnalı, Bakı, 1999. № 5, Səh. 7–10.
**13.** Cəzaların İcrası Məcəlləsinin yeni layihəsi haqqında. // "Cəmiyyət və cəza" jurnalı, Bakı, 2000. № 1, Səh. 22–25.
**14.** Azərbaycan Respublikasında azadlıqdan məhrum etmə növündə cə-

zanın icrası problemləri (rus dilində). // Avropada cinayətkarlıq və cinayət siyasəti (Cinayət hüququ və cinayətkarlıq. Orta və Şərqi Avropada inkişafı). Bohum, Almaniya, Doktor N. Brokmayer. 2004. Tom 1, Səh. 249–260.

**15.** Azərbaycan Respublikasında cəza-icra qanunvericiliyinin inkişaf perspektivləri (rus dilində). // "Cəza-İcra Məcəlləsinin 10 illiyi" mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materiallarının toplusu. Ryazan, Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası. 2007. I hissə, Səh. 30–36.

**16**. Azadlıqdan məhrum edilmiş şəxslərin təsnifatı və onun təkmilləşdirilməsi. // "Qloballaşan cəmiyyətdə hüquq elminin aktual problemləri" mövzusunda Hüquq fakultəsinin 80 illik yubileyinə həsr olunmuş Respublika elmi konfransının materialları. Bakı Dövlət Unuversiteti, 2008. Səh. 79–81.

**17.** Azərbaycan Respublikasında azadlıqdan məhrum etməyə alternativlər (rus dilində). // "Rusiya Federasiyasında cəzaların icrasının islahatları prosesinin təmin edilməsi" mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materiallarının toplusu. Ryazan, Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası, 2010. Səh. 36–38.

**18.** Azadlıqdan məhrum etmə növündə cəzanın icrası modelləri (rus dilində). // "Rusiya Federasiyasının cəza-icra sistemi modernləşdirmə mərhələsində: müasir vəziyyət və inkişaf perspektivləri" mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materiallarının toplusu. Ryazan, Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası, 2012. Tom I. Səh. 116–119.

**19.** Penitensiar komplekslər–Azərbaycan Respublikasında cəzaçəkmə müəssisəsinin yeni növü kimi (rus dilində). // "Cinayət, cəza və islah" Beynəlxalq Penitensiar Forumun Plenar iclasının materiallarının toplusu. Ryazan, Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası, 2013. Tom I, Səh. 141–149.

**20.** Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi barədə Azərbaycan Respublikasının Qanunu–təqsirsizlik prezumpsiyasının həyata keçirilməsinin fundamental əsası kimi (rus dilində). // "Elmi-publisistik xəbərlər". Ryazan, Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası, 2014. № 7, Səh. 80–87.

**21.** 1920–2014-cü illərdə Azərbaycan Respublikasında cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə institutu və onunla ilə bağlı qanunvericiliyin inkişafı (rus dilində). // "Müasir dövrdə cəza-icra sistemi və onun inkişaf perspektivləri" mövzusunda Beynəlxalq elmi-praktiki konfransın iştirakşılarının çıxışlarının və tezislərinin toplusu. Ryazan, Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası, 2014. Tom I, Səh. 176–185.

**22.** Azərbaycan Respublikasında azadlıqdan məhrum etmə növündə cəza (rus dilində). // "Cinayət, cəza, islah" II Beynəlxalq Penitensiar Forumunun iştirakşılarının çıxış və məruzələrinin tezislərinin toplusu. Ryazan, Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası, 2014. Tom 1. Səh. 101–105 (V.İ.Rzayevlə billikdə).

**23.** Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma növündə cəza (rus dilində). // "Cinayət, cəza, islah" II Beynəlxalq Penitensiar Forumunun iştirakçılarının çıxış və məruzələrinin tezislərinin toplusu. Ryazan, Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası, 2015. Tom 4, Səh. 250–255.

**24.** Azərbaycan Respublikasında ömürluk azadlıqdan məhrum etmə (rus dilində). // "Beynəlxalq penitensiar jurnal" (elektron versiyada) https://ipj.editorum.ru/. Ryazan, Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası, 2015. № 1, Səh. 55–58 (C.A. Nəzərovla birlikdə).

**25**. 2000–2015-ci illərdə Azərbaycan Respublikasında penitensiar sistemin islahatının nəticələri və onun gələcək perspektivləri (rus dilində). // "Cəza-icra hüququ". Elmi jurnal, Ryazan, Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası. 2016. № 4, Səh. 5–7.

**26.** Azərbaycan Respublikasında cərimə növündə cəza (rus dilində). // "Cəza-icra siyasəti və cəzanın icrası məsələləri" mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materiallarının toplusu. Ryazan, Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası, 2016. Tom I, Səh. 139–149.

**27**. Azərbaycan Respublikasında islah işləri növündə cəza (rus dilində). // Cinayət, cəza, islah. III Beynəlxalq Penitensiar Forumunun iştirakçılarının çıxış və məruzələrinin tezislərinin toplusu. Ryazan, Rusiya

Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası, 2017. Tom 1. Səh. 103–113.

**28.** Azərbaycan Respublikasında ictimai işlər növündə cəza (rus dilində). // "İnsan: cinayət və cəza" Elmi jurnal. Ryazan, Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası, 2017. Tom 25 (1–4), № 1, Səh. 49–54.

**29**. Azərbaycan Respublikasında hərbi xidmət üzrə məhdudlaşdırma və intizam xarakterli hərbi hissədə saxlama növündə cəzaların icrası (rus dilində). // "Cəza-icra hüququ" Elmi jurnal. Ryazan, Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası, 2017. Tom 12 (1–4). № 2, Səh. 206–209.

**30**. Azərbaycan Respublikasında ictimai işlər növündə cəza ilə əlaqədar qanunvericilikdə yeniliklər (rus dilində). // "Cəza-icra hüququ". Elmi jurnal. Ryazan, Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası, 2018. Tom 13 (1–4). № 2, Səh. 217–221.

**31**. Azərbaycan Respublikasında azadlığın məhdudlaşdırılması növündə cəza (rus dilində). // "Rusiya Federasiyasında və xaricdə cəza-icra sisteminin nəzəri və praktiki problemləri" mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materiallarının toplusu. Ryazan, Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası. 2018. Tom I, Səh. 196—209.

**32.** Azərbaycan Respublikasında probasiya və onun inkişaf perspektivləri (rus dilində). // "Cəza-icra hüququ" Elmi jurnal. Ryazan, Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası, 2019. Tom 14 (1–4), № 2, Səh. 170–174.

**33.** Cəza-icra sisteminin əməkdaşlarının peşə imicinin formalaşmasında ixtisaslaşdırılmış təhsil müəssisəsinin rolu. // "Qanun" jurnalı. Bakı, 2019. № 4 (294), Səh. 40–44 (K.V. Zotova ilə birlikdə).

**34.** Azərbaycan Respublikasında nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə növündə cəza və onun icrası (rus dilində). // "Cinayət, cəza, islah" IV Beynəlxalq Penitensiar Forumunun Plenar iclasında iştirakşılarının çıxış və məruzələrinin tezislərinin toplusu. Ryazan, Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası, 2019. Tom 1, Səh. 52–57.

**35.** Azərbaycan Respublikasında probasiya: ilk nəticələr və inkişaf perspektivləri (rus dilində). // Beynəlxalq penitensiar jurnal /https: //ipj.editorum.ru/. Ryazan, Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası, 2020. Tom 2 (1–3), № 1, Səh. 46–52.
**36.** Azərbaycan Respublikasında müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cəza və hüquqi şəxsi müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə cinayət-hüquqi tədbiri və onların icrası (rus dilində). // "Cəza-icra hüququ" Elmi jurnal. Ryazan, Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası. 2020. Tom 15 (1–4), № 1, Səh. 68–74.
**37.** Azərbaycan Respublikasında cəzaların icrasında elektron nəzarət vasitələrindən istifadə edilməsi (rus dilində). // "Rusiya Federasiyasında və xaricdə cəza-icra sisteminin nəzəri və praktiki problemləri" mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materiallarının toplusu. Ryazan, Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası. 2020. Tom I, Səh. 52–57.
**38.** Azərbaycan Respublikasında hamilə qadınlar və azyaşlı uşaqları olan şəxslər tərəfindən cəzanın çəkilməsinin təxirə salınması (rus dilində). // "Cinayət, cəza və islah" V Beynəlxalq Penitensiar Forumun Plenar iclası iştirakçılarının cıxış və məruzələrinin toplusu. Ryazan, Rusiya Federasiyasının Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası, 2021. Tom 1, səh. 29–34.
**39.** Azərbaycan Respublikasının Qarabağ və Sərqi-Zəngəzur iqtisadi rayonlarında yeni penitensiar müəssisələrin təşkili, həmin ərazilərdə yaşayan həbs edilmiş şəxslərin və məhkumların hüquq və azadlıqlarının daha səmərəli həyata keçirilməsinin imkanı kimi (rus dilində). // "Rusiya Federasiyasının cəza-icra sisteminin 2030-ci ilədək müddətdə inkişaf konsepsiyası nəzərə alınmaqla, cəza-icra sistemi müasir dövrdə" mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materiallarının toplusu. Plenar iclas iştirakçılarının cıxış və məruzələrinin toplusu. Ryazan, Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası. 2022. Tom I, Səh. 324–327.
**40.** 2016–2022-ci illərdə Azərbaycan Respublikasının cəza-icra sisteminin islahatının davam etdirilməsi və onun inkişaf perspektivləri (rus dilində). // Praha, Czech Republic. Journal Scientific discussion.

2023. V.1 (77), pp. 27–31.
**41.** Heydər Əliyev və Azərbaycan Respublikasının cəza-icra sistemi (rus dilində). // Praha, Czech Republic. Journal Sciences of Europe, 2023. № 120, pp. 27–31.
**42.** Azərbaycan Respublikasında cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsi (rus dilində). // “Cinayət, cəza və islah” VI Beynəlxalq Penitensiar Forumun Plenar iclası iştirakçılarının cıxış və məruzələrinin toplusu. Plenar iclasın materialları. Ryazan, Rusiya Federasiyasının Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası, 2023. Tom 1, Səh. 75–82.
**43.** Azərbaycan Respublikasında cəzaların icrasına nəzarətin həyata keçirilməsinin xüsusiyyətləri (rus dilində). // “Cəza-icra hüququ” Elmi jurnal. Ryazan, Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası. 2023. Tom 18 (1–4), № 4, Səh. 516–522.
**44.** Azərbaycan Respublikasında azadlıqdan məhrum edilmiş şəxslərin sayının artmasının səbəbləri və qarşısının alınmasının mümkün yolları (rus dilində). // Journal Annali d’Italia. İtaly. 2024. № 56, pp. 12–24.
**45.** Azərbaycan Respublikasında cinayət cəzaları: dəyişikliklər və onların inkişaf perspektivləri (rus dilində) // Journal Znanstvena misel journal. Slovenia. 2024. № 92, pp. 20–26.
**46.** Azərbaycan Respublikasında xüsusı və ya hərbı rütbədən, fəxrı addan və dövlət təltifindən məhrum etmə növündə cəza (rus dilində) // Journal The scientific heritage. Hunqary. 2024. № 143. pp. 43–47.
**47.** Azərbaycan Respublikasında cəza təyin edilməklə yanaşı narkomaniyadan tibbi xarakterli məcburi tədbirlər tətbiq edilmiş şəxslər barədə məhkəmə qərarlarının icrası vəziyyəti və bu sahədə fəaliyyətin təkmilləşdirilməsi yolları (rus dilində) // Danish Scientific Journal. Denmark. 2024. № 88. pp. 19–25.
**48.** Azərbaycan Respublikasının cinayət və cəza-icra qanunvericiliyinin Konsitusiya Məhkəməsinin nəzarəti kontekstində təkmilləşdirilməsi (rus dilində). // “Rusiya Federasiyasının cəza-icra sistemi: cinayət cəzalarının icrası, probasiya tədbirlərinin həyata keçirilməsi, dövlət orqanları və vətəndaş cəmiyyəti institutları ilə qarşılıqlı əlaqə” mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materiallarının toplusu. Plenar iclas iştirakçılarının cıxış və məruzələrinin toplusu. Ryazan,

Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası. 2024. Tom I, Səh. 127–131.
**49.** Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi: dəyişikliklər, inkişaf perspektivləri (rus dilində). // "Cəza-icra hüququ" Elmi jurnal. Ryazan, Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası. 2024. Tom 19 (1–4), № 4, Səh. 632–641.
**50.** Azərbaycan Respublikasında azadlıqdan məhrum edilmiş şəxslərin xarici aləmlə əlaqələri, onların inkişaf perspektivləri (rus dilində). // Slovak international scientific journal. Slovakia. 2025. № 94, pp. 62–69.
**51.** Azərbaycan Respublikasında qadınlara cinayət cəzalarının təyin edilməsinin və qadın məhkumların cəzalarının icrasının xüsusiyyətləri. // Norwegian Journal of development of the International Science. Norway. 2025. № 156. pp. 49–58.
**52.** Azərbaycan Respublikasında əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə cinayət cəzalarının təyin edilməsinin və onların cəzalarının icrasının xüsusiyyətləri. // International independent scientific journal. Poland. 2025. № 75, pp. 7–15.
**53.** Azərbaycan Respublikasında şərti məhkum etmə institutu: tətbiqi və təkmilləşdirilməsi yolları. // German International Journal of Modern Science. Germany. 2025. № 111. VOL. 1. pp. 20–23.
**54.** Azərbaycan Respublikasında yetkinlik yaşına çatmayanlara cinayət cəzalarının təyin edilməsinin və onların cəzalarının icrasının xüsusiyyətləri. // Journal Annali d'Italia. İtaly. 2025. № 71, pp. 21–32.
**55.** Cəzaçəkmə müəssisələrində məhkumların peşə təhsilinin təkmilləşdirilməsi–Azərbaycan Respublikasının cəza-icra sisteminin islahatının yeni istiqaməti kimi (rus dilində). // "Cinayət, cəza və islah" VII Beynəlxalq Penitensiar Forumun Plenar iclas iştirakçılarının cıxış və məruzələrinin toplusu. Ryazan, Rusiya Federasiyasının Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası, 2023. Tom 1, səh. 131–135.
**56.** Azərbaycan Respublikasında 2011–2025-ci illərdə amnistiya və əfvetmə institutlarının tətbiqi və onların xüsusiyyətləri. // Journal of sciense. Lyon. France. 2026. № 74, pp. 32–41.

## Hümbətov Musa Hümbət oğlu haqqında

Hümbətov Musa Hümbət oğlu 1957-ci ilin 29 iyununda Ağsu rayonunda anadan olmuşdur. 1974-cü ildə həmin rayonun 1 nömrəli orta məktəbini bitirdikdən sonra Azərbaycan SSR Elmlər Akademiyasının Kibernetika İnstitutunda kiçik laborant vəzifəsində işləmişdir. Sabiq SSRİ-nin Silahlı Qüvvələri sırasında həqiqi hərbi xidmət keçdikdən sonra M.Hümbətov xidmət etdiyi hərbi hissənin göndərişi əsasında 1978-ci ilin mart ayında Azərbaycan SSR Daxili İşlər Nazirliyinin İslah-Əmək Müəssisələri İdarəsinin 1 nömrəli İstintaq Təcridxanasında nəzarətçi vəzifəsinə qəbul edilmişdir.

1980-cı ilin sentyabrında göndərişlə sabiq SSRİ-nin Daxili İşlər Nazirliyinin Ryazan Ali Məktəbinə qəbul olunmuş və 1984-cü ilin iyul ayında həmin ali təhsil müəssisəsinin hüquq fakultəsini fərqlənmə diplomu ilə bitirərək, hüquqşünas ixtisasına yiyələnmişdir. Eyni zamanda, həmin vaxt ona ilk "daxili xidmət leytenantı" xüsusi rütbəsi verilmişdir. Təhsil illərində M.Hümbətov əla qiymətlərlə oxuduğuna, nümunəvi intizama, habelə təhsil müəssisəsinin ictimai həyatında fəal iştirakına görə dəfələrlə mükafatlandırılmış, sabiq SSRİ-nin Ümumittifaq Lenin Kommunist Gənclər İttifaqının döş nişanları və fəxri fərmanları ilə təltif edilmişdir.

1984-cü ilin sentyabr ayından Azərbaycan SSR Daxili İşlər Nazirliyinin İslah-Əmək Müəssisələri İdarəsinin İstintaq təcridxanaları bölməsində əməliyyat müvəkkili kimi fəaliyyətə başlamış M.Hümbətov qısa müddətdən sonra böyük əməliyyat müvəkkili, bölmə və şöbə rəisi vəzifələrinə irəli çəkilmişdir.

M.Hümbətov 1993-cü ilin mart ayından Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Qərarlarının İcrası Baş İdarəsində Qərargah rəisi, 2008–2017-ci illərdə isə, Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Təşkilat-Nəzarət İdarəsinin rəisi vəzifəsində işləmişdir. Xidməti vəzifələrini nümunəvi yerinə yetirdyinə, uzunmüddətli qüsursuz fəaliyyətinə görə M.Hümbətov nazirliyin rəhbərliyi tərəfindən dəfələrlə həvəsləndirimiş, üç dəfə vax-

tından əvvəl xüsusi rütbə verilməklə mükafatlandırılmış, 2004-cü ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə, 2008-ci ildə isə Ədliyyə nazirinin əmri ilə "Fəxri ədliyyə işçisi" döş nışanı ilə təltif edilmişdir. 2018-ci ildə M.Hümbətov "Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918–2018)" Azərbaycan Respubliukasının yubiley medalı ilə təltif edilmişdir.

2017-ci ilin iyul ayında M.Hümbətov Ədliyyə Nazirliyinin İcra Baş İdarəsinə keçirilmiş, həmin ilin 01 dekabrından nazirliyin nəzdində fəaliyyətə başlamış Probasiya Xidmətinin rəis müavini vəzifəsinə təyin edilmişdir. Qanunvericiliyə uyğun olaraq 2022-ci ilin iyul ayında baş ədliyyə müşaviri xüsusi rütbəsində yaş həddi ilə əlaqədar pensiyaya çıxmışdır.

M.Hümbətov xidməti fəaliyyəti ilə yanaşı ölkədə həyata keçirilən hüquqi islahatlar çərçivəsində islah-əmək, sonradan cəza-icra qanunvericiliyinin təkmilləşdirilməsi işində yaxından iştirak etmiş, qeyd olunan hüquq sahəsində bir sıra qanunvericilik aktlarının, xüsusilə Azərbaycan Respublikasının yeni Cəzaların İcrası Məcəlləsinin layihəsinin hazırlanmasında fəallıq göstərmişdir. 1996-cı ildə Müstəqil Dövlətlər Birliyinin Parlamentlərarası Assambleyası tərəfindən üzv dövlətlər üçün qəbul edilmiş Cəza-İcra Məcəlləsinin modelini hazırlayan İşçi qrupun üzvü olmuş M.Hümbətovun təcrübədə rast gəlinən problemlərin həllinə yönəlmiş çoxsaylı təklifləri, həmin sənədin hazırlanmasında iştirak etmiş müxtəlif dövlətləri təmsil edən alimlər, habelə praktiki əməkdaşlar tərəfindən müsbət qiymətləndirilməklə müvafiq layihəyə daxil edilmişdir. Sözügedən model məcəllə sonradan Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin layihəsi hazırlanarkən əsas kimi götürülmüşdür.

M.Hümbətov dünyanın müxtəlif ölkələrində cəzaların icrası ilə əlaqədar fəaliyyətə həsr edilmiş çoxsaylı beynəlxalq konfrans və seminarlarda, ölkəmizin Avropa Şurası, Avropa İttifaqı ilə əməkdaşlığı çərçivəsində keçirilmiş tədbirlərdə, habelə 2015-ci ilin noyabrında BMT-nin İşgəncələrə qarşı Komitəsində İşgəncələrə qarşı Konvensiyanın icrası ilə bağlı Azərbaycan Respublikasının

növbəti dövrü hesabatının müzakirəsi zamanı öz dövlətini layiqincə təmsil etmişdir.

Eyni zamanda, M.Hümbətov elmi-pedoqoji fəaliyyətlə məşgul olmuş, 2000-ci ildən başlayaraq on beş il müddətində Bakı Dövlət Universitetinin Hüquq Fakultəsinin Cinayət hüququ və Kriminogiya kafedrasının Cəza-icra hüququ üzrə müəllimi (saathesabı) işləmişdir. O, pespublikada cəzaların icrasına həsr edilmiş "Cəza və onun icrası" adlı ilk tədris vəsaitinin, "Cəza-icra hüququ" dərsliklərinin, habelə müvafiq hüquq sahəsində bir neçə tədris proqramının müəllifi və ya həmmmüəllifidir.

M.Hümbətov Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasında da pedaqoji fəaliyyətlə məşgul olmuş və orada Elmi Şuranın üzvlüyünə seçilmişdir.

M.Hümbətov 1996–2025-ci illərdə Azərbaycan Respublikasında, Rusiya Federasiyasında və Avropanın on ölkəsində dərc olunmuş cinayət cəzalarına, habelə onların icrasına həsr edilmiş on dörd müxtəlif kitabın, məcmuənin, toplunun, əllidən çox elmi məqalənin müəllifi və ya həmmüəllifidir.

Təhsil dövründə, habelə ondan sonrakı illərdəki fəaliyyət göstərdiyi sahədə əldə etdiyi uğurlar, habelə öz ali təhsil müəssisəsi ilə daim sıx əlaqə saxladığı, burada keçirilən müxtəlif tədbirlərdə fəal iştirakı nəzərə alınaraq, 2013-cü ildə M.Hümbətovun şəkili Rusiya Federasiyasının Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyasının tanınmış məzunlarına həsr edilmiş "Bizim fəxrimiz" adlı şərəf lövhəsinə vurulmuş və bu günə kimi orada qalmaqdadır. Həmin ali təhsil müəssisəsinin Elmi Şurasının 22 oktyabr 2014-cü il il tarixli qərarı ilə ona Hüquq və İdarəetmə Akademiyasının "Fəxri professor"u adı verilmişdir. 2019-cu ildə dərc olunmuş, hüquqmühafizə sahəsindəki fəaliyyətdə yüksək nəticələr əldə etmiş, habelə xidməti vəzifələrinin yerinə yetirilməsi zamanı qəhrəmancasına həlak olmuş Akademiyanın 1975–2008-ci illərdə 46 məzununa həsr edilmiş "Akademiya onlarla fəxr edir" adlı məcmuəyə, habelə 2024-cü ildə işıq üzü görmüş, həmin ali təhsil müəssisəsinin 90 illiyinə həsr edilmiş yubiley kitabına, xidmət etdikləri fəaliyyət sahələrində daha yük-

sək nailiyyətlər əldə etmiş sözügedən təhsil oçağının bir qrup məzunları ilə bağlı bölməsinə M.Hümbətov barədə məlumat və onun şəkili daxil edilmişdir.

M.Hümbətov hazırda pensiyada olmasına baxmayaraq, uzunmüddətli fəaliyyəti dövründə əldə etdyi təcrübəyə istinad etməklə öz elmi axtarışlarını davam etdirir. O, təkcə 2022–2025-ci illərdə cəzalar, onların icrası problemlərinə həsr edilmiş iyirmidən çox elmi məqalənin müəllifi, habelə "Azərbaycan Respublikasının Cəza-icra hüququ" dərs vəsaitinin (2022-ci il, Bakı. 576 s.), həmmüəllifi, habelə "Rusiya Federasıyasının və Azərbaycan Respublikasının Cəza-icra hüququ. Ümumi hissə (rus dilində). (2023-cü il, Ryazan, 342 s.)" dərsliyinin həmmüəllifi və həmredaktoru olmuşdur. M. Hümbətov "Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi" publik hüquqi şəxsin tabeliyindəki Hüquq və İnsan Hüquqları İnstititunun Ekspertlər Şurasının üzvüdür.

## M Ü N D Ə R İ C A T

**Ön söz** ........................................................................................ **3**
**Giriş** .............................................................................................. **5**

**I HİSSƏ**
**CİNAYƏT CƏZASI, ONUN NÖVLƏRİ, CƏZADAN AZAD ETMƏ İNSTİTUTLARI, CƏZAÇƏKMƏ MÜƏSSİSƏLƏRİNİN NÖVLƏRİ, CƏZALARIN İCRASI QAYDALARI**

Cəza: anlayışı, məqsədləri və növləri ............................................. **15**

Tərbiyə-əmək profilaktoriyasına göndərmə növündə cəza, onun icrası və gələcək perspektivləri ............................................................ **22**

Məhkumu əməyə mütləq cəlb etməklə azadlıqdan şərti məhrum etmə, əməyə mütləq cəlb olunmaqla azadlıqdan məhrum etmə yerlərindən şərti azad etmə, onların icra qayda və şərtləri .................... **27**

Azərbaycan Respublikasında məhkumlara islah-əmək təsiri tədbirləri ilə bağlı olmayan cinayət cəzalarının icrasının bəzi problemləri .......... **38**

Azərbaycan Respublikasında azadlıqdan məhrum etməyə alternativlər ............................................................................................ **52**

Azərbaycan Respublikasında cərimə növündə cəza ......................... **58**

Azərbaycan Respublikasında nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə növündə cəza və onun icrası ...................... **72**

Azərbaycan Respublikasında müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cəza, hüquqi şəxsi müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cinayət-hüquqi tədbir və onların icrası ............ **79**

Azərbaycan Respublikasında xüsusı və ya hərbı rütbədən, fəxri addan və dövlət təltıfından məhrum etmə növündə cəza....................... **89**

Azərbaycan Respublikasında ictimai işlər növündə cəza: qanunvericilikdə yeniliklər .............................................................. **100**

Azərbaycan Respublikasında islah işləri növündə cəza ................. **110**

Azərbaycan Respublikasında hərbi xidmət üzrə məhdudlaşdırma

və intizam xarakterli hərbi hissədə saxlama növündə cəzalar və onların icrası ........ 125

Azərbaycan Respublikasında azadlığın məhdudlaşdırılması növündə cəza ........ 130

Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma növündə cəza ........ 145

Azərbaycan Respublikasında probasiya və onun inkişaf perspektivləri ........ 153

Azərbaycan Respublikasında cəzaların icrası prosesində elektron nəzarət vasitələrindən istifadə edilməsi........ 162

Azərbaycan Respublikasında müəyyən müddətə azadlıqdan məhrum etmə cəzası ........ 170

Azadlıqdan məhrum edilmiş şəxslərin təsnifatı və onun təkmilləşdirilməsi ........ 176

Azərbaycan Pespublkasında azadlıqdan məhrum etmə cəzasının müddəti və onun bəzi problemləri ........ 180

Azərbaycan Respublikasında ömürlük azadlıqdan məhrum etmə cəzası və onun icrasının bəzi problemləri ........ 187

Azərbaycan Respublikasında ömürlük azadlıqdan məhrum etmə cəzası ........ 196

Azərbaycan Respublikasında cinayət cəzaları: dəyişikliklər və inkişaf perspektivləri........ 201

Azadlıqdan məhrum etmə növündə cəzanın icrası modelləri ........ 217

Penitensiar komplekslər - Azərbaycan Respublikasında cəzaçəkmə müəssisəsinin yeni növü kimi ........ 222

Azərbaycan Respublikasının Qarabağ və Sərqi-Zəngəzur iqtisadi rayonlarında yeni penitensiar müəssisələrin təşkili, həmin ərazilərdə yaşayan həbs edilmiş şəxslərin və məhkumların hüquq və azadlıqlarının daha səmərəli həyata keçirilməsinin imkanı kimi........ 231

Azərbaycan Respublikasında azadlıqdan məhrum etmə növündə cəzanın icrası problemləri ........ 236

Azərbaycan Respublikasında azadlıqdan məhrum edilmiş şəxslərin sayının artmasının səbəbləri və qarşının alınmasının mümkün yolları...... 252

Azərbaycan Respublikasında şərti məhkum etmə: tətbiqi və təkmilləşdirilməsi yolları...................................................................... 283

Cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə və cəzanı daha yüngül cəza ilə əvəz etmənin bəzi problemləri ........................... 293

Azərbaycan Respublikasında cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə institutu və onunla ilə bağlı qanunvericiliyin inkişafı (1920-2014-cü illər) .............................................................. 299

Azərbaycan Respublikasında cəzanın çəkilməmiş hissəsinin daha yüngul cəza növü ilə əvəz edilməsi................. .................................. 312

Azərbaycan Respublikasında hamilə qadınlar və azyaşlı uşaqları olan şəxslər tərəfindən cəzanın çəkilməsinin təxirə salınması............. 324

Azərbaycan Respublikasında 2011–2025–ci illərdə amnistiya və əfvetmə insitutlarının tətbiqi və onların xüsusiyyətləri................... .... 332

Azərbaycan Respublikasında cəza təyin edilməklə yanaşı narkomaniyadan tibbi xarakterli məcburi tədbirlər tətbiq edilmiş şəxslər barədə məhkəmə qərarlarının icrası vəziyyəti və bu sahədə fəaliyyətin təkmilləşdirilməsi yolları................................................... 359

Azərbaycan Respublikasında azadlıqdan məhrum edilmiş şəxslərin xarici aləmlə əlaqələri, onların inkişaf perspektivləri........................... 375

Azərbaycan Respublikasında qadınlara cinayət cəzalarının təyin edilməsinin və məhkum qadınların cəzalarının icrasının xüsusiyyətləri............................................................................................. 395

Azərbaycan Respublikasında yetkinlik yaşına çatmayanlara cinayət cəzalarının təyin edilməsinin və onların cəzalarının icrasının xüsusiyyətləri............................................................................................. 417

Azərbaycan Respublikasında əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə cinayət cəzalarının təyin edilməsinin və onların cəzalarının icrasının xüsusiyyətləri................................................................... ... 448

## II HİSSƏ
## CƏZA-İCRA SİSTEMİ, CƏZALARIN İCRASI QANUNVERİCİLİYİ, TARİXİ VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ YOLLARI


Heydər Əliyev və Azərbaycan Respublikasının cəza-icra sistemi......**471**

Cəzaların icrasını tənzimləyən qanunvericilik və onun vəzifələri .... **483**

Yeni İslah-Əmək (Cinayət-İcra) Məcəlləsi haqqında ..................... **490**

Humanizmin yeni nümunəsi ........................................................ **496**

Cəzaların İcrası Məcəlləsinin yeni layihəsi haqqında .................... **504**

Azərbaycan Respublikasının cəzaların icrası qanunvericiliyinin inkişafı ........................................................................................ **512**

Azərbaycan Respublikasının cəzaların icrası qanunvericiliyinin inkişaf perspektivləri .................................................................. **517**

Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi: dəyişikliklər və təkmilləşdirilmə perspektivləri.......................................... ........... **524**

Azərbaycan Respublikasının cinayət və cəza-icra qanunvericiliyinin Konsitusiya Məhkəməsinin nəzarəti kontekstində təkmilləşdirilməsi...............................................................**535**

"Həbs yerlərində saxlanılan şəxsləri hüquq və azadlıqlarının təmin edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu – təqsirsizlik prezumpsiyasının həyata keçirilməsinin fundamental əsası kimi ........................................................................... **540**


## III HİSSƏ
## MƏHKUMLARIN SOSİAL ADAPTASİYASI, CƏZALARIN İCRASI SAHƏSİNDƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ, İŞÇİ HEYƏTİNİN STATUSU VƏ PEŞƏ İMİCİ


Müasir dövrdə məhkumların sosial adaptasiyasının bəzi problemləri ..................................................................................... **547**

Beynəlxalq penitensiar əməkdaşlıq ............................................ **559**

Cəzaları icra edən müəssisə və orqanların işçi heyətinin statusu.. .. **567**

Cəza-icra sisteminin əməkdaşlarının peşə imicinin formalaşmasında ixtisaslaşdırılmış təhsil müəssisəsinin rolu......................................... **578**

## IV HİSSƏ
## AZƏRBAYCAN RESPUBLİKASININ CƏZA-İCRA SİSTEMİNİN İSLAHATLARI VƏ ONLARIN NƏTİCƏLƏRİ

1993–2000-ci illərdə Azərbaycan Respublikasının penitensiar sistemində həyata keçirilən islahatlar haqqında .................................. **585**

2000–2015-ci illərdə Azərbaycan Respublikasında penitensiar sistemin islahatının nəticələri və onun gələcək perspektivləri ............. **595**

2016–2022-ci illərdə Azərbaycan Respublikasının cəza-icra sistemində islahatlar, onların davamı perspektivləri.................................... **600**

Cəzaçəkmə müəssisələrində məhkumların peşə təhsilinin təkmilləşdirilməsi – Azərbaycan Respublikasının cəza-icra sisteminin islahatının yeni istiqaməti kimi........................................................... **618**

**Məcmuənin (dərginin) hazırlanmasında istifadə edilmiş kitab və məqalələrin siyahısı ......................................................................... 624**

**Hümbətov M.H. haqqında ........................................................... 631**

# M.H. Hümbətov

## Cinayət cəzaları, onların icrası, problemləri və həlli yolları

Formatı: 60x84 1/16
Mətbəə kağızı № 1
Fiziki çap vərəqi: 40
Tirajı: 100